# QURANİ-KƏRİMDƏ
# İMAMƏT
# AYƏLƏRİ

*Əbülqasim Əlyan Nejadi*

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR RƏHMANİR RƏHİM**

***Kitabın adı: Qurani-Kərimdə "İmamət" ayələri***

***Müəllif: Əbülqasim Əlyan Nejadi***

***Tərcümə: Mərdan Zalov***

***Ədabi redaktor: Seyid Azər Əhmədoğlu***

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK 631/B saylı 15 avqust 2013-cü il tarixli məktubu ilə kitabın çap olunmasına və idxalına razılıq verilmişdir.*

***Kitabın cap hüquqları qorunur***

## *Müqəddimə*

Hicri-şəmsi 1379-cu il fərvərdin ayının 26-sının (mart ayına təsadüf edir) "Qədir-Xum" adlı islami bayrama təsadüf etməsi səbəbi ilə həmin ili həzrət Əli ibn Əbu Talibin (ə) möhtərəm adı şərəfinə "Əmirəl-möminin ili" adlandırmışlar. Həzrət Əliyə (ə) sevgisi olan şəxslərin onun fəzilət, kamal, üslub, söz, idarəçilik, əxlaq və digər xüsusiyyətləri barədə daha ətraflı məlumat əldə etməsi üçün geniş və əhatəli toplantı və seminarlar təşkil etməsi diqqətəlayiq hesab olunur

Əvvəlki ənənəsinə uyğun olaraq Ayətullah Məkarim Şirazi Ramazan ayında təfsir dərsləri verirdi. O, qeyd olunan münasibətlə bağlı "Əmirəl-mömininlə əlaqədar imamət ayələri"nin təfsirinə başlayır. Ümidvarıq ki, Quran və onun həqiqi təfsirçisi həzrət Əlinin (ə) vasitəsi ilə iman nuru günbəgün bizim qəlbimizdə artaraq daha da möhkəmlənər və yalnız bizim deyil, digərlərinin də hidayət olunmasına səbəb olar.

## *Hazırkı kitab*

Allaha şükürlər olsun ki, möhtərəm ustadın elmi məclislərində əhatəli, diqqəti cəlb edən və maraqlı şəkildə aparılan bütün söhbətləri toplanmış və bəhslərdə istifadə edilən mənbələr kifayət qədər tədqiq olunduqdan və xülasə şəkildə bəyan edilən bəzi mətləblərə geniş şərh verildikdən sonra, çap olunaraq oxucuların xidmətində qoyulmuşdur.

## *Xatırlatma*

1. Ola bilsin ki, Quranda "imamət" və "vilayət"lə bağlı "Peyame Quran" (Quranın mesajları) kitabının doqquzuncu cildi və imamət ayələrilə əlaqədar nisbətən müfəssəl və geniş şəkildə bəyan edilən "Təfsire nümunə"nin ("Nümunə" təfsiri) olması ilə yanaşı, "Bu kitaba nə ehtiyac vardı?"– deyə zehinlərdə sual yaransın.

Bu kitabda bəyan edilən mətləblər sadalanan iki kitaba nisbətən geniş şərhlərlə qeyd edilmişdir. Həmçinin, əhatə dairəsi və ayələrdən istifadə edilən mesajların əhəmiyyətliliyini ifadə etmək və cəmiyyətin ehtiyacını ödəmək baxımından da hazırkı kitab önəmlidir. Burada əvvəlki iki kitabda olmayan yeni mətləblərə toxunulmuş və onların

nəşr edilməsinin zəruri olduğu düşünülmüşdür.

2. Qurani-Kərim təravətli olması ilə yanaşı, onun bütün əsr və zamanlar üçün həmişə təzə və yeni mətləb və mesajları vardır. Nəticədə, indiyə kimi bu əzəmətli və əbədi asimani kitabın şərafətli ayələrinin təfsiri ilə əlaqədar yazılmış olan əsərlərlə kifayətlənilməməli, əksinə bizdən öncəki böyük şəxsiyyətlərin təfsirlərinin köməyi və onların zəhmətlərinin qiymətləndirilməsi sayəsində Quranın mütaliəsini artırmaq və yeni təhqiqatlarla – xüsusən, yeni metod və vasitələrdən istifadə etməklə – bu işi davam etdirmək və araşdırmanın nəticələrini maraqlananların ixtiyarında qoymaq lazımdır.

3. Bu kitabda imamət ayələri üç fəsildə toplanmış və təfsir edilmişdir:

***Birinci fəsil*** – İmamət ayələri və müsəlmanlara rəhbərlik.

***İkinci fəsil*** – Əhli-beytin (ə) fəzilətləri ilə bağlı olan ayələr.

***Üçüncü fəsil*** – Həzrət Əliyə (ə) məxsus olan fəzilətlərlə bağlı ayələr.

Bizə bu kitabın ərsəyə çatması və başa gəlməsində yardımçı olan bütün şəxslərə – xüsusən, dəyərli övladlarıma – və əziz oxuculara nəzər və iradlarını bildirməsi səbəbilə öz təşəkkürümü bildirirəm.

Ümid edirik ki, Qurani-Kərimin parlaq nuru sayəsində həmişə doğru yolda addım atar, söz və əməlimizdə pak və məsum vilayət sahiblərinə tabe olaraq o şəxsiyyətlərin nəzərini cəlb edərik. Amin, ya Rəbbəl aləmin!

رَبَّنا تقبَّل مِنّا اِنَّکَ اَنتَ السَّمِیعُ العلیمُ

***"İlahi! Bizdən əməllərimizi qəbul et! Həqiqətən, sən eşidən və bilənsən!"***

*"Qum" elmi hövzəsi*
*Əbülqasim Əlyan Nejadi, tir (iyun), 1380-ci hicri-şəmsi (2001) ili*

## BİRİNCİ FƏSİL

# İMAMƏT AYƏLƏRİ VƏ MÜSƏLMANLARA RƏHBƏRLİK

# 1 "TƏBLİĞ" AYƏSİ

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

***"Ey Peyğəmbər! Allah tərəfindən sənə nazil olanı (camaata) çatdır. Əgər (bunu) etməsən, onun risalətini yerinə yetirməmisən. Allah səni insanlardan (onların ehtimal edilən şərindən) qoruyacaq. Həqiqətən, Allah kafir olan qövmü hidayət etməz."***

*"Maidə" surəsi, ayə 67*

### *Bəhsə qısa bir nəzər (baxış)*

"Təbliğ" ayəsi adı ilə tanınan bu şərif ayə İslam dünyasının "nübüvvət" və "peyğəmbərlik" məsələsindən sonra ən əhəmiyyətli mövzusu barədə bəhs edir və Peyğəmbərin (s) dəyərli ömrünün axırlarında israrla ona göstəriş verir ki, tamamilə aydın şəkildə özündən sonra "canişin" və "xilafət" məsələsini camaata çatdırsın və camaatın bu baxımdan vəzifəsi müəyyənləşsin. Bu ayənin təfsiri barədə şiə və əhli-sünnə alimləri müxtəlif mətləblər bəyan etmişlər ki, onun şərhi sonradan veriləcək.

## Şərh və təfsir

### *Canişin seçilməsi risalətin sona çatma nöqtəsidir*

İslam Peyğəmbərinə (s) Qurani-Kərimdə müxtəlif cümlələrlə xitab olunur:

**يَا أَيُّهَا الرَّسُولُ *(Ya əyyuhər-rəsul) "Ey Rəsul!"***

**يَا أَيُّهَا الْمُزَّمِّلُ *(Ya əyyuhəl-muzzəmmil) "Ey libasına bürünən!"*[1]**

**يَا أَيُّهَا الْمُدَّثِّرُ *(Ya əyyuhəl-muddəssir) "Ey əbasına bürünüb yatan Peyğəmbər!"*[2]**

**يَا أَيُّهَا النَّبِيُّ *(Ya əyyuhən-nəbiyy) "Ey Peyğəmbər!"*[3]**

Birinci və ikinci xitabda o həzrətin xüsusi zahiri halətinə, amma üçüncü və dördüncü xitabda isə Peyğəmbərin (s) mənəvi və ilahi məqamlarına işarə edilmiş və **يَا أَيُّهَا النَّبِيُّ** (ya əyyuhən-nəbi)– xitabı dəfələrlə Quranda təkrar olaraq işlədilmişdir.

Amma**يَا أَيُّهَا الرَّسُولُ** (Ey Rəsul!) – xitabı təkcə Quranın iki surəsində – biri indi bəhs etdiyimiz ayədə və digəri "Maidə" surəsinin 48-ci ayəsində işlədilmiş və bu ayə ilə uyğunluq təşkil edir. Peyğəmbərə (s) aləmlərin Rəbbi tərəfindən bu şəkildə xitab edilməsi mövzunun əhəmiyyətini göstərir.

***بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ – "Ey Peyğəmbər! Allahın sənin öhdənə qoyduğu xüsusi vəzifəni yerinə yetir və onu camaata çatdır!"***

Bu vəzifə canişin təyin edilməsindən başqa, bir şey deyildi.

***وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ – "Əgər (bunu) etməsən, onun risalətini yerinə yetirməmisən."***

Öhdənə qoyulan vəzifə o qədər əhəmiyyətli və həlledicidir ki, əgər onu yerinə yetirməsən və camaata çatdırmasan, elə bil Allahın risalətini (sənə verdiyi peyğəmbərliyi) yerinə yetirməmisən və sənin iyirmi üç illik zəhmət və əziyyətin naqis olacaqdır.

Əlbəttə, Peyğəmbərin (s) ona nazil olunanların hamısını camaata

*1. "Muzzəmmil" surəsi, ayə 1.*

*2. "Muddəssir" surəsi, ayə 1.*

*3. Bu cür xitab 10-dan artıq ayədə təkrarlanmışdır.*

çatdıraraq onlara izah etməsi aydın məsələdir, amma ayənin bu ifadə ilə və belə tərzdə nazil olması camaatın həmin mətləbin xüsusililik və həddən artıq əhəmiyyətinə diqqət yetirməsi üçündür.

وَاللهُ يَعْصِمُكَ مِنَ النَّاسِ – ***"Allah səni insanlardan (onların ehtimal edilən şərindən) qoruyacaq."***

Bu xüsusi və həssas vəzifəylə bağlı xətər – aşkar və gizlində zəif imanlı şəxs və münafiqlərin reaksiya və əks-təsirləri – gözlənildikdə, Allah Peyğəmbərin (s) canını ehtimal edilən təhlükələr müqabilində qoruyacağına zəmanət verir.

إِنَّ اللهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ– ***"Həqiqətən, Allah kafir olan qövmü hidayət etməz."*** Allah hamıya öz hidayətini şamil etmək istəməsinə baxmayaraq, yersiz olaraq öz təfəkkür və əqidələrində qalaraq inadkarlıq edən kəsləri (kafir olan qövmü) hidayətə layiq bilməyərək hidayət etməz.

Qeyd edilən ayənin məzmunu barədə düşündükdə, onun çox mühüm bir məsələdən xəbər verdiyini və israrla yanaşı olduğunu anlayırıq.

1. Əvvəldə də vurğuladığımız kimi, ayənin يَا أَيُّهَا الرَّسُولُ (ya əyyuhər-rəsul) xitabı ilə başlaması mətləbin xüsusi əhəmiyyətə malik olduğu və bu səbəbdən Peyğəmbərə (s) Allah tərəfindən belə xitab edildiyini göstərir.

2. بَلِّغْ (Bəlliğ) – sözü də yuxarıdakı ayənin məzmun baxımından xüsusiliyi və əhəmiyyətli olmasına digər bir dəlildir:

Birincisi, bu söz gələcəyə aiddir və Quranın yalnız həmin ayəsində işlənmişdir.

İkincisi, Rağib İsfahaninin "Mufrədat" kitabındakı qeydlərinə əsasən, bu kəlmə ابلغ (ibləğ) sözünə nisbətdə daha çox təkidə malikdir. Nəticədə, həmin sözün Quranın bir ayəsində işlənməsinə baxmayaraq[1], kəlmənin daxilində təkiddən əlavə, təkrarın da olması mümkündür, yəni bu mövzu o qədər əhəmiyyətə malikdir ki, onu camaata çatdırmalı və təkrar etməlisən. [2]

3. وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ ***" Əgər (bunu) etməsən, onun risalətini yerinə yetirməmisən"***– ayəsi mətləbin əhəmiyyətliliyinə üçüncü şahiddir. Peyğəmbərin (s) təbliğinə vəzifəli olduğu məsələ "risalət" və

---

*1. «Tövbə» surəsi, ayə 6.*

*2. Peyğəmbər (s) də bu cür əməl etmişdir. O həzrət İslamın zühurunun əvvəlindən vəfat etdiyi günə qədər həzrət Əlinin (ə) canişinlik məsələsini camaatın qulağına eşitdirirdi.*

"nübüvvət"in əsası və onun sütünudur. Əgər onu yerinə yetirməsə, elə bil ki, öz risalət və peyğəmbərliyini yerinə yetirməmişdir.

4. Peyğəmbərin (s) canının qorunması üçün bu ayədə Allah tərəfindən zəmanət və ehtimal olunan təhlükələr müqabilində mühafizə edilməsinə vədə verilməsi məsələnin əhəmiyyət və əzəmətinə başqa bir dəlildir.

Peyğəmbərin (s) vəzifəsi o qədər həlledici və əhəmiyyətlidir ki, onda can təhlükəsi və müxtəlif əksül-əməllərin olması ehtimalı da vardır. Amma bununla belə, Allah ehtimal edilən bütün təhlükələr qarşısında Peyğəmbərini (s) sığortalayaraq ona zəmanət verir. Görəsən, "Təbliğ" ayəsinin barəsində xəbər verdiyi mühüm mətləb nədir? İslam Peyğəmbərinin (s) açıq-aşkar ilahi zəmanətə ehtiyaclı olduğu vəzifə hansıdır?

Peyğəmbərin (s) risalətinə bərabər hesab edilən və camaata çatdırmalı olduğu mətləb nədir? Allahın Peyğəmbərdən (s) yerinə yetirməsini istədiyi və bir tərəfdən onu təhdid edən, digər tərəfdən isə Allahın onun canının mühafizəsinə vədə verdiyi məsələ hansı məsələdir? Xülasə, ayənin bütün bu misligörünməmiş təkidlərlə yanaşı bildirmək istədiyi mövzu nədən ibarətdir?

Bu sualların cavabını əldə etmək üçün iki yol var:

Birincisi, bu barədə əhli-sünnə və şiədən onun təfsirilə bağlı gəlib bizə çatan bütün rəvayətləri, tarix və təfsirçilərin sözlərini nəzərə almadan ayənin öz məzmunu üzərində təfəkkür etmək.

İkincisi, ayəni onun nazilolma səbəbi ilə bağlı hədis və rəvayətlər sayəsində təfsir etmək.

### *Birinci yol: Ayənin digər şahidlərin köməyi olmadan təfsiri*

Ayənin özü barədə düşünmək və digər vasitələrdən yardım almamaqla bütün sualların cavabı aydın olacaq, bu şərtlə ki, insafla və təəssübkeşlikdən uzaq olmaqla hökm verək. Nəticədə:

***Birincisi,*** qeyd edilən ayə "Maidə" surəsinin 67-ci ayəsidir və onun Peyğəmbərə (s) nazil olan sonuncu surə və ya surələrdən olduğunu bilirik. Yəni, bu ayə hicrətin 10-cu və Peyğəmbəri-Əkrəmin (s) ömrünün sonuncu ilində və o həzrətin iyirmi üç illik təbliğindən sonra nazil olmuşdur.

***Sual:*** Həqiqətdə, iyirmi üç ildən sonra Peyğəmbərin (s) ömrünün axırına qədər hələ də rəsmi olaraq hansı məsələlər bəyan olunmamış qalırdı? Görəsən, bu mühüm məsələ müsəlmanların iyirmi ilə yaxın namaz qılmasına baxmayaraq, namazla bağlı idimi?

Yoxsa, orucla bağlı idi? Halbuki, oruc hicrətdən sonra vacib olmuş və ona göstəriş verilməsindən on üç ilə yaxın bir müddət keçmişdi.

Cihadın hicrətin ikinci ilindən başlamasına baxmayaraq, görəsən, cihada göstəriş verməklə bağlı idimi? Yoxsa, həccə aid idi?

***Cavab:*** İnsaf, adı çəkilən məsələlərdən heç birinin olmamasını deməkdədir. Peyğəmbərin (s) iyirmi üç illik zəhmətlərindən sonra, yer üzərində hansı mühüm məsələnin deyilməmiş qaldığını anlamaq lazımdır.

***İkincisi,*** ayədən Peyğəmbərin (s) bu vəzifəsinin çox mühüm və təhlükəli, eyni zamanda, nübüvvətlə eyni çəkidə olması başa düşülür. Bəzi alimlərin söylədiyi ehtimallar və yuxarıdakı sətirlərdə işarə etdiyimiz məsələlərin də mühüm olmasına baxmayaraq, onlardan heç biri risalət və nübüvvətlə eyni çəki və ölçüdə deyil. İyirmi üç ildən sonra hələ də yerinə yetirilməyən və risalətə bərabər olan mühüm məsələnin nə olduğunu düşünməliyik.

***Üçüncüsü,*** bu vəzifənin digər xüsusiyyəti bəzilərinin onunla müxalifətçilik etməsidir və hətta həmin müxalifətçilik o qədər ciddi və şiddətlidir ki, Peyğəmbəri (s) də ortadan qaldırmağa hazırdırlar. Müsəlmanlar namaz, oruc, cihad və həcc kimi məsələlərlə müxalif olmadıqlarından, bu vəzifənin siyasi məqsəd daşıdığı aydınlaşır və bir dəstə onunla müxalifətçilik səbəbindən, İslam Peyğəmbərinin (s) müqabilində dayanmağa belə hazır idi.

Bütün bu məsələləri nəzərə aldığımız, bitərəf və münsif şəkildə mütaliə, həmçinin, inadkarlıq və təəssübkeşlikdən uzaq olaraq qəzavət etdiyimiz zaman, Qədir-Xumda rəsmi olaraq bəyan edilən mətləbin Peyğəmbərin (s) "xəlifəsi" və "canişini" məsələsindən başqa, digər bir məsələ olmadığı nəticəsinə varırıq.

Bəli, Peyğəmbərin (s) şərafətli ömrünün sonlarında rəsmi olaraq bəyan etdiyi, peyğəmbərlərin sonuncusunun risalət və nübüvvətinə bərabər, çoxlarının onunla mübarizə aparacağına and içmiş olduğu və Allahın da Peyğəmbərə (s) bu vəzifəni icra etməsi üçün mühafizə edəcəyinə zəmanət verdiyi məsələ həlledici və mühüm olan canişinlik məsələsi idi. Peyğəmbər (s) həzrət Əlinin (ə) vilayətini dəfələrlə bəyan etmişdisə də, həmin məsələni dünya müsəlmanları qarşısında rəsmi olaraq bildirməmişdi.

Beləliklə, o böyük və əzəmətli vəzifəni Peyğəmbər (s) "Həccətül-vida"dan (vida həcci) qayıtdığı zaman Qədir-Xum çölündə həyata keçirərək həzrət Əlini (ə) "öz canişini" ünvanında tanıdırdı və bununla da risalətini tamamlamış oldu.

## *Üçlük təşkil edən nişanələrin vilayət məsələsinə tətbiqi*

Əmirəl-mömininin (ə) vilayət və canişinlik məsələsi "Təbliğ" ayəsində bildirilmişdir və o, üçlük təşkil edən nişanələrə tamamilə uyğundur:

***Birincisi,*** aydın olduğu kimi, Peyğəmbər (s) mübarək ömrü boyunca heç vaxt özündən sonra "canişinlik" və "xilafət" məsələsini rəsmi olaraq və belə geniş miqyasda bəyan etməmişdi və bu məsələ İslam Peyğəmbərinin (s) ömrünün son illərində yer üzərində hələ də bəyan edilməmiş olan ən mühüm məsələ idi.

***İkincisi,*** İslamın müxtəlif məsələlərindən heç biri nübüvvət yolunu davam etdirmək baxımından onun həddi və məqamında, həmçinin, onunla eyni ağırlıqda deyil, amma "imamət" məqamı nübüvvətlə eyni səviyyədədir və imam Peyğəmbərin (s) vəzifələrini yerinə yetirməyə qadirdir.

***Üçüncüsü,*** Əmirəl-mömininin (ə) vilayət və imamət məsələsi bəyan olunduğu zamandan etibarən, çoxlu sayda müxalifətçiliklər meydana çıxmış, hətta Qədir-Xum çölündə bir nəfər Peyğəmbərin (s) hüzuruna gəlib ona etiraz edərək demişdir: "Əgər bu gün dediklərin Allah tərəfindəndirsə, mənə Allahdan əzab nazil olmasını və məhv olmağımı dilə!"

Onun dediyi kimi də olur və o məhv edilir. Bu məsələnin şərhi gələcək bəhslərimizdə veriləcək.

Xüsusən, "Maidə" surəsinin 41-ci ayəsini bu ayənin kənarında qoysaq, mətləb daha da aydın olacaq. Nəticədə, rəvayət, tarixdə qeyd edilənlər və təfsirçilərin düşüncə və söylədikləri nəzərə alınmadıqda belə, yuxarıdakı ayənin Əmirəl-mömininin (ə) vilayətinə dəlalət etdiyi məlum olur.

***Sual:*** Bu ayədə bəyan edilən mühüm məsələ İslam və müsəlmanların iki böyük düşməninin – yəhudi və məsihilərin – təhlükəsi ola bilərmi? Onlar daimi olaraq İslamın müqabilində dayanmış, müsəlmanlar və İslamın inkişafına maneə hesab edilmişlər. Belə olduğu təqdirdə, ayənin vilayətlə rabitəsi varmı?

***Cavab:*** Tarixlə azacıq tanışlığı olan kəslər bilirlər ki, hicrətin onuncu ilində artıq yəhudi və nəsrani (məsihi) məsələsi həll olunmuş və müxtəlif yəhudi qəbilələrinin – Bəni-Qüreyzə, Bəni-Nəzir, Bəni-Qəynuqa, Xeybər yəhudiləri və digərləri ilə nəsranilər – kitabı bağlanmışdı. Onların hamısı ya müsəlmanlara təslim, ya da hicrət etməyə məcbur olmuşdular. Nəticədə, "Maidə" surəsinin 41-ci ayəsində

nazil olunanlara uyğun olaraq, Peyğəmbərin (s) qorxu və həyəcanı İslamdan kənar olanlardan deyil, müsəlman və iman gətirənlərdən idi.

Bu baxımdan, ayəni yəhudi və nəsranilərlə əlaqədar təfsir etmək düzgün deyil və Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) vilayətindən başqa, ayəni digər məsələlərlə əlaqələndirərək təfsir etmək yanlışdır.

Beləliklə, xatırlatdığımız ayə yuxarıda qeyd edilən şərh və izahlara əsasən, həzrət Əli ibn Əbu Talibin (ə) xilafət və vilayətini inkar edərək danan kəslər üçün tutarlı və möhkəm dəlil və cavabdır.

## *İkinci yol: "Təbliğ" ayəsini rəvayətlər sayəsində təfsir etmək*

Ayəni təfsir etməkdə ikinci yol onun nazilolma səbəbi ilə bağlı qeyd edilən hədis və rəvayətlər, İslam alim və təfsirçilərinin nəzərləri, eyni zamanda, İslam tarixindən yardım almaqla təfsir edilməsidir. İslamın əvvəllərində yaşamış hədis söyləyənlərin (mühəddislər) əksəriyyəti qeyd edilən ayənin Əmirəl-möminin Əlinin (ə) barəsində nazil olduğuna inanırlar. Həmin alimlər aşağıdakılardır:

1. İbn Abbas – ravi, tanınmış təfsirçi və vəhyin katıbidir (vəhyi yazan) və əhli-sünnə və şiə tərəfindən qəbul edilir.
2. Cabir ibn Abdullah Ənsari – hər iki məzhəb tərəfindən qəbul edilən və tanınmış şəxsdir.
3. Əbu Səid Xudri – Peyğəmbərin (s) böyük səhabələrindən və ən çox ehtiram edilən şəxslərdəndir.
4. Abdullah ibn Məsud – vəhyi yazanlardan və Qurani-Kərimin təfsirçilərindən biri.
5. Əbu Hüreyrə – əhli-sünnə nəzərində çalışqan ravilərdən hesab olunur.

6-7. Hüzeyfə və Bərra ibn Azib – İslam Peyğəmbərinin (s) tanınınmış iki səhabəsi və s. tanınmış alimlər.

Digər Peyğəmbər (s) tərəfdarları da yuxarıdakı ayənin həzrət Əlinin (ə) vilayəti barədə nazil olduğunu demişlər.

Adları çəkilən bəzi şəxslərin nəql etdikləri rəvayətlərin sənədinin müxtəlif nəqledilmə vasitələrinin olmasına diqqət edilməlidir. Məsələn, yuxarıdakı rəvayət İbn Abbas və Cabir ibn Abdullah Ənsaridən on bir vasitə ilə nəql edilmişdir.

Əhli-sünnə təfsirçilərinin bir qrupu da həmin rəvayəti Əmirəl-mömininin (ə) vilayətinə aid olduğunu nəql etmişlər və buna Süyutinin "Durrul-mənsur" kitabı, cild 2, səh. 298; Əbülhəsən Vahidi Nişapurinin "Əsbabun-nuzul" kitabı, səh. 150; Şeyx Məhəmməd Əbduhun "Əl-Mənar" kitabı, 6-cı cild, səh. 120; Fəxri Razi "Təfsire kəbir" kitabı və

sairəni misal göstərmək olar.

Biz nümunə olaraq Fəxri Razinin söylədiklərinin bir qismini nəql edirik:

O, əhli-sünnə təfsirçiləri arasında tayı-bərabəri olmayan, güclü və geniş şərhli təfsirə malik alim, zəkalı və zirək bir insandır (eyni zamanda, hədsiz təəssübkeşdir və bu, onun üçün həqiqətlərin qəbulluğunda bir maneəyə çevrilmişdir). Yuxarıdakı ayə barəsində doqquz ehtimalı bəyan etdikdən sonra, Əmirəl-mömininin (ə) vilayətini "onuncu ehtimal" ünvanında nəql edir. Fəxri Razinin kəlamlarının ərəbcə mətni bu tərtiblədir:

**نزلت الآية فى فضل علي بن ابيطالب ولما نزلت هذه الآية أخذ بيده و قال : من كنت مولاه فعلي مولاه اللّهم وال من والاه وعاد من عاداه فلقيه عمر فقال: هنيئاً لك يا بن أبي طالب! أصبحت مولاي ومولى كل مؤمن ومؤمنة.**

***"Bu ayə Əli ibn Əbu Talib (ə) barəsində nazil olmuşdur. Həmin ayə nazil olan zaman Peyğəmbər (s) Əlinin (ə) əlindən tutaraq yuxarı qaldırdı və buyurdu: "Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlası və rəhbəridir. İlahi! Əlinin vilayətini qəbul edənləri özünə dost və onunla düşmənçilik edənləri isə düşmən tut!" Sonra Ömər Əliyə yaxınlaşdı və o həzrətə dedi: "Ey Əbu Talibin oğlu! Bu məqam və fəzilət sənə mübarək olsun. Bu gündən etibarən, sən mənim və bütün müsəlman kişi və qadınların rəhbərisən.""***

"Şəvahidut-tənzil" kitabında yazılanlara uyğun olaraq Ziyad ibn Munzir deyir: "İmam Baqir (ə) camaatla söhbət edən zaman, mən onun yanında idim. Bəsrə əhlindən Osman Əşa adlı bir şəxs ayağa qalxdı və soruşdu: "Ey Allah Rəsulunun övladı! Canım sizə fəda olsun! Həsən Bəsridən bu ayənin kimin barəsində nazil olduğunu soruşduğumda, cavab verdi ki, bir kişi barəsindədir, lakin onun adını demədi. Siz onun kim olduğunu deyin!" İmam buyurdu ki, əgər Həsən Bəsri istəsəydi, onun adını deyə bilərdi, amma qorxu üzündən onu deməmişdir (çünki Bəni-Üməyyə zamanında yaşamış və Əmirəl-möminin Əli (ə) ilə arası yaxşı deyildi). Amma mən deyirəm.... Allah-taala camaatın ehtimal edilən təhlükəsi qarşısında Peyğəmbərə (s) zamanət verdiyi zaman, o, həzrət Əlinin (ə) əlindən tutaraq qaldırdı və onu özünün canişin və xəlifəsi ünvanında tanıtdırdı."

Diqqəti cəlb edən məsələ "Şəvahidut-tənzil" kitabının müəllifi və həmin rəvayəti nəql edən şəxsin əhli-sünnədən olmasıdır. Digər əhli-sünnə alimləri də həmin rəvayəti nəql etmişlər.

Nəticə etibarilə, hədislər, rəvayətlər, səhabələrin dedikləri, alim və

təfsirçilərin nəzəriyyələri “Təbliğ” ayəsinin Əmirəl-möminin Əlinin (ə) vilayəti barədə nazil olmasına dəlalət edir.

## Ayənin verdiyi mesajlar

Barəsində bəhs etdiyimiz ayədən iki ümdə və əhəmiyyətli mesajı anlamaq olar:

1. Ayənin o zamanda xitab etdiyi şəxsin Peyğəmbər (s) olmasına baxmayaraq, şübhəsiz ki, vilayət və imamətin təbliği və onun barəsində sual və şübhələrə cavab vermək təkcə o həzrətə məxsus deyil, əksinə bu məsələ tarix boyunca məlumatlı olan bütün kəslərin vəzifəsidir.

2. Ayənin çatdırdığı digər mühüm mesaj həqiqi möminlərin təəssübkeşlik, inadkarlıq və münaqişə etmədən və hansısa qruplaşma və istiqamətə meylli olmadan Allahın əmr və fərmanı müqabilində təslim olmasıdır, nəinki, onların meyl və istəklərinə uyğun olduqda, təslim olmaları və əksinə, zidd olduğu hallarda təslim olmamalarıdır.

Həqiqətdə, İslam Peyğəmbərinin (s) belə uca və ali məqamlara çatmasının sirri o həzrətin Allah qarşısında məhz təslim və bəndəçiliyi olmuşdur. Bu, bizim hər namazın təşəhhüdündə Peyğəmbərin (s) risalətinə şəhadətdən öncə verdiyimiz şəhadətdir.

Əgər biz də Allaha yaxın və həqiqi mömin olmağı arzu edir və Allah Rəsulunun (s) məktəbinin davamçısı olduğumuzu iddia ediriksə, istək və tutduğumuz mövqelərin xilafına olsa da belə, bütün hallarda onun əmrlərinə tabe olmalıyıq.

Bəhsimizi təkmilləşdirmək məqsədilə Qədir-Xum məsələsini xülasə şəkildə “Quranın mesajı” təfsirindən nəql edərək diqqətinizə çatdırırıq.

## Qədir-Xum hadisəsi

Ötən bəhslərdən icmali olaraq aydın oldu ki, bu ayə çoxlu sayda şahidlərə əsasən, həzrət Əli (ə) barəsində nazil olmuşdur və həmin zəminədə əhli-sünnənin məşhur kitablarında qeyd edilən rəvayətlər – hələ şiə kitablarında nəql olunanları demirik – o qədərdir ki, heç kəs onları inkar edə bilməz.

Yuxarıdakı rəvayətlərdən əlavə, bir sıra digər rəvayətlərimiz də var ki, açıq-aşkar bu ayənin Qədir-Xum hadisəsi və Peyğəmbərin (s) xütbəsi, həmçinin, həzrət Əlinin (ə) canişin və vəsi ünvanında tanıtdırılması barədə olduğunu göstərir və onların sayı əvvəldə qeyd etdiklərimiz rəvayətlərdən çoxdur. Tanınmış tədqiqatçı Əllamə Əmini “Əl-Qədir” kitabında həmin hədisi Peyğəmbərin (s) yüz on səhabə və ravisindən, səksən dörd nəfər tabein və üç yüz altmış nəfər alim və yazıçıdan dəqiq sənəd və materiallarla nəql edir.

Bu sənəd və materiallar toplusuna diqqət etməklə, hər bir şəxsdə Qədir-Xum hadisəsinin İslamın ən dəqiq və düzgün rəvayətlərindən və mütəvatir hədislərə aşkar bir nümunə olduğuna dair əminlik yaranar. Doğrusu, əgər bir kəs onların mütəvatir olmasına şübhə etsə, deməli, heç bir mütəvatir hədisə inamı yoxdur.

Bəhsə geniş şəkildə daxil olmaq bizi kitabda nəzərdə tutduğumuz üslubdan xaric etdiyi üçün, hədisin sənəd və nazilolma səbəbi barədə bu miqdarda kifayətlənir və hədisin əhatə etdiyi məsələlərə toxunuruq. Hədisin sənədləri barədə daha ətraflı məlumata sahib olmaq istəyənlər aşağıdakı kitablara müraciət etsinlər:

1. “Əl-Qədir” təfsiri, birinci cild.
2. Əllamə Qazi Nurullah Şüştərinin yazmış olduğu və Ayətullah Nəcəfinin geniş şərhilə “İhqaqul-həqq” kitabı, cild 2, 3, 14 və 20.
3. Mərhum Seyid Şərifuddin Amulinin “Əl-Muraciat” kitabı.
4. Mir Hamid Hüseyn Hindinin “Əbqatul-ənvar” kitabı (daha yaxşı olar ki, onun xülasəsi olan 7, 8 və 9-cu cildlərə müraciət edəsiniz).
5. Mərhum alim Müzəffərin “Dəlailus-sidq” kitabı, 2-ci cild.

## *“Qədir” rəvayətinin möhtəvası*

Hazırda yuxarıdakı rəvayətlərdən istifadə edərək “Qədir” hadisəsinin yığcam formasını (əlbəttə, bəzi rəvayətlərdə bu hadisə geniş, bəzilərində müxtəsər, bəzilərində də onun bir qisminə toxunularaq nəql edilmişdir və biz onların məcmusundan alınan nəticəni) qeyd edirik:

Peyğəmbərin (s) ömrünün son ilindəki “Həccətül-vida” (Vida həcci) mərasimi möhtəşəm şəkildə o həzrətin hüzurunda başa çatdı. Qəlblər mənəviyyatın şölə və nuruna qərq olmuş və bu əzəmətli ibadətin mənəvi ləzzəti hələ də duyulmaqda idi.

Peyğəmbərin (s) sayca həddən artıq çox olan tərəfdarları sevincdən bu feyz və səadəti dərk edə bilmirdilər.[1] Bu səfərdə Peyğəmbərlə (s) birgə olmaq üçün təkcə Mədinə əhalisi deyil, Ərəbistan yarımadasının müxtəlif məntəqələrindən olan kəslər də iştirak edərək belə əzəmətli və tarixi iftixarı əldən vermək istəmirdilər.

Hicazın yandırıcı günəşi dağ və dərələrə od saçmasına baxmayaraq, səfərin şirinlik və misligörünməmiş mənəviliyi bütün çətinliyi asanlaşdırırdı.

Zöhr vaxtına az qalır və getdikcə Cöhfə məntəqəsi və Qədir-Xumun çöllük və biyabanlıqları uzaqdan görünməyə başlayırdı.

---

*1. Bəziləri Peyğəmbərlə (s) birgə olanların sayını 90 min, bəziləri 112 min, bəziləri də 120-124 min olaraq qeyd etmişlər.*

Həqiqətdə, burada Hicaz camaatını bir-birlərindən ayıran dörd yol vardı. Mədinəyə tərəf gedən yol şimala, İraqa gedən yol şərqə, Misirə tərəf gedən yol qərb və Yəmənə gedən yol isə cənuba tərəf idi. Həmin dörd yol ayrıcında bu əzəmətli səfərin sonuncu xatirəsi və ən mühüm hissəsi həyata keçirilməli və müsəlmanlar Peyğəmbərin (s) sonuncu və həqiqətdə, onun risalətinin müvəffəqiyyəti hesab edilən göstərişinin nə olmasını bilməli və sonra bir-birlərindən ayrılmalı idilər.

Cümə axşamı və hicrətin onuncu ili idi və eynilə, Qurban bayramından səkkiz gün keçirdi. Gözlənilmədən Peyğəmbər (s) tərəfindən dayanmaq əmri verildi. Müsəlmanlar uca səslə öndə gedənləri geri qayıtmağa səsləyir və geridə qalanların da onlara gəlib yetişməsini gözləyirdilər. Günəş zenit nöqtəsindən keçmişdi. Peyğəmbərin (s) müəzzini "Allahu əkbər" sədası ilə camaatı zöhr namazına çağırır və camaat da tələsərək namaza hazırlaşırdılar. Hava o qədər isti idi ki, onlar məcburən əbalarının bir ətəyini ayaqları altına və digər ətəyini isə başları üstünə atır və bu yolla səhranın qaynar və qızmar çınqıllarının istisindən və günəşin yandırıcı şüalarından qorunmağa çalışırdılar.

Səhrada qızmar isti ilə mübarizə aparan bir neçə çılpaq ağaclardan başqa, nə bir kölgəlik və nə də bir ağac və yaşıllıq gözə dəymirdi. Camaatın bir qismi həmin ağaclara pənah aparmış və ağacın başına parça bağlayaraq Peyğəmbər (s) üçün kölgəlik düzəltmişdilər, lakin əsən isti küləklər günəşin hərarətini bu kölgəliyə daxil edir və yayırdı. Zöhr namazı bitdi.

Müsəlmanların tez bir zamanda özləri ilə daşıdıqları kiçik alaçıq və xeymələrə pənah aparmaq qərarına gəlməsinə baxmayaraq, Peyğəmbər (s) onlara uzun və müfəssəl olacaq bir xütbəsində yeni ilahi mesajı dinləmək üçün hazır olmalarını söylədi. Uzaqda olan kəslər o həzrətin ruhani və mənəvi simasını görə bilmirdilər. Nəticədə, dəvələrin palanından hündür bir minbər düzəltdilər və Peyğəmbər (s) onun üzərinə çıxdı. Peyğəmbər (s) əvvəlcə, Allaha həmd və şükr etdi və özünü Allaha tapşırdıqdan sonra, camaata xitab edərək sözə başladı: "Mən tezliklə Allahın dəvətini qəbul edərək sizin aranızdan ayrılacağam. Həm mən, həm də siz məsuliyyət daşıyırsınız. Siz mənim barəmdə necə şəhadət verəcəksiniz?" Camaatın səsi ucaldı və onlar dedilər:

نَشْهَدُ أَنَّكَ قَدْ بَلَّغْتَ وَنَصَحْتَ وَجَهَدْتَ فَجَزاكَ اللهُ خَيراً

***"Şəhadət veririk ki, sən risalət vəzifəsini təbliğ etmiş, xeyirxahlığı bizə nəsihət edərək hidayətimiz üçün bütün təlaş və fəaliyyətini***

***əsirgəməmisən. Allah sənə xeyir bəxş eləsin!”***

Peyğəmbər (s) sözünə davam etdi ki, siz Allahın yeganəliyinə, peyğəmbərliyimin həqiqi və doğruluğuna, qiyamət günü və ölülərin dirildilməsinə (məada) şəhadət verirsinizmi? Hamı bir ağızdan “Bəli, şəhadət veririk!” – dedi. Peyğəmbər (s) söylədi ki, ilahi, şahid ol! Sonra buyurdu: “Ey camaat, mənim səsimi eşidirsinizmi?” “Bəli!”– dedilər. Sonra aralığa sükut çokdü və küləklərin vıyıltısından başqa, bir şey eşidilmədi.

Peyğəmbər (s) buyurdu: “Sizin aranızda yadigar qoyacağım iki dəyərli və qiymətli əmanətlə necə rəftar edəcəyinizə diqqət edin!” Camaatın arasından bir nəfər dilləndi ki, hansı iki əmanət, ey Allahın Peyğəmbəri? Peyğəmbər (s) fasiləsiz olaraq cavab verdi: “Birincisi, “böyük əmanət”dir ki, Allahın kitabıdır və onun bir ucu Allahın ixtiyarında, digər ucu isə sizin əlinizdədir. Ondan möhkəm yapışın ki, yoldan azmayasınız, amma ikincisi, “kiçik əmanət”dir və o, mənim xanədanımdır. Hər şeydən agah olan Allah mənə xəbər vermişdir ki, onların heç biri cənnətdə mənə qovuşana qədər bir-birindən ayrılmaz. Onlardan nə önə keçməyin, nə də geri qalmayın, yoxsa, hər iki halda həlak olarsınız!”

Sonra camaat Peyğəmbərin (s) ətrafa baxaraq sanki kimi isə axtardığını müşahidə elədi. Gözləri həzrət Əliyə (ə) sataşdıqda, onu yanına çağıraraq əlindən tutdu və əlini o qədər yuxarı qaldırdı ki, paltarının qoltuğunun alt hissəsi görsəndi və camaat onun İslamın məğlubedilməz döyüşçüsü Əli (ə) olduğunu görüb tanıdı. Bu yerdə Peyğəmbərin (s) mübarək səsi daha da yüksələrək ucaldı və o həzrət buyurdu:

أَيُّهَا النّاسُ مَنْ أَوْلَى النّاسِ بِالمُؤْمِنينَ مِنْ أَنْفُسِهِمْ

***“Ey insanlar (ey camaat)! Kim möminlərə onların özlərinə nisbətdə daha övla və üstündür?”***

Dedilər ki, Allah və onun Rəsulu (s) daha yaxşı biləndir. Peyğəmbər (s) buyurdu: “Allah mənim mövlam və rəhbərim və mən də möminlərin mövla və rəhbəriyəm, həmçinin, onlara nisbətdə özlərindən daha üstünəm (mənim istəyim onların istəyindən üstündür).” Sonra isə buyurdu:

فَمَنْ كُنْتُ مَوْلاهُ فَعَلِيٌّ مَوْلاهُ

***“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.”***

O həzrət bu sözləri üç dəfə, bəzi mühəddislərin nəqlinə əsasən, dörd dəfə təkrar etdikdən sonra üzünü asimana tərəf tutaraq bu cür

dedi:

اَللّهُمَّ والِ مَنْ والاهُ وَعادِ مَنْ عاداهُ وَأَحِبّ مَنْ أَحَبَّهُ وَابْغِضْ مَنْ أَبْغَضَه وَانْصُرْ مَنْ نَصَرَه وَاخْذُلْ مَنْ خَذَلَهُ وَأَدِرِ الْحَقَّ مَعَهُ حَيْثُ دارَ

***"İlahi! Onun dostlarını özünə dost və düşmənlərini də düşmən tut! Onu sevən kəsləri sev və ona qəzəbli olanlara qəzəbli ol! Ona kömək edənlərə kömək və xar etməyə çalışanları xar və zəlil et! Onu həmişə haqq ilə birgə et və haqdan ayırma!"***

Sonra sözünə belə davam edir:

أَلا فَلْيَبْلُغِ الشّـاهِدُ الْغـائِبَ

***"Bilin ki, burada olanlar olmayanlara bu xəbərləri çatdırmaqda vəzifəlidirlər."***

Peyğəmbərin (s) xütbəsi sona çatır. Camaatın, Peyğəmbər (s) və Əlinin (ə) üz-gözündən tər axırdı və hələ camaat sıraları pozulmamış və bir-birlərindən ayrılmamışdı ki, Allah vəhyinə əmanətdar olan Cəbrayıl nazil olur və Peyğəmbərə (s) bu ayəni oxuyur:

اَلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُم نِعْمَتى...

***"Bu gün sizə dini kamil etdim və nemətimi tamamladım!"***

Peyğəmbər (s) dedi:

اللهُ أَكْبَرْ، اللهُ أَكْبَرُ عَلَى اِكْمالِ الدِّيْنِ وَاِتْمامِ النِّعْمَة وَرِضَي الرَّبِّ بِرِسَالَتِي وَالْوِلايَةِ لِعَليٍّ مِنْ بَعْدي

***"Bizim üçün dinini kamil və nemətlərini tamamlayan Allah böyük və ucadır. O, mənim risalətim və məndən sonra Əlinin vilayətinə razıdır."***

Bu zaman camaat arasında böyük bir təlatüm və hərəkətlilik olur və onlar həzrət Əlini (ə) bu münasibətlə təbrik edirlər. Təbrik deyənlər arasında Əbu Bəkr və Ömər də vardı və onlar camaatın hüzurunda belə deyirdilər:

بَخٍّ بَخٍّ لَكَ يَا ابْنَ أَبِي طالِب أَصْبَحْتَ وَأَمْسَيْتَ مَوْلايَ وَمَوْلا كُلِّ مُؤمِن وَمُؤمِنَة

***"Əhsən sənə, ey Əbu Talibin oğlu! Sən bu gündən etibarən, bizim və bütün mömin və mömınələrin (iman gətirən kişi və qadınların) rəhbər və mövlasısan!"***

Elə bu zaman İbn Abbas deyir ki, Allaha and olsun, bu əhdi-peyman hamımızın boynunda qalacaq və hamımız bu barədə məsuliyyət daşıyırıq. Sonra tanınmış və məşhur şair Həssan ibn Sabit Peyğəmbərdən (s) bu münasibətlə şeir deməsi üçün icazə istədi və şeirə başladı:

يُنادِيْهِمْ يَوْمَ الْغَديرِ نَبِيُّهُمْ بِخُمٍّ وَاَسْمِعْ بِالرَّسُولِ مُنادِياً

فَقالَ فَمَنْ مَوْلاكُمْ وَنَبيِّكُمْ؟    فَقالُوا وَلَمْ يَبْدُوا هُناكَ التَّعامِيا
اِلـهُكَ مَـوْلانـا وَاَنْـتَ نَبِيُّنـا    وَلَمْ تَلْقِ مِنّا فى الْوَلايَةِ عاصِياً
فَقالَ لَهُ قُمْ يا عَلَىُّ فَاِنَّنى    رَضيتُكَ مِنْ بَعْدى اِماماً وَهادِياً
فَمَنْ كُنْتُ مَوْلاهُ فَهذا وَلِيُّهُ    فَكُونُوا لَهُ اَتْباعَ صِدْق مُوالِيا
هُناكَ دَعا اَللّهُمَّ والِ وَلِيَّهُ    وَكُنْ لِلَّذى عادا عَلِيّاً مُعادِياً

***Şeirin oxunuşu:***
Yunadihim yəvməl-ğədiri nəbiyyəhum,
Bixummin və əsmi bir-rəsuli munadiyən.
Fəqalə, fəmən məvlakum və nəbiyyikum?
Fəqalu və ləm yəbdu hunakət-təamiyən,
İlahukə məvlana və əntə nəbiyyuna,
Və ləm təlqi minna fil-vilayəti asiyən.
Fəqalə ləhu qum, ya Əliyyu, fə innəni,
Rəziytukə min bədi imamən və hadiyən,
Fəmən kuntu məvlahu, fə haza vəliyyəhu,
Fə kunu ləhu ətbaə sidqin muvaliyən!
Hunakə dəa, Əllahummə,vali vəliyyuhu,
Və kun lilləzi əda Əliyyən muadiyən!
***Şeirin tərcüməsi:***
Qədir-Xumda Peyğəmbərin nidası,
Yayıldı carçısıyla hər sədası.
Dedi: “Kimdir sizin mövla, nəbiniz?”
Bir ağızdan: “Allah bizim Rəbbimiz!
Ondan sonra sən də Peyğəmbərimiz!
Vilayətə asi olmaz heç birimiz!”
Peyğəmbərin Əliyə buyruğuyla:
Qalx ayağa həqiqət sorağıyla!
Məndən sonra imam, hidayətçisən,
Camaatın mövla və rəhbərisən!
Bəs, itaət edin buyruqlarıma,
Allahdan əmanət qoyduqlarıma!
İlahi, özün sev onu sevəni,
Düşməninə düşmən olsan, var yeri.

Bu, əhli-sünnə və şiə alimlərinin öz kitablarında qeyd etdikləri Qədir-Xum hadisəsinin xülasəsi idi.

## Təkmilləşdirici bəhs

### 1. "Qədir" hədisindəki "vilayət" və "mövla" sözlərinin təfsiri

İcmali şəkildə mütəvatir olan "Qədir" hədisi ilə tanış olduq və Peyğəmbərin (s) bütün kitablarda qeyd edilmiş مَنْ كُنتُ مَوْلاهُ فَعَلِى مَوْلاهُ "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır." məşhur kəlamı bir çox həqiqətləri üzə çıxardı. Bir çox əhli-sünnə müəllifləri buradakı "mövla" sözünün "dost və tərəfdar" mənasında təfsir edilməsinə israr edirlər, çünki bu sözün məşhur mənalarından biri də odur və biz də həmin sözün bir mənasının "dost və tərəfdar" olduğunu qəbul edirik. Amma işin içində çoxlu sayda şahidlər var ki, yuxarıdakı hədisdə işlənən "mövla" sözünün "rəhbər", "vəli" və "qəyyum" mənalarında olduğunu bildirir. Xülasə şəkildə həmin şahidləri nəzərinizə çatdırırıq:

1. Həzrət Əlinin (ə) bütün möminlərlə dostluğu məsələsi o qədər də gizli və pünhan bir məsələ deyildi ki, bu qədər təkidə, böyük qəfləqatardan ibarət camaatın yandırıcı günəş altında və quru olan çöllü biyabanda saxlanılması və uzun-uzadı xütbə edilməsi və onlardan bir-birinin ardınca beyət alınmasına ehtiyaclı olsun. Quranda açıq-aşkar belə bildirilir:

إِنَّمَا الْمُؤْمِنُونَ اِخْوَةٌ[1]

***"Həqiqətən, möminlər bir-biri ilə qardaşdırlar."***

Həmçinin, digər ayədə buyurulur:

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِناتُ بَعْضُهُمْ اَوْلِياءُ بَعْض[2]

***"Mömin kişi və qadınlar bir-birinin dostu və vəlisidir."***

Xülasə, İslamdakı qardaşlıq və müsəlmanların bir-birilə dostluğu İslamın əvvəllərindən mövcud və aşkar olan məsələlərindən idi ki, Peyğəmbər (s) onu təbliğ və üzərində təkid etmişdir. Bundan əlavə, qardaşlıq məsələsi Quranda bu qədər şiddətli ifadələrlə bildirilən məsələ deyildi ki, Peyğəmbər (s) onun aşkar və bəyan olunmasından xətər və təhlükə hiss etsin (diqqət edin).

2. Əksər rəvayət mətnlərində qeyd edilmiş. أَلَسْتُ أَوْلى بِكُمْ مِنْ أَنْفُسِكُمْ "Mən sizə sizin özününüzdən daha üstün deyiləmmi?" cümləsinin sadə

*1. «Hucurat» surəsi, ayə 10.*
*2. «Tövbə» surəsi, ayə 71.*

bir dostluğun bəyan edilməsi ilə heç bir rabitəsi yoxdur, əksinə həmin cümlədən ***"Mənim sizə nisbətdə malik olduğum üstünlük, ixtiyar və rəhbərlik, eynilə, Əli (ə) üçün də keçərlidir."*** – mənası başa düşülür.

Həmçinin, yuxarıda deyilənlərdən fərqli olaraq bu cümlənin, xüsusən, **بِكُمْ مِنْ أَنْفُسِكُمْ** (Sizə özünüzə nisbətdə üstünəm) mənasında olduğu halda, başqa cür təfsir edilməsi həqiqət və insafdan uzaqdır.

3. Camaatın, eyni zamanda, Əbu Bəkr və Ömərin həmin tarixi hadisə ilə həzrət Əliyə (ə) təbrik deməsi də, məsələnin təbrik deyilməsinə səbəb olan xəlifə təyinindən başqa, bir şey olmadığına daha yaxşı göstəricidir, çünki müsəlmanlara ümumi şəkildə dostluq məsələsinin elan edilməsində təbrik deməyə ehtiyac yoxdur.

İmam Əhməd Hənbəlinin "Müsnəd" əsərində belə yazılmışdır: "Ömər Peyğəmbərin (s) bəyanatından sonra həzrət Əliyə (ə) xitab olaraq dedi:

هَنيئاً يَابْنَ اَبيطالِب أَصْبَحْتَ وَأَمْسَيْتَ مَوْلى كُلِّ مُؤمِن وَمُؤمِنَة

***"Təbrik edirəm, ey Əbu Talibin oğlu! Sən gecə də, gündüz də (bütün vaxtlarda) mömin kişi və qadınların vəlisisən."***"[1]

Fəxri Razinin **يَـا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ** ayəsi barədə yazdığı ifadələrdə belə oxuyuruq:

هَنيئاً يَابْنَ اَبيطالِب أَصْبَحْتَ وَأَمْسَيْتَ مَوْلى كُلِّ مُؤمِن وَمُؤمِنَة

"Bu tərtiblə, Ömər həzrət Əlinin (ə) özü və bütün möminlərin mövlası olduğunu hesab edir."

"Bağdad tarixi" əsərində yuxarıdakı rəvayət bu şəkildə qeyd edilmişdir:

بَخٍّ بَخٍّ لَكَ يابْنَ اَبيطالِب! أَصْبَحْتَ مَوْلاىَ وَمَوْلى كُلِّ مُسْلِم

***"Əhsən, əhsən sənə! Ey Əbu Talibin oğlu! Mənim və müsəlmanların vəli və mövlası olaraq sübh etdin."***[2]

"Feyzul-Qədir" və "Əs-Səvaiq" əsərlərində də Əbu Bəkr və Ömərin – onların hər ikisinin belə təbrik dediyi yazılmışdır:

أَمْسَيْتَ يَابْنَ اَبيطالِب مَوْلا كُلِّ مُؤمِن وَمُؤمِنَة

***"Ey Əbu Talibin oğlu! Bütün mömin və möminələrin vəlisi olaraq gecəni başa vurdun!"***[3]

---

*1. Əhməd ibn Hənbəl, «Müsnəd», c.4, səh. 281 («Fəzailul-xəmsə», c.4, səh. 432-də nəql edilənlərə uyğun olaraq).*

*2. «Bağdad tarixi», c.7, səh. 290.*

*3. «Feyzul-Qədir», c.6, səh. 217 və «Əs-Səvaiq», səh. 107.*

Deməsək də aydındır ki, möminlərin arasında mövcud olan sadə bir dostluq üçün bu qədər təşkilatçılıq və toplanmaya ehtiyac yoxdur və həmin məsələ xilafət mənasını bildirən vilayətdən başqa, digər məsələ ilə uyğun gəlmir.

4. Həssan ibn Sabitdən nəql etdiyimiz şeir də aşkar olan müddəamızın doğruluna digər bir dəlildir (onu yenidən mütaliə etməyiniz xahiş olunur).

## 2. "Məaric"surəsinin ayələri "Qədir" hadisəsinin təsdiqləyicisidir

Mühəddis və təfsirçilərin çoxu "Məaric" surəsinin ilkin ayələrinin[1] nazilolma səbəbi haqqında bəzi məsələləri nəql etmişlər ki, xülasəsi belədir:

İslam Peyğəmbəri (s) həzrət Əlini (ə) "Qədir-Xum"da xilafətə təyin edərək onun barəsində buyurmuşdur:

مَنْ كُنْتُ مَوْلاهُ فَعَلِيٌّ مَوْلاهُ

***"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır."***

Çox keçmədən bu məsələnin xəbəri ətrafa yayıldı və münafiqlərdən[2] olan Neman ibn Haris Fəhri Peyğəmbərin (s) hüzuruna gələrək dedi: "Sən bizə əmr etdin ki, Allahın birliyi və sənin risalətinə şəhadət verək, biz də şəhadət verdik, sonra namaz, zəkat, oruc və cihada göstəriş verdin, onların da hamısını qəbul etdik, lakin sən bunlarla razı qalmayaraq bu cavanı (həzrət Əliyə (ə) işarə edir) özünə canişin təyin elədin və dedin ki, mən kimin mövlasıyamsa, bu Əli (ə) də onun mövlasıdır **(مَنْ كُنْتُ مَوْلاهُ فَعلى مَوْلاه)** Bu iş Allah tərəfindən idi, yoxsa, öz tərəfindən?" Peyğəmbər (s) buyurdu: "Ondan başqa, məbud olmayan Allaha and olsun ki, Allah tərəfindəndir." Neman ibn Haris üzünü çevirərək dedi: "İlahi! Əgər bu sözlər doğrudursa, asimandan mənə tərəf daş yağdır!"

Gözlənilmədən başına asimandan bir daş düşərək onu öldürdü və ***(Kafirlərdən biri baş verəcək əzab (qiyamət əzabının nə vaxt və kimə üz verəcəyi) barədə soruşdu)*** **سَئَلَ سائلٌ بِعَذاب واقِع** – ayəsi nazil oldu.

Yuxarıda qeyd etdiklərimiz Əbülqasim Həskaninin "Məcməul-

---

**٤. من الله ذي المعارج * للكافرين ليس له دافع * سئل سائل بعذاب واقع**

*"(Kafirlərdən) biri baş verəcək əzab (qiyamət əzabının nə vaxt və kimə üz verəcəyi) barədə soruşdu. (O əzabı) kafirlərdən dəf edə biləcək bir kimsə yoxdur! (O əzab yüksək) dərəcələr sahibi olan Allahdandır!"*

*1.*

*2.[1] Bəzi rəvayətlərdə "Haris ibn Neman" və bəzilərində "Nəzr ibn Haris" kimi qeyd edilmişdir.*

bəyan" əsərində nəql etdiklərinə uyğundur.[1] Bu məzmunu əhli-sünnə təfsirçi və hədis ravilərinin əksəriyyəti – Qurtubi məşhur təfsirində[2], Alusi "Ruhul-məani"[3] və Əbu İshaq Sələbi kimilər də öz təfsirlərində[4] azacıq bir fərqlə – nəql etmişlər.

Əllamə Əmini "Qədir" kitabında bu rəvayəti əhli-sünnənin otuz nəfər alimindən (sənəd və sözlərini olduğu kimi) nəql etmişdir, o cümlədən: Həmyuni "Sireye Hələbi" və "Fəraidus-səmtəyn", Şeyx Məhəmməd Zərəndi "Durrus-səmtəyn", Şəmsəddin Şafei "Siracul-munir", Süyuti "Şərhu camius-səğir", Hafiz Əbu Übeyd Hərvi "Təfsiru ğəribil-Quran", Əbu Bəkr Nəqqaş "Təfsiru şəfais-sudur" və digərləri də öz kitablarında həmin rəvayəti qeyd etmişlər. Həzrət Əlinin (ə) digərlərindən fəzilətli olmasını görməzdən gəlmək üçün bu rəvayəti qəbul edən bəzi təfsirçi və hədissöyləyənlər onun nazilolma səbəbinə müxtəlif iradlar tutmuş və həmin iradlardan ən mühümü olan dördünü "Əl-Mənar" təfsirinin müəllifi və digərləri yuxarıdakı rəvayəti qeyd etdikdən sonra bu cür bəyan etmişlər:

***Birinci irad*** – "Məaric" surəsi Məkki (Məkkədə nazil olan) surədir və onun Qədir-Xum hadisəsilə uyğunluğu yoxdur.

***Cavab:*** Surənin Məkki olması onun bütün ayələrinin Məkkədə nazil olması demək deyil. Quranın bir çox surələri Məkki adlandırılaraq bütün Quran nüsxələrində Məkki kimi qeyd edilmişdir, lakin onun ayələrinin çoxu Mədinədə nazil olmuşdur və əksinə, Quranda Mədəni (Mədinədə nazil olan) surələr adı ilə qeyd edilən surələrdən bəzilərinin ayələri Məkkədə nazil olmuşdur. Misal üçün, "Ənkəbut" surəsinin Məkki olduğunu deyə bilərik. Halbuki, onun on əvvəlki ayəsinin – Təbərinin məşhur təfsirində, Qurtubinin və digər alimlərin də öz təfsirlərində dediklərinə əsasən – Mədinədə[5] nazil olduğu məlum olur. Eyni zamanda, Məkki surəsi kimi tanınan "Kəhf" surəsinin ilk yeddi ayəsi də Qurtubi və Süyutinin təfsirlərinə əsasən, Mədinədə nazil olmuşdur və sairə digər hallar da mövcuddur.[6]

Beləliklə, "Mücadilə" surəsinə bənzər surələr də ayələri Məkki olduğu halda, məşhur nəzərə əsasən, Mədəni hesab edilmişdir, lakin

*1. «Məcməul-bəyan», c.9-10, səh. 352.*

*2. «Qurtubi» təfsiri, c.10, səh. 6757.*

*3. «Sələbi» təfsiri, c.29, səh. 52.*

*4. Şibləncinin «Nurul-əbsar» kitabı, səh. 71-də nəql etdiklərinə uyğundur.*

*5. «Təbəri təfsiri", 20-ci cüz, səh. 86; "Qurtubi" təfsiri, 13-cü cüz , səh. 323.*

*6.[2] Daha artıq məlumat əldə etmək üçün «Qədir» kitabının 1-ci cildi və səh. 256-257-yə müraciət edin.*

bəzi təfsirçilər onun ilk on ayəsinin Məkkədə nazil olduğunu demişlər.[1] Xülasə, Quran və təfsirlərdə Məkki və ya Mədəni ünvanında qeyd edilən çoxlu sayda surələr var ki, həqiqətdə, onların ayələrinin bir qismi digər yerdə nazil olmuşdur. Nəticədə, "Məaric" surəsinin də həmin surələrdən olmasında heç bir maneə yoxdur.

***İkinci irad*** – "Qədir" hədisində Haris ibn Nemanın "Əbtəh"də Peyğəmbərin (s) xidmətinə yetişdiyi qeyd edilmişdir. Biz bilirik ki, Əbtəh Məkkədə olan dərələrdən birinin adıdır. Nəticədə, Məkkə və Mədinə arasında və "Qədir" hədisindən sonra nazil olan ayənin onunla heç bir uyğunluğu yoxdur.

***Birinci cavab:*** "Əbtəh" ifadəsi bütün rəvayətlərdə deyil, bəzi rəvayətlərdə mövcuddur. İkincisi, Əbtəh və Bətha yarılmış olan (kanal kimi) yerə deyilir ki, oradan sel axır, həmçinin, Mədinə və digər məntəqələrdə Əbtəh və Bətha adlanan bir çox belə yerlər vardır. Maraqlı və diqqəti cəlb edən məsələ ərəb şeirlərində və rəvayətlərdə bu sözlərin təkrar-təkrar işlənməsi və ona işarə edilməsidir.

O cümlədən, Şahabuddin ("Heys və Beys" ləqəbi ilə də tanınır)[2] adlı məşhur şair Əhli-beytə (ə) yazdığı mərsiyədə onların qatillərinə xitab olaraq belə deyir:

مَلَكْنا فكانَ الْعَفْوُ مِنّا سَجِيَّةً          فَلَمّا مَلَكْتُمْ سـالَ بِالدَّمِ أَبْطَحُ

وَحَلَّلْتُمُ قَتْلَ الأُسارى وَطالَما          غَدَوْنا عَنِ الاَسْرى نَعْفُوا ونَصْفَحُ [3]

***"Biz hökmranlıq etdik (Peyğəmbərin (s) Məkkədəki qələbəsinə işarə) və bağışlamaq (Peyğəmbərin (s) ümumi əfv fərmanı) bizim fitrətimizdə və bizim xüsusiyyətimiz idi. Amma siz qələbə çaldığınızda, qan Əbtəhdən axmağa başladı və siz əsirlərin qətlini halal bildiniz, halbuki, biz əsirləri əfv edirdik."***

Aydın məsələdir ki, Peyğəmbər (s) Əhli-beytindən (ə) olan böyük şəxsiyyətlər əksərən İraq, Kərbəla və Mədinədə qətlə yetirilmişlər və heç vaxt Məkkənin Əbtəhində qan tökülməmişdir. Əlbəttə, Əhli-

---

*1. Fəxri Razinin təfsirinə haşiyə olaraq yazılan «Əbus-Səud» təfsiri, 8-ci cüz, səh. 148 və «Siracul-munir», c.4, səh. 310.*

*2. Şairin adı Səd ibn Məhəmməd ibn Səd ibn Seyfi Təmimi, ləqəbi Şəhabuddindir və Heys və Beys kimi tanınmışdır. O, şafei fəqihlərindəndir və bir çox elmləri bilirdi, lakin ədəbiyyat və şeirdə daha mahir idi. Onun nə üçün Heys və Beys kimi tanınması barədə yazırlar: "O, bir gün camaatı çətinlik və sıxıntıda olduğunu görərək* **ما للناس في حَيص وَبَيص«*nə hadisə baş vermişdir ki, siz giriftarçılığa və qaçmağa üz tutmusunuz?*** *"-deyir və elə o zamandan bu cür tanınır. O, 554, 574 və ya 577-ci ildə (hicri-qəməri) vəfat etmiş və Qüreyş qəbirsanlığında dəfn edilmişdir. "(Reyhanətul-ədəb, c.2, səh. 97).*

*3. "Əl-Qədir", c.1, səh. 255.*

bytdən (ə) bəziləri də Məkkədən iki fərsəx fasilədə olan "Fəxx" məntəqəsində şəhadət şərbətini içmişlər, halbuki, Əbtəh Məkkənin kənarında yerləşirdi.

Şairlərdən biri də şəhidlər ağası və sərvəri imam Hüseynin (ə) mərsiyəsində yazır:

وَ تَاِنُّ نَفْسي لَلرُّبُـوعِ وَ قَدْ غَـدا    بَيْتَ النَّبِيِّ مُقَطَّعُ الاَطْنابِ

بَيْتٌ لاِلِ الْمُصْطَفى فى كَرْبَلا    ضَرَبُوهُ بَيْنَ أَباطِح وَرَوابِي

***"Mən Peyğəmbərin (s), həmçinin, onun Əhli-beytinin Kərbəlada Əbtəh və təpələr kənarında qurulmuş evinin viran edilməsi və evinin xarabalıqları təsirindən nalə edirəm."***

Nəticədə, bir çox şeirlərdə işlənmiş "Əbtəh" və ya «Əbateh» sözlərinin təkcə Məkkədə olan xüsusi məntəqələrə aid olmadığı anlaşılır. Ümumiyyətlə, "Əbtəh" sözünün Məkkədə olan bir məntəqəyə aid olmasına baxmayaraq, onun məfhum, misdaq və nümunəsi təkcə həmin məntəqəyə şamil deyil.

### *3. Bu ayənin özündən əvvəl və sonrakı ayələr ilə münasibət və rabitəsi necədir?*

Bəzi təfsirçilər bu ayədə gizlənən həqiqətləri görməzdən gəlmək və qəbul etməmək üçün digər üzrlər gətirir və deyirlər: "Ayənin əvvəli və sonu əhli-kitab barəsində olduğuna görə, onun vilayət, imamət və xilafət məsələləri ilə heç bir münasibəti yoxdur və bu cür ikilik Quranın bəlağət və fəsahəti ilə düz gəlmir."

***Cavab:*** Quran ayələrinin necə toplanması və cəm edilməsi ilə tanış olan bütün kəslər onun tədricən və müxtəlif münasibətlərlə nazil olunduğunu bilirlər. Bu səbəbdən, bir sıra ayələr var ki, onun bir qismində hansısa bir döyüş, şəri hökm və münafiqlərdən, digər qismində isə möminlərdən söhbət açılır. Misal üçün, əgər siz "Nur" surəsinə nəzər salsanız, görərsiniz ki, o, "tövhid" və "məad" mövzularından tutmuş "zinanın cəzası", "ifk" (böhtan və yalan) və "münafiqlər" məsələsinə qədər müxtəlif və digər mətləbləri əhatə edən hissələrdən ibarətdir (Quranın digər uzun surələri də haradasa, belədir) və bununla yanaşı, surənin hissələri arasında ümumi şəkildə bağlılıq və rabitə mövcuddur. Surələrdəki bu cür dəyişiklik Quranın tədricən və ehtiyac, zərurətlər və hadisələrin müxtəlifliyinə əsasən nazil olması səbəbi ilədir. Əslində, Quran klassik bir kitab deyil ki, əvvəlcədən müəyyən edilmiş şəkildə vahid bir mövzunu izləsin.

# 2 “İKMALUD-DİN” (DİNİN KAMİLLİYİ) AYƏSİ

الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُواْ مِن دِينِكُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا

***“Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim və sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqelərinin möhkəmlənməsi, cahiliyyət dövründəki zərərli adətlərin aradan qaldırılması və s.) tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim.”***

*“Maidə” surəsi, ayə 3*

### *Bəhsə qısa bir nəzər*

Bu şərif ayədə müsəlmanlar üçün ən əzəmətli hesab edilən bir gündən bəhs edilir. Elə bir gündən ki, düşmənlərin naümid olması, dinin kamilləşməsi, ilahi nemətlərin tamamlanması, Allahın razılığı onda baş vermişdir. Həqiqətdə, həmin gün hansı gün idi? Gələcək bəhslərimizdə bu suala cavab veriləcəkdir.

Şərh və təfsir

### Nemətlərin tamamlandığı və dinin kamil olduğu gün

ٱلْيَوْمَ يَئِسَ الذِينَ كَفَرُواْ مِن دِينِكُمْ *"Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər."* – Peyğəmbərin (s) peyğəmbər seçilməsindən o həzrətin ömürünün sonlarına qədər İslam düşmənləri, inadkar və təəssübkeş kafirlərin müxtəlif döyüşlərdə İslamla qarşı-qarşıya gəlməsi və hər dəfə məğlub olaraq gələcək döyüşlərə ümid bəsləməsinə baxmayaraq, yuxarıdakı ayənin nazil edilməsi sayəsində düşmənin bir daha məğlub olması ilə yanaşı, onun gələcək ümidlərinə də son qoyacaq hadisə baş verdi. Nəticədə, kafirlər həmişəlik olaraq dinin məhv edilməsi və aradan qaldırılmasından məyus oldular.

فَلاَ تَخْشَوْهُمْ وَٱخْشَوْنِ *"Onlardan qorxmayın, məndən qorxun!"* – Belə bir gündə böyük qələbə və nüsrət (yardım) əldə etdiyiniz üçün artıq kafirlər və düşmənlərinizdən qorxmayın, onlar tərəfdən sizi heç bir təhlükə və xətər gözləmir, əksinə Allahın əmr və göstərişləri ilə müxalifət etməkdən çəkinin, çünki həmin şəraitdə Allahdan üzaq düşmək və nəfsinizdən qaynaqlanan əsil xətərlə üzləşərsiniz.

ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي – *"Bu gün dininizi sizin üçün kamil etdim və sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqelərinin möhkəmlənməsi, cahiliyyət dövründəki zərərli adətlərin aradan qaldırılması və sair) tamamladım."* Belə əzəmətli və həddən artıq əhəmiyyət kəsb edən bir gündə baş verən hadisə münasibətilə dininiz kamil olmuş və ilahi nemətlər siz müsəlmanlar üçün tamamlanmışdır.

وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا –*"Sizin üçün din olaraq İslamı bəyənib seçdim."* Bu günün əzəməti və baş verən hadisənin əhəmiyyəti o qədər böyükdür ki, Allah İslam dinini həmişəlik və əbədi bir din olaraq təsbit və onu insanlara təqdim etmişdir.

## *Həmin gün hansı gün idi?*

Barəsində şərif ayənin bəhs etdiyi gün dörd mühüm xüsusiyyətə malikdir:

***Birinci:*** Düşmənlərin naümid və məyus olmasına səbəb olmuşdur.

***İkinci:*** Dinin kamil olduğu bir gündür.

***Üçüncü:*** Allahın müsəlmanlara öz nemətini tamamladığı gündür.

***Dördüncü:*** Allahın İslam dininin camaatın əbədi və həmişəlik dini olmasına razı olduğu bir gündür.

Doğrudan da, həmin dörd xüsusiyyətə malik olan gün hansı gündür? Bu sualın cavabını əldə etmək üçün iki yol vardır:

***Birinci yol:*** Ayənin öz məzmunu barədə dərindən düşünüb-daşınmaq və onun barəsində əlimizə gəlib çatan rəvayət və hədislər haqqında alim, təfsirçi və mühəddislərin düşüncə və nəzərlərini, eyni zamanda, digər xarici şahidləri nəzərə almadan onun barəsində mütaliə etmək.

***İkinci yol:*** Ayəni onun nazilolma səbəbilə (şəni-nüzul) bağlı nəql edilən rəvayətlər, həmçinin, təfsirçilərin düşüncə və nəzərlərindən istifadə etməklə təfsir etmək.

## *Birinci yol: Ayəni xarici qərinə və şahidlər olmadan təfsir etmək*

Bu ayə Peyğəmbər (s) zamanında baş verən hansı hadisə ilə uyğundur? Sualın cavabında Fəxri Razi iki nəzəriyyəni, mərhum Təbərsi isə üçüncü bir nəzəriyyəni bəyan etmişdir. Biz Allahdan yardım diləyə və təəssübçülükdən uzaq, eynilə elmi bəhslərdə olduğu kimi, məntiq və ağıla əsaslanaraq bu üçlük təşkil edən nəzəriyyəni dünya müsəlmanlarının vəhdətinə zərbə dəyməyəcək şəkildə araşdırırıq.

***Birinci nəzəriyyə:*** Fəxri Razinin ayənin təfsiri ilə əlaqədar bəyan etdiyi nəzəriyyələrdən biri ayədə işlədilmiş olan "əl-yəvm" (bu gün) sözünün öz həqiqi mənasında deyil, əksinə məcazi mənada işləndiyini deməsidir. Belə ki, ayədə işlənən həmin söz (əl-yəvm) "zamanın qısa bir hissəsi" mənasında deyil, "dövr və zamandan bir müddət" mənasındadır. Bu nəzəriyyəyə əsasən, ayə xüsusi bir gün və hadisə ilə bağlı deyil, əzəmətli İslam dövrünün başlanması və kafirlərin naümid və məyus olacaqları günün yetişməsindən xəbər verir. Eyni zamanda, "yəvm" sözünün məcazi mənada işlənməsi camaat arasında daha məşhurdur. Misal üçün, bir nəfərin "dünən cavan idim, bu gün isə qocalmışam" – deməsinə bənzəyir, yəni həqiqətdə, "cavanlıq dövrü keçmiş və qocalıq dövrü yetişmişdir" mənasını verir.

Amma bu nəzəriyyəyə cavab çox aydındır. Məcazi və qeyri-həqiqi məna məlum və aşkar bir qərinəyə (şahidə) ehtiyaclıdır. Fəxri Razi bu məcazi olan mənaya hansı aşkar qərinəni təqdim edir?

***İkinci nəzəriyyə:*** Ayədəki "əl-yəvm" (bu gün) sözünün həqiqi, xüsusi və müəyyən bir mənası var və həmin gün Ərəfə günü – Zilqədə ayının səkkizidir. Ərəfə günü "Həccətül-vida" və İslam Peyğəmbərinin (s) son həcc səfəridir ki, hicrətin onuncu ilində baş vermişdir.

Bu nəzəriyyə də qaneedici və qənaətbəxş deyil. Görəsən, hicrətin səkkiz və doqquzuncu ilindəki Ərəfə gününün hicrətin onuncu ilindəki Ərəfə günü ilə nə fərqi vardı ki, onu digərlərindən ayırırdı? Əgər onda əzəmətli bir hadisə baş verməmişdirsə, nə üçün o, belə əhəmiyyətli bir gün olaraq xatırlanır? Bir sözlə, bu nəzəriyyə də sağlam, təəssüb və hissiyyatdan uzaq olan əqlə uyğun gəlmir və qəbuledilməsi deyil. Nəticədə, Fəxri Razinin iki nəzəriyyəsinin heç biri ayənin batinində gizlənmiş olan sirri açmaq üçün yetərli deyil.

***Üçüncü nəzəriyyə:*** Şiənin savadlı və böyük təfsirçilərindən biri mərhum Təbərsi Fəxri Razinin iki nəzəriyyəsini nəql və onu rədd etdikdən sonra, həmin ayə barədə bütün şiə alim və təfsirçilərinin qəbul etdiyi Əhli-beytin (ə) təfsirini nəql edir. Bu nəzəriyyənin tərəfdarları kafir və İslam düşmənlərinin naümid və məyus olması, ilahi razılığın cəlb edilməsi, din və nemətlərin tamamlanmasına səbəb olan həmin günün hicrətin onuncu ilindəki Zilhəccənin on səkkizinci günü – ***Qədir-Xum hadisəsi*** – olması fikrindədirlər. Həmin gündə Peyğəmbər (s) ilahi fərmanı yerinə yetirərək Əli ibn Əbu Talibi (ə) vilayətə təyin etdi və o həzrətin xəlifəliyini bütün müsəlmanlara elan elədi.

***Sual:*** Görəsən, bu nəzəriyyə ayənin məna və məzmunu ilə uyğun gəlirmi?

***Cavab:*** Əgər insaf və ədalətlə qəzavət etsək, görərik ki, bu şərif ayə Qədir hadisəsilə tamamilə uyğundur, çünki:

***Birincisi:*** İslam düşmənləri planlarının alt-üst olması, döyüşlərdə məğlubiyyət və təfriqə salmalardan, xülasə, İslamı aradan aparmaq üçün etdikləri bütün təlaşlardan sonra, təkcə bir şeyə – Peyğəmbərin (s) dünyadan getməsinə və o həzrətin vəfatından sonra, oğlunun yoxluğu səbəbilə canişini olmayacağına və indiyə qədər də kimi isə rəsmi olaraq canişin ünvanında təyin etməməsinə və bu yolla öz arzularına çataraq İslama sonuncu zərbələrini vuracaqlarına bel bağlayırdılar. Amma hicrətin onuncu ili Zilhəccənin on səkkizində həzrət Peyğəmbərin (s) Qədir-Xum səhrasında və müsəlmanların indiyə qədər müşahidə olunmamış izdihamlı cəmiyyəti arasında İslam

dünyasının ən üstün, ən güclü və məlumatlı fərdini özündən sonra canişin seçdiyini gördükləri zaman, öz arzularının puç olduğunu başa düşərək İslamın məhv edilməsi üçün son ümid qapısının üzlərinə bağlandığını anladılar və naümid oldular.

***İkincisi:*** İmam Əlinin (ə) seçilməsi ilə nübüvvət məsələsi sona yetmədi, əksinə özünün təkamül yolunu davam etdirdi. Nəticədə, imamət nübüvvətin təkmilləşdiricisi və dinin kamilliyinə səbəbdir. Beləliklə, Allah Peyğəmbərdən (s) sonra ən üstün, elmli və məlumatlı şəxsi "müsəlmanların xəlifəsi" ünvanında təyin etməklə öz dinini kamilləşdirdi.

***Üçüncüsü:*** İlahi nemətlər Peyğəmbərdən (s) sonra imam və rəhbərin təyin edilməsilə tamamlandı.

***Dördüncüsü:*** Şübhəsiz, İslam dini imamət və rəhbərin təyin olunmaması ilə bütün dünyaya yayılan sonuncu din ünvanında mövcud ola bilməzdi, çünki sonuncu din bütün zamanlarda insanların ehtiyyaclarına cavab verməli idi və bu, təkcə hər bir zamanda mövcud olan məsum imamın varlığı ilə reallığa çevrilə bilərdi. Nəticədə, ayənin "Qədir" hədisi ilə bağlı təfsir edilməsi, həqiqətdə, qəbul oluna bilən yeganə təfsirdir.

## *"Dinin kamilliyi"ndə məqsəd nədir?*

Ayənin bu qisminin ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ ***"Bu gün sizin üçün dininizi kamil etdim!"*** təfsiri barədə də üç nəzəriyyə mövcuddur:

1. Dində məqsəd "qanunlar"dır, yəni həmin gündə İslamın qanunları kamilləşdi və bundan sonra İslamda qanunla əlaqədar bir boşluq olmayacaq.

Amma bu nəzəriyyəyə cavab olaraq belə bir sual bəyan edilir ki, görəsən, həmin gündə ilahi qanunların təkmilləşməsi üçün hansı mühüm qanun və hadisə baş vermişdir? (Bu suala cavab ayənin aydınlaşması üçün həlledicidir)

2. Bəziləri ayədəki "din" sözünün "həcc" mənasında olmasını düşünürlər, yəni həmin əzəmətli bir gündə Allah sizin həccinizi kamil etdi.

Görəsən, "din" sözü lüğətdə, doğrudan da, "həcc" mənasındadırmı? Yoxsa, din – etiqad və əməllərin toplusu, həcc isə onun bir hissəsidir? Aydın məsələdir ki, ikinci ehtimal düzgündür. Beləliklə, "din" sözünü "həcc" mənasına təfsir etmək üçün heç bir dəlil yoxdur.

3. Ayənin məzmununun həqiqəti, dinin kamilləşməsi və nemətlərin tamamlanması həmin gündə Allahın müsəlmanları düşmənə qalib

edərək onların şərini müsəlmanların başı üzərindən uzaqlaşdırmasında idi. Görəsən, bu söz doğrudurmu?! Hansı düşmən məğlub və məyus olmuşdu? Ərəb müşrikləri hicrətin səkkizinci ilində Məkkənin fəthi ilə müsəlmanlara təslim olmuşdular. İllərlə əvvəl müsəlmanlarla müharibə edən Mədinə və Xeybər yəhudiləri, Bəni-Nəzir, Bəni-Qüreyzə, Bəni-Qəynuqa qəbilələri "Xeybər" və "Əhzab" döyüşlərində məğlubiyyəti qəbul etmiş və ya İslam hökumətinin sərhədlərindən kənara çıxaraq hicrət etmişdilər. Məsihilər də müsəlmanlarla sülh müqaviləsi imzalamışdılar. Nəticədə, bütün İslam düşmənləri hicrətin onuncu ilindən qabaq təslim olmuş idilər. Bununla belə, ən təhlükəli düşmən olan və xəncəri arxadan saplayan münafiqlərin təhlükəsi hələ də qalmaqda idi. Amma necə oldu ki, onlar məğlub və məyus oldular? Bu sual da birinci nəzəriyyədə verilən sual kimidir və nəzəriyyənin müəllifləri tərəfindən hələ də cavablandırılmamışdır.

Amma şiə alimlərinin təfsiri – xatırlatdığımız kimi – bütün bu suallara cavab verərək ayəyə xüsusi bir aydınlıq gətirir. Bəli, Qədir-Xum hadisəsi və Əmirəl-mömininin (ə) "canişinlik" və "vilayət" məsələsi bu ayə üçün ən yaxşı və yeganə düzgün təfsirdir. Nəticədə, bu hadisə ilə münafiqlərin üzərinə məyusluq kölkəsi çökdü və onların ümidləri puç oldu.

### *Fəxri Razidən maraqlı bir etiraf*

Əhli-sünnənin savadlı və məşhur təfsirçisi Fəxri Razi deyir:

**قال اصحاب الآثار انّه لمّا نزلت هذه الاية على النّبى (صلى الله عليه وآله) لم يعمر بعد نزولها الاّ احداً و ثمانين يوماً او اثنين و ثمانين يوماً و لم يحصل فى الشّريعة بعدها زيادة ولا نسخ ولا تبديل البتّة**

***"Tarixçi və hədissöyləyənlər (mühəddislər) bu ayənin nazil olmasından sonra İslam Peyğəmbərinin (s) səksən bir və ya səksən iki gündən artıq (hətta, üç ay belə çəkmədi) yaşamadığı barədə fikir birliyinə malikdirlər. Həmin müddət ərzində (üç aydan az bir vaxtda) İslamın hökmlərinə nə bir şey əlavə edildi, nə də ondan azaldıldı (nəsx edilmədi)[1].***

---

*1. Hazırkı dövrdə məlumatsız və qərəzli olanlar tərəfindən müxtəlif şübhələr bəyan edilir. Həmin şübhələrdən biri İslamın malik olduqlarına nisbətdə heç də məhdud olmadığı və düşünmək və təfəkkür etməklə ona əlavə qanun və mətləblərin əlavə edilməsidir. Əgər İslam Peyğəmbəri (s) daha artıq yaşasaydı, digər qanunlar da vəhy qəlibində o həzrətə nazil olacaqdı. Nəticədə, İslam kamil bir din deyil və onu təkmilləşdirmək lazımdır.*
*Cavab: Fəxri Razinin cümlələrində qeyd edilənlərə əsasən, bu şübhəyə cavab aydınlaşır. Əgər belə olsaydı, Peyğəmbərin (s) dinin kamilliyi ilə bağlı ayənin nazilindən sonra yaşadığı son səksən iki gün müddətində o həzrətə ayə və qanunlar nazil edilməli idi. Nəticədə, heç bir ayənin o həzrətə nazil olmamasından, deyilməli olan bütün məsələlərin deyildiyi və əgər o*

Beləliklə, qanun təyinedilməsi sona çatdı."[1]

Fəxri Razinin dediklərinə uyğun olaraq, bu ayə rəhmət Peyğəmbərinin (s) kədərli vəfatından səksən bir və ya səksən iki gün əvvəl nazil edilmişdi. Deyilənləri diqqətə alaraq ayənin hansı zamanda nazil edildiyini hesablamaq olar. Bu mətləbin aydınlaşması üçün Peyğəmbərin (s) vəfat etdiyi tarixi bilmək lazımdır və əhli-sünnə Peyğəmbərin (s) Rəbiül-əvvəlin on ikisində dünyaya gəldiyinə və elə həmin gündə də (Rəbiül-əvvəlin on ikisində) vəfat etdiynə inanır.

Əlbəttə, şiə alimləri arasında bu nəzəriyyənin tərəfdarları vardır, şiələr arasındakı məşhur nəzərə əsasən, o həzrətin doğulduğu tarixin Rəbiül-əvvəlin on yeddisi olmasına baxmayaraq, mərhum Kuleyni Peyğəmbərin (s) vəfatının Rəbiül-əvvəlin on ikisində olması fikrindədir.[2] Rəbiül-əvvəldən səksən bir və ya səksən iki gün geriyə qayıtmalıyıq. Bir-birinin ardınca olan üç ayın (təqvimdə ərəb ayı ilə) nə otuz gün, nə də iyirmi doqquz gün olmadığına diqqət etməli və iki ayı otuz gün, bir ayı isə iyirmi doqquz günlə, yaxud iki ayı iyirmi doqquz gün və bir ayı otuz günlə hesablamalıyıq. Əgər Məhərrəm və Səfər ayını iyirmi doqquz günlə hesablasaq, birlikdə əlli səkkiz gün edəcək və on iki gün əlavə etməklə Rəbiül-əvvəl ayı yetmiş günə çatacaq.

Həmçinin, Zilhəccə ayını otuz gün hesablamalı olduğumuzu nəzərə alsaq, on iki gün geri qayıtmalıyıq ki, səksən iki gün etsin və Zilhəccədən on iki gün azaltmaqla, bu ayın on səkkizinə – Qədir-Xum hadisəsi baş verən günə yetişəcəyik. Əhli-sünnə alimlərinin nəzəriyyəsinə uyğun olan bu hesablamalara əsasən, ayə Ərəfə gününə deyil, Qədir hadisəsinə aiddir. Əgər meyar və ölçünü səksən bir gün belə müəyyən etsək, Qədir hadisəsindən sonrakı günə uyğun gələcək və Ərəfə günü ilə onun fasiləsi həddən artıq çox olacaq ki, ayə ilə heç bir münasibətə malik deyil. Əgər Məhərrəm və Səfər aylarının hər ikisini otuz günlə, Zilhəccə ayını isə iyirmi doqquz günlə hesablasaq, səksən iki günə uyğun olaraq Zilhəccənin on doqquzu və səksən bir günə uyğun olaraq Zilhəccənin iyirmisi və ayənin nazil olduğu günə təsadüf edəcək, yəni ayə Qədir hadisəsinin baş verməsi və həzrət Əlinin (ə) canişin seçilməsindən ya bir, ya da iki gün sonra nazil olmuşdur

---

*həzrət bundan sonra da yaşamış olsaydı belə, İslama heç bir qanunun əlavə edilməyəcəyini anlamaq mümkündür. İslamla kifayət qədər tanışlığa malik olmayan bəzi kəslərin belə nəzərlər irəli sürməsindən təəssüfləndiyimizi bildirməliyik. Nə üçün bəzi məsələlərdə nəzər söyləmək üçün ixtisasa malik olmağın zəruriliyini qəbul edirlər, amma dinlə bağlı məsələlərdə isə mütəxəssis olmadığı halda, yerindən duran hər kəs nəzər bildirir?!*

*1. «Ət-Təfsirul-kəbir", c.11, səh. 139.*

*2. «Üsuli-kafi" kitabının tərcüməsi, c.2, səh. 323 ("kitabul-höccət, əbvabut-tarix, məvlidun-nəbi" bölməsi).*

ki, həmin əhəmiyyətli hadisə ilə əlaqədardır və Ərəfə günü ilə heç bir rabitəsi yoxdur. Nəticədə, ayənin həzrət Əmirəl-möminin Əlinin (ə) imamət və canişinliyi ilə bağlı nazil olduğunu göstərən müxtəlif şahid və qərinələrin olması aydın olacaq.

***Sual:*** "Maidə" surəsinin üçüncü ayəsinin əvvəlində haram ətlərdən[1], ayənin sonunda isə onun hökmü[2], məcburiyyət və iztirari (ekstermal) hallardan danışılır və bu iki mətləbin ortasında "imamət" və "vilayət" məsələsindən bəhs edilir. Belə olan halda, Peyğəmbərin (s) canişini, "imamət" və "vilayət" məsələsi ilə haram ətlər, ekstermal və zəruri vəziyyətlərdə onların hökmü arasında hansı münasibət və bağlılıq mövcuddur? Görəsən, bunun özü ayə barədə bəhs edilən cümlələrin "vilayət" məsələsi ilə rabitəsinin olmadığına və onun (ayənin) başqa bir mətləbi izlədiyinə dəlil və şahid deyilmi?

***Cavab:*** Quran ayələri klassik bir kitab şəkilində tənzimlənməmiş, əksinə Peyğəmbərin (s) göstərişi ilə nazil oduğu kimi (bəzən dəyişiklik və yerbəyer olunma ilə) yazılmışdır.

Ola bilsin ki, barəsində bəhs edilən ayənin əvvəli Qədir hadisəsindən qabaq Peyğəmbərə (s) haram ətlər barəsində verilən suallara görə və bir müddət sonra da Qədir hadisəsi baş verdiyi üçün onun barəsində nazil edilmiş və vəhy katibləri də ayəni həmin tərtiblə haram ətlərin hökmünün ardınca yazmış olsun. Daha sonra məcburiyyət və iztirari hallar meydana çıxmış və onun hökmü nazil edildikdən sonra, ayənin ortasında yerləşən Qədir hadisəsinin ardınca yazılmışdır. Həmin məsələrə diqqət etməklə, ayələrin bir-birinə nisbətdə xüsusi münasibətə malik olması zəruri deyil. Bu məsələni nəzərə aldıqda, Quranın ayələri barəsindəki bəyan edilən irad və şübhələrin çoxu həll edilərək aradan qalxır.

***Digər bir sual:*** Əvvəlki bəhslərdə "Maidə" surəsinin üçüncü

*1. Xatırladılan ayənin əvvəli belədir:*
**حرّمت عليكم الميتة والدم ولحم الخنزير وما اهل لغير الله به والمنخنقة والموقوذة والمتردية والنطيحة وما أكل السبع إلاّ ما ذكيتم وما ذبح على النصب وأن تستقسموا بالأزلام ذلكم فسق*****"Ölmüş heyvanın əti, qan, donuz əti və Allahdan başqasının adı çəkilərək kəsilən, boğulan və buynuzlu heyvanların vurub öldürdüyü, hündürlükdən düşüb ölən və yırtıcı heyvanların ovlayaraq parçaladıqları (can verməmişdən qabaq başı şəriətə uyğun olaraq kəsilənlər istisnadır) və ya bütlərə qurban edilərək kəsilən heyvanların əti haramdır. Eyni zamanda, fal və qumar alətləri ilə heyvanların ətlərinin bölüşdürülməsi də günahdır."***

[2] *Bəhs edilən ayənin sonuncu hissəsi isə aşağıdakı kimidir:*
**فمن اضطر في مخمصة غير متجانف لإثم فإنّ الله غفور رحيم*****"Amma günaha meyl olmadan və əlləri digər halal yeməklərə çatmayan və ac olan kəslərin ehtiyyacları miqdarda haram ətlərdən yeməsində heç bir maneə yoxdur. Allah bağışlayan və mehribandır."***

*2.*

ayəsinin Peyğəmbərə (s) nazil olan sonuncu ayə olduğu və bu ayənin nazil edilməsilə dinin kamilləşdiyi və Peyğəmbərə (s) zəruri olan bütün qanun və göstərişlərin tamamilə bəyan edildiyi bildirildi. Əgər məsələ belədirsə, bəs onda, nə üçün həmin ayə barəsində "məcburiyyət və iztirari halla bağlı" hökm bəyan olunur? Əgər "İkmalud-din" ayəsi sonuncu, həmçinin, din və qanunların kamilləşməsini bildirən ayədirsə, bəs, ondan sonra nazil edilən yeni qanun nədir?

***Cavab:*** Bu irada iki cür cavab vermək olar:

***Birinci cavab:*** Aclıq və qıtlıqla bağlı olaraq nazil edilən məcburiyyət və iztirari məsələ yeni və təzə bir hökm deyil, əksinə üzərində təkid edilən bir hökmdür. Belə ki, həmin hökm yuxarıdakı ayədən qabaq Quranın üç ayəsində nazil edilmişdir:

a) Məkki surələrdən olan "Ənam" surəsinin 145-ci ayəsində:

قُلْ لا أَجِدُ فِي ما أُوحِيَ إِلَيَّ مُحَرَّماً عَلى طاعِمٍ يَطْعَمُهُ إِلاّ أَنْ يَكُونَ مَيْتَةً أَوْ دَماً مَسْفُوحاً أَوْ لَحْمَ خِنْزِيرٍ فَإِنَّهُ رِجْسٌ أَوْ فِسْقاً أُهِلَّ لِغَيْرِ اللهِ بِهِ فَمَنِ اضْطُرَّ غَيْرَ باغٍ وَلا عادٍ فَإِنَّ رَبَّكَ غَفُورٌ رَحِيمٌ

***"(Ey Rəsulum!) De: "Mənə edilən vəhylər içərisində murdar olduqları üçün ölü hüyvan, axar qan, dönuz əti və ya Allahdan başqasının adı ilə (bismillah deyilmədən) günah olaraq kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyururlan bir şey görmürəm. Bununla yanaşı, kimsə məcburiyyət qarşısında qalsa, həddi aşmadan zəruri ehtiyyacını ödəyəcək qədər bunlardan yesə, Allah ona cəza verməz, çünki sənin Rəbbin həqiqətən, bağışlayan və mehribandır.""***

Diqqət etdiyiniz kimi, bu ayə Peyğəmbərin (s) Mədinəyə hicrətindən qabaq nazil olmuş və məcburiyyət hökmünü bildirməkdədir.

b) Bir qismi Məkkədə, bir qismi isə Mədinədə nazil olan "Nəhl" surəsinin 115-ci ayəsində belə buyurulur:

اِنَّما حَرَّمَ عَلَيْكُمُ الْمَيْتَةَ وَالدَّمَ وَلَحْمَ الْخِنْزِيرِ وَما أُهِلَّ لِغَيْرِ اللهِ بِهِ فَمَنِ اضْطُرَّ غَيْرَ باغٍ وَلا عادٍ فَإِنَّ اللهَ غَفُورٌ رَحِيمٌ

***"Allah sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahın adı çəkilmədən (bismillah deyilmədən) kəsilmiş heyvanı haram buyurmuşdur. (Özgənin malına əl uzatmamaq şərtilə) başqa bir şey tapa bilməyib zəruri ehtiyacını ödəyəcək qədər bunlardan yeməyə məcbur olan şəxsə (günah yazılmaz). Çünki Allah (bəndələrini) bağışlayan, rəhm edəndir."***

Barəsində bəhs edilən yuxarıdakı ayədən əvvəl nazil olan bu ayədə də məcburiyyətlə bağlı hökm qeyd edilmişdir.

c) Hicrətin əvvəllərində Peyğəmbərə (s) Mədinədə nazil olan "Bəqərə" surəsinin 173-cü ayəsində də məcburiyyətlə bağlı hökm qeyd edilmişdir və yuxarıdakı ayə ilə eyni və oxşar olduğundan (əlbəttə, azacıq fərqə malikdir), biz onun təkrarından daşınırıq. Əldə edilən nəticə həmin hökmün üç ayədə gəlməsi[1] və bəhs edilən ayədə həmin hökmün yeni bir hökm olmadığı və "İkmalud-din" ayəsi ilə heç bir ziddiyyət təşkil etməməsidir. Eyni zamanda, Peyğəmbərə (s) bu ayədən sonra yeni bir qanun nazil olmamışdır.

***İkinci cavab:*** Quranın ayələri nazil olunma tərtibi ilə toplanmamışdır, əksinə Peyğəmbərin (s) göstərişinə uyğun olaraq xüsusi üsluba əsasən yazılmışdır.

Misal üçün, "Maidə" surəsinin 67-ci ayəsi **يا أيها الرسول بلغ ما أنزل إليك من ربك...** hökmən, bəhs etdiyimiz ayədən ("Maidə" surəsinin 3-cü ayəsi) qabaq nazil edilmişdir, amma yazılarkən həmin ayədən sonra yazılmışdır. Beləliklə, məcburiyyətlə bağlı hökmün "İkmalud-din" ayəsindən əvvəl nazil olmasında və yazılarkən ondan sonra yazılmasında heç bir maneə yoxdur.

## *İkinci yol: Ayənin rəvayətlər sayəsində təfsir edilməsi*

Bu ayənin nazilolma səbəbi barəsində əlimizə gəlib çatan hədis və rəvayətlər həddindən çoxdur. Mərhum Əllamə Əmini "Əl-Qədir"[2] adlı dəyərli və misilsiz kitabında Qədir hadisəsi barədə geniş şəkildə söhbət açmışdır. O, tədqiqat əsəri olan bu kitabında Qədir hədisini Peyğəmbərin (s) yüz on səhabəsindən, bundan əlavə, səksən nəfər "tabeindən"[3] həmin dəyərli hədisi nəql etmişdir. Eyni zamanda, bu

*1. İztirar və məcburiyyətlə bağlı olan dörd ayənin məzmunu insanın məcburiyyət və ya canının sağlamlığını qoruması səbəbilə qadağan edilmiş ətlərdən ehtiyyacı miqdarında (nəinki artıq) istifadə edə bilməsidir. Əlbəttə, bu hökmün bizim dövr və əsrimizdə çox az nümunə və misdaqı vardır, amma xarici səfərlərdə və şəriətə uyğun olaraq kəsilmiş ət tapmadıqda gerçəkləşir. Nəticədə, belə ölkələrə səfər edən kəslər əgər ət və protein məhsullarından istifadə etmədikləri təqdirdə, sağlamlıqları təhlükə və xətərə düşəcəksə, məcburiyyət və iztirar səbəbilə təhlükə aradan qalxsın deyə, onlara ehtiyyacları miqdarda həmin məhsullardan istifadə etməyə icazə verilir. Fəqət ehtiyyacları miqdarda istifadə etmələrinə icazə verildiyinə bir daha təkid edirik.*

*2. «Əl-Qədir» kitabının mövzusu ilə bağlı «Əbqatul-ənvar», «Əl-müracat», «İhqaqul-həqq» və s. kimi digər kitablar yazılmasına baxmayaraq, həmin kitablar «Əl-Qədir» kitabının yerini vermir. Çünki mərhum Əllamə Əmini rəvayət barədə daha dəqiq və münəzzəm olaraq bəhs edir.*

*3. "Səhabə" ilə "tabein"in fərqi səhabələrin Peyğəmbərin (s) həyatı dövründə yaşayaraq onu ziyarət etmiş olmaları, tabeinin isə o həzrətin yaşadığı dövrdə olmadıqları və onun ziyarət və*

əsərin qüdrətli müəllifi bənzərsiz və indiyə qədər görünməmiş Qədir hadisəsi barəsindəki hədisləri bir qismi əhli-sünnə və bir qismi də şiəyə məxsus olan üç yüz altmış müxtəlif kitabdan nəql etmişdir. Diqqətolunası məsələ onun Qədir hadisəsi ilə bağlı nəql etdiyi rəvayətlərin hamısının təkcə bizim bəhsə aid olmamasıdır, amma bu ayənin nazil olunması ilə bağlı nəql etdiyi rəvayət bizim bəhslə əlaqəlidir. Həqiqətdə, həmin rəvayətlərin sayı heç də az deyil və Əllamə Əmininin öz kitabında nəql etdiyi həmin rəvayətlər on altı dənədir.[1]

Bu rəvayətlərin bəzilərinə diqqət edin:

1. Əhli-sünnə alimlərindən olub Misirdə yaşayamış və əhli-sünnə arasında mötəbər şəxs hesab edilən Süyuti aşağıdakı rəvayəti öz kitabında nəql etmişdir:

**لَمّا نَصَبَ) رَسُولُ اللهِ (صلى الله عليه وآله) عَلِيّاً (عليه السلام يَوْمَ غَديرِ خُمٍّ فَنادى لَهُ بِالْوِلايَةِ، هَبَطَ جِبْرَئيلُ بِهذِهِ الأيَةِ: اَلْيَوْمَ اَكْمَلْتُ لَكُمْ دينَكُمْ ...**

***"İslam Peyğəmbəri (s) Qədir-Xum günündə həzrət Əlini (ə) öz canişini təyin və onun vilayətini möminlərə elan etdiyi zaman, Cəbrayıl nazil oldu və yuxarıdakı ayəni Peyğəmbərə (s) gətirdi."[2]***

Əhli-sünnədən nəql edilən bu rəvayətə uyğun olaraq, "əl-yəvm" sözündə məqsəd Qədir-Xum günüdür və bəhs etdiyimiz ayə Əmirəl-mömininin (ə) vilayət və xilafəti barədə nazil olmuşdur.

2. Həmin sünni alimi əhli-sünnə nəzərində qəbul edilən Əbu Hüreyrədən digər bir rəvayəti də nəql edir. Əbu Hüreyrə bu rəvayətə uyğun olaraq deyir:

**لَمّـا كان يَوْمَ غَديرِ خُمٍّ وَهُوَ يَوْمُ ثَمانِي عَشَرَ مِنْ ذِي الْحَجَّةِ، قالَ النَّبِيُّ(صلى الله عليه وآله): مَنْ كُنْتُ مَوْلاهُ فَهذا عَلِيٌّ مَوْلاهُ، فَاَنْزَلَ اللهُ: اَلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دينَكُمْ و...**

***"Zilhəccənin on səkkizi – Qədir-Xum günü yetişdiyi zaman, Peyğəmbər (s) buyurdu: «Mən kimin mövlasıyamsa, bu Əli (yəni, digər Əli deyil, Əli ibn Əbu Talib) də onun mövlasıdır." Daha sonra "İkmalud-din" ayəsi nazil oldu."[3]***

Bu rəvayət də barəsində bəhs etdiyimiz məsələyə aşkarcasına dəlalət edir.

3. Beşinci əsrdə[4] yaşamış digər əhli-sünnə alimi Xətib Bağdadi

*görüşünə yetişmədikləri, amma o həzrətin səhabələri dövründə yaşayaraq onları (səhabələri) görmələri ilə bağlıdır.*

*1. «Əl-Qədir fi kitab vəs-sünnə vəl ədəb», c.1, səh. 230.*

*2. «Durrul-mənsur», c.2, səh. 259.*

*3. «Durrul-mənsur», c.2, səh. 259.*

*4. Hicri beşinci əsrdə Qədir hədisinə nisbətdə daha artıq diqqət göstərilmiş və bu zəmində*

özünün "Bağdad tarixi" adlı kitabında Əbu Hüreyrəyə istinadən belə nəql edir:

**قالَ رَسُولُ الله) صلى الله عليه وآله: ( مَنْ صامَ يَوْمَ ثَمانَ عَشَرَةَ مِنْ ذِي الْحَجَّةِ كُتِبَ لَهُ صِيامُ سِتّينَ شَهْراً وَهُوَ يَوْمُ غَديرِ خُمٍّ لَمّا أَخَذَ النَّبِيُّ صلى الله عليه وآله بِيَدِ عَلِيِّ بْنِ أَبِي طالِب فَقالَ: أَلَسْتُ وَلِيَّ الْمُؤْمِنِينَ قالُوا: بَلى يا رَسُولَ اللهِ، قالَ صلى الله عليه وآله: مَنْ كُنْتُ مَوْلاهُ،عَلِيٌّ مَوْلاهُ فَقالَ عُمَرُ بْنُ خَطّاب: بَخٌ بَخٌ لَكَ يابْنَ أَبِي طالِب أَصْبَحْتَ مَوْلاىَ وَمَوْلاى كُلِّ مُؤْمِن وَمُؤْمِنَة، فَأَنْزَلَ اللهُ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ ...** [1]

***"Peyğəmbər (s) buyurdu: "Zilhəccənin on səkkizinci günü kimi oruc tutsa, ona altmış ayın orucunun savabı yazılar."[2] Həmin gün Qədir-Xum gündür və Peyğəmbər (s) həzrət Əlinin (ə) əlindən tutaraq camaata dedi ki, mən müsəlman və möminlərə onların özündən övla və üstün deyiləmmi? Hamı «Bəli, üstünsünüz!" – deyə cavab verdi. Peyğəmbər (s) bu iqraretmə və təsdiqi onlardan eşitdikdən sonra buyurdu: "Mən kimin mövlasıyamsa, Əli (ə) də onun mövlasıdır." Ömər ibn Xəttab[3] təbrik demək üçün həzrət Əlinin (s) yanına gəldi və dedi ki, ey Əbu Talibin oğlu, bu məqam və fəzilət sənə mübarək olsun. Sən mənim və bütün müsəlmanların mövla və rəhbəri seçildin. Daha sonra Allah-taala (الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُم)[1] ayəsini nazil etdi."***

4. Beşinci əsrdəki əhli-sünnə alimlərindən olan Hakim Həskani də bu zəminədə açıq-aşkar bir rəvayəti öz kitabında qeyd etmişdir ki, biz kitabda ixtisarı gözləmək səbəbilə onu nəql etməkdən daşınırıq.[4]

5. Hafiz Əbu Nəim İsfahani "Ma nəzələ minəl Quran fi Əli (ə)" adlı kitabında Peyğəmbərin (s) məşhur səhabələrindən olan Əbu Səid Xudridən nəql edir ki, Peyğəmbər (s) Əlini (ə) Qədir-Xumda xəlifə və vəli ünvanında camaata tanıtdırdı və hələ onlar bir-birlərindən

---

*çoxlu sayda kitablar qələmə alınmışdır.*

*1. «Bağdad tarixi", c.8, səh. 290.*

*2. Aydın məsələdir ki, Zilhəccənin on səkkizinci günü oruc tutmaq vilayət nemətinə şükr etmək üçündür və fəziləti o qədərdir ki, onun savabı altmış ayın orucuna bərabərdir. Bunun özü həmin mühüm hadisəyə digər bir dəlildir, əgər belə olmasaydı, o günün orucu üçün belə savab nəzərdə tutulmazdı.*

*3. İnsanların vilayət yolundan çıxaraq azmasının əsasını qoyanlardan biri olan Ömər ibn Xəttabın Qədir hadisəsindəki "vəli" sözündən "rəhbər" mənasını anlaması çox təəccüblüdür. O, "sən mənim və bütün müsəlmanların rəhbəri seçildin" – deyir. Yoxsa ki, Əlinin (ə) Ömər və digər müsəlmanlarla dostluğu məsələsi heç də yeni bir məsələ deyildi. Amma bununla belə, Ömərin tərəfdarları və hətta, Ömərdən də elmli və savadlı olan alimlər müxtəlif əsrlər boyu həmin sözün mənasını təəssübkeşlik və tərslik üzündən başqa bir mənaya təfsir etmişlər.*

*4. "Şəvahidut-tənzil", c.1, səh. 157.*

ayrılmamış **(ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ)** ayəsi nazil edildi və həmin vaxt o həzrət buyurdu:

**اَللهُ اَكْبَرُ عَلى اِكْمالِ الدّينِ وَ اِتْمامِ النِّعْمَةِ وَرِضَى الرَّبِّ بِرِسالَتى وَ بِالْوِلايَةِ لِعَلِيٍّ(عليه السلام)مِنْ بَعْدى، ثُمَّ قالَ: مَنْ كُنْتُ مَوْلاهُ فَعِلِيٌّ مَوْلاهُ، اَللّهُمَّ والِ مَنْ والاهُ وَ عادِ مَنْ عاداهُ وَانْصُرْ مَنْ نَصَرَهُ وَاخْذُلْ مَنْ خَذَلَهُ**

***“Dinini kamilləşdirərək nemətini tamamlayan, mənim risalətim və məndən sonra Əlinin (ə) vilayətinə razı olan Allah böyükdür. O həzrət daha sonra buyurur: “Mən kimin mövlasıyamsa, Əli (ə) də onun mövlasıdır. İlahi! Onu sevəni sev, ona düşmən olanla düşmən ol! Ona kömək edənə yardım et və yardımını əsirgəyəndən öz köməyini əsirgə!””[1]***

Xatırladılan (və ixtisara riayət etmək səbəbilə qeyd edilməyən) rəvayətdən açıq-aşkar əldə olunan nəticə “İkmalud-din” ayəsinin Qədir hadisəsi ilə əlaqədar nazil edilməsi və Əmirəl-mömininin (ə) imamət, xilafət və vilayəti ilə bağlı olmasıdır.

## *Alusidən təəccüb doğuracaq sözlər*

Bu şərif ayə ilə bağlı aşkar qərinə və şahidlərin (onların şərhini verdik) olmasına və sünni və şiədən çoxlu sayda rəvayətlərin nəql edilməsinə baxmayaraq, bəzi kəslər inadkarlıq və təəssübkeşliyin təsiri ilə həmin məsələlərə göz yumaraq onu öz istəklərinə uyğun şəkildə təfsir etmiş və məntiqi bəhsdən xaric olmuşlar. O cümlədən, həmin kəslərdən biri əhli-sünnənin tanınmış alim və təfsirçisi, həmçinin, geniş şərhlər yazılan “Ruhul-məani” təfsirinin müəllifi Alusidir. O, “Maidə” surəsinin 67-ci ayəsinin təfsir və şərhində Qədir hadisəsinə yetişdiyi zaman deyir: “İbn Cərir Təbəri – əhli-sünnənin tanınmış tarixçisi Qədir hədisləri ilə bağlı iki cildlik kitab yazmışdır. Sonra Alusi (həmin kitabı nəzərə almadan və ondakı rəvayətləri tədqiq edib araşdırmadan rahatlıqla) deyir: “Bu iki kitabda səhih və zəif olan hədislər bir-birinə qarışdırılmışdır.” Daha sonra ibn Əsakirin Qədir hədisləri və xütbələri ilə əlaqədar çoxlu hədis nəql etmədiyinə toxunur və qeyd edir ki, biz təkcə onun hədislərini qəbul edirik və həmin hədislərdə də Əlinin (ə) xilafətindən danışılmır.”[2] Bu sözlər insaflı olan hər bir şəxsdə təəccüb doğurur. Görəsən, biz “Hər iki kitabda zəif və səhih hədislər bir-birinə qarışmışdır.” – bəhanəsilə bütün kitabı etibarsız hesab edərək kənara

---

*1. “Təfsire-nümunə”, c.4, səh. 266.*

*2. “Ruhul-məani”, c.6, səh. 195.*

qoymalıyıqmı? Əhli-sünnənin mötəbər kitablarında zəif hədislər mövcud deyilmi? Siz həmin bəhanə ilə o kitablardan əl çəkirsinizmi?

Həqiqətdə, bu cür sözlər çox gülməlidir. Amma bundan da betər və ən pisi İbn Əsakirin nəql etdiyi rəvayətlər barədəki sözlərdir. Çünki həmin sözlər onun haqq və Peyğəmbər (s) Əhli-beyti (ə) və sünnəsi ilə düşmənçiliyi və inadının son həddini göstərir. Dünyanın hansı bir yerində "Mənim meyil və istəklərimlə uyğun olan sözləri qəbul edir, digərlərini isə qəbul etmirəm!" – kimi deyilən belə sözlər qəbul ediləsidir?! Belə bir söz hansısa adi bir insandan qəbul edilmişdirmi?! Bəs, Alusi kimi bir alimdən necə?!

Əziz oxucular! Bəlkə də, Alusi kimi bir alimin belə əsassız sözlər deməsi sizi həddən artıq təəccübləndirir. Amma cavabında deməliyik ki, qəzavət etmək istəyən, lakin özünü tələskənliklə rəy və nəzər verməkdən qorumayan kəslər asanlıqla bu cür vəziyyətlə üzləşməli olurlar.

## *Ayənin verdiyi mesajlar*

### *1. "Vilayət" düşmənləri naümid edəndir*

Əgər düşmənlərinizin sizdən naümid olmasını istəyirsinizsə, hər zaman vilayətdən yapışaraq ona sarılın və onu (vilayəti) dirçəldin. Həmin gündə (Qədir-Xum) vilayət məsələsi düşmənlərin ümidsizliyinə bais olduğu kimi, bu gün də ondan yapışaraq vilayəti canlandırmaq münafiq və düşmənlərin məyus olmasına səbəb olacaq.

Bu gün hamımızın diqqəti gözlərdən qaib, amma qəlblərdə hazır olan həzrət Höccət ibnil Həsən Əsgəridə (ə) (imam Mehdi (ə.c)) olmalı və onun barəsində düşünməliyik. Çünki o həzrətin vilayəti müxtəlif xüsusiyyətlərə malik olan bütün şiələrin birləşdiyi zəncirin bir həlqəsidir. Nəticədə, ixtilaf və pərakəndəlik bədbəxtlik və məhv olmağın qaynağı hesab edildiyi kimi, vilayəti canladırıb dirçəltmək vəhdət və birliyə yenilik bağışlamaq, xoşbəxtliyin başlanğıcı və azadlıq ümidinin bir parıltısıdır. Əgər bütün İslam ölkələri təkcə bu əsaslı məsələyə əməl etmiş və əl-ələ verərək vəhdət təşkil etmiş olsaydılar, Fələstin hadisələri tez-tez təkrarlanmaz və həmin məzlum müsəlmanlar dünya ictimaiyyətinin gözləri önündə pis vəziyyətə düşmüş olmazdılar. Beləliklə, kafirlərin naümid və məyus olmaları üçün yeganə yol vilayətə söykənməkdir.

## 2. Vilayət sayəsində "dinin tamamlanması" və "nemətlərin kamilləşməsi"

Ayədən də başa düşüldüyü kimi, dinin tamamlanması və nemətlərin kamilləşməsi həmin gün "vilayət" sayəsində gerçəkləşdi. Bu gün də nemətlərin – istər maddi olsun, istərsə də mənəvi – kamilləşməsi və dinin tamamlanması özünün bütün xüsusiyyət və cəhətləri ilə "vilayət" sayəsində həyata keçmişdir. Vilayət olmadan dinin zahirinə əməl olunsa və onun sadəcə ibadət və əməli forması saxlanılsa da, şübhəsiz, Allah dərgahında qəbul mərhələsinə yetişməyəcəkdir. Deməli, dinin tamamlanması və nemətlərin kamilləşdirilməsi bütün əsr və zamanlarda vilayətə əsaslanmaqla əməldə özünü doğruldacaqdır.

## Təkmilləşdirici bəhs

## 1. Vilayət İslamın ən əsas məsələlərindəndir.

Vilayət məsələsinin əhəmiyyəti barədə çoxlu sayda rəvayətlər mövcuddur. İmam Məhəmməd Baqirdən (ə) nəql edilən rəvayətdən bir nümunəni bəhsi təkmilləşdirmək məqsədilə diqqətinizə çatdırırıq. Zürarə o həzrətdən belə nəql edir:

**بُنِيَ الْإِسْلامُ عَلى خَمْسَةِ اَشْياءَ; عَلَى الصَّلاةِ وَالزَّكاةِ وَالصَّوْمِ وَالْحَجِّ وَالْوِلايةِ. قالَ زُرارَةُ: فَقُلْتُ: وَأَيُّ شَيْءٍ مِنْ ذلِكَ أَفْضَلُ؟ قالَ)عليه السلام :(اَلْوِلايَةُ اَفْضَلُ لِاَنَّها مِفْتاحُهُنَّ وَالْوَالى هُوَ الدَّلِيلُ عَلَيْهِنَّ ...**

***"İslam beş sütunla möhkəmlənib: Namaz, zəkat, oruc, həcc və vilayət. Zürarə deyir ki, mən imamdan soruşdum: "Bu beş təməldən hansı daha mühüm və əhəmiyyətlidir?" İmam cavab verdi ki, vilayət hamısından daha mühümdür, çünki onlara yetişmək üçün bir vasitə və açardır (həmin göstərişlərin əhatə dairəsi vilayətdə həqiqət tapır). İmam və rəhbər camaatı o əməllərə doğru istiqamətləndirəndir."*[2]**

Bu rəvayətdə iki mətləb diqqətə və üzərində düşünülməyə layiqdir:

a) Birincisi, həmin beş məsələ səbəbsiz olaraq bir-birinin yanında yerləşdirilməmişdir, əksinə onların bir-birilə rabitə və bağlılığı vardır.

Namaz – xaliqlə məxluq arasında bir rabitədir, başqa sözlə, xaliqlə məxluq arasında ən yaxşı ünsiyyət zamanı namaz vaxtıdır.

Zəkat – Allahla insan arasında bir rabitədir. Varlıların vasitəsilə zəkat qanununun icra edilməsi sayəsində ehtiyacların çətinlikləri aradan qalxır və onların iqtisadi problemləri həll edilmiş olur.

---

*1.*

*2. "Üsuli-kafi", c.3, səh. 30 ("Dəaimul-İslam" bölməsi, "iman və küfr" başlığı, 5-ci hədis).*

Oruc – insanın özünə münasibətilə bağlı rabitədir. Bu rabitənin yaranması ilə insan öz nəfsi ilə mübarizə aparmağa müvəffəq olur. Orucun insan nəfsi ilə mübarizə aparmaq simvolu olduğunu da demək olar.

Həcc – bütün müsəlmanların bir-biri ilə rabitəsi, düşüncə və fikir mübadiləsidir və bu yolla İslam dünyasının problem və çətinlikləri həll edilərək onların yaralarına məlhəm qoyulur.

Vilayət – bu məsələlərin doğru və düzgün həyata keçirilməsinə zamin və onun hökmlərini bəyan edəndir.

Beləliklə, həmin beş məsələnin təsadüfi olaraq bir yerdə toplanmadığını, əksinə əqli və məntiqi şəkildə bir-birilə rabitədə olduğunu deyə bilərik.

b) Nə üçün "vilayət" digər dörd təməldən daha üstün və mühümdür? Rəvayətdə də bildirildiyi kimi, vilayət namaz, oruc, zəkat və həccin həyata keçməsi və gerçəkləşməsi üçündür və onun sayəsində bu və digər ibadətlər əməli olaraq həqiqət tapa bilir. Yəni, islami hakimiyyət və vilayətsiz bütün bu göstərişlər sadəcə kağız üzərindəki cızma-qaralardır (məsələn, həkimin reseptinə bənzəyir ki, ona əməl edilməsə, xəstəlikdən şəfa tapmaq olmaz).

"Vilayət" İslam qanunlarının məsum imamlar (ə) və onlarının canişinləri vasitəsilə icra edilməsi mənasındadır. Deməli, "Qədir-Xumda həzrət Əlinin (ə) vilayətindən qaynaqlanmış və nəticəsi islami hakimiyyət olan" vilayət oruc, namaz, həcc və zəkatdan üstün olacaq.

## *2. Vilayətin iki tərəfi vardır (ikitərəflidir)*

Ötən bəhsdəki təfsirə əsasən, vilayətin iki tərəfi vardır:

Onun bir tərəfində məxluqatın hidayətinə çalışan, deyilməli mətləb və məsələləri camaata çatdıran, təhlükə və xətərlər müqabilində müsəlmanlara xəbərdarlıq verərək onları qəflətdən ayıldan, cəmiyyətə nizam-intizamı hakim edən, məzlumların haqqını zalımlardan alan, ilahi hədləri (cəzaları), nəhy əz münkər (pis işlərdən çəkindirmək) və əmr be mərufu (yaxşı işlərə dəvəti) icra edən imam və rəhbər dayanır.

Digər tərəfində isə camaat dayanır və onların əməli, danışıq və rəftarları, etiqad və düşüncələri həmin şəxsiyyətlərin nəzər və düşüncələri ilə uyğunluq təşkil etməli, addımlarını onların addımına münasib şəkildə atmalıdırlar, əks təqdirdə, o əzəmətli şəxslərin (imamların (ə)) göstərişlərinə itaətsizlik etmək, müxtəlif günahlara mürtəkib olmaqla, onların vilayətində olmağı iddia etmək olmaz. Maraqlı burasıdır ki, Milli Təhlükəsizlik rəisi məndən sorğu-sual edərkən (ehtimal ki, söhbət şah zamanından gedir – mütərcim) belə

demişdi: "Mən həzrət Əliyə (ə) məhəbbət bəsləyirəm və ona qəlbimdə sevgim var, amma kimsə şaha qarşı müxalifətçilik etsə, onun uğrunda milyonlarla adamı qətlə yetirməyə hazıram." Görəsən, bu cür əməl və rəftar vilayətlə uyğun gəlirmi, yoxsa, belə bir vilayət yalançı (aldadıcı) bir vilayətdir?

Bəli, vilayət bütün əməl, rəftar və düşüncənin məsum imamların (ə) danışıq, əməl və əqidəsinə uyğun olması deməkdir.

# 3 “VİLAYƏT” AYƏSİ

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***“Həqiqətən, sizin rəhbəriniz Allah, onun rəsulu və iman gətirən kəslərdir – o kəslər ki, namaz qılır və rüku halında zəkat verirlər.”***

*“Maidə” surəsi, ayə 55*

## *Bəhsə qısa bir nəzər*

“Maidə” surəsi vilayət ayələrinin mühüm bir qismini təşkil edir. Bu surə İslam Peyğəmbərin (s) ömrünün sonlarında nazil olunmuşdur. Digər tərəfdən, vilayət və canişinlik məsələsi də təbii olaraq, o həzrətin (s) ömrünün axırlarında bəyan edilmişdi və bu səbəbdən, həmin surə çoxlu sayda vilayət ayələrini əhatə edir.

Hər halda, yuxarıda qeyd edilən ayə də – ona izah veriləcək – açıq-aşkar Əmirəl-möminin Əlinin (ə) vilayətinə dəlalət edən digər bir ayədir.

## Şərh və təfsir

### Vəlinin (rəhbərin) nişanələri

**إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ** ***"Həqiqətən, sizin rəhbəriniz Allah, onun rəsulu və iman gətirən kəslərdir."*** – Bilirik ki, ərəb qrammatikasında إِنَّمَا (innəma) kəlməsi "həsr" və "məxsusluq" bildirmək mənasındadır və onun dilimizdəki qarşılığı "fəqət" və ya "həqiqətən" sözləridir. Beləliklə, sizin rəhbər və vəliniz möminlərdir və onlar fəqət üç dəstədir ki, bu ayədə bildirilmişdir və həmin üç dəstədən başqa, heç kəs möminlərin vəlisi hesab edilmir. Həmin üç dəstə aşağıdakılardır:

1. Allah, 2. Peyğəmbər (s), 3. İman gətirən kəslər ( الَّذِينَ آمَنُواْ ). Əlbəttə, bütün möminlər deyil, ayənin davamında gələn şərtə əsasən, onların bəziləridir.

**الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ** ***"O kəslər ki, namaz qılır və rüku halında zəkat verirlər."*** – Üçüncü dəstədən olanlar möminlərdir, amma onların hamısı deyil, əksinə birincisi, namaz qılırlar, ikincisi, namaz qılmaqdan əlavə, zəkat ödəyirlər, üçüncüsü, zəkatı rüku halında və ona ehtiyaclı olana verirlər.

Nəticədə, siz möminlərin vəli və rəhbəri fəqət üç dəstədir:

Allah, Peyğəmbər (s) və iman gətirərək namaz qılan və rüku halında zəkat verənlər.

***Sual:*** Bu ayədəki الَّذِينَ آمَنُواْ (iman gətirən kəslər) kimdir? "Vəli" sözü hansı mənadadır? Yuxarıdakı ayədə iki cəhətdən anlaşılmazlıq var.

Birincisi, ayədəki "vəli" sözündə məqsəd nədir? "Vəli" sözünün müxtəlif mənaları olduğundan, bu ayədə işlənmiş həmin sözün mənasını aydınlaşdırmalıyıq.

İkincisi, الَّذِينَ آمَنُواْ (əlləzinə amənu) sözündə üç cür qeydin olmasına baxmayaraq, məqsəd kimdir? Görəsən, ayədəki məqsəd xüsusi bir şəxsdir, yoxsa, ayə həmin üç xüsusiyyətə malik olan bütün şəxslərə də şamildirmi?

***Cavab:*** Bu sualların cavabı aydın olsun deyə, əvvəlki ayələrdə bəhrələndiyimiz iki üsuldan istifadə edəcək və daha sonra digər suallar və bəhanə axtarışında olan fərdlərin təəssübkeşliyinə – təəssübkeşlik

onların haqq və həqiqəti anlamasına mane olmuşdur – cavab verəcəyik.

## *Birinci yol: Ayəni hədisləri nəzərə almadan təfsir etmək*

Əvvəlcə, "vəli" sözünü bəyan və şərh edirik, çünki bu sözün mənası aydınlaşsa, digər məsələlərin çoxu həll ediləcək. Əhli-sünnə təfsirçilərinin əksəriyyəti ayənin aşkar olan mənasını xitab etdikləri şəxslərin diqqətindən yayındırmaq üçün "vəli" sözü barədə həddən artıq çox – iyirmi yeddi məna[1] xatırlatmışlar ki, həmin sözün bir sıra müxtəlif mənaları bildirməkdə müştərək olduğunu və Allahın bu ayədə hansı mənanı iradə etdiyini (nəzərdə tutuduğunu) bilmədiklərini desinlər. Onların nəzərincə, ayə anlaşılmazdır və heç bir şeyə dəlalət etmir.

Amma lüğətlərə müraciət və lüğət mütəxəssislərinin (leksikoloqların) nəzəriyyələri ilə bağlı mütaliələr etdikdə, müşahidə edirik ki, onlar "vəli" sözü ilə əlaqədar iki və üç mənadan artıq bir məna göstərməmişlər və digər mənalar da həmin üç mənaya qayıdır. O üç məna aşağıdakılardan ibarətdir:

1. "Vəli" sözü – "dost", "köməkçi" və "kömək edən" mənasındadır. "Vilayət" isə "kömək" və "nüsrət" mənasını bildirir.

2. "Vəli" sözü üçün deyilən ikinci məna "rəhbər" və "ixtiyar sahibi"dir və nəticədə, həmin söz bu mənalardadır.

3. "Vəli" sözünün üçüncü mənası "dost" və "rəfiq"dir (onlar insana kömək etməsələr belə, həmin mənadadır). Nəticədə, rəfiqlik və dostluq bir-biri ilə yardımlaşmaya əsaslanır deyə, üçüncü məna birinci mənaya qayıdır. Deməli, lüğət alimlərinin nəzərində "vəli" sözü iki əsas mənaya malikdir və digər mənalar da bu iki mənaya qayıdır.

### Quranda "vəli" sözünün işlədilməsi

İndi isə Qurana üz tutaraq bu sözün həmin müqəddəs kitabda işlənən mənalarını araşdırırıq. "Vəli" və "övliya" sözü Qurani-Kərimdə yetmiş dəfəyə yaxın işlənmiş və müxtəlif mənaları ifadə etmişdir.

1. "Bəqərə" surəsinin 107-ci ayəsi kimi bəzi ayələrdə "dost", "köməkçi və kömək edən" mənalarında istifadə edilmişdir. Həmin ayədə Allah buyurur:

وَما لَكُمْ مِنْ دُونِ اللهِ مِنْ وَلِيٍّ وَلا نَصير

***"Allahdan başqa, sizə kömək edən biri və yardımçı yoxdur."***

---

*1. Mərhum Əllamə Əmini dəyərli "Əl-Qədir" kitabı, 1-ci cild, səh. 362-də həmin iyirmi yeddi ehtimalı qeyd etmişdir.*

Bu ayədə "vəli" sözü "köməkçi" mənasında işlənmişdir.

2. "Vəli" sözü bəzi ayələrdə "məbud" mənasındadır. "Bəqərə" surəsinin 257-ci ayəsi həmin ayələrdəndir:

اَللهُ وَلِيُّ الَّذينَ آمَنُوا ... وَالَّذينَ كَفَرُوا اَوْلِيائُهُمُ الطّاغُوتُ

***"Allah iman gətirən kəslərin məbududur. Amma kafirlərin məbudu isə tağutdur."***

Bu ayədə "vəli" sözü "məbud" mənasındadır və möminlərin məbudu Allah, kafirlərin məbudu isə tağut, şeytan və onların nəfsi istəkləridir.

3. Həmin söz Quranda "yol göstərən" və "bələdçi" mənalarında da işlənmişdir. "Kəhf" surəsinin 17-ci ayəsində oxuyuruq:

وَمَنْ يُضْلِلْ فَلَنْ تَجِدَ لَهُ وَلِيّاً مُرْشِداً

***"Sən Allahın zəlalətə saldığı bir kimsə üçün əsla yol göstərən və bələdçi tapa bilməzsən!"***

Bu ayədə də müşahidə etdiyiniz kimi, "vəli" sözü "yol göstərən" və "bələdçi" mənalarında istifadə edilmişdir.

4. Bu kəlmənin (vəli) şamil olduğu əksər ayələrdə "vəli" sözü "rəhbər" və "ixtiyar sahibi" mənalarında işlənmişdir. Həmin ayələrdən olan nümunələrə nəzər salın:

a) "Şura" surəsinin 27-ci ayəsində belə buyurulur:

وَهُوَ الَّذي يُنَزِّلُ الْغَيْثَ مِنْ بَعْدِ ما قَنَطُوا وَيَنْشُرُ رَحْمَتَهُ وَهُوَ الْوَلِيُّ الْحَميد

***"(İnsanlar) naümid olduqdan sonra faydalı yağışı nazil edən və öz rəhmətini yayan odur və odur başçı, dost, yardımçı və (bütün sifət və işləri) tərifLənmiş!"***

"Vəli" sözü bu ayədə "ixtiyar sahibi" və "rəhbər" mənasındadır, həmçinin "vilayət" də təkvini vilayətdir.

b) Təşrii vilayətdən bəhs edən "İsra" surəsinin 33-cü ayəsində buyurulur:

وَمَنْ قُتِلَ مَظْلُوماً فَقَدْ جَعَلْنا لِوَلِيِّهِ سُلْطاناً

***"Biz məzlumcasına (haqsız yerə) öldürülmüş şəxsin qəyyumuna hökmranlıq (qisas, qanbahası almaq və yaxud bağışlamaq ixtiyarı) vermişik."***

Bu ayədə "vəli" sözü "ixtiyar sahibi" və "qəyyum" mənasında işlənmişdir. Çünki qisas almaq hökmü dosta deyil, öldürülən şəxsin varis və qəyyumuna şamildir.

c) Qurani-Kərimin ən uzun və borc verərkən onun yazılması[1] ilə

*1. Borcun yazılması ilə bağlı ən uzun ayə olmasına baxmayaraq, təəssüflər olsun ki, bu hökm*

bağlı ayələrindən olan "Bəqərə" surəsinin 282-ci ayəsində oxuyuruq:

فَلْيُمْلِلْ وَلِيُّهُ بالعَدْلِ

***"Əgər boynunda haqqı olan şəxs səfeh, zəif (az yaşlı) və ya dilində olan qüsur səbəbilə söyləməyə qadir deyilsə, onun qəyyumu ədalətlə imla etsin."***

Bu ayədə də "vəli" sözü "qəyyum" və "ixtiyar sahibi" mənasında işlənmişdir.

d) "Ənfal" surəsinin 34-cü ayəsində belə buyurulur:

وَهُمْ يَصُدُّونَ عَنِ الْمَسْجِدِ الْحَرامِ وَما كـانُوا أَوْلِيائَهُ اِنْ أَوْلِياؤُهُ إِلاَّ الْمُتَّقُونَ

***"Məscidül-Həramın başçısı olmaya-olmaya insanları ora daxil olmaqdan saxladıqları (camaatın ora daxil olmalasına mane olduqları) halda, Allah onlara nə üçün əzab verməməlidir? Oranın başçısı yalnız pərhizkarlardırlar, lakin çoxları bilmirlər."***

"Vəli" sözü bu ayədə "başçı" mənasındadır və aydındır ki, kafir və müşriklərin belə müqəddəs məkanla irtibat və ona məhəbbətləri yoxdur.

e) "Məryəm" surəsinin 5-ci ayəsində də bu cür oxuyuruq:

فَهَبْ لى مِنْ لَدُنْكَ وَلِيّاً يَرِثُنى وَيَرِثُ مِنْ آلِ يَعْقُوبَ

***"(Ey mənim Rəbbim!) Öz dərgahından mənə və Ali-Yaquba (Yaqub nəslinə) varis olacaq bir övlad bəxş et!"***

Aydın məsələdir ki, vərəsə vəlinin vəfatından sonra onun malı və mirasının sahibidir, nəinki, ona nisbətdə dost və köməkçi.

"Vəli" kəlməsinin Quran ayələrində müxtəlif mənalarda işlənməsi və əksər hallarda "ixtiyar sahibi" və "rəhbər" mənasında olması nəticəsinə gəlirik.

## *Bəhs edilən ayədəki "vəli" sözündə məqsəd nədir?*

Qeyd edilənlərə diqqət etməklə, "Vilayət" ayəsində işlənmiş "vəli" sözündə məqsəd nədir? "Vəli" sözü bu ayədə "dost", "köməkçi" və "qəyyum" mənasındadırmı? Əgər belədirsə, həmin məsələ Quranda işlənmiş əksər mənalarla müxalif və ziddiyyət təşkil edir. İnsaf bu ayədəki "vəli" sözünün "dost" və "köməkçi" mənasında olmasını bildirməkdə deyil, onun "ixtiyar sahibi" və "rəhbər" mənasında olduğunu söyləməkdədir. Alınan nəticə belədir:

---

*müsəlmanlar arasında tərk olunmuş və həmin sünnənin tərk olunması nəticəsində, də bir çox çətinlik və problemlər meydana gəlmişdir.*

Birincisi, ayənin əvvəlində gələn “innəma” (إِنَّمَا) kəlməsi həsr və məxsusluğu bildirir. Yəni, fəqət bu üç dəstə möminlərin vəlisi və rəhbəridir. Əgər “dost” mənasında olsa, həsr və məxsusluqdan danışmaq faydasız olar. Beləliklə, aydın olur ki, həmin üç dəstədən başqa, digərləri də möminlərin dostu və köməkçisidir. Bundan əlavə, əgər “vəli” sözü “dost” mənasında olsaydı, “iman gətirən kəslər” (الذينَ آمَنُوا) üçün “namaz qılan və rüku halında ikən zəkat verən” qeydinə ehtiyac qalmazdı, çünki bütün möminlər, hətta namaz halında və ümumiyyətlə, namaz qılan belə olmasa da müsəlmanların dost və köməkçisi ola bilərdi. Nəticədə, həsr və məxsusluğu bildirən “innəma” (إِنَّمَا) kəlməsindən və ayədə “iman gətirən kəslər” (الذينَ آمَنُوا) barəsində işlədilən çoxlu saydakı qeydlərdən “vilayət”in “dostluq” və “nüsrət” mənasında deyil, əksinə “rəhbər” və “ixtiyar sahibi” mənasında olması başa düşülür. Yəni, Allah, Peyğəmbər (s) və möminlər (ayədə gələn şərtlərə uyğun olaraq) sizin rəhbər və ixtiyar sahibinizdir.

***İkincisi,*** bəhs etdiyimiz ayənin ardınca gələn “Maidə” surəsinin 56-cı ayəsi bizim iddia etdiklərimizə ən yaxşı dəlil və şahiddir. Allah-taala həmin ayədə buyurur:

وَمَنْ يَتَوَلَّ اللهَ وَرَسُولَهُ وَالَّذينَ آمَنوا فَإِنَّ حِزْبَ اللهِ هُمُ الْغالِبُونَ

***“Kim Allahı, onun Peyğəmbərini və iman gətirənləri (öz) sahib və başçı(sı) kimi qəbul etsə, (Allahın firqəsindəndir və) şübhəsiz, Allah firqəsi qalib gələnlərdir.”***

“Hizb” sözü “mütəşəkkil olan cəmiyyət” mənasındadır və onların qələbəsi ictimai bir hərəkat və fəaliyyətlə bağlıdır. Beləliklə, barəsində bəhs etdiyimiz yuxarıdakı ayə ilə rabitəli və onunla eyni zamanda nazil olmuş bu ayədən belə bir nəticə əldə olunur ki, ayədə istifadə edilən “vilayət”də məqsəd siyasi və hakimiyyətlə bağlı olan vilayətdir. Onda, ayənin mənası belə olacaqdır: “Allahın, onun Peyğəmbəri və الذينَ آمَنُوا – iman gətirən kəslərin hakimiyyətini qəbul edən şəxslər – belə hizb (qrup) və cəmiyyət qalibdir.”

Nəticədə, “Vilayət” ayəsinin söz və cümlələrində dərindən düşünüb təfəkkür etdikdə və ayə barəsində nəql edilən çoxlu saydakı rəvayətləri nəzərə almadıqda, aydın olur ki, ayədə istifadə edilən “vəli” sözünün mənası “rəhbər”, “imam” və “öndərdir” və Allah, Peyğəmbər (s) və الذينَ آمَنُوا – iman gətirən kəslərin hakimiyyətini, əlbəttə, onun deyilən şərtləri ilə birlikdə qəbul edən şəxslər qalibdirlər və onlara Allah

tərəfindən yardım ediləcək.

***Əlləzinə amənu...rakiun ayəsinin misdaq və nümunəsi kimdir?***

Ötən bəhslərimizdə (إِنَّمَا) "innəma" və "vəli" sözlərinin mənalarının aydınlaşmasına baxmayaraq, hələ də ayədəki qaranlıq qalmış tərəflər tamamilə aradan qalxmamışdır. Çünki keçmiş bəhslərimizdən (الذينَ آمَنُو....رَاكِعُونَ) ayəsindəki məqsədin kim olduğu bilinməmişdir.

Bu suala cavab vermək üçün bilməliyik ki, ravilərin, təfsirçi, əhli-sünnə və şiə alimlərinin heç biri bu ayənin misdaq və nümunəsi kimi həzrət Əlidən (ə) başqa, heç bir şəxsi xatırlatmamışdır. Nəticədə, bütün müsəlman alimləri həmin ayənin nümunə və misdaqının həzrət Əli (ə) olması ilə bağlı fikir birliyinə malikdirlər. Digər tərəfdən, الذينَ آمَنُو (iman gətirən kəslər) üçün ən azı bir nümunə mövcud olmuşdur və şübhəsiz ki, o şəxs də Əli ibn Əbu Talibdən (ə) başqası deyildi.

Beləliklə, ötən bəhslərimizin ümumilikdə nəticəsi – təfsirçilərin hədis, rəvayət və nəzəriyyələrini çıxmaq şərti ilə – üç mətləbdən ibarətdir:

1. إِنَّمَا *(innəma)* – sözü həsr və məxsusluğu bildirir və vilayəti üç dəstəyə şamil edir.

2. Bu ayədəki "vilayət" sözü Quranda işlənən əksər mənaları nəzərə aldıqda, "ixtiyar sahibi" və "rəhbər" mənasındadır.

3. الذينَ آمَنُو *(əlləzinə amənu)* – sözündə məqsəd, şübhəsiz ki, həzrət Əli ibn Əbu Talibin (ə) müqəddəs vücududur.

## *İkinci yol: Ayəni hədisləri nəzərə almaqla təfsir etmək*

Mərhum Mühəddis Bəhrani "Ğayətul-məram" əsərində əhli-sünnə mənbələrindən iyirmi dörd hədis və şiə mənbə və sənədlərindən isə on doqquz rəvayət nəql etmişdir ki, birlikdə qırx üç hədisi təşkil edir. Bu ayə barəsində gəlib çatan rəvayətlər mütəvatirdir.[1] Bundan əlavə, Əllamə Əmini də öz dəyərli əsəri olan "Əl-Qədir" kitabında həmin ayə barəsində əhli-sünnənin iyirmi dörd tanınmış mənbəsindən rəvayət nəql etmişdir. Onun nəql etdiyi mənbələr bunlardan ibarətdir:

"Təbəri təfsiri", "Əsbabun-nuzul", "Fəxri Razi təfsiri", Sibt ibn Cuzinin "Təzkirə"si, İbn Həcərin "Əs-Səvaiq", Şibləncinin "Nurul-əbsar" əsəri və "İbn Kəsir təfsiri". Bu əsərlər əhli-sünnə nəzərində

*1. Hər hansı bir məsələ barəsində həddən artıq rəvayətlərin nəql edilməsi ilə həmin mövzuya nisbətdə insan yəqin əldə edərsə, bu cür hədislər "mütəvatir" adlanır və onların sənədlərinin araşdırılmasına ehtiyac duyulmur.*

mötəbərdir və xüsusi əhəmiyyət kəsb edir. Həmin hədislərin raviləri Peyğəmbərin (s) on nəfər aşağıda adlarını çəkdiyimiz məşhur və tanınmış səhabələrindəndir:

1. İbn Abbas, 2. Əmmar Yasir, 3. Cabir ibn Abdullah Ənsari, 4. Əbuzər Qəffari (o, bu zəminədə ən məşhur və geniş şərhli rəvayəti nəql etmişdir), 5. Ənəs ibn Malik, 6. Abdullah ibn Salam, 7. Səlmət ibn Kuheyl, 8. Abdullah ibn Qalib, 9. Uqbət ibn Həkim, 10. Abdullah ibn Ubəyy.

Bundanə əlavə, bu ayənin nazilolma səbəbi barədə, şəxsən, həzrət Əlinin (ə) də rəvayət nəql etdiyini və o həzrətin dəfələrlə həmin ayəni dəlil gətirdiyini deyə bilərik. Yuxarıdakı rəvayətlərin məzmunu belədir: "Bir gün həzrət Əli (ə) Məscidün-Nəbidə (Peyğəmbər məscidi) namaz qılmaqla məşğul olduğu zaman məscidə ehtiyacı olan bir şəxs (dilənçi) daxil olur və öz ehtiyaclarını ödəmək üçün kömək istəyir. Amma heç kəs ona bir şey vermir.[1] Namazda rüku halında olan həzrət Əli (ə) əli ilə ona işarə edir və həmin şəxs yaxın gələrək o həzrətin mübarək barmağından üzüyü çıxarıb götürür və sonra məsciddən gedir. Elə həmin vaxt barəsində bəhs etdiyimiz ayə Peyğəmbərə (s) nazil olur."

Xatırlatdığımız mətləb nazil edilən ayə barəsində nəql edilmiş qırxdan artıq rəvayətin məzmunudur. Biz burada həmin qırx rəvayətdən yalnız üçünü nəzərinizə çatdırmaqla kifayətlənir və onları müxtəsər şəkildə Fəxri Razinin təfsirindən nəql edirik:

١. رَوى عَطا عَنْ اِبْنِ عَبّاسْ أَنَّها نَزَلَتْ في عَلِيٍّ بْنِ أَبيطالِب.

***"Əta adlı bir şəxs Peyğəmbərin (s) məşhur səhabəsi və Quran müfəssiri olan İbn Abbasın belə nəql etdiyini buyurur: "Vilayət ayəsi Əli ibn Əbu Talibin (ə) barəsində nazil edilmişdir.""[2]***

٢. رَسُولَ اللهِ أَنَا رَأَيْتُ عَلِيّاً تَصَدَّقَ بِخاتَمِهِ عَلروى ان عبدالله بن سلام قال: لَمّا نَزَلَتْ هذِهِ الآيَةُ، قُلْتُ، يا مُحْتاج وَهُوَ راكِعٌ فَنَحْنُ نَتَوَلاّهُ

***"Abdulla ibn Salamın belə dediyi nəql edilmişdir: "Vilayət ayəsi nazil olduğu zaman mən Peyğəmbərə (s) dedim ki, həzrət Əli (ə) öz üzüyünü ehtiyaclı olan şəxsə sədəqə verdiyində, mən də orada hazır idim və bunların hamısını öz gözlərimlə gördüm (onun vilayəti barəsində bu ayənin nazil olmasına diqqət etməklə) mən oun vilayətini qəbul***

*1. Peyğəmbər (s) zamanında iqtisadi cəhətdən müsəlmanları vəziyyəti o qədər də yaxşı deyildi və onların əksəriyyəti çətinliklə həyat sürür, hətta, zəruri ehtiyaclarını belə, təmin edə bilmirdilər.*

*2. «Təfsirul-kəbir", c. 12, səh. 26.*

***edirəm.”"***[1]

3. Bu barədə ən geniş şərhə malik və mühüm hesab edilən üçüncü rəvayət Əbuzər Qəffaridən nəql edilmişdir. Fəxri Razi Əbuzərə istinadən həmin rəvayəti belə bəyan edir:

قـال: صَلَّيْتُ مَعَ رَسُولِ اللهِ صلى الله عليه وآله يَوْماً صَلوةَ الظُّهْرِ، فَسَأَلَ سـائِلٌ فِي الْمَسْجِدِ فَلَمْ يُعْطِهِ أَحَدٌ فَرَفَعَ السّـائِلُ يَدَهُ إِلَى السَّمـاءِ وَقـالَ: اللّهُمَّ اشْهَدْ أَنِّي سَأَلْتُ فِي مَسْجِدِ الرَّسُولِ فَمـا أَعْطـانِي أَحَدٌ شَيْئاً! وَعَلِيٌّ كـانَ راكِعاً، فَأَوْمأَ إِلَيْهِ بِخِنْصِرِهِ الْـيُمْنى وَكـانَ فِيهـا خـاتَمٌ فَأَقْبَلَ السّـائِلُ حَتّى أَخَذَ الْخـاتَمَ بِمَرْأى النَّبِيُّ ) صلى الله عليه وآله (فَقـالَ ) صلى الله عليه وآله: (اللَّهُمَّ إِنَّ أَخِي مُوسى سأَلَكَ فَقـالَ: رَبِّ اشْرَحْ لِي صَدْرِي، وَيَسِّرْ لِي أَمْرِي، وَاحْلُلْ عَقْدَةً مِنْ لِسـانِي، يَفْقَهُوا قَوْلِي، وَاجْعَلْ لِي وَزِيراً مِنْ أَهْلى، هـارُونَ أَخِي، اُشْدُدْ بِهِ أَزْرِي وَأَشْرِكْهُ فِي أَمْرِي فَأَنْزَلَت قُرْآناً ناطِقاً: سَنَشُدُّ عَضُدَكَ بِاَخيكَ وَنَجْعَلُ لَكُمـا سُلْطـاناً وَاَللّهُمَّ وَأَنَا مُحَمَّدٌ نَبِيُّكَ وَصَفِيُّكَ فَاشْرَحْ لِي صَدْرِي وَيَسِّرْ لِي أَمْرِي وَاجْعَلْ لِي وَزِيراً مِنْ أَهْلِي، عَلِيّاً، اُشْدُدْ بِهِ ظَهْرِي. قـالَ أَبُوذَر: فَوَ اللهِ مـا أَتَمَّ رَسُولُ اللهِ ) صلى الله عليه وآله (هـذِهِ الْكَلِمَةِ حَتّى نَزَلَ جِبْرَئِيلُ، فَقـالَ: يـا مُحَمَّدُ: إِقْرَءْ إِنَّمـا وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ...

***Əbuzər deyir: “Bir gün Peyğəmbərlə (s) zöhr namazını camaatla birlikdə qıldıq. Namazdan sonra (əksər müsəlmanlara hakim kəsilən fəqirlik səbəbindən) ehtiyacı olan bir şəxs kömək istədi. Amma məsciddə olanlardan heç biri ona kömək etmədi. Sonra o, əllərini asimana tərəf qaldırıb dua edərək dedi: “İlahi! Sən şahidsən ki, İslam Peyğəmbərinin (s) məscidində kömək istədim, amma kimsə mənə kömək etmədi.”***

***Həmin vaxt namaz (müstəhəb və nafilə) qılmağa məşğul olan həzrət Əli (ə) sağ əlinin kiçik barmağı ilə (həmin barmağnda üzük vardı) həmin şəxsə işarə etdi. O, həzrət Əlinin (ə) yanına gələrək üzüyü həzrətin barmağından çıxardı və getdi. Bu səhnə Peyğəmbər (s) və səhabələrin hüzurunda və gözləri önündə baş verdi. Peyğəmbər (s) (həmin gözəl səhnəni gördükdən sonra əllərini asimana qaldırdı və) dedi: “İlahi! Qardaşım Musa ibn İmran səndən hacət istəyərək dedi ki, ey mənim Rəbbim, sinəmi genişləndir, işlərimi mənim üçün asan elə, dilimdəki düyünü aç ki, sözlərimi başa düşsünlər və xanədanımdan olan bir şəxsi – qardaşım Harunu mənə vəzir təyin et! Onunla mənə kömək ol (kürəyimi möhkəmləndir) və onu işlərimə şərik et!***

***Sən Quranda (onun hacətlərini qəbul etməyinlə bağlı) belə buyurmusan: “Mən tezliklə səni qardaşınla qüvvətləndirəcək və sizə üstülük və hakimiyyət əta edəcəyəm!” İlahi! Mən Məhəmməd (s) sənin peyğəmbər olaraq seçdiyin kəsəm. Sinəmi genişləndir, işlərimi mənim üçün asan et və xanədanımdan – Əlini (ə) mənə vəzir təyin elə və onunla***

---

*1.[1] Təfsirul-kəbir”, c. 12, səh. 26.*

***kürəyimi möhkəmləndir." Əbuzər hədisin davamında çox gözəl şəkildə belə deyir: "Allaha and olsun ki, hələ Peyğəmbərin (s) sözləri sona çatmamış Cəbrayıl nazil oldu və ....*** **انما وليكم الله و. ayəsini Peyğəmbərə (s) oxudu.""**

Fəxri Razi bu üç rəvayəti nəql etdikdən sonra deyir: "Bu məsələ barədə gəlib çatan rəvayətlərin məcmusu elə üç rəvayətdən ibarətdir.".[1]

## *İki mətləbin xatırladılması*

1. Əbuzərin nəql etdiyi rəvayət həzrət Əlinin (ə) verdiyi sədəqənin sadəcə kömək məqsədi ilə olmadığını, əksinə səhabə və müsəlmanların toplanma mərkəzi olan Peyğəmbər (s) məscidinin əzəmət və ehtiramının qorunmasına xidmət etdiyini də nişan verir. Çünki kömək istəyən şəxs əzəmət və ehtirama malik Peyğəmbər (s) məscidində ona yardım edilmədiyindən, Allaha şikayət edir. Nəticədə, namazın rüku halında həzrət Əlinin (ə) o şəxsə sədəqə verməsi onun ehtiyaclarını ödəməkdən əlavə, Peyğəmbər (s) məscidinin əzəmət və ehtiramı, həm də səhabələrin etibarının qorunmasına səbəb olmuşdur.

2. Fəxri Razinin sözügedən ayə ilə bağlı "Əlimizə gəlib çatan rəvayətlərin sayının cəmi üç ədəd olması"nı deməsi əsassız iddiadan ibarətdir. Məlum olduğu kimi, bu zəminədə qırxdan artıq rəvayət mövcuddur və maraqlı burasındadır ki, onların əksəriyyəti əhli-sünnədən nəql edilmişdir. Amma təəssüf edilməli məsələ təəssüb və tərsliyin insana üz gətirdiyi zaman alim olmasına baxmayaraq, Fəxri Razi kimi birindən gözlənilməyən sözlərin deyilməsinə səbəb olmasıdır. Bundan əlavə, əlimizə bu ayə barədə sadəcə qırxa yaxın rəvayət gəlib çatmasına əsasən, biz tarix ərzində həmin zəminədə onun neçə bərabəri olan rəvayətlərin də aradan getdiyini iddia edə bilərik.

Xüsusən, tarixin Bəni-Üməyyə dövrü kimi qaranlıq bir dövründə Əhli-beytin (ə) və ümdə olaraq Əmirəl-mömininin (ə) fəzilətlərinin camaat arasında yayılması ilə bağlı mübarizə aparılmış və o həzrət barəsində bir çox fəzilətlərdən xəbərdar olan şəxlər onları deməyə cürət etməmiş və həmin fəzilətlərlə bağlı məlumatları özləri ilə qəbrə aparmışlar. Həmin zamanlarda elə bir vəziyyət yaranmışdı ki, əgər bir kəs o həzrətin fəzilətlərini dilə gətirərdisə, hakimiyyət tərəfindən təqib edilir və bir sıra əziyyətlərə məruz qalırdı, hətta kiminsə öz övladının adını Əli qoymağa belə ixtiyarı yox idi. Bunları nəzərə almaqla, əlimizdəki qırx hədisə istinadən biz də cürətlə deyə bilərik ki, tarix ərzində həmin hədislərin neçə bərabəri aradan aparılaraq məhv edilmişdir.

---

*1. «Təfsirul-kəbir", c.12, səh. 26.*

Nəticədə, bu ayə barəsində gəlib çatan rəvayətlərin təvatür həddəki say çoxluğu və onlara geniş və müfəssəl şəkildə şərhlər verilməsi ilə (إنما وليكم الله) ayəsinin həzrət Əmirəl-möminin (ə) barəsində nazil edilməsi və o həzrətin Allah və Peyğəmbərdən (s) sonra müsəlmanların rəhbər, imam və öndəri olması kimi düşünülməsinə heç bir şəkk-şübhə yeri qalmır.

## Bəhanə və iradlar

Ayənin Əmirəl-mömininin (ə) vilayətinə açıq-aşkar şəkildə dəlalət etməsi ilə yanaşı, bəzi alimlər ayənin işarə etdiyi mövzu barəsində bir sıra iradlar bəyan etmişlər və həmin iradların əksəriyyətinin sual və irad qəlibində olmasına baxmayaraq, həqiqətdə, onlar bəhanələrdir.[1]

### Birinci irad: "İnnəma" sözü həsr və məxsusluğa dəlalət etmir

Ötən bəhslərdə qeyd etdiyimiz kimi, yuxarıdakı ayəyə gətirilən dəlillər üç məsələ üzərində möhkəmlənmişdir. Birincisi, (إنما) "innəma" sözü həsr və məxsusluğu bildirir və vilayəti ayədə gələnlərə əsaslanaraq üç dəstəyə şamil edir. Beləliklə, vilayət məsələsi onlardan başqası üçün sübuta yetmir.

Əhli-sünnədən olan bəzi təfsirçilər (إنما) "innəma" sözünün həsr və məxsusluğu bildirmədiyini deyirlər, çünki həmin söz digər ayələrdə də işlənmiş, amma həsr mənasını ifadə etməmişdir. Onlar misal olaraq "Hədid" surəsinin 20-ci ayəsini göstərirlər. Ayədə deyilir:

... إِعْلَمُوا أَنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَزِينَةٌ وَتَفَاخُرٌ بَيْنَكُمْ وَتَكَاثُرٌ فِي الْأَمْوَالِ وَالْأَوْلَادِ

***"(Ey insanlar!) Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək, mal-dövlət və oğul-uşağı çoxaltmaqdan ibarətdir."***

"İnnəma" (إنما) sözü bu ayədə "həsr" və "məxsusluq" mənasında

1. *Əlbəttə, sual və soruşmağın məchul və qaranlıq məsələlərin həlli, elm və biliyin əldə edilməsi ilə bağlı əsas rola malik olmasında şübhə yoxdur. Bu baxımdan, Quranın iki ayəsində tədqiqat və araşdırma üçün sual verilməsinə göstəriş verilmişdir. Allah-taala "Nəhl" surəsinin 43 və "Ənbiya" surəsinin 7-ci ayəsində buyurur:*

فَاسْأَلُوا أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لَا تَعْلَمُونَ *"Əgər bilmirsinizsə, zikr əhlindən soruşun!" Bu şərif ayə hər bir cəhətdən mütləq şəkildədir. Yəni, hər hansı bir sualı olan şəxs onu bilənlərdən soruşa bilər. Bu barədə də çoxlu rəvayət və hədislər mövcuddur. Amma mühüm olan məsələ sualın həqiqətləri anlamaq üçün verilməsidir, nəinki, yuxarıda qeyd edilən ayə barəsində bəzi əhli-sünnə alimlərinin təəssübkeşlik səbəbilə suallar verməsi.*

deyil, çünki dünya həyatı təkcə ayədə gələnlərdən təşkil olunmamışdır, əksinə elm, təhsil, fəaliyyət və digər əldə edilən ləzzətlərə də şamildir.

Nəticədə, bu ayədə (إنما)sözü həsr və məxsusluğu bildirmədiyi kimi, "Vilayət" ayəsində də həsr və məxsusluğu ifadə etmir və sizin bu barədəki dəliliniz naqisdir.

***Cavab:*** Bu irad da sual formasında olan bəhanələrdəndir və bizim etiqadımız belədir:

***Birincisi,*** (إنما) "innəma" sözü bu ayədə də həsr və məxsusluq mənasındadır və dünya, həqiqətdə, mömin və arif olan bir insanın nəzərində əyləncə və oyun-oyuncaqdan başqa, bir şey deyil. Siz dünyanın bər-bəzəyinə giriftar olmuş və elə hesab edirsiniz ki, dünya həmin məsələləri yox, digərlərini əhatə edir, amma həqiqəti görən gözlərlə diqqət etsəniz, onda, qəsr və sarayların, məqam və cah-cəlalın dünyaya pərəstiş edənlərin başını qatmaq üçün uşaq oyun-oyuncağından başqa, bir şey olmadığını görəcəksiniz.

***İkincisi,*** bir yerdə (إنما) "innəma" sözünün öz həqiqi mənasında istifadə edilmədiyini fərz etsək, bu, həmin qeyri-həqiqi mənanı digər ayələrə də tətbiq etməyimiz üçün dəlil sayılmaz. Nəticədə, (إنما) sözü həsr və məxsusluq mənasındadır və ayə ilə bağlı bizim dəlilimiz kamildir.

## İkinci irad: Namazda üzük bağışlamaq artıq bir işidir (hərəkətdir)

Əhli-sünnə tərəfindən bəyan edilən və daha çox bəhanəyə bənzəyən ikinci bir irad "Ayənin həzrət Əli (ə) barəsində nazil olduğunu qəbul edirik, amma bu işin Əli ibn Əbu Talib (ə) tərəfindən namazda yerinə yetirilməsi artıq (namazdan sayılmayan) bir işdir və namazda artıq bir iş (hərəkət) onun batil olmasına səbəb olur." – deməlləridir. Görəsən, həzrət Əli (ə) namazın batil olması üçün artıq bir iş görərmi?

***Cavab:*** Bu bəhanəyə cavab çox aydındır:

***Birincisi,*** "artıq iş" adından da məlum olduğu kimi, namaza aidiyyatı olmayan və namazın halət və surətinin pozulmasına bais olan əlavə işlərə deyilir. Məsələn, namazın ortasında sevindirici bir xəbər eşidərək şadlanan və şadlığından əl çalmağa, yerində atılıb-düşməyə başlayan bir şəxsin əməlləri kimi. Amma namazda ehtiyaclı və dilənçi bir şəxsə barmağı ilə işarə etmək və hətta həzrətin barmağından üzüyü özü deyil, həmin şəxsin çıxarmasına səbəb olan hərəkət, görəsən, artıq

işdirmi?! [1]

Rəvayətə uyğun olaraq namaz qılan şəxsin burnundan qan gəldiyində, əgər yaxınlığında su olarsa, burnunu yumasına və sonra namazı davam etdirməsinə icazə verildiyi halda, bu işin "artıq iş" olmasını necə deyirlər?! Yaxud da, öz yaxınlığında yırtıcı və təhlükəli bir heyvanın olduğunu müşahidə etdikdə, onu öldürməsi və sonra namazını davam etdirməsinə icazə verildiyinə nə deyirsiniz?! Bütün bu işlər artıq iş deyil, amma bir işarə artıq işdirmi?

***İkincisi,*** (Allaha pənah aparırıq) bu irad və bəhanə Allaha tutulan iraddır, çünki həzrət Əlinin (ə) yerinə yetirdiyi həmin işlə bağlı nazil edilən ayədə o həzrət təriflənir. Əgər o həzrətin işi namazın batil olmasına səbəb olsaydı, görəsən, Allah-taala onun mədhi ilə əlaqədar ayə nazil edərdimi?

Belə nəticəyə gəlirik ki, bu irad da təəssüb, inadkarlıq və bəhanədən başqa, bir şey deyil.

## Üçüncü irad: Üzük həddən artıq bahalı və qiymətli idi

Bəzi rəvayətlərə uyğun olaraq üzük həddən artıq bahalı və qiymətli bir üzük idi, hətta bəzilərinin dediklərinə görə, üzüyün qiyməti Şamat (Şam) kimi bir şəhərin gəlirinə bərabər idi. Görəsən, belə bahalı və qiymətli bir üzükdən istifadə etmək Əli ibn Əbu Talib (ə) üçün israf və haram deyildimi?

***Cavab:*** Əlbəttə, bu bəhanənin də cavabı aydındır belə ki:

***Birincisi,*** heç bir mötəbər rəvayətdə bu mətləb qeyd edilməmişdir, əksinə nəzərdə tutulan üzük adi və sadə bir üzük olmuşdur. Həmin dövrlərdə İran, Şamat (Şam) və digər şəhərlər hələ fəth edilməmiş və onun külli miqdarda olan sərvətləri müsəlmanların əlinə keçməmişdi, bundan əlavə, onların fəthi Peyğəmbərin (s) vəfatından sonra və xəlifələr zamanında baş vermişdir. Eyni zamanda, xəlifə və qüdrət sahibi olmasına baxmayaraq, həzrət Əlinin (ə) yeməyi bir növ sadə yeməkdən ibarət idi. Adətən, o həzrət arpa unundan olan çörəklə kifayətlənər və sadə paltarlar geyinərdi. Belə olan halda, onun bu cür bahalı bir üzükdən istifadə etməsi necə mümkün idi?

Deməli, şübhə yoxdur ki, həmin zəif rəvayət nə digər rəvayətlərlə uyğunluq təşkil edir, nə də həzrət Əlinin (ə) yaşayış tərzi onu təsdiqləyir. Həmçinin, bu məsələnin tarixlə də uzlaşmayaraq şəxsi qərəzçilikdən düzəldildiyi aydın olur.

***İkincisi,*** həzrət Əlinin (ə) haram və israfa səbəb olan və həddən

---

*1. Zəməxşəri özünün "Əl-Kəşşaf" təfsirinin 1-ci cild, 649-cu səhifəsində bu işin artıq iş olmadığını etiraf etmişdir.*

artıq bahalı qiymətə malik üzüyə sahib olması və onu sədəqə verdiyi zaman Allahın da onu mədh etməsi necə mümkün ola bilər?! Ayənin belə bir şəxs və bü cür iş barəsində nazil olaraq onu mədh və tərif etməsindən yuxarıda deyilən sözlərin boş və əsassız olduğunu və xüsusi məqsədlə hazırlandığını anlayırıq.

### Dördüncü irad: Bu iş (namazda) hüzuri-qəlblə uyğun gəlmir

***Sual:*** Həzrət Əlinin (ə) Allahı xatırlayıb zikr edərkən, xüsusən, namaz halında tamamilə hüzuri-qəlbə malik olmasına, Allahın camal və cəlal sifətlərində qərq olaraq ondan başqasına diqqət etməməsinə, ayağına batmış oxun çıxarılmasının adi və qeyri-namaz halında qeyri-mümkün və dözülməz olduğu, amma o həzrətin namaz qıldığı vaxt asanlıqla çıxarıldığına və onun heç bir ağrı hiss etməməsinə və Allahda fəna olmasına, eyni zamanda, ondakı bu cür qeyri-adi hüzuri-qəlbə nəzər saldıqda, həzrət Əlinin (ə) dilənçinin sözlərinə diqqət və namazın rükusunda ona yardım etdiyini necə söyləyə bilirsiniz?! Xülasə, namazdakı bu məsələ həzrət Əlidə (ə) olan hüzuri-qəlblə uyğun gəlmir.

***Cavab:***

***Birincisi,*** dilənçi öna kömək edilməsindən naümid olduqda, Allahla razu-niyaz edərək öz şikayətinə Allahın adı ilə başlayır: اللّهمّ اشهد ***"İlahi! Sən özün şahid ol..."***

Deməli, Allahın adı idi ki, həzrət Əlinin (ə) diqqətini dilənçiyə yönəltmişdir. Bunun namazda hüzuri-qəlbə malik olmaq və Allaha diqqətlə heç bir ziddiyyəti yoxdur. Bundan əlavə, bəyəm, camaat namazında pişnamaza iqtida edən (məmum) mükəbbirin (təkbir deyənin) səsini namazda eşitmir və ona uyğun hərəkət etmirmi? Əgər eşitməsə, onunla birlikdə necə namaz qıla bilər?! Yox, əgər eşidirsə, onda, heç bir camaat namazında hüzuri-qəlb mövcud deyilmi?!

***İkincisi,*** dilənçinin səsini eşitməkdə – onun barəsində hədislərdə "Allahın göndərdiyi" (elçisi) deyə ifadə edilmişdir – hansısa bir irad vardırmı? Allahın göndərdiyi şəxsin səsini eşitməyin hüzuri-qəlblə nə ziddiyyəti vardır?[1]

***Üçüncüsü:*** Məzlumun səsini eşitmək və hətta namazda da olsa

*1. Əmirəl-möminindən (ə) olan bir hədisdə belə gəlmişdir: «Miskin və dilənçi Allahın göndərdiyidir, hər kəs onu geri çevirsə, sanki Allahı geri çevirmişdir və hər kəs ona bir şey versə, sanki Allaha bir şey vermişdir.» "Vəsailuş-şiə", c.6, 23-cü bölmə, "Sədəqə" bölməsi, hədis 11.*

belə, onun çətinliyini həll etmək ibadət deyilmi?[1] Əgər ibadətdirsə, bu, həzrət Əlinin (ə) diqqətini çəkmiş və həmin işi yerinə yetirmişdir. O həzrətin əməli iradtutulası deyil, əksinə ibadət içində ibadət hesab olunur. İradtutulası məsələ namazda insanın öz yaxınlarına diqqətidir, amma ehtiyaclı və məzlum olan birinə diqqət və ona kömək etmək ibadətdir və heç bir iradı yoxdur.

Nəticədə, bu irad da yersizdir və həqiqətdə, onu və ona bənzər iradları düzəldənlərin hədəfi həzrət Əlinin (ə) vilayəti ilə bağlı bizim dəlillərimizi zəiflətməkdir.

### Beşinci irad: Nə üçün ayədəki bütün əvəzliklər cəm halındadır?

Ötən bəhslərdə dediklərimizə əsasən, ayə üç qrupdan olanların vilayəti barədədir və üçüncü dəstə barədə gələn bütün əvəzliklər, fellər və s. cəm halındadır. Diqqət edin:

1. الَّذين 2. آمنوا 3. الّذين 4. يقيمون 5. يؤتون 6. هم 7. راكعون.

Xatırladılan bu yeddi sözün hamısı cəm şəkildədir. Yəni, müxtəlif fərdlərin rüku halında fəqirə kömək etməsinə baxmayaraq, bütün rəvayətlər fəqət həzrət Əlinin (ə) rüku halında sədəqə verən şəxs kimi tanındırır. Bu mətləbə diqqət etməklə, ayənin nazil edilməsi ilə bağlı nəql edilən rəvayətlər ayə ilə uyğunluq təşkil edirmi?

Aydın məsələdir ki, əgər Qurani-Kərimin ayələri ilə onun barəsində nəql edilən rəvayət arasında ziddiyyət meydana gələrsə, biz rəvayəti kənara qoyaraq ayənin məzmununa əməl etməliyik. Deməli, yuxarıdakı ayə ilə rəvayət arasındakı ziddiyyət rəvayətin etibardan düşməsinə səbəb olur.

***Cavab:*** Əhli-sünnənin öz alim və təfsirçiləri bu irada cavab vermişlər. Fəxri Razi bu sualın cavabında belə deyir: "Sözün cəm halda işlədilməsi bəzən ehtiram üçündür, yəni xitab edilən tərəfin bir nəfərdən artıq olmamasına baxmayaraq, ona hörmət mənasında cəm təşkil edən sözlərdən istifadə olunur. Belə məsələlər digər dillərdə də mövcuddur. Məsələn, "sən gəldin, getdin və sairə" yerinə "siz gəldiniz, getdiniz və sairə" kimi cümlələr işlədilir. Nəticədə, ərəb qrammatikasında da tək halda olan sözlər yerinə ehtiram məqsədi ilə cəm haldakı sözlərdən istifadə olunur. Yuxarıdakı ayə də, eynilə, bu

*1. Sədəqənin fəzilət və təsirləri, həmçinin, ehtiyacı olanlara kömək etmək barəsində çoxlu rəvayətlər gəlib çatmışdır. O cümlədən, imam Baqirdən (ə) olan hədisdə belə oxuyururq: "Mən həcc əməlini yerinə yetirməyi yetmiş qulu azad etməkdən daha çox sevirəm və ehtiyacı olan bir müsəlman ailəsinə kömək etmək, onların qarınlarını doyurmaq və əyinlərinə libas geyindirmək, həmçinin, abır-həyalarını qorumaq mənim üçün yetmiş həcdən üstündür." ("Vəsailuş-şiə", c.6, "sədəqə" bölməsi, 2-ci bölmə, hədis 3).*

cürdür."[1]

Alusi "Ruhul-məani" kitabında aşağıdakı kimi fərqli bir cavab vermişdir: "Bəzi vaxtlarda şəxsin, bəzən də işin əzəmət və böyüklüyü səbəbi ilə təklik bildirən (müfrəd) sözlər yerinə cəmdən istifadə olunur. Bu, ərəb dilində olan bir ənənədir və belə istifadə məcazi olduğu üçün qərinə və şahidə ehtiyac vardır."[2]

***İndi isə biz həmin məsələyə cavab veririk:***

***Birincisi,*** deyirsiniz ki, iş və ya şəxsin əzəməti və ona ehtiram edilməsi üçün müfrəd (tək) yerinə cəmdən istifadə olunması ərəblər arasında adət və ənənə halını almış və sözügedən ayədə də həmin cəhət nəzərdə tutularaq cəm şəkilçiləri işlədilmişdir. Bu məcazi mənanın ən yaxşı qərinəsi heç bir alimin, hətta əhli-sünnədən olan təəssübkeş alimlərin də həzrət Əlidən (ə) başqa, ayənin ona şamil olması üçün kiminsə namazın rüku halında sədəqə verməsinə etiqad bəsləməməsidir və bunun özü tək haldakı söz yerinə cəmin işlədilməsi üçün ən yaxşı qərinə və şahiddir.

***İkincisi,*** Qurani-Kərimin bir çox ayələrində tək haldakı sözün işlənməsi lazım gəldiyi yerdə, cəmin işlədilməsi görülmüşdür. Nümunə üçün, yeddi ayəni diqqətinizə çatdırırıq:

1. "Bəqərə" surəsinin 215-ci ayəsi:

يَسْئَلُونَكَ مـاذا يُنْفِقُونَ قُلْ مـا أَنْفَقْتُمْ مِنْ خَيْرٍ فَلِلْوالِدَيْنِ وَالأَقْرَبِينَ وَالْيَتـامى وَالْمَسـاكِينَ وَابْنِ السَّبِيلِ وَمـا تَفْعَلُوا مِنْ خَيْرٍ فَإِنَّ اللهَ بِهِ عَلِيمٌ

***"(Ey Rəsulum!) Səndən (Allah yolunda) nə verəcəkləri (infaq) haqqında soruşanlara de: «(Malınızdan) verəcəyiniz şey ata-anaya, (yoxsul) qohumlara, yetimlərə, miskinlərə və (pulu qurtaran) müsafirə (yolçulara) məxsusdur. «Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir.""***

Bu şərif ayədə **يسألونك، ينفقون، انفقتم و ما تفعلوا** – kimi sözlər cəm halda işlədilmişdir və elə nəzərə çarpır ki, bütün müsəlmanlar yuxarıdakı sualı vermişlər. Amma ayənin nazilolma səbəbi ilə bağlı deyilənlərə uyğun olaraq, bu sualı bir nəfərdən – varlı şəxs olan Ömər ibn Cumuhdan – başqa, kimsə verməmişdir.[3] Nəticədə, bu ayədə də ya infaq kimi əhəmiyyətli işə, ya da sual verənin (Ömər ibn Cumuh) ehtiramına xatir müfrəd yerinə cəm işlədilmişdir.

***Bir mətləb:*** Bu ayədə nəzərə çarpan maraqlı məsələ Ömər ibn Cumuhun verdiyi sualın cavabında Allahın digər bir mövzuya

*1. "Ət-Təfsirul-kəbir", c.12, səh. 28.*
*2. "Ruhul-məani", c.6, səh. 168.*
*3. "Əl-Kəşşaf", c.1, səh. 257.*

toxunmasıdır. Yəni, Ömər ibn Cumuh hansı mallardan infaq etməyi soruşur, amma Allah-taala sualın cavabını bildirməkdən əlavə, həmin malların kimlərə xərclənməli olması barədə söhbət açır. Bu cür cavabın verdiyi mesaj malın xərclənmə yerlərinin əhəmiyyətliliyindədir və insanın əvvəlcə, ata-anası, yaxınları və qohum-əqrəbasını və daha sonra digərlərini nəzərdə tutmasını diqqətə çatdırır.

2. Allah-taala "Bəqərə" surəsinin 274-cü ayəsində buyurur:

**الَّذِينَ يُنْفِقُونَ أَمْوالَهُمْ بِاللَّيْلِ وَالنَّهارِ سِرّاً وَعَلانِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِنْدَ رَبِّهِمْ وَلا خَوْفٌ عَلَيْهِمْ وَلا هُمْ يَحْزَنُونَ**

***"Mallarını gecə və gündüz, gizli və aşkar (yoxsullara) sərf edənlərin Allah yanında böyük mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər."***

Bu ayədə də **اَلّذين، ينفقون، اموالهم، فلهم، اجرهم، ربّهم، عليهم، هم، يحزنون** – sözləri cəm şəklində nazil edilmişdir, lakin əksər təfsirçilər ayədəki məqsədin Əli ibn Əbu Talib (ə) olduğunu və o həzrətin gecə-gündüz, aşkar və gizlində infaq etdiyini demişlər. Rəvayətə əsasən, o həzrətin dörd dirhəm pulu vardı və o, bir dirhəmi gecə, bir dirhəmi günüz və yerdə qalan iki dirhəmi isə aşkar və gizlində infaq etmiş və həmin ayə də onun barəsində nazil edilmişdir.[1]

***Sual:*** Dörd dirhəmin infaq edilməsi kimi cüzi və kiçik işlər üçün ayə nazil edilməsi mümkündürmü?

***Cavab:*** İslamın nəzərində əhəmiyyətli və mühüm olan əməlin kəmiyyət və miqdarı deyil, onun keyfiyyət və necəliyidir. Əgər əməl ixlasla yerinə yetirilmiş olarsa, dörd dirhəmlik azacıq infaqla bağlı ayənin nazil edilməsi mümkündür, amma kimsə qızıldan olan bir gövhəri infaq etsə və əməli ixlas üzündən olmasa, heç bir dəyərə malik olmayacaq və onun barəsində bir ayə belə, nazil edilməyəcəkdi!

3. "Ali-İmran" surəsinin 173-cü ayəsində buyurulur:

**الَّذِينَ قالَ لَهُمُ النّاسُ إِنَّ النّاسَ قَدْ جَمَعُوا لَكُمْ فَاخْشَوْهُمْ فَزادَهُمْ إِيماناً وَقالُوا حَسْبُنَا اللهُ وَنِعْمَ الْوَكِيلُ**

***"Onlar (Ühüd döyüşündəki mücahidlər) elə kəslər idilər ki, camaatın bəzisi "Camaat (düşmən qoşunu) sizin (lə vuruşmaq) üçün toplaşmışdır, onlardan qorxun!" – dediyində, bu xəbər onların imanını artırdı və dedilər: "Allah bizə kifayətdir və o, necə də gözəl vəkildir!""***

Bu ayə "Ühüd" döyüşü barədə nazil olmuşdur. Yenicə müsəlman olmuş bir qrup döyüşdə Peyğəmbərin (s) göstərişinə itaətsizlik

---

*1. "Əl-Kəşşaf", c.1, səh. 319.*

edərək onlara təyin olunmuş yeri tərk etdilər və döyüş qənimətlərini toplamağa başladılar. Bu səbəbdən, məğlubiyyətə uğradılmaqda olan düşmən müsəlmanların qəflətindən sui-istifadə edərək Ühüd dağını mühasirə edir və beləliklə, müsəlmanlardan yetmiş nəfər şəhadətə çatdırılır.

Kafir və müşriklər işi sonuna kimi davam etdirməyərək həmin miqdardakı qələbə ilə kifayətlənmiş və Məkkəyə doğru geri qayıtmışlar. Məkkəyə qayıtmaq ərəfəsində onlardan biri deyir: “Biz bu mərhələyə qədər qələbə çalmağımıza baxmayaraq, nə üçün İslam Peyğəmbərini (s) qətlə yetirmədik ki, İslamın işi tamamilə sona yetsin? Əgər elə bu gün həmin işi görməsək, gələcəkdə İslam və müsəlmanlar bizə maneçilik törədəcəklər.” Onun sözləri digərlərinə təsir etdi və hamısı geri qayıdıb yenidən döyüşmək istədilər. Müşriklərin arasında təkcə Nəim ibn Məsud və ya Möbəd Əl-Xüzai adlı bir şəxs döyüşün davam etdirilməsindən narazı idi. O, kafirlərin müsəlmanlara yetişməsindən qabaq, müşriklərin geri qayıdıb döyüşə qərar verdikləri xəbərini müsəlmanlara çatdırdı.

Müsəlmanlardan bəziləri bu xəbərdən qorxu və vəhşət hissi keçirərək dedilər: “Sağlam olduğumuz zaman onlarla döyüşdə məğlub olduq və indi bu qədər yaralandığımız və bəzilərimiz öldürüldüyü halda, onların müqabilində necə davam gətirə biləcəyik?!” Amma müsəlmanların digər dəstəsi dedi ki, biz təkcə onlarla döyüşmək deyil, əksinə onların qarşısına da çıxacağıq. Onlar hətta yaralananlardan da qoşun toplayaraq düşmən qarşısına çıxdıqda, kafir və müşriklər başa düşdülər ki, müsəlmanlar yaralananlarla döyüşə gəlmişdir. Bu hadisədən qorxuya düşdülər və həmin miqdar qələbə və müvəffəqiyyətlə kifayətlənərək geri çəkildilər və yenidən döyüşməkdən daşınaraq çəkindilər.

Yuxarıdakı ayə də həmin məsələ barədə nazil olmuşdur. Eyni zamanda, kafirlərin müsəlmanlarla bağlı verdikləri qərarı müsəlmanlara çatdıran Nəim ibn Məsud və ya Möbəd Əl-Xüzai bir nəfər olmasına baxmayaraq, **ناس** ***(camaat)*** sözü ilə ifadə edilmişdir. Onun bu cür rəftar və əməli diqqətəlayiq və əzəmətli olduğundan, ona ehtiram və hörmət əlaməti olaraq ayədə tək (müfrəd) yerinə cəmdən istifadə edilmişdir.

4. “Ali-İmran” surəsinin 61-ci ayəsində Allah-taala buyurur:

**مَنْ حاجَّكَ فِيهِ مِنْ بَعْدِ ما جائَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعالَوْا نَدْعُ أَبْنائَنا وَأَبْنائَكُمْ وَنِسائَنا وَنِسائَكُمْ وَأَنْفُسَنا وَأَنْفُسَكُمْ، ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللهِ عَلَى الْكاذِبِينَ**

***“Buna görə də sənə elm gəldikdən sonra, onun barəsində (İsa***

***Məsih haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: "Gəlin biz öz oğullarımızı, siz də öz oğullarınızı, biz öz qadınlarımızı, siz də öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü (bizim canımız kimi olan kəsləri) çağıraq, sonra bir-birimizə nifrin edək və beləliklə, Allahın yalançılara lənət etməsini diləyək." (Peyğəmbər (s) bu hadisədə imam Həsənlə (ə) imam Hüseyni (ə) "oğulları", Fatiməni (ə) "qadın" və Əlini (ə) "canı" ünvanında "mübahilə"yə, yəni ayədə işarə olunan "qarşılıqlı nifrinetmə" mərasiminə apardı və kafirlər təslim oldular)."***

Bu ayə "mübahilə" məsələsi barədə nazil olmuşdur. Bu macərada – hamının bildiyi kimi – Peyğəmbər (s) tərəfindən Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) mübahiləyə gəlmişdir. أبنائنا (oğullarımız) da məqsəd imam Həsən (ə) və Hüseyn (ə), نسائنا (qadınlarımız)da məqsəd xanım Fatimədir (ə) və bu söz cəm halda işlənmişdir. أنفسنا (özümüz) də isə məqsəd Əli ibn Əbu Talibdir (ə) və bu söz də cəm şəkildədir.[1] Beləliklə, bu ayədə də نسائنا (qadınlarımız) və أنفسنا (özümüz) cəm halında işlənməsinə baxmayaraq, müfrəd mənasındadır və məqsəd xanım Fatimə (ə) və həzrət Əlidir (ə).

5. "Mümtəhinə" surəsinin 5-ci ayəsində oxuyuruq:

... يـا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا عَدُوِّي وَعَدُوَّكُمْ أَوْلِياءَ

***"Ey iman gətirən kəslər! Mənim və sizin düşməniniz olanları özünüzə dost tutmayın."***

Müfəssirlərin əksəriyyəti bu ayənin Xatib ibn Əbi Bətləə barəsində nazil olduğunu demişlər və onun bir nəfər olmasına baxmayaraq,

الَّذِينَ آمَنُوا لا تَتَّخِذُواَ عَدُوَّكُمْ

kimi sözlər cəm şəklində istifadə edilmişdir. Buna səbəb onun yerinə yetirmək istədiyi işin təhlükəsinin böyüklüyü olmuşdur. Həmin iş belə idi: Peyğəmbər (s) Məkkəni fəth etmək qərarına gəldiyi zaman, Məkkəyə gedən bütün yolları bağlatdırmışdı ki, müsəlmanların qoşun toplayaraq Məkkəyə gəlmək istəmələri düşmənlərin qulağına çatmasın və hadisədən qafil qalsınlar və həmçinin, bu yolla qan tökülmədən döyüşsüz təslim edilsinlər.

Xatib ibn Əbi Bətləənin Məkkədə çoxlu mal-dövləti var idi və o, öz-özünə fikirləşdi ki, müsəlmanların Məkkəyə qoşun yeritmək istəməsi xəbərini müşriklərə çatdırmaqla, mal-dövlətini müşriklərdən geri ala bilər. Bu, indiki siyasətçilərin deyimi ilə "imtiyaz verib imtiyaz almaq"

---

*1. "Əl-Kəşşaf", c.1, səh. 368.*

demək idi. Həmin məqsədlə o, Məkkə böyüklərinə məktub yazaraq onu Sarə adlı bir qadına verdi ki, Məkkəyə çatdırsın. Sarə də məktubu öz paltarlarının altında gizlətdi və Məkkəyə yola düşdü.

Cəbrayıl nazil olaraq bu planı Peyğəmbərə (s) xəbər verdi və o, həzrət Əli (ə) və bir neçə nəfəri məktubun tapılması üçün qadının arxasınca getməklə vəzifələndirdi. Nəticədə, onlar məktupu taparaq Mədinəyə geri qayıtdılar. Bu hadisənin ardınca, qeyd etdiyimiz yuxarıdakı ayə nazil oldu və Xatib ibn Əbi Bətləə məzəmmət edildi. Peyğəmbərin (s) səhabələri onun qətlə yetirilməsini tələb etdilər, amma Peyğəmbər (s) onun İslamdakı xidmətlərini və "Bədr" döyüşündə göstərdiyi şücaətini və peşman olmasını nəzərə alaraq onu bağışladı.[1] Bu ayədə də Xatib ibn Əbi Bətləə bir nəfər olduğu halda, cəm bildirən sözlərdən istifadə olunmuşdur.

6. "Maidə" surəsinin 52-ci ayəsində buyurulur:

... فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ يُسارِعُونَ فِيهِمْ يَقُولُونَ نَخْشى أَنْ تُصِيبَنا دائِرَةٌ.

***"(Ey möminlər! Yəhudi və məsihiləri özünüzə dost tutmayın!) Beləliklə, sən qəlblərində xəstəlik (nifaq və ikiüzlülük xəstəliyi) olan kəslərin onlar(la dostluğ)a tələsmələrini və "Bizə pis bir hadisənin üz verməsindən (İslam dövlətinin süquta uğramasından və onların bizə hakim olmalarından) qorxuruq." – dEmələrini görürsən."***

İslam Peyğəmbəri (s) müsəlmanlara müşrik və kafirlərlə "bütün əlaqələrini kəsmək" göstərişi vermişdi. Abdulla ibn Ubəyy adlı münafiqlərdən biri deyir: "Əgər biz onlarla əlaqələrimizi kəssək, bizim yaşayışımız çətinləşəcək və bir çox çətinliklərlə üzləşəcəyik." Yuxarıdakı ayə həmin münafiq barəsində nazil edilmişdir.[2] Kafir və müşriklərlə rabitəni kəsmək istəməyən birdən artıq şəxs deyildi, amma ayədə **ألّذين، قلوبهم، يسارعون، يقولون، نخشى و تصيبنا** – kimi cəm halda işlənən sözlərdən istifadə olunmuşdur. Aydın olur ki, cəm və ya tək halda olan sözlərin işlədilməsində heç bir problem yoxdur.

7. Allah-taala "Munafiqun" surəsinin 8-ci ayəsində belə buyurur:

يَقُولُونَ لَئِنْ رَجَعْنا إِلَى الْمَدِينَةِ لَيُخْرِجَنَّ الأَعَزُّ مِنْهَا الأَذَلَّ وَلِلّهِ الْعِزَّةُ وَ لِرَسُولِه وَلِلْمُؤْمِنِينَ وَلكِنَّ الْمُنافِقِينَ لا يَعْلَمُونَ

***"Onlar: "Əgər biz (Bəni-Müstəliq vuruşunda) Mədinəyə qayıtsaq, ən güclülər (ən şərəflilər – münafiqlər) ən zəifləri (ən həqirləri – Peyğəmbəri (s) və ona iman gətirənləri), əlbəttə, oradan çıxardacaqlar!"***

---

1. *"Əl-Kəşşaf", c.4, səh. 511.*
2. *"Əl-Kəşşaf", c.1, səh. 643.*

***– deyirlər. Halbuki, izzət və cəlal (qüvvət və qələbə də) yalnız Allaha, onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər (bunu) bilməzlər!"***

Bu ayə hicrətin altıncı ilində Qədir adlı yerdə baş verən "Bəni-Müstəliq" vuruşundan sonra nazil edilmişdir. Mühacir və ənsardan olan iki nəfər arasında baş verən ixtilafda münafiqlərin böyüyü Abdulla ibn Ubəyy söyüş söyərək dedi: "Bizim mühacirdən olanlara pənah verərək onlara kömək etməyimizə baxmayaraq, bizim işimiz məşhur bir zərbül-məsəldə deyilənlərə bənzəyir ki, belədir: "Öz itini kökəldərək yaxşı saxla, sonda səni yesin!"" Sonra o, and içir ki, Mədinəyə qayıtdıqdan sonra mühacirləri şəhərdən çıxaracaq. Bu hadisə səbəbilə həmin ayə nazil edilir.[1] Diqqət etdiyiniz kimi, bu sözləri söyləyən bir nəfərdir, amma onun barəsində يقولون، رجعنا – bu cür cəm halda olan sözlər işlənmişdir. Belə nəticə çıxır ki, şərh verdiyimiz bu yeddi ayə və Quranın hələ müraciət etmədiyimiz digər ayələrində tək halda işlənməli olan yerdə cəm işlədilməsi Quranda geniş yayılan və ona məxsus bir üslubdur.

Deməli, "Vilayət" ayəsində də rüku halında Əli ibn Əbu Talibdən (ə) başqa, heç kimin sədəqə verməməsinə baxmayaraq, cəm şəkilçisindən istifadə edilməsi ayəyə heç bir xələl gətirmir, əksinə bu məsələ o həzrətin işi və özünün əzəmətinə xatirdir.

### Altıncı irad: Peyğəmbər (s) həyatda olduğu zaman həzrət Əlinin (ə) vilayətinin mənası nədir?

Fəxri Razi[2] və digərlərinin tutduqları irad belədir: "Əgər ayədəki vilayət "rəhbər", "ixtiyar sahibi", "imamət" mənasındadırsa, həzrət Əlinin (ə) vilayətinin Peyğəmbər (s) həyatda olarkən nə mənası vardır? Bu mənanın Əli ibn Əbu Talib (ə) barəsində sübuta yetdiyini fərz etsək belə, onun Peyğəmbərin (s) vəfatından sonra gerçəkləşməsi aydınlaşacaq və Peyğəmbər (s) həyatda ikən "vilayət" məna kəsb etməyəcəkdir. Amma vilayətin "dost" və "köməkçi" mənasında olduğunu hesab etsək, heç bir irad yoxdur, çünki həzrət Əli (ə) Peyğəmbər (s) zamanında da möminlərin dostu və köməkçisi idi."

***Cavab:*** Bu iradın da cavabı aydındır, belə ki, "vilayə" sözü "canişin", "vəli", "vəsi" və "xəlifə" mənalarında istifadə edilmək qabiliyyətinə malikdir və xüsusən, həmin mətləb bu kəlmənin

*1. Bu hadisənin şərhini "Təfsire nümunə" (Nümunə təfsiri), c.24, səh. 156-dan mütaliə edə bilərsiniz.*

*2. "Ət-Təfsirul-kəbir", c.12, səh. 28.*

batinində yerləşdirilmişdir. Məsələn, həzrət Zəkəriyyə (ə) Allahdan ona varis, vəli və canişin olacaq bir övlad bəxş etməsini istəyir və Allah-taala da onun hacətini qəbul edərək Yəhyanı (ə) o həzrətə nəsib edir.[1] Onda, görəsən, Yəhya (ə) atasının sağlığında onun varis və canişinidir, yoxsa, onun vəfatından sonra? Aydın məsələdir ki, atasının vəfatından sonradır.

Bu məsələ əqli və ürfi bir məsələdir. Vəsiyyətnamə yazan və özlərinə vəsi təyin edən kəslərin vəsisi, görəsən, onların ölümündən qabaq vilayət və ixtiyara malikdir, yoxsa, bunlar ölümdən sonrakı məsələlərə aiddir? Məlum məsələdir ki, Fəxri Razi də vəsiyyətnamə yazaraq özünə vəsi təyin etmişdir. Belə isə, onun təyin etdiyi vəsi Fəxri Razi həyatda ikən onun canişidir, yoxsa, ölümündən sonra?! Bundan əlavə, dünyanın bütün hökmdarları özlərinə xəlifə və canişin təyin edirlər, amma onların (canişinlərin) heç biri hökmdar həyatda olduğu müddətdə qüdrətə malik olmur, əksinə ixtiyar və qüdrətə hökmdarın vəfatından sonra yiyələnirlər.

Beləliklə, ayədəki "vilayət" sözü "rəhbər", "ixtiyar sahibi" və "ümmətə imamlıq etmək" mənasındadır və bütün bu mənalar Peyğəmbərin (s) vəfatından sonra həzrət Əli (ə) üçün gerçəkləşərək həqiqət tapır. Bundan əlavə, Peyğəmbərin (s) canişininin təyin edilməsinin təkcə bu ayəyə məxsusluğu yoxdur, əksinə İslam Peyğəmbəri (s) iyirmi üç illik peyğəmbərliyi ərzində həzrət Əlinin (ə) xəlifəlik məsələsini təkrarən və dəfələrlə bəyan etmişdir və bunun ilkin nümunəsi "Yəvmud-dar" (Ev günü) hadisəsidir.

Peyğəmbər (s) üç illik məxfi və gizli şəkildə təbliğdən sonra, öz təbliğini aşkar formada həyata keçirməyə başladı və o həzrətin birinci addımı Qüreyş böyüklərini ziyafətə dəvət etmək və ziyafətdən sonra da onlara öz risalətini bildirmək oldu. O həzrət sonda belə buyurur:

أَيُّكُمْ يُوازِرُنِي عَلى هـذَا الأَمْرِ

***"Sizin hansınız mənə bu mühüm və məsuliyyətli işdə kömək edər?"***

Həzrət Əlidən (ə) başqa, heç kəs müsbət cavab vermədi və Peyğəmbər (s) elə həmin məclisdə buyurdu ki, **أَنتَ وَصِيّى** ***(əntə vəsiyyi)***-sən mənim vəsim və canişinimsən. Peyğəmbər (s) həyatda olduğu və yaşadığı müddətdə canişin və vəsini nə üçün istəyirdi?!

Nəticədə, bu cür iradların bəhanə axtarmaqdan başqa, digər bir cavabının olmadığı aydındır.

*1. "Məryəm" surəsi, ayə 5-6.*

## Yeddinci irad: Zəkatda məqsəd nədir?

Diqqət etdiyiniz kimi, "Vilayət" ayəsi barədə müxtəlif bəhanələr meydana çıxmış və onu sözbəsöz, kəlməbəkəlmə sual altında qoymağa çalışmışlar.

**إنّما** ***(innəma)***, وليّ ***(vəliyy)***, **راكعون** ***(rakiun)***, **الزّكاة** ***(əz-zəkat)*** – kimi sözlərin hamısına irad tutulmuş və barəsində sual verilmişdir. Fəxri Razi və başqaları demişlər: "Ayədəki zəkatda məqsəd hansı zəkatdır? Görəsən, vacib zəkatdır, yoxsa, müstəhəb zəkat?" Müstəhəb zəkat adlı bir məsələ yoxdur, deməli, zəkatda məqsəd, hökmən vacib zəkatdır. Əgər zəkatda məqsədin "vacib zəkat" olduğunu və digər tərəfdən də "Ayə Əli ibn Əbu Talib (ə) barəsindədir." – desək, onda, ziddiyyətə düçar olmuş olarıq, çünki həzrət Əli (ə) iqtisadi və var-dövlət baxımdan o həddə deyildi ki, ona vacib zəkat aid olsun. "Dəhr" (insan) surəsinin nazil edilməsi barədə deyirdilər ki, həzrət Əli (ə) və ailəsi oruc tutmuşdu və onların qapısına dilənçi gəldikdə, öz şam yeməklərini ona verdilər və iftar üçün heç bir yeməkləri qalmadı və bu səbəbdən, su ilə iftar etməyə məcbur oldular. Uzun sözün qısası, həzrət Əlinin (ə) bir günlük yeməkdən başqa, əlavə yeməyi olmadığı halda, vacib zəkat ona necə aid ola bilərdi ki, rüku halında onu (zəkatı) ödəsin?!

***Cavab:*** Bu iradın, daha doğrusu, bəhanənin cavabında deyirik:

***Birincisi,*** İslamın nəzərində həm müstəhəb, həm də vacib zəkat vardır. Zəkatın toplanması İslam Peyğəmbərinin (s) Mədinəyə hicrətindən sonra həyata keçirilmişdir. Bununla yanaşı, Məkki surələrdə də zəkat barəsində söhbət açılmış və Allah-taala insanları zəkat ödəməyə təşviq etmişdir. Deməli, məqsəd müstəhəb zəkatdır, çünki isalmi hökumət təşkil edilməyən zamana qədər vacib zəkat toplanılmırdı.

Məkkədə nazil edilmiş həmin ayələrdən üçünə diqqət edin:

***a)*** Məkki surələrindən olan "Muminun" surəsinin 4-cü ayəsində buyurulur:

وَالَّذينَ هُمْ لِلزَّكاةِ فاعِلُونَ

***"O kəslər (möminlər) ki, zəkat verirlər."***

Bu ayədə zəkatın ödənilməsi möminlərin xüsusiyyəti kimi tanıtdırılır və surə Məkki olduğu və zəkat hökmü qanun şəklini almazdan qabaq nazil edildiyi üçün onun müstəhəb zəkat barəsində olduğunu anlayırıq.

***b)*** Möminlərin vəsfi barədə olan "Nəml" surəsinin 3-cü ayəsində

deyilir:

الَّذِينَ يُقِيمُونَ الصَّلوةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ بِالأْخِرَةِ هُمْ يُوقِنُونَ

***"(Möminlər –) o kəslər ki, (vaxtlı-vaxtında və lazımınca) namaz qılır, zəkat verir və axirətə möhkəm inanırlar (yəqin edirlər)."***

"Nəml" surəsi də Məkki surələrdəndir və burada da zəkatda məqsəd müstəhəb zəkatdır.

***c)*** "Rum" surəsinin 39-cu ayəsində belə buyurulur:

وَما آتَيْتُمْ مِنْ زَكاة تُرِيدُونَ وَجْهَ اللهِ فَأُولـئِكَ هُمُ الْمُضْعِفُونَ

***"Allahın razılığını diləyərək verdiyinizdən (zəkatdan) isə (mənfəət götürəcəksiniz). Bunu edənlər mənfəətlərini qat-qat artıranlardır."***

Bu surə də Məkki surələrdəndir və ayədəki zəkatda məqsəd müstəhəb zəkatdır.

Nəticədə, Qurandan əldə etdiklərimizə əsasən, həm vacib, həm də müstəhəb zəkat vardır. Eyni zamanda, şiə fiqhində də bəzi mallar vacib, bəziləri isə müstəhəb zəkata malikdirlər.

***İkincisi,*** Peyğəmbərin (s) ömrünün sonlarında nazil olan ayə zamanındakı Əli ibn Əbu Talibin (ə) iqtisadi vəziyyətini "Dəhr" surəsi nazil olan zamandakı vəziyyətlə müqayisə etmək düzgün müqayisə deyil, çünki İslam Məkkədə yenicə yarandığı zaman, müsəlmanların vəziyyəti ümumi halda münasib şəkildə deyildi və müsəlmanlarının əksəriyyətinin iqtisadi vəziyyəti – xüsusən də, onların Məkkədə iqtisadi mühasirədə olduğunu nəzərə alsaq – çox pis idi.

Amma İslam inkişaf etdikcə və onlar Məkkə müşriklərinin caynağından yaxa qurtarıb Mədinəyə mühacirət etdikləri və iqtisadi mühasirədən xilas olduqlarında, müsəlmanların iqtisadi vəziyyəti yaxşılaşırdı, həmçinin, onlar əkinçilik və ticarətlə də məşğul olurdular ki, bu da onların maddi durumunun yaxşılaşmasına təsir edirdi. Eyni zamanda, döyüş qənimətləri hesabına onların iqtisadi vəziyyəti o qədər irəlilədi ki, artıq Peyğəmbərin (s) mübarək ömrünün sonlarında demək olar ki, müsəlmanların əksəriyyəti firavan həyat sürürdülər.

"Maidə" surəsinin Peyğəmbərin (s) həyatının sonlarında nazil olduğunu nəzərə aldıqda, vacib zəkatın həzrət Əliyə (ə) də şamil olmasını düşünmək mümkündür və biz həzrət Əlinin (ə) bu zamandakı iqtisadi vəziyyətini – bütün müsəlmanlar demək olar ki, iqtisadi baxımdan yaxşı vəziyyətdə idilər – "Dəhr" surəsinin nazil olduğu zamanla (şiə etiqadına əsasən hicrətin əvvəlləri, ya da bəzi əhli-sünnə mənbələrinə əsasən, hicrətdən qabaq) – qeyd edək ki, həmin zamanlar müsəlmanlar çox çətin həyat sürürdülər – müqayisə etməməliyik.

Çünki Tilbeginin dediyi kimi, ziddiyyətdə səkkiz vəhdətin olması şərtdir və zaman və məkan vəhdəti onlardan ikisidir ki, bizim bəhs etdiyimiz mövzuda mövcud deyil.

Bunlardan əlavə, Əmirəl-möminin (ə) barədə qeyd edilən bir rəvayətdə deyilir:

اَعْتَقَ اَلْفَ مَمْلُوك مِنْ كَدِّ يَدِهِ

***"Həzrət Əli (ə) öz zəhməti ilə qazandığı gəlirlə min nəfər qul azad etmişdir."*[1]**

Aydındır ki, o həzrət xəlifə olduğu dövrdə iqtisadi baxımdan elə də fəaliyyət göstərməmiş və çoxlu gəlir əldə etməmişdir ki, bu qədər qul azad edə bilsin. Deməli, bu əməli yerinə yetirməyə xilafət və hakimiyyətə yetişməzdən qabaq nail ola bilmişdi. Nəticədə, həzrət Əli (ə) tərəfindən üzüyün vacib zəkat ünvanında verilməsində təəccüblü və gözlənilməz bir məsələ yoxdur.

Həqiqətən də, bahanə axtarışında olanlar açıq-aşkar ziddiyyətə düçar olmuşlar. Onlar bir tərəfdən, üzüyün həddən artıq baha və qiymətli olmasını bəhanə edərək onun israfa bərabər tutmuş və digər tərəfdən də işin əslini – həzrət Əlinin (ə) vacib zəkatı yerinə yetirmək üçün lazımı miqdarda imkana malik olmadığını deyərək – inkar etmişlər.

Beləliklə, "Vilayət" ayəsi barədə gətirilən dəlillərə tutulmuş irad və bəhanələrin ən mühümlərinə yuxarıda qeyd edildiyi kimi, geniş şəkildə cavab verməklə ayənin vilayətə dəlalət etməsi aydın olur. Qeyd edilən ayə vilayət, rəhbərlik və imaməti üç qrup üçün sübuta yetirir: Birinci, Allah-taala, ikinci, onun Peyğəmbəri (s) və o həzrətdən sonra da Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) üçün.

## *Həddən artıq mühüm olan bir mətləb*

Əgər yuxarıda qeyd edilənlər kimi, Quranın hər bir ayəsi barədə bəhanə və iradlar gətirilərsə, ən aydın və aşkar tövhid ayələri də sual altına düşər və dəlil gətirmək üçün ayələrdən heç bir əsər-əlamət qalmaz. Müşahidə etdiyiniz kimi, nəzərə elə çarpır ki, Quranın digər ayələri barədə tutulan irad və gətirilən bəhanələrə göz yumulur və təkcə "Vilayət" ayəsi və Əhli-beytin (ə) fəzilətləri ilə bağlı ayələrdən söhbət gedəndə həmin məsələlər (bəhanələr) meydana çıxır.

Əgər Quran və onun ayələri ilə bu cür ikili (ziddiyyətli) rəftarın səbəblərini araşdırmaq istəsəniz, deməliyik ki, belə şəxslər Quran müqabilində ədəb göstərərək diz çökməmiş və onun dediklərini

---

*1. «Biharul-ənvar», c.41, səh. 43.*

öyrənmək fikrində də deyillər. Əksinə, onlar Qurana müəllim kəsilmək və öz düşüncələri üçün Qurandan dəlillər tapmaq fikrindədirlər. Bu, islami rəvayətlərdə çox şiddətli şəkildə məzəmmət edilən və barəsində kəskin sözlər deyilən "şəxsi nəzər və düşüncəyə əsasən təfsir"dir.[1]

Əziz oxucular! Əgər Quran, rəvayət, vəhy və ya məsumların sözlərindən düzgün istifadə etmək və həqiqətlərə yetişmək istəyirsinizsə, Quran və hədislərin şagirdi olmalı və sizin meyil və istəklərinizin xilafına olsa belə, bu iki dəyərli və islami maarifi əhatə edən mənbədən anlayıb başa düşdüklərinizi qəbul etməlisiniz. Əks təqdirdə, bu, çox aydın və aşkar olan mətləblərlə bağlı bəhanə axtarışı və irad tutmaqla, həmçinin, şəxsi düşüncəyə əsasən təfsir etməklə nəticələnəcək.

Peyğəmbərdən (s) nəql edilən rəvayətlərin birində Quranla bağlı bu cür rəftar edənlərin aqibət və taleyi barədə buyururlar:

... مَنْ جَعَلَهُ اَمامَهُ قادَهُ اِلَى الْجَنَّةِ وَمَنْ جَعَلَهُ خَلْفَهُ ساقَهُ اِلَى النّارِ

***"Quran onu özünə rəhbər və imam təyin edənləri (və onun qarşısında şagird kimi diz çökənləri) cənnətə tərəf yönəldər və özünü Qurana rəhbər və imam təyin edən (öz nəzər və düşüncələrini Qurna yeritmək istəyən) kəsləri isə cəhənnəmə tərəf istiqamətləndirər."***[2]

Həqiqətən də, bu rəvayət Quranı şəxsi düşüncələrinə əsasən təfsir edən kəsləri lərzəyə gətirəndir.

## "Vilayət" ayəsinin verdiyi mesajlar

Bəhs etdiyimiz ayənin Əmirəl-mömininin (ə) vilayətini sübuta yetirməkdən əlavə, o həzrətin şiələri, həmçinin, dünyanın bütün müsəlmanlar üçün mühüm bir mesajı vardır.

Həzrət Əli (ə) təsadüfi və gözlənilməz şəkildə möminlərin rəhbəri, Allah-taalanın layiqli xəlifəsi və axiruz-zaman (sonuncu) Peyğəmbərin (s) canişini olaraq seçilməmişdir, əksinə bu böyük məqama yetişmək üçün bəhs etdiyimiz ayədə bəzi səbəblərin olduğu da göstərilmişdir. O həzrətin güclü imana sahib olması, özü və Allahı arasında rabitəsi, namazı bərpa etməsi, zəkat ödəməsi, özü ilə digər insanlar arasında münasibət və rəftarları həzrət Əlinin (ə) "Əmirəl-möminin" seçilməsinə səbəb olmuşdur.[3]

---

*1. Şəxsi düşüncəyə əsasən təfsir barədə daha ətraflı məlumata sahib olmaq üçün Ayətullah Məkarim Şirazinin "Təfsir be rəy" kitabına müraciət edərək mütaliə edin.*

*2. «Biharul-ənvar», c.74, səh. 134.*

*3. Biz elmi hövzə tələbələrinin ifadəsi ilə desək, "Hökmün sifətə şamil olması, səbəb adı ilə tanınır", yəni hansısa bir hökmü sifət (vəsf) üçün qeyd etsələr, ondan anlaşılan nəticə həmin sifətin bu hökm üçün səbəb olmasıdır. Məsələn, "alim olan insanlara ehtiram edin" deyilsə,*

Yuxarıda qeyd edilən ayədə həzrət Əlinin (ə) tərafdarlarına belə deyilir: "Əgər siz də həzrət Əlinin (ə) yolu ilə addımlamaq istəyirsinizsə, onda, güclü imana sahib olmalı, onu qorumaq və hifz etmək üçün çalışmalı, Allahla öz aranızdakı rabitə və münasibətləri daha da yaxşılaşdırmalı və hətta zəkat və digər vergiləri də namazda ödəməkdən qəflət etməməlisiniz. Xüsusən, ayıqlıq, özünü düzəltmək və ibadət ayı olan mübarək Ramazan ayında çalışaraq bu ayda xəstələrin şəfa tapması, vəfat edənlərin bağışlanması, acların doyurulması və ehtiyaclıların çətinliklərinin aradan qaldırılması və s. üçün dualar etməlisiniz."

*aydın olur ki, onların elmi ehtiram edilmələrinə səbəb olmuşdur.*

# 4 “ULUL-ƏMR” AYƏSİ

يـا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الأَمْرِ مِنْكُمْ فَإِنْ تَنـازَعْتُمْ فِي شَيء فَرُدُّوهُ إِلَى اللهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللهِ وَالْيَوْمِ الآخِرِ ذلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلا

***“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allah və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.”***

*“Nisa” surəsi, ayə 59*

## *Bəhsə qısa bir nəzər*

Digər bir adı “İtaət ayəsi” olan yuxarıdakı ayə aşkar şəkildə Əmirəl-mömininin (ə) vilayətinə dəlalət edən digər ayələrdəndir və bu ayədəki əsas bəhs “Ulul-əmr” (əmr sahibləri) sözü üzərindədir və onun barəsində müxtəlif nəzəriyyələr bəyan edilmişdir. Həmin nəzəriyyələr barədə şərh və izahlar qeyd ediləcəkdir.

## Şərh və təfsir

### “Ulul-əmr” kimlərdir?

يـا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الأَمْرِ مِنْكُمْ

***“Ey iman gətirənlər! Allaha, peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!”*** –

Allah-taala ayənin bu hissəsində dünyanın bütün yerində olan, bütün zamanlarda qiyamətə qədər İslama iman gətirəcək müsəlmanlara xitab edərək üç şəxsə mütləq şəkildə və sorğu-sualsız itaət etməyin lazım və vacib olduğunu buyurmuş və ardıcıl olaraq, Allah, ondan sonra Peyğəmbər (s) və daha sonra isə “Ulul-əmr”ə (əmr sahiblərinə) itaətin vacibliyi bildirilmişdir.

فَإِنْ تَنـازَعْتُمْ فِي شَيْء فَرُدُّوهُ إِلَى اللهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللهِ وَالْيَوْمِ الآخِرِ

***“ Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allah və Peyğəmbərə həvalə edin!”*** –

Ayənin ikinci hissəsində müsəlmanların ixtilaf və münaqişə zamanı müraciət etməli olduqları mənbə müəyyən edilir və sanki, onlar üçün müstəqil bir qəzavət sisteminin əsası təşkil olunaraq buyurulur ki, əgər hansısa bir məsələ barədə ixtilafa düçar olsanız, Allaha, Peyğəmbərə (s) müraciət edin və öz mübahisəli məsələlərinizi İslamdan olmayanlar yanında bəyan etməyin (açıb-ağartmayın). Ayədə “Allah” və “axirətə iman” qeydlərinin işlənməsinə diqqət etməklə, ixtilaflı məsələlərdə islami mənbə və hökmlərə müraciət etməyən müsəlmanların Allah və axirətə iman gətirmədiyi məlum olur. Diqqət edilməli digər bir məsələ ayənin əvvəlində itaət olunması vacib hesab edilən kəslərin sırasında “Ulul-əmr” sözünün nəzərə çarpmasıdır. Amma bununla yanaşı, ixtilaflı məsələlərdə müraciət olunanlar “Ulul-əmr” şəklində bildirilməmişdir. Bu mətləb yuxarıdakı ayə barədə bəyan edilən mühüm suallardandır və inşallah onun barəsində gələn bəhslərimizdə söhbət açacağıq.

ذلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلا

***“ Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.”*** –

Bu cümlə, həqiqətdə, əvvəlki iki cümlənin səbəbidir.

Möminlər nə üçün Allah, Peyğəmbər (s) və “Ulul-əmrə” (əmr sahiblərinə) itaət etməlidirlər? Özlərinin ixtilaf və mübahisəli

məsələlərində Allah və onun Peyğəmbərindən (s) başqa, nə üçün kimisə hakim seçməməlidirlər? Çünki bu iş möminlərə aqibət və əməl baxımından daha xeyirli və yaxşıdır.

## *"Ulul-əmr"ə itaətin əhatə dairəsi*

Ayənin əsas düyün və qaranlıq nöqtəsi yuxarıdakı cümə ilə bağlıdır. Əgər "Ulul-əmr"in kim olduğu məlum olsa, ayənin təfsiri aydın və aşkar olacaqdır. Beləliklə, təfsirçilər "Ulul-əmr"in misdaq və nümunəsi barədə söhbət açmış və onunla əlaqədar yeddiyə yaxın müxtəlif nəzəriyyələr irəli sürmüşlər.

***Sual:*** "Ulul-əmr"in kim olması barədə təfsirçilərin nəzəriyyəsinə toxunmazdan əvvəl, həmin sözün mənasının anlaşılmasında daha çox rol oynayan bir suala cavab verməyimiz lazım gəlir. Həmin sual belədir:

"Ulul-əmr"ə itaət etmək, görəsən, hansısa bir şərt və qeydlərlə məhdudlaşır, yoxsa, onlara itaət etmək Allah və onun Peyğəmbərinə (s) itaət etmək kimi mütləq şəkildə vacibdirmi? Başqa bir deyimlə, "Ulul-əmr"ə itaət etmək, məkan zaman və s. baxımından müəyyən qeydlərə malikdir, yoxsa, hər bir zaman, məkan və şəraitdə zəruridirmi?

***Cavab:*** Ayənin zahirindən "Ulul-əmr"ə itaətin mütləq olduğu və heç bir şərt və qeydlə məhdudlaşmadığı aydın olur. Başqa sözlə, bu ayədə "Ulul-əmr"ə itaət onların səhv və xətasız olması ilə qeydlənməmişdir, yəni Allah və onun Peyğəmbərinə (s) itaət mütləq şəkildə olduğu kimi, onlarla eyni səviyyədə duran "Ulul-əmr"ə itaət də mütləq şəkildə vacibdir. Deməli, "Ulul-əmr" istər-istəməz məsum olmalıdır, çünki heç bir qeyd və şərt olmadan itaətedilmə sadəcə onlara şamil ola bilər. Yəni, səhv və xəta edən hansısa bir şəxsə qeydsiz və şərtsiz itaət etmək və tabe olmaq olmaz.

Bu cəhətdən, əgər hansısa bir hakim verdiyi hökmdə xətaya düçar olar və şikayətçi tərəf də məsələnin (hökmün) yanlış olmasına yəqin edərsə, onun hökmünə əsasən, tərəflərdən birinin mənfəəti, digərinin isə məhkum edilməsini müəyyən etmək olmaz və biz bu məsələyə etiqad bəsləyirik. Hətta mərcəyi-təqlidlərə (din alimləri) təqlid edənlərin itaət etməsi zəruri olduqda belə, əgər onlar (alimlər) xəta etmiş olsalar, onlara itaət etmək olmaz. Məsələn, mübarək Ramazan ayının otuzuncu gecəsində ayı görmək mərcəyi-təqlidə mümkün olmasa və o, hökm versə ki, camaat Ramazan ayının otuzuncu günü də oruc tutsun, amma onun müqəllidlərindən bəzisi öz gözləri ilə otuzuncu gün Şəvval ayının girdiyini bildirən göydəki ayı görmüş olsalar, həmin alimə itaət edərək oruc tuta bilməzlər, əksinə onlar

oruclarını açmalıdırlar, çünki mərcəyi-təqlid bu məsələdə səhvə yol vermişdir.

Nəticədə, təkcə məsumlara sorğu-sualsız və mütləq şəkildə itaət etmək caizdir və qeyri-məsumlara itaət isə düzgün deyil. "Ulul-əmr"ə itaəti mütləq şəkildə Allahın vacib etdiyini nəzərə aldıqda, onların ("Ulul-əmr"in) məsum olduğu nəticəsinə gəlirik.

## "Ulul-əmr" barəsində müxtəlif nəzəriyyələr

Əvvəldə qeyd etdiyimiz kimi, "Ulul-əmr"in təfsiri barəsində müxtəlif nəzəriyyələr mövcuddur və biz onlardan bəzilərinə işarə edirik:

***1. "Ulul-əmr"də məqsəd cəmiyyətin hakim və rəhbərləridir*** – İslami cəmiyyətdə hər hansı bir şəkildə hakim olan və müsəlmanların rəhbərliyini öz öhdəsinə götürən şəxslər "Ulul-əmr"dən hesab ediləcəklər və onlara qeydsiz və şərtsiz itaət edilməlidir – hətta onlar camaatın iradə və istəyinin ziddinə olaraq qılınc və zor gücünə hakimiyyətə gəlsə və ən pis və fasiq insanlar olsalar belə. Nəticədə, monqollar və Çingiz xan kimilər də əgər İslam cəmiyyətinə hakim olsalar, onlara itaət etmək vacibdir.

Əhli-sünnə alimlərindən bir neçəsi bu nəzəriyyənin tərəfdarıdır. Görəsən, sağlam əql və düşüncəyə sahib olan hansısa bir şəxs bu sözləri qəbul edə bilərmi? Allah öz Peyğəmbərini (s) yer üzərində ədalət və əmin-amanlığı bərpa etmək üçün göndərməmişdirmi?[1] Belə olan halda, zalım bir şəxs necə Peyğəmbərin (s) canişini ola bilər və əgər o, hökmranlıq etsə, ədalət aradan qaldırılmazmı? Ayədəki "Ulul-əmr"in bu şəkildə təfsir edilməsi İslamın hansı ümidverici proqram və planları ilə uyğun gəlir? Görəsən, bu sözləri deyənlər doğrudan da, İslam cəmiyyətinə zorla və qılınc gücünə hakim kəsilən, bütün islami dəyərləri ayaq altında qoyan, haramları halal edən və Allahın vacib buyurduqlarını aradan aparan zalım, kafir və azğın bir şəxsin "Ulul-əmr"dən olmasına etiqad bəsləyərək ona itaət edilməsinin vacibliyini düşünürmü?!

Təəssüflər olsun ki, onların bu barədə cavabı müsbətdir və onlar Müaviyyə və oğlu Yezid kimi insanları "Ulul-əmr"dən hesab etmişlər. Kaş ki, heç bir müsəlman alimi ayəni bu cür təfsir etməyəydi!

***2. Alimlərdən bəziləri yuxarıdakı əqidələri inkar edərək, "Ulul-əmr"in məsum olması fikrindədirlər*** – Bütün insanların səhv və xətaya düçar olduğunu düşündükdə, "Ulul-əmr"dəki məqsədin "bütün İslam cəmiyyəti" olduğunu söyləmişlər, çünki İslam ümməti

*1. Bu barədə "Hədid" surəsinin 25-ci ayəsində söhbət açılmışdır.*

ismətə malikdir və cəmiyyətdəki fərdlərin ayrılıqda xətakar olmasına baxmayaraq, bütün müsəlman camaatının səhv və xəta etməsi mümkün deyil. Nəticədə, Allah və Peyğəmbərə (s) itaət vacib olduğu kimi, İslam ümmətinə də itaət etmək vacibdir. Bu nəzəriyyənin cavabında belə deyirik:

Siz hansısa bir məsələdə bütün müsəlman ümmətinin düşüncə və nəzərini necə əldə edə bilərsiniz? Həmin nəzəriyyəyə əsasən, bütün müsəlmanların düşüncəsini ələ gətirmək lazım deyilmi? Ola bilsin ki, cavabında "Bütün müsəlmanların ayrı-ayrılıqda nəzərini əldə etmək lazım deyil, əksinə nümayəndələrin seçilməsi və onların icması və fikir birliyi müsəlman ümməti üçün kifayət edər." – deyilsin. Belə isə, biz də soruşuruq ki, görəsən, (bütün müsəlmanların deyil,) nümayəndələrin düşüncə və nəzərlərini əldə etmək mümkündürmü?

Həqiqətdə, isalmi ümmətin nümayəndələrinin belə, düşüncə və fikir birliyini əldə etmək mümkün olası iş deyil. Bəlkə də, "Ümumiyyətlə, fikir birliyinə ehtiyac yoxdur, bizim meyarımız əksəriyyətdir, hansısa bir məsələdə İslam ümmətinin nümayəndələrinin əksəriyyəti müsbət rəy versə, "Ulul-əmr" ünvanında ona itaət etmək vacibdir!" – deyilsin. Görəsən, "Ulul-əmr"in mənası "İslam ümmətinin nümayəndələri"dirmi?

***3. Bəziləri bundan da irəli keçə və yadelli mədəniyyətlər müqabilində ruh düşkünlüyünə düçar olaraq, "Ulul-əmr"in nümunə və misdaqının "Qərb demokratiyası" olduğunu demişlər*** – Görəsən, bu cür təfsir və izahlar şəxsi düşüncə və nəzərə əsasən deyilmi?! Bu məsələlər Qurana yeridilmək istənilən nəzəriyyələr hesab edilmirmi?! Belə nəticə çıxarmaq Qurana diqqətsizlik və hörmətsizlik deyilmi?!

Bütün bunları bir kənara qoyaraq deyə bilərik ki, Qərb demokratiyası işə yarayan bir şey deyil. Onların (alimlərin) özləri də etiraf edərək qəbul edirlər ki, qərblilərin demokratiyası ideal deyil və məcburiyyət səbəbindən ona pənah aparmışlar. Əgər hazırkı vəziyyətdə ona sığınmasaydılar, onlar bundan da pis hala düçar olacaqdılar və zərəri daha da azaltmaq məqsədi ilə ona əməl etmişlər. Yoxsa, hansı ağıllı insan ölkə cəmiyyətinin yüz faiz təşkil edən əhalisindən əlli faizinin seçkilərdə iştirak edərək iyirmi altı faizinin bir nəfərə və iyirmi dörd faizinin isə digər bir nəfərə səs verməsini və nəticədə, iyirmi faiz rəyin yüz faizə hakim olmasını qəbul edər? Görəsən, bu, ədalətdirmi?!

Özlərini Qərb demokratiyası müqabilində satan şəxslər Amerikanı həmin məsələnin (demokratiyanın) beşiyi hesab edirlər. Xoşbəxtlikdən, son zamanlarda Amerikadakı seçkilərlə bağlı yaranan rüsvayçılıq bu cür demokratiyanın mahiyyət və həqiqətini bütün dünyaya aşkarladı.

Öz ölkə, idarə və şirkətlərini kompyuter sistemləri ilə idarə edənlər beş-on mindən ibarət səsvermə vərəqələrini əllə, yoxsa, kompyuterlə saymaq üstündə dava və mübahisə edirlər. Görəsən, belə mübahisənin nə mənası var? Bir günlük vaxt aparacaq iş barəsində o qədər dava və səs-küy qaldırdılar ki, onun səs-sədadı bütün dünyanı bürüdü. Bu qəbildən olan məsələlər demokratiya iddiaçıları və millət öncüllərinin özlərinə və təşkilatlarına etimad etmədiklərini nişan verir. Dünya həmin seçkilərə gülərək rişxənd etməlidir. Tədqiqatçılar, xüsusən də, Amerika demokratiyasını öz əməllərinin qibləsi hesab edənlər həmin hadisələri çox diqqətlə araşdırmalıdır ki, onun əsil mahiyyəti onlar üçün aydınlaşsın. Münsifanə şəkildə deməliyik ki, "Ulul-əmr"in ayənin zahirinin əksinə olaraq "demokratiya" kimi təfsir edilməsi, həqiqətdə, Qurani-Kərimə böyük zülmdür.

***4. Şiə alimlərinin nəzərincə, "Ulul-əmr" məsum olmalıdır və hər bir zaman və əsrdə bir nəfərdən artıq şəxs ola bilməz. Həmin şəxs Peyğəmbər (s) zamanında həzrət Əmirəl-möminin (ə) idi və ondan sonra da on bir nəfərdən ibarət olan imamlardır.***

***Əlavə izahlar:***

***a)*** Qeyd edildiyi kimi, "Ulul-əmr" ayənin tələbinə uyğun olaraq (Allah Peyğəmbər (s) və "Ulul-əmr"ə itaəti mütləq şəkildə vacib etmişdir) belə şəxs məsum olmalıdır ki, ona sorğu-sualsız və mütləq şəkildə itaət edilsin. Yəni, "Ulul-əmr" günah, xəta və səhvdən sığortalanmış kəslər olmalıdır. Başqa bir ifadə ilə desək, "ismət" mənəvi bir qüdrət və yüksək təqvadır ki, məsum olan şəxs ixtiyara malik və məcbur olmamasına, həmçinin, günah edə bilmə imkanının olmasına baxmayaraq, onun (üstün təqvanın) bərəkəti hesabına günah və xətaya mürətkib olmur.

Təqvanın müxtəlif mərtəbələri vardır. Bir mərtəbəsi kəbirə (böyük) günahlardan çəkinməkdir, əgər insan təsadüfən ona mürtəkib olsa belə, dərhal tövbə edir. İkinci mərtəbəsi kəbirə (böyük) günahlara yanaşı, səğirə (kiçik) günahlardan da çəkinmək və günaha düşdükdə dərhal tövbə etməkdir. Əvvəlki iki mərhələdən üstün olan üçüncü mərhələdə həm kəbirə və səğirə günhlar, həm də məkruhlardan (bəyənilməz işlərdən) çəkinilir. Təqvanın mərtəbəsi bu minvalla, daha da yüksəlir və nəhayət, günah və xətalardan amanda qalmağa səbəb olan "mütləq ismət" mərtəbəsinə yetişir. Bəzilərinin güman etdiyi kimi, ismət cəbrin (məcburiyyətin) bir növü deyil, əksinə təqvanın ən ali mərtəbəsidir.

***b)*** Məsum olan "Ulul-əmr" – onun şərhini verdik – bütün İslam ümməti və ya İslam ümmətinin nümayəndələri, yaxud da onların

(nümayəndələrin) əksəriyyəti ünvanında alimlər deyil, əksinə müəyyən və xüsusi bir şəxs olmalıdır.

***c)*** "İsmət" mənəvi qüdrət və təqvanın ən üstün mərhələsi olduğu üçün, həmin meyarın bütün adi insanlarda olduğunu demək mümkün deyil. Məsum "Ulul-əmr" Allah, Peyğəmbər (s) və ya isməti sübuta yetmiş digər məsum tərəfindən tanıtdırılmalıdır.

Nəticədə, ***birincisi,*** "Ulul-əmr" məsum, ***ikincisi,*** müəyyən və xüsusi bir şəxs və üçüncüsü, "Ulul-əmr" və məsumun təyin edilməsi Allah tərəfindən olmalıdır.

Burada bəhsimizin ikinci qisminə – yəni, ayənin nazilolma səbəbi barədə nəql edilən rəvayətlərə diqqət etməli və bilməliyik ki, görəsən, "Ulul-əmr"in misdaq və nümunəsi müəyyən olunmuş, Allah və Peyğəmbər (s) belə bir məsumu təyin etmişdirmi?

## Ayənin rəvayətlər sayəsində təfsir edilməsi

**اطيعوالله...** ***(Allaha itaət edin)*** – ayəsinin məqsədi olan məsum şəxsin tanıtdırılması ilə bağlı müxtəlif rəvayətlər mövcuddur və onlardan ən önəmlisi "Səqələyn" hədisidir.

Bu hədisə uyğun olaraq, Peyğəmbəri-Əkrəm (s) mübarək ömrünün sonlarında buyurmuşdur:

إِنِّي قَدْ تَرَكْتُ فِيكُمُ الثِّقْلَيْنِ ما إنْ تَمَسَّكْتُمْ بِهِما لَنْ تَضِلُّوا بَعْدِي... كِتابَ اللهِ... وَعِتْرَتِي أَهْلَ بَيْتِي [1]

***"Mən sizi tərk edərək aranızda iki ağır əmanət qoyuram. Kim onlardan yapışsa, məndən sonra heç vaxt doğru yoldan azmaz....Allahın kitabı...və itrətim (Əhli-beytim)."***

Hədisin mənası Quranın səhv və xətadan qorunmuş olması və onun sayəsində hərəkət edənlərin də səhv və günahlardan amanda qalacağıdır. Bu baxımdan, Əhli-beyt (ə) də məsum olmalıdır ki, onlardan yapışanlar da səhv və xətadan amanda qalsınlar. Yoxsa, onlar məsum olmadığı halda, onlara təvəssül edənlərin səhv və günahlardan amanda qala bilməsi mümkün deyil. Deməli, həmin rəvayətə uyğun olaraq, Əhli-beyt (ə) ismət və təharətə malik və məsumdur, eyni zamanda, ... **اطيعوالله** (Allaha itaət edin!) – ayəsinin şərhində dediklərimizə əsasən, "Ulul-əmr" Allah tərəfindən seçilmiş məsum bir fərd olmalıdır. Beləliklə, onların bir-birinin ardınca məsum imamlar olması aydın olur.

---

*1. "Mizanul-hikmət", bölmə 161, hədis 917.*

### “Səqəleyn” hədisinin əhəmiyyəti

“Səqəleyn” hədisi “imamət” və “vilayət” mövzusu ilə bağlı həddən artıq əhəmiyyətə malikdir və onun tayı-bərabəri yoxdur. Bu hədis dəlil baxımından tutarlı və güclü sübutlara malikdir və sənəd cəhətdən isə əhli-sünnə və şiə mənbələrində mütəvatir və geniş şəkildə nəql edilmişdir. Həmin hədis barədəki mənbə və sənədlərə nəzər saldıqda, Peyğəmbərin (s) onu bir dəfə deyil, dəfələrlə söylədiyi məlum olur. Qeyd edilən hədis həm şiənin mötəbər mənbələrində (“Təhzibul-əxbar”, “Əl-İstibsar”, “Üsuli-kafi” və “Mən la yəhzurul-fəqih”) [1], həm də əhli-sünnənin “Sihahe sittə” kitablarında gəlmişdir. “Sihahe sittə” bunlardan ibarətdir:

1. “Səhih Buxari” – həmin altı kitab arasında ən əhəmiyyətlisidir və onun müəllifi Buxari hicri-qəməri 256-cı ildə vəfat etmişdir.
2. “Səhih Müslim” – “Səhih Buxari”dən sonra ən mötəbər kitabdır. Kitabın müəllifi Müslim ibn Hicar hicri-qəməri 261-ci ildə vəfat etmişdir. Bu iki kitabı “Səhiheyn” və müəlliflərini də “Şeyxeyn” adlandırırlar.
3. “Sünəne İbn Davud” – İbn Davudun vəfat etdiyi il hicri-qəməri 275-ci ildir.
4. “Sünəne Tirmizi” – Tirmizi hicri-qəməri 279-cu ildə vəfat etmişdir.
5. “Sünəne Nəsai” – Nəsai hicri-qəməri 303-cü ildə vəfat etmişdir.
6. “Sünəne İbn Mace” – İbn Macenin vəfat etdiyi il 273-cü hicri-qəməri ilidir.

Əhli-sünnə nəzərində yuxarıdakı altı kitabın rəvayətlərinin hamısı mötəbərdir və həmin rəvayətlər təkcə bu kitablarla məhdudlaşmır. Hakim adlı bir şəxs “Müstədrəkus-səhihəyn” kitabını yazaraq “Səhih Müslim” və “Səhih Buxari”də olmayan mötəbər hədisləri orada toplamışdır.[2]

Bu kitabın müəllifi deyir: “Mənim “Müstədrəkus-səhihəyn” kitabında topladığım bütün rəvayətlər Buxari və Müslimin meyarlarına

---

*1. “Təhzibul-əxbar”, “Əl-İstibsar” Şeyx Tusinin, “Üsuli-kafi” mərhum Kuleyninin və “Mən la yəhzurul-fəqih” Şeyx Səduqun əsrlərindəndir və hər üç əsər şiənin ən dəyərli və mötəbər mənbələrindən hesab edilir. Xatırladırıq ki, həmin kitabların şiənin ən mötəbər kitabları olduğunu demək oradakı hədislərin tədqiqə ehtiyaclı olmadığı mənasında deyil, əksinə həmin kitablardakı hədislərin sənədləri araşdırıldıqda, mötəbərliyi aydın olur.*

*2. İbn Əbil Hədid deyir: «Ustadım Əbdül Vəhhabdan soruşdum ki, bütün səhih və mötəbər hədislər «Səhihe sittə» də gəlmişdirmi və ya həmin hədislər bu kitabda olanlarla bitmirmi? Cavab verdi ki, çoxlu sayda digər mötəbər hədislər bu kitablarda qeyd edilməmişdir. Mən soruşdum: “Peyğəmbərdən (s) nəql edilən (Zülfüqar kimi qılınc və Əli (ə) kimi qəhrəman yoxdur)* **لا سيف الاّ ذو الفقار و لافتى الاّ على** *(Əli ibn Əbutalibin (ə) şənində nəql edilmişdir) hədisi mötəbərdirmi? “Bəli” deyərək onu təsdiqlədi və bildirdi ki , “Səhihe-sittə” də gəlməyən coxlu səhih hədislər mövcuddur.””*

uyğundur.”

“Səqələyn” hədisi yeddilik təşkil edən yuxarıdakı kitabların üçündə, yəni “Səhih Müslim”, “Sünəne Tirmizi”[1] və “Müstədrəkus-səhihəyn”də[2] qeyd edilmişdir. “Səhih Müslim”də qeyd edilən rəvayətə diqqət edin:

“Yezid ibn Həyyan deyir: “Hüseyn ibn Səbrə və Ömər ibn Müslimlə birlikdə Peyğəmbərin (s) məşhur səhabələrindən olan Zeyd ibn Ərqəmin yanına getdik. Onun yanında əyləşdiyimiz zaman, Hüseyn ona dedi ki, ey Zeyd ibn Ərqəm, sən böyük bir iftixara maliksən, belə ki, Peyğəmbəri (s) çox ziyarət etmiş, ondan hədislər eşitmiş, o həzrətin kənarında döyüşmüş və onun arxasında namaz qılmısan. Həqiqətən də, bu, böyük fəxrdir. İndi Peyğəmbərdən (s) eşitdiyin hansısa bir hədisi bizə nəql et!” Zeyd ibn Ərqəm dedi: “Mənim yaşım artmış və qocalıq səbəbi ilə Peyğəmbərdən (s) eşitdiklərimin bəzisini unutmuşam.” Sonra o, aşağıdakı hədisi bizə nəql etdi: “”Bir gün Peyğəmbər (s) Qədir-Xum səhrasında sözə başlayaraq Allaha həmd və səna dedi və camaata moizə etdikdən sonra buyurdu:

**أَيُّهَا النّـاسُ! فَإِنَّما أَنَا بَشَرٌ يُوشَكُ أَنْ يَأْتِيَ رَسُولُ رَبِّي فَأُجِيبَ وَأَنَا تـارِكٌ فِيكُمْ ثِقْلَيْنِ أَوَّلُهُما كِتـابُ اللهِ فِيهِ الْهُدى وَالنُّورُ فَخُذُوا بِكِتـابِ اللهِ وَاسْتَمْسِكُوا بِه فَحَثَّ عَلى كِتابِ اللهِ وَرَغَّبَ فِيهِ ثُمَّ قالَ: وَأَهْلُ بَيْتِي أُذَكِّرُكُمُ اللهَ فِي أَهْل بَيْتِي...**

***“Ey camaat! Mən də sizin kimi bir insanam və tezliklə Allahın dəvətini qəbul edəcəyəm (vəfat edəcəyəm). Mən sizin aranızda iki qiymətli və ağır əmanət qoyuram. Onlardan birincisi, nur və hidayət olan Allahın kitabıdır. Onu qəbul edin və ondan möhkəm yapışın.” ”***

Zeyd ardınca əlavə edir: “Peyğəmbər (s) Allahın kitabı barəsində camaatı təşviq edəndən sonra buyurdu: “İkincisi isə, mənim Əhli-beytimdir ki, onları sizə əmanət qoyuram. Sonra üç dəfə “Əhli-beytimlə rəftarınızda Allahı nəzərdə tutmağınızı sizə xatırladıram.”[3] – dedi.””

Yuxarıdakı üç kitabdan əlavə, xatırlatdığımız rəvayət “Xəsaisun-Nəsai” adlı kitabda qeyd edilmişdir.[4] Təəccüblü burasındadır ki, İbn Həcər həddən artıq təəssübkeş biri olmasına və şiənin əleyhinə “Əs-Səvaiqul-mühriqə” adlı bir kitab yazmasına baxmayaraq, o da öz

*1. «Sünəne-Tirmizi», c.5, səh. 662, hədis 3786 («Quranın mesajları» kitabına istinadən nəql edilmişdir).*

*2. «Müstədrəkus-səhihəyn», c.1, səh. 93 və c.3, səh. 109.*

*3. “Səhih Müslim”, c.4, səh. 1873.*

*4. “Xəsaisun-Nəsai”, səh. 20 (“Quranın mesajları” kitabı, c.9, səh. 66-da nəql edilənlərə əsasən).*

kitabında həmin rəvayəti qələmə almışdır.[1]

Yolundan azmış vəhhabi firqəsinin əsasını qoyan İbn Teymiyyənin də "Minhacus-sünnə" adlı kitabında "Səqəleyn" hədisini nəql etməsi də çox maraqlıdır.[2]

Beləliklə, yüksək əhəmiyyətə malik və dərin mənalı "Səqəleyn" hədisinin əhli-sünnə və şiə mənbələrində qeyd edilən mütəvatir hədis olması anlaşılır.[3]

Bu mətləb "Səqəleyn" hədisinin həddən artıq əhəmiyyət və xüsusiyyətlərə malik olduğunu nişan verir. Mərhum imam Xomeyni (r.ə) özünün tarixi vəsiyyətnaməsini həmin hədislə başlamışdır, çünki o, söz sərrafıdır və bu hədisin tutarlı bir hədis olduğunu və onun barəsində şəkk-şübhə edilməyəcəyini yaxşı bilirdi.

"Səqəleyn" hədisi vasitəsi ilə "Ulul-əmr"in məsum və tahir, həmçinin, öz zamanlarında onların hər birinə itaət edilməsi vacib olan və bu baxımdan, (itaətdə) heç bir qeyd və şərtə ehtiyac duyulmayan imamlar olduğu məlumdur.

"Səqəleyn" hədisindən əlavə, ayənin nazilolma səbəbi barədə nəql edilən digər xüsusi rəvayətlər də mövcuddur. Burada onların iki nümaunəsinə işarə etməklə kifayətlənirik:

1. Şeyx Süleyman Hənəfi Qunduzi "Yənabiul-məvəddəh" əsərinin 116-cı səhifəsində belə yazır:

"Bir nəfər imam Əli ibn Əbu Talibdən (ə) soruşdu: "İnsanı doğru yoldan yayındıran və azğınlardan olmasına səbəb olan ən aşağı bir məsələ nədir?" Həzrət cavabında buyurdu: "Allahın höccətini görməzdən gələrək ona itaət etməməkdir. Kim Allahın höccətinə itaət etməsə, azğındır." Həmin şəxs yenidən soruşdu ki, bir qədər artıq izah verərək Allah höcətinin kim olduğunu bildirin. Həzrət Əli (ə) ona cavabında həmin şəxslərin "Nisa" surəsinin 59-cu ayəsində "Ulul-əmr" kimi tanıtdırılanlar olduğunu söylədi. Sual verən bir daha "Ulul-əmr"in kim olduğunu soruşdu. İmam cavabında dedi ki, həmin şəxs barəsində Peyğəmbər (s) dəfələrlə belə buyurmuşdur:

إِنِّي تَرَكْتُ فِيكُمْ أَمْرَيْنِ لَنْ تَضِلّوا بَعْدِي إِنْ تَمَسَّكْتُمْ بِهِما كِتابَ اللهِ عَزَّوَجَلَّ وَعِتْرَتِي أَهْلَ بَيْتِي

***"Məndən sonra ona yapışdığınız zaman heç vaxt azmayacağınız***

---

*1. "Əs-Səvaiqul-mühriqə", Misir, "Əbdüllətif" nəşriyyatı, səh. 226 ("Quranın mesajları" kitabı, c.9, səh. 67-də nəql edilənlərə əsasən).*

*2. "Minhacus-sünnə", c.4, səh. 104 ("Quranın mesajları" kitabı, c.9, səh. 69-da nəql edilənlərə əsasən).*

*3. Qeyd edilən yuxarıdakı kitablardan əlavə, «Səqəleyn» hədisini əhli-sünnənin digər mötəbər kitablarında tapmaq olar. Bu mətləbin şərhini "Quranın mesajları" kitabı, c.9, səh. 62-dən sonra və "İhqaqul-həqq" kitabı, c.4, səh. 438-dən sonra müatliə edə bilərsiniz.*

***iki şei sizin aranızda (əmanət) qoyuram: Allahın kitabı və itrətim olan Əhli-beyt (ə)!""***

Yəni, höccət bu hədisdə barəsində buyurulan kəslərdir. "Ulul-əmr" həmin hədisdə bəyan edilən kəsdir.

Bu rəvayətdə "Səqəleyn" hədisi ilə "Ulul-əmr"in rabitəsi aşkar və aydın şəkildə bəyan edilmişdir.

2. Əbu Bəkr Mömin Şirazi İbn Abbasdan belə nəql edir:

"Peyğəmbəri-Əkrəm (s) "Təbuk" döyüşünə yola düşdüyü zaman, həzrət Əlini (ə) Mədinədə öz yerində saxlamaq və digər müsəlmanlarla döyüş meydanına getmək qərarına gəlir.[1] Həzrət Əli (ə) (Peyğəmbərin (s) bu işinin fəlsəfəsini bildiyi halda, münafiqlərin hadisələri mənfi şəkildə təbliğ etməməsi üçün) Peyğəmbərə (s) "Nə üçün məni Mədinədə qadın və uşaqlarla birlikdə qoyur və digər müsəlmanlarla döyüşə gedərək bu fəzilətdən məhrum olmağımı istəyirsiniz?" – deyir. Peyğəmbər (s) cavabında buyurur:

أَما تَرْضى أَنْ تَكُونَ مِنِّي بِمَنْزَلَةِ هـارُونَ مِنْ مُوسى، حِينَ قـالَ: أُخْلُفْنِي فِي قَوْمِي وَأَصْلِحْ، فَقـالَ عَزَّ وَجَلَّ وَأُولُوا الأَمْرِ مِنْكُمْ

***"Sənin mənə olan nisbətinin Harunun (ə) Musaya (ə) nisbəti mənziləsində olmasını istəmirsənmi? O, Tur dağına yola düşmək istəyən zaman (qövmü arasında ixtilaf yaranacağından qorxurdu və belə də oldu və Samirinin buzovu məsələsi meydana çıxdı. Bu cəhətdən) qardaşı Haruna (ə) dedi ki, sən mən qayıdana qədər yerimə qövmümün arasında canişinim ol! Allah da bu barədə buyurur ki,*** وَاُولُوا الاَمْرِ مِنْكُمْ[2]***"""***

Yəni, sən "Ulul-əmr"sən və bu iş sənə məxsusdur. Beləliklə, rəvayətləri nəzərə almadıqda, ayədəki "Ulul-əmr"in Allah tərəfindən təyin edilmiş məsum və müəyyən bir şəxsə dəlalət etməsi nəticəsinə gəlirik. Rəvayətlərin sayəsində də Allah tərəfindən təyin edilmiş məsum və müəyyən bir şəxsin şiənin on iki imamı, yəni həzrət Əli (ə) və onun on bir övladının olmasını anlayırıq.

## *Suallar və cavablar*

Ayə barəsində müxtəlif və çoxlu sayda suallar verilmişdir ki,

*1. Peyğəmbərin (s) həzrət Əlini (ə) öz yerinə Mədinədə qalmasını istəməsinə səbəb «Təbuk» döyüşünün Mədinədən uzaq bir məsafədə olması idi və ehtimal olunurdu ki, Mədinə daxilindəki münafiqlər Peyğəmbər (s) və müsəlmanların olmamasından istifadə edərək Mədinədən xaricdəki münafiqlərlə əlbir olsun və hakimiyyəti ələ keçirmək üçün üsyan qaldırsınlar. Bu baxımdan, o, ümmətin ən güclü və şücaətli fərdini öz yerinə təyin etdi.*

*2. «İhqaqul-həqq», c.3, səh. 435.*

onlardan ən əsas və mühümü üç ədəddir. Həmin suallara və onların cavablarına diqqət edin:

***Birinci sual:*** Şiənin inandığı kimi, əgər "Ulul-əmr"də məqsəd həzrət Əlidirsə (ə), onda, nə üçün Peyğəmbər (s) zamanında ona itaət vacib deyildi, halbuki, ayədə "Ulul-əmr"ə itaət Allah və onun Peyğəmbərinə (s) itaət kimi vacib hesab edilmişdir? Başqa sözlə, həzrət Əli (ə) Peyğəmbər (s) zamanında müsəlmanların itaət etməsi vacib olan şəxs deyil, onun özü itaət edən idi. Nəticədə, ayənin yuxarıdakı kimi təfsir edilməsi "Ulul-əmr"ə itaətin vacibliyi ilə uyğun gəlmir.

***Cavab:*** Bu irada iki şəkildə cavab vermək mümkündür:

a) Əvvəlcə, "Rəsul" və "Ulul-əmr" sözlərinə diqqət edək. Əgər bu iki sözün fərqini anlaya bilsək, onda, yuxarıdakı sualın cavabı da aydın olacaq. "Rəsul" – Allah tərəfindən dinin təbliği, ilahi hökmlərin çatdırılması və camaatın (qiyamətlə) qorxudulması üçün göndərilən şəxsdir. Yəni, o, nübüvvətdən əlavə, əhkam və dinin təbliği və camaata xəbərdarlıq etmək və onları çəkindirmək vəzifəsinə də malikdir və daha sadə və anlaşıqlı dillə desək, "Rəsul" əhkamın bəyanı və onun təbliği ilə vəzifəlidir.

Amma "Ulul-əmr" – qanun təyin etmək vəzifəsinə malik deyil, əksinə onlar mövcud olan həmin qanunları qorumaq və icra etməklə vəzifələndirilmişlər. Sadə və aydın bir cümlə ilə Peyğəmbərin (s) "qanun təyinedicisi" və "Ulul-əmr"in isə "qanun icraçısı"na bənzdiyini deyə bilərik. Verdiyimiz izaha əsasən, Peyğəmbərin (s) özünün həmin zamanda "qanunu təyinedən" olması aydın olur. Eyni zamanda, qanunun mühafizəçi və icraçısı da, şəxsən, o həzrətin özü idi.

Nəticədə, Quranda həzrət İbrahim (ə) barədə onun Ulul-əzm Peyğəmbər olması və imam təyin edildiyini bildiyimiz kimi, İslam Peyğəmbəri (s) də həyatda olduğu zamanda o həzrətin özü həm "Rəsul" idi, həm də "Ulul-əmr". Yəni, qanunu təyin etməkdən əlavə, həm də onun icraçısı idi. Risalət məqamı qanunun təyin edilməsi, imamət məqamı və "Ulul-əmr" isə qanunun icra edilməsi üçündür və Peyğəmbər (s) həyatda olduğu müddətdə həm "Rəsul" idi, həm də "Ulul-əmr", amma o həzrətin vəfatından sonra Allah və Peyğəmbər (s) tərəfindən təyin edilmiş məsum şəxs "Ulul-əmr"dir və o, həzrət Əli (ə) və ondan sonra bir-birinin ardınca gələn imamlardan başqası deyil, çünki onlardan başqa, digər şəxslər üçün bu məqamın təyin edildiyi iddia edilməyib.

Beləliklə, rəvayətlərdən də aydın olduğu kimi, həzrət Əli (ə) barəsində "Ulul-əmr"ə itaətin vacibliyi Peyğəmbərin (s) vəfatından qabaq gerçəkləşmir, həmçinin, bu məsələ həzrət Əlinin (ə) övladları

barəsində də keçərlidir.

b) İkinci cavabımız budur ki, həzrət Əli (ə) də Peyğəmbər (s) həyatda olduğu zamanlarda bir müddət "Ulul-əmr" funksiyasını daşımışdır. Misal olaraq, Peyğəmbərin (s) "Təbuk" döyüşünə gedərkən o həzrəti Mədinədə öz yerinə canişin təyin etməsini göstərmək olar. Bu mətləbin daha da aydın olması üçün "Təbuk" döyüşü barədə müxtəsər bir izaha ehtiyac vardır:

## "Təbuk" döyüşü

"Təbuk" döyüşü Peyğəmbərin (s) risaləti boyunca və ömrünün son illərində həyata keçirdiyi ən axırıncı döyüşdür. Bu döyüş Hicazın ən şimal ərazisində – Hicazla Şərqi-Rumun müştərək sərhəddi olan məntəqədə – baş vermişdir.

İslam get-gedə genişlənərək öz dayaqlarını Mədinədə möhkəmlətdikcə və onun əks-sədası bütün dünyaya yayıldıqca, islami ölkələrin qonşuları – xüsusən, Şərqi-Rum, yəni həmin Şamat (Fələstin və Suriya) – onu özləri üçün bir xətər hesab etmiş və İslamın onların ölkələrinə nüfuz edərək hakimiyyət və taxt-tacı ələ keçirməsinin qarşısını almaq səbəbilə müsəlmanlara həmlə etmək fikrinə düşümşdülər.[1] Onlar bu məqsədlə qırx min nəfərlik və kamil şəkildə təchiz olunmuş bir orduyla Hicaza tərəf hərəkət etməyə başladılar.

Bu xəbər müsəlmanlar və şəxsən, Peyğəmbərə (s) yetişdi. Peyğəmbəri-Əkrəm (s) müsəlmanları Mədinədə qalaraq düşmənin onlara həmlə etməsini gözləmələrini deyil, əksinə düşməni qarşılamağa dəvət edərək təşviq etdi. Bunun özü ən yaxşı döyüş taktikası idi, çünki döyüşdə müdafiə və gözləmə taktikası həmisə məqbul deyil, əksinə düşmənin hücumu müqabilində hücum etmək lazımdır.

Həqiqətdə, "Təbuk" döyüşü münasib bir zamanda baş verməmişdi. Bir tərəfdən, Ərəbistan yarımadasının yandırıcı və qızmar istisi, digər tərəfdən də, müsəlmanların keçən ildən qalan ərzaq ehtiyyatının bitməsi və yeni ərzaq tədarükünün görülməməsi, həmçinin, Mədinə ilə "Təbuk" döyüşü olan ərazi arasında həddən artıq fasilənin olması müsəlmanların ora qədər piyada getməsinə səbəb olaraq vəziyyəti daha

*1. Hicaz İslamdan əvvəl dünyanın qüdrətli dövlətlərindən heç birinin diqqət mərkəzində olmamışdır. Bu cəhətdən, oranın əhalisi nə hansısa bir təhlükəylə üzləşirdi, nə də orada inkişaf etmiş iqtisadiyyat, mədəniyyət və din vardı, əksinə Hicaz əhalisi yarıvəhşi bir camaat kimi tanınırdı, çünki onlar daimən bir-biri ilə ixtilaf və müharibədə idilər. Bu səbəbdən, onlaı heç bir təhlükə gözləmirdi. Əgər Hicazı müft belə olsa, hansısa bir qüdrətli dövlətə təqdim etsəydilər, onu qəbul etməzdi və o, fatehlərin diqqətini də cəlb etmirdi. Amma İslamın meydana çıxması, müsəlmanların birlik və vəhdəti, həmçinin, yeni yaranan mədəniyyət düşmənlər üçün xətər hesab edilməyə başladı.*

da çətinləşdirirdi. Çünki müsəlmanlardan on nəfərdən birinin minik vasitəsi (at, dəvə) vardı və onlar növbə ilə ona minməli olacaqdılar. Nəticədə, döyüşə hazır olmaq və ərzaq tədarükünün görülməsi əmri verildi. Amma anbarlarda olan ərzaq müəyyən miqdarda qurumuş və xarab olmuş xurmalardan başqa, bir şey deyildi.

Müsəlmanların otuz minlik qoşunu Peyğəmbərin (s) başçılığı ilə Təbuk meydanına tərəf yola düşdü. Aclıq və susuzluq İslam qoşununa əziyyət verərək onları taqətdən salmış və hətta əsgərlərdən bəzilərinin piyada yol getməkdən ayaqları şişmişdi. Amma buna baxmayaraq, onlar yollarına davam edirdi. İslam qoşunu döyüşə getmək və qayıtmaqda o qədər əziyyət və çətinliklərə düçar oldu ki, onlara "Ceyşul-usrəh" (Çətinlik qoşunu) adı verdilər.[1] Rum imperiyasının qoşunu İslam ordusunun bu qədər məsafəni piyada və ən az minik vasitəsinə malik olduqları halda və otuz min nəfərlik qoşunla onlarla döyüşmək üçün gəldiyindən xəbər tutduqda, geri çəkilmək qərarına gəldi. Rum sərkərdəsi geri çəkilmək əmri verdi. Müsəlmanlar Təbuk çölünə yetişdikdə, düşmənin geri çəkildiyini bildi və bu müvəffəqiyyətə görə Allaha şükr etdilər. Peyğəmbər (s) müsəlmanlarla geri qayıtmaq və ya Rum qoşununu təqib edərək Şamatda onlarla döyüşməklə bağlı məşvərət etdi. Nəticədə, geri qayıtmaq qərarına gəldilər. İslam həmin zamanlarda gənc idi və ölkələrin fəth edilməsi ilə əlaqədar kifayət qədər təcrübəyə malik deyildi və onlar bu şəkildə addım atmaqla yenicə çiçəklənən İslama təhlükə yarada bilərdilər.

Verdiyimiz şərhə diqqət etməklə, "Təbuk" döyüşünün müxtəlif cəhətlərdən – xüsusən, Mədinə ilə Təbuk arasındakı məsafənin həddən artıq çoxluğu və bütün müsəlmanların iştirak edə bilməməsi – Peyğəmbər (s) zamanında baş vermiş bütün döyüşlərdən fərqli olduğunu və o həzrətə qarşı terror aktının həyata keçirilməsi, eyni zamanda, Mədinədəki münafiqlərin şəhərdən xaricdəki münafiqlərlə əlbir olaraq üsyan qaldırması ehtimalının olmasını anlayırıq.

Bu səbəbdən, İslam Peyğəmbərinin (s) yerinə o həzrət Mədinədə olmadığı zaman müsəlmanlardan ən güclü şəxsin İslamın paytaxtı olan Mədinəni münafiqlərin ehtimal edilən təhlükəsindən qoruması üçün təyin edilməsi zəruri idi və həmin şəxs həzrət Əlidən (ə) başqası ola bilməzdi. Beləliklə, Peyğəmbər (s) həzrət Əlini (ə) öz yerinə çanişin təyin edir və Əbu Bəkr Mömin Şirazinin də nəql etdiyi rəvayətə uyğun olaraq onu "Ulul-əmr" adlandırır.

---

*1. Şübhəsiz ki, həmin qoşunun çətinliklərə dözümü və səbr etməsi olmasaydı, bu gün İslam bizim əlimizə gəlib çatmazdı. Bu səbəbdən, İslamı asanlıqla əldən vermək olmaz, çünki o, bizə çətinliklə gəlib çatmışdır.*

Nəticədə, həzrət Əlinin (ə), hətta Peyğəmbər (s) zamanında müvəqqəti olsa belə, “Ulul-əmr” və ona itaət edilməsinin Mədinə müsəlmanlarına Allah və onun Peyğəmbərinə (s) itaətin vacibliyi kimi zəruri olduğunu başa düşürük. Beləliklə, itaətlə bağlı tutulan irad verilən iki cavabla aydın oldu.

***İkinci sual:*** “Ulul-əmr” cəm şəkildədir və həzrət Əli (ə) bir nəfərdən artıq deyil, görəsən, ayədəki “Ulul-əmr”də məqsəd təkcə Əli ibn Əbu Talibdirmi (ə)?

***Cavab:*** “Ulul-əmr”in cəm olmasına baxmayaraq, onda məqsəd təkcə həzrət Əli (ə) deyil, əksinə şiənin bütün on iki imamıdır. Misal olaraq, deyə bilərik ki, “Səqələyn” hədisindəki عِتْرَتِي أَهْلَ بَيْتِي ***(itrəti əhlə-bəyti)*** sözü təkcə həzrət Əliyə (ə) şamil olmadığı kimi, bütün məsum imamlara (ə) məxsusdur. Sözümüzə dəlil olaraq “Yənabiul-məvəddəh” əsərində geniş şərhlərlə verdiyimiz rəvayəti göstərə bilərik. Bu rəvayətdə “Ulul-əmr” “Səqələyn” hədisində qeyd edilənlərə uyğun olaraq təfsir edilmişdir və عِتْرَتِي أَهْلَ بَيْتِي sözünün bütün məsum imamlar (ə) olduğunu söyləmişdik.

Nəticədə, “Ulul-əmr”dəki məqsədin şiənin bütün on iki imamı olduğu və onların imam olduqları zamanlarda hər birinə itaətin qeydsiz və şərtsiz hamıya vacibliyi anlaşılır.

***Üçüncü sual:*** Nə üçün “Ulul-əmr” müsəlmanların ixtilaflarının həll edilməsində müraciət edilməli olan mənbəni göstərən ayənin altında təkrar olaraq gəlməmiş və o da həmin mənbələrdən biri ünvanında qeyd edilməmişdir?

***Cavab:*** Birincisi, bu irad təkcə şiəyə aid deyil, əksinə əhli-sünnə də ona cavab verməlidir, çünki onlar “Ulul-əmr”i hansı mənaya təfsir etsələr, bu problemlə üzləşməli olacaqlar. İkincisi, “Ulul-əmr”in ayənin son hissəsində təkrar olaraq gəlməməsi səbəbinin “Rəsul” və “Ulul-əmr” sözlərinin fərqi ilə bağlı verdiyimiz izahda bildirmiş və demişdik ki, “Rəsul” əhkamı bəyan və qanunu təyin edən şəxs, “Ulul-əmr” isə qanunu icra edəndir. Aydın məsələdir ki, əgər kimsə ilahi hökmlərdən hansısa biri ilə bağlı şəkkə düşərsə, qanun icraçısının deyil, qanunvericinin ardınca getməlidir. Deməli, ayədə təkrara yol verilməməsi onun üçün naqislik hesab olunmur, əksinə Quranın fəsahət və bəlağətini nişan verir.

Diqqət ediləsi məsələ bütün məsum imamların (ə) İslam qanunlarının icraçısı olmasıdır və onlar hansısa bir islami hökmü bəyan edirdilərsə, onu Peyğəmbərdən (s) öyrənmişdilər (əldə etmişdilər).

“Camiu əhadisiş-şiə” kitabının birinci cildi səhifə yüz səksən

üçdə "Bütün hidayətçi imamların (ə) əhkamla bağlı rəvayətləri Peyğəmbərdən (ə) əldə etdiklərini" bildirən bir rəvayət mövcuddur. Beləliklə, "Ulul-əmr"in qanunverici deyil, qanun icraçısı olması səbəbilə ayənin son hissəsində təkrarlanmadığı nəticəsinə varırıq.

## *Ayənin verdiyi mesajlar*

1. Ayənin verdiyi ən mühüm mesaj müsəlmanların islami hökmlər müqabilində tamamilə təslim olması, Allah və onun Peyğəmbərinin (s) göstərişlərinə sorğu-sualsız əməl etmələrinin zəruriliyidir. Onlar özlərinin meyil və istəklərinə uyğun göstərişlərə əməl etməməli və ona təslim olmamalıdırlar. Bunların əksini edən şəxslər həqiqi müsəlman və mömin deyillər.

Qurani-Kərimin bu barədə gözəl ifadələri vardır. Allah-taala "Nisa" surəsinin 65-ci ayəsində buyurur:

فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيمًا

***"Amma belə deyildir (onların imanları yoxdur)! Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca, iman gətirməzlər."***

Bu ayə insanın ilahi hökmlər müqabilində hansı miqdarda təslim olduğunu müəyyən etmək üçün ən yaxşı və dəqiq meyardır.

Bu ayəyə uyğun olaraq, həqiqi müsəlmanlar Peyğəmbərin (s) onların ixtilafı barədə hökm verdiyində onların zərərinə olsa belə, narazı olmazlar, əksinə onlar təslim (rizayət) məqamının elə bir dərəcəsinə yetişmişlər ki, qəlblərinin dərinliyində də narazı və narahat olmazlar, yəni əməl, rəftar və qəlblərində də Allaha təslim olarlar. Əgər islami hökmlərdən birinə qəlbinin dərinliyində narahat və narazı olsa, deməli, hələ həqiqi şəkildə Allaha təslim olmamışdır. Müsəlmanlar Allahın onlar üçün bəyəndiyini qəbul etməlidirlər, nəinki, nəfslərinin istədiklərini.

Həzrət Əli (ə) hədislərinin birində deyir:

لاَنْسُبَنَّ الْإِسْلامَ نِسْبَةً لَمْ يَنْسُبْها أَحَدٌ قَبْلي: الْاَسْلامُ هُوَ التَّسْلِيمُ، وَالتَّسْلِيمُ هُوَ الْيَقينُ، وَالْيقينُ هُوَ التَّصْدِيقُ،وَالتَّصْدِيقُ هُوَ الْإِقرارُ، وَالْاَقرارُ هُوَ ألْأَداءُ، وَالْأَداءُ هُوَ الْعَمَلُ

***"Mən İslamı sizin üçün elə izah edəcəyəm ki, məndən əvvəl heç kəs belə izah etməmişdir. İslam Allahın əmrləri müqabilində sorğu-sualsız və mütləq şəkildə (bütün vücudu ilə) təslim olmaqdır. Təslim yəqindən***

***ibarətdir (çünki insan bir məsələyə yəqin etmədikcə, ona mütləq şəkildə təslim ola bilməz, deməli, təslim yəqindən yaranır) və yəqin elm və təsdiqdən doğur (elm olmadıqca, yəqin hasil olmaz). İqrar olmadıqca elm və təsdiqin dəyəri yoxdur (yəni, qəlbdə olan elm yayılmadıqca, qiymətə minməz) və iqrar məsuliyyət hissidir (iqrar və elmin yayılması məsuliyyət hissi ilə yanaşı olmalıdır). Məsuliyyət hissi də əməl etməkdir (əgər məsuliyyət hissi əməlsiz olarasa, onun heç bir mənası yoxdur).”[1]***

Bu gözəl rəvayətə uyğun olaraq, İslam insanın qəlbində yaranır, daha sonra coşaraq müxtəlif mərhələləri keçir və nəhayət, əməl mərhələsinə yetişir. Yəni, İslam qəlbi etiqad olmadan, təkcə əməl və ibadətlə kifayətlənmir. Eləcə də, etiqadlar əməli vəzifələri yerinə yetirmədən və ibadətsiz kifayət deyil. İslam etiqad və əməllər məcmusundan ibarətdir və onların hər ikisinə ehtiyaclıdır.

2. “Əmr” kəlməsi müsbət mənalıdır və bu sözdə qüdrət və qüvvət yerləşdirilmişdir. Bu söz “Ulul-əmr”in camaatdan xahiş və təmənna etməsi deyil, onların qüdrət, qüvvət və hakimiyyət mövqeyindən çıxış etməsindən söhbət açır. Həmin məna “əmr be məruf”da (yaxşı işlərə dəvət) da mövcuddur.

“Əmr be məruf” edən şəxs qüdrət mövqeyindən çıxış etməlidir. Amma diqqət edilməlidir ki, qüdrətli olmaq mövqeyindən çıxış etməyin mülayim rəftar və anlaşma ilə heç bir ziddiyyəti yoxdur. İmam Həsənlə (ə) bağlı bir hadisə dediyimiz mətləbə ən yaxşı şahiddir. Həmin hadisəyə diqqət edin: “Şamda Müaviyyənin həzrət Əli (ə) və onun xanədanına qarşı zəhərli təbliğatı özünün zirvə nöqtəsinə çatmışdı. Məktəblərdən, cümə namazlarından tutmuş məscidlərə qədər hamı həzrət Əli (ə) barəsində xoşagəlməz sözlər danışır və onu pis xatirələrlə yad edirdilər. Bu təbliğat nəticəsində o həzrətə qarşı hamıda kin və nifrət meydana gəlmişdi. Həmin zamanlarda Mədinəyə Şam şəhərindən olan bir nəfər qərib gəlir. O, Mədinədə bir dəstə camaatla hərəkən edən şəxsi müşahidə edir və bir nəfərdən soruşur ki, həmin şəxs kimdir? Cavab verirlər ki, Həsən ibn Əli ibn Əbu Talibdir (ə). Şamlı şəxs onun həzrət Əlinin (ə) övladlarından olduğunu bildikdə, ağzını Allah yolunda qoyaraq ona olmazın sözlər deyərək hörmətsizlik etdi. İmam Həsən (ə) onun dediklərinə qulaq asdı. Şamlının sözləri bitdikdə, (səhabələrə işarə edərək onu ədəbləndirmək və hətta, qətlə yetirmək imkanı olmasına baxmayaraq, onu bağışladı və) ona dedi: “Sənin geyimindən məlum olur ki, mədinəli deyilsən, bu şəhərdə müsafirsən (qərib) və qalmağa bir yerin yoxdur. Gəl bizə gedək və bizim qonağımız ol. Bizim qapımız qəriblərin üzünə açıqdır, səni yaxşı

*1. «Nəhcül-bəlağə», qısa kəlamlar, 125-ci cümlə.*

qarşılayar, borcun varsa, onu ödəyər, düşmənin səni təqib edirsə, səni müdafiə edərik və bağışlanmağı da tələb etsən, günahlarından keçərik." Qəzəb və əsəbindən qaynar kürəyə bənzəyən şamlı imam Həsənin (ə) bu cür ilahi rəftar və əməli müqabilində qəzəb və hirsi soyudu, sanki yerində donub qaldı və elə bil onun üstünə soyuq su səpdilər. Bəlkə də, o, öz-özünə fikirləşdi ki, ilahi, bu qüdrətli şəxs mənim sözlərim müqabilində məni cəzalandıra bilərdi, amma bunu etmədi. O, necə də əzəmətli bir şəxsdir! Şamlı dedi: "Ey Peyğəmbərin (s) nəvəsi! Sizi birinci dəfə gördüyümdə, Şamdakı zəhərli təbliğatların təsirilə mənim gözümdə camaatın ən pisi idiniz. Amma indi mənim gözlədiyimin əksinə, bu cür rəftar etməklə mənim nəzərimdə dünyanın ən yaxşı insanısınız.""[1]

Əziz oxucular! Yer üzündəki ən yaxşı camaatla ən pis camaat arasındakı fasilə həddən artıqdır. Amma imam Həsən Müctəba (ə) özünün düzgün və yerində olan "əmr be mərufu" ilə həmin uzun fasiləni aradan qaldırmışdır.

Biz də bu məsələlərdən dərs almalı və bilməliyik ki, bizim müxaliflərimiz iki dəstədir:

1. Xatakarlar (günahkarlar) və əks-təbliğat nəticəsində qeyri-münasib və xoşagəlməz rəftarlar edənlər. Bu dəstə ilə imam Həsənin (ə) şamlıyla rəftar etdiyi kimi rəftar etməli və onları doğru yola hidayət etməliyik. Həmin şamlı şəxs günahkarlardan idi və imamın rəftarı ilə hidayət oldu.

2. Fəsad törədənlər, yəni bilərəkdən və elmləri olduğu halda, qəsdən müxalifət və düşmənçilik edənlər. Bu yerdə anlaşıqlı və mülayim rəftar mənasızdır. Belə hallarda qətiyyətli və kəskin rəftar etmək lazımdır. Bu iki dəstəni bir-birindən ayırıb seçə bilmək zəruri, dəqiq və incə bir məsələdir.

İlahi! Bizə bütün əmr və göstərişlərin müqabilində tamamilə təslim ola bilmək üçün yardım et! Bizi vacibat və müqəddəs əməllərdən olan "əmr be məruf" və "nəhy əz münkər" kimi əməlləri İslamın buyurduğu kimi yerinə yetirə bilməkdə müvəffəq et!

---

*1. "Muntəhəl-amal", c.1, səh. 417.*

# 5 “SADİQİN” (DOĞRU DANIŞANLAR) AYƏSİ

يـا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَكُونُوا مَعَ الصّـادِقِينَ

***“Ey iman gətirənlər, Allahdan qorxun və doğrudanışanlarla birgə olun (ki, onların ən bariz nümunəsi Peyğəmbərin (s) məsum Əhli-beytidir (ə)).”***

*“Tövbə” surəsi, ayə 119*

## *Bəhsə qısa bir nəzər*

Yuxarıdakı ayə “Sadiqin” adı ilə tanınır və həzrət Əli (ə) və onun on bir övladının “vilayət”, “imamət” və “isməti” ilə bağlı olan çoxlu saydakı ayələrdən biridir. Allah-taala bu ayədə möminləri doğruçu olanlara itaət etmək və tabe olmağa dəvət edir. Görəsən, doğru danışanlar (sadiqin) kimlərdir və onların hansı xüsusiyyətləri vardır? Bunlar barədə gələn bəhslərimizdə danışacağıq.

## *“Tövbə” surəsi ilə icmali şəkildə tanışlıq*

“Sadiqin” ayəsinin nə üçün nazil olduğunu bilmək üçün “Tövbə” surəsi ilə xülasə və qısa şəkildə tanış olmaq lazımdır. Bu baxımdan, bir neçə mətləbi izah etmək lazımdır:

***a) Surələrin adları və adlandırılmasının səbəbləri:*** Bu surənin müxtəlif və bir-birinə antonim (əks) olan iki adı vardır: “Tövbə” və “Bəraət”.

“Bəraət” adlandırılmasının səbəbi surənin “bəraət” sözü ilə başlamasında, həmçinin, İslam düşmənləri, müşrik və bütpərəstlərdən uzaq olmağın lazım gəldiyinin bildirilməsindədir. Bu cəhətdən, surə Allahın rəhmət və rəhmaniyyətinin nişanəsi olan “Bismillahir Rəhmanir Rəhim” sözləri ilə başlanmamışdır.

“Tövbə” adlandırılmasının səbəbi isə surənin bir çox ayələrində insanların tövbə etmək və Allaha tərəf qayıtmağa dəvət edilməsinin bəyan edilməsidir. Surədə düşmənlər və bütpərəstlərdən uzaqlıq və onlarla döyüşməyə əmr edilməsi ilə yanaşı, onun əksər ayələrində geniş şəkildə tövbəyə dəvət bəyan olunmuşdur. Belə ki, düşmən və müşriklərlə müharibənin elan edilməsindən sonra, beşinci ayənin sonunda[1] oxuyuruq:

...فَإِنْ تـابُوا وَأَقـامُوا الصَّلوةَ وَاتُوا الزَّكـاةَ فَخَلُّوا سَبِيلَهُمْ إِنَّ اللهَ غَفُورٌ رحيمٌ

***“Beləliklə, əgər tövbə etsələr, namaz qılsalar və zəkat versələr, yollarını açın ki, həqiqətən, Allah çox bağışlayan və mehribandır.”***

Yəni, müşrik və kafirlərin müsəlmanlar əleyhinə çoxlu sayda fəaliyyət göstərmsinə və müxtəlif cinayətlərə mürtəkib olmalarına baxmayaraq, əgər tövbə edib İslamın hökmlərinə tabe olsalar, onların tövbəsini qəbul edin (onları bağışlayın). Bu surə üçün iki müxtəlif və bir-birinə zidd adların verilməsi səbəbi döyüşlə bağlı ayələrin arasında çoxlu sayda tövbə ayələrinin də olmasıdır və sanki məsələni belə bəyan etməklə, İslamda günahkarların Allaha tərəf qayıtması üçün qapıların bağlanmadığı bildirilir, hətta döyüş və onun oxşarı kimi hallar olsa da belə. İslamın heç kimdən intiqam almaq fikri yoxdur, əksinə İslamın döyüşlərdə də hədəfi camaatı islah etməkdir. Bu baxımdan, İslam düşmənləri döyüş zamanı tövbə etsələr və əməldə də bunu nişan versələr, İslam onlarla döyüşməkdən əl çəkər və onları himayə edər. Başqa sözlə, surədəki ayələrin tərkibi və ona iki adın verilməsindən

*1. Tövbə məsələsi bu ayədən əvvəl ikinci ayədə də bəyan edilmişdir.*

aşağıdakı mühüm bir tərbiyəvi mətləbi anlamış oluruq: "Təlim-tərbiyə məsələlərində həm anlayış göstərmək, həm də sərt davranmaq – bunların hər ikisi lazımdır. Əgər hər yerdə sərtlikdən istifadə olunarsa, insanlar pərakəndə olar və İslamdan qaçar. Həmçinin, bütün hallarda mülayimlik göstərilsə, səhv və xəta edənlər bundan sui-istifadə edərək öz çirkin işlərini cəsarətlə davam etdirərlər. Amma həmin iki məsələnin yerində istifadə edilməsi bu problemi ortadan qaldırır. Bu baxımdan, mülayimlik və sərtlik, cəza və tövbə – onların hər ikisi zəruridir."

***b) "Tövbə" surəsinin ayələrinin nazil olduğu zaman:*** "Tövbə" surəsinin ilkin ayələri hicrətin doqquzuncu ilində, yəni Peyğəmbərin (s) vəfatından bir il əvvəl nazil edilmişdir. Təfsirçilərin yazdıqlarına əsasən, Peyğəmbər (s) maraqlı bir macərayla[1] əlaqədar həzrət Əlini (ə) əzəmətli həcc mərasimində müsəlmanlara dörd mətləbi elan etməsi üçün vəzifələndirdi:

1. Hicrətin doqquzuncu ilindən sonra heç kəsin lüt və çılpaq şəkildə Kəbəni təfav etməyə ixtiyarı yoxdur.

***Sual:*** Doğrudan da, həmin zamana qədər Kəbəni çılpaq halda təvaf edirdilərmi və buna səbəb nə idi?!

***Cavab:*** Bəli, kişi və qadınların bəzisi anadangəlmə lüt halda Kəbəni təfav edirdilər, çünki müşrik və bütpərəstlərin xürafi etiqadına görə, Kəbəni paltarda təvaf edən şəxs təvaf başa çatdıqdan sonra öz libasını sədəqə verməli idi. Bu cəhətdən, birdən artıq paltarı olmayanlar geyinmək üçün paltar icarə edir və bu şəkildə təvaf edirdilər ki, həmin hökm onlara şamil olmasın. Libas kirayə edə bilməyən kəslər isə tamamilə lüt və çılpaq halda təvaf etmək məcburiyyətində idilər, yoxsa, onlar öz libaslarını təvafdan sonra fəqirə verməli idilər.

2. Müşrik və bütpərəstlər bundan sonra Kəbəni təvaf etmək haqqına malik deyillər.

***Sual:*** Bəyəm, İslam azad məzhəbli olanları qəbul etmirmi? Əgər qəbul edirsə, onda, nə üçün digər məzhəblilərin təvaf etməsinə mane olur?

***Cavab:*** Məzhəb və din azadlığı doğrudur. Amma bütpərəstlik din və məzhəb hesab edilmir, əksinə cürbəcür xürafat və əsassız əqidələrin qarışığıdır.

---

*1. Haradasa, bütün təfsirçi və tarixçilər fikir birliyinə malikdirlər ki, bu surə – və ya onun ilkin ayələri – nazil olduğunda, Peyğəmbərin (s) müşriklərlə bağladığı müqavilə ləğv edildi. Peyğəmbəri-Əkrəm (s) onu həcc mərasimində ümumi camaata elan etməsi üçün Əbu Bəkrə həvalə etdi. Daha sonra onu Əbu Bəkrdən geri alaraq həzrət Əliyə (ə) tapşırdı və o həzrət həcc mərasimində məsələni camaata bildirdi. Bəzilərinin gizlətməyə çalışdığı bu məsələnin şərhini ətraflı şəkildə "Təfsire nümunə", c.7, səh. 257-dən sonra mütaliə edə bilərsiniz.*

3. Müsəlmanlar müşriklərlə imzaladıqları sazişə təyin edilmiş müddətin sonuna qədər vafa edəcəklər, amma müddət bitdikdən sonra onlar arasında heç bir müqavilə yoxdur və o, bir daha yenilənməyəcək.

4. Müsəlmanlarla heç bir müqavilə və sazişə malik olmayan müşrik və bütpərəstlər dörd ay müddətində öz etiqad və əqidələrini islah etməli və bütpərəstlikdən əl çəkməlidirlər, əks təqdirdə, müsəlmanlar onlarla döyüşəcəkdir.

Hər halda, "Tövbə" surəsinin ilkin ayələri – onun məzmununa işarə etdik – hicrətin doqquzuncu ilinin sonlarında nazil olmuşdur və böyük ehtimalla surənin ardı və bəhs etdiyimiz ayə hicrətin onuncu ili, yəni Peyğəmbərin (s) ömrünün axırında nazil edilmişdir. Nəticədə, "Sadiqin" ayəsi Peyğəmbərin (s) mübarək ömrünün sonlarında nazil olaraq Əli ibn Əbu Talibin (ə) "vilayət", "imamət" və "xilafət"inə zəminə yaratmaq rolunu oynayır.

## *Şərh və təfsir*

يـا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَكُونُوا مَعَ الصّـادِقِينَ

" Ey iman gətirənlər, Allahdan qorxun və doğruçularla birgə olun!" – Xitabı müsəlman və möminlər olan bu ayədə Allah-taala onlara iki göstəriş verir:

Birincisi, müsəlmanlar ən üstün sərmayə hesab edilən ilahi təqvaya sahib olmalıdırlar. Təqva Allaha yaxınlıq dərəcəsinin meyarıdır, insan nə qədər yüksək təqvaya malik olarsa, Allaha bir o qədər yaxınlaşmış və az təqvaya sahib olarsa, bir o qədər Allahdan uzaqlaşmış olar.

"Hucurat" surəsinin 13-cü ayəsində deyilir:

يـا أَيُّهَا النّـاسُ إِنّـا خَلَقْنـاكُمْ مِنْ ذَكَر وَأُنْثى وَجَعَلْنـاكُمْ شُعُوباً وَقَبـائِلَ لِتَعارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللهِ اَتْقاكُمْ إِنَّ اللهَ عَليمٌ خَبِيرٌ

***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır."***

"Məryəm" surəsinin 63-cü ayəsində təqva cənnətə giriş vəsiqəsi hesab edilmişdir:

تِلْكَ الْجَنَّةُ الَّتى نُورِثُ مِنْ عِبـادِنـا مَنْ كـانَ تَقِيّاً

***"Bu, öz bəndələrimizdən təqvalı olan hər bir kəsi varis edəcəyimiz həmin cənnətdir."***

İslamın nəzərində çox əhəmiyyətli olan təqva günahlar müqabilində insanın özünü cilovlayıb kontrol edə bilməsinə səbəb olan "batini Allah qorxusu" mənasındadır və xaricdən idarə olunmağa ehtiyac yoxdur. Allah-taalanın bu ayədə mömin bəndələrinə verdiyi ikinci göstəriş onların doğru danışanlarla birlikdə olmalarıdır.

## *"Sadiqin" (doğru danışanlar) kimlərdir?*

***Sual:*** Görəsən, müsəlmanların onlara tabe olmasını nəzərdə tutan ayədəki "Sadiqin"də məqsəd xüsusi şəxslərdir, yoxsa, bu hökm onun lüğəvi mənasını verən bütün doğru danışanlara şamildirmi?

***Cavab:*** Biz ayədə nəzərdə tutulan "Sadiqin"dəki məqsədin hansısa bir doğru danışan insan deyil, əksinə onların xüsusi bir dəstə olmasına inanırıq. Bu iddianı sübut etmək üçün iki qərinə və şahid mövcuddur:

1. Birincisi, əgər "Sadiqin"dəki məqsəd xüsusi insanları nəzərdə tutmayaraq onun ümumi mənasındırsa, onda, ayə **(كونوا من الصّادقين)** ***"kunu minəs-sadiqin"*** kimi olmalı idi, nəinki, **(كونوا مع الصّادقين)** ***"kunu məəs-sadiqin"***, yəni hamı doğru danışanlarla birgə deyil, onların özləri doğru danışan olmalıdır.

Ayənin **(كونوا مع الصّادقين)** ***"kunu məəs-sadiqin"*** kimi gəlməsi və onlara itaətin lazımlığı bildirildiyindən, ayədəki məqsədin xüsusi və seçilmiş şəxslər olduğu və onlara tabeçiliyin zəruriliyi məlum olur.

2. İkinci şahid ayənin zahirinin "Sadiqin"lə birgə olmağı qeydsiz və şərtsiz olaraq nişan verməsidir. Deməli, onlarla birgə olmaqda heç bir qeyd və şərt bildirilmədiyindən, "Sadiqin"dən olan həmin şəxslərin xəta və günahdan amanda qaldıqları və buna Allah tərəfindən zəmanət verildiyi məlum olur. Çünki onlar məsum olmasalar, müsəlmanların həmişə onlara itaət etməsi mümkün deyil, əksinə səhv və günah etdiklərində onlardan ayrılmalıdırlar. Nəticədə, "Sadiqin"ə iatət və tabeçilik mütləq şəkildə qeyd edildiyindən, bu işin həyata keçirilməsi üçün onların günah və xətadan amanda qalan məsum və xüsusi şəxslər olması zəruridir.

Beləliklə, ya "Sadiqin"ə tabeçilik və itaət həmişə mütləq şəkildə və "Sadiqin"in özü də xüsusi şəxslərə şamil olmalıdır, ya da "Sadiqin" mütləq şəkildə bütün doğru danışanlara şamil olmalı və onlara tabeçilik və itaət müəyyən qeyd və şərtlərə əsaslanmalıdır. Qeyd etdiyimiz iki qərinəyə əsasən, birinci ehtimal daha düzgündür. Deməli, "Sadiqin" qeydə malikdir və onda məqsəd xüsusi şəxslərdir. Həmçinin, həmin xüsusi şəxslərə itaət və tabeçilik mütləq şəkildədir.

### *Əhli-sünnə alimlərinin nəzərləri*

Əhli-sünnə təfsirçiləri umumilikdə bu məsələ barəsində iki qrupa bölünürlər:

Onlardan bəziləri bu ayənin kənarından çox sadə şəkildə keçərək "Sadiqin" sözü barədə məlumat verməmişlər. İkinci qrup isə müxtəlif şəkildə bəhs etmiş və əvvəlkilərdənbir qədər irəli gedərək "Sadiqin"in məsum olmasını söyləmişlər, çünki məsumdan başqasına mütləq şəkildə itaət etmək düzgün deyil. Amma bəzi təəssübkeşlər onların həqiqətə yetişməsinə imkan verməmişlər.

Fəxri Razi ikinci dəstədən olan təfsirçilərdəndir. O, "Sadiqin"in məsum olması fikrində olmaqdan əlavə, ayənin təkcə Peyğəmbər (s) zamanına aid olmaması, əksinə hər bir zamanda itaət edilməsi vacib olan "məsum doğru danışanlar"ın mövcudluğu düşüncəsindədir. Amma "Sadiqin"in misdaq və nümunəsini təyin etmək zamanı gəldikdə, o, təəssüb və şəxsi düşüncəyə əsasən belə deyir: "Biz "Sadiqin"in xüsusi bir dəstə olmasını müəyyən edə bilmərik. Belə olan halda, onların bütün İslam ümməti olduğunu demək məcburiyyətindəyik." Yəni, İslam ümməti hansısa bir məsələdə fikir birliyinə gəlsə, həmin məsələdə hamının ona itaət etməsi vacibdir.

Nəticədə, Fəxri Razinin etiqadına əsasən, **(كونوا مع الصّادقين)** ***"kunu məəs-sadiqin"*** hər bir zaman və əsrdə mövcud olan "İslam ümməti"dir.

Amma biz Fəxri Razidən soruşuruq: "Həqiqətdə, sizin ayəni bu cür təfsir edərək belə nəticəyə gəlməyiniz Peyğəmbər (s) zamanında və ayə nazil olarkən Peyğəmbərin (s) səhabələrinin ağlına batar və onu qəbul edərdilərmi?" Əslində, icma (ümmətin fikir birliyi) məsələsi birinci əsrdən neçə əsr sonra meydana çıxmışdır, belə isə, o zamana aid olan həmin ayədən "ümmətin icması" məsələsini necə əldə edirsiniz (istinbat edirsiniz)? Əlbəttə, bu cür təfsir səhv və yanlışdır və Peyğəmbərin (s) səhabələri "Sadiqin" ayəsindən onun hökmünün xüsusi və ismət (məsumluq)) məqamına malik olan bir dəstəyə şamil olduğunu anlayırdılar.

Nəticədə, şübhəsiz ki, "Sadiqin" ismət məqamına malik, günah və xətadan amandadır. İkincisi, hər bir əsrdə vardırlar və təkcə Peyğəmbər (s) zamanına məxsus deyillər. Üçüncüsü, xüsusi və müəyyən bir qrupdurlar.

Ayənin özündən yuxarıda qeyd edilən bu üç məsələ – onu müfəssəl şəkildə bəyan etdik – əldə edilir.[1] Amma "Sadiqin" ayəsinin nümunə

---

*1. Təəssübkeşlik olmadan yuxarıdakı ayələr və ona bənzərləri barədə təfəkkür edənlər çox yaxşı nəticələr əldə etmişlər. Həmin şəxslərdən biri əhli-sünnə alimi doktor Səmavi Ticanidir.*

və misdaqı ayənin özündən anlaşılmır və onu rəvayətlərdən istifadə etməklə anlamalıyıq.

## *"Sadiqin" ayəsinin Quranın digər ayələri ilə təfsir edilməsi*

Əgər Quran müqabilində şagird kimi diz çökərək bu əzəmətli kitabın ayələri barədə təssübkeşlikdən uzaq şəkildə düşünsək, Quranın özü digər ayələrində "Sadiqin"in kim olduğunu bizə tanıtdıracaqdır. Allah-taala "Hucurat" surəsinin 15-ci ayəsində "Sadiqin"i tanıtdırmaqla bağlı buyurur:

**إِنَّمَا الْمُؤْمِنُونَ الَّذينَ آمَنُوا بِاللهِ وَرَسُولِه ثُمَّ لَمْ يَرْتـابُوا وَ جـاهَدُوا بِأَمْوالِهِمْ وَأَنْفُسِهِمْ فِي سَبِيلِ اللهِ أُولئِكَ هُمُ الصَّـادِقُون**

***"Möminlər yalnız Allaha və onun Peyğəmbərinə iman gətirmiş, sonra (öz imanında) əsla şəkk-şübhəyə düşməyən, mal və canları ilə Allah yolunda cihad edən kəslərdir. (Etiqad, söz və əməldə) doğruçu olan onlardır."***

Bu ayəyə uyğun olaraq, "Sadiqin" Allah və onun Peyğəmbərinə (s) iman gətirməkdən, başqa sözlə, bütün müsəlmanların iman gətirdiyi "məad" və "nübüvvət" məsələsindən əlavə, onları müsəlmanlardan fərqləndirən digər iki xüsusiyyətə də malik idi:

1. "Məad" və "nübüvvət" məsələsinə iman gətirməkdən əlavə, onlar heç vaxt şəkk və şübhəyə düçar olmamış və həyatda olduqları müddətdə bu möhkəm və güclü imanı qoruyub saxlamışlar.

2. İkincisi, onların imanı təkcə qəlb və dillərində deyil, əksinə həmin şəxslərin əməllərində də zahir olmuşdur. Bu səbəbdən, digərlərinin yox, fəqət Allahın razılığını qazanmaq üçün Allah yolunda öz mal və canları ilə cihad etmişlər.

İndi bu iki mühüm və az müşahidə edilən xüsusiyyəti nəzərə almaqla Peyğəmbərin (s) bütün səhabələri arasında həmin xüsusiyyətlərə malik və "Sadiqin" zümrəsindən olan şəxsi tapmağa çalışmalıyıq. İslamın əvvələrinə məxsus olan tarixi mütaliə etməklə bu həqiqətə yetişirik ki, həmin xüsusiyyətlərə malik olan yeganə şəxs Əli ibn Əbu Talibdir (ə). Çünki həzrət Əli (ə) bütün ömrünü mal və canı ilə Allah yolunda cihad etməkdə keçirmiş və bir göz qırpımı qədər də olsun, öz imanında şəkk etməmişdir.

Bu məsələni isbat etmək üçün sadəcə o həzrətin həyatında baş

---

*O, təəssübkeşliyə yol vermədən belə ayələr barədə dəqiq mütaliələr etməklə hidayət olmuş və ondan "nə üçün şiə olmusunuz?" deyə soruşanlara cavab olaraq "Doğru danışanlarla birgə olmaq istəyirəm" adlı kitab yazmışdır. Həmin kitab daha çox "Sadiqin" ayəsi barəsindədir.*

vermiş və onun can və malı ilə cihad etdiyinin və yüksək imana malik olmasının zirvə nöqtəsini göstərən üç müxtəlif hadisəyə işarə edirik:

1. Məkkə müşrikləri yenicə yaranan İslamı aradan aparmaq üçün cürbəcür planlar cızsalar da, öz istəklərinə nail ola bilməmişdilər. Onlar bir gün çox təhlükəli və şeytani bir məsələyə əl ataraq Peyğəmbəri (s) qətlə yetirmək fikrinə düşdülər. Bu baxımdan, gələcəkdə Peyğəmbərin (s) qəbiləsi hansısa bir şəxsdən qisas ala bilməsin deyə, terror aktını həyata keçirmək üçün qırx nəfər təyin edildi ki, onlar gecə ilə Peyğəmbərin (s) evinə hücum edərək nəzərdə tutulan bu planı həyata keçirsinlər.

Allah-taala vəhy mələyi vasitəsi ilə Peyğəmbəri (s) məsələdən xəbərdar etdi. Bu məsələdən Peyğəmbər (s) xilas ola bilməsi üçün Mədinəyə hicrət etməli, amma şücaətli və fədakar bir şəxsi düşmənlər o həzrətin yoxluğundan xəbər tutmasınlar deyə, öz yerində yatırtmalı idi. Peyğəmbər (s) həzrət Əlini (ə) bu iş üçün müəyyən etdi. Rəvayətlərə[1] uyğun olaraq, Peyğəmbər (ə) Əmirəl-mömininə (ə) xitab edərək buyurur: "Mən Məkkədən Mədinəyə hicrət etməklə vəzifələndirilmişəm. Amma qırx qəbilədən olan qırx nəfər əliqılınclı mənim evimin ətrafını mühasirəyə almış və sübh çağı hücum edərək məni öz yatağımda qətlə yetirmək fikrindədirlər. Ey Əli! Mənim Mədinəyə hərəkət edə bilməyim üçün sən mənim yerimdə yatmağa hazırsanmı?"

Peyğəmbərə (s) bütün vücudu ilə məhəbbət bəsləyən və bir an belə olsa, imanında şəkk etməyən həzrət Əli (ə) dedi: "Ey Allahın Peyğəmbəri (s)! Əgər mən sizin yerinizdə yatsam, sağ-salamat Mədinəyə gedə biləcəksinizmi?" Bu sual çox mühüm bir sualdır, çünki həzrət Əli (ə) xətər və təhlükənin vəhşətindən və öz canı qorxusundan bu sualı vermir, əksinə onun narahatçılığı Peyğəmbərdən (s) yanadır. Peyğəmbər (s) belə olan halda salamat qalacağını bildirir. Həzrət Əli (ə) Peyğəmbərin (s) salamat qalacağı və cavabının müsbət olduğunu bildirərək şükür səcdəsi edir. Bu şükür səcdəsinin İslamda ilkin şükür səcdəsi olduğu ehtimalı vardır.

Həqiqətdə, müsəlmanlar arasında bu qədər Peyğəmbərə (s) məhəbbət bəsləyən digər bir şəxsi tanıyırsınızmı? Biz Əli (ə) aşiqləri və belə bir imamı olan məktəbə təslim olanlarıq. Həzrət Əli (ə) Peyğəmbərin (s) yatağında uzanır və o həzrət Mədinəyə yola düşür. Sübh çağı silahlı düşmənlər evə daxil olanda həzrət Əli (ə) onların səs-küyünə yerindən qalxır və düşmənlər Peyğəmbəri (s) evdə tapmadıqda,

---

*1. Mərhum mühəddis Qummi (r.ə) bu məsələnin şərhini özünün «Muntəhəl-amal», c.1, səh. 110-da xatırlatmışdır.*

ondan soruşurlar ki, Məhəmməd (s) haradadır?

Həzrət Əli (ə) zərrə qədər də qorxmadan onlara "Bəyəm, Peyğəmbəri (s) mənə tapşırmışdınız ki, onu məndən soruşursunuz?" – deyə cavab verir. Onlar bu cürətli cavanın verdiyi tutarlı cavabdan məyus olaraq dedilər: "Bu, Məhəmmədin (s) yalanlarına aldanan sadəlövh bir cavandır." Həzrət Əli (ə) bu töhmətli və Peyğəmbərə (s) nisbət verilən nalayiq sözləri eşitdikdə, onlara elə bir cavab verir ki, indiyə qədər heç kəs özü barəsində belə cümlələri söyləyə bilməmişdir:

**اللهُ قَدْ أَعْطاني مِنَ الْعَقْلِ ما لَوْ قُسِّمَ عَلى جَمِيعِ حُمَقاءِ الدُّنْيا وَمَجانِينِها لصارُوا بِهِ عُقَلاءَ وَمِنَ القُوَّةِ ما لَوْ قُسِّمَ عَلى جَمِيعِ ضُعَفاءِ الدُّنْيا لَصارُوا بِهِ أَقْوِياءَ، وَمِنَ الشُّجاعَةِ ما لَوْ قُسِّمَ عَلى جَميعِ جُبَناءِ الدُّنْيا لَصارُوا بِهِ شَجْعاناً**

***"(Siz məni sadəlövh adlandırırsınız. Xeyr, heç də belə deyil.) Allah-taala mənə o qədər əql vermişdir ki, əgər onu dünyanın bütün divanə və cahilləri arasında bölüşdürsələr, onların hamısı ağıllı olar və mənə o qədər qüvvə və qüdrət əta etmişdir ki, əgər onu aləmin bütün qüdrətsizləri (zəifləri) arasında bölüşdürsələr, onların hamısı güclü olar və o qədər şücaət vermişdir ki, əgər onu dünyanın bütün qorxaqları arasında paylaşdırsalar, hamısı şücaətli olar."*** [1]

Düşmənlərin hamısı o həzrətin bu cavabı ilə Peyğəmbəri (s) tapmaqdan naümid olaraq evi tərk etdi.

Əgər həzrət Əli (ə) Allah və onun Peyğəmbəri (s) barəsində azacıq da olsa şəkk etsəydi, öz canını belə təhlükəyə atmağa hazır olardımı?

2. Müsəlmanlardan bir dəstəsinin dünyapərəstliyi səbəbi ilə nisbi qələbə ilə bitən "Ühüd" döyüşündə düşmənlər onların qəflətindən istifadə etməkdən əlavə, psixoloji döyüşə də əl atmışdılar. Düşmən qoşununun başçısı Peyğəmbərin (s) yaralandığını gördükdə, uca səslə "Məhəmməd (s) öldürüldü!" – deyə qışqırmağa başladı. Müsəlmanların bir dəstəsi və bəzi rəvayətlərə əsasən, hamısı bu sözləri eşitməklə qaçmağa üz tutdu. Amma həzrət Əli (ə) Peyğəmbərin (s) düşmənlərin məğlubiyyəti ilə bağlı dediyi sözlərə əsaslanaraq və imanında şəkk etmədən, həmin sözlərə əhəmiyyət vermədi və döyüşə davam etdi. O, Peyğəmbərin (s) yaralı olduğunu gördükdə, pərvanə kimi o həzrətin başına dolanaraq Allah Peyğəmbərini (s) müdafiə etməyə başladı. Həzrət Əlinin (ə) iman, şücaət və döyüşü düşmənin planını alt-üst etdi və müsəlmanların bir dəstəsi Peyğəmbərin (s) yaşadığını bilərək geri qayıtdılar və əziyyət və çətinliklə olan döyüş başa çatdı və düşmən Peyğəmbəri (s) aradan qaldıra bilməməsinin ümidsizlik və məyusluğu

---

*1. «Biharul-ənvar», c.19, səh. 83.*

ilə Məkkəyə qayıtdı.

Həzrət Əli (ə) döyüşdə göstərdiyi şücaətə görə doxsana yaxın yara və zərbə almışdı. Peyğəmbər (s) o həzrətin müalicəsi üçün iki təbib və cərrah göndərdi. Amma onlar tez bir zamanda geri qayıdaraq həzrətin yarasının bir-birinə həddən artıq yaxın olduğunu və bu səbəbdən onlardan birini tikdikdə, digərinin açılmasına səbəb olduğunu dedilər.

Əhli-sünnənin tanınmış alimi Şiblənci "Nurul-əbsar" adlı kitabında yazır: "Həzrət Əli (ə) "Ühüd" döyüşü bitdikdən sonra Peyğəmbərin (s) hüzuruna gələrək o həzrətə belə dedi: "Düşmənlərlə şiddətli və çətin olan bu döyüşdə mənə on altı ağır zərbə dəydi ki, mən onların təsiri ilə dörd dəfə yerə yıxıldım. Amma hər dəfə nurani bir şəxs məni yerdən qaldıraraq "Ayağa qalx və Peyğəmbərə (s) kömək et!" – deyirdi. Ey Allahın Rəsulu (s)! Həmin şəxs kim idi?" Həzrət cavab verdi ki, gözlərin aydın olsun və xoş sənin halına! O şəxs Cəbrayıl idi."[1]

Bəli, Quranın da təsdiqinə əsasən, tövhidi qəbul edən və bu yolda daxili və xarici düşmənlərlə döyüşdə səbir edən kəslərə Allah-taala asimanın mələklərini onlara yardım etməsi üçün göndərir:

**إِنَّ الَّذينَ قـالُوا رَبُّنَا اللهُ ثُمَّ اسْتَقـامُوا تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلائِكَةُ أَلاّ تَخـافُوا وَلا تَحْزَنُوا وَأَبْشِروا بِالْجَنَّةِ الَّتي كُنْتُمْ تُوعَدُونَ**

***"Şübhəsiz, (səmimi qəlbdən) "Bizim rəbbimiz Allahdır!" deyən, sonra (əməldə) möhkəm duran kəslərə (dünyada qeyb köməyi şəklində, yaxud ölüm zamanı, ya da qəbrdən qaldırılan zaman) mələklər nazil olarlar (və deyərlər): "Əsla qorxmayın və qəmgin olmayın; (dünyada) sizə vəd olunmuş cənnətlə müjdə olsun sizə!""[2]***

Bir sözlə, bu hədislər həm həzrət Əlinin (ə) can və malı ilə cihad etməsinin ən yüksək dərəcəsini, həm də Allah və Peyğəmbərə (s) olan şəkk və tərəddüdsüz imanını, eyni zamanda, Quranın İslamın müşriklər üzərində qələbə vədəsini nişan verərək göstərir. Beləliklə, həzrət Əlinin (ə) "Sadiqin" ayəsində qeyd edilən xüsusiyyətlərə malik olan nümunə və misdaq olması məlum olur.

3. "Əhzab" (Xəndək) döyüşündə xəndəkdən keçərək uca səslə onunla döyüşməyə bir şəxs tələb edən ərəbin ən böyük qəhrəmanı Əmr ibn Əbdüvədə həzrət Əlidən (ə) başqa, heç kəs müsbət cavab vermir. Bu hadisə (Əbdüvədin döyüşçü tələb etməsi) üç dəfə təkrar olunur və hər dəfəsində həzrət Əli (ə) döyüşə getməyə can atır. O həzrət güclü iman və qeyri-adi şücaətilə düşmənə tərəf hərəkət etdiyi zaman, Peyğəmbər (s) onun üçün dua edir. Onlar döyüşməyə başlayırlar və nəhayət,

*1. «Nurul-əbsar», səh. 97.*

*2. «Fussilət» surəsi, ayə 30.*

Allahın lütfü ilə həzrət Əli (ə) düşmənə qələbə çalır. O, Əbdüvədin sinəsinə çökür və bu zaman Əbdüvəd ağzının suyunu həzrət Əliyə (ə) ataraq ona nalayiq sözlər deyir.[1] O həzrət ayağa qalxaraq bir neçə addım meydanda gəzişməyə başlayır. Bu hadisəni uzaqdan seyr edən müsəlmanlar çox təəccüblənirlər və "Əhzab" döyüşünün qəhrəmanı bir müddətdən sonra düşmənin başını bədənindən ayırır. Hadisə bitdikdən sonra o həzrətdən məsələnin sirrini soruşduqda, belə cavab verir:

**قَدْ كـانَ لَشَتَمَ أُمِّي وَتَفَلَ فِي وَجْهِي فَخَشِيتُ أَنْ أَضْرِبَهُ لِحَظِّ نَفسي فَتَرَكْتُهُ حَتَّى سَكَنَ مـا بِي ثُمَّ قَتَلْتُهُ فِي اللهِ**

***"O, mənim anam barəsində nalayiq sözlər deyərək ağzının suyunu üzərimə atdı. Onun bu hərəkətinindən çox qəzəbləndim və qordum ki, onu bu halda öldürsəm, ixlaslı şəkildə deyil, öz nəfsimi təskinləşdirmək üçün öldürmüş olaram. Bu səbəbdən, ondan əl çəkib bir neçə addım gəzişdim ki, qəzəbim yatsın və qəlbim aramlaşsın. Sonra onu ixlasla və Allah rizası üçün öldürdüm."***[2]

Məşhur fars şairi Mövlana Cəlaləddin Bəlxi yuxarıdakı hadisəni aşağıdakı kimi nəzmə çəkmişdir:

Əz Əli amuz exlase əməl,
Şire Həqq ra dan münəzzəh.
Dər ğəza bər pəhləvani dəst yaft,
Şəmşiri bər avərd o şetaft.
U xode əndaxt bər ruye Əli,
İftixare hər nəbiyy o hər vəliyy.
U xod əndaxt bər ruyi ke mah,
Səcdə arəd pişe u dər səcdeqah.
Dər zəman şəmşir əndaxt an Əli,
Kərd u əndər əzayəş kaheli.
Gəşt heyran an mobarez zin əməl,
Əz numudən əfv o rəhme biməhəl.
Qoft: "Bər mən tiğe tiz əfraşti,
Əz çe əfkəndi, məra boqzaşti."

Şair sonra həzrət Əlinin (ə) dilindən deyir:

Qoft: "Mən tiğ əz paye həqq mi zənəm,
Bəndeye həqqəm, nə məmure tənəm.
Şire Həqqəm, nistəm şire həva,

---

*1. «Biharul-ənvar», c.21, səh. 26.*

*2. «Biharul-ənvar», c.21, səh. 51 («Məzhəre vilayət» əsəri, səh. 365-dən nəql edilənlərə əsasən).*

Fele mən bər dine mən başəd qovah."[1]

Həzrət Əlinin (ə) imanı onun bütün ömrü boyu özünü nişan verir. Nəticədə, Quranın digər ayələrindən istifadə etmək və tarixdən yardım almaqla "Sadiqin"dəki məqsədin Əli ibn Əbu Talib (ə) olduğu aydın olur.

## *Rəvayətdəki "Sadiqin"*

Əgər sadəcə həmişə tarixi öz parlaq nuru ilə aydınlandıran "Səqəleyn" hədisinə diqqət edərək onu "Sadiqin" ayəsinin kənarına qoysaq, "Sadiqin"in misdaq və nümunəsi məlum olacaq. "Sadiqin" "Səqəleyn" hədisində məsum şəxslər ünvanında tanıtdırılan və onlardan yapışmağın azğınlığa maneə olduğu bildirilən kəslərdir. Bəli, bu hədisə diqqət etməklə, Əhli-beyt (ə) və məsum imamların (ə) "Sadiqin" olduğu bilinir. Bundan əlavə, çoxlu sayda digər rəvayərlər də ayənin izahı ilə bağlı nəql edilmişdir. Həmin rəvayətlərin bəzi nümunələrə diqqət edin:

1. Əhli-sünnənin beş nəfər tanınmış alim və böyükləri bu zəminədə rəvayət nəql etmişlər: 1. Süyuti,[2] 2. Xarəzmi,[3] 3. Əllamə Sələbi,[4] 4. Əllamə Gənci,[5] 5. Hakim Həskani,[6]

Adları çəkilən alimlərin hamısı Peyğəmbərin (s) məşhur səhabəsi İbn Abbasdan və ya Cabir ibn Abdullah Ənsaridən bu rəvəyəti nəql etmişlər:

كُونُوا مَعَ الصَّادِقِينَ، أَيْ كُونُوا مَعَ عَلِيِّ بْنَ اَبِي طالِب

***"Sadiqinlə birgə olun və ya Əli ibn Əbu Taliblə (ə) birlikdə olun!"***

Yəni, "Sadiqin" həzrət Əlidir (ə). Bəziləri yuxarıdakı ifadənin yerinə "huvə Əliyyibni Əbi Talib" **(هو علىّ بنابىطالب)**, "nəzələt fi Əliyyibni Əbi Talib"[7] **(نزلت فى علىّ بن ابىطالب)** kimi cümlələri işlətmişlər ki, hamısı eyni mənadadır.

2. Hakim Həskani "Şəvahidut-tənzil" əsərində yuxarıdakı rəvayətdən əlavə, Abdullah ibn Ömərdən digər bir rəvayəti nəql edir. Həmin rəvayət belədir:

---

*1. Bu qəsidə həddən artıq uzundur. Onun şərhini «Məhzəre vilayət» kitabı, səh. 365-dən mütaliə edə bilərsiniz.*

*2. «Durrul-mənsur», c.3, səh. 290.*

*3. "İhqaqul-həqq", c.3, səh. 298-də nəql edilənlərə əsasən.*

*4. "Sələbi" təfsiri ("İhqaqul-həqq", c.3, səh. 297-də nəql edilənlərə əsasən).*

*5. «Kifayətut-talib», səh. 111 ("İhqaqul-həqq", c.3, səh. 297-də nəql edilənlərə əsasən).*

*6. «Şəvahidut-tənzil», c.1, səh. 260*

*7. "Şəvahidut-tənzil", c.1, səh. 262.*

مَعَ الصَّـادِقِينَ أَيْ مَعَ مُحَمّد وَأَهْلِ بَيْتِه

***"Sadiqlərlə və ya Məhəmməd (s) və onun Əhli-beyti (ə) ilə (birlikdə olun)!"***[1]

Maraqlı burasındadır ki, yerdə qalan digər məsum imamlar (ə) da "Sadiqin"dən hesab edilir.

3. Süleym ibn Qeys – Əllamə Məclisi "Biharul-ənvar" əsərində onu mötəbər bir insan olaraq tanıtdırır - "Sadiqin"i aşağıdakı rəvayətlə belə izah edir:

"Mən Peyğəmbərin (s) xidmətində olarkən "Sadiqin" ayəsi nazil oldu və mən Peyğəmbərdən (s) soruşdum ki, "Sadiqin" ümumi mənadadır, yoxsa, məqsəd xüsusi şəxslərdir? Peyğəmbər (s) buyurdu ki, ayənin xitabı ümumidir və bütün camaat nəzərdə tutulmuşdur, amma "Sadiqin" xüsusi şəxslərdir və onda məqsəd qardaşım Əli (ə) və mənim qiyamətə qədər olacaq canişinlərimdir."[2]

Bu rəvayətə uyğun olaraq, "Sadiqin" məsum imamlardır (ə).

4. Əllamə Gənci "Kifayətut-talib" və İbn Cövzi "Təzkirə" kitablarında yazır:

قال علماء السّير معناه كونوا مع علىّ و اهل بَيْته ٣

***"Bir nəfər deyil, tarixçilərin əksəriyyəti*** **كُونُوا مَعَ الصَّـادِقِينَ** ***(kunu məəs-sadiqin) cümləsinin mənasının "Əli (ə) və onun Əhli-beyti (ə) ilə birgə olun!" – mənasında olduğunu demişlər."***

Bu hədisə əsasən də, "Sadiqin"in şiənin on dörd imamı olduğu aydın olur.

### "Sadiqin" ayəsinin verdiyi mesajlar

Məsum imamların bütün xüsusiyyət və sifətlərindən olan "zakirin", "abidin", "mücahidin", "rakiin", "sacidin", "qaimin", "zahidin", "alimin", "müttəqin" və "xaşiin" arasından təkcə "Sadiqin" sifəti seçilmişdir. Bu cür seçim edilməsi bizə "düz danışmaq və doğruçuluğun" (təkcə müsəlmanların deyil) bütün insanların həyatında həlledici rol oynadığını və həmin səbəbdən, hidayətçi imamların (ə) bu adla tanıtdırıldığını başa salır.

Qeyd edilən mövzunun əhəmiyyətini bildirmək üçün həzrət Əlidən (ə) nəql edilən bir neçə hədisə diqqət edin:

1. **الصِّدْقُ عِمَـادُ الإِسْلامِ وَدِعَـامَةُ الإِيمَـانِ**[4] – ***"Doğruluq və düz danışmaq***

*1.*

*2..»Əsrarun Ali-Muhəmməd», səh. 297*

*3.. «İhqaqul-həqq», c.3, səh. 297-də nəql edilənlərə əsasən.*

*4. «Mizanul-hikmət», bölmə 2190, hədis 10185.*

***İslamın sütunu və imanın təməlidir."*** Əgər binanın təməli xarab olsa, bina uçar. Müsəlman da doğru və düz danışan olmasa, İslam və onun imanı məhv olar.

2. **الصدقُ أقوى دَعـائِمِ الايمان**[1] – ***"Əgər iman üçün müxtəlif sütunların olduğunu təsəvvür etsək, doğruluq onun ən güclü və möhkəm sütunudur."*** Həmin sütun xeymənin (alaçığın) ortasındakı sütuna bənzəyir. Əgər onu götürsələr, uçacaqdır.

3. **الصدقُ صَلاحُ كُل شَيء وَالكِذْبُ فَسادُ كُل شَيء**[2] – ***"Doğruluq hər bir məsələnin islah edilməsinə səbəb, amma yalan hər bir şeyi məhv edəndir."***

Həqiqətən də, əgər cəmiyyətin bütün fərdləri – ər və arvad evdə, idarə işçiləri iş yerlərində, ticarətdə şərik olanlar ticarətdə, dövlət adamları siyasətdə, elm adamları təhsildə – xülasə, hamı tutduğu mövqedə doğru danışmağı özünə peşə etsə, şübhəsiz, cəmiyyətin bugünkü promlemlərinin əksəriyyəti həll edilmiş olar. Bədbəxtliklərin hamısı doğruluğun olmamasından qaynaqlanır.

Bu məsələ dünyəvi və beynəlmiləl yönlüdür. Məsələn, bəşər hüququndan dəm vuranlar zahirdə düzgünlüyə riayət etsəydilər, bəşər dünyası bugünkündən fərqli bir şəkildə olmuş olardı. Amma hazırda doğru yoldan çıxmış, öz mənafeləri üçün çalışaraq zülm və ayrı-seçkiliyin yaranmasına səbəb olmuşlar. Əgər dünyanın hansısa bir məntəqəsində İsrail casusunu yaxalayaraq mühakimə etmək istəsələr, o dəqiqə onların bəşər hüququ fəryadı digərlərinin qulaqlarını kar edər. Amma Fələstinin minlərlə məzlum camaatı ən faciəvi şəkildə qətlə yetirilsə, bəşər hüququ iddiası edənlərdən heç bir səs çıxmaz, əksinə daha çox təəccüb edərək iqtisadi, siyasi və hərbi yardımlarla zalımların köməyinə tələsərlər ki, onlar bir az da zülm etsinlər. Əhsən müttəqilərin əmiri Əli ibn Əbu Talibə ki, belə buyurmuşdur: "Doğruluq yolundan yayınmaq bütün fəsad və pisliklərin yaranmasına səbəbdir."

Nəticədə, "Sadiqin" ayəsinin bütün müsəlmanlara deyil, əksinə bütün insanlara doğruluq və düz danışmaq mesajı verdiyi məlum olur.

*1. Həmin yerdə hədis 10184.*

*2. "Mizanul-hikmət", bölmə 2189, hədis 10166.*

## İKİNCİ FƏSİL

# ƏHLİ-BEYTİN (Ə) FƏZİLƏTLƏRİ İLƏ BAĞLI OLAN AYƏLƏR

# 1 “TƏTHİR” AYƏSİ

إِنَّمَا يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيراً

***“Həqiqətən, Allah (təkvini iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) pisliyi təmizləmək və sizi bütün çirkinliklərdən pak etmək istəyir.”***

*“Əhzab” surəsi, ayə 33*

## *Bəhsə qısa bir nəzər*

“Təthir” ayəsi də Əmirəl-möminin (ə) və digər məsum imamların (ə) imamət və vilayəti ilə bağlı olan ayələrdəndir. Hər bir kəlməsi və sözündə dərin təfəkkür, düşüncə və mütaliəyə ehtiyac duyulan bu ayə bir daha məsum imamların ismətinə dəlalət edir.

## *Müqəddimə*

"Əhzab" surəsinin 28-ci ayəsindən 34-cü ayəsinə qədər bütövlükdə Peyğəmbərin (s) qadınlarına xitab olunmuş və həmin yeddi ayənin arasında "Təthir" ayəsi məzmun baxımından, xüsusi və fərqli bir tərzdə nazil edilmişdir.

Həmin fərqlərə misal olaraq əvəzliklərin dəyişilməsini göstərmək olar. "Təthir" ayəsindən əvvəlki ayələrdə iyirmi beş əvəzlik və fel və həmin ayədən sonra da iki əvəzlik və fel işlədilmişdir ki, hamısı qadınlara aiddir. Amma cəmi iyirmi yeddi və hamısı da qadınlara məxsus olan bu əvəzliklərin arasında nazil edilən "Təthir" ayəsindəki əvəzlik və fellər kişilərə məxsusdur və ya onları həm kişiyə, həm də qadına aid etmək olar, yəni o əvəzliklər təkcə qadınlara aid deyil. Görəsən, bu bir təsadüfdür, yoxsa, xüsusi fəlsəfəyə malikdir? Şübhəsiz, təsadüfi deyil və xüsusi bir fəlsəfəyə malikdir və onun kənarından asanlıqla keçmək olmaz. Əgər ayədəki məqsəd Peyğəmbərin (s) qadınlarınadırsa, onda, nə üçün ayənin xitabı dəyişilir və qadınlara məxsus əvəzliklərdən istifadə edilmir?

Aydındır ki, ayənin məzmun və əhatə dairəsi, həmçinin, onun fel və əvəzliklərinin dəyişilməsi ayədəki məqsədin Peyğəmbərin (s) qadınları olmadığını göstərir. Daha ətraflı şəkildə gələn bəhslərimizdə izahlar verəcəyik.

### *Şərh və təfsir*

### *"Təthir" ayəsi ismətə (məsumluğa) açıq-aşkar bir dəlildir*

Qeyd etdiyimiz kimi, bu ayənin hər bir kəlməsi və sözündə dərin təfəkkür, düşüncə və mütaliəyə ehtiyac duyulmuş və barəsində bəhslər edilmişdir. Bu baxımdan, biz də onun bir-bir kəlmələrini araşdırmağa başlayırıq:

1. إنّما – "fəqət" mənasını verən bu söz həsr və məxsusluğu bildirir. Ayədəki bu sözün işlənməsindən onda bütün müsəlmanlara aid olmayan bir məsələnin mövcudluğu məlum olur, yoxsa, həmin sözün işlənməsinə ehtiyac duyulmazdı.

Ayədə bəhs edilən "çirkinlik və pislik" bütün insanlardan deyil, əksinə ayədə bildirilən xüsusi bir dəstədən təmizlənilmişdir. Eyni zamanda, həmin pislik və çirkinliklər də xüsusi şəkildədir və xüsusi

insanlardan da təmizlənilmiş və təkcə onlar pak olmuşdurlar. Doğrudur ki, adi və sadə olan təqva bütün müsəlmanlara şamildir və günahlardan çəkinmək hamıya vacibdir. Amma ayədə nəzərdə tutulan məsələ adi təqvadan üstün bir məsələdir ki, xüsusi şəxslərə məxsusdur.

2. **يُرِيدُ اللهُ** ***(Allah iradə edir)*** – Ayədəki Allahın iradəsində məqsəd hansı iradədir? Görəsən, "təkvini" iradədir, yoxsa, "təşrii" iradə?

Cavab: Bu suala cavab vermək üçün "təkvini" və "təşrii" iradə barədə qısa bir izah verməyi lazım bilirik:

***"Təşrii" iradə:*** Bu iradə "ilahi göstəriş və əmrlər", başqa sözlə, "vacib və haramlar" mənasındadır. "Bəqərə" surəsinin 185-ci ayəsi Allahın təşrii iradəsin göstərən ayələrdən biridir. Allah-taala bu ayədə Ramazan ayının orucunun vacibliyini və səfərdə olan müsafir və xəstələrin həmin hökmdən istisna olduğunu bildirdikdən sonra buyurur:

يُرِيدُ اللهُ بِكُمُ الْيُسْرَ وَلا يُرِيدُ بِكُمُ الْعُسْرَ

***"Allah sizin üçün çətinlik deyil, asanlıq istər."***

Həmçinin, (istəyir ki,) müəyyən olunmuş miqdarı (otuz günü) tamamlayasınız və sizi hidayət etməsinin şükrü olaraq "təkbir" deyərək Allahı əzəmətli sayasınız, bəlkə, (onun) şükrünü yerinə yetirə bildiniz.

Allahın bu ayədəki iradəsi "təşrii" iradədir, yəni Allahın Ramazan ayının orucu ilə bağlı verdiyi hökm çətin deyil, asandır. Bütün islami hökmlər elə də çətin sayılan hökmlər hesab edilməməlidir. Peyğəmbər (s) buyurur:

بُعِثْتُ إِلَيْكُمْ بِالْحَنَفِيَّةِ السَّمْحَةِ السَّهْلَةِ [1]

***"Mən asan və rahat olan bir şəriət və dinlə sizə tərəf göndərilmişəm (Peyğəmbər seçilmişəm)."***

***"Təkvini" iradə:*** Bu iradə "yaradılış" və "xilqət" mənasındadır. "Təkvini" iradə Allahın kimi və ya nəyi isə yaratması ilə bağlıdır. Həmin iradənin nümunəsini "Yasin" surəsinin 82-ci ayəsində müşahidə etmək olar:

إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئاً أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ

***"Bir şeyin var olmasını istədiyi zaman, onun (Allahın) əmri ona ancaq: "Ol!" – deməkdir. O da dərhal olar (heç bir alətdən istifadə etmədən, Allahın, məhz, iradə və istəyi ilə var olar, sanki, ona "ol"***

---

*1. «Biharul-ənvar», c.65, səh. 346.*

***demiş, o da olmuşdur).”***

Ayədəki məqsəd “təkvini” iradədir. Həqiqətən, Allah çox qüdrətli və qüvvət sahibidir. O, əgər yaşadığımız bu qəribə aləmin – alimlərin dediyinə əsasən, günəş yer kürəsindən bir milyon iki yüz min dəfə böyükdür və günəş sistemində bir milyard ulduz mövcuddur ki, onların orta həddə olanı günəş böyüklüyündədir və bu, sadəcə günəş sistemində olanlardır – oxşarını yaratmağı iradə etsə, kifayətdir ki, ona yaranmasını əmr etsin və o da dərhal yaransın:

**اَلْعَظَمَةُ للهِ الْواحِدِ الْقَهّار** [1]

Allahın “təkvini” və “təşrii” iradəsi ilə tanış olduğumuza görə, ayədə hansı iradə nəzərdə tutulmuşdur? Görəsən, Allah Əhli-beytin (ə) pislik və çirkinliklərdən uzaqlaşaraq pak olmasını istəmişdir, yoxsa, onun (Allahın) özü onları çirkinlik və pisliklərdən paklamış və təmiz etmişdir?

***Cavab:*** Şübhəsiz ki, məqsəd “təkvini” iradədir. Çünki təqva və pak olmaq əmri təkcə Əhli-beytə (ə) məxsus deyil, əksinə ümumi bir göstərişdir və bütün müsəlmanlara şamildir. Amma əvvəl də dediyimiz kimi, **إنمـا** sözünün tələbi hansısa yeni bir məsələnin digər müsəlmanlara şamil olması deyil, Əhli-beytə (ə) məxsus olmasıdır. Deməli, Allah-taala özünün “təkvini” iradəsi ilə Əhli-beytin (ə) vücudunda ismət adlı bir qüvvə yerləşdirmişdir ki, onun vasitəsi ilə çirkinlik və pisliklərdən çəkinir və günahlardan amanda qalırlar.

***Sual:*** Əhli-beytə (ə) bəxş edilən ismətin məcburiyyət yönü vardırmı? Başqa sözlə, onlar ixtiyarsız şəkildə günahdan çəkinir və qeyri-iradi olaraq Allahın göstərişlərinə itaət edirlər? Əgər günah etmək istəsələr, günah edə bilməzlərmi?

Əgər belə olarsa, ismət məqamı heç də iftixar sayılmır. Məsələ bu cür deyilsə, onda, nədən ibarətdir?

***Cavab:*** Mahal (qeyri-mümkün) məsələlər iki cürdür: 1. Əqli mahal, 2. Adi mahal.

“Əqli mahal” gerçəkləşməsi mümkün olmayan məsələlərdir. Məsələn, eyni anda həm gecə, həm də gündüzün olması, sizin mütaliə etdiyiniz kitabın eyni zamanda həm dörd yüz, həm də beş yüz səhifə olması kimi. Bu, əqlən mahal bir məsələdir. Deməli, bir-birinə zidd olan iki məsələnin (hadisənin və s.) bir yerdə cəm olması əqli mahaldır.[2]

---

*1. Əzəmət və böyüklük yeganə və qalib olan Allaha məxsusdur.*

*2. Bu məntiqi terminlə daha ətraflı məlumat əldə etmək üçün Şəhid Mütəhhərinin yazmış olduğu “İslami elmlərlə tanışlıq, məntiq və fəlsəfə” kitabının 65-ci səhifəsindən sonrakı hissəsinə müraciət edin.*

Bəzən də əqli cəhətdən bir şeyin baş verməsi mümkündür, amma o, həyata keçmir. Məsələn, hansısa bir ağıllı insan çılpaq halda küçədə gəzməyi qəbul edə bilməz. Bu məsələ əqli baxımdan mümkün, amma adətən, mahaldır. Beləliklə, hamının həmin məsələyə nisbətdə isməti vardır. Yəni, bütün insanlara verilən əql və şüur onların bu şəkildəki işlərə mürtəkib olmamasına yardımçı olur, həmçinin, bəzi günahdan çəkinmələrini də təmin edir ki, ismətin cüzi bir qismini təşkil edir.

Diqqət etdikdə, bəzi insanların digərləri müqabilində cüzi də olsa ismətə malik olduğunu və günahlara mürtəkib olmasının qeyri-mümkünlüyünü anlayacağıq. Məsələn, hansısa tanınmış ruhaninin Ramazan ayının iyirmi birində məcciddə mehrabın önündə səccadədə oturduğu halda, hamının gözü önündə şərab içməsi (bu məsələ mahaldır). Əlbəttə, əqli mahal deyil, amma belə bir şəxs üçün adətən, mahal bir məsələdir, çünki onun məqam, mövqe və şəxsiyyəti belə bir işə mürtəkib olmasına mane olur.

Məsum imamlar (ə) onlar üçün əqli cəhətdən günah və xətaya mürtəkib olmaq imkanının olmasına baxmayaraq, – bu işlər adətən, mahaldır – onlar bütün günah və xətalar qarşısında məsumdurlar. Çünki onların günahlar müqabilindəki elm, mərifət və təqvası adi insanlarda olduğu kimi deyil və günah onlar üçün evdən çölə çılpaq şəkildə çıxmaq kimidir. Yəni, adi insanların həmin günahlara nisbətdə ismət məqamı olduğunu nəzərə aldıqda, məlum olur ki, məsum imamların (ə) da bütün günahlar müqabilində ismət məqamı vardır və əqlən bu iş mümkün olsa da, onların günah etməsi mahaldır.

Deməli, ismət icbari bir məsələ deyil ki, ixtiyarı məsumların əlindən alaraq onların əməllərini dəyərdən salmış olsun. Nəticədə, ayədəki Allahın iradəsinin "təkvini" iradə olduğu və ismətin məsumların ixtiyar və iradəsini aradan qaldımadığı və onların günahı məcburi çəkildə tərk etmələrinə səbəb olmadığı, əksinə o böyük şəxsiyyətlərin öz ixtiyarları ilə günahlardan çəkindikləri məlum olur.

3. **الرجس** (Ər-rics) – "Rics"də məqsəd nədir? "Rics" sözü "pislik" və "çirkinlik" mənasındadır. Bu söz bəzən zahiri və maddi olan çirkinliklər, bəzən də batini çirkinliklər barəsində işlədilir. Bəzən də hər iki mənada istifadə edilir. Rağib İsfahani özünün "Müfrədat" əsərində bu məsələyə toxunmuşdur.

Yuxarıdakı sözün işlədildiyi üç halla bağlı Qurandan ayələri şahid gətiririk:

***a) Mənəvi çirkinliklər*** – "Tövbə" surəsinin 125-ci ayəsində buyurulur:

وَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ فَزادَتْهُمْ رِجْساً إِلَى رِجْسِهِمْ وَماتُوا وَهُمْ كافِرُونَ

***"Qəlblərində (şirk, küfr və nifaq) xəstəliyi olanlara gəldikdə isə, (Allah) onların çirkinliklərinin (pisliklərinin) üstünə daha bir çirkinlik artırdı və onlar kafir olduqları halda öldülər."***

**فِي قُلُوبِهِمْ مَرَض** – (Qəlblərində xəstəlik olanlar) ifadəsi adətən, münafiqlər barəsində işlədilir və həqiqətən də, nifaq bir xəstəlikdir, yoxsa, insan ya sadəcə Allahın əmrlərini qəbul edərək müsəlman olar, ya da onları rədd edərək kafir. Amma İslamı zahirdə qəbul edərək ona əməl etmək, lakin qəlbdə etiqadlı olmamaq münafiq və ikiüzlülükdür ki, xəstəlik hesab olunur. Bu ayədə "rics" sözü "mənəvi pislik" mənasındadır. Çünki nifaq zahiri deyil, bir növ, mənəvi pislik və aludəlik hesab edilir.

***b) Zahiri çirkinlik*** – "Ənam" surəsinin 145-ci ayəsində Allah-taala buyurur:

قُلْ لاَ أَجِدُ فِي مَآ أُوحِيَ إِلَيَّ مُحَرَّماً عَلَى طَاعِمٍ يَطْعَمُهُ إِلاّ أَنْ يَكُونَ مَيْتَةً أَوْ دَماً مَسْفُوحاً أَوْ لَحْمَ خِنْزِيرٍ فَإِنَّهُ رِجْسٌ...

***"De: "Mənə gələn vəhylərin içərisində yemək istəyən şəxsə murdar olduqları üçün ölü heyvan, (heyvanın damarlarından) tökülmüş qan və donuz ətindən, yaxud itaətsizlik üzündən Allahdan başqasının (istər bütlərin, istərsə də bütlərdən başqa, digər şeylərin, hətta, müqəddəs hesab edilən şeylərin) adı çəkilərək kəsilmiş heyvandan başqa, bir haram (yemək) tapmıram.""***

Ayədəki "rics" sözünün zahiri "murdarlıq" və "pisliklər" mənasında olduğu məlum məsələdir.

***c) Mənəvi və zahiri cirkinlik və pisliklər*** – "Maidə" surəsinin 90-cı ayəsində "rics" sözü hər iki mənada işlədilmişdir:

يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْخَمْرُ وَالْمَيسِرُ وَالأَنْصابُ وَالأَزْلامُ رِجْسٌ مِنْ عَمَلِ الشَّيطانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

***"Ey iman gətirənlər, həqiqətən şərab, qumar və asılmış bütlər (ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları nəcis və murdardır və şeytanın ixtiralarındandır. Buna görə də, onlardan çəkinin, bəlkə, nicat tapasınız."***

Yuxarıdakı ayədə "rics" sözü həm mənəvi, həm də zahiri cirkinlik və pislik mənasındadır. Şərab zahiri çirkinlik və pislik mənasındadır, amma qumar isə mənəvi pislik və aludəliyi bildirir. Nəticədə, "rics" sözünün ümumi mənada işlənərək hər cür əxlaqi, mənəvi, zahiri,

cismani və ruhi (psixoloji) çirkinliklərə şamil olduğu məlum olur. Deməli, “Təthir” ayəsində Allah-taala “təkvini” iradəsi ilə hər cür çirkinlik və pislikləri (onun bütün mənası ilə) Əhli-beytdən (ə) uzaqlaşdıraraq onları paklaşdırdığını bildirir. Bizim bu barədəki dəlilimiz ayədəki “rics” sözünün heç bir qeyd və şərtə istinad edilmədən işlədilməsi və mütləq şəkildə bəyan edilməsidir ki, bütün çirkinlik və pisliklərə şamil olur.

وَيُطَهِّرَكُمْ تَطْهِيرًا – Bu cümlə, həqiqətdə, əvvəlki cümlənin (لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ) təkid və təfsiri üçündür.

Qeyd edilən ayəyə uyğun olaraq, Əhli-beyt (ə) Allahın “təkvini” iradəsi ilə hər cür çirkinlik və pisliklərdən uzaq və pak, həmçinin, mütləq ismət məqamına malikdirlər.

### *Əhli-beyt (ə) kimlərdir?*

“Təthir” ayəsindən istifadə edərək Əhli-beytin (ə) digər müsəlmanlarda olmayan mütləq ismət və təharət (paklıq) kimi xüsusiyyətlərə malik olduğunu anladıq. Amma indi belə bir sual meydana çıxır ki, Əhli-beyt (ə) kimdir?

Cavab: Əhli-beytin (ə) kim olması barədə müxtəlif nəzəriyyələr mövcuddur və indi onların dördünə diqqət yetirin:

1. Əhli-sünnənin bəzi təfsirçiləri Əhli-beyti (ə) Peyğəmbərin (s) qadınları kimi təfsir etmişlər.[1] Həmin təfsirə əsasən, həzrət Əli (ə), xanım Fatimə (ə), imam Həsən (ə) və imam Hüseyn (ə) Əhli-beytdən (ə) deyillər. Başqa sözlə, Əhli-beyt (ə) Peyğəmbərin (s) səbəbi (evlənməklə yaranan) qohumlarındandır və nəsəbi (əvvəlcədən qohumluq əlaqələri olan (məsələn, əmi, dayı və s. kimi)) qohumlar Əhli-beytdən (ə) hesab edilmirlər. Onların bu barədəki dəlilləri “Təthir” ayəsinin qadınlarla bağlı olan ayələin ortasında yerləşməsi və ondan əvvəl və sonrakı ayələrin qadınlara aid olmasıdır. Beləliklə, ayənin düzülüşü Əhli-beytin (ə) qadınlara şamil edilməsini tələb edir.

Bu nəzəriyyə üç dəlilə əsasən, batildir:

***Birinci dəlil:*** Əvvəldə də bildirdiyimiz kimi, “Təthir” ayəsindən qabaqkı beş ayədə və “Əhzab” surəsinin 32-ci ayəsində (“Təthir” ayəsi bu ayədən sonradır) cəmi iyirmi beş əvəzlik və fel işlədilmişdir ki, qadınlara məxsusdur, amma “Təthir” ayəsində işlədilən əvəzlik və fellərin hamısı kişilərə mənsubdur və onda sadəcə iki dənə qadınlara aid əvəzlik və feldən istifadə edilmişdir ki, həm kişi, həm də qadına aid

*1. Qurtubi özünün «Furqan» təfsirinin 6-cı cildi, səh. 5264-də bu nəzəriyyəni Zicacdan nəql edir.*

ola bilir. Həmçinin, həmin əvəzliklərin təkcə qadınara şamil olmadığı qəti bir məsələdir. Nəticədə, Quran Allah-talanın sözü olduğundan, ən kamil və fəsahətli cümlələrə malikdir, eyni zamanda, əvvəli və sonu qadınlara aid olan ayənin ortasında yerləşdirilən "Təthir" ayəsinin nazil edilməsi və əvəzlik və fellərin kişilərə mənsubluğu ayədəki məqsədin Peyğəmbərin (s) qadınları deyil, başqaları olduğunu sübuta yetirir, çünki Allah həmin ayələri digərlərindən fərqləndirmişdir. Beləliklə, söylədiklərimizdən ayədəki Əhli-beytdə (ə) məqsədin Peyğəmbərin (s) qadınları olmadığı və onu digər şəxslər arasında dəlil-sübuta əsaslanaraq araşdırmağın zəruriliyi məlum olur.

***İkinci dəlil:*** "Təthir" ayəsinin təfsir və şərhlərinə əsasən, Əhli-beytin (ə) mütləq ismət məqamına sahib olması da həmin əqidənin batilliyini sübut edir, bundan əlavə, şiə və ya əhli-sünnə alimlərindən hansı biri Peyğəmbərin (s) qadınlarının ismət məqamına sahib olduğunu söyləmişdir?

Peyğəmbərin (s) qadınlarının, adətən, yaxşı insanlar olduğunu deməkdən əlavə, onlardan bəzilərinin, nəinki, ismət məqamına sahib olduğunu söyləmək olmaz, əksinə dəlil və sübutlara istinad edərək böyük günahlara da mürtəkib olduqlarını bildirmək olar. Bir nümunəni diqqətinizə çatdırırıq:

Əli ibn Əbu Talib (ə) həm Allah tərəfindən təyin edilmək, həm də camaatın rəyi ilə seçilmək – özü də üç əvvəlki xəlifənin seçilməsindən fərqli bir şəkildə olan seçilmək – imtiyazına malik olan yeganə xəlifədir. Birinci xəlifə məhdud və xüsusi adamların vasitəsi ilə Bəni-Saidə Səqifəsində seçilmiş və camaat onunla beyət etmək məcburiyyətində qalmışdı. İkinci xəlifə isə birinci xəlifənin təyini ilə və üçüncü xəlifə isə altı nəfərdən ibarət qeyri-münsif bir şuranın üç üzvünün verdiyi səslə seçilmiş və idarəçiliyi öz əlinə almışdır. Amma camaatin ümumi hissəsi öz razılığı və daxili meyil və istəyi ilə həzrət Əliyə (ə) tərəf gəlmiş və onunla beyət etmişdir. Onunla beyət etmək istəyən camaatın izdihamı o qədər çox olmuşdur ki, həzrət buyurmuşdur: "Mən Həsən (ə) və Hüseynin (ə) camaatın ayağı altında qalıb əzilməsindən qorxuya düşdüm."[1]

Amma Peyğəmbərin (s) qadınlarından birinin o həzrətin haqq olan xəlifəsi ilə müxalifət edərək öz beyətini pozması və Peyğəmbərin (s) öz qadınlarına ölümündən sonra evdən çölə çıxmaması barədə göstəriş verməsinin əksinə olaraq, onun Mədinədən xaric olaraq dəvəyə minməsi və Bəsrəyə tərəf hərəkət etmsinin şahidi oluruq. O, Həvəb adlı yerə çatanda, itlərin hürmək səsini eşidir və Peyğəmbərin (s) belə

*1. "Nəhcül-bəlağə", xütbə 3 ("Şiqşiqiyyə" xütbəsi).*

buyurduğunu xatırlamağa başlayır: "Sizlərdən biri dəvəyə minərək Mədinədən xaric olacaq və Həvəb adlı yerə çatdıqda, itlərin hürmək səsini eşidəcək. O, bu zaman Allahın dinindən çıxmışdır."

Həmin yerin adını soruşduqda, ona bu yerin Həvəb olduğunu bildirirlər. O, qayıtmaq istədikdə, "Cəməl" döyüşünün təçkilatçıları onu aldadaraq yoluna davam etməsinə səbəb olurlar.[1]

Görəsən, Peyğəmbər (s) və onun xəlifəsinin göstərişi ilə müxalifət edərək Peyğəmbər (s) xəlifəsi ilə müharibə aparan və on yeddi mindən artıq müsəlmanın qanının tökülməsinə bais olan bir qadın məsum və bütün pisliklərdən uzaqdırmı? Maraqlı burasındadır ki, onun özü bu hadisəyə etiraf etmiş və ondan "Bu döyüşün ("Cəməl" döyüşü) başlanmasına səbəbkar kimdir və tökülən qanların məsuliyyəti kimin öhdəsinədir?" – deyə soruşduqda, təkcə təəssüfləndiyini bildirərək bunu "ilahi təqdir" hesab etmiş və demişdir ki, kaş ki, bu hadisələr baş verməyəydi!

Ayişənin özünün bu səhvə etiraf dərək "təlafi edilməsinin qeyri-mümkünlüyü"nü söyləməsini əhli-sünnənin bəzi təəssübkeş alimləri ictihad kimi dəyərləndirmiş və bu işin yanlış və bağışlanmazlığını qəbul etməmişlər.

Görəsən, bu cür düşünmək doğrudurmu? Allah Peyğəmbərinin (s) həqiqi xəlifəsi və Ayişənin özünün dediyi kimi, "O, camaatın ən yaxşısıdır və kim ona qəlbində düşmənçilik və qəzəb bəsləsə, kafirdir!" – bu xüsusiyyətlərə malik olan şəxs müqabilində ictihad etməsi nə dərəcədə doğrudur? Əgər bu məsələni ictihad kimi qiymətləndirsək, onda, heç bir günahkar öz günahını qəbul etməz və pis əməlini özünə ictihad ünvanında aşılamağa başlayar.

Nəticədə, "Cəməl" döyüşünün təşkilatçılarına heç bir halda məntiqi şəkildə haqq verilə bilməz və ona səbəb olan şəxslər, şübhəsiz ki, günahkar və xətakarlardırlar, həmçinin, onları pak, tahir və pisliklərdən uzaq hesab etmək olmaz.

***Üçüncü dəlil:*** Gələn bəhslərimizdə də bildirəcəyimiz kimi, əhli-sünnə və şiədən nəql edilən çoxlu sayda rəvayətlər var ki, Əhli-beytin (ə) Peyğəmbərin (s) qadınları deyil, əksinə, Peyğəmbər (s), həzrət Əli (ə), xanım Fatimə (ə), imam Həsən (ə) və imam Hüseyn (ə) olduğunu bildirir.

2. İkinci nəzəriyyədə Əhli-beytdəki (ə) məqsədin, şəxsən, İslam Peyğəmbəri (s), həzrət Əli (ə), xanım Fatimə (ə), imam Həsən (ə) və imam

*1. İbn Əbil Hədid, "Nəhcül-bəlağənin şərhi", c.6, səh. 225 ("Nəhcül-bəlağənin tərcümə və şərhi" əsəri, c.1, səh. 403-dən nəqlən).*

Hüseyn (ə), eyni zamanda, Peyğəmbərin (s) qadınları olduğu bildirilir.[1] Bu nəzəriyyəyə əsasən, birinci nəzəriyyəyə tutulan iradlardan birincisi aradan qalxmış olur, çünki qadın və kişi əvəzliklərinin arasından xitab edilənin kişilər olduğunu söyləmək olar, amma digər iki irad (onun şərhi birinci nəzəriyyətə tutulan iradda verildi) Peyğəmbərin (s) qadınları ilə bağlı burada da keçərlidir və bu nəzəriyyəni də qəbul etmək olmaz.

3. Əhli-sünnədən olan digər təfsirçilər Əhli-beytin (ə) Məkkə sakinləri olduğunu bildirərək demişlər: "**البيت** (Əl-beyt) sözündə məqsəd Allahın evi olan Kəbədir və nəticədə, "Əhli-beyt" sözü Məkkə sakinlərinə şamildir."

Əlbəttə, bu nəzəriyyənin də batilliyi gün kimi aydındır və əvvəlki nəzəriyyəyə tutulan iki irad burada da bəyan edilir. Məkkə əhalisinin Mədinə camaatına nisbətdə heç bir imtiyazı olmadığı halda, necə ola bilər ki, Allah fəqət onları günah və çirkinlikdən pak etmiş olsun?

4. Dördüncü nəzəriyyə şiənin bütün alimlərinin nəzəriyyəsidir və yuxarıda qeyd edilən iradlardan heç biri ona şamil olmur. Həmin nəzəriyyədə Əhli-beytdə (ə) məqsədin Peyğəmbər (s) xanədanından olan xüsusi şəxlər, yəni həzrət Əli (ə), xanım Fatimə (ə), imam Həsən (ə), imam Hüseyn (ə) və onların da başında Peyğəmbər (s) olduğu bildirilmişdir. Bu nəzəriyyənin doğruluğuna şahid birinci nəzəriyyəyə tutulan iradlardan heç birinin həmin nəzəriyyəyə şamil olmamasıdır. Bundan əlavə, dördüncü nəzəriyyəyə dəlalət edən çoxlu sayda rəvayətlər də mövcuddur. Əllamə Təbatəbai "Əl-Mizan" təfsirində həmin rəvayətlərin sayının yetmişə çatdığını qeyd etmişdir.[2] Maraqlı burasındadır ki, həmin rəvayətlərin əksəriyyəti əhli-sünnənin mənbələrində nəql edilib. Həmin mənbələr bunlardır:

***1. "Səhih Müslim"***[3]– Əhli-sünnənin ən mötəbər hədis kitablarındandır.

***2. "Səhih Tirmizi"***[4] – Altılıq təşkil edən kitablardan biridir.

***3. "Əlmustədrəku ələs-səhihəyn"***[5]

***4. "Əs-Sünənil-kubra lil-Beyhəqi"*** [6] – bu kitabın fiqhi rəvayətlərlə

*1. "Ət-Təfsirul-kəbir", c.25, səh. 209.*

*2. "Əl-Mizan" təfsirinin tərcüməsi, c.32, səh. 178.*

*3. "Səhih Müslim", c.4, səh. 1883, hədis 2424 ("Quranın mesajları", c.9, səh. 143-dən nəql edilməklə).*

*4. "İhqaqul-həqq", c.2, səh. 503.*

*5. "Əl-Mustədrəku ələs-səhihəyn", c.2, səh. 416 ("İhqaqul-həqq", c.2, səh. 504-də nəql edilənlərə istinadən).*

*6. "Əs-Sünənil-kubra", c.2, səh. 149.*

bağlı olmasına baxmayaraq, onda qeyri-fiqhi rəvayətlər də mövcuddur.

***5.*** Süyutinin ***"Əd Durrul-Mənsur"*** [1]əsəri.

***6.*** Həkim Həskani Nişapurinin ***"Şəvahidut-tənzil"*** [2] əsəri.

***7. "Müsnəde Əhməd"***.[3]

Beləliklə, Əhli-beytin (ə) beş nəfər olduğunu söyləyən rəvayətlər həm sayca çoxluq təşkil edir, həm də həmin rəvayətlər əhli-sünnənin mötəbər mənbələrində qeyd edilmişdir.

Fəxri Razi bu rəvayətlərin say çoxluğu və onun hansı dərəcədə mötəbər olması barədə maraqlı bir etiraf etmişdir. O, "Mübahilə" ayəsinin ("Ali-İmran" surəsi, ayə 61) təfsiri barədə belə yazır:

**واعلم ان هذه الرواية كالمتفق على صحتها بين اهل التفسير والحديث**

***"Əhli-beyin (ə) kim olmasını təfsir edən bu rəvayət hədis və təfsir əhli alimlərin nəzərində etibarlı və düzgün olan rəvayətdir."***[4]

Nəticədə, Əhli-beytin (ə) kimliyini təfsir edən rəvayətlərin sayca çox və etibarlı olmasını anlayırıq. Həmin rəvayətlərin arasından bir hədisi, yəni "Hədise kisa"nı ("Kisa" hədisini) xatırlatmaqla kifayətlənirik.

"Kisa" hədisi iki şəkildə nəql edilmişdir:

1. Müfəssəl (geniş).

2. Müxtəsər (qısa).

Müfəssəl olan və xəstələrin şəfası, çətinlik və problemlərin həlli üçün oxunan "Kisa" hədisi mütəvatir deyil. Amma müxtəsər şəkildəki "Kisa" hədisi mütəvatir şəkildədir və məzmunu aşağıdakı kimidir:

"Günlərin birində Peyğəmbərə (s) müəyyən ölçüdə bir parça gətirdilər. O həzrət Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynin (ə) arxasınca adam göndərərək onları yanına çağırdı və Peyğəmbər (ə) özü ilə birlikdə parçanı onların üzərinə çəkdi və sonra buyurdu:

**اَللّهُمَّ إِنَّ هؤُلاءِ أَهْلُ بَيْتي وَخاصَّتي اَذْهِبْ عَنْهُمُ الرِّجْسَ، فَنَزَلَ جِبْرَئيلُ إِنَّما يُريدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهيراً**

***"İlahi! Bunlar mənim əhli-beytimdir. Pislik və çirkinlikləri onlardan uzaqlaşdır. Sonra Cəbrayıl nazil olaraq "Təthir" ayəsini gətirdi.""***

Əhli-sünnənin kitablarında bu rəvayətdən sonra belə bir cümlə qeyd edilmişdir: "Ümmü Sələmə Peyğəmbərdən (s) ona da parçanın altına girməsinə və əhli-beytə qoşulmasına icazə verməsini istədikdə,

---

*1. "Durrul-mənsur", c.5, səh. 198.*

*2. "Şəvahidut-tənzil", c.2, səh. 10-92.*

*3. "Müsnəde Əhməd", c.1, səh. 330; c.4, səh. 107; c.6, səh. 292 ("Quranın mesajları", c.9, səh. 144-də nəql edilənlərə istinadən).*

*4. "Təfsire Fəxri Razi", c.8, səh. 80.*

Peyğəmbər (s) buyurur: "Sən yaxşı insansan, amma əhli-beytdən deyilsən.""[1] Başqa bir hədisdə həmin məsələ Ayişə barəsində də nəql edilmişdir.[2]

Bu rəvayətlərdən əldə edilən nəticə, Əhli-beytin (ə) beş nəfərdən ibarət olmasıdır.

***Sual:*** Bu işin fəlsəfəsi nədən ibarətdir? Nə üçün Peyğəmbəri-Əkrəm (s) onları parçanın altına salaraq həmin gözəl cümlələri Əhli-beyt (ə) barədə buyurdu? Ümmü Sələmə və Ayişəyə parçanın altına girməyə nə üçün icazə vermədi?

***Cavab:*** Peyğəmbərin (s) belə bir addım atmasına səbəb onun Əhli-beyti (ə) digərlərindən ayırmaq istəməsidir. O həzrət istəyirdi ki, Əhli-beyti (ə) hamıya elə bir şəkildə tanıtsın ki, həmin şəxslər barəsində nə onun öz zamanında, nə də gələcəkdə heç kəs qəsdən və bilməyərəkdən Əhli-beyti (ə) başqa şəxslərə şamil etməsin və onlar barəsində heç bir qaranlıq məsələ və tutula bilən irad qalmasın. Bu cəhətdən, Peyğəmbər (s) həmin məsələ ilə kifayətlənməmiş və müxtəlif mənbələr, o cümlədən, "Şəvahidut-tənzil" əsərində qeyd olunan (Peyğəmbərin (s) xüsusi xadimi Ənəs ibn Malikdən nəql edilən) rəvayətə əsasən, bu hadisədən sonra hər gün sübh namazından sonra və camaat namazlıarından qabaq həzrət Əli (ə) və Fatimənin (ə) qapısı önündə dayanaraq belə buyurmuşdur:

**اَلصَّلاةَ يـا أَهْلَ الْبَيْتِ إِنَّمـا يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتَ وَيُطَهِّرَكُمْ تَطْهِيراً**

***"Namaz vaxtıdır ey Peyğəmbərin əhli-beyti! Həqiqətən, Allah (təkvini iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) pisliyi təmizləmək və sizi bütün pisliklərdən pak etmək istəyir."***

O həzrət bu işi altı ay davamlı olaraq təkrar etmişdir.[3] Yuxarıda qeyd etdiyimiz rəvayət Əbu Səid Xudridən də nəql edilmişdir. O deyir: "Peyğəmbər (s) səkkiz ay hər gün sübhlər bu işi davamlı olaraq yerinə yetirirdi."[4]

Peyğəmbərin (s) bu müddətdən artıq həmin işi davam etdirdiyini, amma Ənəs ibn Malikin altı ay və Əbu Səid Xudrinin isə səkkiz aydan artıq görmədiyini düşünmək mümkündür.[5]

---

*1. "Şəvahidut-tənzil", c.2, səh. 24-31.*

*2. Həmin mənbə, səh. 37-38.*

*3. "Şəvahidut-tənzil", c.2, səh. 11-15.*

*4. Həmin mənbə, səh. 28.*

*5. Əbu Səid Xudridən bu müddətin doqquz ay olduğu da nəql edilmişdir. "Şəvahidut-tənzil", c.2, səh. 29-a müraciət edin.*

Deməli, Peyğəmbərin (s) bu əməlindəki məqsəd Əhli-beyti (s) tamamilə digərlərindən ayırmaq və onun misdaq və nümunəsinin təkcə həmin şəxslərə mənsub olduğunu bildirməkdir. O həzrətin buna kamil bir şəkildə nail ola bildiyi aydın məsələdir. Peyğəmbərin (s) digər bir məsələ ilə bağlı bu qədər isarar və təkid etdiyi heç bir yerdə görülməmişdir. Belə olan halda, Əhli-beytin (ə) başqa şəxslər olduğunu söyləməyimiz insafsızlıq deyilmi?

Görəsən, nə üçün gün kimi aydın olan bu məsələ ilə əlaqədar yanlış yolda olur və digərlərini də giriftarçılığa düçar edirlər? Bu sualın da cavabı aydındır və o, şəxsi düşüncəyə əsasən təfsir etmənin insanların gözündə onların həqiqətləri görməsinə mane olan qalın bir maneənin (pərdənin) yaranması səbəb olmasıdır. Təəssüflər olsun ki, bu maneə o qədər qalındır ki, günün işiğını da görə bilmir, ya da qəbul etmək istəmirlər.

İlahi! Biz həmişə sənin hidayət və yol göstərməyinə möhtacıq. Bizi bir an belə olsa, öz hidayət nurundan məhrum etmə. İlahi! Bizə Quranın təfsiri və din maarifi, həmçinin, həqiqətlərə yetişməkdə yardımçı ol!

## *Bir neçə suala cavab*

“Təthir” ayəsi ilə bağlı müxtəlif suallar verilmişdir. Biz onlardan bəzi nümunələri diqqətinizə çatdıraraq həmin suallara cavab veririk:

***Birinci sual:*** “Təthir” ayəsinin heç olmasa, Əhli-beytin (ə) yəni Əli (ə), Fatimə (ə), Həsən (ə), Hüseyn (ə) və onların da başında Peyğəmbərin (s) ismət və məsumluğuna, dəlaləti var, amma yuxarıdakı ayənin “vilayət” və “imamət” məsələsi ilə heç bir irtibat və əlaqəsi yoxdur. Başqa sözlə, bizim bəhsimiz Əmirəl-mömininin (ə) “vilayət” və “imamət”inə dəlalət edən ayələr barəsindədir və yuxarıdakı ayə bu məsələyə deyil, əksinə Əhli-beytin (ə) ismətinə dəlalət edir. Siz nə üçün həmin ayəyə istinad edirsiniz?

***Cavab:*** Əgər Əhli-beytin (s) ismət məqamı sübuta yetirilsə, imamət məqamı da sübuta yetirilmiş olacaq. Əvvəldə deyildiyi kimi, itaət edilməli olan imam qeydsiz-şərtsiz bildirilmiş və ona itaətin vacibliyində də heç bir şərt nəzərdə tutulmamışdır. Əlbəttə, məsum olmayan imama mütləq şəkildə itaət etməyin mümkün olmadığını bildiyimizə görə, imamın məsum olması zəruridir. Bundan əlavə, imamın təyin edilməsi və ya seçilməsindən söhbət düşdüyündə, məsum imam olduğu zaman, digər şəxsin ardınca getmək düzgün deyil.

Həzrət İbrahimlə bağlı olan “Bəqərə” surəsinin 124-cü ayəsində Allah-taalanın ona “Ulul-əzm”, “Xəlil”, “Peyğəmbər” məqamlarını

bəxş etdikdən və onu bir sıra çətin imtahanlardan keçirdikdən sonra "imamət" məqamına layiq gördüyü bildirilir. Eyni zamanda, o həzrətin bu məqamı onun nəsil və zürriyyələrinə də (gələcək övladlarına) bəxş etməsi istəyinə aşağıdakı kimi cavab verir:

لا يَنالُ عَهْدى الظَّالِمينَ

***"Mənim əhdim zalımlara şamil olmaz."***

Beləliklə, Allah isməti imamətin ayrılmaz bir hissəsi olduğunu bildirərək bundan əvvəl zülmə mürtəkib olanlara həmin məqamın nəsib olmayacağını vurğulayır.

***İkinci sual:*** Biz hər bir imamın məsum olduğunu qəbul edirik, amma hər bir məsum imamdırmı? Bəyəm, xanım Zəhra (ə) məsum deyildimi, bəs, nə üçün o, imam seçilmədi?

***Cavab:*** Qadınlar arasında ismətə malik olmaq onların imam olmasını zəruri etməz. Amma kişilər arasında məsumluq zərurət təşkil edir və biz yer üzündə kişilər arasında Peyğəmbər (s) və imamlardan (ə) başqa, məsum olan bir şəxsi tanımırıq.

***Üçüncü sual:*** Əvvəlki bəhslərdə "Təthir" ayəsindən öncə və sonrakı ayələrdə işlənən əvəzlik və fellərin qadınlara məxsus olduğu, amma həmin ayədəki əvəzlik və fellərin kişilərə mənsub olaraq fərqli şəkildə gətirilməsi xitab edilən kəslərin Peyğəmbərin (s) qadınları olması fikrini aradan qaldırdığı söylənmişdi.

Halbuki, əvəzlik və fellərin bu şəkildə gətirildiyini göstərən ayələrin olmasına baxmayaraq, həmin əvəzliklər qadına da şamil edilir. Məsələn, həzrət İbrahimə (ə) qoca yaşında övlad verilməsi ilə bağlı ayədə işlədilən əvəzliklər onun qadınına da şamildir və ona da xitab edilmişdir.

"Hud" surəsinin 73-cü ayəsində oxuyuruq:

قـالُوا أَتَعْجَبينَ مِنْ أَمْرِ اللهِ رَحْمَتُ اللهِ و بَرَكـاتُهُ عَلَيْكُمْ أَهْلَ الْبَيْتِ إِنَّهُ حَميدٌ مَجيدٌ

***"(Mələklər) dedilər: "Allahın rəhməti və onun bərəkətləri sizin ailənizə olduğu halda, Allahın əmrinə (işinə) təəccüb edirsən?! Həqiqətən, o, sifət və işləri mədh edilmiş, ümumi lütf və mərhəmət sahibidir." (Allahın bütün işləri bəyənilmişdir. O, tükənməz və əvəzsiz nemət, ehsan və kərəm sahibidir!)."***

Bu ayəyə uyğun olaraq, həzrət İbrahimin arvadına kişilərə mənsub olan əvəzliklə **(عليكم)** "ələykum" deyə xitab edilmişdir.

***Cavab:*** Əllamə Təbatəbai[1] və digərlərinin də dediyi kimi, Quran

---

*1. «Əl-Mizan» təfsirinin tərcüməsi, c.32, səh. 179.*

ayələrinin hamısı bir yerdə nazil edilməmişdir. Hətta bəzən bir ayənin cümləsi bir dəfə də təkrar olunmurdu. Ayələr baş verən hadisələr və tələbatlara əsasən nazil edilirdi. Beləliklə, müəyyən bir zamanda ayələrin bu şəkildə nazil edilməsi və xitabının Peyğəmbərin qadınları olması, "Kisa" hədisinin baş verməsi və Peyğəmbərin (s) Əhli-beytlə (ə) bağlı hacətlərini Allahdan diləməsi və "Təthir" ayəsinin göndərilməsi və onun ardınca xüsusi məsələlər və hadisələrlə bağlı ayənin nazil edilməsi də mümkündür. Nəticədə, Quranın bütün ayələrinin bir-biri ilə irtibat və bağlılığa malik olması zəruri deyil.

Beləliklə, "Təthir" ayəsinin həm Əhli-beytdən (ə) olan beş nəfərin ismətini bildirdiyi, həm də Əmirəl-möminin Əlinin (ə) vilayətinə aid olduğu aydın olur.

## 2 “MƏVƏDDƏT” (MƏHƏBBƏT) AYƏSİ

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى وَمَن يَقْتَرِفْ حَسَنَةً نَّزِدْ لَهُ فِيهَا حُسْنًا إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

***“(Ey Peyğəmbər!) De: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa, bir şey istəmirəm. Kim yaxşı bir iş görərsə, onun yaxşılığının savabını (mükafatını) artırarıq!” Həqiqətən, Allah bağışlayan və qədirbiləndir! (Şükrün, itaətin və gözəl əməllərin əvəzini verəndir!).”***

*“Şura” surəsi, ayə 23*

### *Bəhsə qısa bir nəzər*

Əhli-sünnə alimləri bu ayəni də şəxsi nəzər və düşüncəyə əsasən təfsir etməyə mübtəla olaraq, insanda təəccüb doğuracaq nəzəriyyələr irəli sürmüşlər. Biz bəhsin davamında ona toxunacağıq. Amma şiə alimləri ayəni Əhli-beyt (ə) məktəbi sayəsində daha aydın və yaxşı təfsir etmişlər.

### Əvvəlki ayələrə bir baxış

"Məvəddət" ayəsinin təfsirinin aydın olması üçün əvvəlki ayə (yəni "Şura" surəsinin 22-ci ayəsi) və bu ayənin əvvəlində qeyd edilənlər barədə (biz onu ayənin əvvəlində qeyd etməmişik) bəhs etməyimiz zəruridir.

وَالذينَ آمَنُوا وَعَمِلُوا الصـالِحاتِ ***"İman gətirərək saleh əməl edən kəslər"*** – Allah-taala əvvəlki ayələrdə zülmkarların aqibətini və onların gələcəyinin zülmətli olacağını bəyan etdikdən sonra, təkcə Allahın yeganəliyi və Peyğəmbərin (s) nübüvvətinə iman gətirmək və əməldə bunu təsdiq etməklə kifayətlənməyən müsəlmanların aydın gələcəyi barədə söhbət açır və onların saleh əməllər etdiyini vurğulayır. Allah-taala bundan sonra əməlisaleh möminlərin axirətə nail olacaqları və bir-birindən dəyərli olan üç mühüm savabı xatırladır:

1. فِى رَوْضـاتِ الْجَنّـاتِ ***"Cənnət bağları"*** – Axirətdə ilkin olaraq onların məskun olacaqları yer cənnət bağlarıdır.

***Sual:*** رَوْضـاتِ الْجَنّـاتِ - Yəni, cənnət bağları haradadır?

***Cavab:*** Əgər Quranı başdan ayağa qədər mütaliə etsək, bu cümləni "Şura" surəsinin 23-cü ayəsindən başqa, digər bir ayədə tapa bilmərik. Ərəblər yaşıl, bol sulu və çoxlu ağacları olan bağa "rovzə" deyir və "rovzat" onun cəmidir. Əlbəttə, bəzən suyun toplandığı yerə də bu söz şamildir. Amma "rovzə" sözündə məqsəd onun birinci mənasıdır və رَوْضـاتِ الْجَنّـاتِ "cənnət bağları" deməkdir.

***Sual:*** Cənnətdəki bütün bağların başdan-başa yaşıl və təravətli olmasına baxmayaraq, "cənnət bağları"nda hansı məna nəzərdə tutulmuşdur?

***Cavab:*** Yuxarıdakı cümlədən cənnətdəki bağlardan əlavə, Allahın xüsusi bəndələrinə məxsus olan bağların olacağı da anlaşılır. Nəticədə, möminlərə saleh əməlləri müqabilində veriləcək ilkin nemətin "cənnət bağları" olması aydın olur.

2. لَهُمْ مـا يَشـاءُونَ ***"Onlar üçün istədikləri hər şey var."*** – Xüsusi cənnət bağlarında məskunlaşmış olacaq əməlisaleh möminlər üçün onların istədikləri hər bir şey hazır ediləcək. Həqiqətən də, maddi nemətlərlə bağlı bundan üstün olan bir məsələ təsəvvür edilməzdir, çünki o, hər nəyi istəsə, ona verəcəklər.

3. عِنْدَ رَبِّهِمْ *"Allah yanında"* – Cənnət nemətləri maddi və mənəvi nemətlərlə qarışıqdır. Aydın olduğu kimi, möminlər saleh əməllər nəticəsində ən yaxşı vəziyyətdədirlər və maddi nemətlərdən istifadə edirlər. Bu məsələ mənəvi cəhətdən də belədir. Onlar Allah yanında "Ali-İmran" surəsinin 169-cu ayəsində şəhidlər üçün bildirilən yaxınlıq məqamına malikdirlər. Amma عِنْدَ رَبِّهِمْ məqamının hansı xüsusiyyət və üstünlüklərinin olduğu bizə o qədər də aydın deyil.

ذَٰلِكَ هُوَ الْفَضْلُ الْكَبِيرُ *"Bu, böyük fəzilətdir."* – Əməlisaleh möminlərə cənnətdə maddi və mənəvi nemətlərin hazırlanmasını Allah-taala "böyük fəzilət" adlandırmışdır. Əgər Allah bir şeyi "böyük fəzilət" adlandırarsa, biz hər nə qədər fikirləşsək də o, bizim düşündüyümüzdən əzəmətli və böyük olacaq.

Deməli, Allaha bəndəlik etməyin iki meyarı vardır: İman və saleh əməl. Beləliklə, "elm", "sərvət", "mal-dövlət" və "qüdrət" kimi digər məsələlər iman və saleh əməl üçün istifadə olunduqda dəyər kəsb edəcəkdir.

ذَٰلِكَ الَّذِي يُبَشِّرُ اللَّهُ عِبَادَهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ – Allah bu ayədə də əməlisaleh möminlərə (روضات الجنّات), (لهم ما يشاءون), (عند ربّهم) kimi nemətlər əta edəcəyini bildirir ki, onlara nəfslə mübarizə, ibadət və itaət çətin gəlməsin. Yuxarıdakı ayə barədə verilən qısa izaha diqqət etməklə, "Məvəddət" ayəsinin şərh və təfsirinə nəzər salaq.

## Şərh və təfsir

### Əhli-beytə (ə) məhəbbət risalətin (təbliğin) əvəzidir

قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا *"De ki, mən sizdən heç bir əcr və muzd istəmirəm!"* – Şübhəsiz ki, İslam Peyğəmbəri (s) risalətin təbliği, ilahi vəzifələrin yerinə yetirilməsi uğrunda coxlu zəhmət və əziyyətlərə qatlaşmalı olmuşdu. Amma o həzrət heç zaman bu dəyərli işlərin müqabilində kimdənsə bir muzd və əcr istəməmişdir. Eyni zamanda, Peyğəmbərin (s) xidmətinə yetişən bəzi müsəlmanların: "Əgər maddi ehtiyacınız qarşıya çıxarsa, bizim mal və sərvətimiz qeydsiz-şərtsiz sizin ixtiyarınızdadır." – deməsi ilə yuxarıdakı ayə nazil olmuş[1] və risalət müqabilində Peyğəmbərin (s) heç kəsdən bir muzd istəmədiyini bildirmişdir.

---

*1. "Nümunə" təfsiri, c.2, səh. 402.*

إِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبَى ***“Yalnız yaxınlarıma məhəbbətdən başqa”*** – Peyğəmbər (s) risalət müqabilində onlardan sadəcə Əhli-beyt (ə) və yaxınlarına məhəbbətdən başqa, heç bir muzd istəməmişdir. Nəticədə, o həzrətin iyirmi üç illik təbliğ və müsəlmanlara çəkdiyi zəhmət müqabilində təkcə “yaxınlarına məhəbbət” bəsləmələrini tələb etdiyi məlum olur.

## *“Yaxınlar” (قربى) kimlərdir?*

Bu ayədəki bütün bəhslər “yaxınlar” (قربى) kəlməsi barədə və onun təfsiri ətrafında dolanır. Doğrudan da, görəsən, “yaxınlar” kimlərdir ki, Peyğəmbər (s) müsəlmanlardan risalətinə muzd olaraq onlara sevgi və məhəbbət göstərilməsini istəmişdir?

Alim və təfsirçilərdən bəziləri bu ayənin kənarından rahatlıqla keçərək onun barəsində dərindən düşünməmiş və ya onların fikirləri ilə üst-üstə düşmədiyindən, bu cür reaksiya göstərmişlər. Halbuki, ayədə dərin mənalar vardır. Ayə və onda bəyan edilən məsələlərin əzəmətinə inanmaqdan ötrü, həmin məsələni digər peyğəmbərlərin dilindən Quranda araşdırırıq.

Əgər “Şüəra” surəsinə nəzər salsaq, görərik ki, İslam Peyğəmbərindən (s) öncə, muzd almaq məsələsi həzrət Nuh (ə), Hud (ə), Saleh (ə), Lut (ə) və Şüeyb (ə) kimi beş peyğəmbərin dilindən də bəyan edilib. Amma onların heç biri öz yaxınlarına, hətta məhəbbət göstərmələrini belə, istəməmişlər. Onların hamısı belə buyurmuşdur:

وَمَا أَسْئَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِىَ إِلاَّ عَلَى رَبِّ الْعَالَمِينَ

***“Mən bunun (dini, risaləti təbliğ etməyin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir!”***[1]

Həmin peyğəmbərlərin öz risalət və təbliğləri müqabilində heç bir muzd istəməməsi, amma İslam Peyğəmbərinin (s) yaxınlarına muzd olaraq məhəbbət və sevgi bəsləməyi istəməsi necə mümkündür? Görəsən, İslam Peyğəmbərinin (s) məqamı üstün idi, yoxsa, digər peyğəmbərlərin? Şübhəsiz ki, Xatəmul-ənbiya həzrət Məhəmməd Mustafa (s) bütün peyğəmbərlərdən üstün və fəzilətlidir, həmçinin, qiaymət günü hər bir peyğəmbər sadəcə öz ümmətinə şahid olacaq, amma o həzrət isə bütün şəhadət verə bilənlərin şəhadətinə. Buna Quranın aşağıdakı ayəsi dəlildir:

---

*1. «Şüəra» surəsi, ayə 109, 128, 145, 164 və 180. Bu mətləb həmin peyğəmbərlərin dilindən Quranın digər ayələrində də qeyd edilmişdir.*

فَكَيْفَ إِذا جِئْنا مِنْ كُلِّ اُمَّة بِشَهيد وَجِئْنـا بِكَ عَلى هـؤُلاءِ شَهيداً

***"Buna görə də, hər ümmətdən (onların iman, küfr, itaətkarlıq və itaətsizliklərinə şahidlik etmək üçün) bir şahid (Peyğəmbərlərini) gətirəcəyimiz və səni də bunlara (bu ümmətə, yaxud o şahidlərə) şahid gətirəcəyimiz zaman, (sənin və camaatın halı) necə olacaq?!"*** [1]

Sözün düzü, məsələ daha qarışıq bir şəkildədir, çünki Allahın ən üstün olan Peyğəmbəri (s) əcr və muzd istəyir, amma digər peyğəmbərlər əksinə, heç bir əcr istəmirlər. Həqiqətən də, bu ayənin dərin təfəkkür və düşüncə tələb etməsinə baxmayaraq, bəzi alimlər onun yanından sadəliklə keçmiş və ayıq olan vicdanın onlara verəcəyi əzabdan qaçmışlar.

***Sual:*** Peyğəmbərin (s) bu əcr və muzdu istəməkdəki hədəfi nə olmuşdur? Görəsən, həmin muzdu özü üçün istəyir, yoxsa, bu tələbdə də digər bir müqəddəs hədəf gizlənir ki, onun xeyri yenə də müsəlmanların özünə qayıdır?

***Cavab:*** Bu məsələnin aydın olması üçün Quranın digər iki ayəsini də "Məvəddət" ayəsi ilə tutuşdurmalıyıq ki, ayələrin özü bir-birini təfsir etsin.

1. "Səba" surəsinin 47-ci ayəsində buyurulur:

قُلْ مـا سَأَلْتُكُم مِنْ أَجْر فَهُوَ لَكُمْ إِنْ أَجْرِىَ اِلاّ عَلَى اللهِ وَهُوَ عَلى كُلِّ شَيْء شَهيدٌ

***"De ki: "Sizdən istəmədiyim bütün muzdlar sizin olsun. (Sizdən muzd istəməyə haqqım var idi). Sizdən istədiyim muzd (Əhli-beytimə olan məhəbbət) sizin öz xeyrinizədir, mənim mükafatım yalnız Allahın öhdəsinədir və o, hər bir şeydən agah və hər bir şeyə şahiddir.""***

Bu şərif ayənin də "Məvəddət" ayəsindəki qaranlıq qalan məsələni bir qədər izah etdiyini və İslam Peyğəmbərinin (s) də digər peyğəmbərlər kimi özü üçün heç bir muzd və əcr istəmədiyini, əksinə yaxınlara məhəbbətlə bağlı həmin muzdun camaatın öz xeyrinə olduğunu bildirdiyi anlaşılır.

2. Həqiqətdə, "Səba" surəsinin 47-ci ayəsinin təfsiri olan "Furqan" surəsinin 57-ci ayəsində "yaxınlara məhəbbət" məsələsinin camaata necə faydalı olması izah edilir:

قُلْ مَـا أَسْئَلُكُمْ عَلَيْهِ مِنْ أَجْر إِلاَّ مَنْ شـاءَ أَنْ يَتَّخِذَ إِلى رَبِّه سَبيلا

***"De: "Mən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində sizdən kiminsə öz Rəbbinə tərəf yol tutmaq istəməsi istisna olmaqla, bir muzd istəmirəm. (Peyğəmbərin dəvətindən sonra ümmətin ixtiyari***

---

*1. «Nisa» surəsi, ayə 41.*

***şəkildə Allaha tərəf getməsi Peyğəmbərliyin muzdudur).””***

Yuxarıdakı ayə İslam Peyğəmbərinin (s) istədiyi əcr və muzdun onun şəxsi mənafeyinə xidmət etmədiyini, əksinə onun faydasının camaatın özünə qayıtdığını nişan verir. Həmçinin, ayə risalət əcrinin istənilməsinin özündə ilahi hədəflərin olduğunu və həqiqətdə, həmin mənfəətin dinin özünə qayıtdığını göstərir. Nəticədə, o həzrətin “Məvəddət” ayəsində istədiyi muzdun onun şəxsən özü üçün deyil, camaatın xeyrinə olduğu məlum olur. Belə olan halda, bu ayəyə şəxsi düşüncələrlə üst-üstə gəlmədiyi üçün sadə yanaşmaq lazımdırmı?

## Şiənin nəzərində “yaxınlar” (قربی) sözünün təfsiri

Şiə alimləri ayə barəsində diqqətlə düşünüb təfəkkür etdikdən sonra “yaxınlar” **(قربی)** sözündəki məqsədin İslam Peyğəmbərinin (s) Əhli-beyti (ə) olması fikrinə gəlmişlər. Sözsüz ki, “vilayət” məsələsi risalətlə bir çəki və ağırlıqdadır və onun davamıdır. Deməli, yaxınlara məhəbbət **(مودّت قربی)**də risalətlə mütənasibdir. Bundan əlavə, vilayətlə camaat Allaha doğru istiqamətləndirilir.

Əgər “Məvəddət” ayəsini şiə alimlərinin təfsir etdiyi kimi təfsir etsək, həm bu, həm də onunla irtibata malik olan digər ayələrin mənası aydın olacaq və həm də ki, bu rabitənin məntiqi və düzgünlüyü meydana çıxacaq.

Maraqlı burasındadır ki, ilahi maarif ensiklopediyası və imamətlə bağlı olan “Nüdbə” duasında da yuxarıdakı üç ayəyə işarə edilmiş və imamlar tərəfindən həmin ayələrin ilahi rəhmət və cənnətə daxil olmağa vəsilə olduğu bildirilmişdir.

## “Yaxınlar” (قربی) sözü barədə əhli-sünnənin nəzəri

Əhli-sünnə alimlərinin bu zəmində müxtəlif nəzəriyyələr irəli sürməsinə baxmayaraq, onların heç bir ayə ilə mütənasib və uyğun deyil. Onların bir neçə nümunəsinə diqqət edin:

1. Onlar “yaxınlar” **(قربی)** sözündəki məqsədin Peyğəmbərin (s) Əhli-beytinə (ə) sadəcə (vilayət, xilafət və imamət olmadan) məhəbbət və sevgi bəsləmək olduğunu demişlər. Onlar fəqət Peyğəmbər (s) xanədanına zahiri sevgini nəzərdə tutmuşlar. Görəsən, bu məhəbbəti risalətdən saymaq olarmı? Sadə və adi bir məhəbbət risalətin muzdu ola və ona bərabər hesab edilə bilərmi? Bundan əlavə, keçmiş

peyğəmbərlərin öz risalət və təbliğlərinə görə muzd istəməməsi və "Bizim muzdumuz Allaha aiddir." – deməsinə baxmayaraq, İslam Peyğəmbərinin (s) sizin dediyiniz mənada risalətə muzd və əcr istəməsi necə mümkündür? Deməli, yuxarıdakı bu cür təfsir qəbul olunası deyil.

2. Bəziləri də "yaxınlar" (قربى) sözünü insanı Allaha yaxınlaşdıran işlər mənasına yozmuş və مودّت قربى (yaxınlara məhəbbəti) yaxşı işlərə sevgi və məhəbbət kimi nəzərdə tutmuşlar. Onların fikrincə, namaz, oruc, həcc, sileyi-rəhim (qohum-əqrəbaya yaxşılıq), böyüklərə ehtiram, cihad və s. işlərə məhəbbət risalətin muzd və əcri hesab edilir.

3. Bəziləri ayədəki "fi" sözünün "lam" mənasında işləndiyini və ayənin mənasının "Mənə məhəbbət göstərin ki, mənim risalətimin muzd və əcridir, çünki mən sizin qohumunuzam." – olduğunu söyləmiş və bu məsələ ilə bağlı müfəssəl bir şəcərənamə düzəldərək bütün ərəb qəbilələrini Peyğəmbərə (s) qohum etmişlər. Bu cür təfsirin də irada malik olduğu aydın məsələdir.

***Birincisi,*** "fi" sözünün "lam" (li) mənasında işləndiyi hallar çox azdır və ayədəki həmin sözün də "lam" mənasında olduğunu bildirən dəlillərimiz yoxdur.

***İkincisi,*** Peyğmbərə (s) şəxsən, məhəbbət göstərmək risalətə bərabər və onunla eyni ölçüdə tutula bilməz. Risalətin muzdu onun özünə bərabər şəkildə olmalıdır. Görəsən, yuxarıda "Məni incitməyin və məhəbbət göstərin, çünki mən sizin qohumunuzam." kimi işlədilən məna risalətə bərabərdirmi? Ayənin bu cür təfsir edilməsi onun həqiqi mənasına təhqir deyilmi?

4. Dördüncü təfsir yuxarıdakından da aşağı olan bir təfsirdir və həmin təfsirdə deyilir: "Öz qohumlarınıza məhəbbət göstərin, çünki risalətimin muzd və əcri sizin öz qohumlarınıza məhəbbət göstərməyinizdir." İnsan ayənin bu cür təfsir edilməsinə inanmaq istəməsə də, təəssüflər olsun ki, belə təfsir və düşüncəyə malik olan alimlər mövcuddur. Bu nəzəriyyənin batil və səhvliyi o qədər aydın və aşkardır ki, ona cavab verməyə ehtiyac tələb etmir. Öz qohumlarına insanın məhəbbət və sevgi göstərməsi risalətlə eyni çəki və ağırlıqdadırmı?

Görəsən, insanın öz yaxınlarına məhəbbəti nübüvvətin davamı hesab edilirmi? Bəli, əgər məsələyə bu cür səthi yanaşsaq və təssübkeşlik etsək, açıq-aşkar belə səhv və yanlışlara yol verəcəyik.

Həqiqətən də, bu və digər təfsirlərin ayə ilə mütənasibliyi varmı və yaxud o, ərəb qrammatikasından azacıq belə olsa, başı çıxan birinin

əlinə düşsə, ondakı çatışmamazlığı görməyəcəkmi? Bu cəhətdən, alimlərin özləri də onun çatışmamazlığına və qeyri-həqiqi mənada olmasına etiraf edirlər. Nə üçün Quran ayəsini giriftarçılıq və çətinliyə düşəcəyimizi bilə-bilə qeyri-həqiqi və məcazi mənaya yozmalıyıq? Niyə barəsində bəhs etdiyimiz ayədəki "yaxınlara məhəbbət" sözünü "imamət" və "vilayət", həmçinin, digər ayələrlə tamamilə uyğun gələn mənaya yozmamalıyıq?

## *İstəmədən etiraf etmək*

Ruzigarın təəccübləndirici hallarından biri bəzi əhli-sünnə təfsirçilərinin bu ayə ilə bağlı Peyğəmbərdən (s) Əhli-beytə (ə) məhəbbət göstərməklə bağlı uzun və müfəssəl bir hədis nəql etməsidir. İnsan həmin hədisi oxuduqda və onun barəsində düşndükdə, edilən əsassız təfsirlərdən daha çox heyrətə gəlir. Fəxri Razidən nəql edilən bu hədisə diqqət edin:

نَقَلَ صاحِبُ[1] الْكَشّافِ عَنِ النَّبِيِّ (صلى الله عليه وآله)

"Əl-Kəşşaf" kitabının müəllifi Zəməxşəri Peyğəmbərdən (s) hədis nəql etmişdir. O, həmin hədisdə Peyğəmbərdən (s) çox əhəmiyyətli olan on iki cümlə nəql edib:

1.

مَنْ ماتَ عَلى حُبِّ آلِ مُحَمد ماتَ شَهيد

"Hər kəs Əhli-beytə (ə) məhəbbət və sevgi ilə dünyadan gedərsə, şəhidlər sırasında olacaqdır." Görəsən, bu məhəbbət vilayət və imamət olmayan adi bir məhəbbətdirmi? Əgər adi bir məhəbbət olarsa, belə bir şəxs şəhidlər cərgəsində ola bilərmi? Yoxsa, insanı belə bir məqama çatdıran bu məhəbbət vilayət və imamətlə birgədir?

2.

أَلا وَمَنْ ماتَ عَلى حُبِّ آلِ مُحَمّد ماتَ مَغْفُور لَهُ

"Ey insanlar! Bilin ki, kim Ali-Məhəmmədin (s) Əhli-beytinə (ə) məhəbbəti olduğu halda dünyadan gedən kəslər bağışlanmağa layiq olacaqlar."

Doğrudan da, bu necə məhəbbətdir ki, əgər insan ölənə kimi onu qoruyub saxlaya bilsə, günahlarının bağışlanmasına səbəb olacaq? Bu, adi bir sevgi və məhəbbətdirmi?

3.

أَلا مَنْ ماتَ عَلى حُبِّ آلِ مُحَمّد ماتَ تائِب

---

*1. Bu rəvayət "Əl-Kəşşaf" təfsiri, c.4, səh. 220-221-də qeyd edilib.*

"Əhli-beytə (ə) məhəbbəti olduğu halda vəfat edənlər pak halda ölərlər." Yəni, bu məhəbbət tövbənin əvəzedicisidir. Onlar ölən zaman tövbəkarlar kimi bağışlanarlar. Həqiqətən də, bu necə bir məhəbbətdir?

4.

أَلا وَمَنْ مـات عَلى حُب آلِ مُحَمد مـاتَ مُؤْمِناً مُسْتَكْمِلَ الْايمان

"Peyğəmbərin (s) Əhli-beytinə (ə) sevgi bəsləyərək ölənlər imanları kamil olan möminlər kimi dünyadan köçrlər." Sadə bir bağlılıq imanın kamilliyinə səbəb ola bilərmi? Şübhəsiz ki, bu cümlələrdə mühüm mənalar yatmışdır və həmin mənalar yüksək kamala çatmağa səbəb olmuşdur.

5.

أَلا وَمَنْ ماتَ عَلى حُب آلِ مُحَمّد مـاتَ بَشرَهُ مَلَكُ الْمَوْتِ بِالْجَنة ثُم مُنْكرٌ وَنَكيرٌ

"Bilin ki, Ali-Məhəmmədə (s) məhəbbətlə ölən şəxslərə ölüm mələyi sonra isə sorğu-sual mələkləri cənnət müjdəsi verərlər." İnsana ölümün ilkin mərhələsində bəşarət verən həmin məhəbbət hansı xüsusiyyətlərə malikdir?

6.

أَلا وَمَنْ مـاتَ عَلى حُب آلِ مُحَمّد يَزف إِلى الْجَنة كمـا تَزف الْعَرُوسُ إِلى بَيْت زَوْجِهـا

"Agah olun ki, Əhli-beytə (s) məhəbbətlə dünyasını dəyişənləri kəcavədə aparılan təzə gəlin kimi cənnətə apararlar." Yəni, onu ehtirama layiq bir şəkildə cənnətə apararlar. Əhli-beytə (s) məhəbbətin belə qeyri-adi təsirləri vardır.

7.

أَلا وَمَنْ مـاتَ عَلى حُب آلِ مُحَمد فُتِحَ لَهُ في قَبْرِه بـابـانِ إِلى الْجَنة

"Peyğəmbərin (s) Əhli-beytin (s) məhəbbətlə dünyasını dəyişənlərin qəbirindən cənnətə iki qapı açarlar."

***Sual:*** Nə üçün iki qapı?

***Cavab:*** Ola bilsin ki, biri nübüvvətə və digəri də imamət və vilayətə görədir.

8.

أَلا وَمَنْ مـاتَ عَلى حُب آلِ مُحَمّد جَعَلَ اللهُ قَبْرَهُ مَزارَ مَلائكَة الرحْمَة

"Bilin ki, Əhli-beytə (s) məhəbbətlə dünyasını dəyişənlərin qəbirini Allah rəhmət mələklərinin ziyarətgahına çevirər." Bir insanın qəbrinin sadə bir məhəbbətlə ziyarətgaha çevriləcəyinə inanmaq olarmı?

9.

أَلا وَمَنْ مـاتَ عَلى حُبِّ آلِ مُحَمَّدٍ مـاتَ عَلَى السُّنَّةِ وَالْجَماعَةِ

“Əhli-beytə (s) məhəbbətlə vəfat edənlər Peyğəmbər (s) sünnəsində və müsəlman cəmiyyətində olduğu halda dünyadan köçmüşlər.”

Yuxarıdakı doqquz cümlədə Əhli-beytə (s) məhəbbətin təsirləri bəyan edildi. Sonrakı üç cümlədə onlarla düşmənçiliyin mənfi təsirlərindən bəhs ediləcəkdir.

İndi həmin cümlələrə nəzər salın:

10.

أَلا وَمَنْ مـاتَ عَلى بُغْضِ آلِ مُحَمَّدٍ جـاءَ يَوْمَ الْقِيـامَةِ مَكْتُوبٌ بَيْنَ عَيْنَيْهِ آيِسٌ مِنْ رَحْمَةِ اللهِ

“Agah olun ki, Peyğəmbər (s) Əhli-beytinə (s) kin və düşmənçiliyi olduğu halda ölənlər məşhər səhrasına alınlarında “Bu şəxs Allahın rəhmətindən məyus və naümid olmuşdur.” yazıldığı halda gətirilərlər.” Əhli-beytlə (s) düşmənçilik insanı suquta uğradacaq qədər təhlükəlidir.

11.

أَلا وَمَنْ ماتَ عَلى بُغْضِ آلِ مُحَمَّدٍ ماتَ كافِراً

“Bilin ki, Əhli-beytə (s) düşmən olaraq ölən kəslər kafir kimi dünyadan gedərlər.” Bu, öncəki cümlədə deyiləndən də pis bir vəziyyətdir.

12.

أَلا وَمَنْ مـاتَ عَلى بُغْضِ آلِ مُحَمَّدٍ لَمْ يَشُمَّ رائِحَةَ الْجَنَّةِ

“Agah olun ki, Peyğəmbər (s) Əhli-beytinə (s) kin və düşmənçilik bəsləyərək vəfat edənlərə cənnətin iyisini duymaq nəsib olmaz.” Bəzi rəvayətlərə uyğun olaraq, cənnətin gözəl iyisi min illik bir fasilədən duyulur.[1] Belə olduğu halda, siz məsələni təsəvvür edin.

Bu rəvayətə uyğun olaraq, Əhli-beytə (s) düşmən kəslərin cənnətin ətrini beş yüz illik məsafədən belə, duymayacağı, bir sözlə, ondan çox-çox uzaq olduğu məlum olur. Bu cür gözəl rəvayəti nəql edən Fəxri Razinin ayəni əvvəlki bəhslərdə də qeyd etdiyimiz kimi, çox sadə bir şəkildə təfsir etməsi təəccüb doğurur. Daha təəccüblüsü onun bu rəvayəti nəql etdikdən sonra, rəvayətin mərkəzində duran Peyğəmbər

*1. “Mizanul-hikmət”, bölmə 553, hədis: 2585. Peyğəmbər (s) bu rəvayətdə buyurur ki, Cəbrayıl nazil olaraq mənə cənnətin ətrinin min illik bir fasilədən duyulduğunu bildirmişdir. Eyni zamanda, bir neçə dəstənin bu ətri duymayacağını da söyləmişdir. Onlara diqqət yetirin: 1. Valideynin üzünə ağ olanlar, 2. Şəri üzrü olmadan sileyi-rəhimi tərk edənlər, 3. Qoca yaşlarında zinaya mürtəkib olan kişilər.*

(s) Əhli-beyti (ə) barədə sözə başlayaraq belə deməsidir:

"Peyğəmbərin (s) ailəsi onunla daha çox, möhkəm və kamil irtibat və münasibətdə olan şəxslərdir. Şübhəsiz ki, o həzrətlə daha yaxın olan kəslər Fatimə (ə), Əli (ə), Həsən (ə) və Hüseyndir (ə) və bu məsələ mütəvatir və çox aydın olan bir məsələdir."[1]

Belə bir rəvayətin təəssübkeş olan sünni bir alim tərəfindən nəql edilməsi maraqlı məsələdir. Bu cür təfsir şiə alimlərinin təfsirinə o qədər yaxındır ki, mən onun barəsində mütaliə edərkən bir anlıq onun şiə, yoxsa, sünni alimi tərəfindən yazılması barədə şəkkə düşdüm. Elə bildim ki, şiə aliminin təfsirini mütaliə edirəm.

***Sual:*** "Məvəddət" ayəsi və onun təfsiri ilə əlaqədar olan digər Quran ayələrini tutuşdurduğumuz və nəql edilən bir çox rəvayəti və yuxarıdakı hədisi nəzərə aldığımızda, Əhli-beytə (ə) göstərilən məhəbbətin sadə, vilayət və imamətdən kənar olduğunu başa düşmək mümkündürmü? Eyni zamanda, biz qəti şəkildə məhəbbətin vilayət və imamətlə bağlı olduğunu iddia edə və onun risalətin davamı və onunla eyni çəki və ölçüdə olduğunu söyləyə bilmərikmi?

Əgər belə olmadığını düşünsək, onda, hansı təfsiri göstərə bilərik ki, ayə və qeyd edilən yuxarıdakı rəvayət ilə kamil şəkildə uyğun gəlmiş olsun? Biz Allaha Əhli-beytin (ə) vilayətini qəlbimizdə yerləşdirdiyi, həmçinin, valideynlərimizin də həmin məhəbbəti bizə aşıladığı üçün minnətdar olmalıyıq.

## *İmam Sadiqin (ə) sözlərində "Məvəddət"in təfsiri*

İmam Sadiqdən (ə) olan bir rəvayətdə oxuyuruq:

مـا أَحَبَّ اللهَ مَنْ عَصاهُ

***"Günah və məsiyət edən şəxs Allahı sevməz."***[2]

Beləliklə, həzrət Əliyə (ə) müxalif olanların ona məhəbbət göstərmədiyi məlum olur. Bu baxımdan, məhəbbət insanı itaət, bəndəçilik və tabe olmağa yönəltməlidir. Həmin səbəbdən, daxilində itaət və bəndəçiliyin olmadığı məhəbbət, həqiqətdə, məhəbbət deyil. Aşağıdakı hadisəyə diqqət edin:

"Hacib məhşur və istedadlı şairlərdən biri idi. Yaxşı şeirlərə malik olan bu şair avamlar üçün də şeirlər yazırdı. Bir gün o, Əmirəl-mömininin (ə) vəsfi ilə bağlı ona münasib olmayan belə bir şeir oxuyur:

---

*1. "Fəxri Razi təfsiri", c.27, səh. 165-166. Mətləbin əsli "Qurtubi" təfsiri, c.8, səh. 5843 və "Sələbi" təfsirində bəhs etdiyimiz ayə ilə bağlı qeyd edilmişdir.*

*2. «Rövzətül-müttəqin», c.13, səh. 156.*

"Nə qədər ki, Əliyə (ə) məhəbbətin var, bu, nicat üçün kifayətdir. Yəni, insan günahların içində qərq olsa da belə, həmin məhəbbət yetərlidir.""

Bu, yalançı məhəbbətə aid olan şeir günahkarlar üçün yaşıl işıq yandırır. Hacib bir gün yuxuda görür ki, həzrət Əlini (ə) ona nə üçün belə bir şeir yazdığını deyir. Hacib necə şeir deməli olduğunu soruşduğunda, o həzrət onun şeirini islah edərək "Əgər Əlinin (ə) üzünü qiyamətdə qara etmək istəmirsənsə, az günah et!" – kimi düzəliş edir. Deməli, məhəbbət Allaha itaət və günahları tərk etməkdir.

## "Məvəddət" ayəsini rəvayətlər sayəsində təfsir etmək

Bu ayənin də təfsir və şərhi ilə əlaqədar şiə və əhli-sünnədən müxtəlif şəkildə rəvayətlər nəql edilmişdir. Biz onlardan bir neçə nümunəsini qeyd etməklə kifayətlənirik:

1. Əhli-sünnənin böyüklərindən hesab edilən Əhməd "Fəzailus-səhabə" adlı kitabında Səid ibn Cübeyrdən, o da Amirdən aşağıdakı rəvayəti nəql edir:

**لَمّـا نَزَلَتْ «قُلْ لا أَسْئَلُكُمْ عَلَيْهِ أَجْراً إِلاَّ الْمَودةَ في الْقُرْبى» قـالُوا: يا رَسُولَ اللهِ! مَنْ قَرابَتُكَ؟ مَنْ هؤُلاءُ الَّذينَ وَجَبَتْ عَلَيْنـا مَودَّتُهُمْ؟ قـالَ: عَلِيٌّ وَفاطِمَةُ وَابْنـاهُما، وقـالَها ثَلاثاً**

***"Məvəddət ayəsi Peyğəmbərə (s) nazil olan zaman, camaat o həzrətdən soruşdu ki, ayədə yaxınlara məhəbbət göstərməyimiz vacib olan kəslərdə məqsəd kimlərdir? Peyğəmbər (s) həmin kəslərdəki məqsədin Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) olduğunu dedi və bu cümləni üç dəfə təkrarladı."***[1]

Bu rəvayətdən bir neçə mühüm mətləb aydın olur:

***Birincisi,*** rəvayətdə işlənən "yaxınlar" (Zəvil-qurba) sözündəki məqsədin Peyğəmbər (s), müsəlmanların qohumları və insanı Allaha yaxınlaşdıran yaxşı işlər deyil, Peyğəmbərin (ə) Əhli-beyti (ə) olduğu bildirilir. Bundan əlavə, "yaxınlar" Peyğmbərin (s) bütün qohumları hesab edilmir, əksinə, xüsusi və sayca müəyyən edilən şəxslərə şamildir və biz onların adlarını xatırlatmışıq.

***İkincisi,*** əvvəlki mətləbdə xatırladılan məsələlər Peyğəmbərin (s) səhabələrinin də zehnində vardı və onlar bu səbəbdən, əhli-sünnənin bəzi alimləri kimi ehtimalların ardınca getməmişlər. Başa düşmüşlər ki, ayədəki məqsəd Peyğəmbərin (s) bütün qohumları və yaxınları deyil, ona görə də həzrətdən həmin şəxsləri tanıtdırmasını istəmişlər.

***Üçüncüsü,*** Şiə alimlərinin bəyan etdikləri kimi, Peyğəmbərin (s) səhabələri də "Məvəddət" ayəsinin mənasını rəvayətləri nəzərə

*1. «İhqaqul-həqq», c.3, səh. 2. Bu rəvayət «Durrul-mənsur", c.6. səh. 7-də də nəql edilmişdir.*

almadan başa düşmələrinə və həmin məhəbbətin onlara vacib olmasına baxmayaraq, təkrarən o həzrətdən bu məhəbbətin nə üçün vacib olması barədə soruşmuşlar. Görəsən bu məhəbbətin fəlsəfəsi bəzi hökmlərdə olduğu kimi bizim üçün qaranlıqdır, yoxsa, onun fəlsəfəsi aydın və aşkardır? Eyni zamanda, onun mənası budur ki, məhəbbət həmin şəxsiyyətlərə itaət və tabe olmaq üçün bir müqəddimədir. Əgər bu ayə və onun təfsiri ilə əlaqədar olaraq nəql edilən rəvayətlər, həmçinin, Fəxri Razidən nəql etdiyimiz bu yuxarıdakı rəvayətdən düzgün nəticə çıxarmaq istəyiriksə, məhəbbəti imamət, vilayət və xilafətin fəlsəfəsi olduğunu başa düşməliyik. Vilayət risalətlə bir sırada və onunla eyni çəkidədir. İslamın əsası risalətdə olduğu kimi, vilayət də onun davamı hesab edilməlidir.

Peyğəmbərin (s) həddən artıq çox olan qohumları arasında əmisi Abbas və onun övladları, Əbdülmüttəlibin digər nəvələri də vardı və biz onların içindən sadəcə Fatimə (ə), Əli (ə), Həsən (ə) və Hüseynə (ə) istinad etməklə doğru addım atmış oluruq və təkcə onlar vilayət və imamət üçün ən yaxşı nümunədirlər. Əgər belə olmasaydı, onda, həmin məhbbətin sadə və Peyğəmbərin (s) bütün qohumlarına şamil olduğunu söyləmək mümkün olardı.

2. Mərhum Təbərsi özünün "Məcməul-bəyan" əsərində Hakim Həskaninin "Şəvahidut-tənzil" əsərinə istinadən Əbu Əmamə Bahelidən "Nüdbə" duasında da nəzərə çarpan aşağıdakı rəvayəti nəql edir:

**إِنَّ اللهَ تَعـالى خَلَقَ الاَنْبِيـاءَ مِنْ أَشْجـار شَتّى وَخَلَقَ أَنا وَعَلِيّاً مِنْ شَجَرَة واحِدَة فَأَنَا أَصْلُها وَعَلِيٌّ فَرْعُها وَفـاطِمَةُ لِقاحُها وَالْحَسَنُ وَالْحُسَيْنُ ثِمـارُهـا وَأَشْياعُنـا أَوْراقُهـا، فَمَنْ تَعَلَّقَ بِغُصْن مِنْ أَغْصانِهـا نَجـا وَمَنْ زاغَ عَنهـا هَوى وَلَوْ أَنَّ عبداً عَبَدَ اللهَ بَيْنَ الصَّفـا وَالْمَرْوَةِ اَلْفَ عـام ثُمَّ اَلْفَ عـام ثُمَّ اَلْفَ عـام حَتَّى يَصيرَ كَالشَّنِّ الْبـالي[1] ثُمَّ لَمْ يُدْرِكْ مَحَبَّتَنـا كَبَّهُ اللهُ عَلى مِنْخَرَيْهِ فِي النّـارِ ثُمَّ تَلا: «قُلْ لا أَسْئَلُكُمْ عَلَيْهِ أَجْراً إِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبى**

***"Allah-taala Peyğəmbərləri ayrı-ayrı nəsillərdən və kökdən yaratmışdır, amma mən (İslam Peyğəmbəri (s)) və Əli (ə) bir ağac (nəsil) və bir kökdənik. Mən bu ağacın kökü, Əli (ə) isə onun budaqları, Fatimə (ə) onun tumurcuqları, Həsən (ə) və Hüseyn (ə) isə meyvələri və bizim şiələrimiz də ağacın yarpaqları mənziləsindədir. Əgər Allah bəndələrindən hansısa biri Səfa və Mərvə arasında hər dəfəsində min il***

---

*1..»Şənn» ərəb dilinin lüğətində «köhnə su tuluğu» mənasındadır. Ərəblər dəridən olan bütün qabları şənn adlandırırlar. «Əl-Bali» sözü də «köhnə» mənasını verir. Deməli* شن البالی *həddən artıq köhnəlmiş tuluq mənasındadır. Qeyd edilən cümlədə həmin sözdə məqsəd bir insanın həddən artıq çox ömürə malik olaraq qocalması və köhnə su tuluğu kimi qurumasıdır.*

***olmaqla cəmi üç min il ibadət edə və su tuluğu kimi bu yolda köhnəlib quruyar, amma bizim məhəbbətimizi dərk etməzsə, bütün bu ibadətlərin ona heç bir faydası olmaz, əksinə Allah-taala onu üzü üstə cəhənnəmə atar. Daha sonra Peyğəmbər (s) "Məvəddət" ayəsini tilavət etdi."*** [1]

Bu rəvayətdə də, aşağıdakı məsələlər nəzərə çarpır:

***Birincisi,*** bu rəvayətdə də Əhli-beytə (ə) göstərilən məhəbbətin sadə və adi bir məhəbbət deyil, əksinə vilayət və imamətin səmərəsi olduğu və o şəxsiyyətlərin ismət və paklıq məqamına malik olduqları bildirilir.

***İkincisi,*** yuxarıdakı rəvayət açıq-aşkar **شجره طيّبه** [2] (pak olan ağac) ayəsinin rəsmi və şəkilidir. Ayənin təfsirlərindən biri yuxarıdakı rəvayətdə bildirilən kimidir.

***Üçüncüsü,*** ağacın yarpaqları meyvələrin qorunması rolunu oynayır. Əgər yarpaqlar olmazsa, onun meyvələri günəş və digər təbii hadisələr müqabilində məhv olacaqdır. Rəvayətdə qeyd edildiyi kimi, ağacın yarpaqları kimi göstərilən şiələr onun meyvəsi olan imamət, vilayət və rəhbərliyi qorumaqda vəzifəlidirlər.

***Dördüncüsü,*** doğrudur ki, Səfa və Mərvə arasında ibadət etməyin Məscidül-Hərama nisbətdə üstünlüyü vardır, amma həmin ibadətlərin imamət və vilayətsiz heç bir dəyərə malik olmadığı rəvayətdən istifadə etməklə başa düşülür.

***Beşincisi,*** bir daha rəvayətdə bildirilən məhəbbətin sadə məhbbət olmadığını nəzərinizə çatdırırıq, əgər həmin məhəbbət sadə və adi bir məhbbət olsaydı, rəvayət və hədislər müqabilində onun qaranlıq qalan tərəfləri olmuş olardı. Amma onu vilayət və imamətə yozsaq, mənası tamamilə aydın olacaq.

3. Süyuti "Əd-Dürrul-Mənsur" əsərində imam Səccaddan (ə) belə bir rəvayət nəql etmişdir: "Kərbəla əsirlərini Şama gətirdikləri zaman, zəhərli təbliğatın təsirinə düşənlərdən biri imam Zeynəl-Abidinə xitab olaraq dedi: "Allaha şükürlər olsun ki, sizi rüsvay edərək yalanınızı üzə çıxardı." Bu cür sözlərin həddən artıq pis və xoşagəlməz olmasına baxmayaraq, imam onun Bəni-Üməyyə zəhərli təbliğatının təsiri altında olduğunu nəzərə alaraq qəzəblənmədi və onunla mülayim danışaraq soruşdu ki, sən Quran oxuyursanmı?

-Bəli, niyə də oxumayım?!

-İmam buyurdu ki, sən bizi tanıyırsanmı?

-Siz kimsiniz?

---

*1. «Məcməul-bəyan", c.9, səh. 28.*

*2. «İbrahim» surəsi, ayə 24.*

-"Məvəddət" –قُلْ لا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْراً إِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبى ayəsini heç tilavət etmisənmi?

-Bəli, bu ayə Peyğəmbərin (s) Əhli-beytinə (ə) məhəbbət göstərməyi vacib etmişdir, amma bunun sizinlə nə əlaqəsi var?

-Peyğəmbər xanədanının yaxınları bizlərik.

Şamlı kişi bu sözləri eşitdikdə, çox pis oldu və öz işindən peşman olaraq tovbə etdi."[1]

Bütün qərinə və şahidlər və bu barədə bəyan edilən rəvayətlərin hamısı Əhli-beytə (ə) bəslənilən məhəbbətin adi və sadə bir məhəbbət olmadığını göstərir.

## *Bir neçə mühüm mətləb*

1. Quranın bəzi ayələrinə uyğun olaraq, məhəbbət itaət və bəndəçiliyə səbəb olmalıdır. Allah-taala "Ali-İmran" surəsinin 31-ci ayəsində buyurur:

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللهُ غَفُورٌ رَحِيمٌ

***"De: "Əgər Allahı sevirsinizsə, onda mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın." Allah çox bağışlayan və mehribandır."***

Deməli, insan sevdiyi kəslərə itaət etməlidir və əgər biz Əhli-beytə (ə) məhəbbət bəslədiyimizi iddia ediriksə, onda, onlara tabe olaraq itaət etməliyik, belə olmadığı təqdirdə, məhəbbətimizdə sadiq hesab edilməyəcəyik. Bu barədə "Ayənin verdiyi mesajlar" hissəsində daha ətraflı məlumat verəcəyik.

2. Dediklərimizdən "Məvəddət" ayəsinin bütün rəvayət və digər ayələrə diqqət etmədən Əmirəl-möminin (ə) və məsum imamların (ə) vilayət və imamətinə dəlalət etdiyi aydın olur. Həmçinin, bu ayənin nazil edilmə səbəbi barədə nəql edilən rəvayətləri və "İkmalud-din", "Sadiqin", "Təbliğ" kimi digər ayələri də bir-birinin kənarında qoysaq, onun vilayət və imamətə dəlalət etdiyi daha çox aydınlaşacaq.

3. Əhli-sünnənin tanınmış təfsirçisi Alusinin "Ruhul-məani" kitabında iki iradı bəyan edilmişdir. Biz əvvəlki bəhslərdə həmin irada cavab verdiyimiz üçün onlardan sadəcə ikisi ilə kifayətlənirik:

a) Digər peyğəmbərlər risalətə muzd və əcr istəmədikləri halda, necə olur ki, İslam Peyğəmbəri (s) risalətinə əcr olaraq yaxınlarına məhəbbəti müsəlmanlardan tələb edə bilmişdir? Bu sualın cavabında onun xeyir və mənfəətinin Peyğəmbərin (s) özünə deyil, bütün müsəlmanlara qayıtdığını demişdik.

---

*1. «Durrul-mənsur», c.6, səh. 7.*

b) Yaxınlara məhəbbətdəki məqsədin Əhli-beytə (ə) məhəbbət olduğunu fərz edərək qəbul etsək, şiənin iddia etdiyi kimi, onun imamət və xilafətlə hansı əlaqəsi mövcuddur? Bunun da cavabın bildirmiş və demişdik ki, əcr və muzd hər bir şeyin özünə uyğun şəkildə olmalıdır və mənşə və ya səmərəsi imamət və vilayət olan məhəbbət də risalətlə mütənasib olmalıdır. Eyni zamanda, vilayətsiz sadə məhəbbət nübüvvətlə eyni çəkidə ola bilməz. Allah hikmət sahibi olduğu və əməllərin savabını hikmətə əsasən verdiyi üçün, Peyğəmbər də (s) hikmətə əsasən, risalətinə münasib olan bir muzd tələb edir ki, o da vilayət və imamətlə əlaqədar olan məhəbbətdir.

## *“Məvəddət” ayəsinin verdiyi mesajlar*

Ayədə risalətin əcr və muzdu kimi bildirilən məhəbbət nədir? Həzrət Əli (ə) və hidayətçi imamlara sevgi göstərməyin mənası və məfhumu nədən ibarətdir?

Bu sualların cavabında dostluq və məhəbbətin iki cür olduğunu deməliyik:

1. Yalançı məhəbbət
2. Həqiqi məhəbbət.

Bu mətləblərin aydınlaşması üçün məhəbbət və dostluqdakı məqsədə nəzər salmalı və həzrət Əlini (ə) nə üçün sevməli olduğumuzu bilməliyik. Görəsən, onu sərvəti, kamalı, şücaəti, səxavət və kərim olması, İslam və Peyğəmbərini (s) müdafiə etməsi və cihad və fədakarlığı səbəbi ilə sevirikmi? Yoxsa, işin içində digər məsələlər vardır? Əgər həzrət Əlini (ə) onun etiqad bəslədiyi dəyərlərə görə seviriksə, görəsən, bizdə də onun qığılcım və şüaları mövcuddurmu? Əgər bizdə yoxdursa, bu məhəbbət yalançı bir məhəbbətdir və əksinə, həqiqidir.

Biz məhəbbət və dostluğu onun meyarları ilə ölçməli və bilməliyik ki, hansı növdəndir. Əgər Allah eləməmiş, birinci növ məhəbbətdən olsa, onu düzəltməyə, əksinə ikinci növdən olsa, onu təkmilləşdirməyə çalışmalıyıq. Həzrət Əlinin (ə) üzərində möhkəm durduğu məsələlərdən biri qayda-qanunlar məsələsi idi. “Közərmiş dəmir" əhvalatını yəqin ki, dəfələrlə eşitmisiniz. Biz bir daha onu xatırladırıq:

“Həzrət Əli (ə) ona edilən hədsiz zülmlər, sükut və ev dustaqlığından sonra, müsəlmanların hakimi olur. Onun qardaşı Əqil – ailə və külfət sahibi, həm də fəqir bir şəxs idi – Mədinədən hakimiyyətin mərkəzi olan Kufə şəhərinə qardaşının yanına gəlir ki, bəlkə, beytül-maldan bir qədər artıq səhm ala bildi. Həzrət Əli (ə) qızmar istidə onun üçün süfrə açır, amma həmin süfrə padşah və sultanların süfrəsi kimi cürbəcür

yeməklərlə bəzənmiş deyildi və adi süfrələrdən fərqlənmirdi. Bu baxımdan, Əqil əlini süfrəyə uzatmır və deyir: "Bu yeməklər mənim mədəmə görə deyil. Sən mənim çətinliyimi həll et ki, Mədinəyə qayıdım." Həzrət Əli (ə) buyurdu: "Qardaş, Kufə bazarının zəngin olduğunu bilirsən, gəl birlikdə gedib dükanlardan birini yaraq, sən də istədiyin qədər mal götür apar." Əqil deyir ki, əziz qardaş, bəyəm, biz oğruyuq ki, belə bir işə əl ataq?! Həzrət cavabında ona "Beytül-maldan əlavə bir şey götürmək oğurluq deyilmi?" – deyə cavab verir. Sonra həzrət qardaşına başqa bir təklif edərək buyurur: "Eşitmişəm ki, Kufəyə bir karvan gəlir. Gəl pusquda dayanıb o karvanı soyaq və sən ehtiyaclı olduğun hər şeyi o karvandan götür." Əqil deyir ki, axı, biz karvan soyan quldur deyilik! Həzrət Əli (ə): "Beytül-maldan kiməsə səhmindən artıq bir şey vermək də bir növ quldurluqdur, sən nə üçün məni bu cür işlərə dəvət edirsən?" – deyir.[1] Sonra həzrət Əli (ə) közərmiş bir dəmiri ona tərəf yaxınlaşdıraraq demək istəyir ki, sən bunun istisinə dözə bilmədiyin halda, mən cəhənnəmin atəşinə dözə bilərəmmi? Əqil onun bir an belə ədalətdən xaric olmayacağını gördüyündə, ayağa qalxıb gedir."

Dünyanın hansı bir yerində qüdrətli və ölkə sərvətinə sahib olan bir qardaşın ədaləti gözləmək üçün öz qardaşı ilə belə rəftar etdiyini müşahidə etmək olar?!

İlahi! Bizim məsul şəxslərimizə də bu cür olmağı nəsib elə!

## *Məhəbbətin mərtəbə və mərhələləri*

Digər məsələlərdə olduğu kimi, məhəbbətin də müxtəlif mərhələ və mərtəbələri vardır və Əmirəl-mömininə (ə) məhəbbət hamıda eyni səviyyəli deyil. Bəzi şəxslərin məhəbbəti yalandan və dillərindədir və onların qəlbində özünə kök salmamışdır. Bəzilərinin də məhəbbəti həqiqi və qəlblərində möhkəmlənmiş olsa da, hələ dərin bir məhəbbət deyil, səthidir. Üçüncü dəstənin qəlbində həmin məhəbbət elə bir şəkildə formalaşmışdır ki, onlar məhbubun xüsusiyyət və keyfiyyətini əldə etmişlər. Onların danışıqları, rəftar və bəxşişləri, bir sözlə, hər bir xüsusiyyətləri həzrət Əliyə (ə) bənzər şəkildədir. Bu, məhəbbətin ən ali mərhələsidir və onun sahibləri həmin məhəbbəti heç nə ilə dəyişməyə hazır deyillər, hətta bu yolda canlarını belə fəda edə bilərlər. Həmin nümunələrin bir neçəsinə diqqət edin:

## *Xalis aşiq olan Meysəm Təmmar*

Həzrət Əli (ə) ona hədsiz və xalis məhəbbət göstərənlərdən birinə

*1. «Biharul-ənvar», c.9, Təbriz çapı, səh. 613 ("Dastane rastan", c.1, 38-ci dastanda nəql edilənlərə əsasən).*

deyir: "Səni bir gün mən və mənim məktəbimi müdafiə etdiyin üçün dar ağacından asacaqlar. O zaman sənin halın necə olacaq?" Adı çəkilən şəxs heç bir qorxu hissi keçirmədi və həzrət Əlidən (ə) uzaqlaşmadı da. Əksinə, onu asacaqları ağacın hansı ağac olduğunu soruşdu. Həzrət Kufədəki xurma ağaclarından birinə işarə etdi və onu orada asacaqlarını söylədi. Meysəm Təmmar bu hadisədən sonra o həzrətdən kənar gəzmədi, əksinə onun məhəbbəti daha da çoxalmağa başladı. O, hər gün həmin xurma ağacının yanına gələrək ona su verib qulluq edir və orada namaz qılaraq ağacla bu şəkildə söhbət edirdi: "Ey ağac! Sən məmin üçün yaradılmısan, mən də sənin üçün. Bir gün məni həzrət Əliyə (s) bəslədiyim məhəbbətə görə sənin budaqlarından asarlar. Dünyanın harasında bu cü aşiqləri tapmaq olar?!"[1] Vədə edilmiş gün gəlib çatdıqda, onu həmin ağacdan asırlar və o, bununla kifayətlənməyərək həzrət Əlinin (ə) fəzilətlərindən danışmağa başlayır. Düşmən ona mane ola bilmədikdə, həm dilini, həm də başını kəsir."

Baş canan yolunda fəda oldu, lap yerinə düşdü,
Bu din boynumdan əda oldu, lap yerinə düşdü.
Qəlbim qanı ilə düzələn həna başa yaxıldı,
Qəlbim qanı dillərdə dastana çevrildi, lap yerinə düşdü.

***Sual:*** İslam dinində təqiyyə etmək vacib deyilmi? Nə üçün belə insanlar təqiyyə edərək öz canlarının amanda qalmasına çalışmırdılar?

***Cavab:*** Təqiyyə bəzi yerlərdə vacib olduğu kimi, bəzi yerlərdə də haramdır. Dinin təməl və əsasları aradan gedər və bütün yeri zülmət və zülm bürüryərsə, insan qüdrətə sahib olduğu miqdarada onun mənfi cəhətlərini ifşa etməlidir. Belə hallarda təqiyyə etməyin ən böyük və bağışlanılmayan günahlardan ola biləcəyi də bildirilmişdir.[2]

---

*1. Keçmişdəki edam etmə məsələsi bu günlərdə məşhur olan edam etmə ilə fərqlərə malik olmuşdur. Hazırda olan edametmə kimi, insanın başına xüsusi bir kəndir keçirib yuxarı qaldırararaq onun qısa bir müddətdə öldürmürdülər. Qədimdə bir şəxsi edam etmək istəyərkən, onların əllərini möhkəm bağlayırr və əllərindən asırdılar və beləliklə, o, günün istisi, soyuq və yağan yağışlar, həmçinin ac və susuzluqdan günlərlə can verərək ölürdü. Onlardan bəzilərinin cəsədlərini hətta, ağacdan endirmirdilər ki, başqalarına ibrət olsun və bu minvalla, onun əti tökülüb skeleti qalana qədər ağacda saxlayırdılar.*

*2. Bu mövzu barəsində «Güclü mübarizə aparmaq üçün müdafiə təqiyyəsi» əsərindən məlumat əldə edə bilərsiniz.*

# 3 “MÜBAHİLƏ” AYƏSİ

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللّهِ عَلَى الْكَاذِبِينَ

***“Buna görə də sənə elm gəldikdən sonra, onun barəsində (İsa Məsih-əleyhissəlam haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: “Gəlin biz öz oğullarımızı, siz də öz oğullarınızı, biz öz qadınlarımızı, siz də öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü (bizim canımız kimi olan kəsləri) çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə, Allahın lənətinin yalançılara olmasını diləyək (Peyğəmbər (s) bu hadisədə imam Həsənlə (ə) imam Hüseyni (ə) oğulları, Fatiməni (ə) qadın və Əlini (ə) canı kimi “mübahilə”yə, yəni ayədə işarə olunan qarşılıqlı nifrin etmə mərasiminə apardı və kafirlər təslim oldular).””***

*“Ali-İmran” surəsi, ayə 61*

### *Bəhsə qısa bir nəzər*

“Mübahilə” ayəsi də Əmirəl-möminin (ə) və onun iki övladı imam Həsən (ə) və imam Hüseynin (ə) imamət və vilayətinə dəlalət edən ayələrdən hesab edilir. Mövzusu müsəlmanların Nəcran məsihiləri ilə mübahiləsi olan bu şərif ayə bir tərəfdən, İslam və İslam Peyğəmbərinin (s) haqq olduğunu, digər tərəfdən də, Peyğəmbər (s) Əhli-beytinin (ə) yüksək məqam və mərtəbəyə malik olmasını bəyan edir. Eyni zamanda, həmin ayə vasitəsi ilə Əmirəl-mömininin (ə) vilayət və xilafətini sübuta yetirmək olar.

### Müqəddimə

Ayənin təfsirinə başlamazdan əvvəl, iki mətləbin xatırladılması çox zəruridir:

### 1. "Mübahilə" sonuncu çarədir

"Ali-İmran" surəsinin 35-ci ayəsindən 60-cı ayəsinə qədər İsa Məsih (ə) barəsində danışılır. Bu iyirmi altı ayədə o həzrətin məqam və xüsusiyyətlətri, anası Məryəm (ə), onun mələklərlə söhbəti, asimani süfrənin həzrət İsaya (ə) nazil edilməsi və s. digər məsələlərdən söhbət açılmışdır. Allah-taala həzrət İsa (ə) barədə bu qədər uzun-uzadı danışdıqdan sonra, İslam Peyğəmbərinə (s) bildirir ki, əgər məsihilər bu qədər məntiqi və tutarlı dəlillərdən sonra yenə də İslamı qəbul etməməkdə israr etsələr, onlarla başqa cür davranaraq mübahilə et ki, bu yolla haqq aydın olsun.

### 2. "Mübahilə" nə deməkdir?

"Mübahilə" sözü "bəhl" kökündən götürülmüşdür və ərəb dilinin lüğətində "tərk etmək" mənasını verir. Dəvələr balalayanda, sahibi onun süd gələn yerlərini (əmcəyini) bağlayır ki, dəvənin balası südün hamısını içib qurtarmasın və sahibi də ondan istifadə edə bilsin. Ərəblər bəzən də dəvə balasının dəvənin bütün südünü içə bilməsi üçün, onu sərbəst buraxırlar. Belə dəvələr "ibilun bahil" adlanır.

Amma həmin sözün terminalogiyada başqa bir mənası da var və iki nəfər elmi və məntiqi bəhslərdə bir-birini qane edə bilməsə, bir-birinin haqqında qarğış edərək deyirlər ki, əgər mən doğru deyirəmsə, Allah sənin cəzanı versin! Bu məsələyə şərtləri ilə bərabər "mübahilə" deyirlər.

"Mübahilə" sözünün lüğəvi və terminoloji mənasının bir-biri ilə irtibatı aydındır. Özünün haqq olduğunu iddia edən şəxs qarşı tərəfi tərk edərək onu Allaha tapşırır.

## Şərh və təfsir

### Mübahiləyə dəvət

**فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ** – Ey Peyğəmbər (s)! Əgər həzrət İsa Məsih (ə) və onun bütün xüsusiyyətləri barəsində söylənən açıq-aşkar dəlillərdən sonra, yəhudi və məsihilərin bir daha tərslik

və inadlarına davam etdiklərini – bu inad və tərslik onların haqqı tapmasına mane olmuşdur – görsən, başqa bir yolla onları haqqa dəvət edərək onlarla mübahilə et!

فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ – Ayənin bu qismində mübahilədə iştirak edəcək insanlar müəyyən edilir. Peyğəmbərə (s) bu mərasimdə dörd dəstənin iştirak edəcəyini onlara bildirməsi göstərişi verilir:

1. Müsəlmanların başçısı – Peyğəmbər (s) və Nəcran məsihilərinin böyüyü.

2. Bizimlə sizin övladlarımız.

3. Bizim və sizin qadınlarınız.

4. Özümüzlə sizin özünüz.

"Mübahilə" ayəsindəki أَبْنَاءَنَا (oğullarımız), نِسَاءَنَا (qızlarımız) və أَنْفُسَنَا (özümüz) sözlərindəki məqsədin kimlər olduğunu gələcək bəhslərdə geniş və müfəssəl bildirəcəyik.

ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللهِ عَلَى الْكَاذِبِينَ – Mübahilədə iştirak etmək üçün tərəflər arasında müəyyən edilmiş şəxslər hazır olduqda, onlar bu şəkildə mübahilə etməli idilər ki, əgər kim yalan desə, Allahın əzabı və lənəti ona olsun və bu yolla haqq aşkara çıxsın!

## *Görəsən, mübahilə həyata keçirildimi?*

***Sual:*** Görəsən, Quranda şərt və keyfiyyəti bildirildiyi kimi mübahilə mərasimi həyata keçirildimi? Əgər həyata keçirildisə, onun nəticə və təsirləri necə oldu?

***Cavab:*** Quran bu barədə heç bir məlumat verməmişdir və biz ayələrdən istifadə edərək onun olub-olmamasını deyə bilmərik, amma İslam tarixində aşağıdakı hadisə çox məşhurdur:

Tarixdə Peyğəmbərin (s) mübahilə gününü məsihilərlə təyin etdiyi qeyd edilmişdir. Məsihilərin ən üstün məzhəbi məqamına sahib olan usquf onlara dedi ki, əgər vədə edilmiş gündə Peyğəmbər (s) mübahilə üçün öz əshabı, baş bilənləri və müsəlmanların tanınmış şəxsiyyətləri ilə gəlsə, onlarla mübahilə edin! Amma əgər öz övlad və yaxınları ilə gəlsə mübahilədən əl çəkin! Nə üçün? Ona görə ki, birinci halda onun nübüvvətində sadiq olmadığı və məğlub olacağə məlumdur, amma ikinci halda onun Allahla irtibatının olması və ona təvəkkül edərək meydana gəldiyi məlum olur.

Vədə olunmuş gün gəlib çatdıqda, məsihilər müşahidə etdilər ki, Peyğəmbər iki uşağın – Həsən (ə) və Hüseynin (ə) əlindən tutmuş,

Fatimə (ə) və Əli (ə) də onun yanında meydana gəlir.

Məsihilərin böyük üsqufu bunları gördüyü zaman, belə deyir: "Mən elə şəxslərin simalarını görürəm ki, əgər Allaha dua etsələr, hökmən, qəbul olar və yer üzündə bir məsihi qalmaz!"[1] Onlar mübahilədən əl çəkərək müsəlmanların kənarında yaşamaq və onlara vergi verməyə razı olduqlarını bildirdilər.

İslam Peyğəmbəri (s) onların təklifini qəbul etdi və mübahilədən əl çəkdi.

Müxtəsər şəkildə qeyd etdiyimiz mübahilə hadisəsi İslam tarixində qeyd edilmişdir. Hicri dördüncü əsr alimlərindən olan Əbu Bəkr Cəssas özünün iki kitabında bu zəminədə iki gözəl və cazibədar cümlə qeyd etmişdir:

1. O, "Əhkamul-Quran" kitabında belə yazır:

**[2]إنّ رواة السّير ونقلة الاثر لم يختلفوا في أنّ النبّي(صلى الله عليه وآله) أخذ بيد الحسن والحسين وعلي وفاطمة ودعا النصارى الّذي حاجّوه الى المباهله**

"Mübahilə günü Peyğəmbərin (s) Həsən (ə) və Hüseynin (ə) əlindən tutduğu və Əli (ə) və Fatimənin (ə) də yanında olduğu halda, Nəcran məsihilərini mübahiləyə dəvət etməsi barədə heç bir tarixçi, ravi və məlumat verənlər fikir ayrılığına malik deyillər (yəni, bu məsələni təsdiqləmişlər)."

2. "Mərifətu ulumil-hədis" kitabında aşağıdakı sözləri qələmə almışdır:

**قد تواترت الاخبار في التّفاسير عن عبدالله بن عبّاس و غيره أنّ رسول الله(صلى الله عليه وآله) أخذ يوم المباهلة بيد علي والحسن والحسين و جعلوا فاطمة ورائهم ثم قال : هؤلاء أبنائنا و أنفسنا و نسائنا**

***"Abdullah ibn Abbasın "Mübahilə" ayəsinin nazil olması ilə bağlı Peyğəmbərdən (s) nəql etdiyi hədis mütəvatirdir. Həmin hadisənin məzmunu belədir ki, Peyğəmbər (s) mübahilə günü Əli (ə), Həsən (ə) və Hüseyni (ə) yanında gətirdi və Fatimə (ə) də onların arxasınca hərəkət edirdi. Həzrət buyurdu: «Bunlar bizim, övladlarımız, qadınlarımız və bizim özümüzdür."""[3]***

*1. Mübahilədə iştirak etməli olan şəxslər iki xüsusiyyətə malik olmalıdır: Birincisi, öz dediyinə imanı olmalıdır. Yalançı şəxslər heç vaxt mübahiləyə razı olmazlar. İkincisi, belə şəxslər Allaha yaxın olmalıdır ki, dua etdiyində duası qəbul olsun. Bir neçə və ya on nəfərdən ibarət olan Nəcran alimləri bu xüsusiyyətləri Peyğəmbər (s) və onunla gələnlərin simasından müşahidə edərək mübahilədən əl çəkdilər.*

*2. "Əhkamul-Quran", c.2, səh. 16 ("İhqaqul-həqq" kitabı, c.3, səh. 48-dən nəqlən).*

*3. «Mərifətu ulumil-hədis», səh. 50, Misir çapı ("İhqaqul-həqq" kitabı, c.3, səh. 48-dən*

"Mübahilə" ayəsinin nazil olması barədə çoxlu rəvayət və hədislər nəql edilmişdir. Biz sadəcə onlardan birini nəql etməklə kifayətlənirik:

"Səhih Müslim" kitabının "Fəzailus-səhabə" qismində Səd ibn Əbi Vəqqasdan maraqlı bir hədis nəql edilmişdir:

Səd deyir: "Mən Müaviyyənin görüşünə getmişdim. Müaviyyə mənə dedi ki, eşitmişəm sən Əliyə (ə) lənət göndərmirsən. Ona nə üçün nalayiq sözlər demir və lənət oxumursan?"[1] Səd cavabında Müaviyyəyə xitab olaraq dedi ki, Allah ona lənət eləsin. Sonra ona "Mən Peyğəmbərdən (s) Əli (ə) barəsində üç cümlə eşitmişəm ki, sənin istəyini yerinə yetirməyimə mane olur. Həmin cümlələr belədir:

a) Peyğəmbər (s) "Təbuk" döyüşünəı gedərkən həzrət Əlini (ə) Mədinədə öz yerinə canişin təyin etdiyində, o həzrət dedi ki, ey Peyğəmbər (s), nə üçün məni də özününzlə döyüşə aparmırsınız? Peyğəmbər (s) buyurdu: "Sənin mənə nisbətinin Harunun (ə) qardaşı Musaya (ə) nisbəti mənziləsində olmasını istəmirsənmi? O, həm Musanın (ə) qardaşı, həm də canişini idi."

b) "Xeybər" döyüşündə qalanın fəthi üçün müxtəlif şəxslər döyüşə getsələr də, onların hamısı kor-peşman geri qayıtdı. Peyğəmbər (s) bir gecə buyurdu ki, sabah döyüş bayrağını elə bir şəxsə verəcəyəm ki, o döyüşdən yorulmur və düşmənə də arxa çevirmir. Bütün səhabələr həmin şəxsin kim olmasının intizarında idi. Birdən Peyğəbmbər (s) üzünü səhabələrə tutaraq gözlərilə kimizə axtarmağa başladı və Əlini (ə) görmədikdə, onun harada olduğunu soruşdu. Xəbər verdilər ki, o, göz ağrısına tutulduğu üçün istirahət edir.

Onu yanına çağırmalarını istədi. Həzrət Əli (ə) Peyğəmbərin (s) yanına gəldikdə, o həzrət ağzının suyundan onun gözlərinə çəkdi və Allahın izni ilə gözləri şəfa tapdı. Bayrağı ona verdi və həzrət Əli (ə) döyüşün gedişində Xeybər qalasını fəth etdi.

c) Mübahilə məsələsində də Peyğəmbər (s) Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynlə (ə) Nəcran məsihiləri ilə mübahilədə iştirak etdi.

Daha sonra Səd Müaviyyəyə dedi ki, Peyğəmbərdən (s) Əlinin (ə) fəzilətləri barədə eşitdiyim bu sözlərlə ona lənət göndərə bilərəmmi?! Müaviyyə (Allahın lənəti ona olsun) sakit olaraq öz sözlərindən

---

*nəqlən).*

*1. Bu cümlələr Bəni-Üməyyənin o həzrətə kin və düşmənçiliyinin zirvə nöqtəsini və həzrət Əlinin (ə) məzlumiyyətinin dərəcəsini göstərir. Onlar o qədər xəbis və məlun idilər ki, ən azı, müsəlmanların xəlifəsi kimi qəbul edilən o həzrətə ehtiram etmirdilər və əgər kimsə bu işi yerinə yetirməsəydi, onu tutub incidir və işkəncə verirdilər. Daha təəccüblüsü bəzi əhli-sünnələrin onu (ümmül-xəbaisi – yani, pisliklərin anası) bu qədər cinayətlərin müqabilində müdafiə edərək ona mövla Müaviyyə deməsidir.*

peşman oldu."[1]

## "Mübahilə" ayəsindəki أَبْنَاءَنَا (oğullarımız), نِسَاءَنَا (qızlarımız) və أَنْفُسَنَا-(özümüz) kimlərdir?

نِسَاءَنَا *(qızlarımız)* sözündəki məqsədin Peyğəmbərin (s) qızı Fatimə (ə) olduğu barəsində bizimlə əhli-sünnə arasında fakir ayrılığı mövcud deyil. Həmçinin, şiə və əhli-sünnə təfsirçiləri أَبْنَاءَنَا ***(oğullarımız)*** sözünün imam Həsən (ə) və imam Hüseynə (ə) şamil olması kimi təfsir etmələrində də heç bir nəzəri ixtilaf yoxdur. Bu bəhsdə daha çox أَنْفُسَنَا *(özümüz)* barəsində söhbət açacağıq və məsələ həmin sözün ətrafındadır.

Mərhum Qazi Nurullah Şüştəri (r.ə) dəyərli kitabı "İhqaqul-həqq"də belə yazır:

اجمع المفسّرون على ان «ابناءنا» اشارة الى الحسن والحسين(عليهما السلام (و «نسائنا» اشارة الى فاطمه )عليها السلام ( و «انفسنا» اشارة الى على) عليه السلام (

***"Əhli-sünnə və şiə təfsirçilərinin hamısı fikir birliyinə malikdirlər ki, نِسَاءَنَا (qızlarımız) sözündəki məqsəd Peyğəmbərin (s) qızı Fatimə (ə), أَبْنَاءَنَا (oğullarımız) sözündə imam Həsən (ə) və imam Hüseyn (ə) və أَنْفُسَنَا (özümüz) sözündə isə Əlidir (ə)."***

Ayətullahul-üzma Mərəşi Nəcəfi (r.ə) bu kitabın haşiyə hissəsində əhli-sünnənin altmış kitabından yuxarıdakı mətləbi nəql etmişdir.[2]

Bu, o deməkdir ki, həmin məsələ o qədər aydın və aşkardır ki, əhli-sünnənin bütün kitablarında öz əksini tapmışdır.

Amma təəssüflər olsun ki, bütün bu rəvayətlərin olmasına baxmayaraq, əhli-sünnənin yersiz təəssübçülük və şəxsi düşüncəyə əsasən ayələri təfsir edən bəzi alimləri həmin ayə ilə bağlı təəccüb doğuran mətləblər söyləmişlər. Onlardan ikisinə diqqət edin:

1. Alusi "Ruhul-məani" kitabında mübahilədə Peyğəmbərlə (s), Fatimə (ə), Əli (ə), Həsən (ə) və Hüseyndən (ə) başqa, kiminsə iştirak etmədiyini etiraf və bu məsələ barəsində hansısa bir möminin şəkk etməməli olduğuna təkid etdikdən sonra, şiə alimlərinin dəlilləri barədə söhbət açaraq iddia edir ki, أَنْفُسَنَا *(özümüz)* sözündəki məqsəd Peyğəmbərin (s) özüdür və Əli (ə) أَبْنَاءَنَا ***(oğullarımız)*** sözünə

*1. «Səhih Müslim», c.4, səh. 187, hədis: 32.*

*2. «İhqaqul-həqq», c.3, səh. 46.*

daxildir. Çünki ərəblər kürəkənə də bəzən “oğul” deyirdilər.[1]

Bu məsələyə cavab da açıq-aşkardır. Həmin ayəyə əsasən, Peyğəmbər (s)نسائنا *(qızlarımız)*,أبنائنا *(oğullarımız)*,أنفسنا *(özümüz)* – sözlərində qeyd edilən şəxsləri mübahiləyə aparmışdır. Əgər أنفسنا *(özümüz)* sözündəki məqsəd Peyğəmbərin (s) özüdürsə, onda, yaxınları mübahiləyə dəvət etməyin mənası olarmı? Bildiyimiz kimi, Quran fəsahət və bəlağətli sözlərə malikdir və qeyri-fəsih sözlər onda işlənməmiş və boş yerə Peyğəmbərə (s) yaxınlarını mübahiləyə aparmasına göstəriş verməmişdir. Həmin sözdəki məqsədin Peyğəmbərin (s) özü olmadığı aydındır. Bundan əlavə, ərəb dilinin qrammatikasında kürəkənə oğul deyə xitab edilməsinə rast gəlməmişik və bu məsələ nadir hallarda və məcazi mənada işlənir.

Bu şəkildə olan düşüncə və nəzərlərdən o qədər də təəccüb etməyin, çünki bunlar yersiz təəssübkeşliyin nəticələridir. Belə şəxslər öz batil əqidələrinə haqq qazandırmaq üçün hətta Qurana belə öz fikirlərini yeritmək istəyirlər.

2. Alusinin yuxarıdakı sözlərdən daha heyrətlisi Məhəmməd Əbduhun “Əl-Mənar” təfsirindəki nəzəriyyəsidir. O, “Mübahilə” ayəsinin təfsiri ilə əlaqədar yazır:

**الرّوايات متّفقة على أنّ النّبي(صلى الله عليه وآله) اختار للمباهلة عليّاً وفاطمة و ولديهما و يحملون كلمة نسائنا على فاطمة وكلمة انفسنا على عليٍّ فقط و مصادر هذه الرّوايات الشّيعة و مقصدهم منها معروف**

***“Rəvayət və hədislərdə Peyğəmbərin (s) mühabiləyə Əli (ə), Fatimə (ə) və onların iki övladını apardığı göstərilmişdir.* نسائنا *sözü Fatiməyə (ə) və* انفسنا *sözü Əliyə (ə) aid edilmişdir. Bu sözlər şiələrin mənbə və sənədələrində qeyd edilmişdir. Onların belə rəvayətlərdəki hədəfi məlum məsələdir.”*** [2]

Həqiqətən də, Məhəmməd Əbduhun sözlərinin əvvəli və axırı bir-biri ilə ziddiyyət təşkil edir. Çünki əvvəldə həmin məsələnin rəvayətlərdə bildirildiyini söyləyir, sonra isə onu şiələrə nisbət verir. Bundan əlavə, onun sonuncu sözləri düzgün deyil, onun iddia etdiyinin əksinə olaraq, həmin məsələlər daha çox əhli-sünnə mənbələrində qeyd edilmişdir. Belə əsassız sözlər müqabilində təəssüfləndiyimizi bildirməkdən başqa, bir söz demirik.

Beləliklə, “Mübahilə” ayəsinin qeyd edilən bütün rəvayət və

---

*1. “Ruhul-məani”, c.3, səh. 189.*

*2. “Əl-Mənar”, c.3, səh. 322.*

hədislərə əsasən, Əmirəl-mömininin (ə) və onun övladlarının vilayətinə dəlalət etdiyi anlaşılır.

***Sual:*** "Mübahilə" ayəsinin Əmirəl-möminin (ə) üçün fəzilət və iftixar hesab edilməsində şübhə yoxdur. Amma onun vilayətlə hansı rabitəsi var ki, siz həmin ayəni burada o məqsədlə qeyd etmisiniz?

***Cavab:*** Ayədəki انفسنا sözünün şəxsən, həzrət Əliyə (ə) şamil olduğu aydın məsələdir, amma Peyğəmbər (s) həzrət Əlini (ə) öz canı kimi tanıtdırdığına görə, ondakı məqsəd sözün həqiqi mənasıdır, yoxsa, məqamın üstünlüyüdür? Sözsüz ki, həqiqi məna nəzərdə tutulmamışdır. Yəni, həzrət Əli (ə) Peyğəmbər deyil, əksinə onun bütün kamali, şücaət, təqva və digər xüsusiyyətlərdə Peyğəmbər (s) kimi olması bildirilir. Bu baxımdan, əgər Peyğəmbər (s) üçün Allah tərəfindən canişin təyin edilsə və ya ümmət kimisə seçmək istəsə, onlar həzrət Əli (ə) kimi birini seçməli deyillərmi? Çünki o, ismət və təharət məqamında, həmçinin, bütün kamal sifətlərində, şəxsən, Peyğəmbərin (s) özü kimidir. Əgər bununla yanaşı, digər şəxslər seçilərsə, əql həmin işi qəbahət və pis bir iş kimi dəyərləndirməzmi? Deməli, انفسنا sözünün şəxsən, həzrət Əliyə (ə) uyğun gəlməsi ilə biz vilayət və imamət məsələsini sübuta yetirə bilərik.

İlahi! Əhli-beytin (ə) vilayəti olaraq bizə bəxş etdiyin bu böyük və əvəzsiz nemətin qədrini bilməyimizdə bizə kömək ol! Onların dünyadakı nəzərlərini və axirətdə isə şəfaətini bizdən məhrum etmə!

# 4 “DƏHR” SURƏSİNİN AYƏLƏRİ

إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِن كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا عَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ يُفَجِّرُونَهَا تَفْجِيرًا يُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاءً وَلَا شُكُورًا إِنَّا نَخَافُ مِن رَّبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

***“İnsanın zaman axışında elə bir dövrü olub keçmişdirmi ki, onda xatırlanası bir şey olmasın? (Bəli, onun ilk maddəsinin formalaşmağa başladığı zamandan insan şəklinə düşdüyü və ruhun ona üfürüldüyü zamanadək, müxtəlif dövrlər olmuşdur. Bu dövrdə o, insan adlandırılacaq şəkildə olmamışdır). Həqiqətən, biz insanı (ilk iki insanın nəslini) qarışıqlardan ibarət olan bir nütfədən, (hər biri bir neçə maddədən təşkil olunmuş kişi ilə qadının mənisindən) yaratdıq, onu bir haldan başqa bir hala saldıq ki, imtahana çəkək. Nəhayət, onu eşidən və görən bir varlıq etdik. Həqiqətən, onu (yaradılış və şəriət hidayəti ilə həyatı boyunca) düz yola yönəltdik – istər şükr edən olsun, istərsə də nankor!***

***Əlbəttə, biz kafirlər (və nankorlar) üçün zəncirlər, qandallar və alovlu bir od hazırlamışıq. Şübhəsiz, yaxşı əməl sahibləri (o aləmdə sərin və xoş ətirli) kafur qatılmış badələrdən içəcəklər. (Orada) elə bir bulaq (vardır) ki, Allah bəndələri ondan içəcək və onu hər hansı bir tərzdə istəsələr, axıdacaqlar. Onlar öz nəzirlərinə əməl edər, şəri və əzabı olduqca geniş olan bir gündən qorxarlar. Onlar yeməklərini, özləri(nin ehtiyacı olub çox) istədikləri halda, Allaha olan məhəbbət üzündən fəqirə, yetimə və əsirə verərlər. (Onlar həm dildə, həm də qəlbdə deyərlər:) “Biz sizə Allah rizası üçün yemək veririk. Biz sizdən hər hansı bir mükafat və təşəkkür istəmirik. Həqiqətən, biz öz Rəbbimizdən, çox sərt, olduqca çətin, dəhşətli (və üzlərin tutulub qaralacağı) gündən qorxuruq.””***

## *Bəhsə qısa bir nəzər*

Həzrət Əli (ə), pak və məsum Əhli-beytin (ə) mühüm və ibrətamiz fəzilətlərindən biri də bəyan edilən ayələr "İnsan" surəsindədir. Bu surənin otuz bir ayəsindən on səkkizi onların bu bənzərsiz fəzilətləri barəsindədir. Həmin ayələrin bir qismində macəranın əsli və digər on dörd ayədə isə Əhli-beyt (ə) olan bu dəyərli ailənin etdiyi əməllərin savabından söhbət açılır. Onlarla əlaqədar olan mətləbi gələn bəhslərdə diqqətinizə çatdıracağıq.

## *Ayələrin nazilolma səbəbi*

Barəsində söhbət edilən ayələrin nazil olunma səbəbi barədə əksər kitablarda bəhs edilmişdir. Mərhum Əllamə Əmini "Əl-Qədir" kitabında əhli-sünnənin otuz dörd,[1] Qazi Nurullah Şüştəri isə onların otuz altı kitabından nazilolma səbəbi barədə nəql etmişdir.[2] Beləliklə, nazilolma səbəbi barədə deyilənlər mütəvatir həddindədir. Yuxarıda qeyd edilən bütün mənbələrdə xülasə şəkildə bəyan edilən nazilolma şəni barədəki şərh belədir:

"İmam Həsən (ə) və imam Hüseyn (ə) uşaqlıqda xəstələnirlər və həzrət Peyğəmbər (s) onlara baş çəkmək üçün imam Əli (ə) və xanım Fatimənin (ə) evinə gəldi. Peyğəmbər (s) sevimli nəvələrinin xəstə halını müşahidə etdikdə, üzünü həzrət Əliyə (ə) tutaraq dedi ki, Allahın onlara şəfa verməsi üçün nəzir edin.

Həzrət Əli (ə) dərhal belə deyir: "İlahi! Əgər övladlarım şəfa tapsa, üç gün oruc tutacağam." Xanım Fatimə (ə) də, hətta imam Həsən (ə) və imam Hüseyn (ə) yaşları çox az olmasına baxmayaraq, ata və anasının nəzir etdikləri kimi oruc tutmağı nəzir etdilər. Orada olan Fizzə (onların xidmətçisi) də çox ehtimal ki, eyni şəkildə nəzir etdi. Çox az bir müddətdən sonra Peyğəmbərin (s) nəvələri şəfa tapır və Əhli-beyt (ə) öz nəzirlərini əda etməli olur.

Birinci gün oruc tuturlar. Həzrət Əli (ə) bu üç günlük orucun iftarı üçün bir miqdar arpa gətirir. Onu üyüdüb una çevirərək üç yerə bölürlər. Onun birinci qismindən oruc tutanların sayına görə birinci günün iftarı üçün çörək hazırlayırlar. İftar zamanı onlar həyət qapısının araxasından bir nəfərin səsləndiyini duyaraq çölə çıxırlar və bir şəxsi görürlər ki, onlara belə xitab edir:

اَلسَّلامُ عَلَيْكُمْ يا اَهْلَ الْبَيْتِ

---

*1. "Əl-Qədir", c.3, səh. 107. Bu kitabda nazil olma səbəbi barədə nəql edilən on dənə əhli-sünnə kitablarına diqqət edin: "Navadirul-usul", səh. 64; "Əl-Əqdul-fərid", c.3, səh. 42; "Əl-Kəşfu vəl-bəyan", səh. 307-428; "Mənaqibu Xarəzmi", səh. 180; "Mətalibus-suul", səh. 31; "Nurul-əbsar", səh. 12-14; "Fəthul-Qədir", c.5, səh. 338; "Ruhul-bəyan", c.10, səh. 268; "Əl-İsabəh", c.4, səh. 387; "Durrul-mənsur", c.6, səh. 299.*

*2. "İhqaqul-həqq", c.3, səh. 157.Bu kitabın əhli-sünnədən nəql etdiyi nazil olma səbəbi barədəki kitablar belədir:*

*"Kəşşaf", c.4, səh. 169; "Əsbabun-nuzul", səh. 331; "Məalimut-tənzil", c.7, səh. 159; "Ət-Təfsirul-kəbir", c.3, səh. 243; "Təzkirətun ibnil-Cuzi", səh. 322; "Kifayətut-talib", səh. 201; "Təfsire Qurtubi", c.19, səh. 129; "Zəxayirul-uqba", səh. 102; İbn Əbil Hədid, "Nəhcül-bəlağənin şərhi", c.1, səh. 7, "Əllamə Nişapurinin təfsiri", c.29, səh. 5112.*

"Salam olsun sizə, ey Əhli-beyt (ə)!" Mən ehtiyaclı, möhtac və miskin bir şəxsəm. Mənə kömək edin! Həzrət Əli (ə) öz hissəsinə düşən çörək payını o fəqirə verir və xanım Fatimə (ə) də belə edir, həmçinin, ailənin qalan üzvləri də öz paylarını həmin şəxsə verirlər. O axşam onlar su ilə iftar edirlər.[1]

İkinci gün də oruc tutaraq unun üçdəbir hissəsi ilə çörək hazırladılar. İftar etmək istəyərkən yenə də kiminsə səsləndiyini duydular və çölə çıxdılar. Həmin şəxs belə dedi: "Salam olsun sizə, ey Əhli-beyt (ə)!"Onlar həmin şəxsdən kim olduğunu və nəyə ehtiyac duyduğunu soruşdular. O dedi ki, mən bu şəhərdəki yetimlərdən biriyəm və acam. Məni doyurun! Yenə də həzrət Əli (ə) öz payına düşən hissəni ona verdi və digərləri də kamil bir ixlasla Allahın rizayətini cəlb etmək üçün bu işi gördülər və birinci gündə olduğu kimi su ilə iftar etdilər.

Üçüncü gün də birinci və ikinci günlərdə olduğu kimi oruc tutdular və hadisələr əvvəldə olduğu kimi təkrarlanmağa başladı. Bu dəfə onlardan kömək istəyən şəxs bir əsir idi. Həzrət Əli (ə) və ailənin digər üzvləri öz paylarını əsirə verərək həmin günü su ilə iftar etdilər və beləliklə, öz nəzirlərinə vəfalı qaldılar.

Növbəti gün Peyğəmbər (s) imam Həsən (ə) və imam Hüseyni (ə) zəifliyin şiddətindən titrəyən halda müşahidə etdikdə, çox narahat oldu və digər tərəfdən də, qızı Fatimənin çuxura düşmüş gözlərini gördükdə, o həzrətin nigaranlığı bir az da artdı və o, həzrət Əlidən (ə) soruşdu ki, ey Əli (ə), nə üçün uşaqlar bu qədər zəifləmiş və narahat haldadırlar? Niyə qızım Fatimənin (ə) rəngi solmuşdur? Həzrət Əli (ə) hadisəni Peyğəmbərə (ə) danışdı və Cəbrayıl nazil olaraq "İnsan" (Dəhr) surəsinin ayələrini gətirdi.""

## *Şərh və təfsir*

### *Əhli-beytin (ə) beş xüsusiyyəti*

On səkkiz ayənin dördündə bu əzəmətli ailənin gördüyü işin əsli barədə bəhs edilir və yerdə qalan on dörd ayədə isə onların tayı-bərabəri olmayan və qalarğı əməllərinin müzd və əcrindən danışılır. Əvvəlcə ilk dörd ayənin şərh və təfsirinə diqqət edin. Bu ayələrdə Əhli-beytin (ə) aşkar olan beş xüsusiyyətindən söhbət açılmışdır:

*1. Bugünkü zamanda süfrələrdə cürbəcür yeməklər mövcuddur və təəssüflər olsun ki, bəzən bu məsələ naşükürlüklə nəticələnir. Bəzi süfrələrdə birdən artıq xörək olmasa, süfrə əhli şikayət və giley-güzar edərlər və bu, təhlükəli məsələlərdəndir. Amma həmin zamanlardakı müsəlmanların ümumi vəziyyəti münasib deyildi və camaatın əksəriyyəti öz qarınlarını quru çörək və su ilə doyururdu.*

### 1. Əhd-peymana fəva etmək

يُوفُونَ بِالنَّذْرِ *" öz nəzirlərinə vəfa edərlər."*– Bütün şiələrə örnək və nümunə olacaq bu ailənin birinci dəyərli əməli onların öz nəzirlərinə əməl etməsidir. Amma şiələrdən bəziləri bəla, müsibət, xəstəlik və əziyyətlər müqabilində nəzir edir, lakin çətinlikləri həll olunduqdan sonra nəzirlərinə əməl etmək zamanı gəldikdə, müxtəlif bəhanələrlə öz nəzirlərinə əməl etməkdən boyun qaçırırlar. Bəzən nəzir etməklə bağlı olan sözlərin düzgün oxunun-oxunmamasında şəkkə düşür, bəzən də onun düzgün icra edilib-edilməməsində şübhə edirlər. Bir sözlə, hansısa bir bəhanə ilə onu yerinə yetirməkdən çəkinirlər.

Bu məsələ bir şəxsin canı xətərt və təhlükəyə düşərkən nicat tapacağı təqdirdə, çətin bir nəziri yerinə yetirəcəyinə söz verməsinə və həmin çətinlikdən nicat tapdıqdan sonra da nəzir etdiyi imamzadəyə xitab olaraq belə deməsinə bənzəyir: "Ey imamzadə, mən canım təhlükəyə düşdüyündə, qorxumdan belə ağır bir nəzir etdim, siz nə üçün mənə inandınız və məni xilas etdiniz?!"

Biz müsəlmanların bəzisi aşağıdakı ayənin misdaq və nümunəsiyik:

فَإِذا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللهَ مُخْلِصينَ لَهُ الدِّينَ فَلَمّا نَجّاهُمْ إِلَى الْبَرِّ إِذاهُمْ يُشْرِكُونَ

***"Gəmiyə minən (və qərq olmaq təhlükəsi ilə üzləşən) zaman dini yalnız Allaha məxsus edib ona dua edərlər. (İbadət etdikləri bütləri unudarlar. Allah) onları quruya çıxarıb xilas edən kimi dərhal ona şərik qoşarlar."***[1]

Əhli-beyt (ə) isə heç vaxt bu cür olmamışdır və onlar təkcə öz nəzirlərinə deyil, əksinə bütün əhdlərinə həmişə əməl etmişlər, çünki imanın[2] nişanə və həqiqi müsəlmanın əlamətlərindən biri insanın zərərinə də olsa, əhd və nəzirə vəfa etməkdir.

### 2. Qiyamət günündən qorxmaq

وَيَخافُونَ يَوْماً كانَ شَرُّهُ مُسْتَطيراً ***"Onlar şər və əzabı olduqca geniş olan bir gündən qorxarlar."***– Allah-taalanın bu hadisə ilə əlaqədar ona işarə etdiyi Əhli-beytin (ə) ikinci xüsusiyyəti onların qiyamət (məad və dirilmə) günündən qorxmasıdır. Bu qorxu qiyamət günündə kiməsə zülm ediləcəyindən deyil, əksinə Allahın ilahi ədalət məhkəməsində dayanacaqları səbəbindəndir. Çünki həmin ədalət məkkəməsində insanın bütün böyük və kiçik əməlləri araşdırılacaq.

---

*1. "Ənkəbut" surəsi, ayə 65.*

*2. Bu zəminədə "Mizanul-hikmət" kitabının birinci bölməsində (cild 1, səh. 346) bir rəvayət nəql edilmişdir. Maraqlananlar həmin mənbəyə müraciət edə bilərlər.*

فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ * وَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ ***"Hər kəs bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eyni ilə təcəssümünü) görəcəkdir və hər kəs bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir!"*** ayəsinin misdaq və nümunəsi olan məhkəmə, həqiqətən də, qorxmağa layiqdir. Çünki orada tükü yağdan çəkər kimi əməllər dəyərləndirilir və heç kimə iynənin ucu qədər də zülm olunmur. Bəli, ilahi ədalət məhkəməsi geniş və əhatəlidir, eyni zamanda, o, kişi, qadın, böyük, kiçik, varlı, fəqir, yaşlı, cavan, alim və cahilə – bir sözlə, bütün insanlara şamildir. Belə bir məhkəməyə iman və etiqad bəsləmək insanda qorxu və xof yaradır.

### 3. Ehtiyacı olanlara yardım etmək

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا ***"Onlar yeməklərini, özləri(nin ehtiyacı olub çox) istədikləri halda, Allaha olan məhəbbət üzündən fəqirə, yetimə və əsirə verərlər."*** – Bu bəhsin əsasını təşkil edən və ayədə göstərilən Əhli-beytin (ə) üçüncü xüsusiyyəti cəmiyyətdəki ehtiyaclı şəxslərə yardım etməkdir. Bu əzəmətli xanədan hətta özləri ehtiyaclı olduğu halda belə, əllərindəkini ehtiyaclı olanlar və fəqirlərə verirlər. Onlar yetim, miskin və əsirə kömək edirlər. Bu şərif ayədə cəmiyyətdəki üç ehtiyaclı qrupa – əsir, miskin və yetimlərə işarə edilmişdir.

***a) Miskin*** – Bu söz "sükun" kökündəndir, yəni fəqirlik və ehtiyac miskinə o qədər təzyiq göstərmişdir ki, o, yerə yapışmışdır. Müsəlman və möminlər öz zəruri ehtiyaclarını ödəyə bilməyən fəqir və miskinlərə əl tutmalı və Allahın onların ixtiyarında qoyduğu nemətlərdən onların da faydalanması üçün onlara kömək etməlidirlər.

***b) Yetim*** – Yetimlər öz himayədarlarını itirən kəslərdir. Yetimlərin maddi baxımdan ehtiyaclı olmaması mümükündür, amma onlar ruhi və mənəvi cəhətdən məhəbbət və nəvazişə ehtiyaclıdırlar. Son zamanlarda baş verən şiddətli və çoxlu tələfat törədən zəlzələlərin birində əlli nəfərdən ibarət olan bir ailədən sadəcə bir nəfər sağ qalmışdı. Həmin şəxs ata, ana, əmi, dayı, bacı, qardaş – bir sözlə, bütün yaxınlarını itirmişdi. Onun məhəbbət və nəvazişə daha çox ehtiyacı vardır, yoxsa o, təklikdə həmin problemlərin öhdəsindən gələ bilməz.

***c) Əsir*** – Bu sözün mənası aşkar və aydındır və öz ev-eşiyi, vətən və yaxınlarından uzaq düşərək digər eldə tək qalmış bir kəsə deyilir. Əsirin öz vətənində varlı və dövlətli olmaq imkanı vardır, amma əsarətdən sonra kömək və yardıma ehtiyaclıdır. Uzun sözün qısası, mömin və müsəlman olan insanlar öz imkan və qüdrətləri daxilində

cəmiyyətin zərər çəkmiş bütün təbəqələrinə kömək etməlidirlər.

Günümüzdə yuxarıda qeyd edilərək Əhli-beyt (ə) xanədanının diqqət mərkəzində saxlanılan cəmiyyətin üç qrupu (təbəqəsi) mövcud deyil, amma digər möhtac təbəqələr də var ki, onların köməyə ehtiyacı daha artıqdır. Məsələn, xərçəng, cüzam və s. kimi müalicəsinə ümid olmayan xəstələri, cehizi olamamasına görə evlənməyi təxirə düşən qızları və başqalarını buna misal göstərmək olar və onlara qayğı və diqqət göstərilməlidir.

İlahi! Həzrət Əlinin (ə) xanədanı necə də fədakarlıq edirdi! Görəsən, biz də onlar kimiyikmi? Görəsən, biz öz qonşularımızın hansı vəziyyətdə yaşadığından, səhəri və axşamı necə keçirtdiklərindən xəbərdarıqmı? Öz yaxın, qohum və tanışlarımızdan xəbərimiz varmı? Əgər bu suallara Allah eləməmiş, cavab verə bilməsək, şiə olduğumuzu iddia edə bilərikmi?

## 4. Əxlaq

إنما نُطْعِمُكُم لِوَجْهِ اللهِ لا نُرِيدُ مِنْكُمْ جَزَاءً وَ لا شُكُورا ***"(Onlar həm dildə, həm də qəlbdə deyərlər:) "Biz sizə Allah rizası üçün yemək veririk. Biz sizdən hər hansı bir mükafat və təşəkkür istəmirik.""*** – Həzrət Əli (ə), onun xanımı və iki övladının aşkar və bariz olan dördüncü fəziləti o şəxsiyyətlərin ixlas məsələsidir. Onlar belə deyirlər: "Siz miskin, yetim, əsirlər və cəmiyyətin digər ehtiyaclı təbəqəsinə etdiyimiz kömək sadəcə və saədəcə Allahın razılığını cəlb etmək üçündür və bunda başqa, digər bir niyyətimiz yoxdur. Bu cəhətdən, sizdən heç bir mükafat və əcr istəmirik, hətta sizdən təşəkkür etməyinizi də gözləmirik."

Bu cümlələrə bir daha diqqət edək – görəsən, adi insanlar belə bir iddiada ola bilərlərmi? Bunlardan daha üstün olanı budur ki, əgər ehtiyaclılar təşəkkür əvəzinə cəsarət edərək onları təhqir etsəydi belə, Əhli-beytin (ə) halında heç bir təsir qoymazdı. İxlas çox dəyərli və nadir tapılan bir gövhərdir və bu cəhətdən, İslam əməlin kəmiyyət və miqdarına deyil, onun keyfiyyət və necəliyinə təkid edir. Yəni, Allah dərgahında ixlasla qılınan bir rükətlik namaz ixlassız qılınan min rükətlik namazdan daha dəyərlidir.

## 5. Allah qorxusu

إنا نَخَافُ مِنْ رَبِّنَا يَوْماً عَبُوساً قَمْطَرِيرا ***"Həqiqətən, biz öz Rəbbimizdən, çox sərt, olduqca çətin, dəhşətli (və üzlərin tutulub qaralacağı) gündən qorxuruq!"*** – Onların beşinci xüsusiyyəti Allah qorxusudur. Soruşa bilərsiniz ki, ikinci xüsusiyyətdə "məad" və "qiyamət" qorxusundan

danışıldı, burada isə Allah qorxusundan bəhs edilir, bunların ikisi arasında fərqlər vardırmı?

***Cavab:*** Allah qorxusunun qiyamət, cəhənnəm və şiddətli əzablar səbəbi ilə olmasına lüzum yoxdur, əksinə bu qorxunun Allahın əzəmətindən də olması mümkündür. Mömin insan Allahın əzəmətinə nəzər saldıqda, qorxu onun bütün vücudunu bürüyür və bədəni lərzəyə gəlir. Bu məsələ böyük bir şəxsiyyətin görüşünə getməyə və hansısa bir mətləbi ona demək istədikdə, (onun mehriban, xoş əxlaqlı və xoşrəftar bir insan olmasına baxmayaraq,) dilin söz tutmamasına bənzəyir. Beləliklə, beşinci xüsusiyyətdəki qorxu ikinci xüsusiyyətdəkindən fərqlidir və Allah qorxusu onun əzəmət və böyüklüyündən qorxmaq mənasındadır.

## *Mükafat ayələri*

Bildirdiyimiz kimi, "Dəhr" surəsinin on səkkiz ayəsindən on dördü həzrət Əli (ə) xanədanının fədakarlıq və fəqirə təam verməsi məsələsi ilə əlaqədardır və həmçinin, burada həmin tayı-bərabəri olmayan əmələ veriləcək çoxlu mükafatdan danışılır. Aydındır ki, Quranın heç bir yerində hansısa bir əməllə bağlı bu əmələ veriləcək mükafat qədər söhbət açılmamışdır.

Bir sözlə, həmin əməl üçün bir-birinin ardınca on beş mükafatdan bəhs edilmişdir və əgər biz on səkkiz ayədə bir qədər də araşdırma aparsaq, həmin mükafat sayını iyirmiyə çatdıra bilərik. Həmin mükafatları on iki ad altında xatırladacağıq. Amma bundan öncə, bir müqəddiməni diqqətinizə çatdırmağı lazım və zəruri hesab edirik:

## *Axirət və dünya mükafatlarının müqayisəsi*

Şübhə yoxdur ki, axirət mükafatları dünya mükafatlarından fərqlidir. Onların barəsində dünyəvi ifadə və sözlər işlədilməsinə baxmayaraq, həmin mükafatların məfhumu, anlamı, həmçinin, əhatə dairəsi və mahiyyəti axirətə məxsusdur. Deməli, bizim axirət nemətləri barəsindəki təsəvvürlərimiz sadəcə bir obrazdır və biz həmin nemətlərin həqiqətini bu dünyada o qədər də dərk edib anlaya bilmərik. Bu məsələ ananın bətnindəki uşağa bənzəyir və o, İbn Sina olsa və hətta, anası onun üçün ən yaxşı şəkildə tərif etsə də, dünya haqqında lazımı anlayışa malik olmaz, təkcə onun barəsində müəyyən təsəvvürə sahib ola bilər. Bu baxımdan, Peyğəmbərdən (s) belə bir rəvayəti oxuyuruq:

**اِنَّ اللهَ يَقُولُ: اَعْدَدْتُ لِعِبادِیَ الصّالِحينَ ما لا عَيْنٌ رَأَتْ، وَ لا اُذُنٌ سَمِعَتْ، وَ لا خَطَرَ عَلى قَلْبِ**

بَش

***“Allah buyurur: "Saleh bəndələrim üçün elə mükafatlar hazırlamışam ki, onu nə bir göz görmüş, nə bir qulaq eşitmiş, nə də onun barəsində kimsə düşünmüşdür.””[1]***

Deməli, dünyadakı hansısa lütfün bizim üçün müəyyən bir məna, amma həmin lütfün cənnət nemətləri barəsində fərqli və hətta, ziddiyyətli mənaları kəsb etməsi mümkündür. Gələn bəhslərimizdə bu barədə daha ətraflı izahlar verəcəyik. Bu müqəddiməyə diqqət etməklə on iki adda olan nemətlərlə bağlı şərhə başlayırıq:

## On iki adda olan cənnət nemətləri

***1. Aramlıq*** – فَوَقاهُمُ اللهُ شَر ذلِكَ الْيَوْمِ وَ لَقّاهُمْ نَضْرَةً وَ سُرُور – Onlara nəsib olan ilkin nemət aramlıqdır. Allah qiyamət çətinliklərini onlardan bərtərəf edəcək və onlar şadlıq və sevinc içərisində olacaqlar. Aramlıq nemətinin ilkin olaraq xatırlanması onun, həqiqətən də, dəyərli bir nemət olduğunu göstərir. Aramlıq və asayiş dünya və axirət nemətlərinin ən mühüm və dəyərlisidir. Dünyada elə şəxslər var ki, bütün imkanlara malikdirlər, amma onların aramlıq və asayişləri yoxdur və belə şəxslərin sahib olduqları imkanlar onlar üçün işkəncə və əzab-əziyyətə çevrilir. Bu səbəbdən, var-dövlət sahiblərinin əksəriyyəti intihara əl atır. Amerikada “intihar meşəsi” adlı bir meşənin olduğunu deyirlər. Həmin meşənin müştərisi dünyada aramlıqdan başqa, hər şeyə sahib olan varlı şəxslərdir. Onların müqabilində az imkanlı və öz məişət ehtiyaclarını təmin edə bilən və rahatlıqla yaşayan şəxlərin olduğunu da görürük, çünki onların aramlıq və asyişi vardır.

“Belə böyük və dəyərli bir neməti necə ələ gətirmək olar?” – deyə soruşa bilərsiniz. Cavabında, “Ənam” surəsinin 82-ci ayəsində Allah-taalanın aramlıq və asayişin imanlı şəxslərdə olduğunu bildirərək belə buyurduğunu deyirik:

اَلَّذِينَ آمَنُوا وَ لَمْ يَلْبِسُوا ايمانَهُمْ بِظُلْم أُولَئِكَ لَهُمُ الأَمْنُ وَ هُمْ مُهْتَدُونَ

***“İman gətirib imanlarını zülmə qarışdırmayanlar (yaradılışın başlanğıcına olan etiqadı dualizm və ya üç üqnuma əqidəsi, yaxud çoxallahlılıqla, yaxud da qəlbi etiqadları əməli itaətsizliklə qarışdırmayanlar) üçün əmin-amanlıq vardır və onlar hidayət olunmuşlardır.”***

Eyni zamanda, “Rəd” surəsinin 28-ci ayəsində də Allahı yad edərək onu unutmamaq daimi feyz və bərəkətin, həmçinin, asayişin mənbəyi

---

*1. «Quranın mesajı», c.6, səh. 302.*

və aramlığa səbəb kimi xatırladılmışdır.

***2. Cənnət bağları –*** **وَ جَزاٰهُمْ بِما صَبَرُوا جَنَّةً وَ حَريرا** ***"Səbr etdikləri şeylərin əvəzi olaraq onlara cənnət bağları verilər."*** – Nemətlərdən digər biri cənnət balarıdır ki, o bağların hər bir şeyi dünya bağlarından tamamilə fərqlənir. O bağlarda həmişə ağacları altından sular axaraq cari olmaqdadır. Elə bir bağlar ki, orada xəzan (payız) yoxdur və bütün fəsillərdə ağaclarda daima meyvələr vardır. Eyni zamanda, cənnətdəkilərin o meyvələri zəhmət çəkərək dərmələrinə ehtiyac yoxdur, əksinə iradə etdikləri zaman ağacın budaqları onlara tərəf əyiləcəkdir.

***3. Aramlıq və asayiş –*** **مُتكئينَ فيها عَلَى الْارائِك** ***"Onlar cənnətdə taxtlara söykənmiş halda olarlar."*** –**ارائك** (əraik) sözü **اريكه** (ərikə) sözünün cəm formasıdır və həqiqətdə, toy gecısində gəlin üçün hazırlanan taxta deyilir. Bundan başqa, bütün gözəl taxtlara da şamil olunur. Cənnət əhli gözəl taxtlara söykənərək cənnət nemətlərindən istifadə edəcəklər. "Muttəkiinə" (**مُتكئينَ**) "söykənmək" sözü zərif və gözəl bir sözdür, çünki insan asayiş və aramlıqda olduğu vaxt sərbəst və rahat söykənə bilir və əksinə, narahatçılıq və iztirab halında rahat ola və bir yerdə əyləşə bilmir (o üz-bu üzə gəzişir).

***4. Münasib bir mühit və ləzzət verən hava –*** **لا يَرَوْنَ فيها شَمْس وَ لا زَمْهَريرا** ***"Orada nə qızmar günəş, nə də soyuq görməzlər."***– Cənnətin havası çox münasib bir havadır. Orada hava nə isti deyil ki, sərinləşdirici vasitələrə, nə də soyuq deyil ki, qızdırıçı vasitələrə ehtiyac duyulsun. Əksinə, orada hava bahar fəslindəki kimidir və hava ruhu oxşayandır. Şübhəsiz ki, belə bir münasib havada gözəl və bəzəkli taxtlara sökənməyi və meyvə dolu ağacları vəsf etmək mümkün deyil.

***Sual:*** Bu ayədə günəşin mövcudluğu inkar edilir, amma sonrakı ayədə cənnətdəki ağacların kölgəsindən danışılır. Əgər cənnətdə günəş yoxdursa, onda, ağaclar necə kölgə sala bilir? Bu ayələr bir-biri ilə ziddiyyət təşkil etmirmi?

***Cavab:*** Birincisi, ayədə günəşin ümumiyyətlə mövcud olmamasından söhbət getmir, əksinə onun gozə çarpmadığı bildirilir. Yəni, cənnət ağacları o qədər sıx və yan-yanadır ki, günəşin cənnətdəkilər tərəfindən görülməsinə maneə olur.

İkincisi, (**لا يَرَوْنَ فيها شَمْس**) ***"Orada günəşi görməzlər."*** – deyə buyurulan ifadədə məqsəd yandırıcı və qızmar günəşin olmamasıdır, nəinki, orta temperaturlu günəşin inkar edilməsi. Beləliklə, ayələrdə

ziddiyyətin olması gözə çarpmır.

***5. Kölgə və meyvələr* – وَ دانِيَةً عَلَيْهِمْ ظِلالُها وَ ذُلِّلَتْ قُطُوفُها تَذْليل** – Cənnət ağacları cənnətdəkilərə kölgə salır və ağacların meyvəsini dərmək də çox asandır. Əvvəldə də qeyd etdiyimiz kimi, onlar meyvələri dərmək üçün heç bir zəhmətə qatlaşmayacaqlar.

***6. Qulluq etmək üçün hazır dayanmış xidmətçilər* – وَ يَطُوفُ عَلَيْهِمْ وِلْدانٌ مُخَلَّدُونَ**(Onların dövrəsində (təravət və cavanlığı) həmişəlik olan və qolbağı taxmış oğlanlar dolanacaqlar)– Cənnət əhli bir şey istədikləri zaman, onların qulluğunda dayanmış gözəl, sədəf və mirvari kimi cavan xidmətçilər onlara qulluq edəcəklər. Onlarə səsləməyə də ehtiyac olmayacaq, çünki daim xidmət etmək halında olacaqlar.

***7. Həddən artıq gözəl olan paltar və libaslar* – عالِيَهُمْ ثِيابُ سُنْدُس خُضْرٌ وَ إِسْتَبْرَق**– Qalın və nazik ipəkdən olan növbənöv gözəl libaslar cənnət əhli üçün hazırlanmışdır. Dünyada kişilər üçün istifadəsi qadağan olunmuş paltarlardan kişilər axirətdə istifadə edə biləcəklər.

***8. Zinət əşyaları*[1] – وَ حُلُوا أَساوِرَ مِنْ فِضّ** ***"Onlar gümüş bilərziklərlə zinətləndiriləcəklər."*** – Hər cür zinətdən istifadə etməkdə onlar icazəlidirlər. Cənnət əhlinin qollarında gümüşdən olan bilərziklər olacaq.

***9. Ən yüksək səviyyədə olan qonaqlıq* –وَ يُطافُ عَلَيْهِمْ بِآنِيَة مِنْ فِضة** ***"Onların dövrəsində gümüş kasalar dolandırılacaqdır."***

**وَ أَكْواب كانَتْ قَوارِيرا** ***"Və büllur qədəhlər"***– İnsanın yemək yeyəndə istifadə etdiyi qabların növü çox əhəmiyyət daşıyır. Əgər ən yaxşı yeməyi çirkli bir boşqaba çəksələr, insanın iştahası qaçar. Əksinə, ən sadə yeməyi gözəl, təmiz və münasib bir boşqaba çəksələr, insanın iştahası bir neçə bərabər olar. Bu baxımdan, gözəl və gümüşdən olan zinətli qablar cənnət əhlinin ixtiyarında qoyulacaq. Əlbəttə, axirətdəki gümüş bu dünyanın gümüşündən fərlidir. Həmin gümüşlər şəffaf büllura bənzəyir.

***10. Nemətlərin növləri* – وَ إِذا رَأَيْتَ ثَم رَأَيْتَ نَعيما** ***"Oranı gördükdə, (bolluca) nemət və böyük bir mülk olduğunu anlayarsan."*** **–** Cənnət əhli cənnətə daxil olduğu zaman, onların ixtiyarında

---

*1. İslam, zinətdən istifadəni qadağan etməmişdir, əksinə israf və ifratın qarşısını almağa çalışmışdır. Quranda məscidə gedərkən insanın təmiz və yaraşıqlı paltarlar geyilməsinə göstəriş verilmişdir, həmçinin, məscidə gedərkən ətir vurulmasının müstəhəbliyi də bu cəhətdəndir.*

qoyulmuş növbənöv nemətləri görəcək ki, onların vəsf edilməsi mümkün deyil.

***11. Əzəmətli mülkiyyət*** – مُلْكاً كَبِيراً – Cənnətdəkilərin hər biri o qədər imkan və xidmətçilərə sahib olacaq ki, sanki müstəqil bir ölkəni idarə və ona rəhbərlik edirlər.

***12. Cənnət şərablarının növləri*** – Allahın Quranda təkrar-təkrar xatırlatdığı məsələ cənnətdəkilərə vədə verilmiş cənnət şərabıdır. Həmin şərablar insanın əql və huşunu aradan aparmayacaq, əksinə onlara şadlıq və aramlıq bəxş edəcəkdir. "Dəhr" surəsinin ayələrində həmin şərabın üç növündən bəhs edilir:

***a) Kafur şərabı*** – إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِنْ كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُوراً ***"Şübhəsiz, yaxşı əməl sahibləri (o aləmdə sərin və xoş ətirli) kafur qatılmış camdan içəcəklər."*** – Saleh və yaxşı insanlar cənnətdə kafurun xoş ətri ilə qarışmış şərabdan içəcəklər. Fars dilində "kafur" sözü meyidə qüsl verərkən suya qatılan maddəyə deyilir və həmin madda antibakterioloji xüsusiyyətə malikdir. Amma ərəb dilində "kafur" sözü geniş mənada işlədilir və həmin söz bütün ətirli və xoş iyili maddələrə şamildir.

Deməli, cənnətdəki kafur içkisinin xoş ətiri vardır və onu içən şəxslər onun ətirindən də ləzzət duyacaqlar.

***b) Zəncəfil (zəncəbil) şərabı*** – وَيُسْقَوْنَ فِيهَا كَأْساً كَانَ مِزَاجُهَا زَنْجَبِيلاً ***"Cənnətdə onlara (xoş ətirli) zəncəfil qatılmış camdan içirdərlər."*** –"Zəncəfil" sözü də ərəb dilində həm özünün məşhur mənasında işlənir, həm də "xüsusi ətrə malik olmaq" mənasını verir. Burada isə ikinci mənada işlənmişdir. Cənnət əhli zəncəfillə qarışdırılmış içkilərdən içəcəklər.

***c) Pak olan şərab*** – وَسَقَاهُمْ رَبُّهُمْ شَرَاباً طَهُوراً ***"Rəbbi onlara pak olan və (bütün kin-küdurətdən təmizləyən) pak edici bir şərab içirəcəkdir."*** – Cənnətdəkilərin istifadə edəcəkləri üçüncü şərab pak olan şərabdır. Allah özü həmin şərabı cənnət əhlinə içirdəcəkdir.

Üç şərab barəsində işlədilən ifadələr diqqətə layiqdir. Kafur şərabı barəsində (**يشربون**) ***"yəşribunə"*** sözü işlədilmişdir, yəni cənnətdəkilər öz əlləri ilə həmin şərabdan içəcəklər. Zəncəfil şərabı barəsində (**يسقون**) ***"yəsqunə"*** – yəni, "saqi və xidmətçilərin vasitəsi ilə içirdilmək" ifadəsindən istifadə edilmişdir. Amma pak şərab barəsində isə (**سقاهم ربهم**) ***"səqahum rabbuhum"*** sözü işlənmişdir. Yəni, Allah-taalanın özü həmin şərabı cənnətdəkilərə içirəcəkdir.

## *Pak olan şərab nədir?*

Rəvayətlərin birində qeyd edilənlərə əsasən, cənnət əhli pak olan şərabı içdikləri zaman, belə olacaqlar:

يُطَهِّرُهُمْ مِنْ كُلِّ شَىْءٍ سِوَى اللهِ

***"Onların qəlblərində Allahdan başqa, mövcud olan bütün şeylər silinəcəkdir."*[1]**

Cənnət əhlinin bütün varlığı Allaha məhəbbət və onu yad etməyə, həmçinin, ona yaxın olmağa şamil olacaq və Allahdan qeyrisi unudulacaq. İslam Peyğəmbəri (s) digər bir hədisdə pak olan şərabın təsiri barədə belə buyurur:

فَيُطَهِّرُ اللهُ بِهَا قُلُوبَهُمْ مِنَ الْحَسَدِ

***"Həmin şərabı icməklə Allah-taala onların qəlbindən həsədi tamamilə aradan aparacaqdır (cənnət əhli özlərindən dərəcə etibarı ilə üstün olanlara həsəd etməyəcəklər)."*[2]**

Həsəd bəşər həyatında mövcud olan bəlalardan biridir. İnsanın öz ixtiyarında bütün imkan və vasitələrin olmasına baxmayaraq, o, digərlərinin də asudə və asayişdə yaşamasını görməyə səbir və dözüm göstərə bilmir. Həsəd insandan azadlıq, asayiş və aramlığı almaq baxımından bir zindana bənzəyir. Pak şərabın qoyduğu təsirlərdən biri insandakı bu əxlaqi çirkinliyin kökünü tamamilə kəsməkdir.

***Sual:*** Xatırladılan ayədə bir sıra müxtəlif nemətlərdən bəhs olunmuş və hətta onun xırdalıqları da bəyan edilmişdir. Amma bununla yanaşı, Quranda tez-tez cənnət nemətləri ilə bağlı danışılarkən, zehinə daha tez gələn bir nemət barəsində yuxarıdakı ayələrdə söhbət açılmamışdır. Bəli, sizin təxmininiz doğrudur, bu ayələrdə "hurul-eyndən" (cənnət huriləri və qadınlarından) danışılmamışdır. Görəsən, buna səbəb nədir?

***Cavab:*** Bəzi təfsirçilər[3] belə düşünürlər ki, ayələrdə xanım Fatimeyi-Zəhradan (ə) danışıldığından, ona ehtiram etmək səbəbilə Allah-taala hurul-eynin adını çəkmir və bu özü ayələrin həzrət Əli (ə) və onun xanədanı barəsində nazil olduğunu göstərən digər bir dəlildir. Yoxsa, cənnət nemətlərindən bəhs edərkən hurul-eynin adını çəkməməyin hansı səbəbi ola bilər?

Xülasə olaraq "Dəhr" surəsinin on dörd ayəsində bəyan edilən on iki nemətin əməlisalehlərə və yaxşılıq edənlərə və onların başında isə

---

*1. Əllamə Məclisi, "Biharul-ənvar", c.8, səh. 113.*

*2. Əllamə Məclisi, "Biharul-ənvar", c.8, səh. 157.*

*3. Alusi, "Ruhul-məani", c.29, səh. 157.*

həzrət Əli (ə), xanım Fatimə (ə), imam Həsən (ə) və imam Hüseynə (ə) şamil olduğu bildirilir.

### Bəhanələr və onlara cavab

Təəssüflər olsun ki, Əhli-beytin (ə) fəzilətləri, imamət və vilayət barəsində olan bu və digər ayələrə gətirilən bəhanələr o qədərdir ki, həmin bəhanələr Quranın digər ayələri və ya İslamın digər məsələlərinin yüzdəbiri barəsində bəyan olunmamışdır. Əlbəttə, bəhanə axtaranların hədəf və məqsədi məlumdur. Əgər onlar bu ayələrin bütövlükdə həzrət Əli (ə) və digər imamlara şamil olduğunu qəbul etsələr, onda, onların imamət və vilayətlərini də təsdiq etməli olacaqlar. Dəfələrlə dediyimiz kimi, əgər imamətin Allahın təyini ilə olduğu sübuta yetərsə, heç bir müsəlmana ən yaxşı, şücaətli və müsəlmanların ən üstününü qoyub başqasının ardınca getməsi yaraşmaz (yəni, bunun əksini edənlərin səhvliyi anlaşılar). Əgər seçimlə də olarsa, onda, ağıllı camaat ən üstün şəxsi qoyub digərinin ardınca getməməlidir. Belə bir nəticənin əldə edilməsi nəfsinə tabe və təəssübkeş olan şəxslərin istəkləri ilə uyğun gəlmir. Bu səbəbdən, onlar Əhli-beytin (ə) fəziləti ilə bağlı ayələri bu cür təfsir etməklə onu zəiflətmək istəyirlər ki, vicdanları sızlamasın. Onlar buna görə müxtəlif bəhanələr gətirirlər. Həmin bəhanələrin bir neçə nümunəsinə diqqət edin:

### 1. “İnsan” surəsi Məkkidir (Məkkədə nazil olmuşdur).

“İnsan” surəsi Mədinədə nazil olmamışdır, əksinə məkki surələrdəndir. Bilirik ki, imam Həsən (ə) və Hüseyn (ə) hicrətin iki və üçüncü ilində Mədinədə dünyaya gəlmişlər. Nəticədə, “Dəhr” surəsi nazil olarkən bu iki şəxsiyyət hələ dünyaya gəlməmişdi. Deməli, ayənin nazilolma səbəbi (şəni-nuzul) bu surə ilə mütənasib deyil. Bu səbəbdən, bəziləri bu ayələrin nazilolma səbəbini belə şərh etmişlər:

Qaradərili qullardan biri Peyğmbərin (s) xidmətinə yetişərək dedi: “Cənnətdə sizin kənarınızda olmaq istərdim. Mən qara dərili, siz isə ağ dərilisiniz və mənim bu arzumun əməldə gerçəkləşməsi çətin məsələdir.” Peyğəmbər (s) ona belə cavab verdi: “Qəm yemə! Qiyamət günü o qədər nurani olacaqsan ki, uzun illik məsafədən səni görəcəklər.” Sonra yuxarıdakı ayələr o qara qul barəsində nazil oldu.[1] Bir sözlə, “Dəhr” surəsinin Məkki[2] olmasına diqqət etdikdə, qeyd edilən nazilolma səbəbinin surə ilə mütənasib olmadığı məlum olur.

1. *“Ruhul-məani”, c.29, səh. 167.*
2. *“Nümunə təfsiri”, c.25, səh. 330.*

***Cavab: Birincisi,*** təfsirçi, mühəddis və tarixçilərin çoxu "Dəhr" surəsinin Mədinədə nazil olması fikrindədirlər və onun Məkkədə nazil olması düşüncəsini qəbul edən və həmin alimlərin əksini düşünənlərin barmaqla göstəriləcək qədər az olduğunu da deməliyik. Surənin Mədinədə nazil olduğuna etiqadlı olaraq ona dəlil gətirən alimlər iki dəstəyə bölünür:

Onlardan bir dəstəsi "Dəhr" surəsinin Mədinədə nazil olduğunu açıq-aşkar söyləmiş, digər bir dəstəsi isə həmin mətləbi deməsələr də, bizim həzrət Əli (ə) və ailə üzvləri ilə bağlı söylədiyimiz nazilolma səbəblərini ayənin altında qeyd etmişlər. Bu da surənin mədəni olduğu münasibəti ilədir.

Mərhum Qazi Nurullah Şüştəri "İhqaqul-həqq" əsərinin 3-cü cild, səhifə 157-dən sonrakı hissəsində həmin alimlərin adlarını qeyd etmişdir və biz onlardan bəzilərinə işarə edirik:

1. Zəməxşəri – Əhli-sünnənin tanınmış və məşhur təfsirçilərindəndir. O, məşhur kitabı "Kəşşaf"da "Dəhr" surəsinin mədəni olmasını təsdiqləmişdir.[1]

2. Vahidi – O da əhli-sünnənin alimlərindəndir və "Əsbabun-nuzul" əsərində həmin nəzərə üstünlük vermişdir.[2]

3. İbn Cuzi –Sünni məzhəbli alimlərdəndir və "Dəhr" surəsinin Mədəni (Mədinədə nazil edilən) olmasına etiqadı vardır.[3]

4. Gənci – "Kifayətut-talib" əsərində bu nəzəriyyəni seçmişdir.[4]

5. Təbəri də "Zəxairul-uqba" əsərində bu fikirdədir.[5]

6. Alusi də bu surənin Mədəni olmasına etiqad bəsləyir.[6]

7. Fəxri Razi – Sünni dünyasının ən məşhur təfsirçisi də həmin nəzəri qəbul etmişdir.[7]

8. Məşhur təfsirçi Qurtubi öz təfsirində aşağıdakı ifadəni qeyd etmişdir:

**ذكر الثّعلبى فى تفسيره: و قال اهل التّفسير انّها نزلت فى على و فاطمة و جارية لهما اسمها فضّة**

***"Sələbi öz təfsirində belə demişdir: "Dəhr" surəsi Mədinədə nazil olmuşdur və bütün təfsir əhli onun (surənin) həzrət Əli (ə), xanım Fatimə***

---

1. *"Əl-Kəşşaf", c.4, səh. 169.*
2. *"Əsbabun-nuzul", səh. 331.*
3. *"Ət-Təzkirə", səh. 332.*
4. *"Kifayətut-talib", səh. 201.*
5. *"Zəxairul-uqba", səh. 102.*
6. *"Ruhul-məani", c.29, səh. 157.*
7. *"Ət-Təfsirul-kəbir", c.30, səh. 244.*

***(ə) və onların kənizi Fizzə barəsində nazil edildiyinə etiqadlıdırlar.""*[1]**

Xülasə, işarə etdiyimiz bəzi İslam alimlərinin şəhadətinə əsasən, "Dəhr" surəsinin Mədinədə nazil edilməsində şübhə yoxdur.

***İkincisi,*** وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا – ayəsindən də onun Mədəni olduğu anlaşılır. Çünki Məkkədə əsir yox idi və bu məsələ Peyğəmbər (s) və müsəlmanlar Mədinəyə hicrət etdiyi, həmçinin, cihad hökmü verildiyində Mədinədə meydana gəldi. Deməli "əsir" sözünün özü surənin Mədəni olmasına ən yaxşı dəlildir.

Qara dərili qulla bağlı qeyd edilən nazilolma səbəbinin "Dəhr" surəsi ilə heç bir rabitə və əlaqəsi yoxdur, çünki orada əsir, yetim və miskinə təam (yemək) vermək barəsində heç bir söz danışılmır. Beləliklə, bu cür nazilolma səbəbi ayələr ilə müxalifdir və Qurana zidd olan məsələlər etina və qəbul olunası deyil.

## 2. Ev üçün vacib olan çıraq məscid üçün haramdır!

***Sual:*** Görəsən, həzrət Əlinin (ə) özü və öhdəsində olan ailəsinin yeməyini dilənçiyə verməsi yaxşı və layiqli bir iş idimi? Halbuki, müsəlmanlar Peyğəmbərdən (s) "Biz nəyi infaq edək?"– deyə soruşduqda, Allah-taala onların sualını "Bəqərə" surəsinin 219-cu ayəsində belə cavablandırır: قُلِ الْعَفْوَ – yəni, öz ehtiyaclarınızı təmin etdikdən sonra artıq qalanını infaq edin.

Əgər "Dəhr" surəsinin ayələri həzrət Əli (ə) və onun ailəsi barəsindədirsə, onda, nə üçün o, yuxarıdakı ayənin xilafına əməl edərək ehtiyaclı olduğu şeyi infaq etmişdir?

***Cavab:*** Alim adlanan bir şəxsin bu cür sözlər danışması insanda çoxlu təəccüb doğurur! Bunlar bəhanə axtaran şəxslərin bixəbər və məlumatsız olmasını nişan verir. İzah üçün "infaq" və "isar"ın tamamilə fərqli məsələlər olduğunu bildiririk. Təəssüflər olsun ki, bu iradı bəyan edənlər infaqla isar arasındakı fərqi dərk edə bilməmişlər.

"Həşr" surəsinin 9-cu ayəsində ənsarın vəsfi ilə bağlı belə buyuyrulur:

وَيُؤْثِرُونَ عَلَى اَنْفُسِهِمْ وَلَوْ كانَ بِهِمْ خَصاصَةٌ

***"(Ənsar) özləri ehtiyaclı olduğu halda, onları (mühacirləri) özlərindən üstün tutanlardır (isar edənlərdir)."***

Müsəlmanlardan bir dəstəsinin iradəsi o qədər möhkəmdir ki, onlar isar məqamına yetişmişlər və həddən artıq ehtiyaclı olduqları

---

*1. "Qurtubi təfsiri", c.19, səh. 19.*

halda belə, isar edirlər.

Bu ayənin nazilolma səbəbi barəsində belə qeyd edilmişdir: “Ehtiyaclı olan bir şəxs İslam Peyğəmbərinin (ə) yanına gələrək “Mən ac, ehtiyaclı və fəqir biriyəm, mənə kömək edin!” – deyir. Peyğəmbər (ə) səhabələrindən birini öz evinə göndərir ki, onun işinə yarayacaq bir şey tapıb gətirsin və ona versinlər.” Həmin səhabə Peyğəmbərin (s) evinə gedib-qayıtdığı zaman bir şey tapmadığını bildirir. Peyğəmbər (s) səhabələrə üz tutaraq deyir: “Sizlərdən hansınız bir gecəlik bu şəxsi evində qonaq edə və onu doyura bilər?”

Səhabələrdən biri bu işi yerinə yetirə biləcəyini elan edərək həmin şəxslə birlikdə evinə getdi. O, evə çatan kimi mətbəxə baş çəkdi və xanımının ona və uşaqlarına hazırladığı yeməkdən başqa, bir şey tapmadı. O xanımına dedi ki, şam yeməyindən qabaq uşaqları yatızdır, sonra süfrəni sal! Xanımı uşaqları ac yatızdırdıqdan sonra, o, çırağı söndürdü və süfrə salındı. Ev sahibi qonaqla birlikdə şam yeməyə başladı. Ev sahibi loğmanı ağzına tərəf yaxınlaşdırır, amma yeməkdən yemirdi ki, qonaq tamamilə doysun (qonaq qaranlıqda bunu görmürdü). Bu minvalla, o və ev əhli həmin gecəni ac keçirdərək öz yeməklərini fəqirə isar etdilər.

Səhəri gün o, Peygəmbərin (s) hüzuruna yetişdikdə, həzrət ondan dünən qonaqla nə etdiyini soruşdu. O, məsələni Peyğəmbərə (s) bildirdi. Peyğəmbər (s) buyurdu ki, sənin dünənki isarı etməyinlə bağlı mənə dünən ayə nazil edildi. Sonra o həzrət yuxarıdakı ayəni tilavət etdi.[1]

Deməli, bu şəkildə bəhanə axtarışında olan şəxslər Quranın bütün ayələrini mütaliə etməmişlər, yoxsa, onlar isarın dərəcə etibarı ilə infaqdan da üstün bir məsələ olduğundan xəbərdar olardılar. Həmçinin, bu məqama hamı nail ola bilmir və o, həqiqi möminlərin sifətidir.

Bundan əlavə, “Dəhr” surəsinin ayələrindəki məsələdə həzrət Əli (ə) bütün ailənin yeməyini deyil, təkcə öz yeməyini fəqirə isar etmişdi. Sonra xanım Fatimə (ə) də öz istək və razılığı ilə yeməyini isar etdi, ardınca da imam Həsən (ə) və imam Hüseyn (ə).Bu, Quranın tərif etdiyi isarın ən son həddidir və çox dəyərli bir məsələdir.

قُلِ ٱلْعَفْوَ – ayəsinə gəldikdə isə bu barədə iki nəzəriyyə mövcuddur. Birincisi, ayədəki (عفو) sözü ehtiyacdan artıq qalan vəsilələrdir.[2] Amma ikinci ehtimal budur ki, (ٱلْعَفْوُ هُوَ الطيبُ من المال) o, malın ən yaxşı

*1. “Nümunə təfsiri”, c.23, səh. 262.*

*2. “Əl-Kəşşaf”, c.1, səh. 262.*

və seçilmiş qisimdir.[1] Biz malın bu qismindən ehtiyaclılara yardım etməliyik, nəinki, malın pis və istifadəyə yararsız hissəsindən. Əgər belə olarsa, biz yaxşılığa nail ola bilmərik. Allah-taala buyurur:

تَنَالُواْ الْبِرَّ حَتَّى تُنفِقُواْ مِمَّا تُحِبُّونَ

***"Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə, əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz."[2]***

Deməli, (**قُلِ ٱلْعَفْوَ**) – ayəsi istifadəyə yararsız malı deyil, yararlı və yaxşı malın seçilərək fəqirlərə verilməsini sifariş edir və bu, "Dəhr" surəsinin ayələrində işarə edilən həmin isardır. Yuxarıda qeyd edilən mətləbə diqqət etməklə (**قُلِ ٱلْعَفْوَ**) ayəsinin "Dəhr" surəsinin ayələri ilə ziddiyyət təşkil etmədiyi, əksinə onunla həmahəng olaraq onu təsdiqlədiyi məlum olur.

## 3. Görəsən, "Dəhr" surəsi ümumidir, yoxsa, xüsusi?

***Sual:*** Görəsən, yaxşılıq edənlərin xüsusiyyəti ilə bağlı nazil olan və axirətdəki mükafat və nemətlərindən bəhs edən "Dəhr" surəsi təkcə həzrət Əli (ə) və onun xanım və övladlarına məxsusdurmu, yoxsa, əbrar (yaxşılıq edənlər) xüsusiyyətinə malik olan bütün kəslərə şamildirmi? Əgər ikinci ehtimal düzgündürsə,[3] onda, nə üçün həmin ayələri Peyğəmbər (s) xanədanına həsr etmişlər?

***Cavab:*** Birincisi, bu şərif ayələrdə bəzi nişanə və qərinələr müşahidə olunmaqdadır ki, onların varlığı ilə bu ayəni bütün yaxşılıq edənlərə şamil etmək olmaz, əksinə o nişanələrə uyğun olaraq onu xüsusi dəstədən olan yaxşılıq edənlərə (əbrara) aid etmək lazımdır. Məsələn, Bu ayədə nəzir edən əbrardan danışılır və onların nəzirlərinə əməl edərkən əzəmətli bir isar etməsi və ehtiyacı olan miskin, yetim və əsirə yemək verməsi vurğulanır. Deməli, bu ayələr nəzir etməyən və yuxarıdakı əməlləri həyata keçirməyən əbrara (yaxşılıq edənlərə) şamil deyil.

İkincisi, xatırlanan ayələrin ümumi olduğunu və onun bütün yaxşılıq edənlərə şamil edildiyini fərz etsək belə, şübhəsiz ki, nazilolma səbəbi yenə də bu ayələrə aid olacaqdır. Həzrət Əli (ə), Fatimə (ə) onun (yaxşılıq edənlər və əbraraın) ən üstün və bariz misdaq və

*1. "Nümunə təfsiri", c.23, səh. 219-da birinci və ikinci ehtimal, eləcə də digər ehtimallar qeyd edilmişdir.*

*2. "Ali-İmran" surəsi, ayə 92.*

*3. Fəxri Razi öz "Ət-Təfsirul-kəbir" əsərinin 30-cu cild, səhifə 244-ündə bu nəzəriyyəni qeyd etmişdir.*

nümunələridir.

Xülasə olaraq "Dəhr" surəsinin ayələrinin Əhli-beytin (ə) fəziləti və xüsusən də, həzrət Əlinin (ə) imamət və vilayətini nişan verdiyini deyə bilərik.

## *Ayənin verdiyi mesajlar*

### *1. Ehtiyaclılara yardım etməyin əhəmiyyəti*

On səkkiz ayənin bildirmək istədiyi əsas məsələ və onun mayası, həmçinin, on iki ədəd olan mühüm nemətlərin verilməsinə səbəb olan mətləb insanların "ehtiyacı olanlara kömək etməsi" məsələsidir və bu, mehriban Allahın həmin məsələyə xüsusi diqqət göstərdiyi və əhəmiyyət verdiyi məsələlərdəndir. Allah-taalanın lütf və mərhəmətinin ona da şamil olmasını istəyən kəslər ehtiyaclı və çarəsiz şəxslərə yardım etməlidirlər. Əgər bundan da irəli gedərək özləri ehtiyaclı olduğunu halda digərlərinə isar edərlərsə, şübhəsiz, Allahın xüsusi diqqətində olacaqlar. Ehtiyaclılara yardım etmək məsələsinin daha artıq aydın olması üçün aşağıdakı iki rəvayətə diqqət edin:

1. Həzrət Əli (ə) oğlu imam Həsən Müctəbaya xitab olaraq yazdığı məktubda belə buyurur:

**وَاعْلَمْ أَنَّ اَمَامَكَ عَقَبَةً كَؤُوداً، اَلْمُخِفُّ فِيهَا اَحْسَنُ حَالا مِنَ الْمُثْقِلِ، وَالْمُبْطِىءُ عَلَيْهَا اَقْبَحُ حَالا مِنَ الْمُسْرِعِ، وَاَنَّ مَهْبِطَكَ بِهَا لاَ مَحَالَةَ اِمَّا عَلَى جَنَّة اَوْ عَلَى نَار، فَارْتَدْ لِنَفْسِكَ قَبْلَ نُزُولِكَ، وَوَطِّىءِ الْمَنْزِلَ قَبْلَ حُلُولِكَ، فَلَيْسَ بَعْدَ الْمَوْتِ مُسْتَعْتَبٌ، وَلاَ اِلَى الدُّنْيَا مُنْصَرَفٌ**

***"Oğlum! Bil ki, qarşıda səni keçilməsi çətin və təhlükəli uçurumlar gözləyir (yəni, o uçurumları keçmək yükü yüngül olanlar üçün çox asandır, nəinki, yükü ağır olanların), həmçinin, sürəti yavaş olanların halı sürətlə oradan keçənlərin halından daha pisdir. Şübhəsiz ki, sonunda insan ya cənnətə, ya da cəhənnəmə daxil olacaqdır. Həmin dünyaya köç etməzdən əvvəl özün üçün vəsilələr və mənzil hazırla, çünki ölümdən sonra heç bir üzr qəbul olunası deyil və dünyaya qayıtmaq üçün bir yol da yoxdur."***[1]

Belə xətərli və çətin uçurumlardan ötüb keçmək üçün məhşər səhrasında ən yaxşı azuqə və ehtiyat ehtiyaclı olanlara yardım və fəqirlərə ehsan etməkdir. Həqiqətdə, bu ehtiyat və azuqə onu dünyada təhvil verib axirətdə aldığımız zaman bizim köməyimizə çata bilər. Görəsən, belə bir müamilə və ticarətdən daha yaxşı olanı mövcuddurmu?

---

*1. «Nəhcül-bəlağə», 31-ci məktub.*

2. Şiə alimlərinin böyüklərindən sayılan mərhum mühəddis Kuleyni imam Sadiqdən (ə) olan hədisi "Üsuli-kafi" kitabında belə nəql etmişdir:

ثَلَاثٌ مَنْ اَتَى اللهَ بِوَاحِدَة مِنْهُنَّ اَوْجَبَ اللهُ لَهُ الْجَنَّه; اَلاِنْفاقُ مِنْ اِقْتَار وَالْبِشْرُ لِجَمِيعِ الْعَالَمِ، وَالاِنْصَافُ مِنْ نَفْسِه ١

***"Üç şey var ki, əgər insan onlardan hansısa birini yerinə yetirsə, Allah-taala cənnəti ona vacib edər. Həmin üç şey bunlardır: 1. Ehtiyac və əlin aşağı olduğu hallarda infaq etmək;[2] 2. (Təkcə müsəlmanlarla deyil, əksinə) dünyadakı bütün insanlarla (istər müsəlman olsun, istərsə də qeyri-müsəlman) xoş rəftar etmək;[3] 3. Özü ilə digərlərinin haqqına bir gözlə baxmaq."***

İnsanın özü və digərlərinin haqqına eyni cür yanaşma və bir gözlə baxması, çox əhəmiyyət kəsb edir və digər bir rəvayətdə belə qeyd edilmişdir:

اِنَّ اللهَ يُحِبُّ الْمَرْءَ الْمُسْلِمَ الَّذى يُحِبُّ لِاَخيهِ ما يُحِبُّ لِنَفْسِه وَ يُكرْهُ لَهُ مَا يُكْرِهُ لِنَفْسِه

***"Həqiqətən, Allah özünə arzuladığı şeyi müsəlman qardaşına arzulayan və özü üçün sevmədiyi şeyi də müsəlman qardaşına istəməyən müsəlmanı sevir."[4]***

## 2. Kəmiyyət əməlin meyar və ölçüsü deyil

"Dəhr" surəsindəki ayələrin verdiyi mühüm mesajlardan biri də İslamın nəzərində dəyərin ölçü və mizanının kəmiyyət və miqdarda deyil, əməlin keyfiyyət və necəliyində olmasıdır. O möhtərəm ailənin (Əhli-beytin (ə) infaq etdiyi bir neçə kiloqram arpadan başqa, bir şey deyildi, amma ixlasla olduğu və fəqət Allahın rizayətini ələ gətirmək üçün yerinə yetirildiyindən, onların əməllərinin dəyəri Quranda tayı-bərabəri olmayan nemətlərin onlara verilməsi ilə yad olundu. Həqiqətən, İslam möcüzələr yaradaraq əməlin dəyərini bəzən min, milyon, bəzən milyard bərabər edir və hətta onun dəyərini qiyamətə qədər artırır.[5]

---

*1. «Kafi», c.2, səh. 103 («Kitabul-iman və kufr», «Hüsnül-bəşər» bölməsi, hədis: 2 ).*

*2. Bəzi rəvayətlərdə bildirirlib ki, insanın yaşayışında çətinliyə düşərsə, Allahla müamilə etsin. Elə o ağır şəraitdə sədəqə versin ki, Allah onun çətinliklərinin həlli üçün bir yol açsın ("Vəsailuş-şiə", c.6, səh. 259)*

*3. Rəvayətdə iki məsələ insanın cənnətə daxil olmasına səbəb kimi göstərilmişdir: Əxlaq və təqva ("Kafi" kitabul-iman vəl kufr, hüsnül-bəşər bölməsi, hədis: 5).*

*4. "Biharul-ənvar", c.27, səh. 89.*

*5. Məsələn, həzrət Əlinin «Əhzab» döyüşündə müşriklərin qəhrəmanı Əmr ibn Əbdüvədə vurduğu zərbə ilə ölməsi barədə Peyğəmbər (s) belə buyurur:* لضربة علىّ خير من عبادة الثّقلين

İnsanın ixlaslı olmasının əlaməti onun Allahdan başqa, heç kəsdən mükafat və əcr gözləməməsi, həmçinin, təşəkkürə belə ehtiyac duymamasıdır. Bəzən ixlas elə bir həddə çatır ki, insan üçün söyülmək və təşəkkür eyni bir səviyyəyə gəlir. Yəni, yaxşı əməlindən o qədər də xoşhal və məst olmur, nə də təhqirdən halı o qədər də dəyişmir. Xoş belə müxlis insanların halına!

## *3. "Dəhr" surəsindəki ayələrin şairlərin şeirlərində öz əksini tapması*

"Dəhr" surəsindəki ayələrin həzrət Əli (ə) və onun ailəsi barəsində nazilolma səbəbi o qədər aydın, bariz və qətidir ki, hətta, şairlərin şeirlərində də öz əksini tapmışdır.

Əhli-sünnə[1] rəhbərlərindən biri olan Məhəmməd ibn İdris Əl-Mütəlləbiş-Şafeinin həzrət Əli (ə) barəsində şeiri var və həmin şeirin bir hissəsində belə yazılıb:

**اِلى مَ اِلى مَ وَ حَتّى مَتى          أُعاتَبُ فى حُبِّ هذَا الْفَتى**

**وَ هَلْ زُوِّجَتْ فاطِمُ غَيْرَهُ          وَ فى غَيْرِهِ هَلْ أَتى[2] «هَلْ أَتى»؟**

Şeirin tərcüməsi: "Mən hara gedim? Nə vaxta qədər məni təqib edəcəksiniz? Məni Əlinin (ə) məhəbbətinə görə məzmmət edirsiniz? (Əgər belədirsə,) qəzəbi Allahın qəzəbi və razılığı Allahın razılığı olan Fatimə (ə) Əlidən (ə) başqa, digər birisi iləmi evlənmişdi? Həl əta.. surəsi (özünün bütün fəzilət və qeyd etdiyi mükafatlarla birlikdə) bəyəm, Əlidən (ə) başqa, digər biri barəsində nazil olmuşdurmu (Onda, məni nə üçün Əliyə (ə) bəslədiyim məhəbbətə görə məzəmmət və tənə edirsiniz)?!""

---

*Əlinin (ə) "Xəndək" döyüşündəki vurduğu zərbə bütün insan və cinlərin ibadətindən üstündür. Başqa bir ifadədə isə belə buyurur:*

لضربة علىّ لعمرو بن عبدود افضل من عمل امّتى الى يوم القيامة *Əlinin (ə) «Xəndək» döyüşündəki Əmr ibn Əbdüvədə vurduğu zərbə (onun ölümü ilə nəticələndi) qiyamətə qədər mənim bütün ümmətimin əməllərindən üstündür.*

*1. O, məsum və pak xanədana həddən artıq məhəbbət bəsləmişdir və bu məhəbbət onun ardıcılları arasında da müşahidə edilməkdədir. Şafeilər şiəyə yaxın olduğu müddətdə onlar şiəyə ümumiyyətlə yaxın gəlməyərək ondan kənar gəzən vəhhabi və s. əhli-sünnə məzhəblərindən fərqli olaraq bidət və şirkdə ittiham edilirlər.*

*2. "İhqaqul-həqq", c.3, səh. 158.*

## 5 “ADƏMİN TÖVBƏSİ” AYƏSİ

فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

***“(Yer üzündə bir müddət qaldıqdan) sonra, Adəm öz Rəbbi tərəfindən bəzi kəlmələr aldı (ona tövbə təlqin edildi və ya öyrədilən adlarla ona tövbə ilham olundu və o, tövbə etdi). Allah da ona nəzər edərək tövbəsini qəbul etdi. O, çox tövbə qəbul edən və mehribandır.”***

*“Bəqərə” surəsi, ayə 37*

### *Bəhsə qısa bir nəzər*

Yuxarıdakı ayə bir tərəfdən, həzrət Adəmlə (ə) bağlı hadisələri bəyan edir, təvəssülün şərii olmasına dəlil hesab olunur və digər tərəfdən isə, tövbə edərək Allaha doğru qayıtmağa təkid edir. Eyni zamanda, bu ayə Əhli-beytin (ə) fəziləti hesab edilən ayələrdəndir. Qeyd edilən üç mətləbdən əlavə, əhli-sünnə və şiə mənbələrində də bu ayənin Əhli-beytlə (ə) bağlılığı barəsində rəvayətlər mövcuddur və biz gələcək bəhslərimizdə onlara toxunacağıq.

## *Şərh və təfsir*

## *Allaha doğru qayıdış*

**فَتَلَقَّى آدَمُ مِنْ رَبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ** – Şeytanın Adəmə (ə) vəsvəsə etməsi və cənnətdən onun xaric olmasına əmr edilməsi macərasından sonra Adəm özünə zülm etdiyinin, eyni zamanda, şeytanın tovlaması nəticəsində aram və bol nemətli mühitdən qovulduğunun və zəhmət və əziyyətlərlə dolu dünya mühitində qalmalı olacağının fərqinə varır. Bu yerdə Adəm (ə) bütün vücudu ilə qəlbinin dərinliklərindən gələn bir peşmançılıqla etdiyi xətanı düzəltmək məqsədi ilə Allaha üz tutur. Həmin anda da Allahın rəhməti onun imdadına çatır və Quranda bu barədə belə buyurulur: "Adəm Allahdan bəzi kəlmələr öyrəndi və onların vasitəsi ilə Allahdan bağışlanmaq dilədi və tövbəsi qəbul olundu." Həmin kəlmələrin nə olması barədə gələn bəhslərimizdə geniş şəkildə bəhs sedəcəyik.

**إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ** – "Tövbə" əslində "qayıtmaq və dönüş" mənasındadır və Quranın ifadələrində bu söz günahdan qayıtmaqla bağlı işlədilmişdir. Bu məsələ günahkar şəxsə günah nisbət verildiyi zaman həmin mənadadır.

Bəzən həmin söz Allaha nisbətdə işlədilir və bu zaman Allahın rəhmətinə qayıdış mənasını verir. Yəni, günaha mürtəkib olmaqla ondan uzaqlaşdırılan rəhmət tövbə və bəndəçilik səbəbi ilə yenidən ona tərəf qaytarılır. Hər halda, yuxarıdakı cümlə (Allahın rəhimli və tövbələri qəbul edən olması) Adəmin (ə) tövbəsinin qəbul olunması səbəbini bildirir.

## *Həzrət Adəm (ə) və Həvva (ə) hadisələrindən əldə olunan dərslər (ibrətlər)*

Quranın bir neçə surəsində[1] qeyd edilən Adəm (ə) və Həvva hadisəsi özündə mühüm və diqqət olunması zəruri olan mətləbləri əhatə edir:

1. Allah-taala Adəmi (ə) "Allahın xəlifəsi" (xəlifətullah) ünvanında tanıtdırmışdır (**إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً**)[2]. Allah xəlifəsi hansı şərtlərə (şəraitə) malikdir? Görəsən, bütün insanlar Allahın xəlifəsidirlərmi?

---

*1. Həzrət Adəm (ə) və Həvva hadisəsi geniş şərhlərlə Quranın «Bəqərə» surəsi, 30-cu, «Əraf» surəsi, 11-ci və «Taha» surəsi, 115-ci ayədən sonra qeyd edilmişdir.*

*2. «Bəqərə» surəsi, 30-cu ayə.*

Yoxsa, bu fəxarət libası bəzi insanların payına düşür? Bunlar barəsində diqqət edilərək tədqiq olunası və mütaliə edilməsi mətləblərdəndir.

2. Mələklər etiraz ünvanında deyil, sual formasında Allahdan belə soruşdular:

أَتَجْعَلُ فيها مَنْ يُفْسِدُ فيها وَيَسْفِكُ الدِّماءَ

***"Sən yer üzərində qanlar axıdacaq bir məxluq yaratmaq istəyirsən?"***[1]

Görəsən, mələklər insanın əvvəlini (sabiqəsini) haradan bildilər? Onlar bizə aid olan məlumatları necə mütaliə etmişdilər?

3. Allah mələklərə buyurdu: "Mən elə məsələlərdən xəbərdaram ki, siz onları bilmirsiniz."[2] və daha sonra adların elmini Adəmə öyrətdi və bu zaman onlardan adların elmi barədə soruşdu. Mələklər də bilmədiklərini söylədilər.

Bu zaman Allah Adəmə adların (isimlərin) elmini mələklərə söyləməsinə göstəriş verdi və o, mələklərə bildirdiyi zaman, mələklər həzrət Adəm (ə) barəsində səhvə yol verdiklərini anladılar. Həqiqətdə, ismlərin elmi nədir?

Görəsən, Adəmin məqamının bu qədər yüksəldən məxluqatın yaranma sirri və onların adlandırılması elmi nə idi?

4. Allah-taala bütün mələklərə Adəmə səcdə etməsi əmrini verdi.

قُلْنا لِلْمَلائِكَةِ اسْجُدُوا

***"Həqiqətən, biz mələklərə dedik: "Adəmə səcdə edin!""***[3]

Görəsən, həzrət Adəm (ə) hansı yüksək məqama malik idi ki, bütün asimani mələklərin ona səcdə etməsinə səbəb olmuşdu? Həzrət Adəmə (ə) bu qədər ehtiram qoyaraq dəyər verən məktəblə onun əslini meymun, keçi və şimpanzelərlə əlaqələndirən məktəblər arasında nə qədər böyük fərqlər vardır?! Şübhəsiz, həmin fərq yerlə göy qədərdir.

5. Həzrət Adəm (ə) və Həvva (ə) yarandıqları vaxtdan cənnətdə sakin oldular. Həmin cənnət harada idi? Görəsən, dünyadakı bağlardan biri, yosa, axirət aliməndəki cənnət idi? Belə olduğu təqdirdə, Həzrət Adəm (ə) və Həvva (ə) oradan necə xaric oldular?

6. Necə oldu ki, həzrət Adəm (ə) şeytana aldandı? Şeytan həzrət Adəmi (ə) hansı formada tərki-övlaya (yerinə yetirməsi daha yaxşı olan işin tərki) mürtəkib elədi?

7. Qadağan olunmuş ağacın meyvəsindən həzrət Adəm (ə) yeyən zaman bütün paltarları açıldı və o, lüt qaldı və nəhayət, ağacların yarpaqları ilə örtündü. Qadağan olunmuş ağac hansı ağac idi? Həmin

*1. Həmin yerdə.*

*2. «Bəqərə» surəsi, ayə 31.*

*3. "Əraf" surəsi, ayə 11.*

paltarlar necə əldə olundu? Eyni zamanda, onun cinsi nə idi?

8. Həzrət Adəmin (ə) paltarı əynindən açıldığı zaman şeytanın hiyləsinə aldandığını başa düşdü və bu işdən bərk peşman oldu.

9. Həzrət Adəm (ə) səhv və xətasını düzəltmək üçün Allah dərgahında tövbə etməli idi və tövbənin qəbulu üçün Allah dərgahına yaxın olan bir şəxsə təvəssül etməsi zərurət təşkil edirdi. Görəsən, belə bir şəxs kim idi?

10. Həzrət Adəmin (ə) tövbəsi qəbul edildi, amma o, cənnətdən çıxarıldı və dünyada məskunlaşdı. Görəsən, həzrət Adəm (ə) və onun qadınının cənnətdə məskunlaşdırılması elə əvvəlcədən müvəqqəti idimi? Yoxsa, əbədi idi, amma tərki-övla etdiyi üçün cənnətdən xaric edildi?

Qeyd edilən on mətləbin araşdırma, mübahisə və geniş təhlilə ehtiyacı var. Amma biz burada bəhs etdiyimiz ayələrlə mütənasib olan doqquzuncu məsələni, yəni həzrət Adəmin (ə) təvəssül məsələsini araşdıracağıq.

## *Həzrət Adəmin təvəssülü*

Həzrət Adəm (ə) və Həvvaya cənnətdə məskən verildikdən sonra Allah-taala bir ağacın meyvəsindən başqa, onlara bütün cənnət nemətlərindən istifadə etməkdə icazə verdi. Onlar da cənnətdə öz yaşayışlarını davam etdirir və qadağan olunmuş ağaca yaxın getmirdilər. Həzrət Adəmin (ə) xəlq olunması ilə ağır və bərpaolunmaz zərbə alaraq Allah dərgahından qovulan və Allahın lənəti və qəzəbinə düçar olan şeytan ondan intiqam almaq fürsəti axtarırdı. Bu cəhətdən, o, həzrət Adəm (ə) və Həvvanı qadağan olunmuş ağacla bağlı vəsvəsə etməyə başladı. Məlum məsələdir ki, şeytan insanları vəsvəsə edərkən onları birbaşa günah etməyə dəvət etmir, əksinə onu insanın gözündə bəzəyib şəkilləndirərək cazibəli göstərir və insan da bəzən günahı öz şəri vəzifəsi və ibadət imiş kimi yerinə yetirməyə başlayır. Misal olaraq, günəşə pərəstiş edərək müşrik olanlar barəsində Allahın belə buyurduğunu qeyd edə bilərik:

وَجَدْتُها وَقَوْمَها يَسْجُدُونَ لِلشَّمْسِ مِنْ دُونِ اللهِ وَزَيَّنَ لَهُمُ الشَّيْطانُ اَعْمالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبيلِ فَهُمْ لا يَهْتَدُونَ

***“Mən onun (Səba hökmdarının) və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərini gördüm. Şeytan onların (küfrlü) əməllərini nəzərlərində zinətləndirmiş və beləliklə, onları haqq yoldan saxlamışdır. Buna görə də, əsla düz yolu tapa bilmirlər.”***[1]

---

*1. “Nəml” surəsi, ayə 24.*

Beləliklə, şeytan həzrət Adəmi (ə) tovlayaraq ona belə dedi:

هَلْ اَدُلُّكَ عَلَى شَجَرَةِ الْخُلْدِ

***“Sənə (meyvəsindən yediyin zaman) cənnətdə əbədi qalacağın ağacı göstəriməyimi istəyirsənmi?”[1]***

Əbədiliyi istəmək, adətən, bəşərin fitrətindədir və o, məhv və fəna olmaqdan qorxur. Ölümdən qorxan kəslərin qorxusuna səbəb onu məhv olmaq kimi başa düşdükləri üçündür, amma İslam və Əhli-beyt (ə) məktəbi tərəfdarları ölümü bu dünyadan digər dünyaya körpü olduğunu bildikləri üçün ölümdən ümumiyyətlə qorxmurlar.

Şeytan cənnətdə əbədi qalmaq hiyləsi ilə həzrət Adəmə (ə) qadağan olunmuş ağacı vəsvəsə elədi. O, Allahın göstərişindən qəflət edərək həmin ağacın meyvəsindən yedi. Həzrət Adəm (ə) daha sonra şeytanın onu tovladığını başa düşdü və öz əməlindən hədsiz dərəcədə peşman oldu. Tövbə etmək niyyətinə düşdü, amma o, tövbə və təvəssül etməyin qaydasını bilmirdi. Allah təvəssül etməyin qaydasını həzrət Adəmə (ə) bildirdi və ona bəzi kəlimələr təlqin olundu. Həzrət Adəm (ə) həmin kəlmələri tövbə və təvəssüldə istifadə etdi və tövbəsi qəbul olunduqdan sonra o, öz məqamının yenidən tövbələri qəbul edən Allah dərgahında geri qaytarıldığını müşahidə elədi. Həmçinin, öz tövbəsi ilə həzrət Adəm (ə) öz qədim düşməni olan şeytana yenidən möhkəm bir zərbə vurmuş oldu.

## *Həmin kəlmələr nədən ibarət idi?*

Həzrət Adəmin (ə) onun vasitəsi ilə Allah dərgahına təvəssül edərək tövbəsinin qəbul olunmasına səbəb olan həmin kəlmələrdəki məqsədin nə olması barədə müxtəlif nəzəriyyələr mövcuddur. Biz onlardan üçünü sizin diqqətinizə çatdırırıq:

1. Həmin kəlmələrdəki məqsədin nə olması barədə “Əraf” surəsinin 23-cü ayəsində buyururlur:

رَبَّنا ظَلَمْنا اَنْفُسَنا وَاِنْ لَمْ تَغْفِرْلَنا وَتَرْحَمْنا لَنَكُونَنَّ مِنَ الْخاسِرينَ

***“Dedilər: “Ey Rəbbimiz, biz özümüzə zülm etdik, əgər bizi bağışlamasan və bizə rəhm etməsən, mütləq ziyana uğrayanlardan olacağıq.””***

Həzrət Adəm və Həvva bu kəlmələrlə Allah dərgahında tövbə etdilər.[2]

2. Həmin kəlmələrdəki məqsəd Mücahidin etiqadına əsasən

---

*1. “Taha” surəsi, ayə 120.*

*2. Mərhum Təbərsi bu nəzəriyyəni Həsən, Qütadə, Əkrəmə və Səid ibn Cübeyr kimi alimlərdən nəql etmişdir (“Məcməul-bəyan”, c.1, səh. 89).*

aşağıdakılar idi:

اَللّهُمَّ لا اِلهَ اِلاّ اَنْتَ، سُبْحانَكَ وَبِحَمْدِكَ رَبِّ اِنّى ظَلَمْتُ نَفْسى فَاغْفِرْلى اِنَّكَ خَيْرُ الْغافِرينَ. اَللّهُمَّ لا اِلهَ اِلاّ اَنْتَ، سُبْحانَكَ وَبِحَمْدِكَ رَبِّ اِنّى ظَلَمْتُ نَفْسى فَارْحَمْنى، اِنَّكَ اَنْتَ اَرْحَمُ الرّاحِمينَ. اَللّهُمَّ لا اِلهَ اِلاّ اَنْتَ، سُبْحانَكَ وَبِحَمْدِكَ رَبِّ اِنّى ظَلَمْتُ نَفْسى، فَتُبْ عَلَيَّ اِنَّكَ اَنْتَ التَّوّابُ الرَّحيمُ

***"İlahi! Səndən başqa, heç bir məbud yoxdur, sən pak və münəzzəhsən və mən sənə həmd və sitayişlə məşğulam. İlahi! Mən özümə zülm etdim, məni bağışla, sən bağışlayanların ən yaxşısısan. İlahi! Səndən başqa, heç bir məbud yoxdur, sən pak və münəzzəhsən və mən sənə həmd və sitayişlə məşğulam. İlahi! Mən özümə zülm etdim, mənə rəhm elə, sən rəhimlilərin rəhimlisisən. İlahi! Səndən başqa, heç bir məbud yoxdur, sən pak və münəzzəhsən və mən sənə həmd və sitayişlə məşğulam. İlahi! Mən özümə zülm etdim, mənim tövbəmi qəbul et, sən tövbələri qəbul edən və mehribansan."***[1]

3. Kəlmələrdə məqsəd həzrət Məhəmməd (s), Əli (ə), Fatimə (ə) Həsən (ə) və Hüseyndir (ə). Yəni, həzrət Adəm (ə) bu beş şəxsin adına təvəssül edə və onları şəfaətçi seçərək Allah dərgahında tövbə etdi və onların bərəkətinə tövbəsi qəbul olundu.[2] Yuxarıdakı ehtimalların da düzgün olması mümkünlüyünə baxmayaraq, şiə və sünni mənbələrində üçüncü ehtimalı təsdiqləyərək ona daha artıq təkid edən çoxlu sayda hədislər mövcuddur. Yəni, həzrət Adəmin (ə) bu beş şəxsə (xəmseye təyyibə) təvəssül və dildə isə iki ehtimalda qeyd edilən sözlərlə tövbə etdiyini söyləmək mümkündür.

Qeyd etdiyimiz kimi, əhli-sünnə alimlərinin əksəriyyəti şiənin qəbul etdiyi üçüncü ehtimala daha artıq üstünlük vermiş və bu zəminədə çoxlu rəvayətlər nəql etmişlər. Biz onlardan səkkiz nəfərinə işarə edirirk:

1. Əllamə Beyhəqi, "Dəlailun-nubuvvəh"[3]
2. Əllamə İbn Əsakir, "Müsnəd"[4]
3. Əllamə Süyuti, "Durrul-mənsur"[5] təfsirində
4. Əllamə Süyuti, """Cəmul-cəvame"[6];
5. Əllamə Kaşifi, """Məaricun-nubuvvəh" [7]əsərində

*1. "Ət-Tibyan", c.1, səh. 169.*

*2. "Məcməul-bəyan", c.1, səh. 89.*

*3. "İhqaqul-həqq", c.3, səh. 76-da nəql edilənlərə əsasən.*

*4. Həmin yer, səh. 77.*

*5. "Durrul-mənsur", c.1, səh. 60 ("İhqaqul-həqq", c.3, səh. 78-də nəql edilənlərə əsasən).*

*6. "İhqaqul-həqq", c.3, səh. 78-də nəql edilənlərə əsasən.*

*7. "Məaricun-nubuvvəh", ikinci rükn, səh. 9 ("İhqaqul-həqq", c.3, səh. 78-də nəql edilənlərə əsasən).*

6. Əllamə Qubduzi, "Yənabiul-məvəddəh"[1]
7. Əllamə İbnil Məğazəli, "Mənaqib"[2]
8. Əllamə Nətnəzi, "Xəsaisul-ələviyyəh"[3] əsərlərində həmin rəvayətləri qeyd etmişlər.

Həmin rəvayətlərin bəzi nümunələrinə diqqət edin:

a) İbn Məğazəli İbn Abbasdan belə nəql edir:

**سُئِلَ رَسُولُ اللهِ(صلى الله عليه وآله وسلم (عَنِ الْكَلِماتِ الَّتى تَلَقّاها آدَمَ، قال: سَئَلَهُ آدَمُ بِحَقِّ مُحَمَّد وَعَلِيٍّ وَفاطِمَةَ وَالْحَسَنِ وَالْحُسَيْنِ اِلاّ ما تُبْتَ عَلَيْهِ فَتابَ عَلَيْهِ**

***"Peyğəmbərdən (s) həzrət Adəmə Allah tərəfindən təlqin edilən kəlmələrdəki (həmin kəlmələrlə təvəssül etmiş və tövbəsi qəbul olunmuşdu) məqsədin nə olduğu barədə soruşulduqda, o həzrət belə cavab verir: "Adəm Allahdan Məhəmmədin (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynin (ə) haqqına xatir onun tövbəsini qəbul etməsini istəmiş və Allah da onun tövbəsini qəbul etmişdi.""***[4]

b) İbn Əsakir "Müsnəd" əsərində ikinci xəlifədən belə nəql edir:

**قالَ آدَمُ: اَسْئَلُكَ بِحَقِّ مُحَمَّد وَآلِ مُحَمَّد وَآلِهِ اِلاّ غَفَرْتَ لى ـ الى قوله) عليه السلام (ـ وَلَوْ لا هُوَ ما خَلَقْتُكَ**

***"Adəm (Allah dərgahında tövbə edərkən) belə dedi: "İlahi! Səni Məhəmməd (s) və Ali-Məhəmmədin haqqına and verirəm ki, məni bağışla... Əgər Məhəmməd (s) və Ali-Məhəmməd olmasaydı, Adəm xəlq olunmazdı.""***[5]

Ömər ibn Xəttab bu rəvayəti Peyğəmbərə (s) nisbət verməsə də, bu elə bir mətləb deyil ki, Peyğəmbər (s) və ya imamdan başqa, kimsə ondan xəbərdar ola bilsin. Deməli, bu məsələni o, hökmən, Peyğəmbərdən (s) eşitmiş idi.

c) Əllamə Nətnəzi "Xəsaisul-ələviyyəh" əsərində Mücahiddən belə nəql edir:

**اَنَّ الْكَلِماتِ الَّتى تَلَقّاها آدَمُ مِنْ رَبِّه اَللّهُمَّ بِحَقِّ مُحَمَّد وَ عَلِيٍّ وَ فاطِمَةَ وَ الْحَسَنِ وَ الْحُسَيْنِ اِلاّ تُبْتَ عَلَيْهِ فَتابَ اللهُ عَلَيْهِ**

***"Adəmə Allahdan təlqin olunan kəlimələr belə idi: "İlahi! Məhəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) xatirinə***

---

1. *"Yənabiul-məvəddəh", səh. 98 ("İhqaqul-həqq", c.3, səh. 89-da nəql edilənlərə əsasən).*
2. *"İhqaqul-həqq", c.3, səh. 77-də nəql edilənlərə əsasən.*
3. *Həmin yerdə, səh. 78.*
4. *Yenə orda, səh. 76.*
5. *«İhqaqul-həqq", c.3, səh. 77.*

*mənim tövbəmi qəbul et. Allah da onun tövbəsini qəbul etdi."*"[1]

Bu rəvayətin ardınca həzrət Adəmin tövbəsi qəbul olunduqdan sonra özünə üzük hazırladığı və onun qaşında həzrət Məhəmmədin (s) adını "Rəsullullah" və həzrət Əlinin (ə) adını isə "Əmərəl-möminin" ünvanında həkk etdiyi nəql edilmişdir.

Bir sözlə, şiə və sünni kitablarında qeyd edilən çoxlu sayda rəvayətlərə uyğun olaraq (bizim nəzərinizə çatdırdıqlarımız həmin rəvayətlərin çox az bir qismi idi) həzrət adəmə təlqin edilən və onun vasitəsi ilə təvəssül edərək tövbəsi qəbul olunan kəlmələrdəki məqsədin "Xəmseye təyyibə", yəni Əhli-beytin (ə) adları olduğunu deyə bilərik.

Görəsən, bu məqam varlıq aləmində (dünyada) məsum və pak Əhli-beytdən (ə) başqa, hansısa bir şəxs üçün təsbit edilmişdirmi?! Bu böyük fəzilətin özü onların digər insanlardan daha üstün olduğuna dəlalət etmirmi?! Əgər onlar insanların ən üstünüdürlərsə (elə ən üstünüdürlər) və Allah da Peyğəmbərə (s) xəlifə təyin etmək istəyərsə, Allahın hikməti ən üstün olan fərdləri qoyub digərlərini Peyğəmbərin (s) canişini ünvanında seçməyə icazə verərmi (uyğun gələrmi)?! Əgər camaat da seçim etmək istəsə, əql üstün şəxsləri qoyub digərlərini seçməyi qəbul edərmi?! Qəzavət etməyi sizin öhdəsnizə qoyuruq.

## *Görəsən, təvəssül etmək şəri bir məsələdirmi?*

Təəssüflər olsun ki, Məkkə və Mədinə kimi müsəlmanların ziyarətgahı olan bu iki şəhər quru və sərt əqidələrə sahib vəhhabilərin əlinə keçmişdir. Onlar ziyarətə gələrək Peyğəmbər (s) və Bəqidə olan digər məsum imamların qəbirlərinə təvəssül etmək istəyən şəxslərə mane olurlar, çünki onlar təvəssül məsələsi ilə sərt şəkildə müxalifət edir və ona qadağa qoyurlar. Görəsən, onların öz etiqadlarını digər müsəlmanlara, hətta sünnilərin özlərinə belə qəbul etdirməyə nə haqları (ixtiyarları) vardır? Əgər belə bir haqqa malikdirlərsə, onda, nə üçün bütün müsəlmanları əlibağlı namaz qılmağa məcbur etmirlər?

Bu suallar Məkkə və Mədinəyə ziyarətə gedən bütün müsəlmanların soruşduğu, amma ona cavab tapmadığı suallardır. Bəli, vəhhabilər təvəssül məsələsi ilə şiddətli şəkildə müxalifdirlər və onu tövhidə zidd və bir növ, şirk hesab edirlər. Bəhsimiz təvəssül məsələsinə yetişdiyi üçün onun şəri olması ilə bağlı Quran ayələri və məsum imamlaın rəvayətlərindən dəlillələr gətirərək bu barədə kamil və hərtərəfli söhbət açmaq istəyirik.

---

*1. «İhqaqul-həqq", c.3, səh. 78.*

### *Təvəssülün növləri (qisimləri)*

Təvəssülün müxtəlif qisimləri vardır:

1. Bəzən təvəssül edərkən bizim xitab etdiyimiz şəxs Peyğəmbər (s) və ya imamdır. Təvəssül duasında qeyd edilənləri buna misal göstərmək olar. Həmin duada imamların hamısına bir-bir təvəssül edərək onların Allah dərgahında məqamları olduğu üçün bizə şəfaətçi olmasını istəyirik. Həqiqətdə, bu formadakı təvəssüllə biz Allahdan hacət istəyir və o şəxsiyyətləri vasitəçi kimi seçirik.

2. Bəzən bizim xitab etdiyimiz Allah-taaladır və biz bu zaman Allahı onun dərgahında xüsusi ehtiramı olan bir şəxsin haqqına and veririk ki, bizim hacətimizi qəbul etsin. Buna misal olaraq, həzrət Adəmin (ə) Allah dərgahında etdiyi təvəssülü göstərə bilərik:

**اَللّهُمَّ يا حَميدُ بِحَقِّ مُحَمَّد وَيا عالِيُ بِحَقِّ عَلِى وَيا فاطِرُ بِحَقِّ فاطِمَةَ وَيا مُحْسِنُ بِحَقِّ الْحَسَنِ وَيا قَديمَ الْإِحْسانِ بِحَقِّ الْحُسَيْنِ**

Bu qisimdən olan təvəssüldə də Allahdan hansısa bir hacət istənilir və əzəmətli şəxslərdən kimsə vasitə seçilir.

3. Üçüncü qisimdən olan təvəssüldə də xitab edilən Allahdır və biz onun dərgahında abırı olan şəxsləri Allaha and veririk ki, bizim hacətimizi qəbul və çətinliklərimizi həll etsin. Məsələn, belə deyirik: "İlahi! Səni İslam Peyğəmbərinə (s), Qurana və digər müqəddəs olan kəslərə and verirəm, mənim hacətimi qəbul et."

Vəhhabilər təvəssülün hər üç növünü haram və onu şirk bilirlər. Vəhabi böyüklərindən bir neçəsinin dediyi sözlərə diqqət edin:

1. Məhəmməd ibn Əbdülvəhhab öz tövhid kitabında (halbuki, kitaba şirk adını versək daha yaxşıdı, çünki başdan-ayağa şirkdir) belə deyir:

**اِنَّ هذا الشرک الاکبر**

"Bu (təvəssül), Allaha qoşulan ən böyük şirkdir."[1]

2. Sənani adlı digər vəhhabi alimi deyir:

**من توسّل بمخلوق فقد اشرك مع الله غيره و اعتقد مالا يحلّ اعتقاده**

***"Allahın məxluqlarından birinə təvəssül edən şəxs Allaha digər bir şəxsi şərik qoşmuş və başqa bir kəsə etiqad bəsləmişdir ki, ona etiqad düzgün deyil."***[2]

3. vəhhabi təfəkkürünün əsas təməlini qoyanlardan biri olan İbn Teymiyyə belə deyir:

---

*1. «Kəşful-irtiyab», səh. 301-də nəql edilənlərə əsasən.*

*2. «Təthirul-etiqad» («Kəşful-irtiyab», səh. 301-də nəql edilənlərə əsasən).*

من توسّل بعظيم عندالله... فهذا من افعال الكفّار و المشركين

***"Allah dərgahında əzəmətli olan bir şəxsə təvəsül edən kəsin əməli kafir və müşriklərin (bütlərə pərəstiş etməsi) əməlinə bənzəyir."***[1]

Uzun sözün qısası, vəhhabi əqidəli şəxslər təvəssülü şirk hesab edir və İslamda yoldan çıxmış bu azğınlar Allah evinin ziyarətçilərini "şirk" və "bidət" bəhanəsi ilə incidirlər.

## *Tövhidin təfsiri və onun yüksək mərtəbəsi*

Təvəssülün tövhidlə heç bir ziddiyyətinin olmamasının aydınlaşması üçün əvəlcə, tövhidi təfsir etmək və onun yüksək mərtəbəsinin nə olduğunu başa düşmək lazımdır. Bizim etiqadımıza əsasən, tövhid dinin əsas sütunudur və onun bütün işlərdə təsirli rolu vardır. Allah birdir və peyğəmbərlər də bir məsələyə doğru insanları dəvət etmişlər. Qiyamət günü bütün insanlar eyni bir gündə məşhərdə olacaq, müsəlmanların qibləsi bir olan Kəbədir, bütün müsəlmanların Quranı birdir. Xülasə, tövhid bizim üsul və füruid-dinimizdə cərəyanda olan əsas məsələlərdəndir. Bu baxımdan, tövhid sadəcə üsuli-dinin bir təməli deyil, əksinə bütün üsul və füruid-dində təsirlidir. O, təsbehin ipinə bənzəyir, yəni təsbeh dənələrini bir-biri ilə əlaqələndirir və əgər tövhid olmasa, din gerçəkləşə və reallaşa bilməz. Həmçinin, təsbehin ipi olmasa, təsbeh də forma və şəkil ala bilməz. Deyilənləri nəzərə alaraq, tövhidlə ziddiyyət təşkil edən bütün məsələləri biz də qəbul etmirik.

## *Tövhidin qisimləri*

Tövhidin müxtəlif şaxələri vardır və biz onun ən mühüm olan dörd qisminə işarə edirik:

***1. Zatda tövhid (tövhidie zat)*** – yəni, Allahın zatı birdir. Bu məsələ onun iki yox, bir olması mənasında deyil. Birinci təfsirə əsasən, onun tayı və bənzəri təsəvvür olunmazdır, lakin ikinci təfsirə əsasən, xaricdə vücudu (nümunəsi) olmasa da, ona tay və bənzər təsəvvür etmək mümkündür. Bu cəhətdən, "İxlas" surəsinin birinci ayəsində (قُلْ هُوَ اللهُ أَحَدٌ) onun heç bir tayı və bərabəri olmadığı,

(لَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ) eyni zamanda, təsəvvürünün də qeyri-mümkünlüyü təfsir olunur.

***2. Sifətdə tövhid (tovhide sifat)*** – Allahın bütün sifətləri bir həqiqətə qayıdır. Allahla bağlı onun elm sifəti qüdrət sifətindən, qüdrət sifəti şücaət, əzəli olması da elm, qüdrət və şücaət sifətindən ayrı deyil.

*1. «Kəşful-irtiyab», səh. 302.*

Amma insan üçün onun elminin ruhunda, qüdrətinin qollarında və məhəbbət və hislərinin isə qəlbində olduğunu demək mümkündür. Biz Allahla bağlı belə deyə bilmərik və onun elmi, qüdrəti və digər sifətlərinin hamısı sadəcə onun bir olan zatına qayıdır, yəni qüdrət də, elm və həyat da onun zatındadır.

***3. Feli tövhid (tovhide əfali)*** – Aləmdə baş verən bütün fel və işlər Allah tərəfindəndir və onun icazəsi olmadan heç bir şey təsirli deyil: (لا مُؤَثِّرَ فِى الْوُجُودِ الا الله) – yəni, od yandırmaq qabiliyyətinə malikdirsə, bu, Allahın əmri ilədir. Məsələn, həzrət İbrahimi (ə) oda atdıqları zaman atəş onu yandırmadı, çünki belə bir icazə oda verilməmişdi. Eyni zamanda, əgər su da odu söndürürsə, bu da Allahın izni ilədir ki, su oda təsir edə bilir.

Bizim görə bildiyimiz işlər də Allahın icazəsi ilədir. Yəni, Allah bizə seçim edə bilmək üçün ixtiyar vermişdir. Bizə əta olunan əql, ixtiyar və qüdrət Allah tərəfindədir və hamısı Allahın zatına qayıdır. Deməli, mütəqil şəkildə təsirli ola bilən kəs Allahdır və digər səbəblər Allahın iradəsinə tabedir.

***4. İbadətdə tövhid (tovhide ibadət)*** – İbadət və pərəstiş yalnız Allaha məxsusdur və ondan başqa, heç bir varlıq ibadət və pərəstişə layiq deyil. Məsələn, şiələrdən hansısa birinin pak və mütəhhər imamlardan birini ziyarət edərkən hərəmin astanasını öpməsi, həqiqətdə, onun – nəuzubillah – imama səcdə etməsi deyil, əksinə Allaha şükür səcdəsi yerinə yetirməsinə bənzəyir ki, belə bir tofiqi Allah onlara nəsib etmişdir. Şiələrdən heç biri Allahdan başqa, digər mövcudları sitayiş və pərəstişə layiq bilmir və ondan başqasına da səcdə etmir. Biz bəzilərinin yanlış anlamasının və bu məsələdən mənfi məqsədlə istifadə etməsinin qarşısını almaq və Allahdan başqasına pərəstişin düzgün olmadığını bildirmək üçün həmin hallarda da şükür səcdəsi etməmələrini tövsiyə edirik. Bir sözlə, ibadət tək olan Allaha məxsusdur.

Yuxarıda qeyd edilən dörd şaxə tövhidin əsil qisimləridir. Eyni zamanda, tövhidin hakimiyyət[1], şəriət göndərilməsi[2], malikiyyət[3] və s.

---

*1. "Hakimiyyətdə tövhid" məsələsində məqsəd bütün hökumətlərin camaat tərəfindən deyil, Allah tərəfindən olmasıdır. Camaat əgər seçki məsələlərində meydanda görsənir və onlara əhəmiyyət verilirsə, bu da Allahın əmri ilədir.*

*2. "Şəriətin göndərilməsindəki tövhid"in mənası təkcə Allahın qanunverici olması məsələsidir və Allah qanunlarından qaynaqlanan bütün qanunlar şəridir.*

*3. "Malikiyyətdə tövhid"in mənasə həqiqi malikin sadəcə Allah olmasıdır və o, əmanət olaraq müəyyən müddət üçün bizə verilmişdir. Sahib olduğumuz hər bir şey Allaha məxsusudur və bir məhdud bir vaxt üçün bizə verilmişdir.*

buna bənzər digər növləri də vardır.[1] Söylədiklərimiz tövhidin həqiqəti idi və belə etiqadlara malik olan hər bir müsəlmanın tövhidi kamildir. Tövhid və şirkdən dəm vuran vəhhabilər şiələrin imamları tərəfindən təlim verilən bu cür mətləbləri dərk etmirlər. Bu səbəbdən, digərlərini daimi olaraq şirkdə ittiham edirlər.

### *Əşairə və onların feli tövhidlə bağlı yanlış təfsiri*

Əhli-sünnə məzhəblərindən olan əşairə feli tövhidlə bağlı məsələləri düzgün təhlil edə və düzgün nəticələr əldə edə bilmədiklərindən, cəbrə (məcburiyyətə) etiqad bəsləmiş və insanları iradə və ixtiyarsız olaraq tanıtdırmışlar. Onlar elə düşünmüşlər ki, əgər insan ixtiyar sahibi olarsa, bu, feli tövhiddə şirkə gətirib çıxarar. Halbuki, onların cəbrə etiqadlı olması bütövlükdə nübüvvət, qiyamət, ibadət və imaməti sual altına aparır. Həqiqətən də, əgər insanlar irdəsiz və bütün iş və əməllərində məcburdursa, onda, qiyamət gününün sorğu-sualının nə mənası var?

Günahkarların cəzalandırılması və Allahın yaxşı bəndələrinə mükafat verilməsini belə olduğu halda, necə izah etmək olar? Onda, belə çıxır ki, nə günühkar öz günahında ixtiyara sahib olmamışdır, nə də itaət edən öz itaətində və onlardan heç biri cəza və mükafata layiq deyildir. Əgər cəbr məsələsini qəbul etsək, onda heç bir məhkəmə cinayətkarı cəzalandırmamalıdır, çünki həmin şəxs cinayəti öz ixtiyarı ilə eləməyib.

Siz odun günahsız bir insanı yandırdığı və dərya sularının da bir insanı boğduğu üçün onları mühakimə edə bilərsinizmi? Həmçinin elektirik cərəyanının günahsız birini öldürdüyü üçün onu ittiham edə bilərsinizmi?

Aydın məsələdir ki, bu sualların cavabı mənfidir və belə bir mühakimə gülməlidir. İxtiyar və iradəyə malik olmyan insan da od, su və s. kimi etdiyi günahlara görə mühakimə olunmaq qabiliyyətinə sahib deyil.

Maraqlı burasındadır ki, bu nəzəriyyə tərəfdarları əməldə öz etiqadlarının əksinə rəftar edir və kimsə onlara şillə vursa, oğru evlərinə girib nəyi isə oğurlasa, o dəqiqə məhkəməyə şikayət edərlər, halbuki, insanlar iradəyə malik olmasalar, onlara etiraz və onlardan şikayət etmək olmaz. Bu məsələ cəbrə etiqad bəsləyənlərin sözləri ilə əməlləri arasında mövcud olan ən mühüm ziddiyyətdir.

---

*1. Tövhidin geniş şərhlərlə verilmiş digər şaxələri barədə məlumat almaq üçün «Quranın mesajları» kitabının 4-cü cildini mütaliə edin.*

Yəqin ki, möhtərəm oxucu bunun sadəcə bir nəzəriyyə olduğunu və həiqətdə tərəfdarlarının olmadığını düşünür. Amma təəssüflər olsun ki, belə batil bir nəzəriyyəni ciddi şəkildə müdafiə edənlərin olduğunu və bu sahədə yazılan bir sıra kitab və əsərlərin mövcudluğunu elan etməliyik.

Belə insanlar feli tövhidi yaxşı izah edə bilmədiklərindən, cəbrə üz gətirmiş və Allahın insana iradə və ixtiyar verdiyini unutmuşlar. Biz Allahın insana iradə və ixtiyar verdiyini və insanların işlərini ona əsasən yerinə yetirdiyini dediyimiz zaman, bu məsələlər Allaha qayıdır və feli tövhidə heç bir zərbə dəymir.

Əşairə və cəbrə etiqad bəsləyənlər aləmdəki səbəblərin də inkarçısına çevrilmişlər. Onlar deyirlər ki, od yandırmır, həqiqətdə, Allah yandırır. Həmçinin, “Əslində daş şüşəni sındırmır, elə ki, daş şüşəyə yaxınlaşır, Allah onu sındırır.” kimi əqidəyə sahibdirlər.

Bəli, onlar bu qədər sadə və aydın olan bir məsələni feli tövhidi yanlış anladıqlarından inkar etmişlər. Nəticədə, feli tövhidin insanın ixtyar və iradəsi, həmçinin, səbəblər aləmi ilə heç bir ziddiyyəti yoxdur, çünki iradə və səbəblərin hamısı Allaha məxsusdur. Allah insana əql, qüvvə və qüdrət, iradə və ixtiyar, eyni zamanda, seçim edə bilmək vermişdir. Bütün bunlar Allah tərəfindən olduğu üçün işlərin hamısını Allah yerinə yetirir. Bununla belə, insan seçim etdikləri müqabilində məsuliyyət daşıyır.

Mətləbin daha da aydın olması üçün bu misala diqqət yetirin:

Bir ata övladının ixtiyarında xərcləməsi üçün pul qoyur. Bununla yanaşı, ata həmişə övladının yanındadır, istədiyi zaman verdiyi pulu ondan geri ala bilər. Burada övladın pulu xərcləməsi və aldığı şeylərdə məsuliyyət daşımasına baxmayaraq, pul ataya məxsusdur. Deməli, ixtiyar və iradənin feli tövhidlə heç bir ziddiyyəti yoxdur və onu ifrat şəkildə və şirkəqarışmış kimi tanıtmaq lazım deyil.

## Görəsən, təvəssül tövhidlə uyğun gəlirmi?

***Sual:*** Nə üçün vəhhabilərin əqidəsində təvəssül şirk hesab edilir? Görəsən, təvəssül tövhidin hansı qismi ilə uyğun gəlmir? Bəyəm, təvəssül sifət və zatdakı tövhidlə uyğun gəlmir? Şübhəsiz ki, təvəssülün tövhidin heç bir qismi ilə uyğunsuzluğu yoxdur.

Görəsən, təvəssül ibadətdəki tövhidlə bağlı problem yaradırmı? Əgər cavab müsbətdirsə, deməliyik ki, vəhhabilər çox böyük səhvə yol verirlər. Çünki şiələr Peyğəmbər (s), imamlar (ə) və Qurana təvəssül etdikləri zaman, bütpərəslər bütlərə sitayiş edərək onları özlərinə şəfaətçi və vasitə bildikləri kimi, onlardan heç birinə pərəstiş

etmirlər. Əksinə biz onlardan xahiş edirik ki, Allah yanındakı etibar və abırlarından istifadə edərək bizim çətinliklərimizin həllini Allahdan istəsinlər. Deməli, bizim təvəssül məsələmizlə bütpərəslərin bütlərə sitayiş etməsi arasındakı fərq tamamilə aydındır və şiələri bütpərəstlikdə ittiham edənlər, həqiqətdə, insafsız kəslərdirlər. Biz daş və ağaca ibadət etməklə Allah yanında üstün məqamları olan Peyğəmbər (s), imamlar (ə) və Qurana təvəssül etməyin müqayisə olunmayacaq şəkildə olduğunu söyləmək istəyirik. Nəticədə, təvəssülün zat, sifət və ibadətdəki tövhidlə heç bir ziddiyyətinin olmadığını bildiririk. Vəhhabilərin onu tövhidə zidd kimi dəyərləndirməsində məqsədi nədir? Görəsən, onlar təvəssülü tövhidin hansı qismi ilə zidd hesab edirlər?

***Cavab:*** Vəhhabilərin təvəssülü şirk hesab etməsi onun feli tövhidlə zidd olduğunu düşünmələridir, çünki Peyğəmbər (s) və imamlara (ə) təvəssül edərək onlardan hansısa bir hacətin yerinə yetirilməsi və çətinliyin həllini istəməklə Allahdan başqasının işlərdə təsirli olduğuna etiqad bəsləmiş olurlar. Bilirik ki, təsirli olan fəqət Allahdır və kimsə Allahdan başqasının varlıq aləmində təsirli olduğuna etiqadlı olarsa, o, müşrik hesab edilər.

Biz bu məsələnin cavabında deyirik: “Şiə Peyğəmbər (ə), imam və Qurana təvəssül etdiyində həmin şəxslərin Allah dərgahında müstəqil olaraq təsirli deyil, əksinə Allahın izni ilə təsir edə bildiklərini düşünürlər ki, bu da feli tövhidlə heç bir ziddiyyətə malik deyil. Bəli, biz Peyğəmbər (s) və imamların (ə), nəuzubillah, müstəqil şəkildə təsirli olduğunu desəydik, onda, şirkə yol vermişdik. Amma heç kəs belə bir şey söyləmir. Əgər biz Peyğəmbərin (s) şəfaətçi olaraq Allah dərgahında bizim çətinliklərimizin həllini istəməsini söyləyiriksə, bu, şirk deyil, əksinə tövhidin özüdür.” Bu məsələ Quranda öz əksini tapmışdır. Hər halda, vəhhabilər Quranı qəbul edirlər. “Ali-İmra"” surəsinin 49-cu ayəsi onların iddia və ittihamlarına tutarlı bir cavabdır. Bu ayənin icmali şərh və təfsirinə diqqət yetirin:

**أَنِّى قَدْ جِئْتُكُمْ بِآيَةٍ مِنْ رَبِّكُمْ** – Həzrət İsa Məsih (ə) Bəni-İsrail camaatına deyir ki, “Mən Allahın peyğəmbəriyəm və Allah tərəfindən sizin üçün möcüzə və nişanələr gətirmişəm.” Daha sonra o, möcüzənin növünə işarə edir:

1. **أَنِّى أَخْلُقُ لَكُمْ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنْفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللَّهِ** – Mənim möcüzələrimdən biri torpaqdan quş heykəli düzəldərək ona üfürməyimdir Mən ona üfrdüyümdə, gildən olan heykəl həqiqətən də, canlı quşa cevrilər. Amma bunların hamısı Allahın izni ilə gerçəkləşir.

Yəni, mən müstəqil şəkildə təsirli və yaradan deyiləm, əksinə mənim yaratmağım Allahın izni ilədir. Mən sadəcə həmin heykələ nəfəsimi üfürürəm və o, Allahın əmri ilə quşa çevrilir.

2. وَأُبْرِئُ الْأَكْمَهَ وَالْأَبْرَصَ وَأُحْيِ الْمَوْتَى بِإِذْنِ اللَّهِ – Mənim digər möcüzəm anadangəlmə kor və bərəs (cüzam) xəstəliyinə tutulmuşlara şəfa verməyim və ölüləri diriltməyimdir. Əlbəttə, bu işləri də Allahın izni və icazəsi ilə edirəm, məbada, məni Allah və ya onun oğlu adlandırasınız! Mən sadəcə bir vəsiləyəm və bütün bunlar Allaha məxsus olan işlərdir.

3. وَأُنَبِّئُكُمْ بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ – Mənim peyğəmbərliyimə dəlil olan üçüncü möcüzəm sizin evinizdə ehtiyat olaraq saxladığınız və yediyiniz şeylər barədə xəbər verməyimdir və bunların hamısı Allahın təlim verməsi ilədir.

Bu ayə təkvini vilayəti qəbul etməyən, təvəssülü inkar edən və ya onun feli tövhidlə zidd olduğunu düşünən kəslər üçün tutuarlı bir cavab və dəlildir. Deməli, hansısa bir işi Allahdan başqasına nisbət versək və onun Allahın izni ilə təsirli olaraq baş verdiyini qəbul etsək, belə bir mətləbin tövhidlə heç bir ziddiyyəti olmaz.

## *Quranda təvəssül*

Deyilənlərdən əlavə, Quranda təvəssül məsələsini aşkarcasına bəyan edən digər ayələr də mövcuddur. Həmin ayələrin bir neçə nümunəsinə diqqət edin:

1. "Yusif" surəsinin 97-ci ayəsində buyururlar:

قالُوا يا اَبانَا اسْتَغْفِرْلَنا ذُنُوبَنا اِنّا كُنّا خاطِئِينَ

***"(Yaqubun oğlanları) dedilər: "Ey ata, (Allahdan) bizim günahlarımızın bağışlanmasını istə ki, həqiqətən, biz səhv etmişik!""***

Həzrət Yusifin (ə) həyatda olması xəbəri atası və qardaşlarına yetişdikdə, onun qardaşları səhv etdiklərini anlayaraq tövbə etmək fikrinə düşdülər və Allahla öz aralarında atalarını vasitəçi təyin etdilər ki, o, Allah dərgahında şəfaətçi olaraq Allahdan qardaşların günüahlarının bağışlamasını istəsin. Ataları cavabında dedi:

سَوْفَ اَسْتَغْفِرُ لَكُمْ رَبّى اِنَّهُ هُوَ الْغَفُورُ الرَّحيمُ

***"Tezliklə Allahdan sizi bağışlamasını istəyəcəyəm, həqiqətən, o, bağışlayan və mehribandır!"***[1]

*1. "Yusif" surəsi, ayə 98. Həzrət Yaqubun (ə) həmin vaxt onların istəyini yerinə yetirməməsinə səbəb bu idi ki, hər bir şeyin öz zamanı olduğu kimi, duanın qəbul olunmasının da öz zamanı vardı və bu cəhətdən, həzrət Yaqub (ə) bağışlanmaq diləməsini gələcəyə (sonraya) saxladı. Rəvayətə uyğun olaraq həmin vaxı cümə günüə saxladı, çünki o gün duanın qəbul olunması*

Bu ayəyə uyğun olaraq, həzrət Yaqubun (ə) günahkar övladları ona təvəssül edirlərk ki, Allah dərgahında onlar üçün bağışlanmaq tələb etsin. Beləliklə, bizim də İslam Peyğəmbəri (s), məsum imamlar (ə), Quran və digər möhtərəm şəxslərə təvəssül edərək onların Allah dərgahında bizim çətinliklərimizin həllini tələb etmələrini istəməyimizin nə eybi var?

2. "Nisa" surəsinin 64-cü ayəsində buyurulur:

وَمَآ أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللَّهِ وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآءُوكَ فَاسْتَغْفَرُواْ اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللَّهَ تَوَّابًا رَّحِيماً

***"Biz hər bir peyğəmbəri yalnız Allahın kömək və izni ilə itaət olunmaq üçün göndərmişdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlsə, sonra Allahdan bağışlanmaq istəsə və Allahın Peyğəmbəri də (Allahdan) onlar üçün bağışlanmaq diləsəydi, şübhəsiz, Allahın çox tövbə qəbul edən və mehriban olduğunu görərdilər."***

Bu ayədə Allahın özü təvəssül etmək qaydasını camaata təlim verir. Təvəssülə icazə verən Quranın bu iki aşkar ayəsi müqabilində vəhhabilərin cavabı nədir?

## Böyük şəxsiyyətlərə ölümlərindən sonra təvəssül etmək

Quran ayələri və dəlillər müqabilində qənaətbəxş cavabları olmayan kəslər tutduqları mövqeyi dəyişərək təvəssülün Peyğəmbərin (s) həyatda olduğu zamana aid olduğunu və o həzrətin ölümündən sonra isə caiz olmadığını söyləməyə məcbur olmuşlar.

Onlar dedikləri sözlərin mənasına diqqət etməmişlər. Vəhhabilərin sözlərindən belə çıxır ki, Peyğəmbər (s) həyatda olduğu müddətdə şirk eləmək olar, amma o həzrətin vəfatından sonra şirk caiz deyil. Başqa bir ifadə ilə desək, onların sözündən şirkin iki qismə bölündüyü anlaşılır:

1. İcazə verilərək mübah olan şirk.
2. İcazə verilməyən və haram olan şirk.

Görəsən, indiyə qədər hansısa bir alim belə bir söz demişdirmi? Hansısa bir müsəlmandan indiyə kimi şirkə icazə verildiyini eşitmisinizmi? Şirkin batil və qadağan olması külli əqli qaydalara əsaslanır və onda istisnaya yer yoxdur. Elmi baxımdan, vəhhabilər geridə qalmış bir cəmiyyətdir və digər islami məzhəblərlə müqayisə

---

*üçün daha münasibdir. Maraqlı burasındadır ki, "Qurtubi təfsiri", c.6, səh. 3491-də həzrət Yaqubun (ə) həmin məsələni cümə gününün axşamına – o gün Aşura günnə bərabər idi – salması qeyd edilmişdir ("Nümunə təfsiri", c.10, səh. 75).*

olunmağa belə layiq deyillər. Onlar nə Dəməşq, nə Əl-Əzhər, nə də şiə alimləri ilə müqayisə olunası deyillər. Bundan əlavə, Peyğəmbərin (s) vəfatından sonra o həzrətdən nə əskilib ki, ona təvəssül etmək mümükün olmasın? Düzdür ki, o həzrətin cismi vəfatı ilə aradan getmişdir, amma ruh cisimdən ayrıldıqdan sonra daha da qüvvətli hala gəlir. Quranda şəhidlərin ruhu ilə bağlı bərzəx həyatının olduğu bildirlir:

وَلا تَحْسَبَنَّ الَّذينَ قُتِلُوا فى سَبيلِ اللهِ اَمْواتاً بَلْ اَحْياءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

***"Allah yolunda öldürülənləri ölü hesab etməyin, əksinə onlar Allah dərgahında diridir və orada ruzi yeyirlər."*[1]**

Şəhidlərin ölümdən sonra Allah dərgahında diri olduğu və ruzi yedikləri və sonrakı ayəyə əsasən, dünyadakı yaxınlarının əməllərini müşahidə etdikləri halda, şəhidlərdən də üstün bir məqama sahib olan İslam Peyğəmbəri (s) ölümdən sonra həyata malik deyilmi? Şübhəsiz, o həzrət bərzəxdə şəhidlərdən də üstün olan bir həyata malikdir. Bu baxımdan, müsəlmanların hamısı o həzrətə hər namazın sonunda salam göndərirlər:

اَلسَّلامُ عَلَيْكَ اَيُّهَا النَّبِىُّ وَرَحْمَةُاللهِ وَبَرَكاتُهُ

***"Allahın salam və bərəkəti sənə olsun, ey Allahın Peyğəmbəri!"***

Əgər o həzrət həyatda deyilsə, nə üçün ona xitab edilərərk salam verilir? Həmçinin, bunun mənası nədir? Nəticədə, dinin böyük şəxsiyyətlərinə təvəssül etmək caizdir və bu məsələdə onların həyatda olub-olmaması arasında heç bir fərq yoxdur.

## Rəvayətdə təvəssül

Şiə və sünni rəvayətlərində də təvəssül məsələsi geniş şəkildə bəyan edilmişdir. Ümuni mənada nəql edilən rəvayətlərin bəzi nümunələrinə işarə edirik:

1. Əhli-sünnə alimlərindən biri olan Beyhəqi Peyğəmbərin (s) xüsusi xidmətçilərindən sayılan Ənəsdən belə nəql edir:

"Peyğəmbərin (s) sağlığında ərəblərdən biri o həzrətin yanına gələrək aşağıdakı şeirlə o həzrətdən hacət istədi:

اَتَيْناكَ وَالْعُذْراءُ يُدْمى لِبانَها      وَ قَدْ شَغَلَتْ اُمُّ الصَّبِىَّ عَنِ الطِّفْلِ

وَ لَيْسَ لَنا اِلاّ اِلَيْكَ فِرارُنا      وَ اَيْنَ فِرارُ الْخَلْقِ اِلاّ اِلَى الرُّسُلِ

***"Ey Allahın Peyğəmbəri (s)! Mən çöllük və biyabandan gəlirəm, quruluq bizi lap əldən saldı. Qıtlığın şiddətindən süd verən qadınlardan***

1. "Bəqərə" surəsi, ayə 154.

***süd yerinə qan gəlir. Nə qadınların sinəsində süd var, nə də əkin yerlərində bir su. Biz sənə pənah gətirmişik, səndən başqa, bir pənah yerimiz yoxdur!"***

Peyğəmbər (ə) həmin şəxsin dediklərindən narahat olaraq çox təsirləndi və məscidə doğru hərəkət etməyə başladı. O həzrətin əbası narahatçılıqdan yerlə sürünürdü. Həzrət minbərə yaxınlaşaraq əllərini dua üçün asimana qaldırdı. O qədər dua etdi ki, rəhmət yağışı yağmağa başladı və beləliklə, camaat qıtlıq və quraqlıqdan nicat tapdı."[1]

Qeyd olunan rəvayətə əsasən, ərəblərdən biri Peyğəmbərin (ə) sağlığında o həzrətə təvəsül edir və Peyğəmbər (s) onu bu işdən çəkindirmir.

2. Buxari öz kitabında bu zəminədə bir hədis nəql etmişdir:

Peyğəmbər (s) zamanında camaat quruluq ili ilə üzləşməli olur və onun aradan qaldırılması üçün Peyğəmbərə (s) təvəssül edir. Peyğəmbər (s) dua edir və yağış yağır. Bu zaman o həzrət belə buyurur:

لَوْ كانَ اَبُوطالِب حَيّاً لَقَرَّتْ عَيْناهُ

***"Əgər Əbu Talib sağ olsaydı, bu duanın və yağış yağmasının təsiri ilə gözləri işıqlanardı (nurlanardı)."***[2]

Peyğəmbərin (s) bu cümləsi o həzrətin besətindən (peyğəmbərliyə seçilməsindən) qabaq Əbu Talibin camaat üçün yağış yağmasına dua etməsi və yağışın da yağmasına bir işarədir. Həmin zamanlarda Əbu Talib Peyğəmbər (s) hələ bələkdə olarkən onu qucağına alır və ona təvəssül edərək Allahı bələdəki Peyğəmbərə (s) and verir və beləliklə, onun duası qəbul olur və yağış yağaraq camaata quraqlıq ilindən nicat verir. Daha sonra Əbu Talib belə bir şeir deyir:

وَاَبْيَضُ يُسْتَسْقَى الْغَمامُ بِوَجْهِهِ ثِمالُ الْيَتـامى عِصْمَـةٌ لِلْأرامِـلِ

***"Peyğəmbərin siması ağappaqdır və onun simasının nuruna Allahdan yağış istəyirlər. O, yetimlərin pənahı və dul qadınların himayəçisidir."***[3]

Bir sözlə, bu rəvayətə uyğun olaraq camaat həm o həzrətin sağlığında, həm də vəfatından sonra ona təvəssül edərək hacətlərini alır və Peyğəmbər (s) onları bu işdən çəkindirmir, əksinə həmin işi yaxşılıqla yad edir və digərlərini də Əbu Talibin yağışın yağması ilə bağlı oxuduğu şeirin digər beytlərini oxumağa təşviq edirdi. Bu

*1. "Kəşful-irtiyab", səh. 310. Yağış namazı ilə bağlı geniş şərhi bizim "Yağış namazı barəsində bir təhqiq" adlı kitabımızdan mütaliə edə bilərsiniz.*

*2. "Kəşful-irtiyab", səh. 310.*

*3.. «Kəşful-irtiyab», səh. 311.*

məsələni həzrət Əli (ə) öz öhdəsinə götürmüşdü.

3. Əhli-sünnə böyüklərindən Səmhudi “Vəfaul-vəfa” adlı öz kitabında əhli-sünnənin dörd məzhəbindəki imamlarından biri olan Malikdən və Abbasi xəlifəsi Mənsur Dəvaniqidən aşağıdakı kimi nəql edir:

“Mənsur Dəvaniqi Peyğəmbərin (s) qəbrini ziyarət etmək məqsədi ilə xidmətçi və mühafizlərinin müşayətində Məscidun-Nəbiyə (Peyğəmbər məscidi) gəlir. Malik də orada ziyarət etməklə məşğul idi. Mənsur tez-tez öz xidmətçilərinə əmr və göstərişlər verirdi. Bu məsələ Malikin etiraz etməsinə səbəb oldu. O, Mənsura xitab olaraq dedi ki, niyə bu qədər səs-küy edirsən, bəyəm, buranın hara olduğunu bilmirsən? Bu ayəni heç oxumamısanmı:

يَـأَيُّهَا الَّذِينَ ءَامَنُواْ لاتَرْفَعُواْ أَصْوَتَكُمْ فَوْقَ صَوْتِ النَّبِىِّ وَلاَتَجْهَرُواْ لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْض أَن تَحْبَطَ أَعْمَـلُكُمْ وَأَنتُمْ لاَتَشْعُرُونَ

***“Ey iman gətirənlər! (Söhbət zamanı ədəbə riayət və Peyğəmbərin (s) məqamına hörmət olaraq) səsinizi Peyğəmbərin (s) səsindən artıq qaldırmayın və onunla bir-birinizlə danışdığınız kimi ucadan danışmayın! Məbada, özünüz də bilmədən əməlləriniz puç olsun(Çünki Peyğəmbəri (s) incitmək əməllərin mükafatının puç olmasına səbəb olan amillərdəndir)!”***[1]

Mənsur cavab verdi ki, Peyğəmbər (s) həyatda deyil və bu ayə onun sağ olduğu vaxta aiddir. Malik isə dedi:

حُرْمَتُهُ مَيِّتاً كَحُرْمَتِه حَيّاً

***“Peyğəmbərə (s) ölümündən sonra ehtiram etmək o həzrətin həyatda olduğu zamanlardakı ehtirama bənzəyir və bu, lazım və vacibdir.””***[2]

Bu sözlərə uyğun olaraq, Peyğəmbərə (s) istər həyatda olduğu zaman olsun, istərsə də vəfat etdiyi zamanda, ehtiram etmək lazım və vacibdir və hər iki halda o həzrətə təvəssül etmək olar.

4. Əhli-sünnənin tanınmış alimlərindən İbn Həcər – o, çox təəssübkeş bir insan olmuşdur – “Əs-Səvaiqul-muhriqə” adlı öz kitabında şiəliyin xeyrinə olan maraqlı bir etiraf edir. Həmin etiraf Şafeinin aşağıdakı şeiridir:

آلُ النَّبِىِّ ذَريعَتى      وَ هُمْ اِلَيْهِ وَسيلَتى

اَرْجُوا بِهِمْ اُعْطى غَداً *      بِيَدِالْيُمْنى صَحيفَتى

1. “Hucurat” surəsi, ayə 2.

2. “Vəfaul-vəfa”, cş1, səh. 422 (“Kəşful-irtiyab”, səh. 317-də nəql edilənlərə əsasən).

***"Peyğəmbər (s) ailəsi Allah dərgahında mənim üçün bir vasitə və çətinliklərimin həlli üçün təvəssül vəsiləsidir. Ümid edirəm ki, o böyük şəxsiyyətlərə təvəssülüm vasitəsi ilə əməl dəftərimi mənim sağ əlimə təqdim edərlər."*[1]**

Nəticədə, dinin böyük şəxsiyyətləri və Qurana təvəssül etməyin feli tövhidlə heç bir ziddiyyəti yoxdur və Quran ayələri və rəvayətlərdə də müsəlmanlar bu məsələyə rəğbətləndirilərək təşviq edilmişlər.

## *Allahdan başqasına pərəstiş etmək düzgün (caiz) deyil*

***Sual:*** Siz ibadət və pərəstişin Allaha məxsus olduğunu və digər varlıqların buna ləyaqəti olmadığını və bu məsələnin əksinin şirk hesab edildiyini dediniz, halbuki, Quranın bəzi ayələrində Allahdan başqasına səcdə edilməsi ilə bağlı mətləblər bəyan edilib. Həmin ayələrə diqqət yetirin:

1. Həzrət Adəm (ə) və Həvvanın xəlq edilməsi ilə bağlı məsələdə Allah bütün mələklərə həzrət Adəmə (ə) səcdə etmələrini əmr edir və onlar da səcdə edirlər:

فَسَجَدَ الْمَلائِكَةُ كُلُّهُمْ اَجْمَعُونَ

***"Bütün mələklər səcdə etdilər."*[2]**

Əgər Allahdan başqasına ibadət şirk hesab olunursa, onda, nə üçün bu ayədə həzrət Adəmə (ə) səcdə edilməsinə əmr edilmişdir?

2. Həzrət Yusifin (ə) qardaşları onun sağ olmasını bilib atalarına xəbər verdiklərində, onların hamısı Misirə tərəf hərəkət edirlər. Quranda həzrət Yusifin (ə) ata, ana və qardaşlarının onun yanına gəldiklərini belə bəyan edir:

وَرَفَعَ اَبَوَيْهِ عَلَى الْعَرْشِ وَخَرُّوا لَهُ سُجَّداً

***"Yusif ata-anasını öz taxtına çıxartdı və (o daxil olan zaman hamısı) onun qarşısında səcdəyə düşdülər."*[3]**

Bu ayəyə uyğun olaraq, həzrət Yaqubun (ə) övladları Yusif (ə) qarşısında səcdə etdilər. Əgər Allahdan başqasına səcdə etmək şirk hesab olunursa, bu ayəni necə təfsir etmək olar?

3. Bəni-İsrail Beytül-Müqəddəsi fəth etdiyi zaman həmin şəhərə daxil oldular və şəhərin məbədinə daxil olduqlarında, onun qarşısında səcdəyə düşdülər. Allah-taala "Bəqərə" surəsinin 58-ci ayəsində bu

---

*1. "Əs-Səvaiqul-muhriqə", ("Kəşful-irtiyab", səh. 319-da nəql edilənlərə əsasən).*

*2. "Hicr" surəsi, ayə 30 və "Sad" surəsi, ayə 73.*

*3. "Yusif" surəsi, ayə 100.*

barədə belə buyurur:

وَإِذْ قُلْنَا ادْخُلُواْ هَـذِهِ الْقَرْيَةَ فَكُلُواْ مِنْهَا حَيْثُ شِئْتُمْ رَغَدًا وَادْخُلُواْ الْبَابَ سُجَّدًا وَقُولُواْ حِطَّةٌ نَّغْفِرْ لَكُمْ خَطَايَاكُمْ وَسَنَزِيدُ الْمُحْسِنِينَ

***“(Yadınıza salın) o zaman(ı) ki, dedik: “Bu şəhərə (Beytül-Müqəddəsə) daxil olun və onun bollu nemətlərindən istədiyiniz yerdə yeyin və bu qapıdan (şəhərin, ya Məscidül-Əqsanın qapısından) səcdə halında daxil olun və “(ilahi, bizim istəyimiz) günahların bağışlanmasıdır.” deyin ki, sizin səhvlərinizi bağışlayaq! Biz yaxşı iş görənləri(n savabını) artıracağıq!””***

Bir sözlə, bu ayələrdə Allahdan başqasına səcdə edildiyi bildirilir və bu ibadətdəki tövhidlə necə uyğun gəlir?

***Cavab:*** Dediyimiz kimi, şirkin haramlığı və Allahdan başqasına səcdənin caiz olmaması, həmçinin, ibadət və pərəstişin yalnız Allaha məxsus olması külli əqli qanunlara əsaslanır və bunda istisna mövcud deyil. Tövhidin heç bir qismində şirkə yol vermək olmaz və bu təsəvvür edilməzdir. Beləliklə, yuxarıdakı ayələrdə səcdə ibadət və pərəstiş mənasında deyil, əksinə nemətə şükür və Allah qarşısında təzim etmək mənasındadır.

Mələklərin Adəmə səcdə etməsi, həqiqətdə, onların Allaha səcdə etməsi idi, çünki Allah belə bir üstün dəyərli məxluq yaratmışdır. Deməli, səcdə həqiqətdə Allah üçün idi.

Həzrət Yusifin (ə) qardaşları da Allahın həzrət Yusifə (ə) verdiyi əzəmətə xatir Allaha şükür etmək və həmin neməti böyük saymaq üçün səcdə edirlər. Həzrət Yusif (ə) vasitəsi ilə onlar uzun illərdən bəri itirdikləri qardaşlarını tapmış, Kənandakı çətin yaşayışdan sonra Misirə köçmüş və yaxşı yaşayış əldə etmişdilər. Bu səbəbdən, səcdəyə düşürlər. Həmin məsələ Bəni-İsrail üçün də keçərlidir. Yəni, onlar Beytül-Müqəddəsin məscidinə deyil, Allaha səcdə edirdilər.

Kəbəyə ziyarətə gələn zəvvar və müsəlmanlar camaat namazında iştirak edərkən Kəbənin ətrafında dairə əmələ gətirir və səcdə edərkən Kəbənin müqabilində olurlar. Belə olduğu halda, onlar Kəbəyə səcdə edirlər, yoxsa, heç kəs Kəbəyə ibadət etmir, əksinə Allaha ibadət üçün onun müqabilində səcdə edirlər? Deməli, səcdə hər bir yerdə, müxtəlif formalarda olmasına baxmayaraq, sadəcə Allah üçündür. Nəticədə, yuxarıdakı üç ayə tövhidin küllü qaydasından istisna olaraq ibadət hesab edilmir.

## ÜÇÜNCÜ FƏSİL

# HƏZRƏT ƏLİYƏ (Ə) MƏXSUS OLAN FƏZİLƏTLƏRLƏ BAĞLI AYƏLƏR

# 1 “LƏYLƏTÜL-MƏBİT” AYƏSİ

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ

***“İnsanlardan eləsi də var ki, Allahın razılığı üçün öz canını satır (hicrət gecəsi Peyğəmbərin - səlləllahu əleyhi və alihi və səlləm - yatağında yatmış Əli əleyhissalam kimi Allah yolunda canından keçir). Allah bəndələrə qarşı çox şəfqətli və mehribandır.”***

*“Bəqərə” surəsi, ayə 207*

## *Bəhsə qısa bir nəzər*

“Ləylətül-Məbit” adı ilə tanınana bu ayə həzrət Əmirəl-mömininin (ə) fəzilətləri barəsində olan ən mühüm ayələrdən biridir. Elə bir fəzilət ki, onun oxşarı İslamda heç kəs barəsində təsbit edilməmişdir. Yuxarıda qeyd edilən ayə şiələrin birinci imamının Peyğəmbərin (s) Mədinəyə hicrəti və o şəhərə doğru hərəkət etdiyi tarixi bir gecədə o həzrətin yerində yatmasına işarə edir və gələn bəhslərdə verəcəyimiz izahda biz ayənin həzrət Əlinin (ə) imamətinə də dəlalət etdiyini bildirəcəyik.

## *Ayənin nazilolma səbəbi (şəni-nuzul)*

Əhli-sünnə və şiə alimlərinin əksəriyyəti nəzərdə tutulan ayənin həzrət Əli (ə) barəsində nazil olması fikrindədirlər. Eyni zamanda, bu məsələni öz kitablarında təvatür hesab olunacaq şəkildə və geniş formada nəql etmişlər. Yəni, bu barədə o qədər çox nəql edilmişdir ki, onu inkar etmək mükün deyil.

"Ləylətül-Məbit" hadisəsi belədir:

Məkkə müşrikləri və İslam düşmənləri İslam Peyğəmbəri (s) tərəfindən bir təhlükə hiss etdikləri və onların cızdıqları planlar baş tutmadığı zaman, son bir qərara gələrək üç xətərli əməliyyatı hıyata heçirməyi düşündülər. Həmin əməliyyat belə idi:

İslam Peyğəmbərini öldürmək, ya onunla heç kimin əlaqəsi olmasın deyə əbədi olaraq zindana salmaq və yaxud da o həzrəti

Hicazdan kənar olan yerlərə sürgün etmək.[1] Qərinə və şahidlər sonunda onların bu üç məsələdən birinci və ən təhlükəlisini seçdiklərini və onu həyata keçirmək üçün qırx ərəb qəbiləsindən yardım aldıqlarını nişan verir. Hər qəbilədən bir nəfər mahir döyüşçü istədilər. Onlar gecə vaxtı Peyğəmbərin (s) evinin ətrafını mühasirəyə aldılar və o həzrət yatan yeri nəzarətdə saxladılar ki, münasib bir fürsətdə hücum edərək Peyğəmbəri (s) qətlə yetirsinlər.

Allah-taala vəhy mələyini göndərərək o həzrəti müşriklərin planlarından xəbərdar edir. Peyğəmbər (s) Məkkəni tərk etmək qərarına gəlir və o, bu xətərli və şeytani plandan canını salamat qurtara bilmək üçün iki işi yerinə yetirməli idi:

Birincisi, Mədinə istiqamətinin əksinə hərəkət etməli idi, yəni Məkkənin şimalına deyil, cənubuna doğru yola düşməli idi ki, düşmənlər o həzrətin şəhəri tərk etdiyini anlamış olsalar, onu tapa bilməsinlər. İkincisi, öz yerində bir nəfəri yatırtmalı idi ki, kimsə onun olmadığından və Məkkəni tərk etməsindən xəbər tutmasın. Bu səbəbdən, o, həzrət Əliyə (ə) buyurdu ki, sən bu gecə mənim yerimdə yat! Həzrət Əli (ə) soruşdu ki, bu vasitə ilə siz sağ-salamat Mədinəyə

---

*1. Allah-taala «Ənfal» surəsinin 30-cu ayəsində bu məsələyə işarə etmişdir. Həmin ayədə buyururlar:*
**و اذ يمكر بك الّذين كفروا ليثبتوك او يقتلوك او يخرجوك و يمكرون و يمكر الله و الله خير الماكرين** *(Ey Peyğəmbər! (Yada sal) o zaman(ı) ki, kafirlər sənin barəndə - səni həbs etmək, ya öldürmək və ya (şəhərdən) çıxarmaq üçün hiylə və biclik işlədirdilər. Onlar daim hiylə işlədirdilər və Allah da onların hiylələrinin qarşısını alırdı. Allah hiylənin qarşısını alanların ən yaxşısıdır).*

gedəcəksinizmi?[1] Peyğəmbər (s) "Bəli" – deyə cavab verdiyində, həzrət Əli (ə) Allah xəlifəsinin yer üzündə salamat qalacağı üçün şükür səcdəsi etdi. Bu səcdənin müqəddəs İslam şəriətində ilkin şükür səcdəsi olduğunu söyləmişlər. Peyğəmbər (s) həzrət Əlini (ə) öz yerində yatırtdıqdan sonra, Məkkəni tərk edərək Mədinə istiqamətinin əksinə, yəni cənuba doğru hərəkət etdi və Sur mağarasında daldalandı. Düşmənlərin onu tapmaqdan ümidləri üzüldükdən sonra Mədinəyə yola düşərək oraya sağ-salamat yetişdi.[2]

Şübhəsiz ki, "Ləylətül-Məbit" hadisəsi həssas, təhlükəli və İslamın taleyində həlledici rola malik idi və həmin təhlükəli gecənin qəhrəmanı həzrət Əmirəl-mömինindən (ə) başqa, heç bir kəs deyildi. Peyğəmbərin (s) Mədinəyə hərəkəti zamanı Məkkə və Mədinə arasında bəhs etdiyimiz ayə həzrət Əlinin (ə) İslam Peyğəmbərinə (s) etdiyi fədakarlıq barəsində ona nazil edilir.

## *Əhli-sünnə alimlərinin etirafı*

Qeyd edilən nazilolma səbəbi təkcə şiələrə məxsus deyil, əksinə əhli-sünnə alimlərinin çoxu da onu nəql etmişdir. O cümlədən, Təbəri,[3] İbn Hişam,[4] Hələbi,[5] Yaqubi[6] (onların hamısı əhli-sünnənin məşhur tarixçiləridir), əhli-sünnə fəqihlərindən Əhməd,[7] İbn Cuzi[8] və İbn Səbbağ Malikinin[9] adlarını çəkə bilərik. Bunlardan da daha maraqlısı "Nəhcül-bəlağə"nin məşhur şərhçilərindən biri olan İbn Əbil Hədid Mötəzilənin ustadı Əbu Cəfər İskafinin bu zəmində söylədikləri sözlərdir. O, belə soyləyir:

**قد ثبت بالتّواتر حديث الفراش،...ولا يجحده الاّ مجنون او غير مخالط لاهل الملّة،... و قد روى المفسّرون كلّهم: انّ قول الله تعالى: و من النّاس من يشرى نفسه ابتغاء مرضات الله انزلت فى علىّ) عليه السلا( مليلة المبيت على الفراش**

***"Həzrət Əlinin (ə) Peyğəmbərin (s) yerində yatması təvatür həddə***

*1. Diqqət edin ki, həzrət Əli (ə) öz canı üçün baş verə biləcək təhlükədən soruşmur, əksinə onu narahat edən məsələ Peyğəmbərin (s) canının qorunmasıdır. O həzrətin salamat qalacağına əmin olduqdan sonra, təhlükəyə göz yumaraq Peyğəmbərin (s) yerində yatır.*

*2. "Ləylətül-Məbit" hadisəsinin geniş şərhini "Furuğe əbədiyyət" kitabı, c.1, səh. 417-dən sonrakı hissədən mütaliə edə bilərsiniz.*

*3. "Təbəri tarixi", c.2, səh. 99-101 ("Əl-Qədir", c.2, səh. 48-də nəql edilənlərə əsasən).*

*4. «Sireye İbn Hişam», c.2, səh. 291 ("Əl-Qədir", c.2, səh. 48-də nəql edilənlərə əsasən).*

*5. «Əs-Siratul-hələbiyyə», c.2, səh. 29 ("Əl-Qədir", c.2, səh. 49-da nəql edilənlərə əsasən).*

*6. «Tarixe Yaqubi», c.2, səh. 29 ("Əl-Qədir", c.2, səh. 48-də nəql edilənlərə əsasən).*

*7. «Müsnəde Əhməd», c.1, səh. 348 ("Əl-Qədir", c.2, səh. 48-də nəql edilənlərə əsasən).*

*8. «Təzkirətu İbni Cuzi», səh. 21 ("Əl-Qədir", c.2, səh. 48-də nəql edilənlərə əsasən).*

*9. «Fusul İbn Səbbağ Maliki», səh. 33 ("Əl-Qədir", c.2, səh. 48-də nəql edilənlərə əsasən).*

***sübuta yetirilmiş və inkar olunması mümkün deyil. Divanə və məcnun, yaxud da müsəlmanlarla heç bir əlaqəsi olmayanlardan başqa, heç kəs belə bir rəvayəti inkar edə bilməz, çünki Quranın bütün təfsirçiləri "Ləylətül-Məbit" günü nazil olan (وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ) ayəsinin həzrət Əli (ə) barəsində olması ilə əlaqədar fikir birliyinə malikdirlər."***[1]

Nəticədə, istər şiə olsun, istərsə də sünni, bütün İslam alimlərinin "Ləylətül-Məbit" ayəsinin həzrət Əlinin (ə) bənzərsiz fədakarlığı barədə nazil olmasında eyni fikirə gəldiklərini söyləmək olar.

## *Şərh və təfsir*

## *Bənzərsiz müamilə (ticarət)*

**وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللهِ وَاللهُ** – ***"İnsanların bəzisi Allahın razılığını qazanmaqdan ötrü (çox mühüm və üstün bir məqamdır) öz canından keçərək onu müamilə edirlər."***

Həmin şəxs əvvəldə qeyd etdiyimiz kimi, Əli ibn Əbu Talib (ə) idi. Bu bənzərsiz müamilədə ticarət edilən mal həzrət Əlinin (ə) canı, onun alıcısı bütün məxluqatın yaradanı və malın dəyər və qiyməti isə Allahın razılığının əldə edilməsi olmuşdur.

**وَاللهُ رَؤُوفٌ بِالْعِبَادِ** – Allah-taala öz bəndələrinə qarşı çox mehribandır. Görəsən, Allahın insanın canını ən baha qiymətə almasından da üstün bir lütf və mehribanlığı təsəvvür etmək mümkündürmü?!

## *Allahla ticarət*

Allahla müamilə və ticarət barəsində Quranda üç ayə mövcuddur və onları birlikdə müqayisə etdiyimiz zaman lütfdən başqa, bir şey olmadığı anlaşılır.

***Birinci ayə:*** "Tövbə" surəsinin 111-ci ayəsində buyurulur:

**اِنَّ اللهَ اشْتَرى مِنَ الْمُؤْمِنينَ اَنْفُسَهُمْ وَ اَمْوالَهُمْ بِاَنَّ لَهُمُ الْجَنَّةَ يُقاتِلُونَ فى سَبيلِ اللهِ فَيَقْتُلُونَ وَيُقْتَلُونَ وَعْداً عَلَيْهِ حَقّاً فِى التَّوراةِ وَالاِنْجيلِ وَالْقُرْآنِ وَ مَنْ اَوْفى بِعَهْدِهِ مِنَ اللهِ فَاسْتَبْشِرُوا بِبَيْعِكُمُ الَّذى بايَعْتُمْ بِه وَ ذلِكَ هُوَ الْفَوْزُ الْعَظيمُ**

***"Həqiqətən, Allah möminlərin canlarını və mallarını onlardan cənnətin onların olması bahasına almışdır. (Bu malın verilmək tərzi belədir ki, onlar) Allah yolunda vuruşurlar, beləliklə, öldürür və öldürülürlər (və öz mallarından Allah yolunda xərcləyirlər). (Bu ticarət) onun öhdəsində olan – (onun əzəli elmindən başqa, həm də***

---

*1. İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi», c.13, səh. 261.*

***Lövhi-Məhfuzda qeyd olunmuş və ticarət sənədi kimi) Tövrat, İncil və Qur'anda (yazılmış) və haqq olan bir vəddir. Allahdan başqa, kim öz əhdinə daha vəfalıdır?! Buna görə də, etdiyiniz bu ticarətə şad olun. Budur böyük uğur və qurtuluş!"***

Bu böyük ticarətdə alıcı Allah-taala, satıcı mücahid və mömin bəndələr, satılan mal möminlərin canı və onun dəyəri Bərin cənnətləridir, eyni zamanda, həmin ticarətin dəyərli sənədi üç asimani kitabda (Quran, İncil və Tövrat) qeyd edilmişdir. Bu ticarət o qədər dəyərlidir ki, Allah onu "böyük qələbə" deyə xatırladır və ticarətdə iştirak edənlərə təbrik deyilir. Həqiqətən də, bu ticarət çox böyük bir ticarətdir, çünki alıcı özünə aid olan malı satıcıdan ən baha qiymətə alır. Görəsən, belə bir ticarət "böyük qələbə" olunmamalı və bunun üçün təbrik deyilməməlidirmi?!

***İkinci ayə:*** Allah-taala "Saff" surəsinin 10-13-cü ayələrində də digər bir ticarətə işarə edir. Həmin ayələrdə buyurulur:

يا اَيُّهَا الَّذينَ آمَنُوا هَلْ اَدُلُّكُمْ عَلَى تِجارَة تُنْجيكُمْ مِنْ عَذاب اَليم* تُؤْمِنُونَ بِاللهِ وَ رَسُولِه وَتُجاهِدُونَ فى سَبيلِ اللهِ بِاَمْوالِكُمْ وَ اَنْفُسِكُمْ ذلِكُمْ خَيْرٌ لَكُمْ اِنْ كُنْتُمْ تَعْلَمُونَ* يَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَ يُدْخِلْكُمْ جَنّات تَجْرى مِنْ تَحْتِهَا الأَنْهارُ وَ مَساكِنَ طَيِّبَة فى جَنّاتِ عَدْن ذلِكَ الْفَوزُ الْعَظيمُ* وَ اُخْرَى تُحِبُّونَها نَصْرٌ مِنَ اللهِ وَ فَتْحٌ قَريبٌ وَ بَشِّرِ الْمُؤْمِنينَ

***"Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın? Allah və onun rəsuluna iman gətirin və Allah yolunda mallarınızla və canlarınızla cihad edin. Əgər bilsəniz, (iman və cihad) sizin üçün daha xeyirlidir. (Əgər belə etsəniz,) Allah günahlarınızı bağışlar, sizi (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlərə, bağlara və əbədi (Ədn) cənnətlərindəki pak və xoşagələn məskənlərə daxil edər. Budur böyük səadət. Sevdiyiniz başqa bir nemət(i də sizə verər və bu nemət) Allah tərəfindən (məntiq əsasında və dəlil-sübutla tarix boyunca bütün millətlərə) bir kömək və (Məkkənin fəthində və başqa işlərdə) yaxın bir qələbədir. (Ey Peyğəmbər,) möminlərə müjdə ver."***

Bu gəlirli ticarətdə də satıcılar möminlər, alıcı Allah-taala və satılan mal imanlı insanların canıdır. Onun dəyər və qiyməti günahların bağışlanması, cənnətə getmək, behiştin pak məskənləri, yaxın qələbə və Allahın yardımıdır (Məkkənin fəthi). Allah bu ticarəti də "böyük qələbə" adı ilə xatırlatmış və buna müvəffəq olanlara təbrik demişdir.

***Üçüncü ayə:*** "Bəqərə" surəsinin 107-ci ayəsidir və onun şərhini əvvəldə bəyan etmişik. Bildirdiyimiz kimi, həmin müamilə və ticarətdə

satıcı Əli ibn Əbu Talib (ə), alıcı Allah-taala və satılan mal həzrət Əlinin (ə) canı və onun qiymət və dəyəri isə Allahın razılığı olmuşdur.

## *Bu üç ticarəti bir-biri ilə müqayisə*

"Tövbə", "Saff" və "Bəqərə" surələrində qeyd edilən və şərhi verilən ayələr bir cəhətdən oxşarlıq təşkil edirlər. Yəni, həmin ayələrdə alıcı Allah, satıcı möminlər və satılan mal isə möminlərin canıdır. Amma satılan malların dəyər və qiyməti fərqlərə malikdir. Ticarətin birində Allah möminlərin canını cənnət müqabilində alır, digər müamilədə isə qiyməti qaldıraraq Bərin cənnətlərindən əlavə, orada məskənlər, günahların bağışlanması və dünyada qələbə də bəxş edir. Amma "Leylətül-Məbit"lə bağlı qeyd edilən ayədəki üçüncü ticarətdə isə ən üstün qiymət olan Allahın razılığından söhbət açılır. Aydın məsələdir ki, cənnət, cənnət nemətləri və s. bu kimi məsələlər müqabilində Allahın razılıq və rizayəti müqayisə olunası deyil. Bu baxımdan, həmin qiymət və dəyər həzrət Əlinin (ə) ruhiyyəsi ilə daha uyğundur. O həzrətin Allaha xitab olaraq söylədiyi sözlərindən bunu daha yaxşı anlamaq olar:

"İlahi! Cəhənnəm atəşi, həqiqətən də şiddətlidir, amma mən cəhənnəm qorxusuna görə sənə pərəstiş eləmirəm. Eyni zamanda, cənnət nemətləri də dəyərli və cəlbedicidir, amma mən onun iştəhasına xatir sənə ibadət etmirəm. Mən sənin ibadətə layiq olduğunu bildiyim və sənə məhəbbətim olduğu üçün ibadət edirəm."[1]

## *Digər bir müqayisə*

Həzrət Əli (ə) "Leylətül-Məbit" günü canını böyük bir təhlükə gözləməsinə baxmayaraq, öz meyli və istəyi ilə İslam Peyğəmbərinin (s) yerində yatdı və heç bir qorxu hissi də keçirmədi. Sübh çağı Peyğəmbərin (s) evinə hücüm edən düşmənlər onun yerində həzrət Əlini (ə) görür və öz planlarının alt-üst olduğunu başa düşürlər. Onlar o həzrətə təhqiramiz sözlər deyirlər və həzrət Əli (ə) də həm özü, həm də Peyğəmbər (s) məktəbini müdafiə edərək onlara cavab verir. Həmin cümlələr onun nə qədər qeyri-adi əql, qüvvə və qüdrət, həmçinin, şücaətə malik olduğunu göstərir və biz inşallah həmin cümlələri gələn bəhslərdə bəyan edəcəyik. Amma Əbu Bəkrin də Peyğəmbərlə (s) birlikdə Məkkəni tərk edərək o həzrətlə birlikdə Sur mağarasında olduğunu və onları təqib edən düşmənlərin ayaq səslərini eşitdikləri zaman qorxunun şiddətindən rəng verib-rəng aldığını və Peyğəmbərin (s) ona təskinlik verdiyini nəql etmişlər. Bu barədə ətraflı məlumat

*1. "Biharul-ənvar", c.68, səh. 186 ("Quranın gözəl misalları", c.1, səh. 126-da nəql edilənlərə əsasən).*

almaq üçün həmin hədislərə müraciət edə bilərsiniz.

### “Ləylətül-Məbit” ayəsindəki ifadələrin zərifliyi

“Tövbə” və “Səff” surələrində إن الله اشترى və هل أدلكم على تجارة kimi ifadələrlə malik olan ayələrin mənası budur ki, həmin ticarətdə alıcı olan Allah-taala satıcıları öz mallarını satmağa təşviq edərək rəğbətləndirir. Amma “Ləylətül-Məbit” ayəsindəki (ومن الناس من يشرى نفسه) ifadəsi satıcının ilkin olaraq addım atdığını və öz malını qabaqcadan satışa çıxardığını göstərir. Aydın məsələdir ki, bu ayədəki lətafət və zəriflik digərlərindən daha artıqdır. Çünki öz canını öz istəyi və ixlasına xatir fəda edərək onu satışa çıxaran şəxs atdığı addımın dəyərli olmasına baxmayaraq, alıcının təşviqi ilə bu işi yerinə yetirən kəslə müqayisə olunası deyil. Bundan əlavə, bəhs etdiyimiz ayə (fərqləndirmə və bəzi mənasında olan) “min” و من الناس kəlməsi ilə başlayır, yəni təkcə insanlardan bəzisi belə bir qeyri-adi addımı atmağa qadirdi. Halbuki, canın müqabilində verilən cənnət və ya cəhənnəm atəşindən nicatdan bəhs edən digər ayələrdə ümumilik və hamıya məxsusluq vardır (اشترى من المؤمنين).

### “Ləylətül-Məbit” ayəsinin əvvəlki ayələrlə rabitəsi

Əgər bu ayədən əvvəlki üç ayəni diqqətlə oxusaq, onda, həzrət Əlinin (ə) həmin təhlükəli gecədə gördüyü işin əzəməti və o həzrətin Peyğəmbər (s) yanındakı uca məqamı aydınlaşacaq. Bu ayələrə diqqət yetirin:

ومن الناس من يعجبك قوله في الحياة الدنيا– Münafiqlərdən bəziləri zahirdə o qədər yaxşı görsənir və şirindillidirlər ki, səni gördükləri zaman həddən artıq məhəbbət göstərirlər və onların tovlayıcı sözləri səndə təəccüb doğurur. Həqiqətdə isə onlar batində başqa cürdürlər.

و يشهد الله على ما في قلبه و هو ألد الخصام – Allah-taala zahirdə yaxşı görsənən və yağlı dilləri olan bu münafiqlərin batinindən xəbərdardır. Onlar öz qəlblərindəkinə Allahı şahid tutmalarına baxmayaraq, İslamın ən inadkar[1] düşmənləridirlər. Bu ayədə Əxnəs ibn Şəriqə işarə edilmişdir. O, münafiq və ikiüzlü şəxslərdən idi. Zahirdə o qədər gözəl və yaxşı rəftar edirdi ki, hamını özünə cəlb edirdi. Əxnəs özünü imanlı, təqvalı bir şəxs kimi göstərsə də, ən alçaq bir insan idi və qəlbində Allah

*1. دوُدَل –kəlməsi inadkar mənasını verir və ayədəki اَلَدُّ الْخِصَامِ cümləsi İslamın ən inadkar düşməni mənasındadır.*

və onun Peyğəmbərinə (s) iman gətirməmişdi.[1] Allah-taala sonrakı ayədə onun münafiqlik və düşmənçiliyinin dəlilini bu cür izah edir:

**وَإِذَا تَوَلَّىٰ سَعَىٰ فِي الْأَرْضِ لِيُفْسِدَ فِيهَا وَيُهْلِكَ الْحَرْثَ وَالنَّسْلَ وَاللَّهُ لَا يُحِبُّ الْفَسَادَ** – Əxnəs və onun kimilərinin münafiq və ikiüzlüllüklərinə səbəb sənin yanından ayrıldıqları zaman, Allahın fəsad törədilməsini sevmədiyini bildikləri halda, yer üzündə fəsad törətməyə çalışırlar.

Eyni zamanda, onlar əkin sahələri və mal-qaranı məhv etmək üçün əllərindən gələni əsirgəmirlər.[2] Əlbəttə, (**تَوَلَّىٰ**) sözünün vilayət və hakimiyyət mənasında olma ehtimalı da mövcuddur, yəni belə insanlar qüdrət və hakimiyyət əldə etdiklərində, yer üzündə fəsad törədərək əkin sahələri və mal-qaranı aradan aparır və hər yerə üzərinə fəsad toxumu səpirlər.

Münafiq olan Əxnəs də müsəlmanların məntəqəsinə daxil olaraq orada fəsad törətməyə başlayır. O, müsəlmanların əkin sahələrini viran edərək mal-qarasını da məhv edir.[3] Amma Peyğəmbərin (s) hüzuruna yetişdikdə, yağlı dilini işə salmağa başlayır.

**وَإِذَا قِيلَ لَهُ اتَّقِ اللَّهَ أَخَذَتْهُ الْعِزَّةُ بِالْإِثْمِ فَحَسْبُهُ جَهَنَّمُ وَلَبِئْسَ الْمِهَادُ** – Belə münafiq şəxslərə "Allahdan qorxun və bu cür insanlığa zidd olan əməllərə mürtəkib olmayın!" deyilən zaman, bir sözlə, kimsə onlara nəhy əz münkər və əmr be məruf edən vaxt onlar qulaq asmamaqla yanaşı, öz pis əməllərini daha da artırır, təkəbbür, inadkarlıq və təəssübkeşlik edərək həmin günahlara yenidən mürtəkib olurlar. Aydın məsələdir ki, belə insanların yeri cəhənnəmdir və ora necə də pis bir məskəndi!

Bu üç ayədə İslamın ən pis düşməni və insanların ən mənfuru barədə təsəvvür yaradılmışdır və biz bu ayələri "Ləylətül-Məbit" ayəsi ilə tutuşdurduqda, həmin ayədə İslama nisbətdə daha canıyanan, imanlı və Peyğəmbərin (s) yanında da daha sevimli bir şəxsin həzrət Əli (ə) olduğunu anlayırıq. Şübhəsiz ki, Peyğəmbərin (s) imanlı şəxslərə məhəbbəti onların Allaha imanlı olmasına xatirdir və işin içində bundan başqa, digər bir məsələ yoxdur.

---

*1. "Nümunə təfsiri", c.2, səh. 43.*

*2. Bu ayənin özü İslamın min dörd yüz il bundan əvvəl ətraf mühitin qorunub saxlanmasına xüsusi əhəmiyyət verdiyini göstərir və bu səbəblə ona vurulan zərbəni «yer üzündə fəsad törətmək» kimi qiymətləndirir. Həmçinin, bunu münafiqlik və İslamla düşmənçilik ünvanında bəyan edir. Quranın digər ayələri və islami rəvayətlərdə də yaşayış mühiti ilə bağlı məsələlərə rast gəlmək mümkündür.*

*3. "Nümunə təfsiri", c.2, səh. 43.*

## "Ləylətül-Məbit" ayəsinin Əmirəl-mömininin (ə) vilayəti ilə irtibatı

***Sual:*** Bu ayənin müsəlmanların birinci imamı və xəlifəsi hesab edilən həzrət Əlinin (ə) imamət və vilayəti ilə nə rabitəsi var? Başqa sözlə, tutaq ki, əhli-sünnə bu ayənin həzrət Əli (ə) barəsində nazil olduğunu qəbul etdi, onda, həmin ayə vasitəsi ilə həzrət Əlinin (ə) İslam Peyğəmbərinin (s) canişini olmasını necə sübut etmək olar?

***Cavab:*** Əvvəlki bəhslərimizdən həzrət Əlinin (ə) Peyğəmbərdən (s) sonra Allahın ən fədakar, şücaətli və ixlaslı bəndəsi olması aydın oldu və digər tərəfdən də, bilirik ki, Peyğəmbərin (s) canişini insanların ən şücaətli, fədakar və elmlisi olmalıdır. Deməli, imamət və xilafət məsələsi təyin edilmə ilədirsə, yəni, Peyğəmbər (s) Allah tərəfindən təyin olunduğu kimi, imam da onun tərəfindən təyin olunursa, onda, yuxarıdakı şərtlərə malik olan həzrət Əlini (ə) qoyub digər bir şəxsin ardınca getmək və seçim eləmək Allahın hikməti ilə uyğun gəlmir.

Əgər bu məsələ əhli-sünnənin etiqad bəslədiyi kimi, seçimlədirsə, əql qeyd etdiyimiz xüsusiyyətlərə malik olan şəxs dura-dura başqa birisinin ardınca getməməyi tələb edir. Nəticədə, qeyd edilənləri nəzərə aldıqda, həzrət Əlidən başqa, digər birinin seçilməsi əql və şəriətin xilafı və ziddinədir.

## Əsassız olan bəzi iradlara cavab

Ayənin həzrət Əlinin (ə) imamət və xilafət məsələsi ilə irtibatının olmasını nəzərə alaraq bəzilərinin onun həqiqi mənasını dəyişməyə cəhd etdiyini və Peyğəmbərin (s) canişininə aid olması ilə bağlı dəlil gətirilə bilməməsi üçün çalışmasını söyləmək olar. Burada həmin iradlardan bəzilərinə toxunaraq onları cavablandırırıq.

### 1. "Ləylətül-Məbit" ayəsi əmr be mərufa əmr edənlər barəsindədir

Məşhur şiə təfsirçisi mərhum Əllamə Təbərsi əhli-sünnədən mürsəl bir rəvayəti nəql edir ki, həmin rəvayətə uyğun olaraq, yuxarıdakı ayə əmr be məruf və nəhy əz münkər yolunda öldürülən kəslər barəsində nazil olmuşdur.[1]

Deməli, ayənin Əli ibn Əbu Talibin (ə) imamət və vilayəti ilə heç bir irtibatı yoxdur.

***Cavab:*** Ayənin düzülüşü onun əmr be məruf və nəhy əz münkər yolunda öldürülən kəslər barəsində nazil olmadığını nişan verir, çünki əvvəldə verdiyimiz izaha əsasən, ayənin nəzərdə tutduğu şəxsi

---

*1. "Məcməul-bəyan", c.1, səh. 301.*

can təhlükəsi gözləyir, halbuki, əmr be məruf və nəhy əz münkrə əmr edənlər üçün belə bir təhdid nadir hallardadır. Nəticədə, ayənin quruluşundan onun həmin şəxslər barəsində olmadığı məlum olur. Bundan əlavə, nəql edilən rəvayət mürsəldir və o höccət (dəlil) sayıla bilməz.

### *2. Bəhs edilən ayə Əbuzər barəsindədir*

Bəziləri bu ayənin Peyğəmbərin (s) yüksək məqamlı və seçilmiş səhabələrindən olan Əbuzər Qaffari[1] barəsində nazil olması fikrindədirlər və onun Əmirəl-möminin Əlinin (ə) imamət və vilayəti ilə heç bir rabitəsinin olmadığını düşünürlər.[2]

***Cavab:*** Bu cür etiqad da həqiqətə uyğun deyil, çünki biz tarixin şəhadətinə əsasən, İslam Peyğəmbərinin (s) zamanında Əbuzər Qaffarinin həyatında təhlükə yaradacaq bir hadisə ilə rastlaşmırıq. Deməli, Əbuzərin İslam Peyğəmbərindən (s) sonra yaranmış çətin şəraitdə çoxlu xidmətlərinin aşkar və hamıya bəlli olmasına baxmayaraq, bu ayənin onun barəsində nazil olmasına inanmaq mümkün deyil.

### *3. Bu ayə bütün mühacirlər və ənsar barəsindədir*

Bir sıra şəxslər "Ləylətül-Məbit" ayəsinin bütün mühacirlər və ənsarla[3] bağlı olduğunu demişlər, yəni bu ayə Peyğəmbər (s) zamanında mövcud olan bütün müsəlmanalara şamildir. Beləliklə, bəhs edilən ayə həzrət Əli ibn Əbu Talibə (ə) məxsus deyil.

***Cavab:*** Bu sözlərin batilliyi çox aydındır, çünki ayə özü bu iftixarı müsəlmanların hamısına deyil, onlardan bəzisinə şamil olduğunu bildirir. Nəticədə, həmin ayənin bütün mühacirlər və ənsara şamil olduğunu iddia etmək olmaz.

### *4. Həzrət Əli (ə) sağ qalıb-qalmayacağını bilirdi, ya yox?*

***Sual:*** Görəsən, həzrət Əli (ə) işin nəticəsindən xəbərdar idimi? O, bu təhlükəli məsələdən canını salamat qurtaracağını bilirdi, yoxsa, bilmirdi? Əgər o həzrət müşriklərin onu öldürməyəcəyini və sağ

---

*1. Bəzi şəxslər Əbuzər Qaffarinin adını Cündəb, atasının adını isə Cənadə, Əssəkin kimi qələmə almışlar. O, Peyğəmbərin (s) əzəmətli səhabəsi və uca məqam sahibi idi. Əbuzər Qaffari Əbu Bəkrlə beyət etməyən kəslərdən idi («Mustədrəkatu elmir-rical», c.2, səh. 240).*

*2. "Məcməul-bəyan", c.1, səh. 301*

*3. Həmin yerdə.*

qalacağını bilirdisə, onda, Peyğəmbərin (s) yerində yatmaq o həzrət üçün heç bir iftixar sayılmır, yox, əgər bilmirdisə, bu əməl böyük bir iftixardır. Amma burada həll ediləsi digər bir məsələ var və o, belədir: "İmamların qeybi elmləri olduğu halda, o həzrət məsələnin nəticəsindən xəbərdar deyildimi?"

***Cavab:*** Böyük alimlərin tədqiqatları və bəzi rəvayətlərin də bildirdiyinə uyğun olaraq imaların elminin qeybə nisbətdə iradəyə bağlı bir elm olduğu məlum olur. Yəni, iradə etdikləri və istədikləri zamanda nəyinsə barəsində məlumata sahib olurdular, amma iradə etməsəydilər, heç bir şey bilmirdilər.[1]

O həzrətin bu işin nəticəsi barədə iradə etməməsini ehtimal etmək olar, amma, həzrətin zehnində təhlükənin olduğu məlum idi və bununla belə, o, böyük bir fədakarlıq etməyə hazır idi. Nəticədə, həmin hadisənin həzrət Əli (ə) üçün böyük bir iftixar olduğu və bunun imamların elmi ilə heç bir ziddiyyət təşkil etmədiyi aydın olur. Bu məsələyə diqqət etmək imaların qeybi elmləri ilə bağlı qarşıya çıxan əksər şübhə, tərəddüd və problemlərin həll edilməsində əhəmiyyət kəsb edir.

***Sual:*** Siz belə dediniz: "Həzrət Əli (ə) iradəyə bağlı olan qeybi elmindən hadisənin nə ilə nəticələnəcəyini bilmək üçün istifadə etmədi, amma o həzrət üçün təhlükənin ola biləcəyi ehtimalı var idi. Bu cəhətdən, onun Peyğəmbərin (s) yerində yatması böyük bir fəzilət hesab edilir." Amma bəzi rəvayətlərdə nəql edilənlərə əsasən, o həzrət ona bu hadisədə heç bir zərər dəyməyəcəyindən xəbərdar idi və həmin hədisə uyğun olaraq Peyğəmbər (s) ona bu məsələdə zəmanət vermişdi.[2] Belə olduğu halda, "Ləylətül-Məbit" ayəsi o həzrət üçün necə fəzilət hesab edilə bilər?

***Cavab:*** Bu irada iki formada cavab vermək olar:

a) Bu hədis mürsəldir və onun sənədi yoxdur. Mərhum Əllamə Əmini həmin hədisi Sələbi təfsirindən mürsəl şəkildə nəql etmişdir[3] və sənədi olmadığı üçün ona etimad edərək əsaslanmaq olmaz.[4]

---

*1. Bu məsələnin şərhini "Quranın mesajları", c.7, səh. 249-dan sonrakı hissədən mütaliə edə bilərsiniz.*

*2. İbn Əbil Hədid, "Nəhcül-bəlağənin şərhi", c.13, səh. 262.*

*3. "Əl-Qədir", c.2, səh. 48.*

*4. İbn Əbil Hədidin ustadı Əbu Cəfər İskafinin bu iradın rədd edilməsi ilə bağlı maraqlı sözləri vardır. O, belə deyir: "Bu sözlər açıq-aşkar yalandır və Peyğəmbərdən (s) nəql edilən sözlərdə belə bir məsələ bəyan edilməmişdir." O, bu cür qondarma sözləri Əbu Bəkr Əl-Əsəm adlı bir şəxsə nisbət verir ki, Cahiz ondan nəql etmişdir (İbn Əbil Hədid, "Nəhcül-bəlağənin şərhi", c.13, səh. 263).*

b) Hər hansı bir rəvayətin qəbul edilməsi üçün üç şərtin olması lazımdır: Onun sənədi mötəbər olsun, Quranın ayələri ilə zidd və müxalif olmasın, din alimlərinin nəzərində qəbul olunası olsun.

Həmin rəvayət alimlər tərəfindən qəbul olunmamaqla yanaşı, Quranın ayələri ilə də ziddir. Allah-taala yuxarıdakı ayədə həzrət Əlinin (ə) gördüyü işi əzəmətli bir iş və Allahla müamilə kimi dəyərləndirir. Əgər rəvayətin etibarlı olduğunu qəbul etsək, onda, həzrət Əlinin (ə) işində heç bir əzəmət olmaz və bu adi bir məsələ kimi təlqin edilər. Nəticədə, Quranın bir ayəsi ilə zidd olan bu rəvayətə istinad etmək və onun vasitəsi ilə məsələni dəyərdən salmaq və sual altına aparmaq olmaz (diqqət edin).

### *5. Peyğəmbərin (s) xitab etdiyi şəxslər (müxatəb) kimlər idi?*

***Sual:*** Bəzi şəxslər Peyğəmbərin (s) bir nəfəri öz yerində qoymaq fikrində olduğu zaman öz əshabına xitab edərək bu təhlükəli gecədə kimin onun yerində yatmağa hazır olduğunu soruşduğuna və həzrət Əlidən (ə) başqa, heç kəsin müsbət cavab vermədiyinə etiqadlıdırlar. Bu məsələ nə dərəcədə doğrudur və Peyğəmbər (s) həmin hadisədə təkcə həzrət Əli (ə) ilə söhbət etmişdirmi?

***Cavab:*** Biz mötəbər kitablarda Peyğəmbərin (s) bütün əshabına xitab etməsi məsələsi ilə rastlaşmamışıq. Bundan əlavə, həmin məsələ əqllə də uyğun gəlmir, çünki Peyğəmbər (s) onu bütün səhabələrlə danışsaydı, onda məsələ yayılaraq düşmənlərin qulağına çatar və onlar Peyğəmbərin (s) planından xəbərdar olaraq onun icrasına mane olardılar. Bu cəhətdən, həmin məsələ tamamilə gizli idi və ondan Peyğəmbər (s) və Əlidən (ə) başqa, heç kəsin xəbəri yox idi.

## *Təkmilləşdirici bəhslər*

### *1. Həzrət Əlinin (ə) fədakarlığının vəsfində Həssan ibn Sabitin şeirləri*

İslam Peyğəmbərinin (s) müasiri və o həzrətin haqq canişininə həqiqi məhəbbəti olan şair Həssan ibn Sabit[1] özünün ən ali şeirlərini

*1. O, İslam Peyğəmbərindən (s) səkkiz il əvvəl dünyaya gəlmiş və Peyğəmbərdən (s) sonra uzun illər həyatda olmuşdur. Həssan uzunömürlü şairlərdən olmuş və yüz iyirmi il yaşamışdır. Peyğəmbər (s) Məscidun-Nəbidə bu şair üçün bir minbər düzəldilməsinə göstəriş vermişdi. Həzrət bəzən ona minbərə çıxaraq şeirlər oxumasını söyləyirdi. Bəzi pis niyyətli insanlar onun bu işinə irad tutaraq deyirdilər ki, məscid şeir oxumaq yeri deyil. Peyğəmbər isə cavabında onlara sakit dayanmalarını və Həssanın şeirlətinin döyüşdəki oxlardan da təsirli olduğunu bildirirdi. Peyğəmbərin (s) vəfatından sonra Həssan birinci və*

Qədir-Xum hadisəsi ilə bağlı qələmə almışdır. Eyni zamanda, onun Əmirəl-mömininin (ə) fəzilətləri ilə əlaqədar yazdığı şeirləri də vardır ki, onun bir qismi "Ləylətül-Məbit" hadisəsinə həsr edilmişdir.

Həmin şeirlər aşağıdakı kimidir:

مَنْ ذا بِخاتَمِه تَصَدَّقَ راكِعاً    وَ اَسَرَّها فى نَفْسِه إسْراراً

مَنْ كانَ باتَ عَلى فِراشِ مُحَمَّد    وَ مُحَمَّدٌ اَسْرى يَؤُمُّ الْغارا

مَنْ كانَ فِى الْقُرْآنِ سُمِّىَ مُؤْمِناً    فى تِسْعِ آيات تُلينَ غَزاراً

Şeirin Tərcüməsi:

***"Barmağındakı üzüyü rüku halında və müsəlmanların gözlərindən uzaq və məxfi şəkildə ehtiyaclı olan şəxsə verən, lakin Allahın aşkar etdiyi şəxs kimdir? Tarixi bir gün olan "Ləylətül-Məbit" günü Peyğəmbərin (s) yerində yatan və düşmənlərin mühasirəsindən Peyğəmbərin (s) qurtarmasına və Sur mağarasında gizlənməsinə səbəb olan kim idi? Quranın doqquz ayəsində[1] "həqiqi mömin" adı ilə xatırlanmış olan şəxs kimdir? "[2]***

Bir sözlə, "Ləylətül-Məbit" hadisəsi o qədər aşkar və məşhur idi ki, o ərəb şeirində də öz əksini tapmışdır.

## *2. Həmin təhlükəli gecədə həzrət Əlinin (ə) aqibəti*

İslam düşmənləri planlarını hıyata keçirmək üçün qoşun toplayaraq gecə vaxtı Peyğəmbərin (s) evinə hücum etmək fikrində idilər. Amma müşriklərin başçılarından biri (Əbu Cəhl və ya Əbu Ləhəb) bu işə mane olaraq dedi ki, qadın və uşaqların bu məsələdə heç bir günahı yoxdur və onlar qorxuya düşəcəklər. Bu cəhətdən, onlar hücumu sübh zamanına qədər təxirə salmalı oldular.[3] Sübhdə o həzrəti öldürmək

---

*ikinci xəlifənin hörmətsizliyinə düçar olur və onlar Həssanın şeir söyləməsinə mane olurlar. Əlbəttə, möhtərəm moxucuya bunun səbəbləri aydındır. Onun günahə Qədir-Xumun qəhrəmanı həzrət Əlini (ə) müdafiə etmək idi. Əlimizdə ondan bir şeir divanı vardır və həmin divan həzrət Əlinin (ə) vəsfində yazılmışdır.*

*1. Əllamə Əmini Həssan ibn Sabitin işarə etdiyi doqquz ayəni xatırlatmaqdan əlavə, bu zəminədə mövcud olan digər ayələri də nəql etmişdir. Həmin ayələr belədir: «Kəhf" surəsi, ayə, 18; "Ənfal" surəsi, ayə 62, 64; "Əhzab" surəsi, ayə 33; "Maidə" surəsi, ayə 55; "Tövbə" surəsi, ayə 19; "Məryəm" surəsi, ayə 96; "Casiyə" surəsi, ayə 21; "Bəyyinə" surəsi, ayə 7; "Əsr" surəsi ("Əl-Qədir", c.2, səh. 49-57).*

*2. "Əl-Qədir", c.2, səh. 47.*

*3. Bu sözləri bəşər hüququnun yalançı iddiaçılarının əməlləri ilə müqayisə edin ki, onların cahiliyyət dövründəki ərəblərdən də vəhşi olduğunu anlaya biləsiniz. Amerika və İngiltərənin məzlum Əfqanıstan xalqına hücum edərərk müdafiəsiz və günahı olmayan kəslərə rəhm*

üçün evə hücum etdilər. Həzrət Əli (ə) onlar Peyğəmbərin (s) yatağına yaxınlaşmamış yerindən qalxaraq onlara dedi ki, nə istəyirsiniz? Peyğəmbərin (s) yerində həzrət Əlini (ə) görən müşriklər heyrətdən donmuş halda dedilər ki, biz Məhəmmədi (s) axtarırıq, o haradadır? Həzrət Əli (ə) cavab verdi ki, bəyəm, onu mənə tapşırmışdınız ki, indi məndən soruşursunuz?

Düşmənlər onu öldürmək, yoxsa, sağ buraxmaq barədə tərəddüd edirdilər. Əbu Cəhl dedi: "Bu cavanı buraxın, Məhəmməd (s) onu aldadaraq öz yerində yatızdırmış və canını xilas etmişdir."

Əbu Cəhldən Peyğəmbər (s) və özünün təhqir edildiyini eşitdikdə, o həzrət hədsiz şücaətlə dilə gələrək buyurdu:

**اَلى تَقُولُ هذا يا اَباجَهْل! قَدْ اَعْطانى مِنَ الْعَقْلِ ما لَوْ قُسِّمَ عَلى جَميعِ حُمَقاءِ الدُّنْيا وَ مَجانينِها لَصاروُا بِه عُقَلاءَ، وَ مِنَ الْقُوَّةِ ما لَوْ قُسِّمَ عَلى جَميعِ ضُعَفاءِ الدُّنْيا لَصاروُا بِه اَقْوِياءَ، وَ مِنَ الشُّجاعَةِ ما لَوْ قُسِّمَ عَلَى جَميعِ جُبَناءِ الدُّنْيا لَصاروُا بِه شَجْعاناً**

***"Ey Əbu Cəhl! Sadəlövhlük və xamlığı mənə nisbət verirsən? (Sanki məni tanımırsan, onda, mən özümü tanıtdıraram, əslində sizin düşündüyünüz kimi deyil, əksinə) Allah mənə o qədər əql vermişdir ki, əgər onları dünyanın bütün axmaqları arasında bölüşdürsələr, onların hamısı ağıllanar. Mənə o qədər qüvvət və qüdrət əta olunmuşdur ki, əgər onu dünyanın bütün zəifləri arasında bölüşdürsələr, dünyada zəif bir adam tapılmaz. Həmçinin, mənə o qədər şücaət verilmişdir ki, əgər onu bütün qorxaqlara paylasalar, onların hamısı şücaətli olar."***[1]

Mən İslam Peyğəmbərini (s) tanıyaraq və agah şəkildə iman gətirmiş və ixlasımla öz canımı ona fəda eləmişəm. Düşmənlər İslam Peyğəmbərinin (s) evindən kor-peşman və naümid halda çıxdıqları zaman, həzrət Əli (ə) ona tapşırılan vəzifənin öhdəsindən başıuca çıxdı.

### 3. Allah-taala həzrət Əlinin (ə) fədakarlığı ilə fəxr edir

Məşhur əhli-sünnə təfsirçilərindən biri olan Sələbi bəhs edilən ayəyə yetişdikdə, "Leylətül-Məbit" ayəsi barəsində çox gözəl bir rəvayət nəql edir. Həmin rəvayətə diqqət yetirin:

"Həzrət Əli (ə) Peyğəmbərin (s) yerində yatdığı zaman, Allah Cəbrayıl və Mikayıl adlı iki mələyinə xitab edərək deyir ki, siz iki qardaşsınız və mən sizin canınızı almaq istəsəm, sizdən hansısa biri

*etmədiyi məlumdur. Onların vəhşicəsinə edilən həmlələrindən uşaq, qadın və qocalar, hətta, xəstəxanalarda olan xəstələr də amanda deyillər.*

*1. «Biharul-ənvar», c.19, səh. 83.*

digərinə öz ömrünü fəda etməyə hazırdırmı? Onlardan heç biri bir söz demədi və öz hazırlıqlarını elan etmədi. Allah onlara xitab edərək yer üzündəki Peyğəmbərin (s) evinə nəzər salmalarını və həzrət Əlinin (ə) Peyğəmbəri (s) qorumaq üçün öz canını necə təhlükəyə atdığını görmələrini əmr edir. Sonra onları həzrət Əlini (ə) qorumaq üçün göndərir. Cəbrayıl və Mikayıl yerə enərək Peyğəmbərin (s) evində hazır olurlar. Cəbrayıl o həzrətin başı üstə və Mikayıl isə ayaq tərəfində onu mühafizə etmək üçün dayanır. Daha sonra onların hər ikisi həzrət Əliyə (ə) xitab olaraq deyirlər:

بَخٍّ بَخٍّ لَكَ يَابْنَ اَبِي طالِب، مَنْ مِثْلُكَ؟ وَقَدْ باهَى اللهُ بِكَ مَلائِكَةَ السَّماواتِ و فاخَرَ بِكَ

***Yəni, "Sənə təbrik deyirik, ey Əli! Kim sənin kimidir? Allah-taala səninlə səmadakı mələklərinə fəxr edir."***[1]

Görəsən, bundan da üstün bir məqamı təsəvvür etmək olarmı?! Şiənin bu xanədanın qapısına üz gətirməsi yersiz, həmçinin, kor-koranə və təəssüb səbəbi ilə deyil, əksinə o həzrətin qeyri-adi və əzəmətli məqamına xatirdir.

## Ayənin verdiyi mesajlar

### *Hər şey Allahın razılığı yolunda olmalıdır*

Əvvəlki bəhslərdə də ona işarə etdiyimiz kimi, bu ayənin Peyğəmbərin (s) hicrət etməsi və həzrət Əli (ə) ilə bağlı nazil olmasına baxmayaraq, o, Quranın digər ayələrində olduğu kimi ümumi və külli bir hökmə şamildir. Həmçinin, bu ayə (**...وَمِنَ النَّاسِ مَنْ يُعْجِبُكَ**) ayəsinin müqabilində nazil olduğu üçün məlum olur ki, camaatın bu dəstəsi onlara ayədə də işarə edildiyi kimi, əvvəlkilərdəndirlər və onların xüsusiyyətləri də digərlərindən fərqlənir. Onlar eqoist, təkəbbürlü və inadkar idilər və insanlar arasında izzət və məqamı nifaq yolu ilə əldə etmiş və zahirdə özlərini digərlərinin yaxşılıq və xeyrini istəyən kimi göstərirdilər. Amma onların rəftarları yer üzündə fəsad törətməkdən başqa, digər bir şeyi göstərmirdi. Amma digər dəstədən olanlar sadəcə Allahla müamilə edir və hətta öz canlarından belə keçirlər və izzətin Allah vasitəsi ilə əldə olunmasına etiqadlıdırlar. Belə şəxslərin fədakarlıqları nəticəsində din və dünya islah olunmaqda, haqq və hüquqlar bərpa edilməkdə və İslam ağacı bar gətirməkdədir.[2]

*1. «Biharul-ənvar», c.19, səh. 85.*
*2. «Nümunə təfsiri», c.2, səh. 48.*

# 2 “SİQAYƏTÜL-HACC” (HACILARA SU VERMƏ) AYƏSİ

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللّهِ لاَ يَسْتَوُونَ عِندَ اللّهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ أَعْظَمُ دَرَجَةً عِندَ اللّهِ وَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ يُبَشِّرُهُمْ رَبُّهُم بِرَحْمَةٍ مِّنْهُ وَرِضْوَانٍ وَجَنَّاتٍ لَّهُمْ فِيهَا نَعِيمٌ مُّقِيمٌ خَالِدِينَ فِيهَا أَبَدًا إِنَّ اللّهَ عِندَهُ أَجْرٌ عَظِيمٌ

***“Yoxsa, siz hacılara su verməyi və Məscidül-Həramı abadlaşdırmağı Allaha və axirət gününə iman gətirən və Allah yolunda cihad edən şəxs(in iman və əməli) ilə bir tutursunuz? Allah yanında (bu ikisi əsla) bir deyildir. Allah zalım dəstəni hidayət etməz. İman gətirən, hicrət edən və Allah yolunda mal və canları ilə cihad edənlərin Allah yanında məqam və dərəcələri çox böyükdür və nicat tapanlar da onlardır. Rəbbi onları öz tərəfindən bir rəhmət və razılıqla və içərisində onlar üçün sürəkli və daimi nemət olan cənnətlərlə müjdələyir. Onlar orada həmişəlik və əbədi olaraq qalacaqlar. Həqiqətən, Allah yanında böyük bir mükafat vardır.”***

*“Tövbə” surəsi, ayə 19-22*

## *Bəhsə qısa bir nəzər*

“Siqayətül-hacc” adı ilə tanınan bu ayə həzrət Əmirəl-mömininin (ə) fəzilətlərinə işarə edən ayələrdən biridir və onunla imamət və xilafət məsələsini də sübuta yetirmək olar və bu ayə “Siqayətül-hacc” və “İmarətul-Məscidil-Həram”ı Allaha iman, onun yolunda hicrət, can və malla cihada bərabər hesab edən kəslərin düşüncəsini sual altına aparanlara bir cavabdır. Daha artıq şərh bəhsin davamında veriləcəkdir.

## *Ayənin nazilolma səbəbi*

"Siqayətül-hacc" ayəsi Peyğəmbər (s) zamanında baş verən bir hadisədən xəbər verir və sadəcə ümumi bir məsələni bəyan etmir. Yəni, həqiqətdə də belə bir müqayisə olunmuşdur. Bu ayə barəsində müxtəlif nazilolma səbəbi qeyd etmişlər və biz onların ən məhşurlarından bəzi nümunələri diqqətinizə çatdırırıq:

Peyğəmbərin (s) əmisi Abbas və Əbdülmüttəlibin övladlarından olan Şöybə Məscidül-Həramda bir-biri ilə söhbət edirmişlər. Abbas Şöybəyə xitab olaraq dedi ki, Allah mənə heç kəsə nəsib olmayan bir iftixar bəxş etmişdir və o, "Siqayətül-hacc"dır[1] (hacılara su vermə). Şöybə də ona cavabında dedi ki, Allah da mənə "İmarətul-Məscidil-Həram"[2], Kəbə evinin açarlarını vermişdir və bundan üstün heç bir iftixar ola bilməz!

Onların yanından keçən həzrət Əli (ə) bu sözləri eşidərərk onlara yaxınlaşdı və salam verərək danışmaq üçün icazə istədi. O həzrətə danışmaq üçün icazə verdilər. Həzrət Əli (ə) buyurdu: "Allah mənə elə bir iftixar bəxş etmişdir ki, onu başqa birisinə verməmişdir!" Onun nə olduğunu soruşdular. O, cavab verdi ki, mən sizdən əvvəl iman gətirmiş və Allahın razılığı üçün hamınızdan öncə hicrət eləmişəm. Allah yolunda öz mal və canımla cihad etmiş, siz və sizin timsalınızdakılar mənim cihad etməyimin bərəkətinə müsəlman olaraq İslamı qəbul etmisiniz. Nəticədə, "Siqayətül-hacc", "İmarətul-Məscidil-Həram" deyil, Allaha iman və onun razılığı yolunda cihad ən üstün iftixardır. Peyğəmbər (s) və həzrət Əlinin (ə) əmisi Abbas bu sözlərdən qəzəbləndi və çox narahat olaraq Peyğəmbərin (s) hüzuruna

---

*1. Hacıların həcc mövsümündə Mina , Ərəfat və Məşərül-Həramda sirab edilməsi "Siqayətül-Hacc" adlanır. Adı çəkilən üç məntəqədə heç vaxt su olmamış və ona suyu digər məntəqələrdən daşımışlar. Hətta, bu günlərdə də həmin məntəqələrin suyu Məkkə və digər məntəqələrdən oraya su boruları vasitəsi ilə daşınır. Qədim zamanlarda hacılar həmin məntəqələrdə olarkən ehtiyaclı olduqları suyu Məkkədən oraya qədər öz yanlarında daşımağa məcbur idilər. Bu cəhətdən, Zilhiccənin səkkizinci günü öz dəvələrinə su yüklədikləri və su ehtiyatı götürdüklərindən, həmin günü "yəvmut-tərviyyə" (su götürmə günü) adlandırırdılar. Abbas da öz zamanında hacılara su çatdırılması ilə vəzifəli idi və həmin zamanlarda bu vəzifə çox əhəmiyyət daşıyırdı, çünki hacıların adı çəkilən üç məntəqədə ehtiyaclı olduqları şey sadəcə su idi.*

*2. Məscidül-Həramın qeyri-adi mövqeyini, xüssusən, Quranda onun yer üzərində tikilən ilkin ev və ən müqəddəs məkan olmasını və orada qılınan bir rükət namazın digər məkanlardan fərqli olaraq (bəzi rəvayətlərə əsasən) bir milyon rükətə bərabər olmasını nəzərə aldıqda, Kəbənin açarları məsələsi xüsusi əhəmiyyət kəsb edir. Həmin vəzifə sahibi Kəbə evinin yenidən bərpası, qorunması və s. kimi işlərdə məsul idi.*

gələrək məsələni danışdı və ondan şikayət etdi ki, həzrət Əli (ə) bizim məqamımızı sual altında qoyur. Peyğəmbər (s) həzrət Əlinin (ə) arxasınca adam göndərib onu çağırtdırır və gəldiyi zaman ondan izah eləməsini istəyərək buyurur: "Nə etmisən ki, əmin Abbas bu qədər hirslənib?"

Həzrət Əli (ə) buyurdu ki, mən haqqı demişəm və əmim də haqqa görə narahat olmuşdur. Sonra məsələni Peyğəmbərə (s) danışdı. Həmçinin, həmin sözləri dedikdə, məqsədinin öz məqamından danışmaq deyil, əksinə "Siqayətül-hacc", "İmarətul-Məscidil-Həram"dan da üstün məqamların mövcudluğunu bildirmək olmasını da vurğulayır. Elə bu zaman "Siqayətül-hacc" ayəsi nazil olaraq həzrət Əlinin (ə) sözlərini təsdiqləyir.[1] Yuxarıdakı nazilolma səbəbi əhli-sünnənin Quranın təfsiri, tarix və rəvayətlər barədə yazılan on iki məşhur kitabında qeyd edilmişdir. Həmin kitablar belədir:

1. Əllamə Vahidi[2], "Əsbabun-nuzul"
2. Əllamə Xazin Bağdadinin təfsiri[3]
3. Əllamə Qurtubini təfsiri[4]
4. Fəxri Razi təfsiri[5]
5. Əllamə Süyuti[6], "Durrul-mənsur"
6. Əbul Bərəkat Nəfsinin təfsiri[7]
7. İbn Səbbağ Maliki, "Fusulul-mühimmə"[8]
8. Gənci Şafei, "Kifayətut-talib"[9]
9. Xətib Bağdadi tarixi[10]
10. İbn Məğazəli, "Mənaqib"[11]
11. İbn Əsakir tarixi[12]
12. Zəməxşəri, "Rəbiül-əbrar"[13]

Nəticədə, yuxarıdakı nazilolma səbəbi ilə bağlı heç bir şəkk-şübhəyə yer yoxdur.

*1. "Şəvahidut-tənzil", c.1, səh. 249-dan sonra.*
*2. "Əsbabun-nuzul", səh. 182 ("İhqaqul-həqq", c.3, səh. 123-də nəql edilənlərə əsasən).*
*3. "Təfsiri Cazen", c.3, səh. 57 ("İhqaqul-həqq", c.3, səh. 123-də nəql edilənlərə əsasən).*
*4. "Qurtubi təfsiri", c.8, səh. 91 ("İhqaqul-həqq", c.3, səh. 125-də nəql edilənlərə əsasən).*
*5. "Fəxri Razi təfsiri", c.16, səh. 10 ("İhqaqul-həqq", c.3, səh. 125-də nəql edilənlərə əsasən).*
*6. "Durrul-mənsur", c.3, səh. 218 ("İhqaqul-həqq", c.3, səh. 126-da nəql edilənlərə əsasən).*
*7. "Nəsəfi təfsiri", c.2, səh. 221 ("Əl-Qədir", c.2, səh. 54-də nəql edilənlərə əsasən).*
*8. "Fusulul-muhimmə", səh. 106 ("İhqaqul-həqq", c.3, səh. 126-da nəql edilənlərə əsasən).*
*9. "Kifayətut-talib", səh. 113 ("İhqaqul-həqq", c.3, səh. 123-də nəql edilənlərə əsasən).*
*10. "Əl-Qədir", c.2, səh. 54-55-də nəql edilənlərə əsasən.*
*11. Həmin mənbə.*
*12. Yenə orada.*
*13. Yenə orada.*

### Mühüm bir mətləb

Abbas ibn Əbdülmüttəlib "Siqayətül-hacc" ayəsi nazil olarkən şübhəsiz ki, ona iman gətirmiş və cihadd da etmişdir. Eyni zamanda, Şöybə də iman gətirərək cihad etmişdir. Belə olduğu halda, həzrət Əli (ə) öz iman və cihadını necə misa çəkir, halbuki, buna onlar da sahib idilər?

Bu suala cavab olaraq bildiririk ki, həzrət Əli (ə) camaat arasında ilk iman gətirən, Peyğəmbərdən (s) sonra Mədinəyə ilk hicrət edən və Allah və onun Rəsulu (s) yolunda cihadda iştirak edən birinci şəxs olduğunu və İslam, cihad və hicrətdə Şöybə və Abbasın malıik olmadığı öncüllüyə sahib olduğu və həmin iftixarın təkcə özünə mənsub olduğunu bildirmək istəyir.

### Şərh və təfsir

### Allaha imanın hər bir şeydən üstünlüyü

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللهِ وَالْيَوْمِ الآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللهِ لاَ يَسْتَوُونَ عِندَ اللهِ – Siz ümrə və həcdəki hacılara su vermək və Məscidül-Həramı abad etməyi Allah və qiyamət gününə iman gətirərək Allah yolunda cihad edən kəslə bir tutursunuzmu? Ayənin ifadəsindən Allaha iman və onun yolunda cihad edilməsinin qeyd edilən iki məsələ ilə müqayisə olunmasının – bu barədə danışdıq – düzgün olmadığı məlum olur. Allah həmin müqayisəni düzgün hesab etmir və Allaha iman və onun yolunda edilən cihadı "Siqayətül-hacc" və "İmarətul-Məscidil-Həram"la müqayisə edilməyə layiq bilmir, çünki iman və cihad onların ikisindən də üstündür.

وَاللهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ – Allah zalımları hidayət etməz. Bu ifadə təkcə həmin müqayisənin düzgün olmadığını və iman və cihadın "Siqayətül-hacc" və "İmarətul-Məscidil-Həram"dan üstün olmasını deyil, əksinə belə bir müqayisənin Allah və qiyamət gününüə iman gətirmək və Allah yolunda cihad etməkdə öncül olan şəxsə, bir növ, zülm və sitəm olduğunu bildirir.

الَّذِينَ آمَنُوا وَهَاجَرُوا وَجَاهَدُوا فِي سَبِيلِ اللهِ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ أَعْظَمُ دَرَجَةً عِندَ اللهِ وَأُولَئِكَ هُمُ الْفَائِزُونَ – İman gətirən və bundan əlavə, imanlarını qorumaq və artırmaq üçün hicrətin çətinliyinə sinə gərən və Allah və dinin yayılması yolunda mal və canları ilə cihad edən kəslərin Allah dərgahında üstün dərəcələri vardır və belə şəxslər nicat tapan və qalibdirlər. Əvvəlki ayədə edilən müqayisəni həqiqətdə rədd edən və onu bir növ zülm

adlandıran Allah-taala bu ayədə iman, hicrət və cihadın daha dəyərli olduğunu bildirir.

يُبَشِّرُهُمْ رَبُّهُمْ بِرَحْمَةٍ مِنْهُ وَ رِضْوانٍ – Allah bir tərəfdən, man, cihad və hicrətlə və digər tərəfdən də, "Siqayətül-hacc" və "İmarətul-Məscidil-Həram" arasındakı müqayisəni rədd etdikdən və əvvəlki üç məsələyə (iman, cihad, hicrət) daha artıq dəyər verdikdən sonra imanlı olan, cihad və hicrət edən kəslər üçün iki sonrakı ayədə müəyyən müjdələr verir. Həmin müşdələrə diqqət yetirin:

1. Allah belə şəxslərə öz rəhmətini və ona yaxın olmağı bəşarət verir.

2. Həmin şəxslər üçün nəzərdə tutulan mənəvi müjdə Allahın razılığıdır və insanın Allahın ondan razı olduğunu bilməsindən daha üstün hansı nemət ola bilər!

3. وَجَنّاتٍ لَهُمْ فيها نَعيمٌ مُقيمٌ خالِدينَ فيها أَبَدًا – Onlara veriləcək üçüncü nemət cənnət bağlarıdır (diqqət yetirin ki, ayədə bir dənə bağ deyil, çoxlu sayda bağlar nəzərdə tutulmuşdur) və həmin bağlarda tükənmək bilməyən nemətlər mövcuddur. Dünya nemətləri üçün eyib və naqislik sayılan məsələlərdən biri onların tükənməsidir. Amma axirət nemətləri isə bu xüsusiyyətlərdən xaricdir.

إِنَّ اللَّهَ عِنْدَهُ أَجْرٌ عَظيمٌ – Görəsən, bu ifadə iman cihad və hicrət əhli olanlar üçün nəzərdə tutulan digər bir nemətə işarədirmi? Elə bir nemətə ki, Allaha yaxın olmaq, onun razılığı və cənnət bağlarından sonra bəxş ediləcək və nə onu dərk etməyə insan zehni, nə vəsf etməyə insan qüdrəti yetməz. Görəsən, bu səbəbdənmi üstüörtülü şəkildə bəyan edilmişdir? Yoxsa, əvvəlki üç nemətə işarədir və onlara təkid üçündür? Bu ehtimallardan hansısa birinin olması mümkündür.

### *"Siqayətül-Hacc" ayəsinin vilayət məsələsi ilə irtibat və əlaqəsi*

İman, cihad və hicrətdə qabaqcıllıq kimi fəzilətlərin həzrət Əliyə (ə) məxsus olduğu və onun müsəlmanlardan üstünlüyü məlum olduqdan sonra, aydın məsələdir ki, Allah-taala Peyğəmbərə (s) canişin seçmək istəsə, insanlardan ən üstününü qoyub ondan aşağı olanların sorağında olmaz, çünki Allah hikmət sahibidir və ondan aşağı olan şəxsi ən üstün şəxsə tərcih etmək Allahın hikmətinə zidd və müxalifdir. Eyni zamanda, əgər xilafət məsələsi seçimlə olsa belə, aqil və ağıllı insanlar da ən üstün şəxsi qoyub aşağı səviyyəlinin ardınca olmazlar. Nəticədə, bu ayə ilə də o həzrətin vilayətini sübuta yetirmək olar.

### Əhli-sünnə alimlərindən birinin etirafı

Sünni alimlərindən biri deyir: "Siz şiələr öz üsulid-din və etiqadlarınızın hamısını bizim kitablarımızda mövcud olan rəvayətlərlə sübuta yetirə bilərsiniz. Çünki bizim kitablarımızda sizin nəzəriyyələrinizi təsdiqləyən o qədər rəvayət var ki, sizin bu işinizi (sübutunuzu) mümkün edir." Daha sonra dediyi sözlərə (onu inkar emək üçün) belə bir bəhanə gətirir: "Bizdən əvvəlki insanlar sadə insanlar olmuş və əllərinə keçən hər bir rəvayəti öz kitablarında qeyd etmişlər."[1] Biz bu cür tərs mütənasiblikdən təəccüb edirik. Çünki onlar öz kitablarını, xüsusən də, "Səhihe sittə"ni tərifləyərək deyirlər ki, "Bu kitabların rəvayətləri çox diqqətlə seçilmişdir və onun bütün rəvayətləri mötəbərdir və buna səbəb minlərlə rəvayət arasından çox az bir qisminin seçilməsidir."[2]

Görəsən, bu cür sözlər həmin sünni aliminin əvvəlki sözləri ilə ziddiyyət təşkil etmirmi? Belə ziddiyyətlərin səbəbi insanın əvvəlcə müəyyən bir qərara gələrək sonradan həmin qərarına Quran və rəvayəti dəlil gətirməyə çalışmasıdır. Amma insan öncə Quran və rəvayətlərdə aydın və şəffaf olaraq istifadə edilənlərə diqqət yetirərərk seçim etmək istəsə, heç vaxt belə ziddiyyətlərə düçar olmaz.

## Ayənin verdiyi mesajlar

### Dinin böyüklərinə (dini şəxsiyyətlərdən) əməldə itaət və ardıcıllıq

Pak və məsum imamların (ə) fəzilət və əxlaqi, ictimai və siyasi xüsusiyyət və keyfiyyətlərini bəyan etmək bəyənilən və lazımlı bir işdir, amma yetərli deyil və bunlarla kifayətlənmək olmaz. Əksinə, həmin məsələləri insan öz ictimai və fərdi həyatında ön plana çəkməli və işləri üçün bir proqram halına gətirməlidir. Bəhs etdiyimiz ayələrdə İslamın mühüm sütunu barədə üç məsələ bəyan edilmiş və həzrət Əli (ə) həmin üş məsələyə malik olduğu üçün ən yüksək səviyyədə mədh edilərək təriflənmişdir. Həmin üç məsələ "iman", "hicrət" və "Allah yolunda mal və canla cihad"dan ibarətdir. Əgər biz də həzrət Əlinin (ə)

---

*1. Bu sözlərdə məqsəd nədir? Məqsəd xatırlanan rəvayətlərin mötəbər olması, amma bəzi şəxslərin istəyinə uyğun gəlmədiyi üçün nəql edilməməsidirmi?! Məqsəd belə rəvayətlərin mötəbər olmamasıdıırmı? Əgər belədirsə, onda «Səhihe sittə»dəki digər hədislərin etibarlı olmasına kim zəmanət verir?!*

*2. «Səhihe sittə»nin müəlliflərindən biri olan Buxari deyir ki, yeddi mindən artıq səhih hədisi olan bu kitabın hədislərini on altı il ərzində altmış min hədisin arasından seçmişəm. «Səhih Buxari», birinci cildin tərcüməsinə müraciət edin.*

yolunu getmək istəsək, onun kimi həmin üç məsələni öz həyatımızda yaşatmalıyıq.

İmanın gücləndirilməsi üçün iki yol vardır: Birincisi, imanlı olduğumuz məsələlər barədə daha çox mütaliə etmək. Məsələn, Allaha imanımızı artırmaq üçün, yaradılışın sirləri barədə mütaliələrimizi genişləndirməliyik. Qurana olan imanımızı artırmaq üçün onun maraqlı və cazibəli ayələri barədə təfəkkür etməliyik, bir sözlə, imanın artırılmasında həmin məsələ ilə əlaqədar mütaliə etmək çox təsirlidir. İkincisi, məsələyə özümüz və batinimizi düzəltmək yolundan varid olaq, çünki iman insanın qəlb aynasında əks edən bir nurdur və qəlb aynası nə qədər şəffaf və təmiz olsa, iman nuru da bir o qədər əks olunacaq. Əgər Allah eləməmiş, insanın qəlbi günaha aludə olsa və günahın çirkinlikləri qəlb aynasını örtsə, təbiidir ki, iman nuru belə bir qəlbdə azalacaq.

Dinin mühüm təməllərindən sayılan hicrət barəsində bəzi şəxslər onun İslam dininin əvvəllərinəki müsəlmanlara aid olduğunu və müsəlmanların Mədinəyə hicrət etməsi ilə onun kitabının bağlandığını təsəvvür edir. Halbuki, Əhli-beytin (ə) rəvayətlərində bu mətləbin əksi müşahidə olunmaqdadır. Həzrət Əlidən (ə) nəql edilən bir hədisdə buyurulur:

اَلْهِجْرَةُ قائِمَةٌ عَلى حَدِّها الأَوَّل

***“Hicrət elə birinci sütün olaraq öz yerində qalmaqdadır (yəni, onun kitabı bağlanmayıb).”*** [1]

Hicrət məsələsi iman və cihad kimi, qiyamətə qədər davam edəcək və müsəlmanlar onu yerinə yetirməklə vəzifəlidirlər. Əlbəttə, bir çox hallarda hicrətin şəkil və forması dəyişir. Həzrət Əli (ə) buyurur:

يَقُولُ الرَّجُلُ هاجَرْتُ وَلَمْ يُهاجِرْ، اِنَّمَا الْمُهاجِرُ مَنْ هاجَرَ السَّيِّئاتِ وَلَمْ يَأْتِ بِها

***“Bəzən kimsə hicrət etdiyini deyir, halbuki, hicrət etməmiş və mühacir deyildir. Həqiqi mühacir günahla dolu bir ölkədən pak bir ölkəyə hicrət edən və bir daha günah fikrində olmayan kəslərdir.”*** [2]

Bəli, həqiqi mühacirlər günahdan pak şeylər, təqva və Allaha itaət üçün hicrət edən kəslərdir. Onlar qeyri-münasib dostlardan və günah məclislərindən uzaqlaşanlardır. Haram mal, haram məqam və günahlardan hicrət etmək vacib və lazımdır. Aydın məsələdir ki, hicrətin bu forma və şəkli təkcə İslamın əvvəllərindəki müsəlmanlara məxsus deyil və qiyamətə qədər bütün müsəlmanların vəzifəsidir.

---

*1. «Mizanul-hikmət», c.10, səh. 302 (3989-cu bölmə, hədis: 20755).*

*2. «Biharul-ənvar», c.98, səh. 99.*

Üçüncü mühüm məsələ olan can və malla cihad məsələsi də bütün əsr və məkanlarda müsəlmanlara şamildir. Can və malla cihad tətil edilməsi qeyri-mümkün olan bir məsələdir, xüsusən də, Quranın ifadəsi ilə desək, düşmənçilik və kinləri simalarından bilinən kəslərin mövcud olduğu zamanımızda həmin məsələ önəm daşıyır:

قَدْ بَدَتِ الْبَغْضاءُ مِنْ اَفْواهِهِمْ

***"Doğrudan da, düşmənçilik (elə) ağızlarından (sözlərindən) bəllidir və sinələrində gizlətdikləri daha böyükdür."***[1]

Onlar elə düşmənlərdir ki, heç bir insanlıq məsələlərinə etiqadlı deyillər və öz qeyri-şəri məqsəd və mənafeləri üçün hər bir cinayətə əl atmağa hazırdırlar. Belə təhlükəli düşmənlər müqabilində həmişə müdafiə və cihada hazır olmaq lazımdır. Eyni zamanda, döyüş və mübarizə ruhunu daima cavan müsəlmanlarda yaşatmaq və canlandırmaq lazımdır. Bu səbəbdən, biz insanlardakı mübarizə ruhunu qeyri-sağlam əyləncələr və ya sağlam, lakin ifrat məsələlərlə zəiflətmək və yaxud da onu məhv etmək üçün çalışan kəslərin öz ölkə və İslama xəyanət etdikləri düşüncəsinə sahibik.

İlahi! İman nurunu bizim qəlbimizdə daha da alovlandır ki, zalım və günaha aludə olan ölkələrdən hicrət edə və Allah yolunda cihad edərək digərlərinə də nicat verə bilək.

## *Təkmilləşdirici bəhslər*

## *1. Nə üçün həzrət Əlinin (ə) adı Quranda qeyd edilməyib?*

***Sual:*** Əgər sizin etiqad bəslədiyiniz və Qurandan onun isbatı üçün dəllillər gətirdiyiniz kimi, həzrət Əli (ə) Peyğəmbərin (s) canişinidirsə, onda, nə üçün bu qədər bəhs və ixtilaflar meydana çıxmasın deyə, o həzrətin adı Quranda qeyd edilməyib?

***Cavab:*** "Əli" adının fəqət Əmirəl-mömininin (ə) adı və "Əbu Talib" künyəsinin də onun atasının künyəsi olmadığını və həmin ad və künyənin əksər ərəblərin ad və künyəsi olduğunu nəzərə alaraq, Quranda o həzrətin adı aşkar şəkildə bildirilsəydi də, bu həqiqəti qəbul etmək istəməyən kəslər yenə bəhanələr gətirərək onu Əmirəl-mömininə (ə) deyil, Əli adlı digər bir şəxsə şamil edərdilər. Bu cəhətdən, daha yaxşı olardı ki, sadəcə o həzrətə məxsus olan sifət və xüsusiyyətlərlə o, tanıtdırılsın və həmin məsələ onun özündən başqa, heç kəsə şamil olmasın. Beləliklə, Allah-taala da həmin üsulu seçərək

*1. «Ali-İmran» surəsi, ayə 118.*

o həzrəti Quranın ayələrində özünəməxsus sifət və xüsusiyyətlərlə tanıtdırmağa üstünlük vermiş və onu Peyğəmbərin (s) canişini və möminlərin vəlisi ünvanında göstərmişdir. Bununla belə, qəlblərində nifaq və xəstəlik olanlar həmin ayələri fərqli şəkildə təfsir edirlər.

***Başqa bir sual:*** Hədislərin birində belə deyilir: "Yunis ibn Əbdürrəhman səkkizinci imam olan imam Rzanın (ə) yanına gəlir və deyir: "Camaatın bəzisi həzrət Əlinin (ə) adının Quranın hansı ayəsində gəldiyini soruşurlar. Mən cavabında onlara وَجَعَلْنَا لَهُمْ لِسَانَ صِدْقٍ عَلِيًّا[1]– deyə cavab verirəm." Belə olduğu halda, mən onlara düzgün cavab verirəmmi?"

İmam cavabında ona buyurur: صَدَقْتَ هُوَ هَكَذا[2] – düz deyirsən, məsələ elə sənin dediyin kimidir. Bu rəvayət sizin Quranda o həzrətin adının qeyd edilmədiyini dediyiniz məsələ ilə uyğun gəlirmi?

***Cavab:*** Şübhəsiz ki, bu ayədə işlədilən عَلِيًّا kəlməsi bir şəxsin adı (fənni bir ifadə ilə desək, ələm) deyil, əksinə sifət xüsusiyyətinə malikdir ki, لِسَانَ (lisan) sözü üçün sifət rolunu daşıyır. Amma yuxarıdakı rəvayətə gəldikdə, onun mötəbər bir sənədi mövcud deyil. Onun ravilərindən biri Əhməd ibn Məhəmməd Səyyaridir və (rical elmi baxımından) zəifdir. Bu şəxs Quranın təhrif olunması ilə bağlı geniş şəkildə hədislər nəql edən kəsdir. Bu səbəbdən, silsilə sənədləri arasında onun adı olan rəvayətlər qəbul ediləsi deyil və qeyri-mötəbər (etibarsız) sayılır.

Mərhum Əllamə Əmini onun avto-bioqrafiyası ilə bağlı belə yazır: "O, zəif və məzhəbi xarab (fasid) bir şəxs olmuşdur. Onun nəql etdiyi rəvayətlərin içi boşdur (mənası yoxdur) və etimad olunası deyil."[3] Nəticədə, yuxarıdakı rəvayət etimad ediləsi deyil.

2. Nə üçün Peyğəmbər (s) münafiqləri ortadan qaldırıb məhv etmədi?

***Sual:*** Şübhə yoxdur ki, münafiqlər Peyğəmbər (s) zamanında və o həzrətin vəfatından sonra yenicə yaranan İslama bərpaolunmaz zərbələr vurmuşlar. Həmçinin, onlar imamət və xilafət yolunun dəyişdirilməsinin əsasını qoyanlar idilər və Peyğəmbər (s) də onları tanıyır və münafiqliklərini bilirdi. Bu məsələni nəzərə alaraq nə üçün Peyğəmbər (s) öz zamanında onları qətlə yetirərək İslam və müsəlmanlara bu qədər zərbə dəymələsinin qarşısını almadı?

---

*1. «Məryəm» surəsi, ayə 50.*
*2. «Əl-Burhanu fi təfsiril-Quran», c.3, səh. 14.*
*3. "Camiur-ruvvah", c.1, səh. 67.*

***Cavab:*** Peyğəmbərin (s) özü hədislərin birində həmin suala cavab vermişdir. Hədisdə buyururlur: "Əgər bəzilərinin məni ittiham edərək "Məhəmməd (s) peyğəmbərliyinin başlanğıcında öz dostları və köməkçilərinin vasitəsi ilə qələbə əldə etdi və hökumət dayaqlarını möhkəmlətdikdən sonra da, öz keçmiş dostlarını öldürdü." deməsindən qorxmasaydım, münafiqlərdən çoxunun boynunu vurar və İslamı onların şərindən xilas edərdim."[1]

Belə bir ittihamın camaatın düşüncəsində peyğəmbərlik məsələsini sarsıdacağını nəzərə alaraq Peyğəmbər (s) həmin yanlış düşüncənin qarşısını almaqdan ötrü belə bir addım atmadı və münafiqlərə dəyib-dolaşmayaraq onların xəyanətlərinə səbr etdi.

*1. "Vəsailuş-şiə", c.18, "Əbvabu həddil-mürtədd", bölmə: 5, hədis: 3.*

# 3 “NÜSRƏT” (KÖMƏK) AYƏSİ

وَإِن يُرِيدُواْ أَن يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللّهُ هُوَ الَّذِيَ أَيَّدَكَ بِنَصْرِهِ

***“Əgər (sülh və barışıqda, yaxud başqa bir məsələdə) səni aldatmaq istəsələr, şübhəsiz, sənə Allah kifayət edər. Səni öz (qeyb) köməyi və möminlərin vasitəsi ilə qüvvətləndirən odur.”***

*“Ənfal” surəsi, ayə 62*

### *Bəhsə qısa bir nəzər*

“Nüsrət” adı ilə ifadə edilən bu ayə həzrət Əlinin (ə) fəzilətləri ilə bağlı olan ayələrdən biridir.

***Sual:*** Bəhsin mövzusu həzrət Əlinin (ə) vilayəti ilə bağlı olan ayələrdir. Belə isə, fəzilətlə bağlı ayələrin vilayətlə nə irtibatı vardır?

***Cavab:*** Əmirəl-mömininin (ə) xilafət və vilayətinin isbatı üçün istifadə edilən ayələr iki qisimə bölünür:

Birincisi, o həzrətin vilayət və xilafətinə aydın, açıq-aşkar və birbaşa dəlalət edən ayələr. Məsələn, birinci fəsildə bəhs etdiyimiz “İkmalud-din”, “Vilayət” ayəsi kimi ayələr. İkincisi, birbaşa o həzrətin xilafətinə dəlalət etməyən və ona məxsus fəzilətləri zəminində qeyd edilən ayələr. Əvvəlki bəhslərdə şərhini verdiyimiz kimi, müəyyən bir əqli müqəddiməyə əsasən, biz dolayı yolla həmin qisimdən olan ayələr vasitəsi ilə vilayət məsələsini isbat edə bilərik. Bu qəbildən olan “Nüsrət” və sair ayələr barəsindəki şərh və təfsir də nəzərinizə çatdırılacaq.

## Şərh və təfsir

### Bütün quvvə ilə hazır olmaq

“Nüsrət” ayəsinin təfsirinin daha yaxşı təfsir edilməsi üçün “Ənfal” surəsinin 60-63-cü ayələrinin təfsirinə müraciət etmək lazımdır:

وَ اَعِدُّوا لَهُمْ مَا اسْتَطَعْتُمْ مِنْ قُوَّة وَ مِنْ رِباطِ الْخَيْلِ

***“Malik olduğunuz bütün qüvvələrinizi, həmçinin döyüş atlarınızı döyüş meydanı üçün və düşmən müqabilində hazır vəziyyətə gətirin!”***

Bu ayə bütün zamanlarda, məkan, tarixi dövrlər və ölkələrdə ilhamverici funksiya daşıyır və xüsusi bir silahdan söhbət edilmir ki, zamanın dəyişməsi ilə sıradan çıxmış olsun. Əksinə, “qüvvə” sözündən istifadə edilərək müsəlmanların bütün zamanlarda mövcud olan ən yeni silahlarla təchiz olunma və düşmən müqabilində hazır olmalarını tövsiyə edir. Həmin söz sadəcə döyüş silahlarına deyil, təbliğat kimi düşmənin aradan qaldırılmasında təsirli olan qeyri-silahlara da şamil edilir. Eyni zamanda, ayədə ifadə edilən “qüvvə” sözü iqtisadi, ictimai, əxlaqi, bir sözlə, düşmənin qarşısını almaqda və bizim müdafiə olunmağımızda təsirli olan və kömək edən bütün məsələlərə aid edilə bilir.

**تُرْهِبُونَ بِهِ عَدُوَّ اللهِ وَ عَدُوَّكُمْ وَ آخَرِينَ مِنْ دُونِهِمْ لاتَعْلَمُونَهُمُ اللهُ يَعْلَمُهُمْ** – Ayənin bu qismi silah və döyüş qüvvələrinin toplanması barədəki hədəfi belə bəyan edir:

Bu hazırlıqdakı məqsəd insanların məhv edilməsi, dünyanın viran olunması və qüdrətsiz və biçarə şəxslərin öldürülüb qarət edilməsi deyil, əksinə hədəf şəri olan bir müdafiədir. Düşmən təcavüzünün qarşısını almaq üçün bütün silah və qüvvələrlə hazır olmaq lazımdır. Çünki həmişə qüdrətli və zalım dövlətlər zəif ölkələrə hücum edirlər və qüdrət – həm zahiri və batini, həm Allah düşmənləri və öz düşmənlərinizin – onların qarşısını ala bilən, yeganə vasitədir. Silahlı qüvvələrin artırılması və hazır vəziyyətə gətirilməsi hədəfi düşmənin ehtimal ediləsi təcavüzünün qarşısını şəri və məntiqi müdafiə formasında almaq üçün olmalıdır.

**وَ ما تُنْفِقُوا مِنْ شَيْءٍ فِى سَبِيلِ اللهِ يُوَفَّ اِلَيْكُمْ وَ اَنْتُمْ لاتُظْلَمُونَ** – Şübhəsiz ki, İslamın müdafiə sisteminin gücləndirilməsi, onun iqtisadi, ictimai, əxlaqi və təbliğata yönəli müasir silahlarla təchiz olunması və bu kimi məsələlər çoxlu xərclər tələb edir və müsəlmanlar onu təmin

etməlidirlər. Allah yolunda xərclədiyiniz bütün pulları Allah özü kamil şəkildə sizə qaytaracaq və sizə bu cür müamilədə şübhəsiz ki, heç bir zərər dəyməyəcəkdir.

وَإِنْ جَنَحُوا لِلسَّلْمِ فَاجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى اللَّهِ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ – Müsəlmanların müdafiə ilə bağlı öz hərbi qüvvələrini möhkəmləndirməkdə vəzifəli olmalarına baxmayaraq, əgər düşmənlər onlara tərəf öz dostluq əlini uzadaraq sülhə dəvət etsələr, bu zaman müsəlmanlar onların əlini geri çevirməyəcək və müharibəyə israra edərək ona can atmayacaqlar. Bu ayənin özü inadkar və İslamı müharibə və döyüş dini kimi tanıtdıranlara verilən ən yaxşı cavabdır, bu mənada ki, əgər İslam dini sülh dini olmasaydı, onda, ona tərəf sülh etmək üçün uzadılan əli geri çevirməli idi, amma həqiqət bunun əksini göstərir. Daha sonra müsəlmanlara xəbərdarlıq edilir:

وَإِنْ يُرِيدُوا أَنْ يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللَّهُ هُوَ الَّذِي أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ – Düşmənin sülh təklifinə müsbət cavab versəniz belə, ehtiyyatlı olun ki, onların hiylə və məkrinə aldanmayasınız və bu şəraitdə də öz qüdrət və müdafiə qüvvələrinizi ən yüksək səviyyədə qoruyub saxlayın ki, düşmən hiylə işlətsə, siz qəflətdə olmayasınız.

Bu, düşmən qüvvələrinin zəiflədikləri zamanlarda yalandan sülh bağlamaq niyyətində olaraq öz qüvvələrini bərpa edənə qədər müsəlmanları danışıqlara tutmağa və qüvvələr bərpa edildikdən sonra da müsəlmanlara zərbə vurulmasına bənzəyir (xəbərdarlıq bu cəhətdəndir). Belə hallarda müsəlmanlar öz qüvvələrini qoruyub saxlamış olsalar, onda düşmənin gözlənilməz hiyləsini dəf edə biləcəklər. Həzrət Əli (ə) də vali təyin etdiyi Malik Əştərə nəsihət verdikdən sonra da, onu hətta sülh zamanlarında da düşmənin hiyləsindən qafil olmamağa çağırır.[1]

Allah-taala ayənin sonunda buyurur ki, əgər səni aldatmaq istəsələr, Allah sənə bu şəraitdə kifayət edər. Allah o kəsdir ki, səni özü və möminlərin yardımı ilə gücləndirmişdir.

وَلَكِنَّ اللَّهَ أَلَّفَ بَيْنَهُمْ إِنَّهُ عَزِيزٌ حَكِيمٌ وَأَلَّفَ بَيْنَ قُلُوبِهِمْ لَوْ أَنْفَقْتَ مَا فِي الْأَرْضِ جَمِيعًا مَا أَلَّفْتَ بَيْنَ قُلُوبِهِمْ – Ey Allahın Peyğəmbəri (s)! Onların qəlbləri arasında

---

*1. Malik Əştərin əhdnaməsinin son hissələrində belə yazılmışdır:*

فانّ العدوّ ربّما قارب ليتغفّل فخذ بالحزم ولاتدفعنّ صلحاً دعاك اليه عدوّك ولله فيه رضى . ولكن الحذر كلّ الحذر من عدوّك بعد صلحه. واتّهم فى ذلك حسن الظّن..- *Düşmən tərəfindən sənə təklif edilən və Allahın razılığı olan sülhü əsla geri çevirmə... Amma düşmənin sülhlə bağlı verdiyi sözdən sonra çox ehtiyyatlı ol ki, düşmən bəzən hiyləgərlik edir, yəni sülh müqaviləsi bağlayaraq səni qəflətdə qoymaq istəyir. Bu cəhətdən, sən uzaqgörənliyini əldən vermə və xoş düşüncəliliyini bir kənara qoy (“Nəhcül-bəlağə”, 53-cü məktub).*

(Allah) ülfət yaratdı. Əgər sən yer üzündə olan şeylərin hamısını onların qəlbləri arasında ülfət yaratmaq üçün xərcləsəydin, onların bir-birindən ayrı qəlbləri arasında ülfət yarada bilməzdin. Lakin Allah onların aralarında ülfət yaratdı. Həqiqətən, o, yenilməz qüdrət və hikmət sahibidir. Bu, sən və bütün müsəlmanlar üçün ən böyük nemətlərdəndir.

Yuxarıdakı dörd ayə barədə daha artıq bəhs etmək mümkündür, amma biz bu qədəri ilə kifayətlənirik.

## Möminlər kimlərdir?

***Sual:*** "Nüsrət" ayəsi kimin barəsində nazil olmuşdur? Möminlərdə məqsəd kimlərdir?

***Cavab:*** Bu zəminədə çoxlu rəvayətlər mövcuddur.

Həm Əllamə Əmini "Əl-Qədir"[1] kitabında, həm də "İhqaqul-həqq"[2] kitabının müəllifi öz əsərində həmin rəvayətləri nəql etmişdir. Həmin rəvayətlər iki qisimə bölünür:

Birincisi, Peyğəmbərin (ə) ilkin dost və köməkçisinin həzrət Əli (ə) olduğu və "Nüsrət" ayəsinin onun barəsində nazil edildiyini bildirən rəvayətlər.

İkincisi, həzrət Əlinin (ə) yardımından danışan, amma onun həzrət Əliyə (ə) aid olduğunu bildirməyən rəvayətlər. Hər iki qisimdən olan rəvayətlərin hərəsinə bir nümunəni misal göstərməklə kifayətlənirik:

1. "Dəməşq tarixi" əsərinin müəllifi İbn Əsakir Əbu Hüreyrədən[3] aşağıdakı rəvayəti nəql edir:

**مَكْتُوبٌ عَلَى الْعَرْشِ لا اِلهَ اِلاَّ أنَا وَحْدى، لا شَريكَ لى، وَ مُحَمَّدٌ[4] عَبْدى وَ رَسُولى، اَيَّدْتُهُ بِعَلِيٍّ وَ ذلِكَ قَوْلُهُ هُوَ الَّذى اَيَّدَكَ بِنَصْرِهِ وَ[5] بِالْمُؤْمِنينَ**

***"Ərşin sütunlarına belə yazılmışdır: "Mən tək olan Allahdan başqa, heç bir Allah yoxdur və mənim şərikim də mövcud deyil. Məhəmməd (s) mənim bəndəm və rəsulumdur. Mən onu Əlinin (ə) vasitəsi ilə təsdiqləmişəm. "Nüsrət" ayəsində qeyd edilənlər ərşin sütunlarında yazılmış olan cümlələr Əlinin (ə) yardımı barəsindədir.""***

---

*1. "Əl-Qədir", c.2, səh. 49-dan sonra.*

*2. "İhqaqul-həqq", c.3, səh. 194-dən sonra.*

*3. Qeyd edilən rəvayətin ravisi təkcə Əbu Hüreyrə deyil, əksinə İbn Abbas, Cabir və Ənəs də onu nəql etmişdir.*

*4. Ubudiyyət və bəndəçilik məsələsi o qədər əhəmiyyət kəsb edir ki, burada risalət sözündən qabaq qeyd edilmişdir (təşəhhüddə deyildiyi kimi, müsəlmanlar o həzrətin risalətinə şəhadət verməzdən qabaq, onun bəndəçiliyinə şəhadət verirlər).*

*5. "İhqaqul-həqq", c.3, səh. 194-də nəql edilənlərə əsasən.*

Bu yerdə bir neçə mətləbi xatırlatmağı zəruri hesab edirik:

***Birincisi,*** Əbu Hüreyrə bu rəvayəti Peyğəmbərə (s) nisbət verməsə də, onun söylədiyi(مَكْتوبٌ عَلى الْعَرْشِ) cümləsi həmin məsələni İslam Peyğəmbərindən (s) eşitdiyini göstərir, çünki özündən belə bir şeyi iddia edə bilməz.

***İkincisi,*** Quran ayələrinin nazilolma səbəbi iki qisimdir:

Birincisi, sadəcə bir nəfərə və bir şəxsə aid olan nazilolma səbəbləri. Məsələn, "İkmalud-din" və "Vilayət" ayələri və bunun kimi həzrət Əlidən (ə) başqa, heç bir şəxsə aid olmayan ayələr.

İkincisi, bir fərdə deyil, çoxlu sayda fərdlərə şamil olan nazilolma səbəbləri. Misal üçün, "Nüsrət" ayəsi bir deyil, əksər insanlara şamildir, lakin onun ən üstün və bilinən misdaq və nümunəsi bir şəxsdir ki, o da həzrət Əlidir (ə).

***Üçüncüsü:*** İbn Əsakirdən başqa, digər şəxslər də həmin rəvayəti öz əsərlərində nəql etmişlər:

a) Muhibbuddin Təbəri, "Riyaz"[1];

b) Süyuti, "Durrul-mənsur"[2];

c) Qunduzi, "Yənabiul-məvəddəh"[3];

d) Əllamə Gənci, "Kifayətut-talib"[4]

2. Mərhum Əllamə Əmini həzrət Əlinin (ə) Peyğəmbərin (ə) birinci köməkçi və yardımçısı olmasına işarə edən, amma ayədəki məqsədin həzrət Əli (ə) olmasını birbaşa bildirməyən çoxlu rəvayətlər nəql etmişdir. Həmin rəvayətlərdən biri Ənəs ibn Malikin Peyğəmbərdən (s) nəql etdiyi aşağıdakı hədisdir:

**لَمّا عُرِجَ بى: رَأَيْتُ عَلى ساقِ العَرْشِ مَكْتُوباً: لا اِلهَ اِلاَّ اللهُ، محمَّدٌ رَسُولُ اللهِ، اَيَّدْتُهُ بِعَلِّى، نَصْرتُهُ بِعَلِّى**

***"Məni meraca apardıqları vaxt ərşin sütunlarında bu cümlələrin yazıldığını müşahidə elədim: "Tək olan Allahdan başqa, heç bir Allah yoxdur, Məhəmməd (s) Allahın Peyğəmbəri və onun elçisidir. Məhəmmədi (s) Əlinin (ə) vasitəsi ilə təsdiqlədim və onunla yardım etdim.""***[5]

Qeyd edilən bu hədis əhli-sünnənin müxtəlif kitablarında nəql edilmişdir. Həmin kitabları diqqət edin:

---

*1. «Ər-Riyaz», c.2, səh. 172 («Əl-Qədir», c.2, səh. 50-də nəql edilənlərə uyğun olaraq).*

*2. «Durrul-mənsur», c.3, səh. 199 («İhqaqul-həqq», c.3, səh. 194-də nəql edilənlərə əsasən).*

*3. «Yənabiul-məvəddəh», səh. 94 («İhqaqul-həqq», c.3, səh. 194-də nəql edilənlərə əsasən).*

*4. «Kifayətut-talib», səh. 110 («İhqaqul-həqq», c.3, səh. 194-də nəql edilənlərə əsasən).*

*5..»Bağdad tarixi», c.11, səh. 173 («Əl-Qədir», c.2, səh. 50-də nəql edilənlərə uyğun olaraq).*

1. "Zəxairul-uqba"[1]
2. "Mənaqibu Xarəzmi"[2]
3. "Fəraidu Həmmuyi"[3]
4. "Xəsaisul-kubra"[4] və digər kitablar.[5]

Həzrət Əlinin (ə) adının ərşin sütunlarında yazılmasını söyləməyin özü həmin məsələnin əhəmiyyətli olmasını bildirir və Allah və onun Rəsulunun (s) adından sonra həzrət Əlinin (ə) adının ərşin sütunlarında yazılması o həzrətin Peyğəmbərə (s) yardım edən ilkin şəxs və müsəlmanların ən üstünü olmasını göstərir. Təbiidir ki, əgər Allah Peyğəmbərə (s) canişin seçmək istəsə, belə bir şəxsi nəzərdə tutacaqdır və əgər müsəlmanlar da bir şəxsi canişin kimi seçmək istəsələr, əqlin hökmünə əsasən, həzrət Əlinin (ə) ardınca getməlidirlər.

## *Ayənin verdiyi mesajlar*

### *İslamı bütün qüvvə ilə müdafiə etmək*

Qeyd edilərə diqqət etməklə həzrət Əlinin (ə) əldə etdiyi qeyri-adi məqamların Peyğəmbəri (s) himayə etmək sayəsində hasil olduğu məlum olur. Əmirəl-möminin (ə) bütün bu məqamları İslam rəhbərini müdafiə etdiyi üçün əldə etmişdir. İslamın süquta uğrayacağı və ona zərbə dəyəcəyi mühüm anlarda biz həzrət Əlini (ə) bütün qüvvəsi ilə döyüş meydanında mübarizə apardığının şahidi oluruq. Məsələn, "Ühüd" döyüşündə hamı Peyğəmbəri (s) meydanda tək qoyaraq qaçır və təkcə həzrət Əli (ə) düşmənlə döyüşü davam etdirir. Onun Peyğəmbərdən (s) xəbəri yoxdur, amma bilir ki, o həzrət düşmənlərə arxa çevirərək meydandan qaçacaq biri deyil. Döyüşə davam etməklə yanaşı, o, Peyğəmbəri (s) axtarmağa başlayır. Meydanın bir hissəsində o həzrətin dişlərinin sındırıldığını və mübarək alnından qan axdığını gördükdə, pərvanə kimi onun başına dolanır və təklikdə Peyğəmbəri (s) müdafiə edir və çoxlu sayda yaralar alır.[6] O həzrətin şiələri də mal, can, əxlaq və bütün qüvvələri ilə çalışaraq İslamı müdafiə etməlidirlər ki, qiyamət günü Peyğəmbər (s) yanında və o həzrətin qarşısında başı uca olsunlar və xəcalət çəkməsinlər.

---

*1. «Zəxairul-uqba», səh. 69 («Əl-Qədir», c.2, səh. 50-də nəql edilənlərə uyğun olaraq).*
*2. «Mənaqibu Xarəzmi», səh. 254 («Əl-Qədir», c.2, səh. 50-də nəql edilənlərə uyğun olaraq).*
*3. «Fəraidu Həmmuyi», bölmə 46 («Əl-Qədir», c.2, səh. 50-də nəql edilənlərə uyğun olaraq).*
*4. «Xəsaisul-kubra», c.1, səh. 7 («Əl-Qədir», c.2, səh. 50-də nəql edilənlərə uyğun olaraq).*
*5. «Əl-Qədir», c.2, səh. 50-51-ə müraciət edin.*
*6. "Nurul-əbsar", səh. 96-97.*

# 4 “ELMUL-KİTAB” AYƏSİ

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَسْتَ مُرْسَلاً قُلْ كَفَى بِاللّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ

***“Kafirlər “Sən (Allahın) Peyğəmbər(i) deyilsən!” deyirlər. De: “Mənimlə sizin aranızda Allahın, həmçinin, kitab elminə malik kəsin (həqiqi Tövratın və İncilin maarifi və ya bu Qur’anın elmləri ilə tanış olan hər bir kəsin) şahid olması kifayətdir!””***

*“Rəd” surəsi, ayə 43*

## *Bəhsə qısa bir nəzər*

Həzrət Əlinin (ə) vilayətinin isbat edilməsi üçün istifadə edilə bilən ayələrdən biri o həzrətin fəzilətləri ilə bağlı olan “Elmul-kitab” ayəsidir. Peyğəmbər (s) bu ayədə onun peyğəmbərlik iddiasının doğruluğuna şahid kimi iki nəfərin adını çəkir. Onlardan biri Allah, digəri isə yanında kitab elmi (elmi-kitab) olan kəsdir. Kitab elmi yanında olan şəxsdə məqsədin kim olması və Allahla həmin şəxsin şahidliyinin necəliyi barədə gələn bəhslərdə geniş şəkildə şərh veriləcək, amma ayənin şərh və təfsirindən öncə bir mətləbi müqəddimə olaraq bildirmək zəruridir.

## *Heç bir şeyi dəlilsiz olaraq qəbul etməyin!*

Quranın bütün müsəlmanlar və bütün insanlara mühüm və ən əsas təlimlərindən biri budur ki, heç nəyi dəlilsiz olaraq qəbul etməsinlər. Bəli, İslamın nəzərində hansısa bir məsələnin qəbulu üçün onu əsaslandıra bilən dəlillər olmalıdır. Quranda bu zəminədə dörd ayə mövcuddur. Həmin ayələr belədir:

**هاتُوا بُرهانَكُمْ** – Bu mövzu barəsində öz dəlillərinizi gətirin.[1]

Bu ayələrin xitabı bəzən yəhudi və nəsranilərdir və Allah Peyğəmbərə (s) buyurur ki, onlara belə de: "Əgər onlar öz iddialarında (cənnət təkcə yəhudi və nəsranilərə məxsusdur və onlardan başqa, heç kəs cənnətə getməyəcək) doğruçu və sadiqdirlərsə, öz dəlillərini göstərsinlər." Bəzən də bütpərəstlərə xitab olunur ki, onlar boş və əsassız iddialala bütlərə ibadət edirlər və bunun üçün də bir dəlil gətirməlidirlər, yoxsa, onların bu iddiası qəbulolunası deyil.

Eyni zamanda, həmin ayələrdən biri qiyamət gününə işarə edir, yəni orada da kiminsə bir iddiası olsa, ona dəlil gətirməlidir. Nəticədə, yuxarıdakı ayələrdən dünya və axirətdə hər hansı bir qövm və qrupun isbat etmək istədiyi mətləblə[2] bağlı dəlil gətirməsinin zəruriliyi anlaşılır. Əgər bu yüksək səviyyəli adət insanlar arasında yayılarsa, puç və əsassız sözlər və xürafatın qarşısı alınar və insanlar arasında münaqişə və ixtişaşlar özünün zirvə və kuliminasiya nöqtəsinə çamaz və həmin məsələlərdən müəyyən şəxslər öz mənafeləri üçün istifadə edə bilməz.

Buna əsasən, hətta İslam Peyğəmbərinin (s) özü də iddiasının

---

*1. Bu cümlə Quranın "Bəqərə" surəsi, 114-cü, "Ənbiya" surəsi, 24-cü, "Nəml" surəsi, 64-cü və "Qəsəs" surəsinin 75-ci ayələrində qeyd edilmişdir.*

*2.* **Sual:** *Müsəlmanlar dəlil tələb etmədən mərcəyi-təqlid aliminə necə təqlid edir və ona bütün məsələlərdə tabe olurlar. O, hansı fətvanı versə, dəlil göstərməsə də sözsüz ona tabe olurlar?* **Cavab:** *Dəlil və sübut iki qisimdir: A). Müfəssəl dəlil, B) İcmali dəlil. Üsulid-din məsələləri barədə müfəssəl dəlillərə ehtiyaclıyıq. Hər bir müsəlman Allah, Peyğəmbər (s), imam və məad barəsində özünə lazımı qədər məlumat toplamalı və bu məsələləri dəlilə əsasən qəbul etməlidir. Amma füruid-din məsələlərində müfəssəl dəlillərə ehtiyac yoxdur və bu mümkün də deyil. İnsanlar bu barədə xırdalığına qədər məlumat toplamaq istəsə, onda, digər işlərini kənara qoyaraq illərlə təhsil almalı və beləliklə elm öyrənməlidirlər. Bu cür addım cəmiyyətdə nizam-intizamın aradan qalxmasına gətirib çıxarar və mümkün olası deyil. Məsələn, xəstə bir şəxs müalicə üçün mütəxəssis, təcrübə və təhsilli bir həkimin yanına getdiyində, ondan bir-bir dəlil soruşmadığı kimi, dini məsələlərdə də insanlar təcrübəli, tədqiqatçı və hökmləri əldə etməkdə bacarıqlı və adil alimlərə müraciət edir. Nəticədə, insanlar dəlilsiz olaraq mərcəyi-təqlidə itaət və ona təqlid etmirlər, əksinə qeyri-mütəxəssisin mütəxəssisə müraciət etdiyi kimi ona tabe olurlar ki, bu da müfəssəl dəlil müqabilində icmali dəlildir.*

doğruluğuna mötəbər və hamının qəbul edə biləcəyi iki şahid və dəlil gətirir. Bu məsələlərə diqqət yetirməklə, ayənin şərh və təfsirirnə başlayırıq.

### *Şərh və təfsir*

### *Nübüvvətin şahidləri*

**وَيَقُولُ الذينَ كَفَرُوا لَسْتَ مُرْسَلا** – Kafirlər İslam Peyğəmbərinin (s) Allah tərəfindən göndərilmədiyini iddia edir və Quranın üslubuna uyğun olaraq ondan dəlil və şahid gətirməsini tələb edirdilər. Bu səbəbdən, Allah-taala ayənin davamında belə buyurur:

**قُلْ كَفى بِاللهِ شَهيد بَيْنى وَبَيْنَكُمْ وَمَنْ عِنْدَهُ عِلْمُ الْكتابِ** – Ey Peyğəmbər! De ki, sizinlə mənim aramda Allah və elmi-kitab yanında olan şəxsin şəhadəti kifayət edər. Yəni, mənim birinci şahidim Allah-taala və ikinci şahidim elmi-kitab (onun bir hissəsi deyil, hamısı) onun yanında olan şəxsdir. Bu iki şahid mənim peyğəmbərliyimə şahiddir və həqiqətdə, həmin şahidlər dəlil istəyənlər üçün kifayət edər.

### *Allahın şahidliyinin necəliyi (xüsusiyyəti)*

***Sual:*** Gözə görünməyən və heç kimin görə bilmədiyi Allah İslam Peyğəmbərinin (s) risalətinə necə şahidlik edir?

***Cavab:*** Allahın İslam Peyğəmbərinin (s) ixtiyarında qoyduğu möcüzələr onun risalətinin həqiqiliyinə şahiddir. Yoxsa, çətin ki, hikmət sahibi olan Allah yalançı bir Peyğəmbərin (s) ixtiyarında bir-iki deyil, yüzlərlə möcüzə qoymuş olsun və o da Allah bəndələrini haqq yoldan azdırsın. Halbuki, Allah bəndələrini azdırmaz. Deməli, Peyğəmbərin (s) ixtiyarında çoxlu sayda möcüzələrin qoyulması onun risalətinə bir şahiddir.

### *Yanında elmi-kitab olan şəxs kimdir?*

Bu zəminədə Əllamə Təbərsi "Məcməul-bəyan" əsərində üç nəzəriyyəni bəyan etmişdir:

1. **مَنْ عِنْدَهُ عِلْمُ الْكتابِ** ***(elmi kitab yanında olan şəxs)*** – Məqsəd Allah-taalanın özüdür. Həqiqətdə, bu cümlə **بِاللهِ** (billah) sözünü izah edən və ona ətf olunan (əlavə edilən) təfsirdir və hər iki söz eyni mənadadır. Nəticədə, bu ayədə Peyğəmbərin (s) risalətinin doğruluğu üçün birdən artıq şahid qeyd edilməmişdir və həmin şahid Allahdır.[1]

Bu nəzəriyyə rədd edilmişdir. Çünki ərəb dilinin qrammatik

*1. "Məcməul-bəyan", c.3, səh. 301.*

qanunlarına əsasən əlavə edilən cümlə (mətuf) say baxımından olmalıdır və əlavə edilmiş olan cümlə üzərinə əlavə edilən cümlədən (ətf) fərqli olaraq yeni bir mətləb olarsa, bu, qaydaya ziddir və qəbul olunmur. Həmin məsələ ərəb qrammatikası alimlərinin dediyi kimidir. Nə qədər ki, bunun əksini sübut edən yeni bir dəlil əldə olunmayıb, biz ayədəki mətləbin əvvəlki cümlənin təkrarı deyil, yeni bir mətləb olduğunu qəbul etməliyik. Bu səbəbdən, yuxarıdakı nəzəriyyə qəbul olunası deyil.

2. İkinci nəzəriyyəyə üstünlük verən insanlar birinci nəzəriyyəni rədd edir və ayədəki məqsədin əhli-kitabdan olan və İslamı qəbul edən bir qrup alim, o cümlədən, Abdullah ibn Salam[1] olduğunu deyirlər. O, yəhudi alimi, insaflı olmuşdur. Abdullah ibn Salam Tövratda sonuncu Peyğəmbərin (s) nişanələrini oxumuşdu və İslam Peyğəmbəri Məhəmmədi (s) gördükdə, həmin nişanələri o həzrətdə müşahidə edərək Allahın göndərdiyi peyğəmbər olduğunu qəbul etmiş və ona iman gətirmişdi. Əgər o, əvvəlki dini olan yəhudilikdə qalmış olsaydı, onlar arasında hörmət sahibi olar və maddi cəhətdən daha yaxşı təmin oluna bilərdi. Amma o, həqiqəti gördükdə, öz nəfsini ayağı altında qoyaraq İslama tərəf üz gətirdi. Nəticədə o, kitab elmi yanında olan şəxsdir, yəni Tövratda Peyğəmbərin (s) nişanələrindən xəbərdar olan insandır və ayədə Allah və Abdullah ibn Salam Peyğəmbərin (s) risalətinin doğruluğuna şahid olan kəslərdir. Başqa bir ifadə ilə desək, Allah və səmavi kitablar Peyğəmbərin (s) risalətinə şəhadət verirlər.

Bu nəzəriyyə də qəbul olunmur, çünki "Rəd" surəsi Məkkədə nazil olunan surələrdəndir və Abullah ibn Salam isə Mədinədə İslam dinini qəbul etmişdir. Deməli, bəhs etdiyimiz ayə nazil olarkən Abdullah ibn Salam hələ müsəlman deyildi ki, ayələr ona işarə etmiş olsun.

3. Bir çox təfsir, tarix, hədis və bunlara bənzər kitablarda işarə edilmiş üçüncü nəzəriyyədə kitab elmi yanında olan şəxsdəki məqsədin Əli ibn Əbu Talib[2] (ə) olduğu bildirilmişdir. Əhli-sünnənin qəbul etdiyi, Peyğəmbər (s) səhabəsi, müsəlman alimi və şiələrin də ona nisbətdə nikbin olduqları Əbu Səid Xudri belə deyir: "Mən Peyğəmbərin (s) xidmətinə yetişdiyimdə, o həzrətdən kitab elmindən bir qədər bilən şəxsdəki [3](الّذى عنده علم من الكتاب) məqsədin kim olduğunu soruşdum. Həzrət cavab verdi ki, məqsəd qardaşım Süleynmanın (ə) vəziri Asəf ibn Bərxiyadır. Sonra ""Rəd" surəsindəki "(من عنده علم الكتاب) elmi-

1. *Yenə orda.*

2. *"Məcməul-bəyan", c.3, səh. 301.*

3. *"Nəml" surəsi, ayə 40.*

kitab yanında olan kəs"dəki məqsəd kimdir?" – deyə sual verdim. Belə cavab verdi:

ذاكَ اَخى عَلِىُّ بْنُ اَبيطالِب

***"Məqsəd qardaşım Əli ibn Əbu Talibdir (ə)."***[1]

Bu rəvayəti Əbu Səid Xudridən başqa, Abdullah ibn Abbas, Səid ibn Cübeyr, Məhəmməd ibn Hənəfiyyə, Zeyd ibn Əli və digərləri də nəql etmişlər. Həmçinin, həmin rəvayəti nəql edənlərə Qurtubi[2], Süyuti[3], Əllamə Dəşti Şirazi[4], Tirmizi[5] və digərlərini də misal göstərmək olar.

Nəticədə, **(من عنده علم الكتاب)**"elmi-kitab yanında olan şəxs" cümləsinin ən yaxşı təfsiri həzrət Əli ibn Əbu Talibdir (ə).

## *Həzrət Əlinin (ə) şahid olmasının necəliyi (xüsusiyyəti)*

***Sual:*** Yuxarıdakı ayənin nazilolma səbəbləri barəsində qeyd edilən çoxlu rəvayətlərə əsasən, onun həzrət Əli (ə) haqqında olmasını qəbul etdik, amma qarşıya digər bir sual çıxır ki, onun Peyğəmbərin (s) risalət və nübüvvətinə şahidliyi necə və hansı şəkildədir?

***Cavab:*** Bu sualın cavabının aydın olması üçün iki misala diqqət yetirin:

a) Tanımadığı bir şəhərə daxil olan bir şəxsi təsəvvür edin. O, şəhər əhalisindən heç kəsi tanımır və namaz vaxtı camaat namazında iştirak etmək istəyərək həm namazın əvvəl vaxtının, həm də camaat namazının fəzilətini əldə etmək fikrindədir. O, heç kəsi tanımadığı halda, imam camaatın (pişnamazın) adil olmasını necə biləcək və ona necə iqtida edəcək? Bu yerdə fəqihlər deyirlər ki, əgər həmin şəhər əhalisinin müəyyən bir qisminin ona iqtida etdiyi məlum olsa, yəni müəyyən sayda yetişkin ruhanilərin və iqtida edənlərin (məmumların) pişnamaza iqtida etməsindən həmin şəxsin adil olmasına inanmaq olar.

b) Əgər biz elmli və hamının ehtiram göstərdiyi bir şəxsin bizim tanımadığımız bir müəllimin yanında əyləşərək dərs oxuduğunu görsək, şagirdin elm və fəzilətindən ustadın da fəzilətli olmasına

---

*1. «Yənabiul-məvəddəh», səh. 102 («İhqaqul-həqq», c.3, səh. 281-dəki nəqlə əsasən).*

*2. «Əl-Camiul-əhkamul-Quran», c.9, səh. 13 ("İhqaqul-həqq", c.3, səh. 280-dakı nəqlə əsasən).*

*3. "Əl-İtqan", c.1, səh. 13 ("İhqaqul-həqq", c.3, səh. 280-dakı nəqlə əsasən).*

*4. "Rovzətul-əhbab", c.1, "doqquzuncu ildəki hadisələr" ("İhqaqul-həqq", c.3, səh. 280-dakı nəqlə əsasən).*

*5. "Manaqibu-Murtəzəvi", səh. 49 ("İhqaqul-həqq", c.3, səh. 280-dakı nəqlə əsasən).*

inam gətiririk. Məsələn, Şeyx Ənsari və ya Əllamə Hilli kimi bir şəxsin Qomnami adlı ustad yanında dərs oxuduğunu müşahidə etsək, onların vasitəsi ilə ustadın əzəmətinə də inanırıq.

Qeyd etdiyimiz iki misala diqqət etməklə sualın cavabına nəzər salın:

Həzrət Əlinin (ə) şəxsiyyəti barədə mütaliə etdiyimiz zaman, onu bütün əxlaqi və insani sifətlərdə ən üstün bir şəxs olduğunu anlayırıq.

Həzrət Əlinin (ə) elm və biliyinin bir nümunəsi olan "Nəhcül-bəlağə"ni oxuyaraq onun barəsində təfəkkür etdikdə, adam onun bir insan beyninin məhsulu olduğuna inana bilmir. Bu səbəbdən, o həzrətin kitabını "Allah kəlamından aşağı, insan kəlamından üstün" ifadəsi ilə vəsf etmişlər. Həzrət Əli (ə) ən çətin və insanı heyrətdə qoyan qəzavət məsələlərini ən yaxşı həll üsülları ilə həll edir və məzlum insanların haqqını zalımlardan alırdı. Həzrət Əli (ə) vəsf edilməz ibadət və bəndəçiliyi ilə namazda sadəcə Allaha diqqət edir və onun barəsində düşünürdü. Həmçinin, adi halda onun üzərində tətbiq edilə bilinməyən müalicə fəqət namaz halında o həzrət üçün mümükün olmuşdu.

Onun döyüşlərdə göstərdiyi şücaətə diqqət etirdikdə, məlum olur ki, heç vaxt düşmənə arxa çevirməmiş və daim qələbə çalmışdır. Həzrət Əli (ə) elə bir şəxsiyyətdir ki, heç kəs onu ədalət yolundan xaric edə bilməmiş və sonunda həmin ədalət onun şəhadətinə səbəb olmuşdur.

Bəli, qeyd edilən bütün bu xüsusiyyət və keyfiyyətlər və o həzrətin özünü dinin təbliğinə həsr etməsi və Peyğəmbərin (s) köməkçisi hesab etməsindən İslam Peyğəmbərinin (s) risalətinə şahid olması məlum olmurmu? Nəticədə, həzrət Əli (ə) Peyğəmbərin (s) nübüvvətinə şəhadət verən ikinci bir şəxsdir. Bu şəhadət o qədər mühüm və əhəmiyyətlidir ki, əgər Peyğəmbər (s) öz nübüvvətinin doğruluğuna digər bir şahid gətirə bilməsə idi, həzrət Əlinin (ə) şahidliyi təklikdə kifayət edərdi.

## *Asəf ibn Bərxiya ilə Əli ibn Əbu Talibin (ə) müqayisə edilməsi*

Asəf ibn Bərxiya həzrət Süleymanın (ə) vəziri idi və onunla bağlı məlumat "Nəml" surəsində bildirilmişdir və həmin hadisənin şərhi belədir:

"Səba hökmdarı (mələkəsi) həzrət Sülymana (ə) təslim olduğu və ona tərəf hərəkət etdiyində, həzrət Süleyman (ə) insan və cinlərdən olan köməkçilərinə xitab edərək dedi ki, sizlərdən hansının Səba hökmdarı bizə təslim olmamış və hüzurumuza gəlməmişdən qabaq,

onun taxtını bura gətirə bilər?

Cinlərdən olan biri cavab verdi ki, mən onu sizin yanınıza gətirərəm, amma bir az zamana ehtiyac var və sizin bu məclis qurtarana qədər mənə vaxt verin. Həzrət Süleyman (ə) buna razı olmadı və onun qeyri-adi işləri həyata keçirdiyi və elmi-kitabdan bir şey bilən vəziri (Asəf ibn Bərxiya) dedi ki, siz gözününzü yumub-açana qədər mən o taxtı gətirərəm. Həzrət Süleyman (ə) gözünü yumub-açıncaya qədər həmin taxtı öz yanında hazır gördü. Süleyman Peyğəmbər (ə) bütün bu nemətlərin Allahdan olduğunu etiraf edərək şükr elədi."[1]

Asəf ibn Bərxiya elmi-kitabdan az bir şey və ismi-əzəmdən bir qədər bilirdi və onun köməyi ilə belə qeyri-adi bir işi həyata keçirdi. Elmi-kitabın hamısını və bütün ismi-əzəmləri bilən həzrət Əlinin (ə) qüdrəti Asəf ibn Bərxiya ilə müqayisə olunasıdırmı? Bu bəhslərdən imamların təkvini vilayətinə də iman gətirmək olar, çünki bu məsələ, nəuzubillah, onların yerlər və göylərin yaradıcısı mənasında deyil, əksinə onlar Allahın izni ilə varlıq aləmində təsərrüf və təsir qüvvısinə malikdirlər. Necə ki, Asəf ibn Bərxiya həmin məsələlərə qadir idi.

---

*1. Asəf ibn Bərxiya barəsində verilən şərh "Nəml" surəsinin 38-39-40-cı ayələrindən idi.*

## 5, 6 “MÜƏZZİN” (AZAN VERƏN) VƏ “AZAN” AYƏSİ

**وَنَادَى أَصْحَابُ الْجَنَّةِ أَصْحَابَ النَّارِ أَن قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقًّا فَهَلْ وَجَدتُّم مَّا وَعَدَ رَبُّكُمْ حَقًّا قَالُواْ نَعَمْ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَن لَّعْنَةُ اللّهِ عَلَى الظَّالِمِينَ**

***“Cənnət əhli cəhənnəm əhlini səsləyəcəklər ki: “Biz Rəbbimizin bizə vəd etdiyini doğru və sabit gördük, siz də Rəbbinizin sizə vəd etdiyi şeyi haqq və sabit gördünüzmü?” (Cəhənnəmdəkilər) deyəcəklər: “Bəli!” Belə olduqda, onların arasında bir carçı səslənəcək ki: “Allahın lənəti olsun zalımlara!””***

*“Əraf” surəsi, ayə 44*

**وَأَذَانٌ مِّنَ اللّهِ وَرَسُولِهِ إِلَى النَّاسِ يَوْمَ الْحَجِّ الأَكْبَرِ أَنَّ اللّهَ بَرِيءٌ مِّنَ الْمُشْرِكِينَ وَرَسُولُه**

“Həmçinin, (bu ayələr) Allah və onun Peyğəmbəri tərəfindən (bütün) insanlara böyük həcc günündə (qurban bayramı günü, yaxud hicrətin doqquzuncu ilində müşriklərlə müsəlmanların həcc əməllərini birlikdə yerinə yetirdikləri böyük həcc günü) bir bildirişdir ki: “Allah və onun Peyğəmbəri müşriklərdən uzaqdırlar (onlarla heç bir əhd-peymanları yoxdur).””

*“Tövbə” surəsi, ayə 3*

### Bəhsə qısa bir nəzər

“Müəzzin” kəlməsi Quranda iki yerdə istifadə edilmişdir. Birincisi, “Əraf” surəsinin 44-cü ayəsindədir və axirət aləmi ilə əlaqədar işlənmişdir, ikincisi isə “Yusif” surəsində qeyd edilmişdir ki, bir xəbərin elan edilməsi ilə bağlıdır. Bizim zamanımızda “azan” sözü “namaz vaxtının bildirilməsi” mənasında işlədilir, amma ərəb lüğətində bu söz hər hansı bir məsələnin elan edilməsi ilə əlaqədar istifadə edilir. Məsələn, təhdid etmək, müharibə elan etmək və bəzən də namaz vaxtının elanı kimi hallara şamildir. Başqa sözlə, azan hansısa bir mesajı aşkar şəkildə elan etmək mənasında işlənir. Deməli, “azan” sözü təkcə namaza aid deyil, əksinə onun geniş mənası vardır.

## *“Əraf” surəsi, 24-cü ayənin şərh və təfsiri*

## *Cənnət əhli ilə cəhənnəm əhlinin bir-biri ilə söhbəti*

“Müəzzin” ayəsinin daha yaxşı aydın olması üçün ondan öncə olan bir neçə ayədən başlamaq lazımdır:

وَالَّذينَ آمَنُوا وَعَمِلوُا الصّالِحاتِ لاَ نُكَلِّفُ نَفْساً اِلاّ وُسْعَها اُولئِكَ اَصْحابُ الْجَنَّةِ هُمْ فيها خالِدُونَ

***“İman gətirib saleh əməllər edən kəslər – əlbəttə, biz, heç kəsi qüdrətindən artıq vəzifəi yükləmərik – onlar cənnət əhlidirlər və orada əbədi olaraq qalacaqlar.”***

Yuxarıdakı cümlədə **(لاَ نُكَلِّفُ نَفْسا اِلاّ وُسْعَها)** kimi işlədilən mötərizə cümləsi (əlavə cümlə) iman və saleh əməlin yerinə yetirilməsi məsələsində hamının bərabər olmaması kimi mühüm bir məsələyə işarə edir və hər bir kəsin qüdrətinə uyğun olaraq ondan iman və saleh əməllər yerinə yetirməsi gözlənilir. Şübhəsiz ki, həzrət Əli (ə), Əbuzər, Salaman kimi şəxslərin imanı digərləri ilə eyni səviyyədə deyil və onlardan gözlənilən iman və saleh əməllər adi insanlardan gözlənilmir. Bir sözlə, öz qüdrət və zərfiyyətinə (tutumu) uyğun olaraq iman gətirib saleh əməllər edən şəxslər cənnətə daxil olaraq orada əbədi qalacaqlar.

**وَنَزَعْنا ما فى صُدُورِهِمْ مِنْ غِلٍ** – Allah-taala cənnətə daxil olmaq haqqına sahib olanların xüsusiyyətlərini bəyan etdikdən sonra, onlara cənnətdə ediləcək rəftar barədə izah verməyə başlayır. Onlarla bağlı görüləcək birinci iş, qəlblərindəki həsəd və kinin onların qəlbindən silinməsidir ki, bir-biri ilə xoş və səfalı həyat sürə bilsinlər.**(غِل)** “Ğillin” sözü otların altından məxfi şəkildə hərəkətdə olan suya deyilir. Həsəd və kin də insanın qəlbində məxfi olduğu üçün həmin ifadə ayədə işlədilmişdir.

***Sual:*** Cənnət əhlinin qəlbində kin və həsəd vardırmı ki, Allah onların qəlbindən həmin şeyləri cənnətə daxil olduqlarında xaric edəcək?

***Cavab:*** Bəzi rəvayətlərdə hətta cənnət əhlində də həsəd və kinin çox az bir dərəcədə mövcud olması və əgər onu aşkar etməzlərsə, günah sayılmadığı və onun imanla heç bir ziddiyyət təşkil etmədiyi bildirilmişdir.[1] Allah-taala bu həddə olan həsəd və kini belə, cənnət əhlinin qəlbindən xaric edəcək ki, onlar bir-birinin kənarında kamil bir aramlıq və asayişdə yaşasınlar.

---

*1. “Əl-Mənar”, c.8, səh. 421 (“Nümunə təfsiri”, c.6, səh. 175-dəki nəqlə əsasən).*

**تَجْرِي مِنْ تَحْتِهِمُ الْأَنْهارُ** – Cənnət əhli elə bir evlər və qəsrlərdə yaşayırlar ki, onların altından arxlar axır, yəni həmin evlər çayların üzərində tikilmişdir. Bu məsələ Quranın bir çox ayəsində olan və ona işarə edilən mühüm nemətlərdəndir.[1]

**لَوْ لا أَنْ هَدانا اللهُ لَقَدْ جاءَتْ رُسُلُ رَبِّنا بِالْحَقِّ وَقالُوا الْحَمْدُ لِلّٰهِ الَّذِي هَدانا لِهٰذا وَما كُنّا لِنَهْتَدِيَ** – Cənnətdəkilər Allahın bu cür nemətlərini və onun lütflərini müşahidə etdikdən sonra şükür etmək üçün belə deyərlər: “Həmd və sitayiş bizi bu nemətlərə doğru yönəldən Allaha məxsusdur. Əgər Allah bizi hidayət etməsəydi, biz bu nemətlərə nail ola bilməzdik. Həqiqətən də, Allahın elçiləri haqqı gətirmişdilər.”

Bəli, cənnət əhli təşrii şəkildə peyğəmbərlər və övliyalar tərəfindən hidəyət olunmanı və göndərilən səmavi kitabların onların vucudunda (fitrətində) qoyulan bir cazibə ilə cənətə daxil olmalarına səbəb olduğunu və bunun Allaha məxsus lütf olduğunu bilir və etiraf edirlər.

**وَنُودُوا أَنْ تِلْكُمُ الْجَنَّةُ أُورِثْتُمُوها بِما كُنْتُمْ تَعْمَلُونَ**– Cənnət əhli bütün bu nemətlər və Allahın lütfü müqabilində şükür etdikdən sonra onlara “Bu nemətlər sizin etdiyiniz əməllərə xatirdir!” – deyə xitab edilər.

**رَبُّكُمْ حَقًّا قَدْ وَجَدْنا ما وَعَدَ رَبُّنا حَقًّا فَهَلْ وَجَدْتُمْ ما وَعَدَ وَنادى أَصْحابُ الْجَنَّةِ أَصْحابَ النّارِ أَنْ** – Cənnətdəkilər ora daxil olduqları zaman, ətraflarına baxar və dost-tanışlarına göz gəzdirərlər. Amma onlardan bəzilərini orada görməzlər. Onlar həmin şəxslərin cəhənnəmlik olaraq cənnətdən məhrumluğunu başa düşərlər və bu səbəbdən, onlara xitab edərək deyərlər ki, Allahın bizə vədə etdikləri və onun əsasında da iman gətirirb sleh əməlləri yerinə yetirməklə bizə verilən vədənin doğru olduğunu görərək cənnətə daxil olduq və Allahın vədəsində heç bir yanlışlığın olmadığını bildik. Siz də Allahın verdiyi vədənin haqq olduğunu bildinizmi? Sizə vədə edilmiş cəzaların gerçəkliyini anladınızmı?

**قالُوا نَعَمْ** – Cəhənnəm əhli cavabında deyər ki, bəli, biz Allahın bizə verdiyi əzab vədəsinin haqq olduğunu öz gözlərimizlə müşahidə etdik.

***Sual:*** Nə üçün cənnətdəkilər bu sualı cəhənnəm əhlindən soruşur?

***Cavab:*** Həmin məsələnin inamın daha da dərinləşməsi və əmin

*1. Allah-taala «Bəqərə» surəsi, ayə 25, 226; «Ali-İmran» surəsi, ayə 15, 136, 195, 198; «Nisa» surəsi, ayə 13, 57, 122 və «Maidə» surəsi, ayə12, 85, 119-da, həmçinin, Quranın digər ayələrində həmin nemətlərə işarə etmişdir. Bir sözlə, həmin ayələrin sayının 40-a yaxın olduğunu deyə bilərik.*

olmaq baxımından olması mümkündür. Doğrudur ki, cənnət əhli peyğəmbərlərin verdikləri xəbərlərə inanır və onun gerçəkləşəcəyini bilirdilər, lakin həmin məsələlərin tədqiq edilməsi sayəsində onların imanı daha da möhkəmlənirdi. Digər bir ehtimal bu sualın cəhənnəm əhlinin məzəmmət və danlanması üçün verilmiş ola biləcəyidir. Çünki cəhənnəmdəkilər dünyada möminləri məzəmmət edərərk onların iman və etiqadlarına məsxərə edirdilər. Beləliklə, bu sual bir növ, onlara verilən cavabdır.

**فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَنْ لَعْنَةُ اللهِ عَلَى الظَّالِمِينَ** – Cəhənnəm əhli ilə cənnət əhli arasındakı söhbət və danışıqlara son qoyulması üçün bir nəfərin son sözü deməsi zəruridir və bu zaman ilahi xəbəri gətirən şəxs fəryad edərək "Allah zalımlara lənət eləsin!" – deyir və beləliklə də, onlar arasındakı söhbət sona yetir.

## Müəzzin kimdir?

"Əraf" surəsinin 44-cü ayəsində işarə edilən müəzzin kimdir? Həmin xəbər verən və cənnət əhli ilə cəhənnəm əhli arasında, həmçinin, qiyamətdə sözü keçərli olan şəxs kimidir? Hamı tərəfindən səsi eşidilə bilən və cəhənnəmliklər və cənnətliklər arasındakı söhbətə son qoyan şəxs kim ola bilər?

***Cavab:*** Şiə və əhli-sünnə mənbələrində çoxlu sayda rəvayətlər vardır ki, həmin şəxsi həzrət Əli (ə) kimi tanıtdırır. Onların bir neçə nümunəsini diqqətinizə çatdırırıq:

1. Hənəfi və əhli-sünnə alimlərindən sayılan Hakim Həskani "Şəvahidut-tənzil" əsərində Məhəmməd Hənəfinin həzrət Əlidən (ə) nəql etdiyi bir hədisi belə nəql edir:

**أَنَا ذٰلِكَ الْمُؤَذِّنُ**

***"Qiyamət günü xəbər gətirən şəxs mənəm."***

Hakim Həskani İbn Abbasdan da belə bir rəvayəti nəql etmişdir: "Quranda həzrət Əlinin(ə) bir neçə adı qeyd edilmişdir ki, insanlar o adlarla tanış deyillər. Həmin adlardan biri "müəzzindir."" Bu rəvayəti İbn Abbas Peyğəmbərə (s) nisbət verməsə də, onu Peyğəmbərdən (s) eşitmiş olduğu məlumdur.[1]

2. Hafiz Əbu Bəkr Mərdəveyh öz kitabı "Mənaqib"də müəzzinin həzrət Əli (ə) olduğunu nəql etmişdir.[2]

3. Əhli-sünnənin məşhur təfsirçilərindən olan Alusi "Ruhul-məani" adlı əsərində İbn Abbasın belə dediyini nəql edir:

*1. "İhqaqul-həqq", c.3, səh. 394-dəki nəqlə əsasən.*

*2. Yenə orda, səh. 393-dəki nəqlə əsasən.*

اَلْمُؤَذِّنُ عَلِيٌّ كَرَّمَ اللهُ وَجْهَهُ

"Müəzzin həzrət Əlidir (ə)."[1]

4. "Yənabiul-məvəddəh" əsərinin müəllifi Şeyx Süleyman Qunduzi öz kitabında müəzzindəki məqsədin həzrət Əli (ə) olduğunu nəql edir.[2]

5. Mirməhəmməd Saleh Kəşfi Tirmizi də həmin məsələni "Mənaqib"də nəql etmişdir.[3]

## *Görəsən, müəzzin olmaq iftixar hesab edilirmi?*

***Sual:*** "Əl-Mənar" təfsirinin müəllifi Məhəmməd Rəşid Rza kimi təssübkeşliyə düçar olmuş ziyalılar bu ayə və onun barəsindəki rəvayətlərin təfsirinə yetişdikdə, deyirlər ki, ayədə nəzərdə tutulan şəxsin (müəzzinin) həzrət Əli (ə) olduğunu fərz etsək də, bu, iftixar sayılmır, çünki bir nəfər Allahın xəbərini bildirməlidir və burada kimin olması heç də önəmli deyil.

***Cavab:*** Bu əsassız sözlərin cavabı aydındır, yəni müəzzin Allahın əmri ilə hansısa bir xəbəri çatdırmaqda vəzifəli olan şəxsdir və o, ilahi xəbəri (özü də qiyamət günü) çatdırmaq və bəyan etmək kimi ağır vəzifə ilə vəzifələndirilmişdir. Xəbərin (Allahın lənəti zalımlara olsun) əhatə dairəsini nəzərə aldıqda, həmin şəxsin əhəmiyyətli bir şəxs olması və dünyada heç bir zülmə mürtəkib olmaması lazımdır. Çünki heç kəs özünə lənət göndərmək istəməz. Deməli, qiyamət günündəki müəzzin məqamı o qədər də sadə bir məqam deyil ki, onun öhdəsindən hamı gələ bilsin. Eyni zamanda, belə bir məqama yiyələnən kəsə böyük bir fəzilət nəsib olmuşdur. Görəsən, nə üçün əhli-sünnənin bəzi təfsirçiləri həqiqətlər müqabilində gözlərini yumur, Quranın həqiqətləri kənarından öz düşüncələrini qorumaq üçün yan keçir, bəzən də onu inkar edirlər?

## *"Bəqərə"surəsi, 3-cü ayənin şərh və təfsiri*

Həzrət Əlinin (ə) fəilətləri ilə bağlı olan ayələrdən biri hesab edilən və "Müəzzin" ayəsi ilə rabitəsi olan "Azan" ayəsinin təfsirinin anlaşılması üçün "Tövbə" surəsinin əvvəlinci ayələrinə qısa şəkildə nəzər salmaq lazımdır:

Hicrətin səkkizinci ilində Məkkə fəth edildi və bütpərəstlərin kökü vəhy ölkəsində kəsildi və hamı müsəlman oldu. İslam Peyğəmbərinin (s) həddən artıq mehribanlığı və onun müşrikləri bağışlaması və əfvi

---

*1. "Ruhul-məani", c.8, səh. 108 ("İhqaqul-həqq", c.3, səh. 393-dəki nəqlə əsasən).*

*2. "Yənabiul-məvəddəh", səh. 101 ("İhqaqul-həqq", c.3, səh. 393-dəki nəqlə əsasən).*

*3. "Mənaqibu Murtəzəvi", səh. 60 ("İhqaqul-həqq", c.3, səh. 393-dəki nəqlə əsasən).*

camaatın İslama isti münasibət göstərməsinə və dəsdə-dəsdə İslamı qəbul edərək Peyğəmbərin (s) nübüvvətini qəbul etməsinə səbəb oldu. Həmin il baş verən bütün hadisələri ilə nəhayət sona çatdı. Peyğəmbər (s) hicrətin doqquzuncu ilində Həccətül-vida kimi əzəmətli bir ibadəti yerinə yetirmək niyyətində idi, amma aşağıdakı məsələlər münasibəti ilə həmin məsələni təxirə salamlı oldu:

a) Ərəbistan yarımadasının müəyyən künc-bucağında qalmış bəzi bütpərəstlər Məkkəyə ziyarətə gəldiyində, bütpərəstliyin ortadan qaldırılmasına baxmayaraq, onlar Kəbəni təvaf edərkən öz əvvəlki bütlərinə məhəbbət səbəbi ilə cahiliyyət şüarları verirdilər.

b) Kəbəni lüt və çılpaq şəkildə təvaf etmək məsələsi tamamilə aradan qaldırılmamışdı və bütbəpərəstlərin bəzisi yenə də çılpaq şəkildə təvaf edirdi. Buna səbəb onların təfav etdikdən sonra paltarlarını hansısa bir fəqirə verməli olduqlarını güman etməsi idi və birdən artıq libası olmayan kəslər öz paltarlarını saxlamaq və ya müəyyən bir səbəbdən onu fəqirə verməmək üçün çılpaq şəkildə təvaf edirdi. Bəzən qadın ziyarətçilər bu işi əməli olaraq yerinə yetirirdilər. Siz həmin halda onların Məscidül-Həramın mənəvi ab-havasını necə korladıqlarını təsəvvür edin.

Bu məsələləri nəzərə alaraq Peyğəmbər (s) hicrətin doqquzuncu ilində öz fikrindən daşındı və "Tövbə" surəsinin ilkin ayələri nazil olaraq həcc mərasimində müşriklərə aşağıdakı dörd məsələni çatdırması üçün Peyğəmbərin (s) vəzifəli olduğunu bildirdi:

1.لا يَحجن ٱلْبَيْتَ مُشْرِكٌ – Hicrətin onuncu ilindən sonra heç bir müşrikin həcc etmək haqqı yoxdur və onlar Məscidül-Hərama daxil ola bilməzlər. Bütpərəstlərə qarşı mübarizə və onların aradan aparılması kimi məşhurlaşan Kəbə evi müşrik və bütpəəstlərin yeri deyil. Onlar şirkdən əl çəkməyənə qədər Kəbənin ətrafında təvaf etməməlidirlər!

2. وَلا يَطوفن بِٱلْبَيتِ عُرْيانٌ – Bundan sonra kiminsə Kəbənin ətrafında lüt şəkildə təvaf etməsi qadağandır və kimsə Məscidül-Həramın mənəvi və mələkuti mühitini poza bilməz!

3وَلايَدْخُلَ ٱلْبَيْتَ اِلاّ مُؤمِنٌ – Keçmişdə (hazırda həmin iftixar bəzi xüsusi şəxslərə nəsib olur) indikinin əksinə olaraq istər müsəlman olsun, istərsə də müşrik, bütün insanlar Kəbənin içinə daxil ola bilirdilər. Bu ayənin nazilindən sonra həmin haqq müşriklərdən alındı və onların daxil olması qadağan edildi.

4. وَمَنْ كانَتْ لَهُ مُدةٌ فَهُوَ اِلى مُدته وَمَنْ لَمْ يَكُنْ لَهُ مُدةٌ فَمُدتُهُ اَرْبَعَةُ اَشْهُر – Peyğəmbərlə (s) düşmənçilikdən əl çəkmək barəsində müqavilə

imzalamış müşriklərə (müqavilədə müddət nəzərdə tutulmamışdı) dörd ay maddətində İslamı qəbul etməsi və öz şirklərindən əl çəkmələri üçün vaxt verilir və bundan sonra onlarla Peyğəmbər (s) arasında heç bir müqavilə yoxdur. Amma müqavilələrində müəyyən bir müddət nəzərdə tutlan, lakin vaxtı hələ bitməmiş və vədələrinə xilaf çıxmayaraq düşmənlərlə əlbir olmayan müşriklərin müqavilələri müddət bitənə qədər keçərlidir.[1]

Peyğəmbər (s) hicrətin onuncu ilində bu xəbəri həcc mərasimində müşriklərə bildirməli idi və o, bu məqsədlə Əbu Bəkri təyin etdi və o, Məkkəyə tərəf yola düşdü. Bir müddət sonra Cəbrayıl nazil olaraq dedi ki, bu məsələni ya özün, ya da sənin kimi olan bir şəxs çatdırmalıdır, nəinki, başqası.

Bu səbəbdən, Peyğəmbər (s) həzrət Əlini (ə) çağırtdıraraq "Tövbə" surəsinin ayələrini Əbu Bəkrdən alması və həmin xəbərləri müşriklərə bildirməsi üçün göndərdi. Həzrət Əli (ə) Peyğəmbərin (s) göstərişinə əsasən, ayələri Əbu Bəkrdən aldı və onu həcc mərasimində müşriklərə bəyan etdi.[2]

Mərhum Təbərsi bu barədə belə yazır:

**اجمع المفسّرون و نقلة الاخبار انّه لمّا نزلت برائة رفعها رسول الله) صلى الله عليه وآله وسلم (الى ابيكر، ثم اخذها منه و دفعها الى علىّ بن ابطالب**

***"İslam aləminin bütün mühəddis və müfəssirləri (təfsirçiləri) – istər şiə olsun, istərsə də sünni – "Tövbə" surəsinin həcc mərasimində oxunması üçün Peyğəmbər (s) tərəfindən Əbu Bəkrə verildiyi və sonra da ondan alınaraq həmin vəzifəni yerinə yetirmək üçün həzrət Əliyə (ə) tapşırıldığına dair fikir birliyinə malikdirlər."[3]***

"Məcməul-bəyan"da deyilənlərdən də bu barədə nəql edilən hədislərin həddən artıq olması bəlli olur və təkcə "İhqaqul-həqq" kitabında əhli-sünnənin qırx kitabından hədislər nəql edilmişdir.[4]

## Cüzi məsələlərdə ixtilaflar

Əlbəttə, yuxarıdakı rəvayətlərin cüzi məsələlərində ixtilaflar mövcuddur və biz onlardan bir neçəsini diqqətinizə çatdırırıq:

Bəzi rəvayətlərdə Peyğəmbərin (s) həzrət Əlini (ə) özünün "Qəzbi" adlı xüsusi dəvəsinə mindirərək yola salır və o, Mədinənin yaxınlığındakı Şəcərə məscidində – həmin yer həcci-təməttö və ümrə

---

*1. «Nümunə təfsiri», c.7, səh. 289.*

*2. Həmin yerdə, səh. 275..*

*3. "Məcməul-bəyan", c.3, səh. 3.*

*4. "İhqaqul-həqq", c.3, səh. 428-dən sonra.*

üçün miqat (ehram libasını geyinmək yeri) sayılır – Əbu Bəkrə yetişərək Peyğəmbərin (s) göstərişini bildirir. O, çox narahat olaraq Mədinəyə geri dönür və Peyğəmbərin (s) yanına gələrək onun məzəmmət edilməsi barəsində Allahdan bir şeyin nazil olub-olmadığını soruşur (اَنْزَلَ فِيَّ شَيْءٌ). Peyğəmbər (s) Allahın ona belə əmr etdiyini bildirir:

اَنْ اُبَلِّغُهُ اَنَا اَوْ رَجُلٌ مِنْ اَهْلِ بَيْتى

***"Həmin işi ya mən, ya da Əhli-beytimdən olan bir şəxs yerinə yetirməlidir."***[1]

Nəticədə, təyin edilən birinci şəxsin dəyişdirilməsini Peyğəmbər (s) deyil, Allah əmr etmişdir və həzrət Əlinin (ə) həmin vəzifəni yerinə yetirməsi ilə o həzrətin həcc mərasimi ilə bağlı narahatçılığı – ona əvvəldə işarə etmişdik –ortadan qalxmış, Kəbənin bütpərəstlik və şirkin son qalıqlarından təmizlənməsi həyata keçmiş və İslam Peyğəmbərinin (s) Həccətül-vida üçün müqəddimə işlərinin görülməsinə hazırlığı başlamış oldu.

## Şərh və təfsir

### *Müşriklərə ciddi xəbərdarlıq*

**بَراءَةٌ مِنَ اللهِ وَرَسُولِه اِلَى الذينَ عاهَدْتُمْ مِنَ الْمُشْرِكينَ** – Bu, Allah və onun Rəsulunun (s) əhd bağlanılmış olan müşriklərdən uzaq olduğunu bildirən bir xəbərdarlıqdır. Bu andan etibarən, müsəlmanlarla müşriklər arasında müddəti nəzərdə tutlmamış sazişlərin ləğv olunduğu bildirilir.

**فَسيحُوا فِى الْاَرْضِ اَرْبَعَةَ اَشْهُرٍ وَ اعْلَمُوا اَنَّكُمْ غَيْرُ مُعْجِزِى اللهِ وَاَنَّ اللهَ مُخْزِى الْكافِرينَ** – Odur ki, (ey müşriklər, bu nifrət bildirişinin elan olunmasından sonra) dörd ay yer üzündə (azad) gəzin və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz (onun qüdrətindən yaxanızı qurtara bilməzsiniz) və Allah kafirləri xar edəndir!

***Sual:*** Nə üçün Peyğəmbər (s) müşriklərlə öz müqavilələrini pozdu? Əhdin (müqavilənin) pozulması o həzrətin bütün müqavilələrinə şamildirmi?

***Cavab:*** Sonrakı ayələrdən başa düşülür ki, bu məsələ xüsusi bir müddət nəzərdə tutulmayan, vaxtı çatmış müqavilələr və ya vaxtı hələ bitməyən, lakin müşriklərin öz vədələrinə xilaf çıxaraq İslam və müsəlmanlarla "Əhzab" və onun kimi döyüşlərdə düşmənlərə kömək etdikləri üçün aradan qaldırılan sazişlərə şamil idi. Amma müddəti

*1. «Xəsaisun-Nəsai», səh. 28 («Nümunə təfsiri», c.7, səh. 276-dakı nəqlə əsasən).*

bitməyən və sahiblərinin də vədəyə xilaf çıxmadıqları müqavilələr hələ də qüvvədə qalmaqda idi və bu surədə istisna edildiyi kimi, Peyğəmbər (s) və müsəlmanlar ona ehtiramla yanaşırdılar. Çünki İslamın nəzərində düşmənlə belə olsa, bağlanan müqavilələr ehtirama layiqdir və məsləhətə əsasən, onlarla saziş imzalamaq lazım gələrsə, həmin müqaviləyə uyğun olaraq əməl edilməlidir.

وَاَذانٌ مِنَ اللهِ وَرَسُولِه اِلَى النّاسِ يَوْمَ الْحَجِّ الْاَكْبَرِ – Həmçinin, (bu ayələr) Allah və onun Peyğəmbəri (s) tərəfindən (bütün) insanlara böyük həcc günündə (Qurban bayramı günü, yaxud hicrətin doqquzuncu ilində müşriklərlə müsəlmanların həcc əməllərini birlikdə yerinə yetirdikləri böyük həcc (həcci-əkbər) günü) bir bildirişdir ki, "Allah və onun Peyğəmbəri (s) müşriklərdən uzaqdırlar (onlarla heç bir əhd-peymanları yoxdur)!"

"Həcci-əkbər" sözü barədə müxtəlif təfsirlər mövcuddur, amma onların ən yaxşısı həmin sözdəki məqsədin "həcci-təməttö" – bu həcdə Ərəfat, Məşərül-həram, Mina, qurban kəsilən yer və şeytana daş atılması (rəmy cəmərat) kimi yerlərdə dayanılmalıdır – olamsıdır. "Həcci-əsğər" isə təməttö ümrəsidir.[1] Hər halda, Allah və onun Rəsulunun (s) hicrətin doqquzuncu ilində həcci-təməttö zamanı edilən elanın nə olmasını bilmək lazımdır. Ayənin davamına diqqət yetirin:

اَنَّ اللهَ بَرِىءٌ مِنَ الْمُشْرِكينَ وَرَسُولُهُ – Allah və onun Rəsulu (s) bütün müşriklərdən uzaq olduğunu bildirir və bu baxımdan, müqavilələr ləğv edilir. Nəticədə, müşriklərin öz şirklərindən əl çəkərək müqəddəs İslam dini və tövhidi qəbul etməkdən başqa, ikinci bir yolları yoxdur!

فَاِنْ تُبْتُمْ فَهُوَ خَيْرٌ لَكُمْ– Müqavilələri ləğv edilmiş olan müşriklər əgər bütpərəstlikdən əl çəksə və tövbə edərək İslam dinini qəbul etsələr, bu, onlar üçün daha xeyirlidir. Çünki bu yolla həm onların dünyadakı əmin-amanlığı, həm də İslam dininin qaydalarına əməl etmək, vacib əməlləri yerinə yetirmək və haramlardan çəkinmək sayəsində axirət səadəti təmin edilər.

وَاِنْ تَوَلَّيْتُمْ فَاعْلَمُوا اَنَّكُمْ غَيْرُ مُعْجِزِى اللهِ وَبَشِّرِ الَّذينَ كَفَرُوا بِعَذابٍ اَليمٍ – Əgər tövbə etməsəniz və öz şirk əməllərinizdə inadkarlıq göstərsəniz, bilin ki, Allahın qüdrətindən yaxa qurtara və onu aciz edə bilməzsiniz! Bundan əlavə, sizi Allahın əzabı da gözləyir.

---

*1. "Həcci-əkbər" sözünü Qurban bayramı və Ərəfə günü kimi də təfsir edirlər. Daha artıq məlumat üçün "Məcməul-bəyan", c.2, səh. 5, "Kəşşaf təfsiri", c.2, səh. 5-244-ə müarciət edin.*

## *Görəsən, bu vəzifə fəzilətdirmi?*

***Sual:*** Deyilənlərə uyğun olaraq, görəsən bu məsələ – əvvəlcə Əbu Bəkrə tapşırılan, sonra isə ondan alınaraq həzrət Əliyə (ə) verilən vəzifə – Peyğəmbər (s) tərəfindən "Tövbə" surəsinin ilkin ayələrini həcc mərasimində müşriklərə təbliğ etməklə vəzifələndirilən həzrət Əli (ə) üçün fəzilət hesab edilirmi?

***Cavab:*** Bu fəziləti dəyərdən salmaq istəyən təəssübkeş şəxslərdən bir qrupu demişlər ki, vəzifələndirilmiş şəxsdən tapşırığı geri almaq ərəblər arasında mövcud olan bir adətdir. Yəni, ərəblər arasında belə bir adət var ki, bir nəfəri xəbər vermək üçün göndərən şəxsin ya özü, ya da onun hli-beytindən olan biri həmin xəbəri çatdırmalıdır. Bu cəhətdən, Peyğəmbər (s) də Əbu Bəkri həmin vəzifədən kənarlaşdırdı və həzrət Əlini (ə) onun yerinə təyin etdi və nəticədə, bu vəzifə həzrət Əli (s) üçün fəzilət hesab olunmur.[1] Amma insaflı olaraq demək lazımdır ki, bu sözlər aşağıdakı səbəblərdən, həqiqətdən uzaqdır:

***Birincisi,*** siz ərəblər arasında belə bir adətin olduğunu nəyə əsasən deyirsiniz? Harada belə bir məsələ qeyd edilmişdir? Görəsən, sadəcə ehtimala əsasən, belə mühüm bir fəziləti inkar etmək olarmı?

***İkincisi,*** ərəblər arasında belə bir adətin olduğunun sübut edildiyini fərz etsək belə, deməliyik ki, əvvəldə qeyd edilən bəzi rəvayətlərə əsasən, Peyğəmbər (s) Allahın əmri ilə o həzrəti bu məsələdə vəzifələndirmişdi. Nəticədə, belə bir vəzifənin həzrət Əli (ə) üçün fəzilət hesab edildiyini deməliyik, çünki Allah bir şəxsi Peyğəmbərə (s) canişin təyin etmək istəsə, insanların ən üstününü ona canişin təyin edər və əgər insanlar canişin seçmək istəsələr, əqlin tələbinə əsasən də, o həzrəti seçməlidirlər.

## *"Azan" və "Müəzzin" ayəsinin bir-biri ilə irtibatı*

Axirətdə insana savab və cəzaların verilməsi, həqiqətdə, onun dünyadakı əməllərinin nəticəsidir. Bu məsələ axirət dünyasının savab və cəzalarını insanın dünyadakı əməlləri ilə müqayisə etdikdə daha yaxşı anlaşılır. Böyük günahlardan hesab edilən riba (faiz) məsələsinə mürtəkib olan bir insanın axirətdə vəziyyəti məst olan adamın vəziyyəti kimidir. O, iradəsini əldən vermiş və normal şəkildə addım ata bilməz və yerə yıxılar. Buna səbəb onun riba almaqla cəmiyyətdəki iqtisadi tarazlığın pozulmasına yol açması olmuşdur. Deməli, riba ilə məşğul olan insanın axirətdəki vəziyyəti onun dünyada bu günaha mürtəkib

---

*1. "Əl-Kəşşaf", c.2, səh. 244.*

olmaqla cəmiyyətin tarazlığını pozmasının əks-təsiridir.[1]

Zalım insanların axirətdə zülmətdə olması və çıxış yolu tapa bilməməsinaə səbəb onların dünyada məzlumları çıxılmaz vəziyyətə salmalarıdır ki, onlar heç bir çıxış yolu tapmamışlar. Əgər axirətdə əlində çıraq tutduğu və onun nuru sayəsində asanlıqla cənnətə gedən bir şəxs olarsa, bu, onun dünyada bir çox insanı hidayət nuru ilə doğru yola yönəlməsinin nəticəsidir. Xülasə, axirət aləmindəki savab və cəzalar bizim özümümzün dünyadakı əməllərimizin əks olunmasıdır. Bu mətləbə diqqət etməklə deyə bilərik ki, "Tövbə" surəsində qeyd edilən ayələrə uyğun olaraq, əgər həzrət Əli (ə) dünyada Peyğəmbərin (s) müəzzinidirsə və onun verdiyi xəbərləri Məkkədə insanlara çatdırırsa, deməli, o həzrət axirətdə də müəzzindir və ilahi xəbəri axirətdəkilərə çatdıraraq zülm etdikləri üçün Allahın lənətinin zalımlara olmasını onlara bildirir. O həzrət axirətdə cənnət və cəhənnəm əhli arasındakı danışıqlara son qoyandırsa, buna səbəb o həzrətin sonuncu dəfə dünyada müşrik və bütpərəstlərə xitab etməsidir. Görəsən, bu fəzilətin dəyəri azdırmı? Hansısa bir insan, istər müsəlman olsun, istərsə də digər ilahi dinlərdən, belə bir fəzilətə yiyələnə bilmişdirmi?

## *"Bəraət" (tövbə) surəsini təbliğ etmək vəzifəsi verilən şəxslərin dəyişdirilməsindəki hikmət*

***Sual:*** Peyğəmbər (s) – qeyd edilənlərə əsasən – şiə və sünni olan bütün təfsirçilərin də fikir birliyinə görə, əvvəlcə Əbu Bəkri "Tövbə" surəsinin təbliği ilə vəzifələndirmiş, sonra isə həmin vəzifəni həzrət Əliyə (ə) tapşırmışdır. Görəsən, Peyğəmbər (s) öz işindən peşman olaraq belə bir addımı atmışdırmı? Yoxsa, hər iki məsələ – həm Əbu Bəkrin təyini, həm də onun geri alınaraq həzrət Əliyə (ə) tapşırılması olması Allahın əmri ilə idimi? Bir sözlə, vəzifəli şəxslərin dəyişdirilməsindəki hikmət nə idi?

***Cavab:*** Bu sualın cavabı aydındır. O həzrət hər bir işi agah və baxəbər şəkildə yerinə yetirmiş və camaatın nəzərini hamıdan fəzilətli təsəvvür etdikləri şəxsdən, həqiqətdə də, ən üstün olan şəxsə doğru yönəltmək istəmişdi. Bu səbəbdən, ilkin olaraq camaatın ən üstün təsəvvür etdiyi şəxsi – Əbu Bəkri bu məsələdə vəzifələndirmiş, sonra isə onu vəzifədən kənarlaşdıraraq həm Əbu Bəkrdən, həm də bütün müsəlmanlardan üstün olan bir şəxsə həvalə etmişdi.

Bu məsələ Peyğəmbərin (s) gördüyü birinci iş deyildi, əksinə

---

*1. Riba məsələsini geniş şəkidə mütaliə etmək üçün "Riba və islami banklar" əsərinə müraciət edin.*

dəfələrlə həmin məqsədlə ona bənzər müəyyən işləri həyata keçirmişdi. Məsələn, Xeybər qalasının fəthi məsələsində döyüş bayrağını birinci gün Əbu Bəkrə verir ki, bütün təlaşı ilə qalanı fəth eləsin, lakin o, bacarmır. İkinci gün də Ömərə bayrağı verir, o da kor-pşman geri qayıdır. Nəhayət, üçüncü gün belə buyurur:

"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, həm Allah və onun Rəsuluna (s) məhəbbəti var, həm də Allah və Rəsulu (s) onu sevir. O, daima düşmənə həmlə edən və əsla döyüşdən fərar etməyəndir. Həmin şəxs Xeybər qalasını fəth edəcək!"

Peyğəmbərin (s) məqsədinin kim olduğu başa düşən səhabələr dedilər ki, əgər həzrət Əlini (ə) nəzərdə tutursunuzsa, o, indi göz ağrısı xəstəliyinə mübtəla olmuşdur. Həzrət onun yanına çağırılmasına göstəriş verdi və həzrət Əli (ə) gəldikdə, Peyğəmbər (s) ağzının suyundan bir qədərini onun gözlərinə sürtdü və həzrət Əlinin (ə) gözləri şəfa tapdı. Növbəti gün Peyğəmbər (s) bayrağı həzrət Əliyə (ə) verdi və o, qalanı fəth elədi.[1] Görəsən, nə üçün Peyğəmbər (s) elə əvvəlcədən bayrağı ona deyil, digər səhabələrə vermişdi? Aydın məsələdir ki, həzrət Əlinin (ə) üstün və daha fəzilətli olduğunu digərlərinə bildirmək istəyirdi.

"Əhzab" (Xəndək) döyüşündə də müşrik və bütpərəstlərin qəhrəmanı Əmr ibn Əbdüvəd xəndəyi aşaraq müsəlmanlardan özü müqabilində döyüşçü istədikdə, həzrət Əlidən (ə) başqa, heç kəs, hazır olmadı. Peyğəmbər (s) ona birinci dəfə icazə vermədi. İkinci dəfə də məsələ təkrarlandı və həzrət Əlidən (ə) başqa, heç kəs döyüşə hazır olmadı və Peyğəmbər (s) ona yenə icazə vermədi. Əmr ibn Əbdüvəd üçüncü dəfə təhqirə keçərək dedi: "Döyüşçü tələb etməkdən yoruldum və səsim tutuldu, sizdən hansınız cənnətə getmək istəyir? Onu cənnətə göndərim." Bu dəfə də həzrət Əlidən (s) başqa, heç kəs irəli çıxmadı. Bu dəfə Peyğəmbər (s) ona icazə verdi və hamını heyrətə salacaq şəkildə o, Əmr ibn Əbdüvədə qalib gəldi.[2] Bu yerdə də Peyğəmbər (s) o həzrətin hamıdan üstün olduğunu bildirmək və cəmiyyət arasındakı mövqeyini möhkəmlətmək üçün bu qaydada əməl etdi.

---

*1. Bu hadisənin geniş şərhini "Furuğe əbədiyyət", c.2, səh. 248-dən mütaliə edin.*

*2. "Furuğe əbədiyyət", c.2, səh. 135-dən sonra.*

# 7 “MUHSİNİN” (YAXŞILIQ EDƏNLƏR) AYƏSİ

فَمَنْ اَظْلَمُ مِمَّنْ كَذَبَ عَلَى اللهِ وَكَذَّبَ بِالصِّدْقِ اِذْ جائَهُ اَلَيْسَ فى جَهَنَّمَ مَثْوًى لِلْكافِرينَ وَالَّذى جاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ اُولئِكَ هُمُ الْمُتَّقُونَ لَهُمْ ما يَشاؤُونَ عِنْدَ رَبِّهِمْ ذلِكَ جَزاءُ الْمحْسِنينَ

***“Belə isə kim Allaha iftira yaxandan (onun övladı və şəriki olmasına etiqadlı olandan) və həqiqət (peyğəmbərlik və sənin kitabın) ona çatanda onu təkzib edəndən daha zalımdır?! Bəyəm, cəhənnəmdə kafirlər üçün yer yoxdurmu?! Həqiqəti gətirən və onu təsdiq edən kəs, (özlərinin haqq dinlərini təsdiq edən tək-tək bütün Peyğəmbərlər, bəli,) əsl təqvalılar (və məsumluq məqamında olanlar) onlardır. [Yaxud: (İslam Peyğəmbəri (s) kimi) həqiqəti gətirən və (bu ümmətdən) onu təsdiq edən kəs – onların hamısı əsl təqvalılardır.]***

***Onlar üçün Rəbblərinin yanında istədikləri şey vardır. Budur yaxşı əməl sahiblərinin mükafatı!”***

*“Zumər” surəsi, ayə 32-34*

### *Bəhsə qısa bir nəzər*

“Zumər” surəsinin ayələrində iki dəstədən – ən zalım və ən sadiq (doğruçu) olanlardan söhbət açılır. Daha sonra zalımlara veriləcək cəza və sadiqlərə bəxş olunacaq mükafatlara da işarə edilir. Amma gələcək bəhslərdə izah etməli və aydınlaşdırmalı olduğumuz məsələ budur ki, “muhsin” ifadəsi ilə qeyd edilən ən sadiq insanda məqsəd kimdir? Bu sualın cavabını geniş şərhlərlə bildirəcəyik.

*Şərh və təfsir*

### *İnsanların ən zalımı*

**فَمَنْ أَظْلَمُ مِمَّنْ كَذَبَ عَلَى اللهِ وَكَذَّبَ بِالصِّدْقِ إِذْ جَاءَهُ** – Allah və onun Peyğəmbərinə (s) yalan bağlamaq kimi iki böyük günaha mürtəkib olandan daha zalımı kimdir? Şübhəsiz ki, bütün yalanlar pis və bəyənilməz, həmçinin kəbirə və böyük günahlardan sayılır, amma Allah və Peyğəmbərə (s) yalan nisbət vermək daha böyük günahdır və onun çox təhlükəli, pis və xoşagəlməz nəticələri vardır.

***Sual:*** Bütpərəstlər Allah və Peyğəmbərə (s) hansı yalanları nibət verirdilər?

***Cavab:*** Onların Allah və Peyğəmbərə (s) nisbət verdikləri yalanların bir qisminin şərhi belədir:

a) Mələkləri Allahın qızları hesab edirdilər.

b) Onların bəziləri Allahın bütpərəstlikdən razı olduğuna etiqad bəsləyir və bütlərin onlarla Allah arasında vasitə və şəfaətçi olduğunu düşünürdülər.

c) Müşriklərdən bəziləri Allahın övladı olduğunu güman edir və İsa Məsihi (ə) onun oğlu kimi qəbul edirdilər.

d) Bəzən hansısa bir şeyi halal və haram edir və bu işi yalandan Allaha nisbət verirdilər.

Bütün bu və onun bənzəri olan işlər Allaha yalandan nisbət verilən məsələlər idi və insanların hidayəti üçün göndərilmiş peyğəmbərlər həmin məsələləri təsdiqləmədiyi və onlarla mübarizə apardığı üçün Peyğəmbərin (s) risalətini inkar edirdilər. Həqiqətən də, bu insanlar ən zalım insanlardan hesab edilirlər. Onlar təkcə özlərinə deyil, bütün insanlar və asimani kitabların nurani kəlamlarına da zülm etmişlər. Özlərinə etdikləri zülm onların uydurduqları yalanlarla səadət və nicat yolunu öz əlləri ilə üzlərinə bağlamaları və cəhənnəm əhli sırasına keçmələri idi. Onların camaata etdiyi zülm digərlərinin azmasına da səbəb olmaları baxımından idi. Onlar təkcə özlərini deyil, digərlərinin də haqq yolundan azmasına bais olurdular. Belə şəxslər cəmiyyətdə bidətlərin yayılmasına səbəb olan şəxslər kimidir ki, onların qoyduqları bidətlər min illərlə, bəzən də qiyamətə qədər davam edir və əməl dəftəri açıq qalmış olur. Onlar hətta peşaman olsalar da, geriyə qayıdış və etdikləri səhvləri düzəltmək vəı bərpa etmək imkanına malik deyillər.

Bu kimi fərdlərin ilahi ayələrə etdikləri zülmü də təsəvvür etmək olar. “Əraf” surəsinin 103-cü ayəsində bu mətləbə işarə edilmişdir:

ثُمَّ بَعَثْنا مِنْ بَعْدِهِمْ مُوسى بِآياتِنا اِلى فِرْعَوْنَ وَ مَلاَيِهِ فَظَلَمُوا بِها فَانْظُرْ كَيْفَ كانَ عاقِبَةُ الْمُفْسِدينَ

***“O zaman onlardan (əvvəlki Peyğəmbərlərdən) sonra Musanı (ə) öz ayə və nişanələrimizlə Fironun və onun qövmünün başçılarının yanına göndərdik. Beləliklə, onlar o ayələrə zülm etdilər (onları qəbul etmədilər). Buna görə də, fəsad törədənlərin aqibətlərinin necə olduğuna nəzər sal!”***

Bu ayənin işarə etdiyi kimi, ayələrin – asimani kitablar və peyğəmbərlərin möcüzələrinin – inkarı və onun qəbul edilməməsi, bir növ, ilahi ayələrə edilən zülm hesab olunur, çünki camaatın hidayətinə səbəb olan bir məsələnin qarşısını aldıqda, bu zülm sayılır. Bundan əlavə, İslamı pis tanıtdıran və öz çirkin əməllərini İslam adı ilə həyata keçirənlər və islami qanunları öz şəxsi nəzər və düşüncələrinə əsasən təfsir edən kəslər, həqiqətdə, İslama zülm etmişlər. Xülasə, Allah və onun Rəsuluna (s) yalan bağlayan kəs insanların ən zalımıdır və onun cəzası da həddən artıq şiddətli olacaqdır. Ayənin davamında həmin məsələyə işarə edilmişdir.

أَلَيْسَ فِى جَهَنَّمَ مَثْوًى لِّلْكَافِرِينَ – Həm özləri, həm də cəmiyyət və ilahi ayələrə zülm edən kəslərin aqibəti cəhənnəmdir – kafirlərin yeri olan cəhənnəm! Ayədə zalımların yerinin cəhənnəm olmasını sual formasında bəyan edilməsinin özü diqqəti çəkən və düşündürücü bir məsələdir. Yəni, belə bir məskənin (cəhənnəmin) onların aqibəti olacağı hamı tərəfindən başa düşülə bilən bir mətləbdir.

وَالَّذِى جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ – Birinci qrupdan olanların müqabilində dayanan şəxslər, yəni həqiqəti gətirənlər və onların doğruluğunu təsdiqləyənlər ən pəhrizkar şəxslərdir. Bu ayədə “ətqa” (أتقى), yəni ən təqvalı, pəhrizkar kəlməsi işlənməsə də, ayədəki məqsədin pəhrizkarlar olduğunu iki dəlilə əsasən iddia etmək mümkündr. Həmin dəlillər belədir:

***Birincisi,*** qərinədir və birinci qrupun müqabilindəkilər ən zalımlardırlarsa, deməli, onların əksi ən təqvalı və pəhrizkarlardır.

***İkincisi,*** (هُمُ الْمُتَّقُونَ) kəlməsi burada həsr və məxsusluğu bildirir. Yəni, həmin şəxslər təkcə təqva əhli və həqiqi müttəqilərdir. Nəticədə, Quranda sadalanan savab, mükafat və digər məsələlər belə şəxslər üçün nəzərdə tutulmuş və onlara məxsusdur. Bu ayədə ümumi şəkildə

bildirilən və bütün mütttəqilərə nəsib olacaq mükafatlardan əlavə, xüsusi mükafatlar da nəzərdə tutulmuşdur. Sonrakı ayədə onun şərhi belədir:

لَهُمْ ما يَشاؤُونَ عِنْدَ رَبِّهِمْ ذلِكَ جَزاءُ الْمُحْسِنينَ – Pəhrizkar və müttəqilərin məqam və dərəcələri o qədər yüksəkdir ki, onlar üçün bitib-tükənməyən nemətlər nəzərdə tutlmuşdur və bu mükafat yaxşılıq edənlərindir, həmçinin, ondan üstün bir nemət təsəvvür edilməzdir.

## *Doğru sözü (həqiqəti) gətirənlər və onu təsdiq edənlər kimlərdir?*

***Sual:*** (الذى جاءَ بِالصِّدْقِ) "həqiqəti gətirən kəs" cümləsi və (الّذى صَدّقَ بِه) "onu təsdiqləyən kəs" cümləsindəki şəxs kimdir?

***Cavab:*** Birinci cümlədə məqsəd İslam Peyğəmbəri (s) və ikinci cümlədə isə həzrət Əlidir (ə). İkinci cümlə o həzrətin risalətini təsdiq edən bütün möminlərə şamil olsa da, şübhəsiz, onların başında həzrət Əli ibn Əbu Talib (ə) dayanır.

Yuxarıdakı mətləb şiə və sünni mənbələrində qeyd edilmişdir və biz onun bir neçə nümunəsinə işarə edirik:

1. Əhli-sünnənin məşhur alimlərindən biri olan Məğazəli "Mənaqib" əsərində tanınmış təfsirçi Mücahiddən belə nəql edir:

فى قَوْلِه تَعالى: الَّذى جاءَ بِالصِّدْقِ ; رَسُولُ اللهِ وَالَّذىصَدَّقَ بِه عَلِىٌّ

***""Haqqı gətirən" cümləsində məqsəd Peyğəmbər (s) və "onu təsdiq edən" cümləsində isə həzrət Əlidir (ə)."***[1]

2. İbn Əsakir də həmin məsələni nəql etmişdir.[2]

3. Əllamə Gənci də "Kifayətut-talib" əsərində bu mətləbi nəql etmişdir.[3]

4. Qurtubi də öz təfsirində ona işarə etmişdir.[4]

5. Əbu Həyyan Əndəlisi də bu təfsirə üstünlük vermişdir.[5]

6. Süyuti "Durrul-mənsur" əsərində həmin əqidəyə sahibdir.[6]

7. Tirmizi "Mənaqibu Murtəzəvi" əsərində bu məsələni qeyd

*1. "Mənaqib" ("İhqaqul-həqq", c.3, səh. 177-dəki nəqlə əsasən).*
*2. "İhqaqul-həqq", c.3, səh. 177.*
*3. "Kifayətut-talib", səh. 109 ("İhqaqul-həqq", c.3, səh. 177-dəki nəqlə əsasən).*
*4. "Əlcamiul-əhkamil-Quran", c.15, səh. 266 ("İhqaqul-həqq", c.3, səh. 178-dəki nəqlə əsasən).*
*5. "Əl-Bəhril-muhit", c.7, səh. 428 ("İhqaqul-həqq", c.3, səh. 178-dəki nəqlə əsasən).*
*6. "Durrul-mənsur", c.5, səh. 328 ("İhqaqul-həqq", c.3, səh. 178-dəki nəqlə əsasən).*

etmişdir.[1]

8. Alusi "Ruhul-məani" əsərində bu məsələni qəbul edən çoxlu saydakı əhli-sünnə alimlərdən biridir.[2]

## *Yeganə müxalif Fəxri Razidir*

Təfsirçilərin əksəriyyəti yuxarıdakı ayəni Peyğəmbər (s) və həzrət Əli (ə) ilə əlaqədar olduğunu söyləmişlər. Yalnız Fəxri Razi müxalifçilik bayrağı qaldıraraq belə demişdir: "İkinci cümlədəki məqsəd Əbu Bəkrdir, çünki o, "Siddiq" ləqəbi ilə tanınmışdır." Qazi Nurullah Şüştəri onun sözünə münasib bir cavb vermişdir. O, belə deyir:

"Fəxri Razidən əvvəl bu mətləb heç bir kitabda qeyd edilməmişdir və o, Peyğəmbərin (s) səhabəsi də deyildir. Belə olduğu təqdirdə, Fəxri Razi bu sözləri nəyə əsasən söyləmişdir?!" Nəticədə, bu sözlərin batil olduğunu bildirmək üçün şərh və təfsirə ehtiyac yoxdur.[3]

---

*1. "Mənaqibu Murtəzəvi", səh. 51 ("İhqaqul-həqq", c.3, səh. 178-dəki nəqlə əsasən*

*2. "Ruhul-məani", c.30, səh. 3 ("İhqaqul-həqq", c.3, səh. 178-dəki nəqlə əsasən*

*3. Bundan əlavə şiə və əhli-sünnə mənbələrində çoxlu sayda rəvayətlər vardır ki, "Siddiq" və "Faruq" sözünün müsəlmanlar arasında sadəcə həzrət Əliyə (ə) şamil olduğunu bildirir. Həmin rəvayətlərə əsasən, Peyğəmbər (s) belə buyurur:* **لكلّ امّة صديق و فاروق و صديق هذه الامّة و فاروقها علىّ بن ابىطالب** *Bu rəvayət "Biharul-ənvar", c.38, səh. 112, 212, 213, 216-da və onun digər cildlərində qeyd edilmişdir. Maraqlı burasındadır ki, həmin rəvayət "Əl-Qədir" kitabı, c.2, səh. 313-dən sonra əhli-sünnənin on kitabından nəql edilmişdir.*

# 8 “İLKİN QABAQCILLAR” AYƏSİ

وَالسَّابِقُونَ الأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالأَنصَارِ وَالَّذِينَ اتَّبَعُوهُم بِإِحْسَانٍ رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

***“Allah mühacirlərin və ənsarın (Peyğəmbərin – səlləllahu əleyhi və alihi və sələm – Mədinəyə hicrətindən qabaq iman gətirənlərin) ilk qabaqcıllarından və yaxşılıqla onlara tabe olanlardan razıdır və onlar da Allahdan razıdırlar və onlar üçün (ev və ağaclarının) altından çaylar axan cənnətlər hazırlamışdır və onlar orada əbədi qalacaqlar. Budur böyük uğur və qurtuluş!”***

*“Tövbə” surəsi, ayə 100*

## *Bəhsə qısa bir nəzər*

Ayədə üç qrupdan olan qabaqcıllardan söhbət açılaraq onlara müjdələr verilməsinə baxmayaraq, onların özləri arasında da qabaqcıl və hamıdan birinci olan bir şəxs vardır. Sonradan bildirəcəyimiz çoxlu saydakı rəvayətlərə əsasən, həmin şəxs Əli ibn Əbu Talibdən (ə) başqası deyildir.

### Şərh və təfsir

### İslamın qabaqcılları

**وَالسّابِقُونَ الأوَّلونَ مِنَ الْمُهاجِرينَ وَالأنصارِ وَ الذينَ اتبَعُوهُمْ بِاحْسان–** Bu ayədə üç qrupdan söhbət açılır:

***Birinci qrup: Mühacirlər.*** Onlar Məkkədə düşmənlərin şiddətli təzyiqi və əzab əziyyətinə məruz qalan və Peyğəmbərin (s) Mədinəyə hicrətindən sonra o həzrətin ardınca Mədinəyə yola düşərək öz yaxınları, qohum-əqrəbası və ev-eşiklərindən ayrılan və əli boş şəkildə Mədinəyə gedən müsəlmanlar idi. Onları bir çox təhlükələr gözləyirdi, məsələn, intiqam almaq və onları məhv etmək fikrində olan müşriklərin təhlükəsi, səfərdəki aclıq – çünki əli boş şəkildə hicrət edirdilər – qərib ölkədə işsiz, ev-eşiksiz qalmaq və s. bunlara bənzər təhlükələr. Amma həmin həqiqi müsəlmanlar bütün bu təhlükələri gözə alaraq hicrət etdilər. Hətta həmin müsəlmanlardan bəzilərinin vəziyyəti o qədər ağır idi ki, Məscidün-Nəbinin (Peyğəmbər məscidi) kənarında onlar üçün bir səki (yer) ayrılmışdı və onlar gecə və gündüz orada qalırdılar. Həmin şəxslər sonradan "Əshabi-suffə" adlanmağa başladılar. Həmin qrupdan olan insanlar fəqir və İslam yolunda hər cür xidmət və fədakarlığa hazır idilər.

***İkinci Qrup: Ənsar.*** Onlar Mədinədə İslamı qəbul etmiş və Peyğəmbəri (s) Mədinəyə dəvət edən müsəlmanlar idi. Ənsar Peyğəmbər (s) və mühacirlər üçün hər cür yardım və köməklik göstərəcəklərini bildirmişdilər. Hicrət edən mühacirlərə ənsardan olanlar ev-eşik verərək onları təmin edirdilər. Onlardan elələləri də vardı ki, öz ehtiyaclarını güclə təmin edirdi. Amma bununla yanaşı, mühacirlərə yardım edir və onlarla qardaş kimi dolanırdılar.

***Üçüncü qrup: Tabein.*** Mühacir və ənsardan sonra dünyaya gələn və onların yolunu davam etdirərək hər iki qrupa qoşulanlar tabein[1] adlanırdı. Bu təfsirə əsasən, tabein müsəlmanların ikinci bir nəslidir və qiyamətə qədər hər bir zaman və məkanda olan müsəlmanlara şamildir. Yəni, bizim əsr və zamanımızdakı müsəlmanlar da əgər

*1. Əlbəttə, «tabein» sözü əhli-sünnə hədis alimləri arasında başqa bir mənadadır və onun əhatə dairəsi məhduddur. Həmin söz Peyğəmbəri (s) görə bilməyən, amma o həzrətin səhabələrinin elmindən istifadə edən şəxslərə şamil edilir, nəinki, onların müasirləri olmasa da Ənsar və mühacirlərin yolunu davam edən kəslərə.*

müsəlmanlara yardım etmək və Allahın rizası üçün hicrət yolunu davam etdirərlərsə, "tabein" sözü bu ayədə qeyd edilənlərə uyğun olaraq onlara da şamil olar. Əvvəlki ayələrdə də qeyd edildiyi kimi, hicrət məsələsi təkcə İslamın əvvəllərindəki müsəlmanlara aid deyil, əksinə bütün müsəlmanlar üçün də həmin məsələ mövcuddur. Çünki hicrət günahdan itaətə və pisliklikl ərdən paklığa və zülmətdən nura doğru hərəkət etmək mənasındadır.

***Sual:*** Tabein barəsində işlədilən (بِإِحْسانٍ) "biihsanin" sözü hansı mənadadır?

***Cavab:*** Bu sözün mənası ilə bağlı iki cür təfsir mövcuddur:

Birincisi, mühacir və ənsarın dvamçıları təkcə söz və dildə deyil, əməldə də onların ardıcılı olmalı və hicrət və yardım yolunu davam etdirməlidirlər. Başqa sözlə desək, mühacir və ənsara doğru şəkildə tabe olaraq onların yolunu izləsinlər.

İkincisi, mühacir və ənsara bütün işlərdə deyil, sadəcə yaxşı işlərdə ardıcıl olsunlar. Çünki həmin şəxslərin arasında eləələri vardı ki, Peyğəmbər (s) üslubu və İslamın göstərişlərinə zidd olaraq hərəkət edirdi.

Əhli-sünnədən fərqli olaraq biz Peyğəmbərin (s) bütün səhabələrinin pak və məsum olmasına[1] etiqad bəsləmirik və yuxarıdakı ayə bizim etiqadımızın doğruluğuna dəlil gətirilə bilər. Nəticədə, tabein mühacir və ənsarın bütün əməl, rəftar və sözlərini deyil, onların yaxşı işlərini izləməlidir (örnək götürməlidir).

---

*1. Məkkəyə etdiyim sonuncu səfərlərimin birində (hicri-şəmsi 1380-ci il, Şaban ayında) Məkkənin əhli-sünnə alimlərindən bir qrupunun təklifinə əsasən, onlarla müəyyən qədər söhbətlər etdim. Həmin məclislərdə bəyan edilən məsələlrdən biri də səhabələrin ədalətli olması məsələsi idi. Mən onlara dedim ki, siz Peyğəmbərin (s) bütün səhabələrinin ədalətli olmasına etiqad bəsləyirsiniz, halbuki, «Cəməl» müharibəsinin yaranmasına səbəb olanlar o həzrətin səhabələri idi və on yeddi minə qədər insanın qətlinə səbəb olmuşdular. Bu qədər qanın məsuliyyəti kimlərin boynunadır?! Bir nəfərin qanı kiminsə boynunda olarsa, ondan haqq-hesab ediləcək, qaldı ki, on yeddi min nəfərin qanına bais olan kələr. Bunun müqabilində əhli-sünnənin bəzi alimləri dedilər ki, «Cəməl» müharibəsinin yaranmasına Təlhə, Zübeyr və Ayişə bais olsalar da, onlar döyüş başlamazdan əvvəl döyüşdən kənara çəkilmişlər və əlləri qana bulaşmayıb. Onların bu cavabının müqabilində dedim ki, bu iddianın düz olduğunu fırz edərək düşünün ki, bir insan od qalaya və özünü həmin oddan xilas edərsə, kifayətdirmi, onun heç bir məsuliyyəti yoxdurmu, yoxsa, məsuliyyətdən yaxa qurtarmaq üçün odu söndürməlidirmi? Daha sonra belə sual verdim ki, «Siffeyn» döyüşündə yüz mindən artıq müsəlman öldürüldü. Onların qanına cavabdeh olanlar kimlərdir? Dedilər ki, Müaviyyə müctəhid idi və öz istinbatında yanılmışdı və buna görə heç bir məsuliyyəti yoxdur. Cavab verdim ki, əgər istinbat bu qədər geniş və məsuliyyətsiz bir işdirsə, onda hamı öz istinbatında etdiyi səhvə görə cəzalanmamalıdır və heç kimə cəza vermək olmaz. Görəsən, sizin bu dediklərinizi ağıllı insanlar qəbul edərmi?*

ٱلْفَوْزُ ٱلْعَظِيمُ لَهُمْ جَنّات تَجْرى تَحْتَهَا الْأَنهارُ خالِدينَ فيها أَبد ذلِكَ رَضِىَ اللهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ وَأَعَد – Allah-taala üç dəstədən olan qabaqcılların adlarını çəkdikdən sonra onları əzəmətlə yad edir, maddi və mənəvi nemətlərdən söhbət açır.

Onların mənəvi nemətləri bunlardan ibarətdir: Həm Allahın onlardan razılığı, həm də onların Allahdan razı olması. Əlbəttə, Allahın onlardan razılığı məsələsi aydındır. Onlar İslama köməklik göstərmişlər və bu da Allahın onlardan razı olmasına səbəb olmuşdur. Onların Allahdan razılığı bu mənadadır ki, qiyamət günü Allah onların ixtiyarında istədikləri şeyləri qoyar və onlar bu baxımdan Allahdan razı olarlar. Maddi nemətlərə gəldikdə isə, elə indidən onlar üçün iki xüsusiyyətə malik olan cənnət bağları hazırlanmağa başlanılar: Onun birinci xüsusiyyəti həmin bağlardakı ağaclar altından arxların axması və ikinci xüsusiyyəti isə sahiblərinin həmin nemətin əllərindən çıxma kədərindən amanda qalmasıdır, çünki həmin bağlar əbədi olaraq onlara verilmiş və onlar da orada daimi olaraq qalacaqlar. Şübhəsiz ki, Allahın onlardan və onların da Allahdan razılığı və həmin bağlara sahib olmaq ən böyük qələbə və uğurdur və bundan daha böyük bir qələbə təsəvvür olunmazdır.

## *Birinci müsəlman olan kişi*

***Sual:*** "Tövbə" surəsinin 100-cü ayəsindən məlum oldu ki, qabaqcıllar üç qrupdan ibarətdir və indi qarşıya çıxan sual onlardan da qabaqcıl (öndə) olan şəxsin kim olmasıdır. Müsəlmanlar arasından birinci dəfə olaraq Peyğəmbərin (s) dəvətinə müsbət cavab verən şəxs kim idi?

***Cavab:*** Bu ayə ilə bağlı çoxlu rəvayələr nəql edilmiş və həmin rəvayətlərdə kişilərdən iman gətirən birinci şəxsin Əli ibn Əbu Talib (ə), qadınlardan isə xanım Xədicə olduğu bildirilmişdir. Bu məsələ sünni və şiə alimləri arasında aydın olan məsələlərdəndir. Əhli-sünnə alimləri həmin məsələ barəsində fikir birliyinə malikdirlər. Onların dediklərinə diqqət yetirin:

1. Əhli-sünnənin məşhur alimi İbn Əbdülbirr deyir:

اتّفقوا على ان خديجة اوّل من آمن بالله و رسوله و صدّقته فيما جاء به، ثم عليٌّ بعدها

***"Müsəlman alimləri ilkin olaraq qadınlardan Xədicənin və kişilərdən isə həzrət Əlinin (ə) Allah və onun Peyğəmbərinə (s) iman gətirdiyi və onu təsdiq etdiyi barədə fikir birliyindədirlər."*** [1]

---

*1. «Əl-İstiyab», c.2, səh. 457 («Əl-Qədir», c.3, səh. 238-də nəql edilənlərə əsasən).*

2. İbn Əbil Hədid Mötəzilənin 240-cı ildə vəfat etmiş ustadı Əbu Cəfər İskafi Mötəzili ilkin müsəlman olan şəxs barəsində deyir:

قد روى النّاس كافة افتخار علىّ بن ابى طالب بالسّبق الى الاسلام

***"Təkcə müsəlman alimləri deyil, əksinə bütün insanlar Əlinin (ə) müsəlmanlıqda hamıdan öndə olmaq iftixarına sahib olduğunu nəql etmişdir."*** [1]

3. Hakim Nişaburi "Səhih Buxari" və "Səhih Müslim"lə bir ağırlıq və çəkidə olan "Müstədrəkus-səhihəyn" əsərində belə deyir:

لا اعلم خلافاً بين اصحاب التّواريخ انّ علىّ بن ابى طالب رضى الله عنه اوّلهم اسلاماً و انّما اختلفوا فى بلوغه

***"Əliyyibni Əbi Talibin (ə) müsəlman olan birinci kişi olması barəsində tarixçilər arasında hansısa bir ixtilafın olmasına rast gəlməmişəm. Əlbəttə, onun iman gətirdiyi zamanlarda həddi-büluğ olub-olmaması barədə fikir ayrılığı mövcuddur."*** [2]

Həzrət Əlinin (ə) İslamda digərlərindən öndə olması barədə söylənən yuxarıdakı cümlələri bir kənara qoyaraq deyə bilərik ki, mərhum Əllamə Əmini məsumlardan iyirmi beş rəvayət və İslam alimlərinin böyüklərindən altmış altısının nəzəriyyəsini bu zəminədə nəql etmişdir. Bəzi şiə alimləri əhli-sünnənin kitablarından yüzə yaxın hədis nəql etmişlər ki, bu, qeyri-adi bir göstəricidir.[3] Bəli, bu məsələ

---

*1. «Əl-Qədir», c.3, səh. 237.*

*2. "Müstədrəkus-səhihəyn", "kitabul-mərifət", səh. 22 ("Əl-Qədir", c.3, səh. 238-də nəql edilənlərə əsasən).*

*3. Diqqət etmək lazımdır ki, həzrət Əlinin (ə) fəzilətləri arədə bu qədər hədislərin əlimizə gəlib çatması – özü də əhli-sünnə mənbələri vasitəsi ilə – həqiqətdə, möcüzəyə bərabər bir məsələdir. Çünki Bəni-Ümməyə zamanı kimi tarixin qara və zülmətli dövründə Əhli-beytin (ə) fəzilətlərini danışmaq və təbliğ etmək, nəinki, qadağan olunmuş, hətta, geniş obir ərazini əhatə edən İslami ölkələrdə minbərlər qurularaq həzrət Əliyə (ə) (nəuzubillah) söyüşlər söyülür və o həzrətə təhqirlər yağdırılırdı. Həmin zəhərli və mənfi təbliğat nəticəsində camaat azğınlığa düşərək o həzrətlə fəxr etmək yerinə, bəzən o həzrətin vücudunu zülüm kimi dəyərləndirirdilər. Bir nəfər Həccac ibn Yusif Səqəfi kimi İslam tarixində tayı-bırabəri olmayan cinayətkar və zalımın yanına gələrək deyir: «Aanm mənə zülüm etmişdir və mən ondan şikayətçiyəm. Həccac soruşur ki, sənə necə zülüm etmişdir. Cavab verir ki, mənim adımı Əli qoymuşdur.» Beləliklə, tarixin çətin dövrlərinin olmasına, Əhli-beyt (ə) fəzilətlərinin nəql edilməsinin qadağan və düşmənlərin də qüdrətləri həddində onları aradan aparmaqda səy etməsinə baxmayaraq, Əhli-beytin (ə) fzilətləri ilə bağlı hədislərin salamat şəkildə əlimizə gəlməsi möcüzəyə bənzəyir. Şair həmin qaranlıq tarixi dövrlər barədə belə bir şeir yazmışdır:*

**أعلى المنابر تعلنون بسبّه *** و بسيفه نصبت لكم اعواده**

*«Əli ibn Əbutalibin (ə) qılınc və cihadı sayəsində əldə etdiyiniz uca minbərlərə çıxıb indi ona nalayiq sözlər deyirsiniz?!» İnsan bir tərəfdən həmin tarixi dövrlər və digər tərəfdən də həzrət*

yəqin və etibar həddinin fövqündədir və şiə həmin məsələ ilə fəxr edir. Biz şiəlik nemətinin qədrini bilməli və ata-analarımıza, bizə bu yolu göstərən alimlərə təşəkkür etməliyik. Xatırlatdığımız rəvayətlərin bir neçə nümunəsinə diqqət yetirin:

1. Peyğəmbərin (s) xüsusi xidmətçisi olan Ənəs o həzrətdən belə nəql edir:

**نُبِّأَ النّبى يوم الاثنين و اسلم علىٌّ يوم الثّلثاء. (و فى رواية اخرى) بعث رسول الله (صلى الله عليه وآله وسلم)يوم الاثنين و صلّى علىٌّ يوم الثّلثاء**

***"İslam Peyğəmbəri (s) bazar ertəsi günü Peyğəmbərliyə seçildi və Əli (ə) sonrakı gün – çərşənbə axşamı İslamı qəbul etdi (və bəzi rəvayətlərdə həzrət Əlinin (ə) çərşənbə günü namaz qıldığı da bildirilmişdir)."[1]***

***Sual:*** Həzrət Əli (ə) nəvaxtsa büt müqabilində sitayiş edərək Allahdan başqa, digər bir varlığa pərəstiş etmişdirmi?

***Cavab:*** Tarixin verdiyi şəhadətə əsasən, Əli ibn Əbu Talib (ə) hətta bir an belə olsun bütlər müqabilində səcdə etməmiş və tövhid dinindən başqa, digər bir dini seçməmişdir.[2]

Nəticədə, deyilənlərdən məlum olur ki, o həzrət Peyğəmbərin (s) besətindən bir gün sonra İslamı qəbul etdiyini elan etmişdir və bundan öncə də qəlbində iman gətirmiş olmasının heç bir ziddiyyəti yoxdur.

2. Peyğəmbərin (s) məşhur səhabəsi olan Salman Farsi birinci müsəlman olan şəxs barəsində belə deyir:

**اوّل هذه الامّة و روداً على نبيّها الحوض اوّلها اسلاماً علىّ بن ابطالب**

***"Peyğəmbərə (s) qiyamət günü Kövsər hovuzun kənarında yetişəcək ilkin şəxs dünyada da İslamı qəbul etməkdə hamıdan öndə olan şəxsdir və həmin şəxs Əli ibn Əbu Talibdir (ə)."[3]***

Əvvəldə dediyimiz kimi, axirət mükafatı insanın dünyadakı əməllərinin nəticəsidir və buna uyğun olaraq həzrət Əli (ə) də müsəlman olna ilkin şəxs olduğu üçün Peyğəmbərə (s) Kövsər hovuzunda yetişən ilkin şəxs olacaqdır.

3. İkinci xəlifə Ömər ibn Xəttab da bu məsələni etiraf etmişdir.

---

*Əlinin (ə) yüzlərlə fəzilətini bəyan edən hədislərin əlimizə gəlməsi barəsində düşündükcə, anlayır ki, Allah o həzrətin fəzilətlərinin qiyamətə qədər insanlara bildirilməsini və şiələrin bu nemət sevinərək Allaha şükür etməsini iradə etmişdir.*

*1. «Fəraidus-səmtəyn», 48-ci bölmə («Əl-Qədir», c.3, səh. 238-dəki nəqlə əsasən).*

*2. Məqrizi, «Əlimta», səh. 16-da bu barədə belə deyir:*

**و امّا علىّ بن ابى طالب فلم يشرك بالله قطّ; علىّ بن ابى طالب هرگز به خداوند شرك نورزيد** *"Əli ibn Əbutalib (ə) heç vaxt Allaha şərik qoşmamışdır. "("Əl-Qədir", c.3, səh. 238-dəki nəqlə əsasən).*

*3. "Məcməuz-zəvaid", c.9, səh. 102 ("Əl-Qədir", c.3, səh. 227-dəki nəqlə əsasən).*

Peyğəmbərin (s) tanınmış səhabəsi və həzrət Əlinin (ə) xüsusi şagirdi Abdullah ibn Abbas belə deyir: "Mən və müsəlmanların bir dəstəsi Ömərin yanında idik. Bu zaman ilkin müsəlman olan şəxs barədə söhbət düşməyə başladı və Ömər bu barədə bir hədis nəql etdi ki, mən onu, şəxsən, özüm eşitdim. Həmin hədis belədir:

**[1] امّا علىٌّ فسمعت رسول الله يقول: فيه ثلاث خصال لوددت ان تكون لى واحدة منهن، وَ كانت احبّ الىّ مما طلعت عليه الشّمس، كنت انا و ابوعبيدة و جماعة من اصحابه اذ ضرب النّبى) صلى الله عليه وآله وسلم (على منكب علىٍّ فقال يا على: اَنْتَ اَوَّلُ الْمُؤْمِنينَ ايماناً، وَ اَوَّلُ الْمُسْلِمينَ اِسْلاماً، وَ اَنْتَ مِنّى بِمَنْزِلَةِ هارُونَ مِنْ مُوسى**

***"Mən Peyğəmbərdən (s) Əlinin (ə) üç xüsusiyyəti barədə eşitmişəm ki, əgər onlardan biri məndə olsaydı, bütün dünya və ondakı bütün şeylərdən üstün olardı. Mən, Əbu Übeydə və Peyğəmbərin (s) səhabələrindən bir qismi o həzrətin hüzurunda idik. Həzrət əllərini Əlinin (ə) çiyninə qoyaraq (bunu ona görə elədi ki, orada olanlardan Əli adlı hansısa biri deyilən sözlərin onun barəsində olmasını iddia etməsin) buyurdu: "Ey Əli! Sən birinci iman gətirən və müsəlman olan şəxsən. Sənin mənə nisbətin Harunun (ə) Musaya (ə) olan nisbəti kimidir."""***

***Sual:*** "Birinci müsəlman" ifadəsi "birinci iman gətirən" mənasındadır, yoxsa, onun başqa bir mənası vardır?

***Cavab:*** "İman" insanın daxili (batini) etiqadları ilə əlaqədardır və "İslam" isə həmin etiqadların dillə elan edilməsi və bəyanıdır. Nəticədə, həzrət Əli (ə) Peyğəmbərə (s) qəlbində iman gətirən ilkin şəxs və qəlbindəki imanı dildə elan edərək bildirən birinci müsəlmandır.

## *Həddi-büluğdan qabaqkı imanın dəyəri*

***Sual:*** Həzrət Əli (ə) İslam dinini qəbul edərkən yetkin və həddi-büluğ idimi? Əgər həmin zamanlarda həddi-büluğa yetişməmişdisə, görəsən, onun birinci müsəlman olması kimi tanıtdırılması və iman gətirməsi fəzilətdirmi?

***Cavab:*** Bu sualın cavbında dörd mətləbə diqqət etmək zəruri və lazımdır:

***Birinci mətləb:*** Əgər hansısa bir şəxs həddi-büluğa çatmamış, amma ağıllı, zirək, yaxşını-pisi başa düşərək bir-birindən ayırd edən olsa, bizim nəzərimizcə, belə bir şəxsin İslamı qəbul etməsi və iman gətirməsi qəbul olunasıdır. Hətta bizim fəqihlərimizin dediklərinə

---

1. *«Əl-Qədir», c.3, səh. 228.*

əsasən, belə bir şəxsin təkcə imanı deyil, ibadəti də düzgün və səhihdir. Oruc, həcc, ümrə və namazları onun şərtləri ilə birlikdə yerinə yetirsə, düzgündür. İslam fəqihlərinin dili ilə desək, belə şəxsin ibadətləri şəridir, nəinki, təcrübə[1] xarakterli.

Beləliklə, həddi-büluğ olmayan belə bir cavanın ibadətləri düzgün və şəri olarsa, onun əməlləri qəbul edilər. Nəticədə, müməyyiz (yaxşını, pisi ayırd edə bilən) cavanlardan onların əməlləri qəbul olunur. Bundan əlavə, biz həmin şəxslərin həddi-buluğa çatmamasına baxmayaraq, bir sıra günahlara görə də məsuliyyət daşıdığına etiqad bəsləyir və bildiririk ki, onların büluğ olmaması "günahlara mürtəkib ola bilərlər" mənasında deyil. Deməli, belə bir uşaq bilir ki, hansısa günahsız insanı öldürmək günahdır və Allah dərgahında buna cavab verməli olacaq. Nəhayət, müməyyiz və həddü-büluğ olmayan uşaqların əməllərinin qəbul olunduğunu və həddi-büluğun bu baxımdan, İslamın və imanın qəbul olunması şərti hesab edilmədiyini söyləmək olar.

***İkinci mətləb:*** İlahi peyğəmbər və ənbiyaların əksəriyyəti uşaq yaşlarında nübüvvət məqamına çatmışlar. Nübüvvətdə – imanın qəbul olunması ilə müqayisə edilə bilməz – şərt hesab edilməyən həddi-büluğ necə olur ki, İslamın qəbulunda şərt hesab edilir?! Uşaq yaşlarında nübüvvətin bəxş edilməsi ilə bağlı iki nümunəyə diqqət yetirin:

1. Həzrət Yəhya (ə) uşaq yaşlarında peyğəmbərliyə yetişmiş və Allah "Məryəm" surəsinin 12-ci ayəsində belə buyurmuşdur:

يا يَحْيى خُذِ الْكِتابَ بِقُوَّة وَ آتَيْناهُ الْحُكْمَ صَبِيّاً

***"(Beləliklə, ona Yəhyanı verdik və dedik:) Ey Yəhya, kitabı (Tövrat və ya bütün keçmiş səmavi kitablardan) qüvvətlə (möhkəm) (və onların mənalarını başa düşmək qüdrəti ilə) yapış! Biz ona uşaqlığında hikmət (və ilahi maarifin dərkini və peyğəmbərlik) bəxş etdik."***

2. Həzrət İsaya (ə) da uşaq yaşlarında peyğəmbərlik verilmişdi. Allah "Məryəm" surəsinin 30-cu ayəsində buyurur:

قالَ اِنّى عَبْدُاللهِ آتانىَ الْكِتابَ وَجَعَلَنى نَبِيّاً

***"(Həmin körpə dilə gəlib) dedi: "Həqiqətən, mən Allahın bəndəsiyəm, o, (bu halımda) mənə kitab (İncil) verib və məni (bu yaşda) peyğəmbər edib.""***

Burada həzrət İsanın (ə) "Mən Allahın bəndəsiyəm!" ifadəsini söyləməsi gələcəkdə ona Allahın oğlu deməmələri üçündür və ayədə (وَجَعَلَنى) "cəələni" sözü işlənmişdir, nəinki, (يجعلنى)"yəcələni" və İsanın

1. Mərhum Seyid Yəzdi "Urvətul-vusqa" əsəri, c.2, səh. 217-də bu məsələyə işarə etmişdir.

(ə) həmin anda peyğəmbər olduğuna işarədir. Bəzi digər peyğəmbərlər barəsində də bu cür hadisələr nəql edilmişdir.[1]

Xülasə, böyük məqam olan nübüvvət məqamında həddi-büluğ və yaş məsələsi şərt hesab edilmədiyindən, İslamın qəbulluğunda da yaş və həddi-büluğ şərt olunmamalıdır.

***Üçüncü mətləb:*** İslam Peyğəmbəri (s) besətdən üç il sonra öz yaxınları və qohumlarını İslama dəvət etməklə vəzifələndirildi. Yəni, bu məsələlə o vaxta qədər gizli şəkildə[2] və İslamın qəbuluna qabiliyyəti olanlar üçün təbliğ edilirdi. O həzrətin təbliğ etməsi aşkar şəkildə olduqda, həzrət Əliyə (ə) yemək hazırlayaraq qohumlarını qonaq çağırmasını soylədi və qonaqlar gəlib yemək yedikdən sonra Peyğəmbər (s) yeni din olan İslam barəsində onlarla danışdı və bildirdi ki, Allahın Peyğəmbəridir (s) və kim ona bu yolda kömək etsə, onun canişini, xəlifə və vəziri olacaqdır. O həzrət bunları üç dəfə təkrar etdi, amma həzrət Əlidən (ə) başqa, heç kəs müsbət cavab vermədi. Peyğəmbər (s) növcavan olan Əli (ə) barəsində qohumlarına belə buyurdu:

اِنَّ هذا اَخى وَوَصِيّى وَ خَليفَتى عَلَيْكُمْ فَاسْمَعُوا لَهُ وَاَطيعُوهُ

***"Bu cavan (Əli ibn Əbu Talib (ə) mənim qardaşım, vəsim, xəlifəmdir! Onun sözlərinə qulaq asın və ona itaət edin!"***[3]

Besətin əvvəllərində həzrət Əlinin (ə) iman gətirdiyi zaman onun on yaşında olduğu etiqadına malik insanların əksinə, o həzrət on üç yaşında idi. Əgər həddi-buluğdan əvvəl iman gətirmək və İslamı qəbul etməyin əhəmiyyəti olmasaydı, onda, nə üçün Peyğəmbər (s) onun barəsində bu şəkildə gözəl ifadələr işlədir?! Bu fəzilətlər barəsində həzrət Əlinin (ə) məqamına şəkk edən kəslər həqiqətdə, Peyğəmbərin (s) dedikləri və onun məqamına şəkk etmişdir. Əgər desələr ki, bu sözlər o həzrət on üç yaşında olarkən deyilmişdir, onda, qəbul edilməlidir ki, on yaşında da imam Əlinin (ə) imanı dəyərli və əhəmiyyətlidir.

***Dördüncü mətləb:*** Bunlardan əlavə, Peyğəmbərin (s) besəti

*1. Mərhum Əllamə\ Məclisi əhli-sünnənin nəqlinə əsasən, deyir ki, həzrət Süleyman və həzrət Danyal da uşaq yaşlarında Peyğəmbərliyə seçilmişlər. («Biharul-ənvar», c.38, səh. 236).*

*2. Şiələrə təqiyyə məsələsinə görə irad tutaraq etiraz edən kəslərin, görəsən, Peyğəmbərin (s) üç il İslamı gizlin şəkildə təbliğ etməsi barədə sözü nədir?! Bəyəm, Peyğəmbər (s) öz qüvvəsini toplayaraq münasib bir zamanın gəlməsi üçün belə etmirdimi?! Nəticədə, mübarizə üçün münasib zamanın gözlənməsi və üslubun dəyişdirilməsi qaydası şiənin dini mətnlərdən əldə etdiyi və başa düşdyü bir məsələdir.*

*3. «Təbəri tarixi», c.2, səh. 62; «Tarixe kamil», c.2, səh. 40; «Müsnəde Əhməd», c.1, səh. 111 («Furuğe əbədiyyət» c.1, səh. 259-dakı nəqlə əsasən).*

dövründə həzrət Əlinin (ə) həddi-büluğ olmaması qəti bir məsələ deyil. Əksinə, İslam alimləri arasında bu barədə fikir ayrılığı və ixtilaflar mövcuddur. Həmçinin, "Müstədrəkus-səhihəyn" əsərinin müəllifi də əvvəlki bəhslərdə qeyd etdiyimiz kimi, həmin məsələyə işarə etmişdir. Bu məsələ barədə bəzi İslam alimlərinin nəzəriyyələrinə diqqət yetirin:

a) İbn Əbdülbirr "Əl-İstiab" kitabının ikinci cild 471-ci səhifəsində belə yazır:

**اوّل من اسلم بعد خديجة علىّ بن ابطالب و هو ابن خمس عشر سنة او ستّ عشر سنة**

***"Əli (ə) on beş və ya on altı yaşında Xədicədən sonra müsəlman olan birinci şəxs idi."[1]***

b) "Usdul-ğabə fi mərifətis-səhabə" əsərinin müəllifi öz kitabının dördüncü cild 17-ci səhifəsində bu zəminədə olan üç nəzəriyyəni qeyd etmiş və bu nəzəriyyələrdən birinə əsasən, həzrət Əlinin (ə) həmin zamanlarda on beş yaşında olduğunu nəql etmişdir.

c) Mərhum Əllamə Əmini də bu məsələyə etiraz edərək həmin məsələ barəsində yeddi nəzəriyyə nəql etmişdir.[2]

Beləliklə, həzrət Əlinin (ə) İslamı qəbul etdiyi zaman baliğ olmaması qəti fikir deyil və bu barədə alimlər fikir ayrılığına malikdirlər. Xülasə, çoxlu sayda və mütəvatir olan rəvayətlərin şəhadətinə əsasən, həzrət Əlinin (ə) İslamı qəbul edən birinci kişi və Peyğəmbərə (s) kömək edən şəxs olduğunu söyləmək olar və onun on yaşında olması bu böyük fəzilətdən heç bir şeyi azaltmaz.

## *"Birinci mömin" olmaq böyük bir imtiyazdır*

Bəzi kəslərin birinci mömin olan şəxslə sonradan müsəlmanların sırasına daxil olan kəs arasında heç bir fərqin olmamasını təsəvvür etməsi mümkündür. Amma həqiqət budur ki, onlar arasında həddən artıq fərqlər vardır. Məsələnin daha da aydınlaşması üçün Fironun sehirbazları macərasına nəzər salaq:

Firon həzrət Musanın (ə) məğlub edilməsi üçün Misirdəki bütün sehirbaz və cadugərləri bir yerə toplatdırıb təyin olunan gündə o həzrətlə mübarizə aparmalarını bildirmiş və onlara çoxlu vədələr vermişdi. Həmin vədələrdən biri də qalib gələcəkləri təqdirdə, Fironun ən yaxın adamlarından olmaları idi.[3]

Firon vədələşmiş olduqları gün üçün hər bir şeyi hazırladı və qalib gələcəyinə ümid etdi. Həmin gün yetişdikdə, ilkin olaraq sehirbazlar

*1. O, qeyd edilən kitabda imamın İslamı qəbul etdiyi zamandakı yaşı barəsində yeddi nəzəriyyə nəql etmişdir və xatırladılan iki nəzəriyyə ilə birlikdə səkkiz nəzəriyyə edir.*

*2. "Biharul-ənvar", c.38, səh. 7 və 236.*

*3. "Əraf" surəsi, ayə 114.*

sehr göstərə və gözbağlayıcılıq edərək camaatı heyrətə sala bildilər. Sonra həzrət Musa (ə) Alahın əmri ilə əsasını yerə atdı və o, böyük bir əjdahaya çevrilərək sehrbazların sehir alətlərini uddu. Bunu görən və həmin işin sehr olmadığını başa düşən sehrbazlar ixtiyarsız olaraq səcdəyə düşərək belə dedilər:

آمَنّا بِرَبِّ الْعالَمينَ

***"Biz aləmlərin rəbbinə iman gətirdik!"*[1]**

Firon sehirbazlarının həzrət Musaya (ə) – onun məğlub edilməsi üçün toplaşmışdılar – iman gətirməsi onun dininin qəbul edilməsində böyük təsir qoydu və beləliklə, Firon və onun tərəfdarlarına sarsıdıcı zərbə vurulmuş oldu. Özləri sehirbaz olan və möcüzə ilə sehiri bir-birindən yaxşı ayırd edə bilən sehirbazların həzrət Musaya (ə) iman gətirməsi camaatın onun dinini qəbul etməsində böyük təsir qoydu. Bu səhnəni müşahidə edən Firon dünənin sehirbazlarını və bu günün müsəlmanlarını təhdid edərək hədələdi və ən ağır şəkildə cəzalandıracağını bildirdi. O cümlədən, belə dedi:

لَأُقَطِّعَنَّ اَيْدِيَكُمْ وَ اَرْجُلَكُمْ مِنْ خِلاف ثُمَّ لَأُصَلِّبَنَّكُمْ اَجْمَعينَ

***"Həqiqətən, mütləq sizin əllərinizi və ayaqlarınızı çarpazvari (birini sağdan, birini soldan) kəsəcək, sonra isə şübhəsiz, sizin hamınızı dar ağacından asacağam! "*[2]**

İman nuru onların qəlblərini bürüdüyündən, hər bir işgəncə və azaba hazır olduqlarını elan etdilər:

اِنّا نَطْمَعُ اَنْ نَغْفِرَ لَنا رَبُّنا خَطايانا اَنْ كُنّا اَوَّلَ الْمُؤْمِنينَ

***"Dedilər: "(Onsuz da) biz Rəbbimizə tərəf dönəcəyik (buna görə də sənin hədələrindən qorxmuruq)!""*[3]**

Qeyd edilən ayələrdən birinci mömin olmağın böyük imtiyaz olduğu və bütün keçmiş günahlara kəffarə hesab edildiyi məlum olur. Bunun səbəbi aydındır, çünki hamıda belə bir cürət yoxdur. Xətər, təhlükə, qorxu və digər məsələlər, adətən, möminlərin birinci cərgəsində dayananlar üçündür və bu baxımdan, ilkin mömin olmağın mükafatı çoxdur. Həzrət Əli (ə) də Peyğəmbərin (s) dəvətini eşitdikdə, Qurana qulaq asdıqda, başa düşdü ki, bu dəvət Allahın dəvətidir və ləngimədən iman gətirdi və birinci müəlmanlardan (iman gətirənlərdən) oldu. O həzrətin şiələri də fəsad və inhiraflara qarşı

*1. Həmin surə, ayə 121.*
*2. Yenə orada, ayə 124.*
*3. "Şüəra" surəsi, ayə 51.*

mübarizə aparmaqda ilkin cərgədə olmalı və əmr be məruf və nəhy əz münkər edənlərin birincisinə çevrilməlidirlər. Bizim əziz cavanlarımız da hansısa bir bayram və şənlik məclislərində iştirak edərkən həmin məclisin günah məclisinə çevrildiyini görsələr, bu yerdə camaata qoşulmamalı və məzəmmət və qınağa tuş gələcəklərinə baxmayaraq, həmin məclisləri tərk etməli və Allahın rizayətinə xatir tənələrə sinə gərməlidirlər.

Həzrət Əlinin (ə) şiələri bu yolda təklikdən qormamalıdırlar. O həzrət belə buyurmuşdur:

لا تَسْتَوْحِشُوا فى طَرِيقِ الْهُدى لِقِلَّةِ اَهْلِه

***"Haqq yolunda tərəfdarlarınızın az olmasından vəhşətə düşməyin!"***[1]

Birinci mömin olan şəxs şücaət və mərifətə sahib olmalıdır və həzrət Əlinin (ə) vücudunda bütün bunlar var idi. Fironun sehirbazları həzrət Musaya (ə) iman gətirməklə təkcə küfr və şirk zülmətindən nicat tapmadılar, əksinə onlar şəhidlik məqamına yüksəldilər. Bəli, onlar sübh vaxtı Firon tərəfdarları dəstəsində idilər, amma gecə şəhidlər sırasına qoşuldular.[2] Firon təhdidlərini əməldə icra edərək onları şəhid etdi. Diqqət edilməlidir ki, sonrakı iman gətirənlərin imanı əvvəlcə iman gətirənə bağlıdır. Bu cəhətdən, sehirbazların həzrət Musaya (ə) iman gətirməsi sonrakı camaatın tövhid dinini qıbul etməsinə səbəb oldu və şəhidlərin qanının qoyduğu təsirlərdən biri də budur.

## *Ayənin verdiyi mesajlar*

### ***Fəzilətlərin tanınması əməl üçün bir müqəddimədir***

Həzrət Əli (ə) və digər Əhli-beytin (ə) fəzilətləri ilə tanış olaraq onlar barədə sadəcə danışmaqla kifayətlənmək olmaz, əksinə onları nurlu çıraq kimi əməl və rəftarımız üçün yol göstərən seçməli və onların göstərişlərinə əməl edərək həqiqi şiələrdən olmağa çalışmalıyıq. Bu ayələrdə Əmirəl-möminin (ə) doğru danışan və doğru sözü də təsdiqləyən olduğu kimi, o həzrətin şiələri də haqq sözü təsdiqləməli və bu məsələyə öz istək və düşüncələrini daxil etməməlidirlər. Maraqlı burasındadır ki, əgər şeytan da haqqı söyləsə, ona qulaq asmaq lazımdır və Allah həzrət Nuhu (ə) vəzifələndirir ki, şeytanın[3] yaxşı

*1. "Nəhcül-bəlağə", xütbə 201.*

*2. Mərhum Əllamə Təbərsi "Məcməul-bəyan", c.3, səhifə 464-də belə yazır:*
كانوا اوّل النهار كفاراً سحرة، و آخر النّهار شهداء بررة

*3. Şeytanın həzrət Nuha nəsihətləri ilə bağlı "Şeytan insanın ən qədim düşmənidir" kitabı,*

sözlərinə şeytan olsa da belə, qulaq assın. Hazırda sadiq və doğru danışan şiələrin diqqətini sidqlə bağlı iki hədisə yönəldirik:

1. Peyğəmbər (s) buyurur:

لا تَنْظُرُوا اِلى كَثْرَةِ صَلاتِهِمْ وَ صَوْمِهِمْ وَكَثْرَةِ الْحَجِّ وَالْمَعْرُوفِ وَ طَنْتَنَتِهِمْ بِاللَّيْلِ، وَلكِنِ انْظُرُوا اِلى صِدْقِ الْحَديثِ وَأداءِ الأَمانَةِ

***“(Əgər camaatı imtahan etmək istəsəniz) onların qıldıqları çoxlu namazlar, , tutduqları oruc, bir-birinin ardınca etdiyi həclər, ehtiyaclılara davamlı olaraq göstərdiyi yardım və gecə namazları ilə kifayətlənməyin, əksinə onları danışıqda doğru danışan və əmanətdə vəfalı (əmanətdar) olduğuna diqqət yetirin (bunları meyar və ölçü təyin edin).”***[1]

Deyilənlərə əsasən, insanların imtahan edilməsi onların sadiqliyi və əmanətə vəfa etməsi ilədir.

2. Həzrət Əli (ə) buyurur:

اَلاْيمانُ اَنْ تُؤْثِرَ الصِّدْقَ حَيْثُ يَضُرُّكَ عَلَى الْكِذْبِ حَيْثُ يَنْفَعُكَ

***“İmanın nişanələrindən biri yalanın onun xeyrinə olmasına baxmayaraq, zərərinə tamamlanacağı təqdirdə belə, insanın doğruluğu ona tərcih etməsidir (doğruluğu yalandan üstün tutmasıdır).”***[2]

Bu hədisə əsasən, imanın tələbi sədaqət və doğruluqdur və mömin olan şəxs yalançı ola bilməz!

Allahdan bizə həzrət Əlinin (ə) fəzilətlərini izləməkdə, xüsusən, doğruluq və düzlükdə, həmçinin, haqq və həqiqətlərin təsdiqində müvəffəqiyyət bəxş etməsini diləyirirk!

---

*səh. 67 və “Ənbiyaların sözləri” səh. 42-dən sonrakı hissələr mütaliə edə bilərsiniz.*

*1. «Mizanul-hikmət», c.5, səh. 288, bölmə 2192, hədis: 1095.*

*2. «Nəhcül-bəlağə», qısa kəlamlar, 257-ci cümlə.*

# 9 “MƏHƏBBƏT” AYƏSİ

اِنَّ الَّذينَ آمَنُوا وَ عَمِلُوا الصّالِحاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمنُ وُدّاً

***“Rəhman olan Allah iman gətirib yaxşı işlər görən kəslər üçün tezliklə (dünya və axirətdə mələklər və möminlərin qəlblərində) dostluq və məhəbbət yaradacaqdır.”***

*“Məryəm” surəsi, ayə 96*

## *Bəhsə qısa bir nəzər*

Əhli-sünnənin çoxlu sayda kitablarındakı dəlillərə əsasən, bu ayənin ən kamil misdaq və nümunəsi həzrət Əlidir (ə). Bu barədə müxtəlif məsələlər bəyan edilmişdir, o cümlədən, iman və saleh əməlin qəlblərdəki məhəbbətlə irtibatı, əhli-sünnə alimlərinin yuxarıdakı ayə ilə bağlı söylədikləri nəzəriyyələr və bu qəbildən olan mətləblər barəsində gələcək bəhslərdə danışılacaqdır.

### *Qəlblərə nüfuz etmək rəhbərlərin ən mühüm sərmayəsidir*

Müxtəlif cəmiyyətlərdəki rəhbərlərin malik olduğu ən mühüm sərmayə onların qəlblərdə məhəbbətə sahib olmasıdır. Qəlblərə nüfuz etmək məsələsi böyük əhəmiyyət kəsb edir və mühüm ictimai işlər bu sərmayə və camaatın iştirakı olmadan həyata keçirilə bilmir. Bu baxımdan, camaatın ictimai, siyasi və hətta hərbi işlərdə iştirakı lazım və zəruridir. Camaatı cəlb etmək üçün qəlblərə nüfuz edə bilməyə ehtiyac vardır. Əgər bir İslam Peyğəmbərinin (s) insanlara nicat verən dini dünyanın şərq və qərbinə (hər yerinə) yaya bilməsini, kinlərlə dolu olan qəlblərdə bir-birinə qarşı məhəbbət yaradadaraq haqq dini yaymaqda vahid bir qoşun halına gətirməsini müşahidə ediriksə, bunun sirrini Quran açıqlayır və bildirir ki, Peyğəmbərin (s) xoş əxlaqı və o həzrətin insanların qəlblərinə qeyri-adi şəkildə təsir edə bilməsi bunun əsil səbəbidir. Quranda bu barədə buyururlur:

فَبِما رَحْمَة مِنَ اللهِ لِنْتَ لَهُمْ وَلَوْ كُنْتَ فَظّاً غَليظَ الْقَلْبِ لاَنْفَضُّوا مِنْ حَوْلِكَ

***"Beləliklə, Allah tərəfindən olan rəhmətin bərəkəti sayəsində onlarla (öz ümmətinlə) mülayim oldun və əgər qaba və daşürəkli olsaydın, onlar mütləq sənin ətrafından dağılışardılar."***[1]

Həzrət İbrahim (ə) yenicə doğulmuş övladı İsmayılla (ə) öz xanımını kifayət qədər azuqəsi olmadığı halda, Allahın göstərişi ilə yandırıcı istilik və quru ərazisi olan Məkkəyə gətirdiyi və müqəddəs Kəbənin yanında qoyduğu zaman, belə dua edir:

بَّنا اِنّى اَسْكَنْتُ مِنْ ذُرِيَّتى بِواد غَيْرَ ذى زَرْع عِنْدَ بَيْتِكَ الْمُحَرَّمِ رَبَّنا لِيُقيمُوا الصَّلوةَ فَاجْعَلْ اَفْئِدَةً مِنَ النّاسِ تَهْوى اِلَيْهِمْ وَ ارْزُقْهُمْ مِنَ الثَّمَراتِ لَعَلَّهُمْ يَشْكُرُونَ

***"Ey Rəbbimiz, həqiqətən, mən övladlarımdan bəzisini (İsmayılı anası ilə birgə) sənin möhtərəm və toxunulmaz evinin yanında əkinsiz bir dərədə sakin etdim ki, namaz qılsınlar. Ey Rəbbimiz, buna görə də elə et ki, insanların bir qisminin qəlbləri onlara meyl etsin və müxtəlif məhsullardan onlara ruzi ver, bəlkə, şükr etsinlər."***[2]

Həzrət İbrahim (ə) qəlblərə nüfuz etməyin mühüm bir sərmayə olduğunu bildiyindən, Allahdan qadını və övladının məhəbbətini insanların qəlbinə salmasını diləyir.

---

*1. «Ali-İmran» surəsi, ayə 159.*

*2. «İbrahim» surəsi, ayə 37.*

İmam Xomeyni (r.ə) inqilabın sonlarına qədər əhəmiyyət təşkil edən hərbi silaha malik deyildi, lakin o, müasir silahlardan da mühüm olan elə bir kəskin silaha sahib idi ki, onun vasitəsi ilə tağut rejiminə qalib gəldi və həmin silah qəlblərə nüfuz edə bilmək və camaatın məhəbbəti idi.

Bir sözlə, qəlblərə nüfuz və təsir edə bilmək müxtəlif cəmiyyətdəki rəhbərlərin ən mühüm sərmayəsidir.

## Şərh və təfsir

### İman və saleh əməlin qəlblərə nüfuz etməklə rabitəsi

إن الذينَ آمَنُوا وَ عَمِلُوا الصّالِحاتِ سَيَجْعَلُ لَهُمُ الرحْمنُ وُدّاً – Bu ayədə bir tərəfdən iman və saleh əməllə, digər tərəfdən də camaatın qəlbinə nüfuz etməklə bağlı rabitənin olmasından bəhs edilmişdir. Allah-taala qəlblərə təsir edə bilməyi iman və saleh əməlin nəticəsi hesab etmişdir. Bu cümlələrin mənası odur ki, zor gücü və qılıncla insanlar üzərində hakimiyyət yaratmaq mümkündür, amma heç vaxt bu yolla onların qəlblərinə nüfuz etmək olmaz.

***Sual:*** Doğrusu, bir tərəfdən iman və saleh əməl, digər tərəfdən də insanların qəlbinə nüfuz etmək arasında hansı rabitə mövcuddur?

***Cavab:*** Bu ikisi arasındakı rabitəni aşağıdakı kimi təsəvvür etmək olar:

Birincisi, mənəvi rabitədir ki, Allah öz hikmətinə əsasən onu yaradır. Misal olaraq Fironun qəlbində Musaya (ə) qarşı məhəbbətin yaranmasını göstərmək olar. Firon Misirdəki bütün təzə doğulan uşaqların öldürülməsinə göstəriş verir, lakin Allahın iradəsi ilə onun qəlbində körpə olan Musaya (ə) qarşı məhəbbət yaranır və o, öz düşmənini özü böyüdür. Allah burada Firon və onun tərəfdarlarına öz qüdrətini göstərərək bildirir ki, Allah bir şeyi iradə etdiyi zaman, heç nə onun qarşısını ala bilməz. Belə rabitələr kəsb ediləsi deyil, əksinə Allahın bəxş etməsi ilədir.

İkincisi, adi məhəbbət və maraqlar məntiqi baxımdan təhlil edilməyə qabildir. Yaxşı işlər və saleh əməllərin özünəməxsus cazibəsi vardır və hətta pis insanları belə özünə doğru cəlb edə bilir. Məsələn, əmanənətdarlıq saleh bir əməl və əmanətdar isə saleh bir insandır. Hamı onu sevir və məhəbbət bəsləyir, hətta oğrular hansısa bir oğurluq malı əmanət vermək istədikdə, oğru dostlarına deyil, əmanətdar şəxslərə müraciət edir. Kimsə insanların qəlbinə nüfuz etmək istəyirsə, saleh

əməllər yerinə yetirsin və imanlı olsun. Camaat onun saleh və imanlı olduğunu bildikdə, öz-özünə ona doğru hərəkət edəcək və burada xüsusi işlərə ehtiyac yoxdur. İffət və paklıq o qədər əhəmiyyətlidir ki, pak olmayan insanlar da ona aşiqdirlər. Belə insanlar evlənmək istədikdə, pak ailələrin ardınca gedirlər. Maraqlı burasındadır ki, həzrət Əli (ə) sadalanan bütün üstün keyfiyyətlər həm malikdir, həm də Allah bütün insanların qəlbinə nüfuz etməyi o həzrətə bəxş etmişdir.

### *“Məhəbbət” ayəsinin nazilolma səbəbi*

Bu ayənin bütün əməlisaleh və iman əhli olan möminlərə şamil ola bilməsinə baxmayaraq, əhli-sünnə kitablarında da işarə edildiyi kimi, onun ən kamil misdaq və nümunəsi həzrət Əlidir (ə). Bəziləri bu cür aydın və bəlli həqiqəti inkar etməyə çalışmışlar.

Mərhum Əllamə Hilli “İhqaqul-həqq”[1] kitabında bu ayənin nazilolma səbəbinin həzrət Əli (ə) olduğunu bildirir və əhli-sünnə alimlərindən Qazi Ruzbehan bu sözləri inkar edərək deyir:

**ليس هذه الرّواية فى تفسير اهل السنّة و ان صحت دلّت على وجوب محبّته و هو واجب بالاتّفاق**

***“Bu cür rəvayət əhli-sünnənin heç bir təfsir kitabında qeyd edilməmişdir. Qeyd edildiyini fərz etsək belə, bu, yeni bir məsələ deyil, çünki Əlinin (ə) məhəbbəti hamıya vacibdir və həmin mətləbi hamı qəbul edir.”***[2]

Maraqlı burasındadır ki, “İhqaqul-həqq” kitabına haşiyə yazan şiə mühəqqiqləri əhli-sünnənin on yeddi kitabından həzrət Əli (ə) barəsində rəvayət nəql edirlər və həmin kitabların altısı tıfsir kitabıdır. Əhli-sünnə alimlərinin sözlərindəki bu təzadı necə izah etmək olar? Görəsən, Qazi Ruzbehan həmin kitabları mütaliə etməmişdirmi? Yoxsa, mütaliə etmiş, amma təəssüb və inadkarlıq bu hədislərin qəbulluğuna mane olmuşdurmu? Kitabların adları belədir:

1. “Sələbi təfsiri”[3]

---

*1. Şiənin dəyərli kitablarından sayılan «İhqaqul-həqq» kitabı dörd hissədən ibarətdir. Onun birinci müəllifi Əllamə Hillidir və əhli-sünnə alimlərindən Qazi Ruzbehan bu kitabın inkarı ilə bağlı bəzi mətləbləri qeyd etmişdir ki, kitabın əlavə hissəsini təşkil edir. Daha sonra mərhum Qazi Nurullah Qazi Ruzbehanın sözlərinin rədd edilməsi və Əllamə Hillinin sözlərinin təsdiqi ilə əlaqədar bir sıra mətləbləri qeyd etmiş və bu kitaba əlavə olunmuşdur. Nəhayət, mərhum Ayətullah Mərəşi Nəcəfi öz köməkçiləri ilə birlikdə kitabın səhifə aşağısına faydalı haşiyələr yazmış və kitab hazırkı şəklə düşərək elm arxasınca olanların istifadəsinə verilmişdir.*

*2. «İhqaqul-həqq», c.3, səh. 87.*

*3. «Sələbi təfsiri», səh. 151 («İhqaqul-həqq», c.3, səh. 82-dəki nəqlə əsasən).*

2. “Kəşşaf təfsiri” – bu kitabın müəllifi məşhur təfsirçi Zəməxşəidir.[1]

3. “Təfsire Əllamə Nişaburi” – Təbəri təfsirinin haşiyəsində çap edilmişdir.[2]

4. “Durrul-mənsur”[3] – müəllifi Süyutidir.

5. “Əllamə Şukaninin təfsiri”[4]

6. “Ruhul-məani”[5] – müəllifi məşhur alim Alusidir.

Sadaladığımız kitablarda qeyd edilən üç rəvayətə diqqət yetirin:

a) “Ruhul-məani” kitabında Peyğəmbərin (s) məşhur səhabəsi Bərra ibn Azibdən belə nəql edilib:

قالَ رَسُولُ الله) صلى الله عليه وآله وسلم (لِعَلِيّ كَرَّمَ اللهُ تَعالى وَجْهَهُ: «قُلِ اللّهُمَّ اجْعَلْ لى عِنْدَكَ عَهْداً وَ اجْعَلْ لى فى صُدُورِ الْمُؤْمِنينَ وُدّاً» فَاَنْزَلَ اللهُ سُبْحانَهُ هذِهِ الآيَةَ

***“Peyğəmbər (s) Əliyə (ə) buyurdu: (Allahdan iki şeyi istə. Birincisi,) de ki, ilahi, mənimlə öz aranda əhd-peyman müəyyən et. (İkincisi,) mənim məhəbbətimi möminlərin qəlbində yerləşdir. Sonra...*** اِنَّ الَّذينَ آمَنُوا وَ عَمِلُوا الصّالِحاتِ ***bu ayə nazil oldu.”***

كانَ مُحَمَّدُ بْنُ حنفيّه) رضي الله عنه(يَقُولُ: لا تَجِدُ مُؤْمِناً اِلاّ وَ هُوَ يُحِبُّ عَلِيّاً كَرَّمَ اللهُ تَعالوَجْهَهُ وَ اَهْلَ بَيْتِه

***“Məhəmməd ibn Hənəfiyyə həmişə deyərdi: “Əli (ə) və onun Əhli-beytini (ə) sevməyən mömin yoxdur.””***[6]

***Sual:*** Bu rəvayətdə “əhd və peyman” ifadəsi ilə bildirilən məsələdə məqsəd nədir?

***Cavab:*** Bu əhdin bizim barəsində bəhs etdiyimiz ayədən qabaq nazil edilən ayəyə, yəni “Məryəm” surəsinin 87-ci ayəsinə işarə olduğunu ehtimal etmək olar. Həmin ayə belədir:

لا يَمْلِكُونَ الشَّفاعَةَ اِلاّ مَنِ اتَّخَذَ عِنْدَ الرَّحْمنِ عَهْداً

***“(Həmin gün) Rəhman olan Allahın yanında (Peyğəmbərlər, övliyalar və mələklər kimi) əhd-peyman almış şəxslərdən başqa, (insanlardan heç kəsin) şəfaət etmək ixtiyarı olmaz. (Həmçinin, (əqidə əsaslarının düzgün olması ilə) şəfaətə layiq olmaq peymanı alandan başqa, insanlardan heç kəsin şəfaət olunmaq haqqı olmaz).”***

Deməli “əhd-peyman”da məqsəd şəfaətdir. Peyğəmbər (s) həzrət

*1. «Kəşşaf təfsiri», c.2, səh. 225 («İhqaqul-həqq», c.3, səh. 83-dəki nəqlə əsasən).*

*2. «Təbəri təfsiri», c.16, səh. 74 («İhqaqul-həqq», c.3, səh. 84-dəki nəqlə əsasən).*

*3. «Durrul-mənsur», c.4, səh. 487 («İhqaqul-həqq», c.3, səh. 854-dəki nəqlə əsasən).*

*4. «Şukani təfsiri», c.3, səh. 342 («İhqaqul-həqq», c.3, səh. 86-dakı nəqlə əsasən).*

*5. «Ruhul-məani», c.16, səh. 130 («İhqaqul-həqq», c.3, səh. 86-dakı nəqlə əsasən).*

*6. «İhqaqul-həqq», c.3, səh. 86.*

Əliyə (ə) Allahdan şəfaət məqamının ona verilməsini və onun məhəbbətinin möminlərin qəlbində yerləşdirməyi diləməsini istəyir. Bu elə bir məhəbbətdir ki, həzrət İbrahim (ə) zamanında onun duası ilə başlamış və Peyğəmbər (s) zamanına qədər davam etmişdir. İslam Peyğəmbərindən (s) sonra da qiyamətə qədər qalarğı olacaqdır.

b) Əllamə Şukani Təbərani və Ovəz İbn Abbasdan belə nəql edir:

نَزَلَتْ فى عَلِىِّ بْنِ اَبيطالِب «اِنَّ الَّذينَ آمَنُوا وَ عَمِلُوا الصّالِحاتِ...» قالَ مَحَبَّةً فى قُلُوبِ الْمُؤْمِنينَ

**"اِنَّ الَّذينَ آمَنُوا وَ..." – *ayəsi həzrət Əli (ə) barəsində nazil olmuşdur və "vədə" sözündəki məqsəd məhəbbət və möminlərin qəlbinə nüfuz etməkdir."*[1]**

Nəticədə, bu ayə iman və saleh əməlin insanların qəlbinə nüfuz etməklə bağlı rabitəsinin olduğuna işarə edir və onun ən kamil misdaq və nümunəsi həzrət Əlidir (ə)!

## *Bəhs etdiyimiz ayə barəsində digər təfsirlər*

Qeyd edilən təfsirlərdən əlavə, bu ayə barəsində digər bir neçə təfsir də mövcuddur. O cümlədən:

a) Ayənin məqsədi xüsusi bir fərd və ya fərdlərin məhəbbətinin bütün möminlərin qəlbində yerləşdirilməsi deyil, əksinə iman və saleh əməlin bütün möminlərin bir-birinə qarşı məhəbbət bəsləməsinə səbəb olmasıdır.

b) Bu ayə qiyamət gününə işarədir. Allah bütün möminlərin məhəbbətini bir-birinin qəlbində yerləşdirəcək və onun bu dünya ilə heç bir irtibatı yoxdur.

c) Bu ayədəki məqsəd yalnız və yalnız həzrət Əlidir (ə) və əvəzliklərin cəm şəkildə işlədilməsinin heç bir iradı yoxdur, çünki bəzən bu cür işlənmə ehtiram əlamətidir.[2]

Aydın məsələdir ki, ayə bütün əməlisaleh olan möminlərə şamil ola bilir. Məsələn, çıraq, elektrikli lampa, projektor və günəşin işığı da nurdur, amma yerdə qalan nurlar günəşin nuruna çata bilməz. Bu baxımdan, ayənin bütün möminlərə şamil olmsına baxmayaraq, onun ən kamil nümunəsi həzrət Əli ibn Əbu Talibdir (ə).

---

*1. Həmin mənbə.*

*2. Qeyd edilən üç ehtimal və digərləri "Məcməul-bəyan", c.3, səh. 3 və 532-də bildirilmişdir.*

## Ayənin verdiyi mesajlar

### Şiə nurlu çıraqdır

Dəfələrlə söylədiyimiz kimi, həzrət Əlinin (ə) şiələr təkcə Əhli-beytin (ə) fəzilətlərini tanımaqla kifayətlənməməli, əksinə həmin fəzilətləri tanıdıqdan sonra onun nuru sayəsində hərəkət etməli və digərlərinə də bunu nişan verməlidir. Həzrət Əli (ə) şiələri həm iman, həm də saleh əməllər baxımından yaşadıqları cəmiyyətdə nurlu çıraq kimi işıq saçmalıdır ki, digərləri onların iman nuru sayəsində hidayət ola və məhəbbətləri onların qəlbinə nüfuz edə bilsin və beləliklə, dini rəhbərlərin fəxrinə səbəb olsun. Eyni zamanda, Allah eləməmiş, elə bir işi görməməlidirlər ki, onların xəcalətinə səbəb olsun.[1]

## Təkmilləşdirici bəhslər

### 1. Hamının qəlbinə nüfuz etmək

Ayənin zahirindən belə başa düşülür ki, iman və saleh əməllər təkcə məhəbbətin möminlərin qəlbinə nüfuz etməsilə bitmir, əksinə onun şöləsi qeyri-möminlərin də qəlbində məhəbbətin yaranmasına səbəb olur. Bu baxımdan, həzrət Əlinin (ə) düşmənləri də onu sevirdilər, baxmayaraq ki, nəfsləri üzündən bunu daimi şəkildə büruzə vermirdilər, amma bəzən məcburi olaraq həmin məsələni etiraf edirdilər. Müaviyyə dəfələrlər həzrət Əlinin (ə) tərəfdarları ilə görüşdükdə, o həzrətin halı barədə danışmalarını söyləyir və onların sözlərini təsdiqləyirdi.[2]

Müaviyyə dövründəki bütün fəsadların qaynağı, hiyləgər və məkrli biri olan Əmr As – həmin dövrdə baş verən ixtişaşlar onun başının altından çıxırdı və bu sahədə Müaviyyə ikinci dərəcəli idi – "Cilciliyyə"[3]

*1. Bir sıra rəvayətlərdə bu mətləb bildirilmiş və o cümlədən, imam Sadiq (ə) belə buyurmuşdur:* كُونُوا لَنَا زَيْناً وَ لا تَكُونُوا عَلَيْنَا شَيْناً *("Biharul-ənvar", c.68, səh. 267). Bu rəvayətin bənzərini imam Rza (ə) ("Biharul-ənvar", c.75, səh. 348) və imam Həsən Əsgəridən (ə) ("Biharul-ənvar", c.75, səh. 372) nəql etmişlər.*

*2. Bu cərəyanların nümunələrini "Həzrət Əlinin (ə) həyatı barədə 110 dastan" adlı kitabın beşinci qismində qeyd etmişik.*

*3. Əmr Asın bu şeiri yazması səbəbi belə idi: "Müaviyyə onu Misirə vali təyin etdi və adətə görə şəhərin gəlir və vergiləri vali toplamalı və onun bir qismini özünə götürərək digər qismini hökumətə göndərməli idi. Lakin Əmr As həmin adətin əksinə olaraq bu işdən boyun qaçırdı və Müaviyyəyə heç nə göndərmədi. Müaviyyə bundan çox narahat oldu və ona məktub yazaraq töhmətləndirdi və Misirin gəlirinin digər qismini mərkəzi hakimiyyət*

adlı məşhur qəsidəsində Müaviyyə dövründəki cinayətlərinə etiraf edir və həzrət Əlinin (ə) fəzilətlərindən danışır. Həmin qəsidənin seçilmiş hissələrini qeyd edirik:

مُعاوِيَةُ الْحالَ لا تَجْهَل        وَ عَنْ سُبُلِ الْحَقِّ لا تَعْدِل[1]

وَ كِدْتُ لَهُمْ اَنْ اَقامُوا الرُّماحَ        عَلَيْهَا الْمَصاحِفَ فِى الْقَسْطَل

نَسيتَ مُحاوَرَةَ الْأَشْعَرى        وَ نَحْنُ عَلى دُومَةِ الْجَنْدَل؟

خَلَعْتُ الْخِلافَةَ مِنْ حَيْدَر        كَخَلْعِ النَّعالِ مِنَ الْأَرْجُل

وَ اَلْبَسْتُها فيكَ بَعْدَ الْاياسِ        كَلُبْسِ الْخَواتيمِ بِالْأَنْمُل

وَ كَمْ قَدْ سَمِعْنا مِنَ الْمُصْطَفى        وَصايا مُخَصَّصَةً فى عَلِىّ؟

وَ فى يَوْمِ خُمّ رَقى مِنْبراً        يُبَلِّغُ وَالرَّكْبُ لَمْ يَرْجُل

وَ فى كَفِّه كَفَّه مُعْلِناً        يُنادى بِاَمْرِ الْعَزيزِ الْعَلِىِّ

وَ قالَ فَمَنْ كُنْتُ مَوْلىً لَهُ        فَهذا لَهُ الْيَوْمَ نِعْمَ الْوَلِىّ

وَ اِنّا وَ ما كانَ مِنْ فِعْلِنا        لَفِى النّارِ فِى الدَّرْكِ الْأَسْفَلِ

***Şeirin tərcüməsi: “”Ey Müaviyyə! Hazırda özünü nadanlığa vuraraq haqq yolu və ədalətdən yayınma (əgər mənim sənə etdiyim xidmətləri unutmusansa, onda, mən sənə xatırladıram: “Siffeyn” döyüşündə Əlinin (ə) qoşunu az qalmışdı ki, sənin xeymələrinə yetişsin, mən onda Quranı nizələrə keçirmək təklifini irəli sürdüm və bu yolla sənin süquta uğramaqdan xilas etdim. Bunlari unutmusanmı?! Dumtul-Cəndəl adlı məntəqədə gerçəkləşən həkəmiyyət məsələsini yaddan çıxarmısan?! Həmin vaxtlarda hiylə ilə Əlini (ə) ayaqdan ayaqqabını soyunar kimi xilafətdən kənarlaşdırdım və xilafət libasını sənin əyninə barmağa üzük taxırmış kimi geyindirdim. (Ey Müaviyyə! Bütün bunlar sənin xilafətə layiq olduğun və sənin haqqın olduğu üçün deyildi, əksinə nəfsimiz bizə qalib gəlmişdi. Yoxsa ki, Əli (ə) Peyğəmbərin (s) həqiqi xəlifəsidir. Peyğəmbər (s) bu məsələni dəfələrlə təkrar etmişdir və biz Qədir-Xumda camaat toplaşmış olduğu halda, o həzrət minbərin üzərinə çıxdı***

---

*üçün göndərməsini əmr etdi. Əmr As Müaviyyəyə çoxlu xidmətlər göstərmiş və bəzən də onun hökumətini süquta uğramaqdan xilas etmişdi. Görəndə ki, Müaviyyə bunları unudur, ona “Cilciliyyə” qəsidəsini yazaraq göndərir. Qəsidə Müaviyyənin əlinə yetişdikdə, guya, öz əməlindən peşiman oldu və belə dedi: “Bundan sonra Əmr As və Misirin xəracı ilə işiniz olmasın! “”*

*1. “Əl-Qədir”, c.2, səh. 114.*

***və Allahın Əli (ə) barəsindəki fərmanını camaata çatdırdı. O zaman Peyğəmbər (s) əlini Əlinin (ə) əlindən tutmuş və yuxarı qaldıraraq uca səslə belə buyurmuşdu: "Mən kimin mövlasıyamsa, bu Əli (ə) də onun mövlasıdır." Biz gərək acı həqiqəti iqrar edək və o, belədir: "Mənimlə sən və bizim əməllərimizə şərik olan kəslər axirətdə cəhhənnəm odunda yanacağıq və bizim yerimiz cəhənnəm (əsfəl) dərəsidir.""***

## 2. Saleh əməlin əhatə dairəsi

İslamın nəzərində saleh əməl çox mühüm əhəmiyyətə malikdir və bu barədə Quranda yetmişdən artıq ayə mövcuddur. Saleh əməlin əhatə dairəsi çox genişdir və Allah rizası yolunda həyata keçirilən hər bir xeyir əmələ şamildir. Saleh əməlin əhatə dairəsini bəyan edən Peyğəmbər (s) hədisində belə oxuyururq:

اَلْاِيمانُ بِضْعَةٌ وَسَبْعُونَ (سِتُّونَ خ ل) شُعْبَةً اَعْلاها شَهادَةُ اَنْ لا اِلهَ اِلَّا اللهُ وَاَدْناها اِماطَةُ الْاذى عَنِ الطَّريقِ

***"İman yetmiş neçə (bəzi rəvayətlərə əsasən altmış neçə) bölmədən ibarətdir ki, onun ən üstünü tövhid kəlməsi olan "la ilahə illəllah"dır və onun ən aşağı həddi müsəlmanların yolu üzərindəki maneələri aradan qaldırmaqdır."[1]***

Bu rəvayətdə saleh əməlin əhatə dairəsinin bildirilməsindən əlavə, İslamın müsəlmanların ən kiçik həyat tərzinə xüsusi diqqət yetirdiyinə və müsəlmanlara həmin cüzi məsələlərə riayət etməli olduğuna işarə edir.

---

*1. "Əvaliul-ləali", c.1, səh. 431. Bu rəvayət "Səhih Müslim", "Kitabul-iman", 12-ci bölmə, hədis 58-də müəyyən fərqlərlə qeyd edilmişdir və onun mətni belədir:*

**لايمان بضع و سبعون، او بضع و ستّون شعبة، فافضلها قول لا اله الاّ الله و ادناها اماطة الاذى عن الطّريق و الحياء شعبة من الايمان**

*Bu rəvayət cüzi fərqlə "Müsnəde Əhməd", c.2, səh. 379-da da qeyd edilmişdir.*

# 10 “SABİQUN” (ÖNCÜLLƏR) AYƏSİ

وَالسّابِقُونَ السّابِقُونَ أُولئِكَ الْمُقَرَّبُون فِى جَنّاتِ النَّعيمِ

***“(Üçüncü dəstə, imanda) öncül (təqvada) qabaqcıllar! Onlar (Allahın dərgahına) yaxın olanlardır. (Onlar) nemət dolu cənnət və bağlarda olacaqlar!”***

*“Vaqiə” surəsi, ayə 10-12.*

### *Bəhsə qısa bir nəzər*

Bu ayələr də həzrət Əlinin (ə) fəzilətlərinə işarə edən ayələrdəndir və sünni alimləri də əksər halda onu etiraf etmişlər. Həmin ayələrdə qiyamətdəki üç dəstədən bəhs edilir ki, burada acılı-şirinli və ibrətamiz mətləblər mövcuddur. Biz gələn bəhslərdə bu barədə danışacağıq.

## *"Vaqiə" surəsinin möhtəvası (əhatə dairəsi)*

"Vaqiə" surəsi digər surələr kimi insana təsir qoyan mətləblərə malik surələrdən biridir. Bu surənin ayələri daha çox ölümdən sonrakı həyat və məad barəsindədir. Onun ilkin ayələri qiyamət nişanələrini bildirməklə başlayır. Yer və göylər bir partlayışla müydana gəldiyi kimi, qiyamət də bu şəkildə yaranacaq. Nəticədə, partlayışla yaranmış dünya partlayışla da sona çatacaq. Qiyamət baş verən zaman yer şiddətli şəkildə lərzəyə gələcək və əzəmətli ağırlığa malik olan dağlar həmin titrəyişdən yerindən çıxaraq asimana atılacaq və səmada bir-birinə elə bir şiddətlə dəyəcək ki, toz halına düşəcək. Dünya məhv olduqdan sonra Allah axirət aləmini yaradacaq və yeni bir asiman və yer xəlq edəcəkdir. Həmin gün insanlar qəbirlərindən çixardılaraq dirildiləcək və üç dəstəyə bölünəcəklər:

***1. Əshabul-məymənəh*** – Bir dəstə bu qrupda daxil olacaq ki, onlar səadətə çatanlardır, iftixar, bərək və xoşbəxtlik onlara məxsusdur.

***2. Əshabul-məşəməh1*** – Bu dəstədən olan kəslər bədbəxt və əməl dəftərləri sol əllərinə verilənlərdir.

***3. Əssabiqunəs-sabiqun*** – Üçüncü dəstədən olanlar hamıdan qabaq və öndə olanlardır. Hamıdan öndə olan bu dəstə üçün Allah xüsusi bir iftixarı nəzərdə tutmuşdur ki, heç kimdə yoxdur. Həmin iftixar Allaha yaxınlıq və qurb məqamıdır. Öncüllər ilahi dərgahda Allaha ən yaxın olanlardır.

Allah bu bölgüdən sonra hər üç dəstənin mükafat və cəzası barədə söhbət açır. Elə bir mükafat və cəzalar ki, onlar barəsində təsəvvür etmək qeyri-mümkün və çox çətindir. Surənin 11-ci ayəsindən 26-cı ayəsinə qədər müqqərəblərin və sabiqunun mükafatlarından danışılır. 27-ci ayədən 40-cı ayəyə qədər sağ tərəf sahiblərinin mükafatından bəhs edilir və 41-ci və sonrakı ayələrdə isə sol tərəf sahiblərinə veriləcək şiddətli əzab haqqında müfəssəl şəkildə məlumat verilir.

---

*1. "Məymənəh" və "məşəməh" sözlərini iki mənada təfsir etmək mümkündür: Birincisi, "bərəkət və səadət" və "bədbəxtlik", ikincisi isə, "sağ" və "sol" mənasında. Bu iki sözün bir-birinə zidd olaraq işlədilməsindən, nəzərdə tutulan məqsədin birinci məna olduğu aydınlaşır. Amma sonrakı ayələrdə əməl dəftərlərinin sağ və sol ələ verilməsindən də məqsədin ikinci məna olduğunu demək mümkündür.*

## Şərh və təfsir

### *"Sabiqun" (oncüllər) kimlərdir?*

**وَ السّابِقُونَ السّابِقُونَ اُولئِكَ الْمُقَرَّبُونَ** – Allah dərgahına hamıdan yaxın və hamıdan öndə olanlar nümunə olmalı və camaatın hidayəti üçün imamət və rəhbərliyi ələ almalıdırlar.

***Sual:*** Hamıdan öndə olanlar və müqərrəblər kimlərdir?

***Cavab:*** "Sabiqun" barədə bir sıra təfsirlər qeyd edilmişdir:

1. İmanda öncül olanlar.
2. Cihad və mübarizədə öncüllər.
3. İbadət və vacib namazlarda öndə olanlar.
4. Tövbə etməkdə öndə olanlar.
5. Allaha itaət etməkdə qabaqcıllar.
6. Cənnətə daxil olmaqda qabaqcıllar.
7. Hicrət etməkdə öncüllər.
8. Xeyir işlər görməkdə öncül olanlar.

Eyni zamanda, digər təfsirlər də nəql edilmişdir.[1] Ayəni təkcə bir fərdə aid etmək olmaz. Bizim nəzərimizcə, ayənin yuxarıda qeyd edilən bütün şəxslərə şamil olmasında heç bir maneə yoxdur və onu daha geniş bir mənada başa düşmək lazımdır ki, bütün öncüllərə şamil olsun. Hər halda, öncüllər böyük iftixara malikdirlər və onlara verilən nemətlər içərisində ən uca qülləni təşkil edən Allaha yaxınlıq məqamıdır. Şübhəsiz, ilahi yaxınlıq və qurb məqamından duyulan ləzzət bütün ləzzətlərdən üstündür.

**فى جَنّاتِ النعيم** – "Cənnatin-nəim" (**جَنّاتِ النعيم**) ifadəsi cənnətdəki maddi və mənəvi nemətlərə şamildir. Həmçinin, bu ifadə ilə dünyadakı zəhmət və yaşayış vəsiləsi olan bağlardan fərqli olaraq cənnətin nemətlər məkanı olmasına da işarə edilə bilər. Dünyada müqərrəb və öndə olanların məqamı məsuliyyətlə birgədir, amma axirətdə isə sadəcə nemətlərlə əlaqəlidir. Görəsən, belə nemətlər "sabiqun"dan başqa, digərlərinə layiqdirmi?! Allah öz lütf və mərhəməti ilə bizi bu dəstəyə tərəf yönəltsin!

### *Həzrət Əli (ə) "Sabiqun"un ən kamil misdaq və nümunəsidir*

Bildirdiyimiz kimi, bu ayənin mənası iman, cihad, tövbə, xeyir əməllər və sairdə qabaqcıl olanlara da şamildir. Rəvayətdə qeyd

---

*1. Bu cümlələr "Nümunə təfsiri", c.23, səh. 204; "Təfsire tibyan", c.9, səh. 490 və "Məcməul-bəyan", c.5, səh. 215-də qeyd edilmişdir.*

edilənlərə uyğun olaraq həzrət Əli (ə) həmin öncüllərin hamısından öndədir. Başqa bir ifadə ilə desək, bu ayənin ən aydın və kamil misdaq və nümunəsi o həzrətdir. Həmin rəvayətlərin bəzilərinə diqqət yetirin:

a) Şiə və sünnilərin qəbul etdikləri məşhur təfsirçi İbn Abbas deyir:

سابِقُ هذِهِ الأُمَّةِ عَلِيُّ بْنُ اَبيطالِب

***"Bu ümmətin öncüllərindən də öndə olan Əli ibn Əbu Talibdir!"*** [1]

b) Ravi digər bir rəvayətdə belə deyir:

يُوشَعُ بْنُ نُونْ سَبَقَ اِلى مُوسى، وَ مُؤْمِنُ آلِ ياسين سَبَقَ اِلى عيسى، وَ عَلِيُّ بْنُ اَبيطالِب سَبَقَ اِلى مُحَمَّد

***"Həzrət Musa (ə) ümmətinin öncüllərindən öndə olan Yuşa ibn Nun, həzrət İsa (ə) ümmətində Həbib Nəccar və həzrət Məhəmmədin (s) ümmətində isə Əli ibn Əbu Talibdir (ə)."*** [2]

c) İslam Peyğəmbəri (s) ən mübarək evlilik olan Fayimeyi-Zəhra (ə) ilə həzrət Əlinin (ə) evliliyi zamanı onların əqdini oxudu və qızına belə buyurdu:

زَوَّجْتُكِ باَوَّلِ مَنْ آمَنَ بِي وَعَرَفَني وَساعَدَني

***"Ey Fatimə! Səni evləndirdiyim şəxs mənə inanaraq ilk iman gətirən, məni tanıyan və birinci olaraq mənə yardım edən kəsdir."*** [3]

Bu və ixtisara riayət etmək məqsədilə nəql edilməsinən daşındığımız digər rəvayətlərdə həzrət Əlinin (ə) öncüllərdən də öndə olması bildirilmişdir. Belə olduğu halda, həzrət Əlidən (ə) başqasının Peyğəmbərin (s) xəlifəsi olmağa ləyaqəti varmı?!

Ərəbin şirin dilli şairi necə də gözəl deyib:

اَلَيْسَ اَوَّلُ مَنْ صَلّى بِقِبْلَتِهِمْ وَ اَعْلَمُ النّاسِ بِالْقُرْآنِ وَ السُّنَنِ

***"Həzrət Əli (ə) Peyğəmbərdən (s) sonra qibləyə tərəf namaz qılan ilkin müsəlman və Peyğəmbərin (s) sünnəsi və Qurana daha yaxşı agah olan şəxs deyilmi? Onda, nə üçün onlardan üstün olan Əlini (ə) qoyub digərlərinin evinə gedirsiniz?"*** [4]

Qeyd edilən rəvayət əhli-sünnənin müxtəlif mənbələrində yazılmışdır. Onlardan onuna işarə edirik:

1. İbn Məğazəli, "Müsnəd"[5]

---

*1. «İhqaqul-həqq», c.3, səh. 114.*

*2. Həmin mənbə, səh. 115.*

*3. «Rovzətul-əhbab», c.3, səh. 10 («İhqaqul-həqq», c.3, səh. 117-dəki nəqlə əsasən).*

*4. Yuxarıdakı şeir Xüzeymə ibn Sabitindir.*

*5. «İhqaqul-həqq», c.3, səh. 114-dəki nəqlə əsasən.*

2. Sibt ibn Cuzi, “Təzkirə”[1]
3. İbn Kəsir Dəməşqi[2]
4. Muhiyyuddin Təbəri, “Ər-Riyazun-nəzrəh”[3]
5. Süyuti, “Durrul-mənsur”[4]
6. İbn Həcər, “Əs-Səvaiqul-muhriqə”[5]
7. Əllamə Şukani, “Fəthul-Qədir”[6]
8. Mirməhəmməd Saleh Tirmizi, “Mənaqibu Murtəzəvi”[7]
9. Alusi, “Ruhul-məani”[8]
10. Qunduzi, “Yənabiul-məvəddəh”[9]

Ayənin həzrət Əli (ə) barəsində nazilolmasını bildirməklə əlaqədar qeyd edilən bütün bu rəvayətlərin mövcudluğu və həzrət Əlinin (ə) var olmasına baxmayarq, Allahın o həzrətdən başqa, hansısa digər bir şəxsi xilafətə təyin etməsinə imkan varmı?!

### *Peyğəmbərin (s) dili ilə “sabiqun”un təfsiri*

Peyğəmbər (s) rəvayətlərin birində buyurmuşdur:

اَلسّابِقُونَ اِلى ظِلِّ الْعَرْشِ طُوبى لَهُمْ

***“Çətin və taqətləri aradan aparan qiyamət günü ilahi ərşin kölgəsinə tərəf irəliləyənlərin xoş halına!”***

**قِيلَ: يا رَسُولَ اللهِ وَمَنْ هُمْ؟**- Həmin şəxslərin kim olması barədə soruşuldu. Bu sualın cavabında Peyğəmbər (s) buyurdu:

1. **اَلذينَ يَقْبَلُونَ الْحَق اِذا سَمِعُوهُ** – “Sabiqun” haqqı eşitdikləri zaman onu qəbul edən kəslərdir. “Sabiqun” haqqı uşaq və hətta düşmənin dilindən belə olsa, qəbul edər və onun müqabilində təəssüb, təkəbbür və inadkarlıq etməz. Əgər səhv etdiklərini anlasalar, onu etiraf və haqqı qəbul edərlər. Onlar bilir ki, səhvi etiraf etmək onu inkar etməkdən asandır.

2. **وَيَبْذُلُونَهُ اِذا سَأَلُوهُ** –“Sabiqun”dan olanların digər bir xüsusiyyəti budur ki, onlardan haqq soruşulduğu zaman, onu bəyan edərlər.

---

1. *«Təzkirə», səh. 21 («İhqaqul-həqq», c.3, səh. 115-dəki nəqlə əsasən).*
2. *«İbn Kəsir təfsiri», c.3, səh. 283 («İhqaqul-həqq», c.3, səh. 115-dəki nəqlə əsasən).*
3. *«Ər-Riyazun-nəzrəh», səh. 157 («İhqaqul-həqq», c.3, səh. 115-dəki nəqlə əsasən).*
4. *«Durrul-mənsur», c.5, səh. 154 («İhqaqul-həqq», c.3, səh. 116-dakı nəqlə əsasən).*
5. *«Əs-Səvaiq», səh. 123 («İhqaqul-həqq», c.3, səh. 116-dakı nəqlə əsasən).*
6. *«Fəthul-Qədir», c.5, səh. 148 («İhqaqul-həqq», c.3, səh. 117-dəki nəqlə əsasən).*
7. *«Mənaqibu Murtəzəvi», səh. 49 («İhqaqul-həqq», c.3, səh. 117-dəki nəqlə əsasən).*
8. *«Ruhul-məani», c.27, səh. 114 («İhqaqul-həqq», c.3, səh. 118-dəki nəqlə əsasən).*
9. *«Yənabiul-məvəddəh», səh. 60 («İhqaqul-həqq», c.3, səh. 118-dəki nəqlə əsasən).*

Onlar heç vaxt haqqı gizləmirlər və düşünmürlər ki, əgər haqqı desələr, ata, ana, qonşu və dostları narahat olar. Haqqı gizlətmək böyük günahlardandır və bu, bildiyin bir məsələ haqqında şəhadət verməkdən də vacibdir. Allah-taala "Bəqərə" surəsinin 283-cü ayəsində buyurur:

وَلا تَكْتُمُوا الشَّهادَةَ وَمَنْ يَكْتُمْها فَإِنَّهُ آثِمٌ قَلْبُهُ وَاللهُ بِما تَعْمَلُونَ عَليمٌ

"(Lazım olan zaman) şəhadəti gizlətməyin! Kim onu gizlətsə, onun qəlbi günahkardır! Allah etdiyiniz əməlləri biləndir!"

3. وَيَحْكُمُونَ لِلنَّاسِ كَحُكْمِهِمْ لِأَنْفُسِهِمْ[1] – "Sabiqun"un digər xüsusiyyəti budur ki, onlar özləri üçün istədikləri şeyi başqalarına da istəyər və sevmədikləri şeyləri digərlərinə də istəməzlər. Başqa bir ifadə ilə desək, öz mənafeləri ilə digərlərinin mənafeyinə eyni gözlə baxarlar. Əlbəttə, bu çox çətindir və əgər biz də bütün bunlara riayət edə bilsək "sabiqun" dəstəsindən ola bilərik.

Əgər bugünkü dünya həmin üç göstərişə əməl etsə, dünya gülüstana çevrilər. Amma təəssüflər olsun ki, bəşər hüququndan dəm vuranlar öz ikiüzlülükləri ilə dünyanı yandırıcı cəhənnəmə çevirmişlər. Hazırda yalançı iddiaçılardan bu sözü eşitdikdə, onu yeni bir mənada başa düşürlər. Həmin məna belədir: "Qüdrətli və qoluzorluların mənafeyini hansı şərtlərdə olursa olsun, mühafizə etmək."

---

*1. «Nəvadirur-Rəvəndi», səh. 15 («Biharul-ənvar», c.66, səh. 403-dəki nəqlə əsasən).*

# 11 “UZUNUN-VAİYƏ” (EŞİDİB YADDA SAXLAYAN QULAQ) AYƏSİ

اِنّا لَمّا طَغَا الْماءُ حَمَلْناكُمْ فِى الْجارِيَةِ لِنَجْعَلَها لَكُمْ تَذْكِرَةً وَ تَعِيَها اُذُنٌ واعِيَةٌ

***“Həqiqətən, biz (Nuhun duası ilə göydən nazil edilən və yerdən qaynayan) su aşıb-daşan zaman sizi(n əcdadınızı) gəmiyə mindirdik. Ona görə ki, bunu (bu hadisəni) sizin üçün bir ibrət edək və eşidən, yadda saxlayan qulaq bunu eşidib yadda saxlasın.”***

*“Əl-Haqqə” surəsi, ayə 11-12*

## *Bəhsə qısa bir nəzər*

Bu ayə də həzrət Əlinin (ə) fəzilətləri ilə bağlı olan ayələrdəndir. Ayə barsində nəql edilən rəvayətlərə uyğun olaraq, Peyğəmbər (s) həzrət Əlinin (ə) barəsində onun da “Uzunun-vaiyə”yə sahib olmasını dua etmişdir. O həzrətin duası qəbul edilmişdir. Ayənin geniş şərhi və “Uzunun-vaiyə”nin mənası ilə bağlı mətləbləri bəhsin davamında bəyan edəcəyik.

## Şərh və təfsir

### Peyğəmbərlərin əhvalatları

Quran təkcə bu surədə deyil, digər surələrdə də peyğəmbərlərin əhvalatlarını müxtəlif prizmalardan diqqət mərkəzində saxlamışdır.

***Sual:*** Görəsən, nə üçün Quranda əvvəlki (keçmiş) ümmətlərin tarixi və peyğəmbərlərin əhvalatı bəyan edilmişdir?

***Cavab:*** Quran insanın təlim və tərbiyə edilməsinə yönəli bir kitabdır və tarix bu baxımdan, mühüm rol oynayır. Bir sözlə, insanın yaşayışı təcrübədir və yaxşı olar ki, o, keçmişdəkilərin təcrübəsindən istifadə etsin. Şair demişkən, insana iki dəfə ömür verilmir ki, birində təcrübə toplasın, ikincisində də onları istifadə eləsin.[1] Allah "Yusif" surəsinin 111-ci ayəsində buyurur:

لَقَدْ كانَ فِى قَصَصِهِمْ عِبْرَةٌ لِأُولِى الْأَلْبابِ

***"Şübhəsiz, onların (peyğəmbərlərin və onların ümmətlərinin) başlarına gələnlərdə ağıl sahibləri üçün bir ibrət vardır."***

"Əl-Haqqə" surəsinin əvvəlki ayələrində də keçmiş peyğəmbərlər və onların ümmətləri barədəki hadisələrə toxunulmuşdur və biz qısa şəkildə həmin ayələrin şərhini qeyd edirik:

**وجاءَ فِرْعَوْنُ وَمَنْ قَبْلَهُ وَالْمُؤْتَفِكَاتُ بِالْخاطِئَةِ**– "Firon da, ondan öncəkilər (kafirlər) də, alt-üst olmuş şəhərlər(in əhalisi – Lut qövmü) günah etdilər və yollarını azdılar (dini əqidə və şəriət məsələlərində yanlış yolla getdilər)!" Ayədəki "mötəfikat" **(مؤتفكات)** sözü "mötəfikə"nin **(مؤتفكه)**cəmidir və mənası "alt-üst olmuş şəhərlər"dir və məqsəd Lut peyğəmbərin qövmüdür. Lut qövmünə əzab nazil olan zaman zəlzələnin şiddətindən evlər elə bir şəkildə darmadağın və viran oldu ki, sanki orada şəhər olmamışdı və daha sonra yağış yağaraq onun qalıqlarını da aradan apardı. Belə bir əzabın nazil olmasına səbəb, ayənin sonunda qeyd edildiyi kimi **(بِالْخاطِئَةِ)** onların günah və pis əməlləri idi.

**فَعَصَوْا رَسُولَ رَبِّهِمْ فَأَخَذَهُمْ أَخْذَةً رابِيَةً** – "Onlar öz Rəbbinin peyğəmbərinə asi oldular, Allah da onları şiddətli bir cəza ilə yaxaladı!" "Rabbihim"

---

*1. Şair bu barədə belə yazır. «Ömrün birində təcrübə toplamaq və digərində onu həyata keçirmək.» (Şeirin farscası belədir: Ta be yeki təcrobe ənduxtən, ba digəri təcrobe bəstən be kar).*

(رَبِّهِمْ) ifadəsi Allahın peyğəmbərlər göndərərək insanları tərbiyə etməsinə işarədir və camaatın bəzisi itaətsizlik edərək günah yolunda addım atdığı üçün onlar cəzaya layiq görülürlər.

إِنَّا لَمَّا طَغَا الْمَاءُ حَمَلْنَاكُمْ فِي الْجَارِيَةِ – "Həqiqətən, biz (Nuhun duası ilə göydən gələn (yağan) və yerdən qaynayan) su aşıb-daşan zaman sizi(n əcdadınızı) gəmiyə mindirdik!" Bu ayə həzrət Nuh (ə) hadisəsinə işarə edir. Yağış göydən sel kimi yağdığı və sular yerdən bulaq kimi qaynadığı zaman, qısa bir müddət ərzində suların səviyyəsi dağlardan hündür oldu və Allahın əmri ilə gəmi düzəltmiş olan Nuh (ə) və onun dininə iman gətirənlər gəmiyə minərək suda qərq olmaqdan nicat tapdılar. Amma müşrik və bütpərəstlik yolunu seçənlər, hətta Nuhun (ə) oğlu da suda boğularaq həlak oldular. Bəli, bir zamanlar dəryadan kənarda gəmi düzəltməklə məşğul olan Nuha (ə) istehza edərək onu dəli adlandıranlar şiddətli tufan və yağış zamanı ilahi əzabdan yaxa qurtara bilməyərək suda qərq oldular və öz əməllərinin cəzasına çatdılar.

لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَا أُذُنٌ وَاعِيَةٌ – "Ona görə ki, bunu (bu hadisəni) sizin üçün bir ibrət edək və eşidib yadda saxlayan qulaq bunu eşidib yadda saxlasın." Keçmiş qövm və peyğəmbərlərin hadisələrini nəql etmək sırf tarixi xüsusiyyətə malik deyil, əksinə onların qeyd edilməsi ibrət və insanların qəflətdən oyanması üçündür ki, eşidən qulaqlar onu eşidib yadda saxlasın. "Vai" (وَعْى) sözü "bir şeyi qəlbdə yerləşdirmək" mənasını verir. Müasir dövrümüzdəki ərəblər də ciddi təlaşa "vai" deyirlər. Nəticədə, "uzunun vaiyə" sözü eşidib yadda saxlayan qulaq deməkdir, yəni bu cür qulaq sahibləri eşitdikləri sözü unutmayan, ona əməl edənlərdir və onlar sözü bir qulağından eşidib o biri qulağından çıxaran kəslər kimi deyillər. Əksinə, hər iki qulaqları ilə eşidir və yadda saxlayırlar. Belə kəslər eşidən qulaq, bəsirətli göz və sağlam qəlbə malikdirlər.

### *"Uzunun vaiyə" (eşidib yadda saxlayan qulaq) sahibi kimdir?*

Ayənin geniş mənaya malik olaraq bütün "uzunun vaiyə"yə şamil edilməsinə baxmayaraq, onun təfsiri ilə bağlı əksər rəayətlərdə qeyd edildiyi kimi, "uzunun vayiə"nin ən yaxşı və ən kamil nümunəsi həzrət Əli ibn Əbu Talibdir (ə).

Bəzi rəvayətlərdə qeyd edilmişdir ki, bu ayə nazil olan zaman Peyğəmbər (s) həzrət Əliyə (ə) xitab olaraq buyurdu:

سَأَلْتُ اللهَ اَنْ يَجْعَلَها اُذُنَكَ يا عَلِىّ

***"Ey Əli! Allahdan istəmişəm ki, səni "uzunun vayiə"dən eləsin."***[1]

Həzrət Əli (ə) deyir: "Bu hadisədən sonra mənim unutduğum bir şey olmadı və Peyğəmbərdən (s) eşitdiyim hər bir mətləbi yadda saxlayırdım." Bəzi rəvayətlərdə Peyğəmbərin (s) əvvəlcə bu duani həzrət Əli (ə) barəsində etdiyi və sonra bu ayənin nazil olduğu bildirilmişdir. İşarə etdiyimiz rəvayət əhli-sünnənin bir sıra mənbəsində qeyd edilmişdir və nümunə olaraq onların bəzisini nəzərinizə çatdırırıq:

1. Qurtubi, "Əl-Camiu li əhkamil-Quran"[2]
2 Əllamə Müttəqi Hindi, "Muntəxəbu kənzil-ummal"[3]
3. Əllamə Alusi, "Ruhul-məani"[4]
4. Əllamə Vahidi Nişaburi, "Əsbabun-nuzul"[5]
5.Əbu Nəim İsfahani, "Hilyətul-övliya"[6]
6. Təbəri öz təfsirində[7]
7. Zəməxşəri, "Kəşşaf"[8]
8. Sələbi təfsirində[9]
9. Əlamə Əndəlisi Məğribi, "Əl-Bəhrul-muhit"[10]
10. Əllamə Gənci, "Kifayətut-talib"[11]

İmamət və vilayət barəsində həddən artıq təəssübkeş olmasına baxmayaraq, Fəxri Razi bu ayə ilə bağlı maraqlı bir hədis nəql etmişdir. O, Peyğəmbərin (s) həzrət Əli (ə) barəsində dua etdiyini söylədikdən sonra Əmirəl-mömininindən (ə) belə bir cümlə nəql edir:

فَما نَسيتُ بَعْدَ ذلِكَ وَ ما كانَ لى اَنْ اَنْساهُ

***"Bu hadisədən sonra mən heç bir şeyi yaddan çıxarmadım və belə***

---

*1. "Əl-Kəşşaf", c.4, səh. 134 ("İhqaqul-həqq", c.3, səh. 149-dakı nəqlə əsasən).*
*2. "Əl-Camiu li əhkamil-Quran", c.18, səh. 264 ("İhqaqul-həqq", c.3, səh. 151-dəki nəqlə əsasən).*
*3. "Muntəxəbu kənzil-ummal", c.5, səh. 148 ("İhqaqul-həqq", c.3, səh. 151-dəki nəqlə əsasən).*
*4. "Ruhul-məani", c.49, səh. 43 ("İhqaqul-həqq", c.3, səh. 153-dəki nəqlə əsasən).*
*5. "Əsbabun-nuzul", səh. 339 ("İhqaqul-həqq", c.3, səh. 148-dəki nəqlə əsasən).*
*6. "Hilyətul-övliya", c.1, səh. 67 ("İhqaqul-həqq", c.3, səh. 148-dəki nəqlə əsasən).*
*7. "Təbəri təfsiri", c.29, səh. 31 ("İhqaqul-həqq", c.3, səh. 147-dəki nəqlə əsasən).*
*8. "Əl-Kəşşaf", c.4, səh. 134 ("İhqaqul-həqq", c.3, səh. 149-dakı nəqlə əsasən).*
*9. "İhqaqul-həqq", c.3, səh. 149-dakı nəqlə əsasən.*
*10. «Əl-Bəhrul-muhit», c.8, səh. 322 ("İhqaqul-həqq", c.3, səh. 151-dəki nəqlə əsasən).*
*11. «Kifayətut-talib», səh. 11 ("İhqaqul-həqq", c.3, səh. 150-dəki nəqlə əsasən).*

***bir şey mümkün də deyildi.”***[1]

Yəni, həzrət Əlinin (ə) qəlbi Peyğəmbərin (s) duasından sonra ilahi vəhyin xəzinəsi və Peyğəmbərin (s) sözlərinin mərkəzi oldu.

## *Şeyx Ruzbəhanın sözlərindəki ziddiyyət*

Əllamə Hillinin sözlərinin inkarı ilə bağlı bir sıra mətləbləri qeyd edən Şeyx Ruzbəhan bu ayəyə yetişdikdə, belə deyir:

**لمّا نزلت هذه الآية، قال رسول الله) صلى الله عليه وآله وسلم ( لعلى(عليه السلام) سألت الله تعالى ان يجعلها اذنك، قال على: «فَما نَسيتُ بَعْدَ هذا شَيْئاً». و هذا يدلّ على علمه و حفظه و فضيلته**

***“Uzunun vaiyə ayəsi nazil olan zaman, Peyğəmbər (s) həzrət Əliyə (ə) xitab olaraq buyurdu: “Allahdan sənin qulaqlarını eşidib yadda saxlayan etməsini istəmişəm.” Həzrət Əli (ə) deyir: “Bu hadisədən sonra heç bir şeyi unutmadım.””***

Şeyx Ruzbəhan yuxarıdakı hədisi nəql etdikdən sonra deyir: “Bu hədis həzrət Əlinin (ə) elm və biliyi, güclü hafizəsi, fəzilət və üstünlüyünə dəlalət edir.”

Bu hədis barəsində özü həzrət Əlinin (ə) şənində belə cümlələr yazdıqdan sonra o, belə deyir: “Amma bu məsələlər Əlinin (ə) Peyğəmbərdən (s) sonra imamət və vilayət məsələsi üçün əsas deyil.”[2] Bu sözlərin cavabı aydındır. İmamətin əsaslarından biri elm və agahlıqdır. İmam Peyğəmbərin (s) canişini olduğu üçün Peyğəmbərin (s) bütün sünnəsindən xəbərdar olmalı, camaatın çətinliklərini həll edə bilməlidir və məlum məsələdir ki, onun elminin yüksək səviyyəli olması zəruridir. Bu cəhətdən, elm və agahlığına görə camaatdan üstün olan bir şəxs xilafət məqamına daha layiqlidir. Beləliklə, biz deyirik: “Əli ibn Əbu Talib (ə) sizin öz etirafınıza əsasən, elm, fəzilət və zəkaya malikdir və bu cəhətdən, digər xilafət iddiaçılarından üstündür. Onda, hansı əql və məntiq belə bir insan olduğu halda, digərlərinin sorağına getməyə icazə verir?!”

Nəticədə, həzrət Əlinin (ə) elm və təqvasına dəlalət edən bu ayə necə ola bilər ki, imamət və xilafətlə əlaqəyə malik olmasın?! Görəsən, bu cür sözlər açıq-aşkar ziddiyyətə malik deyilmi?!

## *Fəxri Razidən zərif bir mətləb*

Fəxri Razi “Uzunun vaiyə” ayəsininin təfsiri barədə aşağıdakı sualları bəyan edir:

---

*1. «Ət-Təfsirul-kəbir», c.30, səh. 107 (“İhqaqul-həqq”, c.3, səh. 149-dakı nəqlə əsasən).*

*2. “İhqaqul-həqq”, c.3, səh. 154.*

Nə üçün bu ayədə “uzunun vaiyə” sözü müəyyən və cəm şəkildə deyil, qeyri-müəyyən və tək halda qeyd edilmişdir? Daha sonra bu sualın cavabında üç mətləbə işarə edir:

1. للايذان الناس بان الوعاة فيهم قلة – Allah-taala bu sözlərlə bizə eşidən qulağa malik olan insanların az və onların tanınmayan olmasını bildirmək istəyir.

2. لتوبيخه النّاس بقلّة من يعى منهم – Həmin ifadənin ikinci xüsusiyyəti budur ki, Allah insanları bu qədər camaat arasında eşidən qulağa malik olanların azlığı ilə tənbeh və məzəmmət edir.

3. للدّلالة على ان الاذن الواحدة اذا وعت و عقلت عن الله فهى السّواد الاعظم عندالله و ان ما سواه لا يلتفت اليهم[1] – Eşidən qulağa sahib olan şəxsin camaat arasında bir nəfər belə olmasına baxmayaraq, onun Allah yanında dəyəri həddən artıqdır, sanki bütün cəmiyyət eşidən qulağa malikdir.

Bu mətləblər və “uzunun vaiyə” ilə əlaqədar həzrət Əli (ə) barəsində qeyd edilən rəvayətlərin təfsirinə diqqət etməklə, belə nəticə çıxır ki, İslam ümmətinin eşidən qulağı həzrət Əlidir (ə) və bu məsələlər ayənin nazil olması və Peyğəmbərin (s) duasının dəyərini bizə aydınlaşdırır.

### *Əli (ə) haqq ilə, haqq da Əli (ə) ilədir*

Peyğəmbər (s) xəlifəsinin bənzərsiz şəxsiyyətinin müxtəlif cəhətləri sizin üçün daha yaxşı aydın olsun deyə, əhli-sünnə mənbələrində də qeyd edilən üç rəvayəti diqqətinizə çatdırırıq:

1. Təbərani Peyğəmbərin (s) vəfalı xanımı Ümmü Sələmənin Peyğəmbərdən (s) nəql etdiklərinə əsaslanaraq yazır:

عَلِىٌّ مَعَ الْقُرْآنِ وَالْقُرْآنُ مَعَ عَلِىٍّ لا يَفْتَرِقانِ حَتّى يَرِدا عَلَىَّ الْحَوْضَ

***“Əli Quranla və Quran da Əli (ə) ilədir və kövsər hovuzunun kənarında mənə yetişincəyə qədər bir-birlərindən heç vaxt ayrılmazlar.”***[2]

***Sual:*** “Quran Əli (ə) ilə, Əli (ə) də Quran ilədir.” sözündəki məqsəd nədir? Yəni, həzrət Əlinin (ə) yanında həmişə Quran var? Yaxud, məqsəd həzrət Əlinin (ə) Quran hafizi olmasıdırmı, yoxsa, Peyğəmbərin (s) məqsədi başqadır?

***Cavab:*** Məqsəd həzrət Əlinin (ə) Quran elmi və təfsirinə malik olmasıdır və Quranın göstərişlərinə əməl etmək həzrət Əlidən (ə) ayrılmaz. Həzrət Əli (ə) Qurana alim və ona əməl edəndir və bu ikisi ondan ayrılan deyil. Bu, Peyğəmbərin (s) digər səhabələrinin heç

---

*1. «Ət-Təfsirul-kəbir», c.3, səh. 107.*

*2. «Nurul-əbsar», səh. 89.*

birində olmayan xüsusi və böyük bir imtiyazdır.

## *Peyğəmbərin (s) həzrət Əlinin (ə) barəsindəki duası*

2. Hakim Nişaburi "Mustədrəkus-səhihəyn" adlı kitabında mötəbər sənədlərlə həzrət Əlinin (ə) Peyğəmbərdən (s) nəql etdiklərinə istinadən yazır:

[1] قالَ: بَعَثَنى رَسُولُ اللهِ ) صلى الله عليه وآله وسلم (اِلَى الْيَمَنِ فقُلْتُ يا رَسُولَ اللهِ بَعَثْتَنى وَاَنـا شابٌّ اَقْضى بَيْنَهُم وَاَنـا لا اَدْرى مَا الْقَضاءُ، فَضَرَبَ صَدْرى ثُمَّ قالَ) صلى الله عليه وآله وسلم: (اللّهُمَّ اهْدِ قَلْبَهُ وَثَبِّتْ لِسانَهُ فَوَ الَّذِي فَلَقَ الْحَبَّةَ ما شَكَكْتُ فى قَضاء بَيْنَ اثْنَيْنِ بَعْدُ

***"Peyğəmbər (s) qəzavət etməklə əlaqədar məni vəzifələndirərək Yəmənə təyin etdi. Mən dedim: "Cavan və qəzavətlə bağlı təcrübəm olmadığı halda, mən Yəmən camaatı arasında necə qəzavət edim? " Peyğəmbər (s) əlini sinəmə qoyaraq belə dua etdi: "İlahi! Onun qəlbini hidayət və dilini də haqqa sabit elə ki, haqqı başa düşsün və onu bəyan etsin." Torpaqdakı toxumu yaran[2] (bitirən) Allaha and olsun ki, Peyğəmbərin (s) duasından sonra heç bir qəzavətimdə şəkk və tərəddüd etmədim."***

Bu rəvayətə uyğun olaraq həzrət Əli (ə) Peyğəmbər (s) duasının bərəkətinə həm düzgün qəzavət edər və həm də heç vaxt qəzavətdə şəkkə düşməzdi (yanılmazdı).

## *Həzrət Əli (ə) ən yaxşı qazidir (hakimdir)!*

3. Bir nəfər İslam Peyğəmbərinin (s) xidmətinə yetişdikdə, belə bir sual verir:

"İnəklə ulağı bir tövləyə salmışdılar. İnək ulağa həmlə edərək onu öldürdü. Bunun hökmü nədir?" Peyğəmbərin (s) hüzurunda olan səhabələr bir-birinin üzünə baxdılar və dedilər ki, heyvanların heç bir məsuliyyəti yoxdur, biri digərini öldürmüşdür. Nə onlardan qisas almaq olar, nə də diyə. Peyğəmbər (s) həzrət Əliyə (ə) xitab edərək soruşdu ki, bu məsələnin hökmü nədir? Həzrət Əli (ə) heyvan sahibllərindən hər iki heyvanın bağlı, hər ikisinin açıq və yaxud da birinin bağlı, digərinin isə açıq olub-olmadığını soruşdu. Cavab verildi

---

*1. Yuxarıdakı rəvayət azaacıq fərqlərlə «Müstədrəkus-səhihəyn», c.3, səh. 135-də nəql edilmişdir(«Nurul-əbsar», səh. 88-daki nəqlə əsasən).*

*2. Bu cür and həddən artıq əhəmiyyətə malikdir və bu cəhətdən məsum imamların cümlələrində çox rast gəlinir. Torpaqdakı dənənin (toxumun) yarılması (bitməsi) müddəti ana bətnindəki uşağın dünyaya gəldiyi vaxtdır, yəni eynilə ana bətnindəki dölə hakim olan qanun və proses həmin toxum üzərində icra edilir.*

ki, ulağın sahibi onu bağlamış, inək sahibi isə onu açıq qoymuşdur. Bu zaman həzrət Əli (ə) buyurdu ki, inək sahibi ulağ sahibinə dəyən xəsarəti ödəməlidir. Peyğəmbər (s) onun qəzavətini təsdiqlədikdən sonra buyurdu:

اَقْضاكُمْ عَلِيٌّ

***“Əli (ə) qəzavətlə bağlı sizin hamınızdan üstün və düzgün qəzavət edəndir.”***[1]

Həzrət Əlinin yuxarıdakı hadisədə qəzavəti şiə fiqhində qəzavət üsullarının ümumi bir qaydasını təşkil edir və o, belədir: “Ən güclü səbəb mübaşir tərəfdən olduğu zaman o, zamindir.” Yuxarıdakı hadisədə inək ulağı qətlə yetirmişdir və bu işi görən inəkdir, amma inəyi bağlamayan sahibi qətlin baş verməsinə səbəbdir. İnək əqlə malik olmadığından, onun sahibi qətl üçün ən güclü səbəbdir deyə, zamindir.[2]

Qeyd edilənlərə əsasən, həzrət Əli (ə) Qurandan ayrılmamaqla yanaşı “uzunun vaiyə” sahibi, qəzavət işlərində ən üstün mütəxəssis, müsəlmanların ən elmlisi və Peyğəmbər (s) səhabələrinin ən fəzilətlisidir.

Bu mətləbə diqqət etməklə, əgər Allah Peyğəmbərə (s) xəlifə və canişin seçmək istəsə, onun hikməti həzrət Əlidən (ə) başqasını seçməyə icazə verərmi?!

Eyni zamanda, bu məsələ ümmətin ixtiyarında qoyulsa, əql sahibləri bütün bu keyfiyyətlərlə yanaşı, həzrət Əlini (ə) qoyub başqalarını seçərmi?!

Bir daha əllərimizi göyə qaldıraraq səmimi qəlbdən Allaha şükr etməliyik ki, belə bir üstün insanın vilayətində olmağı bizə nəsib etmiş və bizi Əli (ə) şiələrindən təyin etmişdir! Həmçinin, bizi həzrət Əlinin (ə) məhəbbəti ilə tanış edən ata-analarımız, bu yolda zəhmət çəkən elm adamları və tarixlər boyu vilayət bayrağını əldən-ələ ötürərək bu ölkəyə qədər gəlib çıxmasında böyük zəhmətlər çəkmiş alimlərə də öz minnətdarllığımızı da bildirməliyik. Bir daha Allahdan bunları diləyək:

İlahi! Həzrət Əlinin (ə) məhəbbətini bizim qəlb və ruhumuzda yerləşdir və bizim qiyamətə qədər nəslimizdən olanları o həzrətin həqiqi şiələrindən elə!

---

*1. «Nurul-əbsar», səh. 88.*

*2. Əgər hansısa bir şəxs digər birini evinə qonaq çağırsa və evində adamlara hücum edən iti olduğunu xəbər verməmiş və qonaq gəldiyində də onu qorumamış olsa, bu halda it gələn qonağa həmlə edərək ona xəsarət yetirsə, ev sahibi dəyən zərəri ödəməkdə zamindir.*

İlahi! Ölümün, qiyamət və hesab-kitabın ən çətin anlarında həzrət Əli (ə) və onun pak xanədanını bizim imdadımıza çatdır!

İlahi! Əməl və rəftarımızla o həzrətin yaxşı şiələrindən olmaq və onların mübarək qəlblərinin bizdən razı olmasına səbəb olmaqda bizə müvəffəqiyyət bəxş elə!

# 12 “SALEHUL-MUMİNİN” (MÖMİNLƏRİN ƏMƏLİSALEHİ) AYƏSİ

إِن تَتُوبَآ إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِنْ تَظاهَرا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ مَوْلاهُ وَجِبْرِيلُ وَصالِحُ الْمُؤْمِنِينَ وَالْمَلائِكَةُ بَعْدَ ذلِكَ ظَهِيرٌ

***“Əgər siz ikiniz (sirri faş edən və onu eşidən) Allaha tövbə etsəniz (çox yaxşı olar. Ona görə) ki, qəlbləriniz (haqdan) dönmüşdür. Əgər ona (Peyğəmbərə) qarşı bir-birinizə kömək olsanız, belə isə (bilin ki,) şübhəsiz, Allah özü, Cəbrayil və möminlərin əməlisalehi onun köməkçiləridir və bunlardan sonra (ona) mələklər də arxadırlar.”***

*“Təhrim” surəsi, ayə 4*

### Bəhsə qısa bir nəzər

“Salehul-muminin” adı ilə məşhur olan bu ayə də əhli-sünnə və şiələrin etirafına əsasən, həzrət Əlinin (ə) çoxlu saydakı fəzilətlərindən birinə işarə edir. Bu yənin o həzrətin fəziləti və onun vilayətlə rabitəsinin necəliyi barədə bəhsin davamında söhbət açacağıq.

### *Ayənin nazilolma səbəbi*

Bu ayə "Təhrim" surəsinin dördüncü ayəsidir. Surənin əvvəlki ayələrinin nazilolmasının səbəbi barədə şiə və əhli-sünnə tarix, təfsir və hədis kitablarında çoxlu rəvayətlər qeyd edilmişdir və onlardan ən mühümü aşağıdakı kimidir:

Peyğəmbər (s) xanımlarından biri olan Zeynəb bint Cəhşin yanına getdiyi zaman o, hazırladığı balı Peyğəmbərə (s) gətirərdi. Bu məsələ o həzrətin digər qadınlarından olan Ayişənin qulağına yetişdikdə, onun üçün dözülməz oldu. Ayişə deyir: "Mən Həfsə ilə (Peyğəmbərin qadınıdır) sözü bir yerə qoyaraq qərara gəldik ki, Peyğəmbər (s) bizdən hansı birimizin yanına gəlsə, ona belə deyək: "Yenə də səmğu məğafir[1] yemisiniz?" Peyğəmbər həmişə ağız və paltarından gözəl iyi gəlməsinə çalışar və pis iyilərin gəlməsindən çəkinərdi. Əgər bizim planımız baş tutsa və Peyğəmbəri (s) inandıra bilsəydik ki, onun ağzından xoşagəlməz iyi gəlir, bu zaman o baldan yeməyəcəkdi. Bu minvalla, Peyğəmbər (s) bir gün Həfsənin yanına gəldikdə, həmin sözləri dedi. Peyğəmbər (s) buyurdu ki, mən məğafir yeməmişəm, əksinə Zeynəbin verdiyi baldan yemişəm. And içirəm ki, bir daha o baldan yeməyim (ola bilsin ki, onu hazırlayan arı münasib bitkidən deyil, məğafirdən istifadə etmiş olsun).

Məbada, bu sözləri kiməsə deyəsən (birdən, camaatın qulağına yetişər və deyərlər ki, nə üçün Peyğəmbər (s) halal yeməyi özünə haram etmişdir və ya Zeynəbin qulağına çatar və onun qəlbi qırılar)!" Amma Həfsə bu sirri faş elədi və sonradan məlum oldu ki, həmin məsələ bir hiylə və plan imiş.

Bu hadisədən Peyğəmbər (s) çox narahat oldu və yuxarıdakı ayə nazil olaraq Peyğəmbərin (s) qadınlarına belə işləri görməyi qadağan etdi, çünki bu gün kiçik sayılan bir hadisə, sabah daha da böyük[2] bir məsələyə çevrilə bilər.

Bəzi rəvayətlərdə bu hadisədən sonra Peyğəmbərin (s) öz qadınlarından bir ay müddətində kənarlaşdığı da qeyd edilmişdir.[3] Hətta Peyğəmbərin (s) o iki qadına talaq verəcəyi şayiəsi də yayılmış

---

*1. Bir maddə idi ki, Hicazdakı Urfut adlı ağacdan alınırdı və çox pis iyiyə malik idi.*

*2. Bu məsələnin əsli «Səhih Buxari», c.6, səh. 194-də nəql edilmişdir və mötərizədə qeyd edilənlər digər kitabdan qeyd edilmişdir («Nümunə təfsiri», səh. 2 və 271).*

*3. «Qurtubi təfsiri» və digər təfsirlərdə yuxarıdakı ayə ilə əlaqədar qeyd edilmişdir («Nümunə təfsiri», c.24, səh. 272).*

və onlar bu işdən çox qorxaraq[1] öz əməllərindən peşman olmuşdular.

## Şərh və təfsir

### Peyğəmbərin (s) köməkçiləri

Barəsində bəhs etdiyimiz ayənin daha yaxşı anlaşılması üçün məcburən ondan əvvəlki ayələrə də icmali şəkildə nəzər salmağımız lazımdır. Şübhəsiz ki, İslam Peyğəmbəri (s) kimi əzəmətli bir şəxsiyyət təkcə özünə deyil, cəmiyyət və bütün bəşəriyyətə də bağlıdır. Bu baxımdan, onun ailəsində özünə qarşı hansısa bir plan və hiylə qurulursa, hətta, kiçik olmasına baxmayaraq, onu asanlıqla görməzdən gəlmək olmaz. Peyğəmbərin (s) heysiyyəti – nəuzubilləh – kiminsə oyuncağına çevrilməməlidir və əgər belə bir məsələ qarşıya çıxarsa, onunla ciddi şəkildə rəftar olunmalıdır ki, belə iş daha mühüm məsələlərə sirayət eləməsin. “Təhrim” surəsinin ilkin ayələrində Allah tərəfindən bu cəhətdən ciddi şəkildə rəfdar edilməsi və o həzrətin heysiyyənin qorunması əmr edilmiş və buyurulmuşdur:

يا اَيُّهاَ النَّبِىُّ لِمَ تُحَرِّمُ ما اَحَلَّ اللهُ لَكَ تَبْتَغى مَرْضاتِ اَزْواجِكَ

***“Ey Peyğəmbər, niyə Allahın sənə halal etdiyini (bal yeməyi və zövcə ilə yaxınlıq etməyi and içməklə) özünə haram edirsən?! Bununla (yerinə yetirlməsi daha münasib olan bu işi tərk etməklə) zövcələrinin razılığını arayırsan?!”***

Aydın məsələdir ki, bu cür məhrumetmə şəri məhrumetmə deyil. Sonrakı ayələrdən başa düşülür ki, bəzi mübah məsələlərin tərk edilməsi ilə bağlı and içməyin günahı yoxdur. Beləliklə, “limə tuhərrimu” (لِمَ تُحَرِّمُ) – yəni, “Niyə özünün məhrum edirsən?” ifadəsi məzəmmət deyil, şəfqət baxımındandır. Bu məsələ gəlir əldə etmək üçün həddən artıq çalışan, amma özü üçün bir xeyir götürmətyən şəxsə deyilən “Nə üçün özünə bu qədər zəhmət verir və əldə etdiyin gəlirdən özün üçün istifadə etmirsən?” ifadəsinə bənzəyir.

**وَاللهُ غَفُورٌ رَحيمٌ** – Sonunda isə buyurur: “Allah bağışlayan və rəhm edəndir.” Bu rəhmət və bağışlamaq həmin hadisələrə səbəb olan və səmimi qəlbdən tövbə edən qadınlara şamildir. Ya da ayədə Peyğəmbərin (s) and içməməsinin daha yaxşı olmasına və bu yolla o həzrətin digər qadınlarının da cürət eləməməsinə işarə edilmişdir.

Sonrakı ayəyə belə əlavə olunur: **قَدْ فَرَضَ اللهُ لَكُمْ تَحِلَّةَ اَيْمانِكُمْ** – “Şübhəsiz, Allah (belə yerlərdə) andlarınızı geri götürməyi sizin üçün

1. «Təfsiru fi zilal», c.8, səh. 163.

qoymuş və caiz etmişdir (ki, əksini etsəniz kəffarə verəsiniz).” Amma elə məsələlər var ki, onlar barəsində and içsəniz, onu poza bilməzsiniz və əgər pozsanız, kəffarəsi vardır. Yuxarıdakı ayədə nəzərdə tutulan kimi and içmək və onu pozmaq olar, lakin andın ehtiramını qorumaq məqsədilə kəffarə verilsə, daha yaxşı olar.

وَاللهُ مَوْلاكُمْ وَهُوَ الْعَليمُ الْحَكيمُ

***“Allah (dini və dünyəvi cəhətdən həmişə) sizin mövlanızdır (haminizdir) və o, (hər şeyi) bilən və hikmət sahibidir.”***

Allah bu cür andlar zamanı nicat yolunu sizə müəyyən edərək bildirmişdir. Rəvayətdən belə başa düşülür ki, bu ayə nazil olduqdan sonra Peyğəmbər (s) bir qul azad etdi və and içməklə özünə haram etdiyi şeyi halal elədi.

Aşağıdakı ayədə bu hadisə ilə bağlı daha artıq şərh verilmişdir və ayə belədir:

وَاِذْ اَسَرَّ النَّبِيُّ اِلى بَعْضِ اَزْواجِه حَديثاً فَلَمّا نَبَّأَتْ بِه وَاَظْهَرَهُ اللهُ عَلَيْهِ عَرَّفَ بَعْضَهُ وَاَعْرَضَ عَنْ بَعْض

***“(Yada salın) bir zaman Peyğəmbər zövcələrindən birinə (bir neçə mətləbə aid olan) bir sözü gizlində demişdi. O (qadın) onu (o sözü eyğəmbərin digər zövcəsinə) xəbər verdikdə, Allah Peyğəmbəri onun xəbər verməsindən agah etdi. Peyğəmbər (onun faş etdiklərinin) bəzisini (zövcəsinə) izhar etdi və bəzisindən vaz keçdi.”***

Bu sirrin nə olması və onun Peyğəmbərin (s) hansı zövcəsi tərəfindən faş edildiyini ayənin nazilolma səbəbi ilə bağlı bəhsdə diqqətinizə çatdırmışdıq. Ayələrin məcmusundan məlum olur ki, Peyğəmbərin (s) bəzi zövcələri onu narahat etməklə yanaşı, zövcələrin vəfalılığı ilə bağlı şərtlərdən sayılan sirri saxlamağı da bacarmırdılar və vəfalı deyildilər. Amma əksinə, Peyğəmbər (s) onlardakı bu xüsusiyyətlərə baxmayaraq, onlarla yaxşı rəftar edirdi və hətta razı deyildi ki, onların söylədiyi sözlərin hamısını zövcələrin üzünə desin. Bu səbəbdən, həmin sözlərin bir qismini onlara bildirmişdi. Həzrət Əlinin (ə) söylədiyi hədislərin birində buyururlur:

ما اِسْتَقْصى كَريمٌ قَطُّ لاِنَّ اللهَ يَقُولُ عَرَّفَ بَعْضَهُ وَاَعْرَضَ عَنْ بَعْض

***“Kərim və böyük şəxsiyyətlər haqlarının tələbi ilə bağlı öz şəxsiyyətlərini sonuna qədər önə çəkməzlər. Allah bu barədə Peyğəmbərlə bağlı buyurur: “O, məsələnin bir qismini onlara danıdı və digər qismindən vaz keçdi.””***[1]

1. *«Əl-Mizan», c.19, səh. 338.*

Daha sonra yuxarıda qeyd etdiyimiz hadisədə əlləri olan iki nəfər barədə Allah bu sözləri buyurur:

إِنْ تَتُوبَا إِلَى اللهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا – ***“Əgər siz ikiniz (sirri faş edən və onu eşidən) Allaha tövbə etsəniz (çox yaxşı olar. Ona görə) ki, qəlbləriniz (haqdan) dönmüşdür.”***

İki nəfərdəki məqsədin əhli-sünnə və şiə təfsirçilərinin bildirdiyinə əsasən, Ömərin qızı Həfsə və Əbu Bəkrin qızı Ayişə olduğu məlum olur.[1]

Əgər o iki nəfər bu işləri bir daha təkrar etsəydi, çox təhlükəli hadisələrə gətirib çıxara bilərdi və Allah onlara xitab olaraq buyurur:

وَإِنْ تَظاهَرا عَلَيْهِ فَإِنَّ اللهَ هُوَ مَوْلاهُ وَجِبْرِيلُ وَصالِحُ الْمُؤْمِنِينَ وَالْمَلائِكَةُ بَعْدَ ذلِكَ ظَهِيرٌ

***“Əgər ona (Peyğəmbərə) qarşı bir-birinizə kömək olsanız, belə isə (bilin ki,) şübhəsiz, Allah özü, Cəbrayıl və möminlərin əməlisalehi onun köməkçiləridir və bunlardan sonra (ona) mələklər də arxadırlar.”***

Ayədən məlum olur ki, bu hadisə Peyğəmbərin (s) mübarək qəlbini çox narahat edərək onun ruhuna mənfi təsir qoymuşdur. Allah da Peyğəmbəri (s) müdafiə edərək özünün (baxmayaraq ki, onun qüdrəti təklikdə kifayətdir), Cəbrayıl, möminlərin salehinin də o həzrətə yardım edəcəyini bildirir.

## *“Salehul-muminin” kimdir?*

Bəhsdədiqqətiçəkənməsələlərdənbiridəmöminlərinəməlisalehinin (salehul-muminin) kim olmasıdır. Görəsən, burada məqsəd xüsusi bir şəxsdir, yoxsa, ayə bütün əməlisaleh olan möminlərə də şamildir? Şübhəsiz ki, zahirindən “Salehul-muminin” sözü tək halda işlədilmiş və bütün əməlisaleh, təqvalı və kamil imanlı möminlərə də şamildir. Çünki “saleh” sözü ümumilik bildirir və ümüumi mənada istifadə edilə bilər. Aydın məsələdir ki, “Salehul-muminin”in ən kamil bir nümunəsi var və o, əksər rəvayətdən əldən edilənlərə əsasən, Əmirəl-möminin Əli ibn Əbu Talibdir (ə). Bu mətləbi əhli-sünnə alimlərinin çoxu öz kitablarında nəql etmişlər. O cümlədən:

1. Əllamə Sələbi[2]

---

*1. İbn Abbas deyir ki, Ömərdən Peyğəmbərin əleyhinə bir-biri ilə əlbir olan qadınların kim olduğunu soruşduğumda, cavab verdi ki, Həfsə və Ayişə idi. Daha sonra sözlərinə əlavə etdi: “Allaha and olsun ki, biz cahiliyyət zamanı qadınların hansısa bir hüquqa sahib olmasına etiqad bəsləmirdik. Allah onlar barəsində ayə nazil etdi və onlar üçün hüquqular nəzərdə tutdu (və qadınlar cürətə gəldilər).” (“Səhih Buxari, c.6, səh. 195 (“İhqaqul-həqq”, c.3, səh. 311-dəki nəqlə əsasən).*

*2. «Əl-Umdətu libni Bətriq», səh. 152 (“İhqaqul-həqq”, c.3, səh. 311-dəki nəqlə əsasən).*

2. Əllamə Gənci, "Kifayətut-talib"[1]
3. Əbu Həyyan Əndəlisi[2]
4. Sibt ibn Cuzi[3]
5. Süyuti, "Durrul-mənsur"[4]
6. Alusi, "Ruhul-məani"[5]
7. Hakim Həskani, "Şəvahidut-tənzil"[6]
8. Əllamə Bursuyi, "Ruhul-bəyan"[7]
9. İbn Həcər, "Əs-Səvaiq"[8]
10. Əlauddin Müttəqi, "Kənzul-ümmal"[9]

Təkcə Hakim Həskani Hənəfi bu ayə barəsində müxtəlif vasitələrlə on səkkiz hədis nəql etmişdir ki, onların hamısı "Salehul-muminin"dəki məqsədin Əli ibn Əbu Talib olmasını bildirir. Onlardan üçünü diqqətinizə çatdırırıq:

1. Əsma bint Üméys Peyğəmbərin belə dediyini nəql edir:

صالِحُ الْمُؤْمِنينَ عَلِيُّ بْنُ اَبيطالِب

***"Salehul-muminin Əli ibn Əbu Talibdir."*** [10]

2. İbn Abbas Peyğəmbərdən (s) belə nəql edir:

هُوَ صالِحُ الْمُؤْمِنينَ

***"Möminlərin əməlisalehi odur."***[11]

3. Əmmar Yasir həzrət Əlidən (ə) Peyğəmbərin (ə) onu yanına çağıraraq belə buyurduğunu nəql edir:

اَلا اُبَشِّرُكَ؟ قُلْتُ: بَلى يا رَسُولَ اللهِ وَمازِلْتَ مُبَشِّراً بِالْخَيْرِ! قالَ: قَدْ اَنْزَلَ اللهُ فيكَ قُرْآناً. قُلْتُ: وَما هُوَ يا رَسُولَ اللهِ؟ قالَ: قُرِنْتَ بِجَبْرَئيلِ ثُمَّ قَرَءَ: وَجِبريلُ وَصالِحُ الْمُؤْمِنينَ...

***"Sənə müjdə verimmi? Dedim: "Bəli, ey Allahın Rəsulu. Siz həmişə xeyirlə müjdə vermisiniz." Buyurdu ki, Allah sənin barəndə ayə nazil etmişdir. Mən hansı ayə olduğunu soruşdum. Peyğəmbər (s) buyurdu ki, sən Cəbrayılla bir sıradasan (bəli, Alah səni ona yaxın etmişdir).***

1. *«Kifayətut-talib», səh. 53 ("İhqaqul-həqq", c.3, səh. 311-dəki nəqlə əsasən).*
2. *«Əl-Bəhrul-muhit», c.8, səh. 291 ("İhqaqul-həqq", c.3, səh. 312-dəki nəqlə əsasən).*
3. *«Ət-Təzkirəh» səh. 267 ("İhqaqul-həqq", c.3, səh. 312-dəki nəqlə əsasən).*
4. *«Durrul-mənsur», c.6, səh. 244 ("İhqaqul-həqq", c.3, səh. 313-dəki nəqlə əsasən).*
5. *«Ruhul-məani», c.28, səh. 135 ("İhqaqul-həqq", c.3, səh. 314-dəki nəqlə əsasən).*
6. *«Şəvahidut-tənzil", c.2, səh. 254.*
7. *«Ruhul-bəyan", c.10, səh. 53.*
8. *«Quranın mesajları", c.9, səh. 299-dakı nəqlə əsasən.*
9. *Yenə orda.*
10. *«Şəvahidut-tənzil", c.2, səh. 254, hədis.982.*
11. *«Şəvahidut-tənzil", c.2, səh. 257, hədis.987.*

***Daha sonra isə o həzrət bu ayəni oxudu:...*** وَجِبرِيلُ وَصالِحُ المُؤْمِنينَ ***"***[1]

Xülasə, bu barədə hədislər həddən artıqdır. Məşhur təfsirçi Bəhrani "Burhan" təfsirində bu zəminədəki rəvayətləri nəql etdikdən sonra Məhəmməd ibn Abbasdan onun şiə və əhli-sünnə vasitəsi ilə əlli iki rəvayət topladığını bildirir və daha sonra həmin rəvayətlərin bir qismini nəql edir.[2] Nəticədə, Allah və Cəbrayıldan sonra Peyğəmbərə (s) ömrü boyu yardım edən kəsin Əli ibn Əbu Talib (ə) olduğu məlum olur. Buna əsasən, ondan başqa, kim Peyğəmbərin (s) xəlifə və canişini olmağa daha layiqlidir? Görəsən, bu rəvayətlər həzrət Əlinin (ə) Peyğəmbərdən (s) sonra ümmətin ən üstün və fəzilətlisi olduğuna dəlil deyilmi? Belə olduğu halda, Allah Peyğəmbərə (s) canişin təyin edərsə, o həzrətdən başqasını seçməyə Allahın hikməti yol verərmi? Əgər Peyğəmbərə (s) canişin seçmək ağıllı insanların ixtiyarında qoyularsa, onlar Allah və Cəbrayıldan sonra Peyğəmbərə (s) yardımçı olmuş həzrət Əlidən (ə) başqasının sorağına gedərmi? Bəli, həzrət Əli (ə) bütün ömrü boyu Peyğəmbərlə (s) çiyin-çiyinə verərək o həzrətin yardımçısı olmuş və canişinlik məqamına da hamıdan daha ləyaqətlidir.

## *Ayənin verdiyi mesajlar*

"Salehul-muminin" ayəsi hamıya doğruluq, saleh əməlli və imanlı olmaq mesajı verir. Eyni zamanda, ayə Əmirəl-mömininin (ə) ardıcıllarına tövsiyə edir ki, onlar sadəcə İslamı qəbul etməklə kifayətlənməsinlər və çalışsınlar ki, iman mərhələsinə yetişərək onu bütün bədən üzvlərində nişan verə və onlara aşılaya bilsinlər və beləliklə, möminlərin əməlisalehinə çevrilsinlər.

*1. «Şəvahidut-tənzil", c.2, səh. 259, hədis.989.*

*2. «Burhan təfsiri", c.4, səh. 353.*

# 13 “İNZAR VƏ HİDAYƏT” (QORXUTMA VƏ HİDAYƏT) AYƏSİ

وَيَقُولُ الَّذينَ كَفَرُوا لَوْلا اُنْزِلَ عَلَيْهِ آيَةٌ مِنْ رَبِّهِ إِنَّما اَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْم هـاد

***“Küfr edənlər “Nə üçün ona Rəbbi tərəfindən (Salehin dəvəsi, Musanın əsası və İsanın süfrəsi kimi) bir nişanə və möcüzə nazil olmamışdır?!”- deyirlər. Əslində, sən yalnız bir qorxudansan (və möcüzə sənin ixtiyarın və onların seçimi ilə deyil, Allahın əlindədir) və (bəşər cəmiyyətindən olan) hər bir dəstə üçün bir doğru yol göstərən (ya Peyğəmbər, ya imam ya da rəhbər) vardır.”***

*“Rəd” surəsi, ayə 7*

### *Bəhsə qısa bir nəzər*

Bu ayə də Əmirəl-mömininin (ə) vilayəti ilə əlaqədar olan ayələrdən biridir və alim və təfsirçilər onun barəsində müxtəlif şəkildə bəhs etmişlər. Rəvayətlərdən bu ayənin təkcə Əmirəl-mömininin (ə) deyil, əksinə bütün imamların vilayət və imamətini təsdiq etdiyi məlum olur. Bu məsələnin şərhini bəyan edəcəyik.

*Şərh və təfsir*

## *Yenə də bəhanə axtarışında*

وَيَقُولُ الذينَ كَفَرُوا لَوْلا أُنزِلَ عَلَيهِ آيَةٌ مِنْ رَبِه – Ayənin zahirindən kafirlərin məntiqli bir şəkildə tələbə malik olduqları başa düşülür. Çünki Allah tərəfindən göndərildiyini bildirən Peyğəmbərin (s) özünun haqq olduğunu sübut etməsi üçün möcüzə gətirməsi adət halını almışdı. Bu ayədə də kafirlər İslam Peyğəmbərindən (s) möcüzə göstərməsini istəyirlər. Allah onların zahirdə məntiqi və əqli tələblərinə cavab olaraq buyurur:

إِنما أَنتَ مُنْذرٌ وَلِكُلِ قَوم هـادٍ

***"Ey Peyğəmbər! Sən sadəcə qorxudansan və hər bir ümmətin öz hidayətçisi vardır."***

## *Ayənin əvvəli ilə axırındakı tənasüb*

Sual: Görəsən, ayənin əvvəli ilə sonu arasında tənasüb varmı? Peyğəmbərdən (s) möcüzə gətirməsini istəyən kafirlərin cavabında deyilən "Sən sadəcə qorxudansan və hər bir qövmün öz hidayətçisi vardır." cümləsi münasib cavabdırmı?

***Cavab:*** Bu sualın cavablandırılması və ayənin əvvəli ilə sonu arasındakı irtibatı başa düşmək üçün Quranın kafirllərin Peyğəmbərdən (s) möcüzə tələb etməsi ilə bağlı digər ayələrinə müraciət etməyimiz lazımdır. Allah "İsra" surəsinin 90-93-cü ayələrində müşriklərin dilindən buyurur:

وَقالُوا لَنْ نُؤمِنَ لَكَ – "Müşriklər Peyğəmbərə (s) dedilər ki, biz sənə heç vaxt iman gətirməyəcəyik!" Əlbəttə, onlar Peyğəmbərin (s) möcüzə göstərdiyin halı istisna etmiş və o həzrətdən yeddi möcüzə istəmişdilər. Həmçinin, qeyd etmişlər ki, göstərdiyn möcüzələr bizim istək və meylimizə görə, yəni biz istəyəndə olmalıdır, yoxsa, heç bir əhəmiyyətə malik deyil.[1]

Ayənin zahirindən belə başa düşülür ki, onların istədikləri yeddi möcüzə bir nəfərə məxsus deyildi və hər biri ayrı-ayrılıqda möcüzə göstərilməsini tələb edirdi.

1. حَتّى تَفْجُرَ لَنا مِنَ الأرضِ يَنبُوع – Onların istədikləri birinci möcüzə

---

*1. Bu əyənin nazilolma səbəbi ilə bağlı şərhi "Nümunə təfsiri", c.12, səh. 279-dan mütaliə edin.*

bu idi ki, Peyğəmbər (s) Hicazın yandırıcı, susuz və quru ərazisində insanların ondan içə və heyvanlarını suvara biləcəyi bir bulaq əmələ gətirsin və həmin bulaq fəvvarə kimi yerdən fışqırsın.

2. أَوْ تَكُونَ لَكَ جَنَّةٌ مِنْ نَخِيلٍ وَعِنَبٍ فَتُفَجِّرَ الْأَنْهَارَ خِلَالَهَا تَفْجِيرًا – "Yaxud, sənin xurma və üzüm ağaclarından elə bir bağın olsun ki, onların arasından çoxlu çaylar axıdasan." Onların istədikləri bu iki möcüzə ədəbli şəkildə və qəbul olunası idi.

3. أَوْ تُسْقِطَ السَّمَاءَ كَمَا زَعَمْتَ عَلَيْنَا كِسَفًا – "Yaxud da göyü, güman etdiyin (və bizi onunla qorxutduğun) kimi parça-parça bizim başımıza tökəsən."

4. أَوْ تَأْتِيَ بِاللَّهِ وَالْمَلَائِكَةِ قَبِيلًا – "Və ya Allah və mələkləri dəstə-dəstə bizim qarşımıza gətirəsən." İnsan tərslik və inadkarlıq etdiyi zaman dediyi sözlərə də diqqət yetirmir. Onlar demədilər bizi Allah və mələklərin yanına apar, dedilər ki, Allah və mələkləri bizim yanımıza gətir.

5. أَوْ يَكُونَ لَكَ بَيْتٌ مِنْ زُخْرُفٍ – "Yaxud da, sənin qızıldan (və rəngarəng zinət əşyalarından) bir evin olsun."

6. أَوْ تَرْقَى فِي السَّمَاءِ – "Ya da göyə tərəf qalxasan."

7. وَلَنْ نُؤْمِنَ لِرُقِيِّكَ حَتَّى تُنَزِّلَ عَلَيْنَا كِتَابًا نَقْرَؤُهُ – "Bizə oxuya biləcəyimiz bir yazı gətirməyincə, göyə qalxmağına (da) əsla iman gətirmərik!"

Diqqət etdiyiniz kimi, bu cür möcüzələrin bəzisi əqli baxımdan mümkün və bəziləri də onların həlakətinə səbəb olacaq şəkildə idi.

Kafirlərin üçüncü qisimdən olan istəkləri qeyri-mümkün idi. Dördüncü qisimdən olanlar isə möcüzə istəmək deyil, inadkarlıq idi. Əgər peyğəmbərlər camaatın istəyinə əsasən möcüzələr göstərsə, onda, hər gün onlardan biri möcüzə istəyərək Allah dinini oyun-oyuncağa çevirər. Bu baxımdan, Allah peyğəmbərlərə elə aydın və aşkar möcüzələr verir ki, onların peyğəmbərliyi sübuta yetsin və inadkar insanların istəklərinə əhəmiyyət verilmir.

Bütün bu müfəssəl izahdan sonra bir daha ayənin üzərinə qayıdaq. Kafirlər dedilər ki, nəı üçün Allahdan bir möcüzə İslam Peyğəmbərinə (s) nazil olmamışdır? Bu sualın cavabında deyirik ki, Peyğəmbərə (s) möcüzə verilmişdi və onun oxşarını gətirmək baxımından, bütün insanlar və cinlər aciz idi. Həmin surənin ("İsra") 88-ci ayəsində belə buyururlur:

قُلْ لَئِنِ اجْتَمَعَتِ الإِنْسُ وَالْجِنُّ عَلى أَنْ يَأْتُوا بِمِثْلِ هـذَا الْقُرآنِ لا يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كـانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيراً

***"De: "Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta, bir-birlərinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər (çünki onu vücud, qüdrət və elm baxımından bütün varlıq aləmini əhatə etmiş bir qüvvə yaratmışdır).""***

İslam Peyğəmbəri (s) bundan əlavə möcüzələr də göstərmişdir ki, bəhanə axtaranların səsi kəsilsin. Allah Peyğəmbərə (s) bildirir ki, ey Peyğəmbər (s), sən möcüzənin göstərilməsi ilə bağlı qərar qəbul etməyə sahib deyilsən və hər bir ümmət üçün hidayətçilər vardır. Bu məsələdə qərar qəbul edən bizik. Nəticədə, Ayənin əvvəli ilə sonu arasındakı tənasüb və uyğunluq aydın oldu.

## *"Munzir" (qorxudan) və "hadi" (hidayətçi) kimdir?*

Ayə üçün açar rolunu oynayan bu sözləri iki yolla təfsir etmək olar:

### Birinci yol: Ayəni rəvayətləri nəzərə almadan təfsir etmək

Ayənin mənası Peyğəmbərin (s) həm "munzir", həm də "hadi" olmasıdırmı? Yoxsa, o həzrət sadəcə "munzir"dir və "hadi" digər bir şəxsdir?

Bu iki sözün təfsiri barədə üç nəzəriyyə mövcuddur:

1. Bəziləri Peyğəmbərin (s) həm "qorxudan", həm də "hidayətçi" olmasına etiqadlıdırlar və bildirirlər ki, hidayətçi şəxs digər biri deyil. Amma həqiqət burasındadır ki, bu sözlər doğru sözlər deyil və ayənin zahiri ilə uyğun gəlmir. Həmçinin, ayənin fəsahət və bəlağəti ilə də uzlaşmır. Əgər hər iki söz Peyğəmbərə (s) şamil olsaydı, ayə belə olmalı idi:

أَنْتَ لِكُلِّ قَوْم مُنْذِرٌ وَهاد

Yəni, "hadi" sözü ayrıca və müstəqil bir cümlədə işlənməzdi. Nəticədə, ayənin zahirindən "hadi" (هادٍ)sözünün İslam Peyğəmbərindən (s) başqa, digər şəxsə də şamil olması məlum olur. Başqa ayələrə istinad edərək həmin şəxsin kim olmasını öyrənmək lazımdır.

2. Bəziləri "munzir" sözünün İslam Peyğəmbərinə (s) və "hadi" sözünün isə Allaha şamil olduğu əqidəsindədirlər. Yəni, Peyğəmbər (s) insanları qorxudan, Allah isə millət və qövmləri hidayət edəndir.

Deməliyik ki, bu nəzəriyyə də ayənin zahiri ilə uyğun gəlmir, çünki "hadi" sözü burada qeyri-müəyyən bir halda işlənmişdir və Allah isə

müəyyən və hər kəsdən daha yaxşı tanınandır, həmçinin, bildirilmişdir ki, müxtəlif qövmlərin hidayətçiləri vardır, nəinki, bir hidayətçisi. Bu cəhətdən, həmin nəzəriyyə düzgün deyil.

3. Üçüncü nəzəriyyə hidayətçi şəxsin Peyğəmbər (s) və Allahdan başqa, digər biri olmasıdır. Görəsən, ayənin nəzərdə tutduğu məqsəd hər bir cəmiyyət, qövm və millətin alim və ziyalıları olan kəslərdirmi? Xeyr! Qeyd etdik ki, "hadi" sözü qeyri-müəyyən halda işlənmişdir və bu vəhdətə (vahidliyə) işarədir. Belə olduğu halda, məlum olur ki, hər bir qövm və millətin bir hidayətçisi var. Doğrusu, İslam ümməti üçün həmin hidayətçi və yol göstərən kimdir?

Keçmiş bəhslərə diqət etməklə ayəni belə tərcümə etmək olar:

"Ey Peyğəmbər (s)! Sən müqəddəs qorxudan və İslam dinini bəyan edən və onun əsasını qoyansan və hər bir din üçün yolgöstərən və hidayətçilər vardır ki, dinin mühafizləri və onun qoruyucularıdırlar." Bu məsələlər Peyğəmbər (s) Allah tərəfindən təyin olunduğu kimi, hidayətçilərin də Allah tərəfindən təyin olunmasını tələb edir. "Hadi"nin Allah, Peyğəmbər (s) və hər bir ümmətin alimlərindən başqa, digər bir şəxs olduğu və Allah tərəfindən təyin edildiyi aydın olur. Əgər biz desək ki, Peyğəmbərdən (s) sonra imamət və vilayətinə açıq-aşkar işarə edilərək təyin olunan şəxs həzrət Əlidir (ə) və o, Allahın əmri ilə ümmətə yol göstərəndir, yanılmış olmarıq. Həmçinin, əhli-sünnə alimləri də ondan başqa digər bir şəxsin bu məsələdə hidayətçi olmasını iddia etməmişlər. Bu cür təfsir ayə ilə uyğun və mütənasibdir.

### İkinci yol: Ayənin rəvayətlər sayəsində təfsiri

Bu ayənin şərh və təfsiri ilə əlaqədar çoxlu sayda rəvayətlər mövcuddur və biz onlardan beşinə işarə edəcəyik. Həmin rəvayətlərin üçü əhli-sünnə, ikisi şiə və biri isə həm şiə, həm də əhli-sünnə mənbələrində qeyd edilmişdir.

1. Bu rəvayətlərdən birinin ravisi olan İbn Abbas belə nəql edir:

**لَمّا نَزَلَتْ «إِنَّمـا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْم هـاد» وَضَعَ رَسُولُ اللهِ) صلى الله عليه وآله (يَدَهُ عَلى صَدْرِهِ، فَقـالَ: أَنَا الْمُنْذِرُ وَلِكُلِّ قَوْم هـاد، وَأَوْمَأَ بِيَدِهِ عَلى مِنْكَبِ عَلِيٍّ، فَقـالَ: أَنْتَ الْهـادى يـا عَلِيّ، بِكَ يَهْتَدِي الْمُهْتَدُونَ مِنْ بَعْدِي**

***"... اِنَّمَا اَنْتَ مُنْذِرٌ ayəsi nazil olan zaman Peyğəmbər (s) əlini mübarək sinəsinə qoyaraq dedi ki, munzir və İslam dininin əsasını qoyan və onu bəyan edən mənəm və daha sonra əlini həzrət Əlinin (ə) çiyninə qoyaraq buyurdu ki, hər bur qövmün öz hidayətçisi var və ayədiki "hadi" sözündəki məqsəd sənsən. Hidayət axtarışında olan kəslər sənin***

***vasitənlə (sənin danışıq, rəftar, hədis və üslubun barədə düşünərək hidayət olarlar."*** [1]

Əhli-sünnə mənbəyindən nəql edilən yuxarıdakı rəvayət "hadi" sözündəki məqsədin həzrət Əli (ə) olduğunu bildirir.

2. Əbu Burzə Əsləminin "Şəvahidut-tənzil"[2] və "Durrul-mənsur" kitablarında belə nəql edilmişdir:

سَمِعْتُ رَسُولَ اللهِ (صلى الله عليه وآله) يَقُولُ: «إِنَّمَا أَنْتَ مُنْذِرٌ» وَضَعَ يَدَهُ عَلى صَدْرِ نَفْسِه، ثُمَّ وَضَعَها عَلى صَدْرِ عَلِيٍّ وَيَقُولُ لِكُلِّ قَوْمٍ هـاد

***"(Əbu Burzə deyir ki,) Peyğəmbərdən (s) ... اِنَّمَا اَنْتَ مُنْذِرٌ ayəsi barədə eşitdim və o həzrət Əlini mübarək sinəsinə qoyaraq özünün munzir olduğunu bildirdi. Daha sonra əlini Əli ibn Əbu Talibin sinəsinə qoyaraq dedi: لِكُلِّ قَوْمٍ هـاد Yəni, hadi Əli ibn Əbu Talibdir(ə)."*** [3]

Əhli-sünnənin iki mötəbər kitabında qeyd edilən və İbn Abbas deyil, başqası tərəfindən nəql edilmiş bu iki rəvayət də "hadi" sözündəki məqsədin həzrət Əli (ə) olduğunu bildirir.

3. Əhli-sünnə arasında məşhur və mötəbər olan "Mustədrəkus-səhihəyn" kitabında bu ayənin təfsiri ilə bağlı həzrət Əlinin (ə) özündən belə nəql edilir:

عَنْ عَلِيٍّ: «إِنَّمَا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْمٍ هـاد» قـالَ عَلِيٌّ: رَسُولُ اللهِ(صلى الله عليه وآله)الْمُنْذِر وَأَنَا الْهـادى

***"Həzrət Əli (ə) ... اِنَّمَا اَنْتَ مُنْذِرٌ ayəsinin təfsiri barədə buyurur ki, Peyğəmbər (s) munzir və mən isə hadiyəm."*** [4]

Əhli-sünnənin digər kitabından nəql etdiyimiz bu rəvayətə uyğun olaraq həzrət Əli (ə) hadidir.

***Sual:*** Bilirik ki, əgər hansısa bir şəxs rəvayət nəql edə və özünün mədhi ilə bağlı nəyi isə söyləyərsə, onu qəbul etmək olmaz. Belə isə, necə olur ki, həzrət Əlidən (ə) nəql edilən bu rəvayət dəlil gətirilir?

***Cavab:*** Bu sözlər məsum olmayanlar barəsində keçərlidir. Amma günah və xətadan amanda qalan məsumlar (ə) üçün belə sözlər əhəmiyyət kəsb etmir. Şiənin nəzərində həzrət Əli (ə) məsumdur və əhli-sünnənin nəzərində də söz və hədisləri əhəmiyyətli və şəri höccət olan səhabələrdəndir. Nəticədə, qeyd edilən iki məsələyə əsasən, tutulan irad hər iki məzhəbdə yersizdir.

4. Həm əhli-sünnə, həm də şiə mənbələrində qeyd edilən bu təfsir

*1. "Durrul-mənsur", c.4, səh. 45.*

*2. "Şəvahidut-tənzil", c.1, səh. 298.*

*3. "Durrul-mənsur", c.4, səh. 45.*

*4. "Mustədrəkus-səhihəyn", c.3, səh. 129.*

həddən artıq cəlbedici və üstün bir məmzmuna malikdir. Əhli-sünnə alimləri onu İbn Abbasdan,[1] şiələr isə İbn Məsuddan nəql etmişlər. Yəni, onların hər ikisi bu rəvayəti Peyğəmbərdən (s) eşidərək qələmə almışlar. Peyğəmbər (s) belə buyurmuşdur:

**لَمّـا اُسْرِيَ بي اِلَى السَّمـاءِ لَمْ يَكُنْ بَيْنِي وَبَيْنَ رَبّي مَلَكٌ مُقَرَّبٌ وَلا نَبِيٌّ مُرْسَلٌ وَلا حـاجَةٌ سَأَلْتُ إِلاّ أَعْطـانِي خَيْراً مِنْهـا، فَوَقَعَ فِي مَسـامِعي إِنَّمـا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْم هـاد فَقَلْتُ: إِلهي أَنَا الْمُنْذِرُ، فَمَنِ الْهـادي؟ فَقـالَ: يـا مُحَمَّد ذاكَ عَلِيُّ بْنُ أَبي طـالِب غـايَةُ الْمُهْتَدِينِ إوَمَنْ يَهْدِي مِنْ اُمَّتِكَ بِرَحْمَتِي إِلَى الْجَنَّةِ مـامُ الْمُتَّقِينَ، قـائِدُ غُرِّ الْمحَجَّلِينَ**

***“Meraca aparıldığım zaman bu səfərin elə bir mərhələsinə yetişdim ki, orada bütün vasitələr aradan qalxmışdı – nə mələk, nə Peyğəmbər, nə Cəbrayıl, Mikayıl və Ruhul-əmin vardı. Bir sözlə, mən və Allahdan başqa, bir kimsə yox idi. Mən mətləbləri bibaşa Allahdan qəbul edirdim. Orada Allahdan istədiyim hər bir seyi Allah mənə daha yaxsı səkildə əta edirdi. Bu cür istisna və xüsusi olan qurb və Allaha yaxınlıq məqamında bir səs eşitdim ki, buyurdu:***

**إِنَّمـا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْم هـاد**

***Mən soruşdum ki, İlahi! Munzir mənəm, bəs, hadi kimdir? Allah hadinin Əli ibn Əbu Talib (ə) olduğunu bildirdi.[2] Daha sonra Allah Əlinin (ə) üç əhəmiyyətli xüsusiyyətini sadalamağa başladı və buyurdu: “Allaha yaxınlıq məqamının son mərhələsini keçmək istəyən kəs, gərək, Əliyə (ə) tərəf gedə. O, pəhrizkarların rəhbəridir. Həmçinin, insan cəmiyyətində üzüağ və abırlı olanların da rəhbəridir.[3] Elə bir kəsdir ki, cənnətin yolu onun vilayətindən keçir.””***

Bu gözəl rəvayət ayənin Peyğəmbər (s) və həzrət Əlinin (ə) mübarək vücudu barəsində tətbiq edildiyini aşkar şəkildə izah edir.

## *“Vilayət” və “İnzar” ayələrinin verdiyi mesajlar*

Bu ayələr sadəcə etiqadi və tarixi məsələlərlə bağlı deyil, əksinə bizim əsrimizdəki müsəlmanlara iki mesajı verir ki, əgər insanlar ona

*1. “Şəvahidut-tənzil”, c.1, səh. 296.*

*2. «Təfsiru Furati-Kufi», səh. 78.*

*3. Bu və digər rəvayətdə qeyd edilən* **قائد غرّ المحجّلين** *cümləsindəki* **قائد** *sözünün mənası «imam» və «rəhbər»dir.* **غرّ** *sözü isə* **أغرّ** *sözünün cəmidir və ağ üzlü, sifəti nurani olan insanlar barəsində işlənir.* **محجّل** *(Muhəccəl) sözü “həcələ” sözündən götürülmüşdür, ağ kifə deyilir, həmçinin, ağ atlara da bu söz şamil olunurdu. Sonradan mənası genişlənərək cəmiyyətdə abır-həyalıl kimi tanınan insanlar barəsində də işlənmişdir və bu rəvayətdə “insan cəmiyyətində üzüağ və abırlı olanlar” mənasındadır.*

əməl etsələr, bir sıra problemləri həll olunar. Həmin iki mesaja diqqət edin:

### 1. Təəssüb və inadkarlıq iki böyük maneədir

Ayənin əvvəlki hissələrindən məlum olur ki, insan inadkarlıq və təəssübkeşliklə heç bir yerə çatmaz və əgər haqqı istəyirsə, şəxsi düşüncə, nəfsə tabe olmaq və sairədən çəkinərək onun müqabilində təslim olmalıdır. Bu baxımdan, Quran və rəvayətlərdə batil yerə mübahisə və cidal edən insanların şiddətli şəkildə cəzalanacağı bildirilmişdir. "Həcc" surəsinin 3-cü ayəsində buyurulur:

وَمِنَ النّـاسِ مَنْ يُجـادِلُ فِي اللهِ بِغَيْرِ عِلْمٍ وَيَتَّبِعُ كُلَّ شَيْطـان مَرِيد

***"İnsanlardan eləsi var ki, həmişə heç bir biliyi olmadan Allah barəsində (mələklər onun qızlarıdır, Quran keçmişlərin əfsanələridir, axirət yalan şeydir deyə) mübahisə edir və hər bir murdar və itaətsiz şeytana tabe olur."***

Bu ayədə həmin şəxslər itaət etməyən şeytan kimi vəsf edilmişlər.

İnsanın yəqinə çatmasına mane olan digər bir məsələ bəhanə axtarmaq və düşməncəsinə sözlər söyləməkdir. İslam Peyğəmbəri (s) buyurur:

مـا ضَلَّ قَوْمٌ إِلاّ أَوْثَقُوا الْجِدالَ

***"Hansısa bir qövm batil yolda cidal etməkdən başa, digər bir şeylə azğınlığa düşməmişdir."***[1]

Rəvayətə uyğun olaraq inhiraf və azğınlığın bir amili var ki, o da məntiqsiz və batil mübahisələrdir.

***Sual:*** Nə üçün bütün azğınlıqların kökü cidal və münaqişəyə qayıdır?

***Cavab:*** Əgər haqqın müqabilində təslim olarlarsa, hidayət edənlər çoxluq təşkil edər və onlar asanlıqla hidayət oluna bilərlər. İmam Sadiq (ə) ondan moizə etməsini istəyən Harun Ər-Rəşidə buyurur:

مـا مِنْ شَيء تَراهُ عَيْناكَ إِلاّ وَفيهِ مَوْعِظَةٌ

***"Dünyada gördüyün bütün şeylər moizədir."***[2]

Yəni, yerdə və göydə olan məxluqatlar, acı-şirin hadisələr, zaman və məkanlar – hər bir şey moizədir, bu şərtlə ki, onu görən göz və eşidən qulaq olmuş olsun.

Həqiqət axtarışında olanlara həiqət gizli deyil və inhirafa düçar

---

*1. «Biharul-ənvar», c.2, səh. 138.*

*2. «Mizanul-hikmət», bölmə 4120, hədis: 21711.*

olanlar batil yerə mübahisə və cidal edənlərdir. Bu yerdə dini, siyasi və əxlaqi mübahisələr arasında heç bir fərq yoxdur. Mətbuat və siyasi məsələlərdə haqqı ayırd etmək o qədər də çəin deyil, amma şəxsi maraq və istəklərdən söhbət getdiyi üçün haqqı məxfi və pünhan edirlər ki, bu da məsələni çətinləşdirir.

Əmirəl-mömininindən (ə) nəql edilən digər bir hədisdə belə buyurulur:

اَلْجَدَلُ فِي الدِّينِ يُفْسِدُ الْيَقِينَ

***"Dini məsələlərdə batil (əbəs) yerə inadkarlıq və mübahisə etmək yəqini aradan aparar."*** [1]

Çünki cidal əhli olanlar yavaş-yavaş öz nəfsi istəklərinə tabe olar və həqiqət onlara nəfsləri istəyən libasda cilvələnməyə başlayar. Bi sözlə, ayə və rəvayətlərdə batil yerə mübahisə və cidal pislənmiş və çəkindirilmişdir. Amma həqiqətlərin axtarışı üçün iki tərəf elmi və s. kimi məsələlərdə mübahisə edə və bir-biri üzərində üstünlüyü nişan verməyə çalışmazsa, nəikni, bəyənilən deyil, əksinə Allah bu məsələyə əmr etmişdir. "Nəhl" surəsinin 125-ci ayəsində belə buyurulur:

وَجادِلْهُمْ بِالَّتي هِيَ أَحْسَنُ

***"(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, agahedici və ibrətamiz nəsihətlə dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mübahisə elə."***

### *2. Hidayət olunanın hidayət edənə iqtida etməsi (təqlidi)*

Ayənin sonundandan belə başa düşülür ki, həzrət Əli (ə) hidayət edəndir və belə olduğu təqdirdə, hidayət axtarışında olan müsəlmanlar o həzrətə iqtida etməlidirlər. Həzrət Əlinin (ə) mehriban rəftarı, danışığı, ölkə daxili və xaricindəqki qövmlər və şəxsiyyətlərlə münasibəti, xütbələri, lakonik və hikmətlə dolu cümlələri, o həzrətin cazibəsi, ədəbi və insanlara doğru yolu göstərməsi bütün müsəlmanlar üçün nümunə olmalıdır.

Həqiqətdə, o həzrətin vilayətində olduğunu iddia edən bizlərin yaşamı ilə onun yaşamı arasında nə qədər fasilə vardır! Qüdrət və hakimiyyətin fövqündə olmasına baxmayaraq, onun yemək, yaşayış və libası necə də sadə idi. Dünyanın bər-bəzəyi həzrət Əlini (ə) özünə cəlb edə bilirdimi? Hətta o həzrətin dəfn mərasimi də çox sadə şəkildə həyata keçirilmişdi. Amma özlərini şiə adlandıran bir

*1. «Mizanul-hikmət», bölmə 492, hədis: 2285.*

çox insanların həyatında dünyanın cah-cəlalı yer tutmasından əlavə, onların ölümlərindən sonrakı dəfn mərasimi də təmtəraqlı şəkildə həyata keçirilir. Həmin məclislər əzadarlıq məclislərinə bənzəmir. Belə məclislərə bəzən külli miqdarda pul xərclənir. Mənə bir tərəfdən sevindirici və digər tərəfdən də kədərləndirici bir xəbər verərək bildirdilər ki, bir şəxs vəfat etmiş və onun varisləri pul toplayaraq ona əzadarlıq məclisi keçirmək qərarına gəlirlər və onların topladıqları pul beş min manat məbləğinə çatır. Mərhumun yaxınları ona mərasim keçirmək əvəzinə, ehtiyaclı olan ailələrdəki on qızın cehizini almağı düşünürlər. Bu məsələlər bir tərəfdən on görə insanı narahat edir ki, cah-cəlal bizim həyatımızda özünə yer tutaraq hətta əzadarlıq məclislərinin həyata keçirilmə xərclərini ağırlaşdırır və digər tərəfdən isə xoşhallığa səbəb olan məsələ mərhumun yaxınlarının toplanan məbləği evlənmək istəyən qızların cehizlərinə sərf etməklə bağlı qərar qəbul etməsidir.

Həqiqətən də, təmtəraqlı məclislər təşkil etmək yerinə belə xeyirli işlərin həyata keçirilməsində nə irad var? Əziz cavanlar! Evliliyə ehtiyacı olan oğul və qızları evləndirmək sadəcə ata və ananın üzərinə düşən vəzifə deyil, əksinə Quranın ifadəsi ilə desək, bu, hamının boynunda olan ümumi bir vəzifədir:

وَأَنْكِحُوا الأَيـامى مِنْكُمْ وَالصّـالِحِينَ مِنْ عِبادِكُمْ وَ إِمـائِكُمْ

***"(Ey gənclərin ixtiyar sahibləri,) subay kişilərinizi və ərsiz qadınlarınızı, eləcə də qul və kənizlərinizdən evlənmək istedadı olanları evləndirin."***[1]

Təkcə evlilik məsələlrində deyil, ev, təhsil və işsizlik kimi fəsad amilləri hesab edilən digər problem və çətinliklərlə də bağlı cavanlara yardım etmək lazımdır. "Əmirəl-möminin (ə)" ilində insanlar dünyaya olan bağlılıqlarını azaltmalı çalışaraq və dövlət orqanları da bu məsələdə insanlara yardım etməli və bu müqəddəs mədəni fəaliyyətə başlamalıdır. Biz bu yolla insanların iqtisadi, dünyəvi bağlılıqdan xilas ola biləcəklərini və Əmirəl-mömininin (ə) bərəkəti hesabına ağ günə çıxacaqlarını ümid edirik.

Allahdan bizə də eşidib yadda saxlayan qulaq bəxş etməsini və bu ayələrin verdiyi mesajlara əməl etməkdə müvəffəq olmağımızı, həmçinin, ondan bəhrələnməyi diləyirik! Amin, ya rəbbəl aləmin!

*1. «Nur» surəsi, ayə 2.*

# 14 "XƏYRUL-BƏRİYYƏ" (YARADILMIŞLARIN ƏN YAXŞILARI) AYƏSİ

إِنَّ الَّذينَ آمَنُوا وَعَمِلُوا الصّـالِحـاتِ أُولئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ جَزاؤُهُمْ عِنْدَ رَبِّهِمْ جَنّاتُ عَدْنٍ تَجْري مِنْ تَحْتِهَا الأَنْهـارُ خـالِدينَ فِيهـا أَبَداً رَضِيَ اللهُ عَنْهُم وَرَضُوا عَنْهُ ذلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ

***"Şübhəsiz, iman gətirən və saleh iş görənlər isə yaradılmışların ən yaxşılarıdırlar.[1] Onların Rəbbi yanındakı mükafatları (evləri və ağaclarının) altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan və onlar da Allahdan razıdırlar. Bu (mükafat) öz Rəbbindən qorxan kəslər üçündür."***

*"Bəyyinə" surəsi, ayə 7-8.*

## *Bəhsə qısa bir nəzər*

Bu ayə də Əmirəl-möminin (ə) imamət və vilayəti ilə bağlı və xüsusi bir zərifliklə ona dəlalət edən ayələrdəndir. Əvvəlki ayələrə nisbətdə, bu ayə ilə bağlı o qədər də ixtilaflar nəzərə çarpmasa da, vilayət və imamətlə bağlı gətirilən dəlillər çox dəqiq və zərifdir. Bu barədə şərh verəcəyik.

---

*1. «Bəriyyə» sözü «bəriə» kökündəndir və mənası «yaradılış» deməkdir. Bu baxımdan Allaha xaliq mənasında «bari» və məxluqata da "bəriyyə" deyilir. Bəziləri həmin sözün torpaq mənasında olduğunu və məxluqat torpaqdan yaradıldığı üçün ona "bəriyyə" deyildiyi fikrindədirlər. Bəziləri də həmin sözün "bəritul-qələmə", yəni "qələmi yonmaq" mənasını verdiyini və Allahın əmri ilə insanlar müxtəlif şəkil və formalarda olduğu üçün də sanki yaradılış nizamında qələm kimi yonulmuş və "bəriyyə" adlandırıldığını vurğulamışlar ("Təfsire peyame Quran", c.9, səh. 259).*

## Şərh və təfsir

### *İnsanların ən pisi və ən yaxşısı*

“Xəyrul-bəriyyə” ayəsinin mənası daha yaxşı başa düşülsün deyə, şərhə “Bəyyinə” surəsinin altıncı ayəsindən başlamaq lazımdır:

**إِنَّ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ وَالْمُشْرِكِينَ فِي نَارِ جَهَنَّمَ خَالِدِينَ فِيهَا** – “Şübhəsiz, kitab əhlindən (İslama qarşı çıxıb) kafir olanların və müşriklərin yeri cəhənnəm odudur! Onlar orada əbədi qalacaqlar!” Yəni, İslamı qəbul etməyən yəhudi, məsihi və bütlərə pərəstiş edən müşriklərin hamısı cəhənəmdə olacaq və orada həmişəlik qalacaqlar.

**أُولَئِكَ هُمْ شَرُّ الْبَرِيَّةِ** – ***(Ulaikə hum şərrul-bəriyyə)*** Onlar yaradılmışların ən pisidirlər. Bu cümlələr onların cəhənnəmdə[1] əbədi qalacağına dəlildir.

Əvvəlki ayələrdən belə başa düşülür ki, onlar adi kafirlər deyillər, əksinə aşkar dəlillər və onların yəqinliyə çatması üçün höccət olmasına baxmayaraq, belə şəxslər yenə də İslamla müxalif olanlar və düşmənçilik edənlərdir. Nəticədə, cahillik və bilməməzlikdən küfr yolunda olanlara bu ayə şamil deyil.

Yuxarıdakı ayədə məxluqatın ən pisi barədə bildirildikdən sonra, digər ayədə yaradılmışların ən yaxşısı tanıtdırılır:

**إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ** – “Həqiqətən, iman gətirən və saleh əməllər eədnlər yaradılmışların ən yaxşısıdır!” Məxluqatın ən yaxşısı barədə üç xüsusiyyət bəyan edilmişdir:

1. **الَّذِينَ آمَنُوا** ***(əlləzinə amənu)*** – Onların birinci xüsusiyyəti Allaha, Peyğəmbər (s), qiyamət günü və ölümdən sonrakı həyata iman

*1. Ulaikə hum şərrul-bəriyyə* (**أُولَئِكَ هُمْ شَرُّ الْبَرِيَّةِ**) *ifadəsi yaradılmış məxluqat arasında haqq aşkar olduqdan sonra onu qəbul etməyən və azğınlıq yolunda addım atan elə kəslərin olduğunu bildirir ki, nə eşidən qulağa, nə danışan dilə nə də təfəkkürə malik deyillər və onlar myaradılmışların ən pisidirlər. “Ənfal” surəsinin 22-ci ayəsində belə buyurulur:*

**ان شرّ الدّواب عندالله الصّم البكم الّذين لا يعقلون**

*«Həqiqətən, Allah yanında hərəkət edən canlıların ən pisi düşünməyən (haqqı eşitməkdə) kar və (haqqı deməkdə) lal (olan) insanlardır. “Həmçinin, “Əraf” surəsinin 179-cu ayəsində cəhənnəm əhlinin bu sifəti xatırlandıqdan sonra Allah buyurur:*

**اولئك كالانعام بل هم اضل اولئك هم الغافلون**

*«Onlar heyvanlar kimi, bəlkə (onlardan) daha azğındırlar (çünki onlar inkişaf və təkamül istedadına malik olduqları halda, batil və puç yola gedirlər) və onlar həmin qafillərdirlər.” Ayə onları yaradılmışların ən pisi kimi tanıtdırır (“Nümunə təfsiri”, c.27, səh. 207).*

gətirmələridir. Deməli, İslam dinindən başqa, digər bir dini qəbul edən yəhudi və məsihilər ayənin əhatəsindən xaricdirlər.

2. وَعَمِلُوا الصَّالِحَاتِ *(Saleh əməllər edənlər)* – İkinci xüsusiyyət onların iman və etiqadlarının əməl və rəftarda özünü büruzə verməsidir. “Əməlisaleh”[1] sözünün geniş mənası vardır. Rəvayətlərdə qeyd edilənlərə uyğun olaraq onun ən sadə forması müsəlmanların yolu üzərindəki maneələri aradan qaldırmaqdır. Əgər kimsə müsəlmanların gediş-gəliş etdikləri yolda maneə görüb onu aradan qaldırsa, bu, saeh əməlin bir növüdür

(اماطة الأذى عن الطريق) Ən üstün saleh əməl haqq dinin (İslamın) qəbulluğudur (أعلاها شهادة أن لا اله الا الله).[2]

3. ذَلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ ***(Bu, Allahdan qorxan kəslər üçündür)*** – Belə kəslər iman və saleh əməllərə malik olmaqdan başqa, Allahdan qorxmaq məqamına da yetişmişlər.

***Sual:*** Qorxu saleh əməl və imana əlavə edilən bir şeydirmi?

***Cavab:*** Bəli, qorxu iman və saleh əmələ əlavə edilən bir məsələdir və zahirən “məsuliyyət” mənasındadır. Bəzən iman və saleh əməl olsa da, işin içində məsuliyyət yoxdur və bu məsələ ailədəki tərbiyə və adətlərdən qaynaqlanır. Bəzi vaxtlarda isə həmin məsələlər məsuliyyət hissindən yaranır. Belə bir şəxs müxtəlif insan və hadisələr müqabilində məsuliyyət hissinə əsaslanaraq əməl edir.

Nəticədə, “xəyrul-bəriyyə” iman, saleh əməl və məsuliyyət hissinə malik olanlardır. Onların bu xüsusiyyətləri sadalandıqdan sonra onlara veriləcək əcr və mükafatdan bəhs edilir:

جَزَاؤُهُمْ عِنْدَ رَبِّهِمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ ***“Onların Rəbbi yanındakı mükafatları (evləri və ağaclarının) altından çaylar axan Ədn cənnətləridir.”*** – İnsana axirətdə veriləcək nemətlər həm maddi, həm də mənəvidir, çünki insan cisim və ruhdan ibarətdir və cisim maddi, ruh isə mənəvi nemətlərin müştaqıdır. Maddi nemətlər cənnətdə veriləcək bağlardır və oradakı ağacların altından daim[3] sular axar və kəsilməz. Bağlar iki qisimdir:

1. Suyu bir neçə gündən bir xaricdən təmin edilən və daimi axar

---

*1. Saleh əməlin əhəmiyyəti bu sözün Quranda yetmiş dəfəyə yaxın işlənməsi ilə məlum olur.*

*2. «Əvaliul-ləyali», c.1, səh. 431. Yuxarıdakı rəvayət «Səhih Müslim», «Kitabul-iman», 12-ci bölmə, hədis: 57 və “Müsnəde Əhməd”, c.2. səh. 379-da nəql edilmişdir.*

*3. «Daim» sözü ayədəki «ədn» sözündən əldə edilir. Çünki həmin söz «əbədilik» mənasındadır. Mədənlər də ona görə belə adlanır ki, oradan əldə olunan maddələr daim orada yerləşmiş və mövcuddur.*

suya malik olmayan bağlar.

2. Suyu özündən olan və daim ağacları altından axar sulara malik bağlar. Bu bağların xüsusi yaşıllıq və təravəti vardır və ağaclar solmaq və qurumaq təhlükəsindən amandadır.

خَالِدِينَ فِيهَا أَبَدًا ***"Orada əbədi olaraq qalacaqlar"*** – İnadkarlıq və təəssüb üzündən haqqı qəbul etməyən, yəhudi, məsihi və müşriklər cəhənnəmdə əbədi qalacağı kimi, iman gətirib saleh əməlli və məsuliyyətli möminlər də cənnətdə əbədi qalacaqlar.

رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ***"Həm Allah onlardan, həm də onlar Allahdan razıdırlar."*** – Bu cümlə möminlərə veriləcək mənəvi mükafatlara işarədir. Allah onlara o qədər nemət bəxş edər ki, Allahdan razı qalarlar, digər tərəfdən, Allah da onlardan razıdır.

Bu məqam necə də uca məqamdır! Görəsən, bundan da üstün məqam varmı?! Nəzərinizə çatdırırıq ki, üçlük təşkil edən yuxarıdakı ayələrlə həm "xəyrul-bəriyyə"nin xüsusiyyətləri, həm də onlara axirətdə veriləcək mükafatlar bəyan edilmişdir.

## Rəvayətlərdə "Xəyrul-bəriyyə"

***Sual:*** Görəsən, ayə ümumilikdə hamını nəzərdə tutur, yoxsa, xüsusi şəxslərə şamildir? Başqa bir ifadə ilə desək, ayədə bütün əməli-saleh möminlər yaxud xüsusi bir qrup nəzərdə tutulumuşdurmu?

***Cavab:*** Bu sualın cavabını ayələrin nazil olması ilə bağlı məsumların dilindən nəql edilmiş rəvayətlərdə axtarmaq lazımdır. Həmin rəvayətlərə diqqət yetirin:

Əhli-sünnə və şiə mənbələrində qeyd edilən çoxlu sayda rəvayətlərə əsasən, Peyğəmbər (s) həzrət Əli (ə) və onun şiələrini "xeyrul-bəriyyə" kimi tanıtdırmışdır. Bu rəvayət müxtəlif kitablarda qeyd edilib, o cümlədən:

1. Hakim Həskani[1], "Şəvahidut-tənzil"
2. İbn Həcər Heysəmi[2], "Əs-Səvaiqul-muhriqə"
3. Süyuti[3], "Durrul-mənsur"
4. Məhəmməd Şiblənci[4], "Nurul-əbsar"
5. "Təbəri təfsiri"[5]

---

*1. Hakim Həskani Nişapurda yaşamış sünni alimlıərindəndir. Həskan o zamanlar Nişapurun kəndlərindən biri idi. Bu alim təəssübdən uzaq və nisbətən adil bir insan olmuş və səy etmişdir ki, Quran ayələri barədəki bütün nazil olma səbəblərini toplasın.*

*2. "Əs-Səvaiqul-muhriqə", səh. 96 ("Peyame Quran", c.9, səh. 261-dəki nəqlə əsasən).*

*3. «Durrul-mənsur», c.6, səh. 379 ("Peyame Quran", c.9, səh. 260-dakı nəqlə əsasən).*

*4. "Nurul-əbsar", səh. 70 və 110 ("Peyame Quran", c.9, səh. 261-dəki nəqlə əsasən).*

*5. "Ruhul-məani", c.30, səh. 207.*

6. Alusi[1], “Ruhul-məani”
7. “Mənaqibi Xarəzmi”[2]
8. Əllamə Şukani, “Fəthul-Qədir”[3]

Təkcə “Şəvahidut-tənzil” əsərində bu ayə ilə bağlı iyirmi rəvayət nəql edilmişdir və biz sadəcə onların üçü ilə kifayətlənirik:

a) Peyğəmbərin (s) məşhur səhabələrindən olan Cabir ibn Abdullah Ənsari belə nəql edir:

“Peyğəmbər (s) və müsəlmanların bir dəstəsi ilə Kəbənin kənarında əyləşmişdik. Birdən həzrət Əli (ə) uzaqdan görünməyə başladı və Peyğəmbərin (s) gözü ona sataşdıqda, o həzrət üzünü səhabələrinə tutaraq buyurdu:

**قَدْ أَتـاكُمْ أَخي، ثُمَّ الْتَفَتَ إِلَى الْكَعْبَةِ، فَقـالَ وَرَبِّ هـذِهِ الْبُنْيَةِ! إِنَّ هـذا وَشِيعَتَهُ هُمُ الفائِزونَ يَوْمَ الْقيامَةِ، ثمَّ أَقْبَلَ عَلَيْنـا بِوَجْهِهِ، فَقالَ: أَما وَاللهِ إِنّهُ أَوَّلُكُمْ ايمـاناً باللهِ، وَاقْوَمُكُمْ بأمر اللهِ وَأَوفاكُم بِعَهْدِ اللهِ وَأَقْضـاكُمْ بِحُكْمِ اللهِ وَأَقْسَمُكُمْ بِالسَّوِيَّةِ وَأَعْدَلُكُمْ في الرَّعيَّةِ وَأَعْظَمُكُمْ عِنْدَ الله مَزِيَّةً. قـالَ جـابِرُ فَأَنْزَلَ اللهُ: «إِنَّ الَّذينَ آمَنُوا...خَيْرُ البَرِيَّةِ» فَكانَ عَلِيٌّ إِذا أَقْبَلَ قـالَ أَصْحـابُ مُحَمّد: قَدْ أَتـاكُمْ خَيْرُ الْبَرِيَّةِ بَعْدَ رَسُول اللهِ**

***“Qardaşım Əli (ə) sizə tərəf gəlir. Daha sonra üzünü Kəbəyə tutaraq buyurdu: “Kəbənin Allahına and olsun ki, Qiyamət günü təkcə Əli (ə) ə onun şiələri nicat tapanlardır. Allaha and olsun, o, sizdən əvvəl Allaha iman gətirmiş, Allahın əmrinə sizdən öncə itaət etmiş, Allahla əhdinə daha artıq vəfadar, qəzavətdə ədalətli və bərabərlik və beytül-malın bölgüsündə hamıdan üstün və Allah dərgahında olan məqamı hamıdan yüksəkdir.” Cabir deyir: “Bu zaman Xəyrul-bəriyyə ayəsi nazil oldu və bu ayənin nazil olmasından sonra müsəlmanlar həzrət Əlini gördükləri zaman deyirdilər: “Peyğəmbərdən (s) sonra məxluqatın ən yaxşısı gəldi.””*** ”

Rəvayətdən belə başa düşülür ki, yuxarıdakı cümlə İslamın əvvəllərində bütün müsəlmanlar arasında məşhur idi. Nəticədə, onu nəql edənlər təkcə İbn Abbas və Cabir ibn Abdullah Ənsari deyil.

b) Digər bir rəvayətdə Cabir deyir:

**هُمْ أَنْتَ وَشِيعَتُكَ، تَرِدُ عَلَيَّ وَ شِيعَتُكَ رَاضِينَ مَرْضِيِّيْنَ**

***“Xəyrul-bəriyyədəki məqsəd sən və sənin şiələrindir. Qiyamət günü sən və şiələrin mənim yanıma gəldikləri zaman, həm Allah onlardan,***

1. *«Mənaqibi Xarəzmi», səh. 421, Tehran çapı («İhqaqul-həqq», c.3, səh. 289-dakı nəqlə əsasən).*
2. *«Fəthul-qədir», c.5, səh. 464, Misir çapı («İhqaqul-həqq», c.3, səh. 291-dəki nəqlə əsasən).*
3. *“Şəvahidut-tənzil”, c.2, səh. 362.*

***həm də onlar Allahdan razı olmuş halda olacaqlar."*[1]**

c) Əbu Burzə Əsləmi deyir ki, "Xəyrul-bəriyyə" ayəsi nazil olan zaman Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurdu:

أَنْتَ وَشِيعَتُكَ يا عَلِيّ، وَميعادُ ما بَيْني وَبَينكَ الْحَوْضُ

***"Ey Əli (ə)! Xəyrul-bəriyyə sən və sənin şiələrindir və qiyamət günü səninlə mənim görüş yerim Kövsər hovuzunun kənarıdır."*[2]**

d) İbn Əsakir "Xəyrul-bəriyyə" ayəsi barədə Ayişədən maraqlı bir rəvayət nəql edir. Həmin rəvayətdə bir şəxs Ayişədən həzrət Əli (ə) barəsində soruşduqda (onunla yaxşı münasibətinin olmamasına və həzrətin əleyhinə "Cəməl" döyüşünü törətməsinə baxmayaraq), belə deyir:

***"Həzrət Əli (ə) məxluqatın ən yaxşısıdır və kimin ona qəlbində düşmənçiliyi olarsa, o, kafirdir!"*[3]**

Nəql edilən rəvayətlərdən belə bir nəticə əldə edilir ki, "Xəyrul-bəriyyə" ayəsində nəzərdə tutulan şəxs həzrət Əlidir (ə).

***Sual:*** Alusi "Ruhul-məani" əsərində belə bir sual bəyan etmişdir:

"Əgər "Xəyrul-bəriyyə" ayəsində məqsəd Əli ibn Əbu Talibdirsə (ə), onda, onun Peyğəmbərdən (s) üstün olduğunu düşünmək olarmı? Çünki ayədə bu məsələ mütləq şəkildə qeyd edilmişdir və belə olduğu halda, onun misdaq və nümunəsi bütün insanlardan üstün şəxsdir."

***Cavab:*** Əgər ayənin özünə diqqət edilsə, bu sualın cavabı aydın olacaqdır. Qeyd edildiyi kimi, "Xəyrul-bəriyyə"nin bir xüsusiyyəti iman məsələsi idi, yəni Allah və onun Peyğəmbərinə (s) iman gətirmək. Bu baxımdan, o həzrətin Peyğəmbərdən (s) üstün olduğunu söyləmək olarmı?! Əhli-sünnə mənbəsində Cabir ibn Abdullah Ənsaridən nəql edilən rəvayətdə də o həzrətin Peyğəmbərdən (s) sonra bütün insanlardan üstün olduğu bildirilmişdir.

***Digər bir sual:*** Bu ayə ilə Əmirəl-mömininin (ə) vilayət, imamət və xilafəti arasında hansı rabitə mövcuddur? Əgər əhli-sünnənin həzrət Əlinin (ə) "Xəyrul-bəriyyə" olmasını qəbul etdiyini fərz etsək, onda, o həzrətin vilayətinə bu ayəni necə dəlil gətirmək olar?

***Cavab:*** Peyğəmbərə (s) canişin təyin edilməsi üslubu və canişinlik məsələsində şiə və sünni arasında ixtilaflar vardır. Şiənin etiqadına əsasən, Peyğəmbər (s) canişini Allah tərəfindən təyin[4] edilməlidir, yəni

*1. «Şəvahidut-tənzil», c.2, səh. 360.*

*2. «Şəvahidut-tənzil», c.2, səh. 359.*

*3. «İhqaqul-həqq», c.3, səh. 388-dəki nəqlə əsasən.*

*4. Peyğəmbər (s) məsum olduğu kimi, onun canişini də məsum olmalıdır və məsumluğu təşxis və müəyyən etmək Allahdan başqa, digərləri üçün qeyri-mümkündür. Deməli, Allah*

bu məsələ təyin edilmə üsulu ilədir.

Amma əhli-sünnənin nəzərində xəlifəlik məsələsi seçki üsulu ilədir və camaatın öhdəsinə qoyulmuşdur. Camaat kimə səs versə, Peyğəmbərin (s) canişini o olacaq. Əlbəttə, bu məsələnin qeyd edilən ayəyə heç bir təsiri yoxdur. Xəlifəlik istər seçkili olsun, istərsə də təyin etmə ilə, təkcə həzrət Əlinin (ə) ona ləyaqəti vardır. Əgər məsələ təyin etmə ilə olsa, bu zaman bütün insanlardan üstün olan Əlini (ə) qoyub başqasını təyin etmək Allahın hikməti ilə uyğun deyil. Çünki bu cür edərsə, hikmətli bir iş görmüş olmaz. Əgər seçki ilə olmuş olsa, bu zaman həzrət Əli (ə) kimi bir şəxsiyyəti qoyub digərlərinin ardınca getmək əqllə düz gəlmir və camaatın tanıma qabiliyyətinin bütün müsəlmanlar arsında məşhur olan o həzrətə nisbətdə zəif olduğunu söyləmək heç də qəbul ediləsi bir üzr deyil.

Verdiyimiz izaha əsasən, vilayət və imamət məsələsi ilə ayə arasında mövcud olan rabitə aydınlaşmış oldu.

***Üçüncü sual:*** Adətən, iki-üç nəfər deyil, bir nəfər ən yaxşı və üstün olur. Belə isə, həzrət Əli (ə) və onun şiələrinin üstün olması necə mümkündür?

***Cavab:*** Məxluqatın ən yaxşısı olmağın silsiləvi mərtəbələri vardır. Mümkündür ki, bir nəfər ən yaxşıdır və digəri ona nisbətdə aşağı mərtəbədədir. Həmçinin, üçüncü dəstə ikinciyə nisbətdə aşağıdır. Beləliklə, həzrət Əli (ə) onların fövqündədir. Nəticədə, bəyan edilənlərə və üçlük təşkil edən rəvayətlərə diqqət etməklə, "Xəyrul-bəriyyə"nin həzrət Əli (ə) və onun şiələri olduğu məlum olur.

## *"Xəyrul-bəriyyə" ayəsinin verdiyi mesajlar*

Bu ayə və onun barəsində qeyd edilən rəvayətlərin müxtəlif mesajları vardır. O cümlədən:

## *1. İslami dəyərlər sistemi*

Hər bir din, məzhəb və məktəblər həmin məktəbə məxsus olan dəyərlərin girovundadır. Daha sadə desək, hər bir məktəb və məzhəb öz oxu ətrafında hərəkət edir və bu ox həmin məktəbin dəyərlər sistemini təşkil edir. Bu zəminədə olan misallara diqqət yetirin:

a) Tağut rejimi olan Firon rejiminin dəyərləri barədə Quranın "Zuxruf" surəsinin 51-ci ayəsində Fironun dilindən belə bəyan edilmişdir:

وَنـادى فِرْعَوْنُ في قَوْمِه قـالَ يـا قَوْمِ أَلَيْسَ لِي مُلْكُ مِصْرَ وَهـذِهِ الأَنْهـارُ تَجْري مِنْ تَحْتي أَفَلا

---

*məsum olan şəxsi xilafət məqamı üçün tanıtdırmalıdır.*

تُبْصِرُونَ

***"Firon öz qövmünün arasında səsini ucaldaraq dedi: "Ey mənim qövmüm! Məgər Misirin hökmranlığı mənə məxsus deyil və bu çaylar mənim saraylarımın altından və mənim istəyimə tabe olaraq axmırlar? Məgər görmürsünüzmü?!""***

Fironun iftixarı diktatorluq və istibdad hakimiyyəti sayılan Misir hökumətinə sahib olmaqda və onu özünə tabe etməkdədir. Firon və onun kimilərin nəzərində yaxşı insanlar, hətta ən zalım və cinayətkar olmasına baxmayaraq, hakim və rəhbərlərdir. Həmçinin, ən pis insanlar isə əxlaqi baxımdan ən yaxşı xüsusiyyətlərə sahib olsalar belə, hakimiyyət və qüdrətə malik olmayanlardır.

Bu cəhətdən Firon həzrət Musanın (ə) peyğəmbərliyinə etiraz edərək belə deyir:

فَلَوْ لا اُلْقِىَ عَلَيْهِ اَسْوِرَةٌ مِنْ ذَهَب أَوْ جاءَ مَعَهُ الْمَلائِكَةُ مُقْتَرِنِينَ

***"Bəs, nə üçün onun üzərindən qızıl bilərziklər asılmamış, yaxud onunla birlikdə çiyin-çiyinə mələklər gəlməmişdir?"[1]***

Yəni, həzrət Musa (ə) Firon rejiminə uyğun olaraq qüdrət və sərvətə malik deyilsə, o, peyğəmbər ola bilməz. Deməli, Firon rejimindəki dəyərlər qüdrət, sərvət və zinətlərdir.

b) Digər məktəb və cəmiyyətlərdə üstünlük təşkil edən dəyərlər övlad çoxluğu, mal və sərvət məsələləridir. "Səba" surəsinin 35-ci ayəsində belə buyurulur:

وَقالُوا نَحْنُ أَكْثَرُ أَمْوالا وَأَوْلاداً وَما نَحْنُ بِمُعَذَّبِينَ

***"Dedilər: "Bizim mal-dövlətimiz və övladlarımız (sizinkindən) çoxdur və bizə heç vaxt əzab verilməyəcəkdir (çünki, bizə verilənlər Allahın bizə olan məhəbbətinin əlamətidir).""***

Belə rejimlərin əhəmiyyət verdiyi dəyərlər övlad çoxluğu, iqtisadi baxımdan sərvət və güc baxımdan da qüdrətd əldə etməkdir. Onların nəzərində belə şəxlər yaxşılardır. Xüsusən, cahiliyyət dövründə çoxlu sayda oğlan övladlara malik olan ailəni xoşbəxt hesab edirdilər, çünki oğullar atalarına qarət, döyüş və s. kimi hallarda yardımçı olacaqdılar.

Amma İslamın nəzərində yuxarıda sadalanan məsələlər müqəddəs dinin hədəflərinə yetişmək üçün bəyənilən olmasına baxmayaraq, üstünlük meyarı hesab edilmir. Quranda sonuncu qrupdan olanlarla bağlı buyurulur:

وَما أَمْوالُكُمْ وَلا أَوْلادُكُمْ بِالَّتي تُقَرِّبُكُمْ عِنْدَنا زُلْفى إِلاّ مَنْ آمَنَ وَعَمِلَ صالِحاً فَأُولئِكَ لَهُمْ

1. «Zuxruf", surəsi, ayə 53.

جَزاءُ الضِّعْفِ بِمـا عَمِلُوا وَهُمْ فِي الْغُرُفـاتِ آمِنُونَ

***“Sizi bizim dərgahımıza yaxınlaşdıran nə mal-dövlətiniz, nə də övladlarınızdır. Lakin iman gətirən və yaxşı iş görənlərə etdiklərinin müqabilində iki qat mükafat vardır və onlar cənnət otaqlarında əmin-amanlıq içindədirlər.”***

Bu ayə ilə siyasi rejimlərdə olan bir sıra dəyərlər rədd edilir və onların müqabilində islami dəyərlər təqdim olunur. İman və saleh əməllər islami cəmiyyətdəki dəyərləri formalaşdırıb təşkil edən əməllərdən hesab olunur. Çünki bu dəyərlər insanı Allaha yaxınlaşdırır, nəinki, onlara mal və sərvət bəxş edir.

“Hucurat” surəsinin 13-cü ayəsində islami dəyərlər mərkəzində dayanan təqva və pərhizkarlıqdan danışılır və Allah həmin ayədə belə buyurur:

يـا أَيُّهَا النّـاسُ إِنّـا خَلَقْنـاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثى وَجَعَلْنـاكُمْ شُعُوباً وَقَبـائِلَ لِتَعـارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللهِ أَتْقـاكُمْ إِنَّ اللهَ عَليمٌ خَبيرٌ

***“Ey insanlar! Şübhəsiz, biz sizin hamınızı bir kişi və qadından yaratdıq və sizi bir-birinizi tanıyasınız deyə, böyük və kiçik qəbilələrə ayırdıq. Həqiqətən, Allah yanında ən hörmətliniz sizin ən pəhizkarınızdır. Həqiqətən Allah çox bilən və xəbərdardır.”***[1]

İslam dini meydana gəldiyi zaman cəmiyyətdəki dəyərlər əvəz olunmağa başladı və cahiliyyətdə əhəmiyyət kəsb edən məsələlərin yerini tutdu. Təəccüb ediləsi dərəcədə dəyişikliklər həyata keçdi və Əbu Cəhllər, Əbu Süfyanlar, Əbu Ləhəblər öz yerini Əbuzərlər, Salmanlar və s. kimi şəxslərə verdilər. “Xəyrul-bəriyyə” ayəsi cəmiyyətdə iman, saleh əməl və məsuliyyət hissi kimi dəyərlərə üstünlük verildiyini bəyan edir və yaradılmışların ən yaxşısını bu meyarlara əsasən müəyyənləşdirir. Təəssüflər olsun ki, hazırkı dünyada külli miqdarda dollar və lirələrə malik olanlar iqtisadi baxımdan mühüm mövqe və qüdrətə malik olduqları üçün məxluqatın ən yaxşısı kimi tanıtdırılır. Amma İslamın nəzərində bunların heç biri müstəqil şəkildə əhəmiyyət və önəm kəsb etmir.

## 2. Şiənin meydana gəldiyi tarix

Bəziləri qəsdən, ya da bilmədən elə təsəvvür etmişlər ki, şiəlik Səfəvilər zamanında yaranmış və o, elə də qədim tarixə malik deyildir. Amma islami əsər və rəvayətləri oxuduqda, bu təsəvvürün batilliyi məlum olur, o cümlədən, əvvəlki rəvayətlərdə bildirdik ki, ilk dəfə “şiə”

---

*1. «Səba» surəsi, ayə 37.*

sözünü Peyğəmbər (s) həzrət Əlinin (ə) ardıcılları ilə bağlı işlətmişdir və şiənin yaranma tarixi İslamın meydana çıxdığı tarixə bərabərdir və o, bütün məzhəblərdən qədim bir keçmişə malikdir. Bu mətləbə diqqət etməklə, bilərəkdən və ya bilməyərəkdən şiəyə belə töhmətlər vuranlar ərəb şairinin dediyi şeirdəki xüssiyyətlərə malikdir:

وَإِن كُنْتَ لا تَدْري فَتِلْكَ مُصِيبَةٌ          وَإِنْ كُنْتَ تَدْري فَالْمُصيبَةُ أَعْظَمٌ

***"Əgər alimlər bu rəvayətlərdən xəbərsizdirlərsə, onda bu, müsibətdir və əgər bilir və inadkarlıq səbəbindən inkar edirlərsə, onda, əvvəlki müsibətdən də böyük və betərdi."***

İlahi! Bizi yersiz təəssübkeşlikdən hifz et ki, onun mənfi nəticələri ilə üzləşməyək!

## 3. "Şiə" sözü hansı mənadadır?

***Sual:*** Bu bəhsdə xatırladılan rəvayətlərdən belə məlum olur ki, həzrət Əli (ə) və onun şiələri yaradılmışların ən yaxşısıdır. "Şiə" sözünün hansı şəxslərə şamil olduğunu bilmək istəyirik. Görəsən, biz də həqiqiətən şiəyik və ayə bizə də şamildirmi?

***Cavab:*** Bu suala cavab vermək üçün "şiə" sözünü üç cəhətdən araşdırmaq lazımdır:

***a) Lüğətdə "şiə" sözü*** – Bu söz lüğəvi mənada "qüvvət və qüdrət ilə müxtəlif nöqtələrə yayılmaq" mənasındadır. Deməli, "şiə" sözü qüvvə və qüdrətli bir qrupa şamildir.

***b) Quranda "şiə" sözü*** – Bu söz Quranda dörd yerdə istifadə edilmişdir. Həmin ayələrdən biri həzrət İbrahim barəsindədir. "Saffat" surəsinin 83-84-cü ayələrində Allah buyurur:

وَإِنَّ مِنْ شيعَتِهِ لَإِبْراهيمَ * إِذْ جاءَ رَبَّهُ بِقَلْبٍ سَليم

***"Həqiqətən, İbrahim (dində, kitabda və şirklə mübarizədə) onun (Nuhun (ə)) şiələrindən (davamçılarından) idi. O zaman o, təmiz qəlblə öz rəbbinə tərəf gəldi (rəbbinə üz tutdu, onun birliyini təsdiq edərək özünü ona təslim etdi)."***

Bu ayədə İbrahim (ə) Nuhun (ə) şiəsi kimi tanıtdırılmışdır. Yəni, o həzrət Nuhun (ə) yolunu davam edənlərdən idi. İkinci ayə İbrahimin (ə) Nuhun (ə) yolunu necə davam etdirməklə bağlı onun Allah dərgahına salim qəlblə[1] üz gətirməsini bəyan edir.

*1. Rəvayətlərdə salim qəlb (qəlbi-səlim) onda Allahdan başqasına yer olmayan qəlb kimi tanıtdırılır. Yəni, belə qəlbin sahibi hər bir şeyi – ailəni, uşağı, sağlamlığı, mal və məqamı Allaha yaxınlıq üçün istəyir. Əgər sasdalanan məsələlər müstəqil şəkildə qəlbdə özünə yer tutarsa, artıq o qəlbə salim qəlb deyilməz. «Qəlbi-səlim» sözü Quranın «Şüəra» surəsinin 89 və «saffat» surəsinin 84-cü ayəsində olmaqla, iki yerdə işlədilmişdir. Bu barədə daha artıq*

“Şiə” sözü işlənən digər surə “Qəsəs” surəsi 15-ci ayədir. Həzrət Musa (ə) barəsində olan bu ayədə buyurulur:

وَدَخَلَ الْمَدينَةَ عَلَى حينِ غَفْلَة مِنْ أَهْلِها فَوَجَدَ فيها رَجُلَيْنِ يَقْتَتِلانِ هذا مِنْ شِيعَتِه وَهذا مِنْ عَدُوِّهِ فَاسْتَغاثَهُ الَّذي مِنْ شيعَتِه عَلَى الَّذِي مِنْ عَدُوِّهِ...

***“(Musa Fironun qəsrindən) şəhərə əhalisi xəbərsizkən (istirahət vaxtı) daxil oldu. İki nəfərin bir-birilə vuruşduğunu gördü. Biri onun şiələrindən idi, o biri düşmənlərindən. Şiələrindən olan şəxs düşməninə qarşı ondan kömək istədi.”***

Bu ayədə həmin söz həzrət Musanın (ə) tərəfdarları barəsində işlənmişdir. Bu ifadədən o həzrətin peyğəmbərliyindən öncə bir qrup insanı haqqa doğru yönəldə bilməsini anlamaq olar. Nəticədə, deyə bilərik ki, “şiə” sözü həm bəzi peyğəmbərlər, həm də onların tərəfdarları barədə işlənmişdir.

***c) Rəvayətlərdə “şiə” sözü***

“Şiə” sözü rəvayətlərdə geniş şəkildə istifadə edilmişdir. Burada üç nümunəni diqqətinizə çatdırmaqla kifayətlənirik:

1. Günlərin birində həzrət Əli (ə) tərəfdarlarından Nouf Bukaliyə buyurur:

أَتَدْري يا نَوْفُ مَنْ شيعَتي؟

***“Sən mənim şiələrimin kimlər və onların hansı xüsusiyyətlərə sahib olduğunu bilirsənmi?”***

Nouf Bukali cavab verir ki, Allaha and olsun, bilmirəm. Siz deyin. Sonra o həzrət şiələrinin xüsusiyyətlərini saymağa başladı və dedi:

رُهْبانٌ بِاللَّيْلِ وَأُسْدٌ بِالنَّهار

***“Mənim şiələrim gecə ibadət edər və günüzlər isə İslamı müdafiə edərlər. Yəni, günüzlər İslamı müdafiə etməkdə şir kimi güclü və qüvvətlidirlər.”***[1]

2. Digər bir rəvayətdə şiələr belə vəsf edilmişdir:

إِنَّما شَيعَتُنا أَصْحابُ الْأَرْبَعَةِ الأَعْيُنِ; عَيْنانِ فِي الرَّأْسِ وَعَينانِ فِي الْقَلْبِ

***“Bizim şiələrimizin dörd gözü vardır. İkisi adi insanlarda olduğu kimidir və digər ikisi isə onların qəlblərindədir.”***[2]

Yəni, şiələr, güclü, alim, bəsirətli və hər bir şeyi anlayan kəslərdir,

---

*məlumat almaq istəyənlər «Nümunə təfsiri», c.15, səh. 273 və c.19, səh. 87-dən sonrakı hissələrə müraciət edə bilərlər.*

*1. «Biharul-ənvar», c.75, səh. 27.*

*2. «Əl-Kafi», c.8, səh. 215.*

nəinki, sadəlövh.

3. Bir nəfər imam Baqirə (ə) dedi ki, Allaha şükürlər olsun ki, sizin şiələriniz çoxdur. İmam ona mənalı bir nəzər saldıqdan sonra buyurdu: "Bizim şiələrimiz olduğunu dediyin kəslər sadaladığım bu işləri görürlərmi:

هَلْ يَعْطِفُ الْغَنيُّ عَلَى الْفَقيرِ؟ وَ يَتَجاوَزُ الْمُحْسِنُ عَنِ الْمُسِيءِ وَيَتَواسَوْنَ؟ قُلتُ: لا، قالَ: لِيْسَ هؤُلاءِ الشِّيعَةُ، الشِّيعَةُ مَنْ يَفْعَلُ هَكَذا

***"Onlardan varlı olanlar ehtiyaclı və fəqirlərə diqqıt edir və yardım göstərirmi, Şiələrimiz olduğunu dediyin o kəslərin böyükləri xətaya yol verənləri bağışlayır və onların günahlarından keçirlərmi, yoxsa, onları cəzalandıraraq neçə bərabər əziyyət verirlər? Öz sevinclərini digərləri ilə paylaşırlarmı?""[1]***

Bu cavabları eşitdikdə, həmin şəxs utandı və mənfi cavab verdi. İmam buyurdu ki, belə insanlar şiə deyillər, şiələr sadaladığım əməlləri yerinə yetirənlərdir. Bəli, şiələr ayıq, başa düşən, ehtiyaclılara yardım edən, xətakarların xətasından keçən və öz sevincini digərləri ilə paylaşanlardır.

---

*1. «Biharul-ənvar», c.71, səh. 313.*

# 15 “HİKMƏT” AYƏSİ

يُؤْتِي الْحِكْمَةَ مَنْ يَشاءُ وَمَنْ يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْراً كَثِيراً وَما يَذَّكَّرُ اِلاّ أُولُوا الأَلْبابِ

***“Hikməti (şəriət hökmlərini və əqli və əməli maarifi) istədiyi (və vücudunda tələbat olan və haqqın hikməti ilə uyğun gələn) şəxsə verir. Kimə hikmət verilsə, (ona) doğrudan da, çoxlu xeyir verilmişdir. Əsl ağıl sahiblərindən başqa, heç kəs öyüd almaz.”***

*“Bəqərə” surəsi, ayə 269.*

## *Bəhsə qısa bir nəzər*

Şübhəsiz ki, digər dinlərə nisbətdə İslam dininin insanları elm və biliyə təşviq etməsi daha artıqdır. Bu cəhətdən, əgər İslam dinini hikmət və elm dini adlandırsaq, yanılmarıq. Bu ayə elm və hikməti hədsiz xeyir adlandırır. Həmin ayənin həzrət Əlinin (ə) fəzilətləri ilə bağlılığı məsələsinə bəhsin davamında izah verəcəyik. Allah bizi həmin həqiqətləri dərk edən aqillər sırasında yerləşdirsin! Amin, ya rəbbəl aləmin!

## Şərh və təfsir

### Hikmət hədsiz xeyirdir

**يُؤْتِى الْحِكْمَةَ مَنْ يَشاءُ** – ***"Allah elm və hikməti istədiyi və ona layiq olan şəxslərə verər."*** Hikmət sözü ilə bağlı onun "Quran həqiqətlərindən agah olmaq", "yaradılış aləminin sirlərinə nisbətdə mərifət", "əməl və rəftar baxımından haqqa yetişmək", "nəsihət", "Allaha mərifət və onu tanımaq"[1] mənalarında olduğunu bildirmişlər və bunların hamısı bir sözdə toplanmışdır. Bu ayədən qabaqkı ayədə ("Bəqəqrə" surəsi, ayə 268) Allahın infaq və fədakarlıq müqabilində bağışlanmaq və bərəkət vədəsi verdiyi, şeytanın isə vəsvəsə edərək insanları fəqirliklə qorxutduğu bildirilmiş və ilahi vədə ilə şeytani vəsfəsə arasında fərqi müəyyən edən və insanın nicatına səbəb olan məsələnin hikmət olması bəyan edilmişdir. Həmçinin, hikmətin istənilən şəxsə verilməsində məqsəd o deyil ki, hər hansı bir şəxsə veriləcək, əksinə məqsəd Allahın gördüyü işlərin hikmətə əsaslanmasıdır.

Yəni, onu ləyaqəti olan şəxslərdən istədiyinə verərək həyat bulağından sirab edər.

**وَمَنْ يُؤْتَ الْحِكْمَةَ فَقَدْ اُوتِىَ خَيْراً كَثِيراً**– ***"Hikmət verilən kəsə hədsiz xeyir əta edilmişdir."*** Hikməti bağışlayanın Allah olmasına baxmayaraq, ayədə onun adı çəkilməmişdir. Bu ifadə ilə sanki elm və hikmətin zatən yaxşı olduğu və hansı nahiyə və kim tərəfindən olmasına baxmayaraq, ondan istifadə edərək əldə edilən xeyir arasında heç bir fərqin olmadığı bildirilmişdir. Diqqət olunası məsələ cümlənin bu şəkildə "kiməsə elm və hikmət verilsə ona hədsiz xeyir və bərəkət əta edilmişdir" işlənməsidir, nəinki, mütləq şəkildə xeyir formasında. Deməli, mütləq səadət və xeyir təkcə elmdə deyil, əksinə elm onun mühüm amillərindən biridir.

**وَما يَذَّكَّرُ اِلاّ اُولُوا الْاَلْبابِ** – ***"Əsl ağıl sahiblərindən başqa, heç kəs öyüd almaz."***

"Təzəkkur" sözü "xatırlamaq", "elm və biliyi ruhda qoruyub saxlamaq" mənasındadır və "əlbab" sözü isə "lob" sözünün cəmidir ki, "əql" mənasını ifadə edir. Bu cümlədə bildirilir ki, təkcə əql

*1. Yuxarıdakı dörd ehtimala altı digər ehtimal da əlavə edilmiş və «Məcməul-bəyan» c.2, səh. 382-də qeyd olunmuşdur.*

sahibləri həqiqətləri xatırlayır, onu qoruyur və ondan bəhrələnirlər. Divanələrdən başqa, bütün insanlarda əqlin olmasına baxmayaraq, onların hamısı "ulul-əlbab" adlanmır, əksinə "ulul-əlbab" ağıllarını işə salaraq onun nurlu çırağı sayəsində həqiqi həyat yolunu tapanlardır.

### *Həzrət Əli (ə) hikmət sahibidir*

"Hikmət" ayəsi hikmət verilən şəxsə hədsiz xeyir-bərəkət bəxş edildiyini bildirir və kimlərə hikmət verildiyi isə bu ayədən o qədər də məlum deyil. Amma əhli-sünnə və şiə rəvayətlərində belə bir hikmət sahibi olan şəxsin Əli ibn Əbu Talib (ə) olduğu bildirilmişdir. Həmin rəvayətlərin bəzilərinə diqqət yetirin:

1. Əhli-sünnənin məşhur alimlərindən Hakim Həskani Rəbi ibn Xeysəmin belə dediyini nəql edir:

***"Mənim yanımda Əlinin (ə) adını çəkdilər və mən dedim:***

لَمْ اَرهُمْ يَجِدُونَ عَلَيْهِ فِى حُكْمِهِ وَاللهُ تَعالى يَقُولُ وَمَنْ يُؤْتَ الْحِكْمَةَ فَقَدْ اُوتِىَ خَيْراً كَثيراً

***"Mən camaatın hansısa birinin onun hökmü barədə irad tutmasını gömədim (daha sonra "Hikmət" ayəsini dəlil gətirdi).""***[1]

2. İbn Abbas Peyğəmbərin (s) belə buyurduğunu deyir:

مَنْ اَرادَ اَنْ يَنْظُرَ اِلى اِبْراهيمَ فى حِلْمِه وَ اِلَى نُوح فِى حِكْمَتِهِ وَاِلى يُوسُفَ فى اِجْتماعِه فَلْيَنْظُرْ اِلى عَلِىِّ بْنِ اَبى طالِب

***"İbrahimin (ə) helmini, Nuhun (ə) hikmətini, Yusifin (ə) camaata mehribanlığını görmək istəyən kəs Əli ibn Əbu Talibə (ə) nəzər salsın."***[2]

Belə bir rəvayətin oxşarı İbn Həmradan da nəql edilmişdir:

***"Biz Peyğəmbərin (s) yanında olduğumuz zaman həzrət Əli (ə) bizə tərəf gəldi. Peyğəmbər (s) buyurdu:***

مَنْ سَرَّهُ اَنْ يَنْظُرَ الى آدَمَ فى عِلْمِه وَنُوح فى فَهْمِه وَاِبْراهيمَ فى خُلَّتِه فَلْيَنْظُرْ اِلى عَلِىِّ بْنِ اَبيطالِب

***"Adəmin (ə) elmini, Nuhun (ə) dərrakəsini, İbrahimin Allah dostu məqamını görərək şadlanmaq istəyən şəxs (bütün bu sifətlər onda toplanmış) Əli ibn Əbu Talibə (ə) baxsın."""*** [3]

3. Başqa bir rəvayətdə İbn Abbasdan belə nəql edilir:

***"Allah Peyğəmbərinin yanında idim. Ondan həzrət Əli (ə) barəsində soruşulduqda, buyurdu:***

قُسِّمَتِ الْحِكْمَةُ عَشَرَةَ اَجْزاء، فَاُعْطِىَ عَلىٌّ تِسْعَةَ اَجْزاءَ وَاُعْطِىَ النّاسُ جُزْءاً واحِداً

***"Elm və hikmət on hissəyə bölünmüşdür. Onun doqquzu Əliyə (ə),***

*1. «Şəvahidut-tənzil», c.1, səh. 107, hədis: 150.*
*2. «Şəvahidut-tənzil», c.1, səh. 106, hədis: 147.*
*3. "Şəvahidut-tənzil", c.1, səh. 79, hədis: 116.*

***təkcə bir hissəsi isə digər insanlara verilmişdir (yəni Əlinin (ə) elmi bütün insanların elminin doqquz bərabəridir).””[1]***

Bu ifadələrlə İslam ümmətində Peyğəmbərdən (s) sonra həzrət Əliyə (ə) elm və hikmətdə heç kəsin çatmadığı bildirilir. İmamətin əsas rüknlərindən biri də elm və hikmət olduğu üçün, Peyğəmbərin (s) canişini olmaq ləyaqəti həzrət Əliyə (ə) məxsusdur.

## Həzrət Əlinin (ə) elminin əhatə dairəsi

Həzrət Əlinin (ə) elm və biliyi o qədər geniş və nuru parlaqdır ki, hətta, düşmənləri belə, onu inkar etməmiş, əksinə üç əvvəlki xəlifə dövründə də o həzrətin elminə müraciət etmişlər. Bu barədə deyiləsi sözlər çoxdur və biz bir neçə nümunəni diqqətinizə çatdırmaqla kifayətlənirik:

## 1. İmam Əlinin mərcə (müraciət mənbəyi) olması

Peyğəmbərin (s) xüsusi xidmətçilərindən olan Ənəs ibn Malik o həzrətin Əliyə (ə) xitab olaraq belə buyurduğunu nəql edir:

اَنْتَ تَبينُ لِاُمَّتى ما اخْتَلَفُوا فيهِ بَعْدى

***“Sən məndən sonra ümmətimin ixtilafa düşdükləri məsələləri onlar bəyan edərək həll edəcəksən.”[2]***

İmamət və vilayətin mühüm vəzifələrindən biri Quran və Peyğəmbər (s) elmini mühafizə etmək, onları düzgün şəkildə alimlərə çatdırmaq və ümmət arasında yaranan ixtilafları həll etməkdən ibarətdir. Böyük ölkələri özünə tabe etdirən çoxlu fatehlər olmuşdur ki, onlar məğlub ölkə millətinin mədəniyyəti qarşısında aciz qalaraq onların mədəniyyətinin yayılmasına icazə vermişlər. Məsələn, monqolların müsəlmanlar üzərində qələbə çalmasına baxmayaraq, onlar Quran və İslamdan o qədər təsirlənə bilmişlər ki, sonralar İslamın yayılmasına çalışmışlar.

Peyğəmbərin (s) vəfatından sonra həzrət Əli (ə) İslam mədəniyyətinin yayılmasına çalışmış və ilkin olaraq Quranı toplamışdır. O həzrət Quranı toplayana qədər namaz[3] qılmaqdan başqa, evdən çölə çıxmayacağına and içmişdir. Daha sonra həzrət Əli Quranın nasix, mənsux, aşkar və məxfi məsələlərini və Peyğəmbərdən öyrəndiklərini təlim verərək

*1. “Şəvahidut-tənzil”, c.1, səh. 105, hədis: 146.*

*2. «Mustədrəkus-səhihəyn», c.3, səh. 122; «Kənzul-ümmal», c.6, səh. 156. Mərhum Tustəri «İhqaqul-həqq», c.6, səh. 52-53-də yuxarıdakı iki mənbədən başqa, əhli-sünnənin digər dörd kitabından həmin rəvayəti nəql etmişdir.*

*3. «Əl-İstiab», səh. 1109 və «İhticacut-Təbərsi», səh. 239.*

imam Həsən (ə), imam Hüseyn (ə), İbn Abbas, İbn Məsud və digərləri kimi tələbələr yetişdirmişdir ki, onlar yenicə müsəlman olan ölkələrin müsəlmanlarına fiqhi, etiqadi, hüquqi və s. məsələlərdə cavab verə və onların ehtiyaclarını ödəyə bilsinlər. Həmçinin, digər mədəniyyətlərin hücumları müqabilində dayana və fəth edilmiş ölkələrdəki alimlərinin verdikləri sualları cavablandırsınlar.

### *2. İmam Əli (ə) Peyğəmbərin (s) elm şəhərinin qapısıdır*

"Səhih Tirmizi"də Peyğəmbərin (s) belə buyurduğu nəql edilmişdir:

اَنـا دارُ الْحِكْمَةِ وَعَلِيٌّ بابُها

***"Mən elm və hikət eviyəm və Əli də o evin qapısıdır."***[1]

Quranın "Bəqərə" surəsinin 189-cu ayəsində bildirildiyi kimi, evə daxil olmaq istəyən şəxs onun qapısından gəlməlidir:

وَ أْتُوا الْبُيُوتَ مِنْ اَبْوابِها

***"Evlərə qapılarından daxil olun!"***

Deməli, Peyğəmbərin (s) elminə yiyələnmək istəyənlər, həzrət Əlidən (ə) başlamalı və elm xəzinələrinin açarını ondan istəməlidirlər.

### *3. İmam Əli (ə) və Təfsir elmi*

Təfsir elminə müraciət etdikdə, görürük ki, həzrət Əli (ə) təfsirçilərin rəhbəridir. Süyuti yazır: "Xəlifələr arasında hamıdan daha çox Əli ibn Əbu Talibdən (ə) rəvayət nəql edilmişdir."[2]

Çoxlu syda təfsir əsərlərinə malik olan İbn Abbas həzrət Əlinin (ə) şagirdlərindəndir. Ondan soruşulduqda ki, sənin elmin əmin oğlunun (həzrət Əli (ə)) elminə nisbətdə nəqədərdir? Cavab verir ki, okean[3] müqabilində yağan yağış damlası kimi. Həzrət Əlinin (ə) şagirdlərindən hər biri Məkkə, Mədinə və Kufədə təfsir məktəbinin sahibi idi.

### *4. İmam Əli (ə) Nəhv elminin əsasını qoyanlardandır*

İmam Əli (ə) Quranın düzgün oxunuşu ilə bağlı Əbuləsvəd

---

*1. «Səhih Tirmizi», c.5, səh. 637 («Quranın mesajı», c.9, səh. 272-dəki nəqlə əsasən). Məzmunu belə, lakin sözləri fərqli olan rəvayətlər həddən artıqdır. Qeyd edilən rəvayətdə hikmət sözü olduğu üçün xüsusən xatırladılmışdır. Məsələn, məşhur rəvayət olan «Mən elmin şəhəriyəm, Əli (ə) də onun qapısıdır» kimi qeyd edilən rəvayət bizim rəvayətlərdə çoxlu sayda nəql edilmişdir. Təkcə «Biharul-ənvar»ın 40-cı cildində on iki dəfə təkrar edilmişdir.*

*2. «İtqan» təfsiri, 80-ci növ, "Təbəqatul-müfəssirin".*

*3. İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi», c.1, səh. 18-19.*

Duəlini vəzifələndirdi ki, onun nəzarəti altında nəhv elmini yaratsın. Əbuləsvəd Duəli sonralar həmin elmdən istifadə edərək Quranda hərəkələr qoymuşdur.[1]

### 5. İmam Əli (ə) və Kəlam (əqaid) elmi

İbn Əbil Hədid "Nəhcül-bəlağənin şərhi"ndə yazır: "Elmlərin əşrəfi sayılan kəlam və əqaid elmi imam Əlinin (ə) elmindən iqtibas olunmuşdur."[2] İrbili "Kəşful-ğummə" əsərində belə deyir: "Kəlam elmi məktəblərinin rəhbərləri – əşairə, mötəzilə, şiə və xəvaric özlərini o həzrətə nisbət verirlər."[3]

### 6. İmam Əli (ə) və Fiqh elmi

Öz fiqhini imam Əlidən (ə) əldə edən imamiyyədən başqa, Əhməd ibn Hənbəl fiqhi Şafeidən, Şafei Məhəmməd ibn Həsən və Malikdən öyrənmiş, Məhəmməd ibn Həsən öz fiqhini Əbu Hənifədən, Malik və Əbu Hənifə də fiqhi imam Sadiqdən (ə) öyrənmişlər. İmam Sadiqin (ə) fiqhi isə cəddi Əli ibn Əbu Talibə istinad edir.[4]

### 7. İmam Əli və həqiqət (batin) elmi

Qahirə universiteti müəllimi və təriqət sahibi Doktor Əbulvəfa Qənimi Taftazani özünün "Vəsailuş-şiə" adlı kitabının müqəddiməsində yazır: "Rəfai, Dəsvəqi və Gilani kimi təriqət sahibləri və əhli-sünnə alimləri öz təriqətlərini imamlara, onların vasitəsi ilə həzrət Əliyə və bu yolla da Peyğəmbərə (s) istinad edirlər. Çünki Peyğəmbər (s) buyurmuşdur:

انا مدينة العلم و علىّ بابها

***"Mən elmin şəhəriyəm, Əli (ə) isə onun qapısıdır."[5]***

Bu ifadələr ariflərin nəzərində həqiqət , batin və mükaşifə kimi xüsusiyyətlərə malik olmaq deməkdir və həzrət Əlidən (ə) başqa, heç kəs ona sahib deyildir.[6] Əhli-sünnə mənbələrində həzrət Əlinin (ə) bu xüsusiyyəti ilə əlaqədar çoxlu rəvayətlər mövcuddur. Burada isə biz Ömərin Həcərul-əsvədlə bağlı dediyi bir nümunəni nəzərinizə çatdırırıq: "Bilirəm ki, sən daşsan və sənin xeyir və zərərin yoxdur. Əgər Peyğəmbərin (s) səni öpdüyünü görməsəydim, səni öpməzdim.

*1. «Təbəqatun-nəhviyyin», c.7, səh. 14.*
*2. İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi», c.1, səh. 17.*
*3. «Kəşful-ğummə», c.1, səh. 21.*
*4. İbn Əbil Hədid, «Nəhcül-bəlağənin şərhi», c.11, səh. 17.*
*5. Bu rəvayətin sənədi bir neçə səhifə əvvəl xatırladıldı.*
*6. «Keyhane fərhəngi», 184-cü say, səh. 16.*

Həzrət Əli (ə) ona buyurur: "O da xeyir və zərər verə bilir. Allah aləmi-zərdə[1] (zər aləmi) onun vasitəsi ilə əhd almışdır və qiyamətdə əhdinə vəfa edənlərin xeyrinə bu daş şəhadət verəcəkdir."" Ömər bu sözləri eşitdikdə, deyir: "Allah məni sən olmayan yerdə salamat qoymasın, ey Əbülhəsən!"[2]

### 8. İmam Əli (ə) və Peyğəmbərə (s) canişinlik

Keçmiş bəhslərdən möhtərəm oxucu öz-özlüyündə həzrət Əlinin (ə) istər dostlar tərəfindən olsun, istərsə də düşmənlər, Peyğəmbərdən (s) sonra bütün insanlardan elmli, fəzilətli və üstün olduğunun etiraf edilməsi nəticəsinə gəlmişdir. Yəni, digərləri deyil, o həzrət Peyğəmbərdən (s) sonra canişin olmağa layiqdir. Bu cəhətdən, İslam Peyğəmbəri (s) xilafət və müraciət mənbəyi olmaq kimi iki mətləbi özünün əhatəli xütbəsi olan "Qədir" xütbəsində bir yerdə qeyd edərək belə buyurmuşdur:

مَعاشِرَ النّاسِ! هذا اَخى وَوَصِيّى وَواعى عِلْمى وَخَليفَتى

***"Ey camaat! Bu, (Əli ibn Əbu Talib) qardaşım, vəsim, mənim bütün elmimin qoruyucusu və canişinimdir."[3]***

Yuxarıda qeyd edilən dörd xüsusiyyəti nəzərə aldıqda, bir sıra mətləblərin həqiqəti aydınlaşır:

1. **اَخى** ***(Əxi)*** – Əgər hansısa bir şəxs özündən böyüyə ehtiram etmək istəsə, ona "ata", kiçiyə hörməti nişan vermək istəsə, "oğlum" ifadələri ilə müraciət edər. Amma biri şəxsi özü ilə bərabər tutarsa, ona "qardaşım" ifadəsi ilə müraciət edər. Mənəvi qardaşlıq iki şəxs arasında bərabərliyə əsaslanan münasibətlərdən ibarətdir. Nəticədə, "qardaşım" ifadəsi böyük bir həqiqətdən söhbət açır və o, budur ki, həzrət Əli (ə) Peyğəmbərlə (s) bir çəkidədir və ya onun şəxsiyyəti Peyğəmbərin (s) şəxsiyyətinə daha yaxındır. "Qardaşım" ifadəsi "Mübahilə" ayəsində işlənən "ənfusəna və ənfusəkum…" cümləsini bəyan edir.

2. **وَصيّى** ***(Vəsiyyi)*** – Əhli-sünnənin etiqadına əsasən, Peyğəmbər (s) özündən sonra heç bir irs qoymur. Bilirik ki, Əli (ə) Peyğəmbərin (ə) vəsisi deyildi və o həzrətin yeganə övladı Fatimə (ə) idi. Həzrət Əli (ə) Peyğəmbərin (s) mal və mülkü baxımından vəsisi deyildi. Həmçinin, o həzrətin qızı Fatimeyi-Zəhra (ə) var idi və imam Əli (ə) Peyğəmbər övladlarının vəsisi ola bilməzdi. Deməli, Əli (ə) dini məsələlər barədə

*1. Aləmi-zərlə bağlı geniş şərhi «Nümunə təfsiri», c.7, səh. 5-dən sonra mütaliə edə bilərsiniz.*
*2. «Əl-Camiul-üsul li əhadisir-rusul», c.2, səh. 149.*
*3. "Əl-Qədir", c.3, səh. 117.*

Peyğəmbərin (s) vəsisi idi. Bəli, Peyğəmbər (s) öz yolunun davam etdirilməsi üçün həzrət Əlini (ə) özünə vəsi təyin etdi.

3. **واعى عِلْمى** ***(Vaiyi elmi)*** – "Vai" sözü ərəb dilində hansısa bir şeyi qəlbdə saxlamağa, yəni bir mətləb barəsində düşünərək ona qəlbdə yer vermək və onu həyat amalına çevirməyə deyilir. Nəticədə, həzrət Əli (ə) Peyğəmbərin (s) bütün elmini öyrənə və onu müsəlmanlara təlim verə bildi.

Görəsən, belə bir şəxsin mövcud olması ilə yanaşı, ikinci bir şəxsin xilafətindən söhbət açmaq olarmı?!

***4. و خليفتى علىّ من آمن بى (Və xəlifəti əla mən amənə bi) – Peyğəmbər (s) bu cümlə ilə bütövlükdə bəhanə axtaranların bəhanəsinə son qoymuş və açıq-aşkar şəkildə həzrət Əlinin (ə) canişinliyini bütün dünyaya çatdırmışdır. İslam Peyğəmbəri (s) خليفتى (mənim xəlifəm) sözü ilə kifayətlənməmiş və nəfslərinə tabe olan insanların "Peyğəmbərin (s) məqsədi onun bütün müsəlmanlara rəhbərliyi deyil, əksinə ailəsi və qadınlarına rəhbərlik və başçılıqdır." deməsinin qarşısını alaraq həzrət Əli (ə) və onun övladlarının imamət və xilafətini ən yaxşı və gözəl ifadələrlə bəyan etmişdir. Əhli-beyt (ə) və onların başında həzrət Əlinin (ə) elmi baxımdan müraciət mənbəyi olması barədə təkid edilməsinə baxmayaraq, həmin məsələni imamət və xilafətdən ayırmaq böyük səhvdir və öz ardınca elə pis nəticələr gətirər ki, onu bərpa (təlafi) etməyə heç kəsin gücü çatmaz.***

***Sözümüzün sonunda Allaha həmd və səna edirik!***

## *İstifadə edilən mənbələr*


1. Quran
2. "Nəhcül-bəlağə"
3. Əhməd ibn Hənbəl, "Müsnəd"
4. Xətib Bağdadi, "Bağdad tarixi"
5. "Feyzul-Qədir"
6. "Əs-Səvaiqul-muhriqə"
7. Təbərsi, "Məcməul-bəyan"
8. "Qurtubi təfsiri"
9. "Sələbi təfsiri"
10. Şiblənci, "Nurul-əbsar"
11. "Təbəri təfsiri"
12. Əllamə Əmini, "Əl-Qədir"
13. "Əbsus-Səud" (Fəxri Razinin təfsirinə haşiyə)
14. "Əs-Siracul-munir"
15. Səd ibn Məhəmməd ibn Səd ibn Seyfi Təmimi, "Reyhanətul-ədəb"
16. Fəxri Razi, "Ət-Təfsirul-kəbir"
17. Şeyx Kuleyni, "Üsuli-kafi" kitabının tərcüməsi
18. "Əl-Qədir fi kitab vəs-sünnəh vəl-ədəb"
19. Süyuti, "Durrul-mənsur"
20. Hakim Həskani, "Şəvahidut-tənzil"
21. Ayətullah Məkarim Şirazi, "Təfsire-nümunə"
22. Alusi, "Ruhul-məani"
23. Zəməxşəri, "Əl-Kəşşaf" təfsiri
24. Əllamə Məclisi, "Biharul-ənvar"
25. Ayətullah Məkarim Şirazi, "Təfsir be rəy"
26. "Mizanul-hikmət", Rey Şəhri
27. Şeyx Tusi, "Təhzibul-əxbar"
28. Şeyx Tusi, "Əl-İstibsar"
29. Şeyx Səduq, "Mən la yəhzurul-fəqih"
30. "Sünəne Tirmizi"
31. "Müstədrəkus-səhihəyn"
32. "Səhih Müslim"
33. Nəsai, "Xəsaisun-Nəsai"
34. İbn Həcər, "Əs-Səvaiqul-mühriqə"

35. İbn Teymiyyə, “Minhacus-sünnə”
36. Ayətullah Məkarim Şirazi, “Quranın mesajları”
37. Mühəddis Qumi, “Muntəhəl-amal”
38. “Məzhəre vilayət”
39. “Kifayətut-talib”
40. “Əsraru Ali-Muhəmməd”
41. Qurtubi, “Furqan” təfsiri
42. İbn Əbil Hədid, “Nəhcül-bəlağənin şərhi”
43. “Səhih Müslim”
44. Beyhəqi, “Əs-Sunənul-kubra”
45. Əllamə Təbatəbai, “Əl-Mizan” təfsiri
46. “Rövzətül-müttəqin”
47. “Güclü mübarizə aparmaq üçün müdafiə təqiyyəsi”
48. “Əhkamul-Quran”
49. “Mərifətu ulumil-hədis”
50. Məhəmməd Əbduh, “Əl-Məna”” təfsiri
51. “Navadirul-usul”
52. “Əl-İqdul-fərid”
53. “ Əl-Kəşfu vəl-bəyan”
54. “Mənaqibu Xarəzmi”
55. “Mətalibus-suul”
56. “ Nurul-əbsar”
57. “Fəthul-Qədir”
58. “Əl-İsabəh”
59. “Əsbabun-nuzul”
60. “Məalimut-tənzil”
61. “Təzkirətu İbnil-Cuzi”
62. “Zəxayirul-uqba”
63. Əllamə Nişaburi, “Təfsir”
64. “Ət-Təzkirə”
65. “Ət-Tibyan”
66. “Məaricun-nubuvvəh”
67. “Yənabiul-məvəddəh”
68. “Kəşful-irtiyab”
69. “Təthirul-etiqad”
70. “Vəfaul-vəfa”
71. “Furuğe əbədiyyət”
72. “Təbəri tarixi”
73. “Sireye İbn Hişam”
74. “Əs-Sirətul-hələbiyyə”

75. "Tarixe Yəqubi"
76. "Fusulu ibn Səbbağ Maliki"
77. "Mustədrəkatu elmir-rical"
78. "Təfsiri Cazen"
79. "Nəsəfi təfsiri"
80. "Fusulul-muhimmə"
81. "Əl-Burhanu fi təfsiril-Quran"
82. "Camiur-ruvvah"
83. "Ər-Riyaz"
84. "Xəsaisul-kubra"
85. "Əl-Camiul-əhkamul-Quran"
86. "Əl-İtqan"
87. "Rovzətul-əhbab"
88. "Manaqibu-Murtəzəvi"
89. "Əl-Bəhrul-muhit"
90. "Əl-İstiyab"
91. "Fəraidus-səmtəyn"
92. Məqrizi, "Əl-İmta"
93. "Məcməuz-zəvaid"
94. Mərhum Seyid Yəzdi, "Urvətul-vusqa"
95. "Tarixe kamil"
96. "Şukani təfsiri"
97. "Əvaliul-ləali"
98. "Təzkirə"
99. "İbn Kəsir təfsiri"
100. "Ər-Riyazun-nəzrəh"
101. "Fəthul-Qədir"
102. "Nəvadirur-Rəvəndi"
103. "Muntəxəbu kənzil-ummal"
104. "Hilyətul-övliya"
105. "Təfsirun fi zilal"
106. "Əl-Umdətu libni Bətriq"
107. "Burhan təfsiri"
108. "Təfsiru Furati-Kufi"
109. "Kəşful-ğummə"
110. "Keyhane fərhəngi" jurnalının 184-cü sayı
111. "Əl-Camiul-üsul li əhadisir-rusul"

## Mündəricat

*Müqəddimə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5*
*Hazırkı kitab. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5*
*Xatırlatma. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5*

BİRİNCİ FƏSİL

İMAMƏT AYƏLƏRİ VƏ MÜSƏLMANLARA

RƏHBƏRLİK

1 "TƏBLİĞ" AYƏSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8
*Bəhsə qısa bir nəzər (baxış). . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8*
*Canişin seçilməsi risalətin sona çatma nöqtəsidir . . . . . . . . . . . . . . . . . . . . 9*
*Birinci yol: Ayənin digər şahidlərin köməyi olmadan təfsiri . . . . . . . . . . . . . . 11*
*Üçlük təşkil edən nişanələrin vilayət məsələsinə tətbiqi. . . . . . . . . . . . . . . . . . 13*
*İkinci yol: "Təbliğ" ayəsini rəvayətlər sayəsində təfsir etmək . . . . . . . . . . . . . 14*
*Ayənin verdiyi mesajlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16*
*Qədir-Xum hadisəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16*
*"Qədir" rəvayətinin möhtəvası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 17*
*1. "Qədir" hədisindəki "vilayət" və "mövla" sözlərinin təfsiri . . . . . . . . . . . . . 22*
*2. "Məaric"surəsinin ayələri "Qədir" hadisəsinin təsdiqləyicisidir. . . . . . . . . 24*
*3. Bu ayənin özündən əvvəl və sonrakı ayələr ilə münasibət və rabitəsi necədir? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27*

2 "İKMALUD-DİN" (DİNİN KAMİLLİYİ) AYƏSİ. . . . . . . . . . . . . . . . . . . . 28
*Bəhsə qısa bir nəzər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28*
*Nemətlərin tamamlandığı və dinin kamil olduğu gün . . . . . . . . . . . . . . . . . . 29*
*Həmin gün hansı gün idi?. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30*
*Birinci yol: Ayəni xarici qərinə və şahidlər olmadan təfsir etmək. . . . . . . . . . 30*
*"Dinin kamilliyi"ndə məqsəd nədir?. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32*
*Fəxri Razidən maraqlı bir etiraf . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33*
*İkinci yol: Ayənin rəvayətlər sayəsində təfsir edilməsi. . . . . . . . . . . . . . . . . . 37*
*Alusidən təəccüb doğuracaq sözlər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40*
*1. "Vilayət" düşmənləri naümid edəndir. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41*
*2. Vilayət sayəsində "dinin tamamlanması" və "nemətlərin kamilləşməsi" . . 42*
*1. Vilayət İslamın ən əsas məsələlərindəndir. . . . . . . . . . . . . . . . . . . . . . . . 42*
*2. Vilayətin iki tərəfi vardır (ikitərəflidir) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43*

**3 "VİLAYƏT" AYƏSİ . . . . . . . . . . 45**

***Bəhsə qısa bir nəzər . . . . . . . . . . 45***

***Vəlinin (rəhbərin) nişanələri. . . . . . . . . . 46***

***Birinci yol: Ayəni hədisləri nəzərə almadan təfsir etmək . . . . . . . . . . 47***

Quranda "vəli" sözünün işlədilməsi . . . . . . . . . . 47

***Bəhs edilən ayədəki "vəli" sözündə məqsəd nədir? . . . . . . . . . . 49***

***İkinci yol: Ayəni hədisləri nəzərə almaqla təfsir etmək . . . . . . . . . . 51***

***İki mətləbin xatırladılması. . . . . . . . . . 54***

***Bəhanə və iradlar . . . . . . . . . . 55***

Birinci irad: "İnnəma" sözü həsr və məxsusluğa dəlalət etmir . . . . . . . . . . 55

İkinci irad: Namazda üzük bağışlamaq artıq bir işidir (hərəkətdir). . . . . . . 56

Üçüncü irad: Üzük həddən artıq bahalı və qiymətli idi . . . . . . . . . . 57

Dördüncü irad: Bu iş (namazda) hüzuri-qəlblə uyğun gəlmir . . . . . . . . . . 58

Beşinci irad: Nə üçün ayədəki bütün əvəzliklər cəm halındadır? . . . . . . . . . 59

Altıncı irad: Peyğəmbər (s) həyatda olduğu zaman həzrət Əlinin (ə) vilayətinin mənası nədir? . . . . . . . . . . 65

Yeddinci irad: Zəkatda məqsəd nədir? . . . . . . . . . . 67

***Həddən artıq mühüm olan bir mətləb . . . . . . . . . . 69***

***"Vilayət" ayəsinin verdiyi mesajlar . . . . . . . . . . 70***

**4 "ULUL-ƏMR" AYƏSİ . . . . . . . . . . 72**

***Bəhsə qısa bir nəzər . . . . . . . . . . 72***

***"Ulul-əmr" kimlərdir? . . . . . . . . . . 73***

***"Ulul-əmr"ə itaətin əhatə dairəsi . . . . . . . . . . 74***

***"Ulul-əmr" barəsində müxtəlif nəzəriyyələr . . . . . . . . . . 75***

***Ayənin rəvayətlər sayəsində təfsir edilməsi . . . . . . . . . . 78***

***"Səqəleyn" hədisinin əhəmiyyəti . . . . . . . . . . 79***

***"Təbuk" döyüşü . . . . . . . . . . 84***

**5 "SADİQİN" (DOĞRU DANIŞANLAR) AYƏSİ. . . . . . . . . . 90**

***Bəhsə qısa bir nəzər . . . . . . . . . . 90***

***"Tövbə" surəsi ilə icmali şəkildə tanışlıq . . . . . . . . . . 91***

***"Sadiqin" (doğru danışanlar) kimlərdir? . . . . . . . . . . 94***

***Əhli-sünnə alimlərinin nəzərləri . . . . . . . . . . 95***

***"Sadiqin" ayəsinin Quranın digər ayələri ilə təfsir edilməsi . . . . . . . . . . 96***

***Rəvayətdəki "Sadiqin" . . . . . . . . . . 101***

***"Sadiqin" ayəsinin verdiyi mesajlar . . . . . . . . . . 102***

**İKİNCİ FƏSİL**

**ƏHLİ-BEYTİN (Ə) FƏZİLƏTLƏRİ İLƏ BAĞLI OLAN AYƏLƏR**

**1 "TƏTHİR" AYƏSİ . . . . . . . . . . 106**

***Bəhsə qısa bir nəzər . . . . . . . . . . 106***

*Müqəddimə* ........ *107*
*"Təthir" ayəsi ismətə (məsumluğa) açıq-aşkar bir dəlildir* ........ *107*
*Əhli-beyt (ə) kimlərdir?* ........ *112*
*Bir neçə suala cavab* ........ *118*
2 "MƏVƏDDƏT" (MƏHƏBBƏT) AYƏSİ ........ 121
*Bəhsə qısa bir nəzər* ........ *121*
*Əvvəlki ayələrə bir baxış* ........ *122*
*Əhli-beytə (ə) məhəbbət risalətin (təbliğin) əvəzidir* ........ *123*
*"Yaxınlar"* (قربى) *kimlərdir?* ........ *124*
*Şiənin nəzərində "yaxınlar"* (قربى) *sözünün təfsiri* ........ *126*
*"Yaxınlar"* (قربى) *sözü barədə əhli-sünnənin nəzəri* ........ *126*
*İstəmədən etiraf etmək* ........ *128*
*İmam Sadiqin (ə) sözlərində "Məvəddət"in təfsiri* ........ *131*
*"Məvəddət" ayəsini rəvayətlər sayəsində təfsir etmək* ........ *131*
*Bir neçə mühüm mətləb* ........ *134*
*"Məvəddət" ayəsinin verdiyi mesajlar* ........ *135*
*Məhəbbətin mərtəbə və mərhələləri* ........ *137*
*Xalis aşiq olan Meysəm Təmmar* ........ *137*
3 "MÜBAHİLƏ" AYƏSİ ........ 139
*Bəhsə qısa bir nəzər* ........ *139*
*Müqəddimə* ........ *140*
*1. "Mübahilə" sonuncu çarədir* ........ *140*
*2. "Mübahilə" nə deməkdir?* ........ *140*
*Mübahiləyə dəvət* ........ *140*
*Görəsən, mübahilə həyata keçirildimi?* ........ *141*
*"Mübahilə" ayəsindəki* أَبْنَاءَنَا *(oğullarımız),* نِسَاءَنَا *(qızlarımız) və* أَنْفُسَنَا *(özümüz) kimlərdir?* ........ *144*
4 "DƏHR" SURƏSİNİN AYƏLƏRİ ........ 147
*Bəhsə qısa bir nəzər* ........ *148*
*Ayələrin nazilolma səbəbi* ........ *149*
*Əhli-beytin (ə) beş xüsusiyyəti* ........ *150*
*1. Əhd-peymana fəva etmək* ........ *151*
*2. Qiyamət günündən qorxmaq* ........ *151*
*3. Ehtiyacı olanlara yardım etmək* ........ *152*
*4. Əxlaq* ........ *153*
*5. Allah qorxusu* ........ *153*
*Mükafat ayələri* ........ *154*
*Axirət və dünya mükafatlarının müqayisəsi* ........ *154*
*On iki adda olan cənnət nemətləri* ........ *155*

*Pak olan şərab nədir?* . . . . . . . . . . 159
*Bəhanələr və onlara cavab* . . . . . . . . . . 160
*1. "İnsan" surəsi Məkkidir (Məkkədə nazil olmuşdur).* . . . . . . . . . . 160
*2. Ev üçün vacib olan çıraq məscid üçün haramdır!* . . . . . . . . . . 162
*3. Görəsən, "Dəhr" surəsi ümumidir, yoxsa, xüsusi?* . . . . . . . . . . 164
*1. Ehtiyaclılara yardım etməyin əhəmiyyəti* . . . . . . . . . . 165
*2. Kəmiyyət əməlin meyar və ölçüsü deyil* . . . . . . . . . . 166
*3. "Dəhr" surəsindəki ayələrin şairlərin şeirlərində öz əksini tapması* . . . . . . 167
5 "ADƏMİN TÖVBƏSİ" AYƏSİ . . . . . . . . . . 168
*Bəhsə qısa bir nəzər* . . . . . . . . . . 168
*Allaha doğru qayıdış* . . . . . . . . . . 169
*Həzrət Adəm (ə) və Həvva (ə) hadisələrindən əldə olunan dərslər (ibrətlər)* . 169
*Həzrət Adəmin təvəssülü* . . . . . . . . . . 171
*Həmin kəlmələr nədən ibarət idi?* . . . . . . . . . . 172
*Görəsən, təvəssül etmək şəri bir məsələdirmi?* . . . . . . . . . . 175
*Təvəssülün növləri (qisimləri)* . . . . . . . . . . 176
*Tövhidin təfsiri və onun yüksək mərtəbəsi* . . . . . . . . . . 177
*Tövhidin qisimləri* . . . . . . . . . . 177
*Əşairə və onların feli tövhidlə bağlı yanlış təfsiri* . . . . . . . . . . 179
*Görəsən, təvəssül tövhidlə uyğun gəlirmi?* . . . . . . . . . . 180
*Quranda təvəssül* . . . . . . . . . . 182
*Böyük şəxsiyyətlərə ölümlərindən sonra təvəssül etmək* . . . . . . . . . . 183
*Rəvayətdə təvəssül* . . . . . . . . . . 184
*Allahdan başqasına pərəstiş etmək düzgün (caiz) deyil* . . . . . . . . . . 187

ÜÇÜNCÜ FƏSİL

## HƏZRƏT ƏLİYƏ (Ə) MƏXSUS OLAN FƏZİLƏTLƏRLƏ BAĞLI AYƏLƏR

1 "LƏYLƏTÜL-MƏBİT" AYƏSİ . . . . . . . . . . 190
*Bəhsə qısa bir nəzər* . . . . . . . . . . 190
*Ayənin nazilolma səbəbi (şəni-nuzul)* . . . . . . . . . . 191
*Əhli-sünnə alimlərinin etirafı* . . . . . . . . . . 192
*Bənzərsiz müamilə (ticarət)* . . . . . . . . . . 193
*Allahla ticarət* . . . . . . . . . . 193
*Bu üç ticarəti bir-biri ilə müqayisə* . . . . . . . . . . 195
*Digər bir müqayisə* . . . . . . . . . . 195
*"Ləylətül-Məbit" ayəsindəki ifadələrin zərifliyi* . . . . . . . . . . 196
*"Ləylətül-Məbit" ayəsinin əvvəlki ayələrlə rabitəsi* . . . . . . . . . . 196
*"Ləylətül-Məbit" ayəsinin Əmirəl-mömininin (ə) vilayəti ilə irtibatı* . . . . . . 198
*Əsassız olan bəzi iradlara cavab* . . . . . . . . . . 198

*1. "Ləylətül-Məbit" ayəsi əmr be mərufa əmr edənlər barəsindədir . . . . . . . . 198*
*2. Bəhs edilən ayə Əbuzər barəsindədir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 199*
*3. Bu ayə bütün mühacirlər və ənsar barəsindədir. . . . . . . . . . . . . . . . . . . . . 199*
*4. Həzrət Əli (ə) sağ qalıb-qalmayacağını bilirdi, ya yox? . . . . . . . . . . . . . . . . 199*
*5. Peyğəmbərin (s) xitab etdiyi şəxslər (müxatəb) kimlər idi? . . . . . . . . . . . . . 201*
*1. Həzrət Əlinin (ə) fədakarlığının vəsfində Həssan ibn Sabitin şeirləri. . . . . 201*
*2. Həmin təhlükəli gecədə həzrət Əlinin (ə) aqibəti . . . . . . . . . . . . . . . . . . . . 202*
*3. Allah-taala həzrət Əlinin (ə) fədakarlığı ilə fəxr edir. . . . . . . . . . . . . . . . . . 203*
*Hər şey Allahın razılığı yolunda olmalıdır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 204*
**2 "SİQAYƏTÜL-HACC" (HACILARA SU VERMƏ) AYƏSİ . . . . . . . . . . . . . 205**
*Bəhsə qısa bir nəzər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205*
*Ayənin nazilolma səbəbi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 206*
*Mühüm bir mətləb . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 208*
*Allaha imanın hər bir şeydən üstünlüyü. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 208*
*"Siqayətül-Hacc" ayəsinin vilayət məsələsi ilə irtibat və əlaqəsi . . . . . . . . . . . 209*
*Əhli-sünnə alimlərindən birinin etirafı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 210*
*Dinin böyüklərinə (dini şəxsiyyətlərdən) əməldə itaət və ardıcıllıq . . . . . . . . . 210*
*1. Nə üçün həzrət Əlinin (ə) adı Quranda qeyd edilməyib? . . . . . . . . . . . . . . . 212*
**3 "NÜSRƏT" (KÖMƏK) AYƏSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 215**
*Bəhsə qısa bir nəzər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 215*
*Bütün quvvə ilə hazır olmaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 216*
*Möminlər kimlərdir? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 218*
*İslamı bütün qüvvə ilə müdafiə etmək. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 220*
**4 "ELMUL-KİTAB" AYƏSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221**
*Bəhsə qısa bir nəzər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221*
*Heç bir şeyi dəlilsiz olaraq qəbul etməyin! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 222*
*Nübüvvətin şahidləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 223*
*Allahın şahidliyinin necəliyi (xüsusiyyəti) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 223*
*Yanında elmi-kitab olan şəxs kimdir? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 223*
*Həzrət Əlinin (ə) şahid olmasının necəliyi (xüsusiyyəti) . . . . . . . . . . . . . . . . 225*
*Asəf ibn Bərxiya ilə Əli ibn Əbu Talibin (ə) müqayisə edilməsi . . . . . . . . . . . 226*
**5, 6 "MÜƏZZİN" (AZAN VERƏN) VƏ "AZAN" AYƏSİ . . . . . . . . . . . . . . . . 228**
*Bəhsə qısa bir nəzər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 228*
*"Əraf" surəsi, 24-cü ayənin şərh və təfsiri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 229*
*Cənnət əhli ilə cəhənnəm əhlinin bir-biri ilə söhbəti . . . . . . . . . . . . . . . . . . . 229*
*Müəzzin kimdir?. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 231*
*Görəsən, müəzzin olmaq iftixar hesab edilirmi? . . . . . . . . . . . . . . . . . . . . . . . 232*
*"Bəqərə"surəsi, 3-cü ayənin şərh və təfsiri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 232*
*Cüzi məsələlərdə ixtilaflar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 234*
*Müşriklərə ciddi xəbərdarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 235*

*Görəsən, bu vəzifə fəzilətdirmi?* . . . . . . 237
*"Azan" və "Müəzzin" ayəsinin bir-biri ilə irtibatı* . . . . . . 237
*"Bəraət" (tövbə) surəsini təbliğ etmək vəzifəsi verilən şəxslərin dəyişdirilməsindəki hikmət* . . . . . . 238
7 "MUHSİNİN" (YAXŞILIQ EDƏNLƏR) AYƏSİ . . . . . . 240
*Bəhsə qısa bir nəzər* . . . . . . 240
*İnsanların ən zalımı* . . . . . . 241
*Doğru sözü (həqiqəti) gətirənlər və onu təsdiq edənlər kimlərdir?* . . . . . . 243
*Yeganə müxalif Fəxri Razidir* . . . . . . 244
8 "İLKİN QABAQCILLAR" AYƏSİ . . . . . . 245
*Bəhsə qısa bir nəzər* . . . . . . 245
*İslamın qabaqcılları* . . . . . . 246
*Birinci müsəlman olan kişi* . . . . . . 248
*Həddi-büluğdan qabaqkı imanın dəyəri* . . . . . . 251
*"Birinci mömin" olmaq böyük bir imtiyazdır* . . . . . . 254
*Fəzilətlərin tanınması əməl üçün bir müqəddimədir* . . . . . . 256
9 "MƏHƏBBƏT" AYƏSİ . . . . . . 258
*Bəhsə qısa bir nəzər* . . . . . . 258
*Qəlblərə nüfuz etmək rəhbərlərin ən mühüm sərmayəsidir* . . . . . . 259
*İman və saleh əməlin qəlblərə nüfuz etməklə rabitəsi* . . . . . . 260
*"Məhəbbət" ayəsinin nazilolma səbəbi* . . . . . . 261
*Bəhs etdiyimiz ayə barəsində digər təfsirlər* . . . . . . 263
*Şiə nurlu çıraqdır* . . . . . . 264
*1. Hamının qəlbinə nüfuz etmək* . . . . . . 264
*2. Saleh əməlin əhatə dairəsi* . . . . . . 266
10 "SABİQUN" (ÖNCÜLLƏR) AYƏSİ . . . . . . 267
*Bəhsə qısa bir nəzər* . . . . . . 267
*"Vaqiə" surəsinin möhtəvası (əhatə dairəsi)* . . . . . . 268
*"Sabiqun" (oncüllər) kimlərdir?* . . . . . . 269
*Həzrət Əli (ə) "Sabiqun"un ən kamil misdaq və nümunəsidir* . . . . . . 269
*Peyğəmbərin (s) dili ilə "sabiqun"un təfsiri* . . . . . . 271
11 "UZUNUN-VAİYƏ" (EŞİDİB YADDA SAXLAYAN QULAQ) AYƏSİ . . . . 273
*Bəhsə qısa bir nəzər* . . . . . . 273
*Peyğəmbərlərin əhvalatları* . . . . . . 274
*"Uzunun vaiyə" (eşidib yadda saxlayan qulaq) sahibi kimdir?* . . . . . . 275
*Şeyx Ruzbəhanın sözlərindəki ziddiyyət* . . . . . . 277
*Fəxri Razidən zərif bir mətləb* . . . . . . 277
*Əli (ə) haqq ilə, haqq da Əli (ə) iladir* . . . . . . 278
*Peyğəmbərin (s) həzrət Əlinin (ə) barəsindəki duası* . . . . . . 279
*Həzrət Əli (ə) ən yaxşı qazidir (hakimdir)!* . . . . . . 279

12 "SALEHUL-MUMİNİN" (MÖMİNLƏRİN ƏMƏLİSALEHİ) AYƏSİ...... 282

*Bəhsə qısa bir nəzər* ........ *282*
*Ayənin nazilolma səbəbi* ........ *283*
*Peyğəmbərin (s) köməkçiləri* ........ *284*
*"Salehul-muminin" kimdir?* ........ *286*

13 "İNZAR VƏ HİDAYƏT" (QORXUTMA VƏ HİDAYƏT) AYƏSİ......... 289

*Bəhsə qısa bir nəzər* ........ *289*
*Yenə də bəhanə axtarışında* ........ *290*
*Ayənin əvvəli ilə axırındakı tənasüb* ........ *290*
*"Munzir" (qorxudan) və "hadi" (hidayətçi) kimdir?* ........ *292*
Birinci yol: Ayəni rəvayətləri nəzərə almadan təfsir etmək ........ 292
İkinci yol: Ayənin rəvayətlər sayəsində təfsiri ........ 293
*"Vilayət" və "İnzar" ayələrinin verdiyi mesajlar* ........ *295*
*1. Təəssüb və inadkarlıq iki böyük maneədir* ........ *296*
*2. Hidayət olunanın hidayət edənə iqtida etməsi (təqlidi)* ........ *297*

14 "XƏYRUL-BƏRİYYƏ" (YARADILMIŞLARIN ƏN YAXŞILARI) AYƏSİ . 299

*Bəhsə qısa bir nəzər* ........ *299*
*İnsanların ən pisi və ən yaxşısı* ........ *300*
*Rəvayətlərdə "Xəyrul-bəriyyə"* ........ *302*
*"Xəyrul-bəriyyə" ayəsinin verdiyi mesajlar* ........ *305*
*1. İslami dəyərlər sistemi* ........ *305*
*2. Şiənin meydana gəldiyi tarix* ........ *307*
*3. "Şiə" sözü hansı mənadadır?* ........ *308*

15 "HİKMƏT" AYƏSİ ........ 311

*Bəhsə qısa bir nəzər* ........ *311*
*Hikmət hədsiz xeyirdir* ........ *312*
*Həzrət Əli (ə) hikmət sahibidir* ........ *313*
*Həzrət Əlinin (ə) elminin əhatə dairəsi* ........ *314*
*1. İmam Əlinin mərcə (müraciət mənbəyi) olması* ........ *314*
*2. İmam Əli (ə) Peyğəmbərin (s) elm şəhərinin qapısıdır* ........ *315*
*3. İmam Əli (ə) və Təfsir elmi* ........ *315*
*4. İmam Əli (ə) Nəhv elminin əsasını qoyanlardandır* ........ *315*
*5. İmam Əli (ə) və Kəlam (əqaid) elmi* ........ *316*
*6. İmam Əli (ə) və Fiqh elmi* ........ *316*
*7. İmam Əli və həqiqət (batin) elmi* ........ *316*
*8. İmam Əli (ə) və Peyğəmbərə (s) canişinlik* ........ *317*
*İstifadə edilən mənbələr* ........ *319*
*Mündəricat* ........ *322*